RAFİQ BƏY İSMAYİL
NƏRGİZ AXUNDOVA
AİDA BAĞIROVA

# ƏRƏB ÖLKƏLƏRİNİN ÇAĞDAŞ TARİXİ

I hissə – Asiyanın ərəb ölkələri

Elmi nəşr

13582
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI-2013

Bakı Dövlət Universitetinin Tarix fakültəsi
Elmi Şurasının qərarı ilə çap olunur.

**Elmi redaktor:** akademik **N.M.Vəlixanlı**
**Redaktor:** dosent **Q.Ş.Davudov**

**Rəyçilər:** AMEA Şərqşünaslıq İnstitutunun Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsi

AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrası

Kitab Rafiq Bəy İsmayılın rəhbərliyi və redaktəsi altında hazırlanmışdır

Rafiq Bəy İsmayıl, Nərqiz Axundova, Aida Bağırova. Ərəb ölkəkərinin çağdaş tarixi. I hissə. Elmi nəşr. Bakı: "Xəzər Universiteti" nəşriyyatı, 2013 – 400 s.

Kitab Asiya ərəb ölkələrinin 1900-2013-cü illəri ehtiva edən tarixindən bəhs edir. Burada hər bir ölkənin ümumi və xüsusi cəhətləri ayrılıqda öyrənilir, siyasi və sosial-iqtisadi həyatda baş verən proseslər araşdırılır. Onların inkişaf istiqamətlərini müəyyənləşdirən daxili və xarici amillərin rolu və yeri təhlil olunur.

Kitab ərəb ölkələrinin tarixi ilə maraqlanan tələbə, magistr, doktorant, elmi işçi, müəllim və politoloqlar üçün nəzərdə tutulmuşdur.

**İSBN** 978-9952-8209-5-9

© RAFİQ BƏY İSMAYİL
© NƏRGİZ AXUNDOVA
© AİDA BAĞIROVA

## GİRİŞ

Günümüzdə dünyanın siyasi xəritəsində, - Fələstin muxtariyyətini də nəzərə alsaq, - iyirmi bir ərəb dövləti bərqərar olmuşdur. Onların hər birinin bəlli paytaxtı, tənzimlənmiş və toxunulmaz sərhədləri var, hər birisi dövlət olaraq ayrılıqda mövcuddur, müstəqil siyasi və iqtisadi inkişaf yolu ilə irəliləməkdədir. Bu ayrılıqla yanaşı, ərəb ölkələrinin özünəməxsus təbii və tarixi birliyi və bütövlüyü də vardır: onların hamısı bütün və bütöv bir coğrafiyada, vahid bir millətin dövlətləri olaraq mövcuddur. Əhalisinin 90%-i ərəb və qeyri-ərəb müsəlmandır, 10%-i isə digər konfessiyalara, əsasən xristianlığa mənsubdur və onların da mütləq əksəriyyəti ərəbdir. Başqa sözlə, bu bölgədə yaşayan 300 mln civarında insanın böyük çoxluğu ərəbdir və müsəlmandır, bütün dövlətlərin rəsmi dili də vahid ərəb dilidir. Əhali isə daha çox ərəb dilinin yerli ləhcələrində, qismən də mənsub olduğu etnosun dilində, - qibti, bərbər və s. kimi, - danışır. Bu birlik və bütövlüyün təcəssümü isə ərəb ölkələrinin hamısının Ərəb Dövlətləri Liqasında [Camiyyə(t) əl-Düvəl əl-Ərəbiyyə] bərabər hüquqlu üzv kimi təmsil olunmasıdır, bu təşkilat çərçivəsində istər ərəblərarası, istərsə də uluslararası problemlərin çözülməsində razılaşdırılmış mövqelər sərgiləməsidir.

Ərəb ölkələrinin çağdaş tarixinin ehtiva olunduğu bu kitabın çapa hazırlandığı ərəfədə bölgənin ümumi mənzərəsi belə idi və araşdırılan dövrün başlanğıcında mövcud olan durumdan köklü şəkildə fərqlənirdi. Bu fərqlilik öz ifadəsini onda tapırdı ki, sözügedən zaman kəsimində, daha dəqiq desək, XX əsrin başlanğıcında nəinki ərəb coğrafiyasında, genəllikdə dünyanın hər bir bölgəsində fərqli hərbi-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi durum vardı. Bu o dövr idi ki, başlanğıcı XV-XVI yüzilliklərin Böyük Coğrafi kəşfləri ilə qoyulan avropalıların Asiya, Afrika və Amerika torpaqlarını işğal etməsi və müstəmləkə halına salması prosesi yekunlaşmışdı, bir sıra iri müstəmləkə imperiyaları yaranmışdı. XIX yüzilliyin sonlarında dünya faktik olaraq iki yerə bölünmüşdü. Bir tərəfdə müstəmləkəçi dövlətlərin dünyaya diqtə edən və Batı adı ilə tanınan güc mərkəzi vardı. O, Böyük Britaniya, Fransa, Almaniya, Rusiya, ABŞ, İtaliya, İspaniya və digər Batı Avropa dövlətlərini ehtiva edirdi və dünya onların iradəsi ilə idarə olunurdu. Dünyanın qalan hissəsi isə müstəmləkələrdən və asılı dövlətlərdən ibarət idi. Onların da sırasında yalnız Osmanlı və Qacarlar dövləti, bir də Uzaq Doğuda Yaponiya öz siyasi varlıqlarını qoruyub saxlaya bilmişdilər və Ba-

tının diqtələrinə, qismən də olsa, müqavimət göstərməyə çalışırdılar. Bununla belə, heç bir xalq və heç bir ölkə Batı sivilizasiyası, - Afrika cəngəllikləri istisna olunarsa, - təsirindən kənarda qalmamışdı.

Ancaq dünyanın bu şəkildə bölünməsi və yaranmış status-kvonun dəyişilməz qalması tərəflərdən heç birini razı salmırdı: birincisi, müstəmləkə və asılı hala salınmışlar Batının diqtəsinə dözmürdülər və ona qarşı idilər; ikincisi, Batının imperialist dövlətlərinin öz arasında hələ işğal olunmamış torpaqları, eləcə də asılı vəziyyətdə olan dövlətlərin ərazilərini ələ keçirtmək, daha çox da bölünmüş dünyanı yenidən bölmək uğrunda mübarizə amansız xarakter almışdı. Dünya savaşlar prosesinə sürüklənirdi və bunun ilk təzahürü 1904-1905-ci illər yapon-rus toqquşması oldu. Bu hadisə çağımızda mövcud olan yeni dünya düzəninin qurulması yolunda ilk addım sayıla bilər. Fikir verin: tərəflərin biri Uzaq Doğuda dominantlığa can atan imperialist Rusiyadır, ikincisi müstəmləkə və asılı ölkələrin sırasından çıxmış və yüksəlməkdə olan Yaponiyadır. O, Böyük Britaniyadan hərbi-siyasi dəstək, ABŞ-dan isə maddi yardım alır və qalib gəlir. Sonucda ABŞ-ın vasitəçiliyi ilə onun Port-Smut şəhərində 1905-ci ilin sentyabr ayında tərəflər arasında müqavilə bağlanır. Həmin tarixdən günümüzə qədərki dünya tarixinə nəzər salsaq, görərik ki, sözügedən prosesin süjeti və fiqurantları dəyişilməz qalmışlar və qalmaqda da davam edirlər. Təbiidir ki, zamana, məkana və şəraitə görə müəyyən əlavə və dəyişikliklər də istisna deyildir.

Bəs bütün dünyada müstəmləkəçi imperialist dövlətlərin tarixin gedişinə diqtə etdiyi və yer üzünün bütünlükdə kapitalist münasibətləri çərçivəsinə salınması prosesinin dönməz xarakter aldığı bu dövrdə ərəb ölkələrinin durumu necə idi?

Bəlli olduğu kimi, XVI əsrin 20-ci illərindən bütün ərəb ölkələri, Mərakeş istisna olmaqla, Osmanlı imperatorluğunun tərkibində idi. Lakin onlar XX əsrin ortalarından Batının Böyük Britaniya, Fransa, İspaniya və İtaliya kimi dövlətlərinin müxtəlif şəkildə hədəfinə çevrilmişdi. Öncə Əlcəzair və Mərakeşin bir hissəsi Fransa tərəfindən, ardınca isə Misir (1892-ci ildə) Böyük Britaniyanın işğalına məruz qaldı. Genəlliklə isə Süveyş kanalının açılmasından (1869-cu il) sonra Böyük Britaniya Ərəbistan yarımadasının güneyində xeyli fəallaşmış və XX əsrin başlanğıcına kimi Ədən də daxil olmaqla bölgənin əksər əmirlik və şeyxliklərində dominant bir rola malik idi. 1900-cu ildən isə Fransa Mərakeş və Tunisi, İtaliya Tarablusu,- ölkə hələ Libiya adlanmırdı, -ələ keçirmək uğrunda hərbi əməliyyatlar aparırdı. On-

lar sonucda öz məqsədlərinə nail oldular. Ərəblər Batı sivilizasiyası içinə alındı. Ərəb ölkələrinin Cəbəllütariqdən başlayaraq Bəsrəyədək uzanan bütün sahil zonaları Batı Avropa dövlətlərinin əlinə keçdi.

Doğrudur, istər Osmanlı hakimiyyəti, istərsə də yerli xalq avropalı işğalçılara qarşı müqavimət göstərməyə çox çalışırdılar, lakin onların cəhdləri uğurla nəticələnmədi. Bunun da təməlində həmin dövrdə hərbi-siyasi və iqtisadi baxımdan xeyli zəifləmiş Osmanlı dövlətinin onu çökdürməyə çalışan düşmən qüvvələrin çəmbəri içinə alınması idi. Elə bu da imkan verdi ki, avropalılar işğal etdikləri ərəb torpaqlarında öz mövqelərini asanlıqla möhkəmləndirə bilsinlər. Beləliklə də bölgənin tarixində keyfiyyətcə yeni dönəmin əsası qoyuldu.

Ərəblərin tarixində önəmli rol oynayan Osmanlı-türk faktoru varlığının düz dörd yüz ili tamam olanda Batı –batılı faktoru ilə əvəzləndi. Sonucda müsəlman dünyasının əsrlərcə bir çatı altında birlikdə və bərabər yaşayan iki böyük etnosunun ayrılması qaçılmaz oldu. Ərəblərin Batı ölkələri ilə ilişgilərinin yaranması və genişlənməsi onların inkişafına fərqli təzahürlər gətirdi. Bunlardan da ən maraqlısı bir və bütöv olan vahid ərəb millətinin iyirmi bir,- artması ehtimalı istisna olunmaya bilər, - dövlətinin qurulmasıdır.

Sözügedən zaman kəsimində ərəb ölkələrinin daxili durumuna gəlincə, onların hamısında Osmanlı imperatorluğu üçün xarakter olan hal hakim idi. İmperiyanın siyasi və iqtisadi tənəzzülü onun ərəb əyalətlərində daha çox müşahidə olunurdu. Doğrudur, hələ Aralıq dənizinin Asiya yaxasında yerləşən Suriya, Lübnan, Fələstin, eləcə də İraq sultan tərəfindən təyin olunmuş vali və məmurlar tərəfindən idarə edilirdisə, Ərəbistan yarımadasındakı ölkə və şeyxliklər faktik olaraq Osmanlı hakimiyyətinin zəifləməsi zəminində güclənmiş yerli qəbilə-tayfa liderlərinin tabeçiliyində idi. Onların da çoxu, özəlliklə də sahilyanı bölgələr Böyük Britaniya ilə işbirliyi və tərəfdaşlığa meylli idi. Quzey Afrikanın ərəb ölkələrində isə, Osmanlı hakimiyyətinin varlığı əhəmiyyətini itirmişdi. Burada öncədən də hakimiyyətdə təmsil olunan yerli sülalələr Batı dövlətlərinin iradəsini yerinə yetirməklə məşğul olurdular. Əlcəzair 1830-cu illərdən Fransanın əyalətinə çevrilmişdi.

Bölgənin iqtisadi həyatı əsasən aqrar bölgədən ibarət idi. Burada torpaqların dövlət və feodalların əlində cəmləşməsi və onun icarədar kəndlilər tərəfindən becərilməsi ənənəsi dəyişməz olaraq qalırdı. Arxaik qayda-qanunların mövcudluğu, təbiidir ki, aqrar təkamül prosesini ləngidir, əmtəə-pul münasibətlərinin genişlənməsinə mane olurdu. Bu hal sənaye bölgəsi

üçün də xarakter idi. O, xırda-para bir neçə ilkin emal müəssisəsi xaricində, - bunların da əksəriyyəti əcnəbilərə məxsus idi, - ənənəvi sənətkarlıqdan ibarət idi. İstər aqrar, istərsə də sənaye bölməsində çalışan insanların iş və həyat şərtləri və şəraiti ağır, əmək haqları isə az idi. Daxili və xarici ticarət də ənənəvi xarakterini çox az dəyişmişdi.

Ərəb ölkələrinin Avropa dövlətləri tərəfindən tutulması onları təkcə siyasi cəhətdən deyil, həm də iqtisadi cəhətdən müstəmləkə və asılı duruma saldı. Ərəb ölkələri müstəmləkəçi dövlətlərin satış bazarına və xammal bazasına çevrildi, ucuz işçi qüvvəsi ixracatçısı və kapital idxalçısı oldu. Batılılar bu işlərin icrası üçün ərəb ölkələrində gərək olan infrastruktur yaratdılar. Banklar açıldı, maliyyə-kredit və sığorta sistemi quruldu. Onların vasitəsi ilə avropalılar ərəb ölkələrində müəyyən sənaye və ticarət obyektlərinin, Əlcəzair, Mərakeş və Tunisdə geniş torpaq sahələrinin mülkiyyətçilərinə çevrildilər, metropoliyaya ixrac olunan xammal və məmulatları öz inhisarlarına aldılar. İraqdan arpa, Quzey Afrikanın ərəb ölkələrindən zeytun və Misirdən həm də pambıq, duz ixracı Böyük Britaniya və Fransa müstəmləkəçilərinin müstəsna hüququ oldu. Almaniya İraqda Bağdad dəmir yolu layihəsinin icrasına başladı.

Təbiidir ki, bütün bunların nəticəsində ərəb ölkələrində bir tərəfdən kapitalist münasibətləri təşəkkül tapır, genişlənir, onların dünya iqtisadiyyatı ilə inteqrasiyası yaranır və möhkəmlənirdi, o biri tərəfdən həmin ölkələrdə yeni tipli istehsalçı, istehlakçı və məmurlar zümrəsi meydana çıxır, kəmiyyətcə və keyfiyyətcə artırdı. Burjua və işçi təbəqələri, tədricən də olsa, cəmiyyətdə öz yerlərini tutur, sosial düşüncəyə və siyasi həyata yeni və fərqli çalarlar gətirirdilər. Bu da öz ifadəsini vətəndaş cəmiyyəti və demokratik təsisatların olmadığı ərəb məkanına vətəndaşlıq hissləri, hüquq və borcunun dərk edilməsində, vətənpərvərlik, millətçilik, liberalizm və demokratizm ovqatının təşəkkül tapmasında, siyasi həyatın bir parçasına çevrilməsində tapırdı. Təbiidir ki, bu təzahür təkcə ərəb ölkələri üçün deyil, bütünlükdə həmin dövrdə müstəmləkə və asılı durumda olan hər bir ölkə üçün xarakter idi. Onu da qeyd etmək istərdik ki, ərəb ölkələrində həmin təzahürün açıq-aşkar şəkildə üzə çıxması və təşəkkülü onların əsrlər boyunca bütün cəhətlərdən bağlı olduğu Osmanlı dövlətinin mərkəzində baş verən proseslərin, - digər amillərin varlığı da inkar olunmamalıdır, - güclü və birbaşa təsiri altında cərəyan etmişdir. Özəlliklə də XIX əsrin sonlarında "İttihad və Tərəqqi" (1894-cü il) və başqa siyasi təşkilatların yaranması və

onların konstitusiyalı monarxiya uğrunda mübarizəsi, daha çox da "Gənc Türklər"in milli azlıqların haqq və azadlıqlarının tanınması vədini verməsinin əhəmiyyəti böyük olmuş, ərəb dünyasında milli dirçəlişə təkan vermişdi. Həmin səbəbdən idi ki. 1908-ci ildə Gənc Türklər hərəkatının qələbə çalması ərəb əhali tərəfindən ruh yüksəkliyi ilə qarşılandı, ərəb məkanında bir sıra proseslərə, o cümlədən siyasi təşkilatlanmanın genişlənməsinə zəmin yaratdı. Ərəb millətçiləri Gənc Türklərlə tərəfdaşlıq etməklə ərəb dünyasının mövcud olan problemlərinin həllində onların köməyinə arxalanmaq yolunu tutdular. Məhz bu dövrdə ərəb milli hərəkatının mərkəzi Batı mühacirətindən İstanbula köçürüldü. 1908-ci ilin sentyabrında ərəblərin ilk kütləvi təşkilatı - "Ərəb-Osmanlı Qardaşlığı" quruldu. Lakin çox keçmədi ki, ərəb millətçilərinin Gənc Türklərə olan ümidləri itməyə başladı, parlament seçkiləri zamanı ilk zərbə aldı. Parlamentdə ərəblərin nisbətən az sayda yer tutması onları qane etmədi və Gənc Türklərin mövqelərindən uzaqlaşmaq qərarına gəlindi, Gənc Türklərin milli siyasəti ərəb millətçilərinin müxalifətə keçməsi ilə nəticələndi, onların fəaliyyəti yüksələn səviyyədə Gənc Türklərin timsalında Osmanlı hakimiyyətinə qarşı yönəldi. Leqal siyasi təşkilatların qadağan olunması isə ərəb siyasətçilərinin taktikasında dəyişikliklərə gətirdi. Onlar gizli fəaliyyət göstərən bir sıra təşkilat qurdular. "Ədəbi klub", "Qahtaniyyə" və s. kimi təşkilat və cəmiyyətlər işə başladı. 1911-ci ildə Parisdə təhsil alan tələbələr və məzunlar "Gənc Ərəblər" cəmiyyətini yaratdılar. Onun mili proseslərdə rolu böyük oldu. Ərəb ölkələrinin bir sıra gələcək dövlət xadimləri öz fəaliyyətlərinə məhz bu cəmiyyətdə başladılar. Onların ideya və düşüncələrinin təkamülü nəticəsində təşkilat ərəblərin hətta tam müstəqilliyi tələbini irəli sürdü. Vətənə qayıdan gənc ərəblər öz bölgələrində siyasi fəaliyyətlə məşğul olmağa və 1913-cü ildən ərəblərin bütün milli partiyalarının və təşkilatlarının birləşməsi ideyası ilə çıxış etməyə başladılar.

Qeyd edək ki, 1912-1913-cü illərdə beynəlxalq vəziyyət də ərəb millətçilərinin xeyrinə işləyirdi. Özəlliklə də Balkan və Tarablus müharibələrində uğursuzluqlar Osmanlı imperiyasının daxili və xarici mövqelərini daha da zəiflətdi. O cümlədən ərəb əhali arasında siyasiləşmə meylləri artdı və geniş əhali kütləsi bu prosesə qoşuldu. Suriya, Lübnan və İraq əhalisi Osmanlı imperiyasının müəyyən islahatlar keçirməsi tələbi ilə çıxış etdi. Bu zəmində bir sıra leqal fəaliyyət göstərən cəmiyyət və komitə - Beyrutda "İslahatlar liqası" və "Lübnan Dirçəlişi", Bağdadda "Milli Elmi Klub", Bəsrədə "İslahatlar Cəmiyyəti" və digərləri muxtariyyət tələbini irəli sürdülər. Onların

çoxu Misirdə, ABŞ-da, Fransada və s. ölkələrdəki ərəb mühacir mərkəzləri ilə daimi sıx əlaqələr saxlayır və işbirliyində idilər. Həmin təşkilatlardan ən nüfuzlusu olan Beyrut "İslahatlar liqası" 1913-cü ilin əvvəllərində islahatlar layihəsini dərc etdi. Bu layihə ərəb dünyasının böyük şəhərlərində kütləvi nümayişlər zamanı dəstəkləndi. İslahatlar uğrunda mübarizənin vüsət alması 1913-cü ilin 5 mayında Gənc Türklər hökumətinin vilayətlər haqqında yeni qanun qəbul etməsi ilə nəticələndi. Qanuna görə vilayət şuralarının səlahiyyətləri xeyli genişləndi. Lakin ərəb millətçilərinin bir çox tələbləri yenə də qəbul edilməmiş qaldı.

Bu arada Parisdə təhsil alan ərəb tələbələrinin bir qrupu bütün milli qüvvələri özündə birləşdirən bir təşkilatın yaranması təşəbbüsü ilə çıxış etdilər. 1913-cü ilin yayında 24 nümayəndənin və 200-dən çox qonağın iştirakı ilə konqres toplandı. Toplantıda ərəblərin milli haqlarının tanınması və onların mərkəzi hökumətdə təmsil olunması, ən başlıcası isə, Osmanlı imperiyası tərkibindəki ərəb vilayətlərinə muxtariyyət verilməsi tələbləri irəli sürüldü. 18 avqust 1918-ci ildə Gənc Türklər hökuməti ərəblərin haqlarına dair bəyannamə qəbul etdi. Eyni zamanda 5 ərəb nümayəndə Osmanlı parlamentinin senatorları təyin olundu.

Lakin bu tədbirlər ərəb millətçilərini razı salmadı. Onlar 1913-cü ilin ortalarında Gənc Türklər hökuməti ilə hər hansı bir anlaşmanın mümkünsüzlüyü qənaətinə gəldilər. Həmin ilin payızından etibarən "Qahtaniyyə" cəmiyyətinin əsasında yaranan "əl-Əhd" gizli təşkilatı məsələlərin ümumərəb üsyanı vasitəsilə həll edilməsi yolunu tutdu. 1914-cü ildə isə ərəb siyasi təşkilatları və gizli cəmiyyətlərin əksəriyyəti də silahlı üsyanı özlərinə əsas hədəf seçdi. Üsyana hərtərəfli hazırlaşmaq üçün onlar batı dövlətlər səfirlikləri vasitəsilə Böyük Britaniya və Fransa məxfi xidmətləri ilə əlaqə yaratdılar, lazım olan silah və maddi yardım aldılar.

Fəqət, çox az sonra bəlli oldu ki, Osmanlı dövlətinə qarşı mübarizədə millətçi ərəb qüvvələrinə yardımlar göstərən Avropa dövlətlərini ərəblərin istiqlal düşüncəsi və istəkləri yox, onların ölkələrinin bir Osmanlı mirası kimi öz aralarında necə bölüşdürüləcəyi planları maraqlandırır. Həmin planlar 1916-cı ildə məşhur Sayks-Piko sazişində öz əksini tapdı və ərəb dövlətinin yaradılması nəzərdə tutulan torpaqların Fransa və Böyük Britaniya arasında hansı şəkildə bölünməsi razılaşdırıldı. Sazişə əsasən Batı Suriya, Lübnan, Kilikiyə və Anadolunun güney-doğu hissəsi (mavi zona) Fransa, İraqın güney və mərkəz bölmələri, Fələstin Hayfa və Əkkə limanla-

rı ilə birlikdə (qırmızı zona) Böyük Britaniya nəzarətinə verilməli idi. Fələstinin qalan hissəsində "Qəhvəyi zona" beynəlxalq idarəçilik qurulurdu. Suriyanın doğusu və Mosul vilayəti Fransanın (A zonası), Urdun çayının doğu sahili və Bağdad vilayətinin guzey hissəsi isə (V zona) Böyük Britaniyanın nüfuz dairəsinə çevrilirdi. Antantanın üçüncü üzvü Rusiya ərəb ərazilərinə iddialarla çıxış etmirdi, lakin müttəfiqlərin planlarına dəstək verilməsi müqabilində ona Osmanlı "erməni" və "kürd" vilayətləri (sarı zona), İstanbulla bağlı müəyyən hüquqlar verilməli, Fələstində yaşayan provaslavların maraqlarının qoruyucusu statusu təsdiq edilməli idi. Bundan başqa, Van gölü bölgəsi də "sarı zona"ya salındı. Bir müddət sonra İtaliyanın bu sazişə qoşulmasından sonra xəritədə "yaşıl zona" - Anadolunun guney-batı hissəsi və C zona (Batı və Mərkəzi Anadolu) meydana gəldi.

I dünya müharibəsinin gedişində Yaxın Doğuda da hərbi əməliyyatlar aparılırdı. Osmanlı orduları burada da bir neçə istiqamətdə hərəkətə keçmək zorunda qaldı. Eyni zamanda ümumərəb üsyanına hazırlıq da gündəmə gəldi. 1915-1916-cı illərdə ingilislər Hicazda osmanlılara qarşı böyük üsyan hazırladılar. Bunun başçısı kimi onlar Haşimilərə üstünlük verdilər. Həşimilərin lideri Hüseyn əl-Haşimi müəyyən tərəddüdlərdən sonra bu işbirliyinin müqabilində ingilislərlə gələcək ərəb dövlətinin hüdudlarının təsdiqi tələbini irəli sürdü. Həmin tələblər məktublar formasında Hüseyn-Mak-Maqon (Misirdə ingilislərin ali hərbi komissarı) razılaşması kimi tanındı. Mak-Maqon Haşimilərin idarəçiliyi altında müstəqil ərəb dövlətinin hüdudlarının tanınması vədini verdi. Lakin bəzi istisnalar da irəli sürdü: Ərəbistan yarımadasında ingilis protektoratının qurulmasını Batı Suriya, Lübnan və Kilikiya ərazilərinin həmin hüdudlardan çıxarılmasını istədi. Bəsrə və Bağdad vilayətləri isə ərəb dövlətinin çərçivəsində qalsa da, ingilislər tərəfindən idarə olunmalı idi.

1916-cı ilin iyununda ərəblər Hicazda üsyana başladılar. Tez bir zamanda Ərəbistan yarımadası osmanlılardan azad edildi. 27 iyunda Hüseyn bütün müsəlman dünyasına ünvanlanan müraciəti ilə ərəblərin müstəqilliyini bəyan etdi və öz proqramını irəli sürdü. Bundan dərhal sonra o, ərəb dövlətinin yaradılması üçün bir sıra addımlar atdı. 1916-cı ilin 2 noyabrında ərəb feodalları və tayfa başçılarının Məkkədə çağırılan toplantısında Hüseyn ibn Əli müstəqil ərəb dövlətinin yaradılmasını və özünün onun kralı elan etdi.

Eyni zamanda Antanta dövlətləri arasında da ərəb ərazilərinin bölüşdü-

rülməsi haqqında məxfi danışıqlar başladı. Nəticədə yalnız Hicaz daxilində ərəblərin tələblərinə razılıq verildi. İngilislər Hüseyni Hicaz kralı kimi tanıdılar. O ki qaldı vahid ərəb dövlətinin yaradılması ideyasına, o ancaq kağız üzərində qaldı, dünyanın siyasi xəritəsində əks olunmadı.

İngilis-fransız ordularının İraq, Suriya və Fələstin ərazilərində türklərə qarşı döyüşlərə girməsi və Fələstinin ingilislər tərəfindən tutulması ərəblərə vəd edilmiş müstəqillik məsələsini yenidən gündəmə gətirdi. Böyük Britaniya həmin vədlərdən boyun qaçırmaq üçün hələ XIX əsrdən Fələstinə təşkil olunan yəhudi axınından və burada məskunlaşmasından istifadə etməyə çalışırdı. 1917-ci ilin fevralında Sayks ingilis hökumətinin tapşırığı ilə bəzi sionist liderləri ilə əlaqələr qurdu və aparılan danışıqlar nəticəsində tərəflərin mövqelərinin tam üst-üstə düşməsi aydın oldu. 2 noyabr 1917-ci ildə Böyük Britaniya hökuməti Fələstin siyasətinə dair Bəyannamə ilə çıxış etdi. Tarixə Balfur Bəyannaməsi kimi daxil olan sənəddə Fələstində yəhudi milli ocağının yaradılması və onun gerçəkləşməsi üçün ingilis hökuməti tərəfindən hər cür yardım və dəstək göstərilməsi elan edildi.

I dünya müharibəsindən sonra Millətlər Liqası nizamnaməsinin 22-ci bəndinə əsasən keçmiş Osmanlı imperiyasının "müharibə nəticəsində əvvəlki idarə üsulunun nəzarətindən kənarda qalan, lakin müstəqil idarəçiliyə hazır olmayan" bəzi ərəb ərazilərinə mandat sistemi şamil edildi. Böyük Britaniya və Fransa həmin ərəb vilayətlərini mandat əraziləri kim ələ keçirdi.

Bu ərazilər suverenlikdən məhrum edilmiş yeni dövlətlərin sərhədləri boyunca parçalanmış hala salındı. Beləliklə, Asiyanın ərəb ölkələrində də Quzey Afrikanın ərəb ölkələrində olan status-kvo bərqərar edildi.

Ərəb ölkələrinin siyasi həyatında baş verən bu dəyişiklik digər sahələrə də öz təsirini göstərdi. Ərəb cəmiyyətinin sosial-iqtisadi strukturu, ləng də olsa, tədricən yeniləşməyə başladı. Ərəb ölkələrində başdan-başa hakim olan feodal, feodal-patriarxal və kapitalizmə qədərki digər münasibətlər kapitalist münasibətləri ilə əvəzlənmə prosesinə girdi, milli burjuaziyanın ölkə taleyinin həllində yeri və rolunun yüksəldilməsi davamlı xarakter aldı. Sənaye müəssisələri və iri ticarət şirkətlərinin sayı artır, orada işləməyə cəlb olunanların yeni peşə və ixtisaslara yiyələnməsi təcrübəsi genişlənirdi. Təbiidir ki, bu da ümumi və ya xüsusi təhsilə ehtiyac yaradır, yeni təhsil sisteminin qurulmasını zəruri edirdi.

Bu cür dəyişikliklər prosesi aqrar həyat üçün də xarakter idi. Bunu xüsusi vurğulamaq istərdik ki, aqrar sahə ərəb ölkələrinin həyatında ciddi

bir amil olaraq qalırdı, əhalinin mütləq əksəriyyətini kəndlilər təşkil edirdi. Onlar güclü bir sosial qüvvə kimi olaraq qalırdılar. Təsadüfi deyildir ki, sözügedən dövrdə baş verən siyasi və sosial xarakterli bir çox hərəkatların başlıca bazası kəndlər və kəndlilər, rəhbərləri isə feodallar sırasından çıxmış şəxslər olmuşlar.

Sözügedən dövrdə ərəb cəmiyyətində baş verən ən mühüm dəyişikliklərdən birisi, bəlkə də birincisi, ərəb dövlətlərinin dünyada cərəyan edən proseslərə daha yaxından və daha əhatəli cəlb olunması idi. Belə ki, I dünya savaşından az sonra arzu və istəklərinə çatmayan müstəmləkə dünyası istiqlal uğrunda üsyanlara bürünəndə, ərəblər də sıradan geri qalmadılar. 1919-cu ildə Misirdə, 1917-1932-ci illərdə Libiyada, 1921-1926-cı illərdə Mərakeşdə, 1920-ci ildə İraqda və 1925-1927-ci illərdə Suriyada baş verən üsyanlar buna misal ola bilər.

XX əsrin 30-cü illərində Böyük Britaniya, Fransa, Hollandiya və s. ənənəvi müstəmləkəçi dövlətlərlə I dünya savaşı sonucunda müstəmləkələrini itirmiş Almaniya, ya da "maraq"ları tam ödənilməmiş Yaponiya və İtaliya kimi dövlətlər arasında ziddiyyətlərin kəskinləşdiyi zamanda ərəb millətçi liderlər "Düşmənimin düşməni mənim dostumdur" düşüncəsinə uyğun hərəkət etmək kursuna üstünlük verdilər. Bu məsələdə Böyük Britaniyanın Fələstinə yəhudi köçlərinin təşkili sahəsindəki sionistpərəst siyasəti də az rol oynamamışdır.

II dünya savaşı ərəfəsi və savaşın ilk illərində ərəb ölkələrində bir sıra siyasi partiya liderləri və siyasi xadimlərin alman-italyan siyasi qüvvələri ilə açıq-aşkar yaxınlığı var idi. Lakin müharibənin gedişində durumun Almaniya və İtaliyanın əleyhinə dəyişməsi ilə ərəblər də siyasətdən üz döndərdilər.

Ərəb ölkələrinin II dünya savaşından sonrakı tarixinə gəlincə, göstərmək istərdik ki, bu dövr öz məzmunu və regionda baş verən proseslərin xarakteri baxımından Asiya və Afrikanın digər asılı və müstəmləkə ölkələrinin tarixindən fərqli deyildir. Əgər müəyyən bir fərq varsa, bu, ancaq regional və milli xüsusiyyətlərdən qaynaqlanır və belə fərqləri elə ərəb ölkələrinin ayrılıqda hər birinin yaşadığı ictimai proseslərin gedişində də müşahidə etmək olar. Ancaq bunlar ərəb ölkələrini dünya tarixinin ümumi qanunauyğunluqlarından və ümumi axarından təcrid etmirdi. Əksinə, II dünya müharibəsindən sonrakı dövrdə ərəb ölkələri getdikcə daha çox dəyişən dünyamızın dəyişən şərtləri içərisində yaşamaq ənənələrinə yiyələndi,

çağdaş dünyamızın daha üzvi bir parçası oldu, dünya problemlərinin, özəlliklə regional problemlərin həllində öz səsi və yeri olan qüvvəyə çevrildi. Təbiidir ki, bunun üçün uzun və çətin bir tarixi yol keçilmişdir, mövcud olan və ya qarşıya çıxan problemlərin həlli yolunda siyasi və milli iradə meydana qoyulmuşdur. Doğrudur, çağımızda ərəb ölkələrinin bütün problemlərinin həll edildiyini də söyləmək olmaz. Amma tam iftixarla demək olar ki, başlıca problemlər çözülmüşdür, bütün ərəb ölkələri öz bağımsızlığına qovuşmuşdur, dünyanın siyasi və sosial-iqtisadi inkişafına inteqrasiya olunmaqdadır.

Bəs dövrün əvvəllərində, yəni II dünya müharibəsindən sonrakı ilk illərdə vəziyyət necə idi?

Bu baxımdan bir daha qeyd etmək istərdik ki, birincisi, bütün ərəb ölkələri tamamilə və istisnasız olaraq Batı dövlətlərinin siyasi əsarətində idilər. Asiyanın Güney Yəmən, Küveyt, Bəhreyn, Qatar, Masqat və Körfəzin digər ölkələri, Afrikanın Sudan, Tunis, Əlcəzair, Mərakeş və Mavritaniya kimi ölkələri müxtəlif tipli və səviyyəli müstəmləkə əraziləri olaraq qalırdı. Mavaraəlurdun (Transurdun)[1] və Fələstin mandat ölkələri idi. Müharibədən əvvəlki dövrdə və müharibə illərində formal olaraq öz bağımsızlığını elan etmiş Misir, İraq, Suriya və Lübnan, eləcə də İtaliya-alman qoşunlarından təmizlənmiş Libiya Böyük Britaniya və Fransa silahlı qüvvələrinin nəzarəti altında idi və sözün tam mənasında öz siyasi suverenliyindən məhrum olunmuşdular. Səudi Ərəbistan Krallığı isə bütünlüklə ABŞ-ın iqtisadi və siyasi təsir altına keçmişdi;

- ikincisi, II dünya müharibəsi illərində ərəb dünyasında siyasi və işgüzar fəallığın yüksəlişinə baxmayaraq "insan amili" göstəriciləri, yəni adam başına düşən ümummilli məhsulun çəkisi, orta ömür müddəti, savadlılıq dərəcəsi, qidanın kaloriliyi, kütləvi informasiya vasitələrinin yayılması və s.kimi göstəricilər olduqca aşağı səviyyədə idi. Ənənəvi təsisatlar və onların sosial təmsilçiləri olan iri torpaq sahibləri, zəngin tacirlər və qəbilə- tayfa başçıları yenə də başlıca söz və mövqe sahibləri olaraq qalır, cəmiyyətdə öz yerlərini qoruyub saxlayırdılar. Təbiidir ki, bu da II dünya müharibəsindən sonrakı dövrdə regionda gedən proseslərə təsir etmək baxımından mühüm əhəmiyyət kəsb edirdi;

- üçüncüsü, II dünya müharibəsinin bitməsi ilə ərəb dünyasının ictimai həyatında keyfiyyətcə yeni bir canlanma özünü göstərməkdə idi. Yeni-yeni

---

[1] Mavaraəlurdun (Transurdun) 1946-cı ildən Urdun Haşimilər Krallığı adlanır

partiyaların və siyasi qruplaşmaların, müxtəlif həmkarlar ittifaqları və gənclər təşkilatlarının yaranması, ərəb ölkələrinin həqiqi milli istiqlaliyyətə qovuşması, ümumi inkişaf sürətinin artırılması, xalqın vəziyyətinin yaxşılaşdırılması, ərəb dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi uğrunda mübarizənin bu təşkilatların fəaliyyət məqsədi elan olunması həmin canlanmanın təzahürü idi. Doğrudur, həmin təşkilatlar istər say tərkibi, istər fəaliyyət imkanları baxımından bütün ölkələrdə eyni səviyyədə deyildi, ümumiyyətlə isə regionda çox böyük sayda və gücdə də deyildi. Lakin onlar hər bir ərəb ölkəsində bir qayda olaraq daha çox milli və millətçi qüvvələri – ziyalıları, tələbələri və orta səviyyəli iş adamlarını özündə birləşdirirdi. Onların hər hansı bir hərəkəti ərəblərin milli istək və ümidlərinin gerçəkləşməsinə daha çox yönəli olması baxımından bütün ərəb dünyasında böyük əks-səda doğurur və inam yaradırdı ki, əgər ərəblər bir millət olaraq öz həqiqi istiqlaliyyət və azadlığına qovuşarsa, onlar öz ölkələrində yeni, daha ədalətli və demokratik qayda-qanunlar yarada bilərlər, mədəni inkişaf və iqtisadi tərəqqi üçün daha real imkanlar qazana bilərlər.

Məhz elə bu səbəbdən idi ki, II dünya müharibəsinin bitməsi ilə ərəb ölkələrində həqiqi milli istiqlaliyyət və azadlığa nail olmaq uğrunda mübarizə keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Həm də bu proses onunla müşayiət olunurdu ki, təkcə ərəb ölkələrində deyil, ümumiyyətlə Doğunun bütün asılı və müstəmləkə ölkələrində xalqlar öz milli bağımsızlığına qovuşmağa can atırdı, o biri tərəfdən müstəmləkəçi dövlətlər heç də hər zaman və hər yerdə xalqların bu istəyi ilə hesablaşmaq istəmirdilər, müstəmləkə sisteminin çox tezliklə və asanlıqla ləğv olunmasında nəinki maraqlı deyildilər, həm də mümkün olan bütün vasitələrlə bu işə mane olurdular. Ərəb ölkələrindən Suriya və Lübnanın təcrübəsi bu baxımdan səciyyəvi misal ola bilər. Hələ 1943-cü ildə Suriya və Lübnanda konstitusiyanı bərpa etməyə və parlament seçkiləri keçirilməsinə razılıq verən fransız hakim dairələri artıq 1945-ci ilin mayında həmin ölkələrdəki öz imtiyazları və hegemonluğunu qoruyub saxlamaq məqsədi ilə geniş miqyaslı hərbi əməliyyatlara başladı. Yerli milli qüvvələrin qətiyyəti və beynəlxalq ictimaiyyətinin təzyiqi nəticəsində Fransa yalnız 1946-cı ilin aprelində geri çəkilməyə məcbur edildi, Fransa və Böyük Britaniya silahlı qüvvələri buradan çıxarıldı.

Oxşar hallar, demək olar ki, digər ərəb ölkələri üçün də xarakter olmuşdur. Bu, nəticə etibarilə ona gətirib çıxarmışdır ki, Batı dövlətlərinin iqtisadi, birinci növbədə siyasi asılılığından azad olmağın, həqiqi istiqla-

liyyət qazanmağın yeganə olmasa da, ən başlıca vasitəsi kimi bütün qüvvələrin birləşməsi zərurətinə ərəb ictimai rəyini inandıra bilmişdir. Həmin səbəbdən də müharibədən sonrakı ilk illərdə ərəb dünyasında ən geniş yayılmış ideya məhz ərəb millətçiliyi oldu, milli istiqlal hərəkatları bu zəmində baş verdi və genişləndi, ərəb dünyasındakı müxtəlif qayəli ayrı-seçkilikləri aradan qaldırmaq yolunda ciddi cəhdlər və təşəbbüslər göstərilməyə başlanıldı. Bunun ilk göstəricisi 1945-ci ilin mart ayında Ərəb Dövlətləri Liqasının yaradılmasıdır. Təşkilatın əsas vəzifəsi kimi elan olunurdu ki, o, ərəb birliyi ideyasının gerçəkləşməsi yolunda dövlət səviyyəsində lazım olsa bütün siyasi, iqtisadi və mədəni əməkdaşlığın yaradılmasına və inkişafına yardım etməlidir.

Həmin vaxt kəsiyində ərəb dünyasında o siyasi xadimlər məşhurlaşır və nüfuz sahibinə çevrilirdilər ki, onlar ərəb millətçiliyi ideyasını inkişaf etdirir, onun təcrübədə gerçəkləşməsinə cəhdlər göstərirdilər. Bu baxımdan 1947-ci ildə yaradılmış "Bəəs" ("Dirçəliş") partiyasının baniləri Mişel Əflak və Salah əd-Din Bitarı xüsusi ilə qeyd etmək lazımdır. Onların hazırlamış olduğu proqramda elan edilirdi ki, bütün ərəb ölkələrində yaşayan xalqların müstəmləkə ağalığının hər hansı bir formasından azad edilməsi, "milli ərəb ideologiyasına söykənən vahid müstəqil ərəb dövlətinin saxlanılması uğrunda mübarizə partiyanın başlıca məqsədidir. Bu yolda həyata keçirilən əsas vəzifələr ondan ibarət olmalıdır ki, onlar "ərəb millətinin tamamilə dirçəlişi"ni təmin edə bilsinlər. Qeyd edək ki, həmin illərdə ərəb dünyasının müxtəlif guşələrində Bəəs liderlərinin ideya təsirləri altında çoxsaylı siyasi qruplar yaranmış və fəaliyyət göstərirdi.

Milliyyətçilik ideyasının geniş yayılmasında 1948-ci ildə Fələstində yəhudi İsrail dövlətinin yaranması və buna qarşı çıxan ərəb dövlətləri ilə İsrail arasında baş verən müharibədə ərəblərin acınacaqlı məğlubiyyəti də az rol oynamamışdır. Orduda xidmət edən gənc zabitlər ərəb millətinin dirçəliş yolunu arayıb axtarmaq haqqında daha yaxından və daha dərindən düşünmək zorunda qalmışdılar. Bu zəmində ərəb millətçiliyi onlara kəsərli bir silah təsiri bağışlayırdı. Misirdə gənc zabitlərin bu ideya ətrafında birləşərək öz gizli "Azad zabitlər" təşkilatını yaratmasını, 1952- ci ilin iyulunda ölkədə çevriliş edərək kral hakimiyyətini devirməsini və respublika rejimini qurmasını tədqiqatçılar bir qayda olaraq ərəb millətçiliyi ideyasının təcrübədə həyata keçirilməsinin başlanğıcı hesab edirlər. Onu da əlavə etmək istərdik ki, məhz bu hadisə ilə ərəb dünyasında həm də respublikaçılıq hərə-

katının əsası qoyulmuşdur. 1958-ci ilin iyul ayında İraqda yerli "Azad zabitlər" təşkilatının üzvləri polkovnik Əbdül Kərim Qasimin başçılığı altında çevriliş etdilər, kralı devirdilər və İraq da respublika oldu. 1962-ci ilin oktyabrında Quzey Yəməndə və 1969-cu ilin sentyabrında isə Libiyada baş verən hərbi çevrilişlər həmin ölkələrdə krallıq rejiminin respublika rejimi ilə əvəzlənməsi ilə başa çatdı. Sonrakı illərdə digər ərəb monarxiyalarında da bu istiqamətdə cəhdlər göstərilmişdir. Ancaq həmin cəhdlər uğursuzluqla və çoxsaylı insan tələfati ilə sonuclanmışdır. Bu baxımdan Mərakeşi xüsusilə qeyd etmək olardı.

Yeri gəlmişkən, iki ənənənin də güclənməsini söyləmək istərdik. Bunlardan birincisi odur ki, respublikaçılıq hərəkatı ərəb dünyasının siyasi həyatında hansı rejimə üstünlük verildiyini üzə çıxardığı kimi, iqtisadi həyatda da hansı inkişaf modelinə üstündük verildiyini müəyyənləşdirdi. Milliləşdirmə, dövlət bölməsinin inkişafı və aparıcı rola malik olması, kooperativlərin yaradılması, aqrar islahat, iri torpaq sahibliyinin məhdudlaşdırılması və s. kimi tədbirlər respublika rejimlərinin iqtisadi kursunun əsas istiqamətləri idi. Az sonra isə bu dövlətlərin liderləri artıq sosializm quruculuğundan, daha doğrusu sosializmin ərəb və ya islam variantlarından danışırdılar. Onlar bu kursun reallaşdırılması üçün tələb olunan iqtisadi-texniki və maliyyə vəsaitlərini əldə etməyin yolunu Sovet İttifaqı və sosialist ölkələri ilə hər cür əməkdaşlığın qurulmasında və genişləndirilməsində görürdülər. İkinci ənənə isə ondan ibarət idi ki, respublikaların siyasi həyatında hərbçilərin rolunun artması qaçılmaz olmuşdur. Doğrudur, hərbçilərin siyasi həyata qarışmasının əsası bir qədər əvvəl - 40-cı illərin sonunda Suriyada qoyulmuşdu. Lakin respublikaçılıq hərəkatı bu ənənənin güclənməsinə yeni təkan vermişdir. Təsadüfi deyildir ki, 2010-cu ilin sonlarında "ərəb baharı"nın başlanmasına qədər bir çox ərəb respublikalarının başında hərbçilər dayanırdılar.

Lakin az müddətdən sonra, xüsusilə də 60-cı illərdə baş verən bir sıra hadisələr ərəb liderlərin elan etdikləri məqsədlərin perspektivsizliyini üzə çıxardı. Dərk olundu ki, həmin məqsədlərin ya yaxın vaxtlarda gerçəkləşdirilməsi mümkünsüzdür, ya da onların gerçəkləşməsi ərəblərin taleyini əsaslı surətdə dəyişdirmək gücündə deyildir. Ərəblərin birliyi haqqında düşüncələr özünü doğrultmadı, göstərilən bütün cəhdlər və təşəbbüslər boşa çıxdı. Hər Ərəb-İsrail müharibəsinin sonunda ərəblərin acınacaqlı məğlubiyyəti ideallarla reallıqlar arasında böyük fərqlər olduğunu göstərirdi.

Bütün ərəb ölkələrində ictimai strukturlar və iqtisadi münasibətlər bu

və ya digər dərəcədə modernləşdirmə prosesinə qoşulsa da, iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrində elə bir ümumilik və eynilik yaranmadı. Ərəb dövlətləri və ya liderləri tələb olunan qarşılıqlı anlaşma və ya həmrəylik məqamlarında bir araya gəlmək səviyyəsinə çata bilmədilər. Əksinə, hamı üçün ümumi olan problemlərin həllinə yanaşmada fikir ayrılıqları daha da dərinləşdi.

Ərəb dövlətləri arasında milli birliyin pozulmasında subyektiv amillər də az rol oynamadı. Fələstin probleminə və ya İsrailə münasibətdə, yaxud neft bazarında durumun dəyişkənliyi zəminində fərqli mövqelərin yaranması və möhkəmlənməsi bir ənənəyə çevrildi. Ən maraqlı məqam da o idi ki, bu fikir və mövqe fərqləri fövqündə ayrı-ayrı siyasi xadimlər və ya dövlətlər ərəb dünyasının lideri olmağa çalışırdılar.

Sovet təcrübəsi əsasında iqtisadi quruculuq prosesi iflasa uğradı. Sovet İttifaqı və digər sosialist ölkələrindən alınan iqtisadi-texniki və maliyyə yardımları, eləcə də həmin ölkələrdən gələn mütəxəssislərin köməyi ilə "əyalət kapitalizmi" səviyyəsindən yuxarı qalxmaq mümkün olmadı. Dövlət kapitalizmi və ya "sosializm" quruculuğunda qazanılan nəticələr ürək açan deyildi. Güclü sənaye bazasının yaradılması, aqrar bölmənin yeniləşdirilməsi, təhsil və səhiyyənin inkişafı, mədəni tərəqqi və s. sahələrdə dövlətin göstərdiyi cəhdlər sosial ziddiyyətləri nəinki aradan qaldıra bilmədi, əksinə, daha da dərinləşdirdi. Bərabər imkanlar cəmiyyəti yaratmaq ideyası puça çıxdı. Bu acı təcrübə ərəb liderlərini inandırdı ki, mövcud təbii sərvətlərdən, xüsusilə də neft və qaz ehtiyatlarından daha səmərəli istifadə etmək daha böyük iqtisadi və sosial nəticələrə gətirə bilər, ərəb dünyasının beynəlxalq imicini yüksəldər.

Həmin səbəbdən də XX əsrin 70-ci illərində sosialist təmayüllü inkişafdan imtina edildi, iqtisadiyyatın liberallaşdırılması kursuna önəm verildi. Bu işə ilk olaraq Ə.Sədat dövründə Misir başladı. 80-90-cı illərdə isə sosialist təmayüllü bütün ərəb dövlətləri bu kursa keçdilər və iqtisadi-sosial sahədə xeyli uğurlar əldə etdilər.

Dünya iqtisadiyyatına daha çox inteqrasiya etmək ənənəsi gücləndi və möhkəmləndi. Regional iqtisadi qurumlar meydana gəldi. 1981-ci ildə Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası yarandı. 1989-cu ildə Libiya, Tunis, Əlcəzair, Mərakeş və Mavritaniya – Ərəb Məğrib İttifaqında, Misir, İraq, Urdun və Yəmən isə Ərəb Əməkdaşlıq İttifaqında birləşdilər.

ABŞ, Batı Avropa və inkişaf etmiş Asiya ölkələri ilə iqtisadi əlaqələr

genişləndi. Neft ixrac edən bütün ərəb ölkələrində, İraq istisna olmaqla, ən yüksək texnologiyaya əsaslanan neft-qaz müəssisələri ilə yanaşı digər sənaye müəssisələri şəbəkəsi yaradıldı, müasir infrastrukturlar və kommunikasiya sistemləri işə salındı.

Batı yonümlü siyasət nəticəsində təkcə iqtisadi problemləri yox, həm də digər münaqişəli məsələlərin həlli imkanları yarandı. XX əsrin 90-cı illərin əvvəlində İraq-Küveyt böhranı zamanı dünya birliyinin işə qarışması məsələnin ədalətli həllinə gətirdi, ortalarında isə yarım əsr müddətində bütün ərəb dünyasını rahatsız edən və həlli görünməyən Fələstin problemi davamlı sükunət durumundan çıxdı. Ərəb-İsrail münaqişəsinin həlli istiqamətində pozitiv irəliləyişlər prosesi gücləndi. Fələstin xalqı sonu milli istiqlaliyyətə gətirəcək milli muxtariyyət qazandı.

Çağdaş ərəb dünyasında siyasi həyatın demokratikləşdirilməsi, siyasi plüralizmin və çoxpartiyalılığın, parlamentarizmin bərqərar olunması prosesi genişlənməkdədir. Hətta monarxiya rejimli ölkələrdə belə müxtəlif sosial təbəqələrin dövlət strukturlarında təmsil olunması təcrübəsinə başlanılmışdır. Doğrudur, bu prosesin bütün ölkələrdə eyni səviyyədə və ya miqyasda, yaxud arzu edilən formada deyildi. Lakin proses genişlənməkdədir və dönməz xarakter almışdır.

XX əsrin sonlarında və XXI əsrin ilk illərində ərəb ölkələrindən hər biri öz inkişaf yolunu seçə bildi, öz problemlərini həll edə bilmək imkanı qazandı. Lakin bütün ərəb dünyasını rahatsız edən bəzi çətinliklərin də yarandığını, bəzən hətta qarşıdurmalara gətirən problemlərin qaldığını da söyləmək istərdik. Bu baxımdan islamçı siyasi qüvvələrin daha da fəallaşması öndə gedir. Bütün ərəb ölkələrində həmin qüvvələr bu və ya digər formada fəaliyyət göstərirlər və istər müəyyən ölkə daxilində, istərsə də regionda siyasi proseslərə güclü təsir edə bilirlər. Məsələn, Əlcəzairdə və Misirdə baş verən qanlı hadisələr, Sudanda islamçı rejimin yaranması və bir sıra qanlı aksiyaların təşkilində bu dövlətin ittiham olunması, "əl-Qaidə" təşkilatının bir sıra ərəb ölkələrində məskən salması və fəallaşması, bəzi hallarda terrorçu islam təşkilatlarının yüksək səviyyədə dəstəklənməsi təkcə region ölkələrini deyil, həm də beynəlxalq birliyi rahatsız edən faktlardır.

11 sentyabr 2001-ci il hadisələrindən sonra terroru dəstəkləyən dövlətlər sırasında Sudan və İraqın adları vardı. İraq rəhbərliyinin yürütdüyü siyasətin həm də bölgə və dünya dövlətləri üçün qorxu və təhdid yaratdığı beynəlxalq rəy tərəfindən tez-tez dilə gətirildi. Bu da təsadüfən deyildi. İraq

rəhbərliyi son illərdə bölgədə bir sıra savaşlara rəvac vermiş, BMT Təhlükəsizlik Şurasının çıxardığı qətnamələrə məhəl belə qoymurdu. Bütün bunlar 20 mart 2003-cü ildə ABŞ və müttəfiqlərinin İraqa müdaxiləsi və qısa zaman ərzində mövcud rejimin varlığına son qoyulması ilə nəticələndi. Ölkədə uzun illər davam etmiş avtoritar və diktatura rejimindən demokratik idarəçilik sisteminə keçilməsi yolunda ciddi addımlar atılmağa başlanıldı.

Bu da belə düşünməyə əsas verdi ki, İraqda cərəyan edən pozitiv proseslər təkcə ərəb dünyasında deyil, bütünlüklə bölgədə köklü dəyişikliklərə gətirib çıxara bilər. Məhz elə də oldu. 2010-cu ilin sonlarından başlayan "ərəb baharı"nın əksər dövlətləri ehtiva etməsi, bu ölkələrdə avtoritar rejimlərin əvəzlənməsi, insan hüquq və azadlıqlarının genişlənməsi və bu sahədə hüquqi bazanın yaradılması, cəmiyyətdəki hər cür neqativ hallara qarşı mübarizənin genişlənməsi həmin düşüncənin gerçəkləşməsinə dəlalət edirdi.

Deyilənləri belə yekunlaşdırmaq olar ki, regionun dövlətləri inkişaf yolundadır və bu inkişafın davamlı olması istər hər bir ölkənin daxilində, istərsə də region dövlətləri arasında mövcud problemlərin həllinə şərait və imkan yaradacaqdır.

Bakı Dövlət Universitetinin Asiya və Afrika ölkələri tarixi kafedrasında hazırlanan bu kitab ərəb ölkələrinin çağdaş tarixi ilə maraqlanan tələbə, magistr, doktorant, elmi işçi, müəllim və politoloqlar üçün nəzərdə tutulur.

Müəlliflər kitabın işıq üzü görməsində əməyi keçən hər kəsə, özəlliklə də kompüter işlərinin icraçısı Sevinc İsmayıl qızı Məmmədovaya sonsuz təşəkkür edirlər.

# İRAQ

I Dünya müharibəsinin sonunadək İraq Osmanlı imperiyasının tərkibində idi. Ölkə inzibati-ərazi baxımından üç yerə - Bağdad, Bəsrə və Mosul vilayətlərinə bölünmüşdü və onlar sultanın təyin etdiyi valilər tərəfindən idarə olunurdu. Sosial-iqtisadi durum baxımından İraq Osmanlı imperiyasının geridə qalmış bölgələrindən biri idi. İqtisadiyyatın əsasını aqrar bölmə təşkil edirdi. Kəndlərdə feodal və patriarxal münasibətlər hökm sürürdü. Əhalinin xeyli hissəsi köçəri həyat tərzi keçirirdi.

XX əsrin əvvəllərində İraqın dünya iqtisadi həyatına və beynəlxalq ticarət əlaqələrinə cəlb olunması güclənməyə başlamışdı. O, Batı dövlətlərinin aqrar xammal əlavəsinə və satış bazarına çevrilir, xüsusilə də taxıl və digər kənd təsərrüfatı məhsulları ixracı ilə məşğul olurdu. İxracatda həlledici yeri Böyük Britaniya və Hindistan tuturdu. I Dünya müharibəsi ərəfəsində onların İraq ixracatındakı payı 60% təşkil edirdi.

Digər tərəfdən sözügedən dövrdə böyük dövlətlər, xüsusilə də Böyük Britaniya və Almaniya arasında İraqda nüfuz uğrunda mübarizə daha da kəskinləşirdi. Bu, hər şeydən öncə Suveyş kanalının çəkilməsindən sonra ölkənin artan strateji əhəmiyyəti ilə bağlı idi. Almaniya İraqın təbii sərvətlərini, ilk növbədə neftini ələ keçirməyə çalışırdı. Məlumdur ki, o dövrdə artıq ölkənin quzeyində - Mosul şəhəri ətrafında iri neft yataqları aşkar olunmuşdu.

Almaniyanın bu sahədəki cəhdləri Böyük Britaniyanın açıq və sərt reaksiyası ilə qarşılaşırdı. Böyük Britaniya İraqın tam ələ keçirilməsi üçün planlar hazırlayırdı. Bu planlar Böyük Britaniyanın bütövlükdə Yaxın Doğuya olan marağının tərkib hissəsi idi. I Dünya müharibəsi illərində isə o, bölgəyə xüsusi diqqət verməyə başlamışdı. Bu səbəbdən idi ki, artıq 1914-cü il oktyabrın 23-də ingilis hərbi hissələri İraqın Fao limanına daxil olmuş, noyabrın 22-də isə Bəsrəni ələ keçirmişdilər. Yalnız yerli əhalinin və türk hərbi qüvvələrinin ciddi müqaviməti İraqın bütünlükdə işğalına imkan vermədi. 1915-ci ildə Bağdad uğrunda keçirilən iri hərbi əməliyyat ingilislərin məğlubiyyəti ilə nəticələndi. Lakin bir qədər sonra 1917-ci ilin martında ingilislər Bəsrə və Bağdad vilayətlərini ələ keçirməyə nail oldular. 1918-ci ilin noyabrında isə Mudros barışığının şərtlərinə məhəl qoymayan ingilislər Mosul vilayətini də tutdular.

1918-ci ilin sonlarında Böyük Britaniya İraqda müstəmləkə rejiminin

təşkilinə başladı. İşğal olunmuş ərazilər kiçik nahiyələrə bölündü. Başda ingilis hərbçiləri olmaqla yeni inzibati-idarə sistemi yaradıldı və o, yalnız İraqdakı ingilis Ali Komissarı qarşısında məsuliyyət daşıyırdı.

Yerlərdə müəyyən qüvvələri, xüsusilə də feodal təbəqələrini ələ almaq məqsədilə 1919-cu ildə "torpaq islahatları" keçirilməsi bəyan edildi. İslahata görə, dövlət və icma torpaqlarının özəlləşdirilməsinə icazə verilirdi. Prosesin gedişində ingilislər özlərinə meylli olanların maraqlarını üstün tutur, hətta müqavimət göstərən yerli şeyxləri və digər məmurları onlarla əvəzləyirdilər.

Lakin ingilislərin bu siyasəti İraq əhalisinin böyük qismi tərəfindən birmənalı qarşılanmadı. Ölkədə etirazlar özünü göstərməyə başladı. Müxtəlif sosial təbəqələrin təmsilçiləri ingilis işğalına qarşı mübarizədə birləşir və təşkilatlanırdılar. Bunlardan hələ 1918-ci ilin yazında qurulmuş İslam Dirçəlişi Cəmiyyəti ("Cəmiyyət ən-nəhdə əl-islamiyyə") və 1919-cu ildə yaradılmış İstiqlal keşikçiləri ("Hərəs əl-İstiqlal") qurumlarını qeyd etmək olar. Cəmiyyətlərin liderləri Cəfər Əbu Timman, Məhəmməd əs-Sədr, Yusif əs-Suveydi İraqa tam müstəqillik verilməsi şüarı ilə çıxış edirdilər. Buna nail olmaq üçün ingilislərlə danışıqlar aparılması yolu məqbul sayılırdı. Lakin göstərilən səylərinin nəticəsiz qaldığını dərk edən liderlər 1920-ci ilin əvvəllərindən etibarən ingilis işğalına qarşı silahlı mübarizə yoluna üstünlük verdilər.

Onlardan fərqli olaraq, həmin ərəfədə Nuri Səid, Cəfər əl-Əsğəri, Cəmil əl-Midfai və əmir Feysəl əl-Haşimi tərəfindən qurulmuş "İraq əhdi" ("əl-Əhd əl-İraqi") cəmiyyəti Böyük Britaniyanın protektoratlığı altında İraqda monarxiya üsul-idarəsinin yaradılması ideyasını irəli sürürdülər.

Sayına görə İraqın ikinci etnosu sayılan kürdlərə gəlincə, onların fəaliyyətində güclü separatçı meyllər özünü biruzə verirdi. Odur ki, ərəb siyasi elitası onları dəstəkləmirdi. Bu səbəbdən də, 1919-cu ildə Süleymaniyyədə kürdlərin lideri Mahmud Bərzəncinin başçılığı ilə başlanmış antiingilis üsyanı qəddarcasına yatırıldı.

1920-ci il aprel 20-də San-Remo konfransında Böyük Britaniya müttəfiqlərinin razılığı və Millətlər Cəmiyyətinin təsdiqi ilə İraq üzərində mandat hüququ aldı. Bundan narazılıq zəminində başlamış antiingilis hərəkat 1920-ci ilin yazında daha böyük vüsət aldı və artıq iyunda istiqlal hərəkatına çevrildi. Hərəkata qoşulmuş bütün sosial təbəqələr müstəqillik tələbi ilə çıxış edirdilər. Paytaxt Bağdadda və ölkənin digər iri şəhərlərində, həmçinin əksər bölgələrdə kütləvi nümayişlərlə müşayiət olunan bu hərəkat 1920-ci ilin

yayında ümümiraq üsyanına çevrildi. İyunun 30-da ingilis işğalına qarşı silahlı mübarizənin təşkili məqsədi ilə üsyan komitəsi yaradıldı. Komitəyə "İstiqlal keşikçiləri"nin liderləri başçılıq edirdilər. Üsyançılar bir ay ərzində, demək olar ki, İraqın ərəb hissələrini – Bəsrə və Bağdad istisna olmaqla – azad etdilər. Tayfaların silahlı dəstələri də ingilislərə bir neçə ciddi zərbə vura bildilər. Yaranmış vəziyyət qarşı tərəfi iyul-avqust aylarında çüzi güzəştlərə getməyə vadar etdi. Eyni zamanda, Böyük Britaniya ölkəyə nəzarəti öz əlində saxlamaq üçün hərbi qüvvədən də istifadə etmək qərarına gəldi. Bu məqsədlə üsyançılara qarşı 150 minlik ordu çıxarıldı. Noyabrın ortalarından etibarən hərbi əməliyyatlarda ingilislərin xeyrinə dönüş yarandı.

1920-ci ilin oktyabrında İraqın Ali komissarı vəzifəsinə təyin olunan təcrübəli müstəmləkə məmurlarından Persi Koks Bağdadda "İraq əhdi" liderləri ilə danışıqlara girdi və müvəqqəti milli hökumətin yaradılması haqqında razılıq əldə etdi. Oktyabrın 27-də "Əhd"in rəhbərlərindən ibarət hökumət fəaliyyətə başladı. Böyük Britaniya siyasətinə tam dəstək vermək və ölkədə "əmin-amanlıq" yaratmaq məqsədilə İraqın yeni rəhbərliyi üsyançılara qarşı qəti tədbirlər həyata keçirməyə başladı. Repressiyalara məruz qalan üsyançıların mövqeləri tədricən zəiflədi və artıq noyabrın 27-də sonuncu müqavimət göstərənlər silahı yerə qoydular.

Üsyanın gedişi və nəticələri bir daha göstərdi ki, Böyük Britaniya İraqda mandat sisteminin saxlanılması üçün burada daim iri hərbi hissələr saxlamalıdır. Lakin bunun nə qədər səmərəli olmasının gələcəyinə inam yox idi. Odur ki, çıxış yolu kimi, Böyük Britaniya konstitusiyası, parlamenti, hökuməti, milli ordusu və yerli idarəçilik strukturları olan "suveren" İraq dövlətinin yaradılmasına üstünlük verdi. İlk olaraq, 1921-ci il yanvarın 6-da Böyük Britaniya müstəmləkə idarəçiliyinin təkidi ilə yerli hökumət milli ordu yaradılmasına başladı.

1921-ci ilin martında Böyük Britaniyanın Yaxın Doğudakı ali komissarları Qahirədə toplandılar və orada İraqın mandat rejimi altında olan krallıq elan edilməsi qərara alındı. Məkkə şərifi Hüseynin oğlu Feysəl əl-Haşimi ölkənin kralı elan olundu.

İraq krallığının yaradılmasından sonra Böyük Britaniya onunla ikitərəfli münasibətlərin qanuni müstəviyə keçirilməsi və tənzimlənməsi üçün "ittifaq" müqaviləsinin imzalanmasına qərar verdi. Bu, bir tərəfdən ölkə daxilində mandat sisteminə qarşı etirazların artması ilə, digər tərəfdən isə, Böyük Britaniyanın burada əldə etdiyi imtiyazların qorunub saxlanılması

ilə bağlı idi. 1922-ci ildə mətni ingilis Ali komissarı P.Koks tərəfindən hazırlanan Böyük Britaniya-İraq müqaviləsi imzalandı. Sənədin əsas məqsədi mandat rejiminin "dostluq münasibətləri" ilə əvəz olunması və mandat termininin ümumiyyətlə istifadədən çıxarılmasından ibarət idi. Amma faktiki olaraq ikitərəfli münasibətlərin məğzi dəyişilməz olaraq qalırdı və İraq əvvəlki kimi Böyük Britaniya Ali komissarının nəzarəti altında idi. Beynəlxalq və maliyyə məsələlərində İraq onun "məsləhətləri" ilə hərəkət etməli idi. Ən başlıcası isə, Böyük Britaniya qoşunları İraq ərazisində saxlanılırdı.

1922-ci il oktyabrın 10-da müvəqqəti milli hökumətin baş naziri Əbdürrəhman əl-Qaylani Ali komissar tərəfindən təqdim olunmuş müqaviləyə imza atdı. Lakin xalq qeyri-bərabər müqavilənin şərtlərinə son dərəcə mənfi münasbət göstərdi. Təxminən iki həftədən sonra ölkənin əksər bölgələrində müqavilənin imzalanmasına qarşı kütləvi etiraz hərəkatı başladı. Onun başında "İstiqlal keşikçiləri"nin parçalanması əsasında yaradılmış iki partiya – İraq Dirçəliş partiyası (lideri - M. əs-Sədr) və İraq Milli partiyası (lideri - C. Əbu Timman) dururdu. Onlar Böyük Britaniya əleyhinə şüarlarla yanaşı, bir sıra sosial-iqtisadi islahatlar tələbini də irəli sürürdülər. Həmin ərəfədə ingilispərəst qüvvələr də hərəkətə gələrək İraq Azadlıq Partiyasını yaratdılar.

1922-ci ildə müqavilənin ratifikasiyası üçün Qurucular Məclisinə seçkilər elan edildi. Ölkədə mövcud olan qeyri-sabit siyasi şərait səbəbindən seçkilər yalnız 1924-cü ilin fevralında baş tutdu. Lakin Məclisin tərkibi ingilisləri qane etmədi. Müxalifət nümayəndələrinin müqavilənin şərtlərinin dəyişdirilməsi tələbi ilə çıxış etməsi səbəbindən müzakirələr xeyli uzandı. Belə olan halda ingilis hakimiyyəti repressiyalara əl atdı və 1924-ci il iyunun 10-da Qurucular Məclisinin fövqəladə iclasında İraq-Böyük Britaniya müttəfiqlik müqailəsi təsdiq olundu. Eyni zamanda, deputatlar hökumətdən yeni müqavilənin hazırlanmasını tələb etdilər.

İraqın Yaxın Doğu regionundakı iqtisadi və strateji əhəmiyyətini nəzərə alan Böyük Britaniya orada öz mövqelərini saxlamaqda və möhkəmləndirməkdə çox maraqlı idi. Bu dövrdə İraqın beynəlxalq durumunun və qonşu dövlətlərlə əlaqələrinin tənzimlənməsi və ərazilərinin mümkün qədər genişlənməsi üçün Böyük Britaniya Ali komissarı bir sıra təşəbbüslərlə çıxış etdi. 1922-ci ildə Səudi Ərəbistan və İranla sərhədlər müəyyənləşdirildi. 1926-cı ildə Böyük Britaniyanın Türkiyəyə təzyiqi nəticəsində Mosul vilayəti İraqın tərkibinə qatıldı. Beləliklə, Böyük Britaniya Aralıq dənizindən

Körfəzə qədər uzanan və neftlə zəngin ərazilərin faktiki sahibinə çevrildi.

Böyük Britaniya tərəflərarası münasibətlərin nisbətən yumşalmasından hər cür istifadə etməyə çalışırdı. Bu məqsədlə İraqla yeni müttəfiqlik müqaviləsinin imzalanması üçün səylər artırıldı. 1926-ci il yanvarın 13-də tərəflərin razılaşdığı sənəd imzalandı. Tamamilə əvvəlki müqavilənin şərtlərini təkrarlayan həmin sənəd İraq parlamentinin hər iki palatası-Nümayəndələr palatası və Senat tərəfindən ratifikasiya olundu.

Bunun ardınca, Böyük Britaniya İraqın neft qaynaqları üzərində inhisarı bütövlükdə öz əlinə keçirməyə başladı. O, hələ 1925-ci ildə Bəsrə vilayəti istisna olmaqla ölkə ərazisinin hər yerində neftin kəşfi və istismarı hüququnun "Türkiş Petroleum" şirkətinə (o, 1912-ci ildə Osmanlı dövləti tərəfindən qurulmuşdu-müəl.) verilməsininə nail olmuşdu. Beynəlxalq təzyiqlər nəticəsində, 1927-ci ildə onun tərkibinə amerikan, fransız, isveçrə və holland şirkətləri də qatıldıqdan sonra, həmin şirkət 1929-cu ildə "İraq Petroleum Kompani" (İPK) adı ilə tanınmağa başladı. Bütün bunlarla yanaşı, Böyük Britaniya İraqın neft sərvətlərinin ağası olaraq qalırdı.

Eyni zamanda, mandat sistemindən narazılıq səngimirdi və əksinə, getdikcə daha də artırdı. Odur ki, Böyük Britaniya qarşısında mandat sisteminin digər idarəçilik forması ilə əvəz olunması zərurəti yarandı. Digər tərəfdən, mandata sahib dövlətlər Millətlər Cəmiyyətinin qərarına əsasən, mandatlıq ərazilərində açıq qapı siyasəti həyata keçirməli idilər. Bu isə Böyük Britaniyanın maraqlarını təmin etmirdi, çünki rəqib dövlətlər də İraqda onunla bərabər hüquqlara sahib olurdular. Ən başlıcası isə mandat rejiminin ləğvi ideyasına siyasi partiyaların, o cümlədən hakimiyyətdə təmsil olunan qruplaşmaların qoşulması da prosesi sürətləndirirdi.

Yaranmış şəraitə uyğun hərəkət edən Böyük Britaniya İraqda mandat rejiminin yaxın zamanlarda ləğvi haqqında bəyanat verdi. 1927-ci il dekabrın 14-də Böyük Britaniya və İraq hökumətləri arasında ölkədə ingilis qoşunlarının və maliyyə nəzarətinin saxlanılması şərti ilə yeni müqavilə layihəsi hazırlandı. Müqavilədə mandat sisteminin ləğvindən sonra İraqın Millətlər Cəmiyyətinə qəbul olunması da nəzərdə tutulurdu. Lakin ölkədə cərəyan edən siyasi proseslər və müqavilə layihəsinə cəmiyyət tərəfindən ciddi etirazların olması onun ratifikasiyasını əngəllədi.

1930-cu il martın 23-də İraq hökumətinə dövrün tanınmış siyasətçisi Nuri Səid rəhbərlik etməyə başladı. Həmin ilin 30 iyununda o, Böyük Britaniya ilə 25 il müddətinə yeni müttəfiqlik müqaviləsi imzaladı. İraqın Mil-

lətlər Cəmiyyətinə qəbulundan sonra qüvvəyə minməli olan bu müqaviləyə əsasən o, müstəqil dövlət elan olunurdu. Yenə də müqaviləyə görə, bu iki dövləti "əbədi dostluq və müttəfiqlik" əlaqələri bağlamalı idi. İraqın xarici siyasət məsələlərində Böyük Britaniya öz məsləhətçi hüququnu saxlayırdı. İki dövlət arasında bağlanmış hərbi sazişə görə isə, İraq öz ərazisində yerləşən bütün növ kommunikasiyaları Böyük Britaniya qoşunlarının istifadəsinə verir, İraqın müdafiəsində Böyük Britaniyanın "xüsusi maraqlarının" olması təsbit edilir, onun Habbaniyyə və Şuaybədəki iki hərbi bazası saxlanılır, hərbi müşavirlər və hərbi missiyalar yalnız Böyük Britaniyadan dəvət edilirdi. Beləliklə, 1930-cu il İraq-Böyük Britaniya müqaviləsində mandat sisteminin ləğvi nəzərdə tutulsa da, ölkənin asılı statusu tam saxlanılırdı.

Müqavilə imzalanandan dərhal sonra N.Səid parlamenti buraxdı və yeni seçkilərin keçirilməsini elan etdi. Hakimiyyətin tam nəzarəti altında formalaşan yeni parlamentin 1930-cu il noyabrın 1-də keçirilən ilk iclasında bu müqavilə təsdiq edildi.

Müqavilənin imzalanması və parlament tərəfindən təsdiqi İraq cəmiyyətini hərəkətə gətirdi. 1930-cu ilin yay-payız aylarında ölkənin bütün bölgələrində kütləvi etiraz nümayişləri və mitinqlər baş verdi. Müxalifətdən olan deputatlar N.Səidin yürütdüyü siyasətə qarşı yeni siyasi təşkilat - Milli Qardaşlıq Partiyasını ("Hizb əl-ixa əl-vətəni") təsis etdilər. Rəhbərliyi Yasin əl-Həşimi, Rəşid Əli əl-Qaylani, Hikmət Süleyman və digərlərindən ibarət olan bu siyasi təşkilat 1931-ci il yanvarın 16-da İraq Milli Partiyası ilə birləşdi. Milli Qardaşlıq Partiyası yarandığı gündən N.Səid rejiminə qarşı çıxan bütün müxalif qruplaşmaların bir blok daxilində birləşdirilməsinə çalışırdı. Onun əsas məqsədi parlamentin buraxılması və 1930-cu il müqaviləsinin şərtlərinə dəyişikliklər edilməsi üçün yeni nazirlər kabinetinin formalaşdırılmasından ibarət idi. Müxalifətin səyi ilə N.Səid rejiminə qarşı başlanmış kütləvi etiraz çıxışları bütün 1931-ci il ərzində davam etdi. Lakin N.Səid hökuməti etiraz hərəkatının qarşısını ala bildi. 1932-ci il oktyabrın 3-də İraq müstəqil dövlət olaraq Millətlər Cəmiyyətinə qəbul edildi və mandat rejimi rəsmən ləğv olundu.

14 il davam edən mandatlıq rejimi İraqın sosial-iqtisadi və siyasi həyatında mənfi izlər buraxmışdı. İraq yenə də geridə qalmış aqrar ölkə olaraq qalırdı. Neft sənayesi istisna olmaqla, həmin dövrdə digər sənaye sahələri inkişaf etməmişdi, ənənəvi təsərrüfat və ticarət isə tədricən tənəzzülə uğrayırdı. Kənd təsərrüfatı sahələri də böhran keçirirdi. Ölkənin əlverişli

coğrafi-iqlim şəraitinə baxmayaraq, aqrar bölmədə infrastrukturun yeniləşməsi baş vermir, yeni əkin sahələri yaradılmırdı. Eyni zamanda, kəndlilər feodal qayda-qanunları ilə idarə olunurdu. Mövcud sosial-iqtisadi və siyasi durum, demək olar ki, ingilis idarəçiliyinin maraqlarına xidmət edirdi.

Qeyd edək ki, İraqa müstəqillik verilməsi 1929-1933-cü illər dünya iqtisadi böhranı ilə eyni vaxta düşmüşdü. Bu səbəbdən də İraq ixracatının əsas məhsulları xurma, taxıl, yun və digər kənd təsərrüfatı mallarının qiyməti iki dəfədən çox azalmışdı. Bəzi kənd təsərrüfatı sahələri sıradan çıxmış, kənd əhalisinin tədricən müflisləşməsi və şəhərlərə kütləvi axını başlamışdı. Mandat rejiminin ləğvindən sonra hakimiyyətə yiyələnmiş feodal və ticarətsələmçi zümrələr öz imtiyazlarının dəyişməz qalmasına çalışırdılar. Eyni zamanda, mandat idarəçiliyinin ləğvi cəmiyyətdə mövcud qarşıdurma və ixtilafları daha da kəskinləşdirdi. Məsələn, mandatlıqdan sonrakı iki il ərzində İraqda 8 hökumət dəyişmiş, 3 dəfə parlament seçkiləri keçirilmişdi. Amma bütün bunlar siyasi sabitlik üçün normal zəmin yarada bilməmişdi.

1933-cü ilin martında hakimiyyətə gəlmiş Rəşid Əli əl-Qaylaninin başçılığı ilə formalaşan "Milli Qardaşlıq" hökuməti də ölkənin siyasi həyatına heç bir yenilik gətirmək iqtidarında olmadı. Əksinə, hökumətin özəyini təşkil edən liderlər əvvəllər bəyan etdikləri müddəalardan imtina etdilər, İraqın beynəlxalq öhdəliklərinə, o cümlədən 1930-cu il müqaviləsinə hörmətlə yanaşdıqlarını bildirdilər. İraq Milli Partiyası hökumətin siyasi xəttinin kəskin dəyişməsinə qarşı çıxdı və etiraz əlaməti olaraq "Milli Qardaşlıq"la müttəfiqlik münasibətlərinə son qoydu.

1933-cu ildə kral Feysəlin ölümündən sonra taxt-taca I Qazi sahib oldu və R.Ə.əl-Qaylani hökuməti istefaya getdi. Hakimiyyətə gələn N.Səid - C.əl-Midfayi qruplaşması həm "Milli Qardaşlıq" tərəfdarları, həm də geniş kütlə arasında dəstəklənmirdi və böyük nüfuza malik deyildi. Ona görə də bu qruplaşmanın hakimiyyətə yiyələnməsi əhali və siyasi qüvvələr tərəfindən sərt etirazla qarşılandı. Narazılıqlar geniş vüsət aldı. Ölkənin mərkəzi bölgələrində məskunlaşan qəbilələrin çıxışları daha kəskin oldu. Bütün bunlar onunla nəticələndi ki, qəbilə şeyxləri ilə ittifaqa girən "Milli Qardaşlıq" liderləri 1933-cü il martın 17-də Yasin əl-Həşiminin başçılığı altında yenidən hakimiyyətə gəldilər və ölkədə nisbi bir sakitlik yarandı. Ancaq narazılıqları törədən səbəblər aradan qaldırılmadı. Ölkənin müxtəlif yerlərində siyasi və sosial-iqtisadi tələblər irəli sürən çıxışlar davam etməkdə idi. 1934-ci ildə keçirilən parlament seçkilərinin kütləvi sürətdə saxtalaşdırılması isə

etirazları daha da alovlandırdı.

Y.əl-Həşimi hökuməti vəziyyəti normal hala salmaq üçün heç nə edə bilmirdi. 1935-ci ilin aprelində nüfuzunu itirmiş parlament buraxıldı. Əl-Həşimi yeni seçilən parlamentdə öz müttəfiqlərinin nəzərə alınacağını vəd etdi.

Lakin siyasi etirazlar heç cür sakitləşmək bilmirdi. Odur ki, hökumət müxalifət qüvvələrinə qarşı təzyiqlərə başladı. 1935-ci ilin parlament seçkiləri ərəfəsində bütün siyasi partiyalar və müxalifət yönümlü mətbu orqanları bağlandı. Eyni zamanda, narazılıqları yatırmaq məqsədilə 100-ə yaxın yeni qanun qəbul olundu. Lakin onların əksəriyyəti feodal zümrələrinin və hətta hakimiyyətə yaxın olan qüvvələrin müqaviməti nəticəsində həyata keçirilmədi.

Baş verən hadisələr XX əsrin 30-cu illərinin ikinci yarısında İraqda köklü dəyişikliklər uğrunda mübarizə üçün əlverişli şərait yaratmışdı. Həmin dövrdə Bağdadda çap olunan müxalifət yönümlü "əl-Əhali" qəzeti ətrafında birləşən siyasi liderlər sonda təşkilatlandılar və 1934-cü ildə qəzetin şərəfinə "əl-Əhali" adlanan qurum yaratdılar. Qurumun fəaliyyəti gözə çarpmağa başladı. Onun tərkibinə İraqdakı mövcud siyasi və sosial-iqtisadi durumun yeniləşməsinə çalışan bir sıra ictimai xadimlər, o cümlədən Cəfər Əbu Timman və Kamil əl-Çadırçı daxil idilər.

"Milli Qardaşlıq" hökumətinin yürütdüyü siyasətə qarşı həm də bir sıra feodal qruplaşmaları çıxış edirdi. Hətta onların liderlərindən biri – iri torpaq mülkiyyətçisi Hikmət Süleyman "əl-Əhali" qrupu ilə əlaqə qurmuşdu. Eyni zamanda o, antiingilis ovqatlı hərbi qruplaşmanın lideri general Bəkr Sidqi ilə də məxfi danışıqlar aparırdı. Onlar hökumətin devirilməsi üçün plan hazırladılar. 1936-ci il oktyabrın 29-da Bəkr Sidqinin rəhbərlik etdiyi hərbi qüvvələr Bağdada doğru hərəkət etdilər və kral I Qaziyə "Milli Qardaşlıq" hökumətinin istefası tələbi ilə ultimatum təqdim etdilər. Kral ultimatumu qəbul etdi və Hikmət Süleymana yeni kabinetin təşkilini tapşırdı. Onun tərkibinə "əl-Əhali" qrupunun üç fəal üzvü – Cəfər Əbu Timman, Kamil əl-Çadırcı, Yusif İbrahim də daxil oldular. Bəkr Sidqi baş qərargah rəisi təyin edildi və Silahlı Qüvvələr üzərində nəzarəti əlində cəmləşdirdi. Yeni hökumət bir sıra islahatlar həyata keçirmək haqqında proqram qəbul etdi. Bunların sırasında torpaqsız kəndlilərə dövlət torpaqlarından pay verilməsi, siyasi məhbusların əfvi, milli sənayenin inkişafının təşviq edilməsi, həmkarlar təşkilatlarının dəstəklənməsi, ölkədə sosial-təminat, sığorta və s.

sisteminin yaxşılaşdırılması kimi addımların həyata keçirilməsi nəzərdə tutulurdu. Proqramın gerçəkləşməsi üçün "əl-Əhali"nin solçu qrupu 1936-cı ilin noyabrında Xalq İslahatları Cəmiyyəti adlı qurum yaratdı. Lakin B.Sidqi və H.Süleyman proqrama ilk növbədə siyasi manevr və xalqın rəğbətini qazanmaq üçün vasitə kimi baxırdılar. Onların niyyətləri növbəti parlament seçkiləri zamanı üzə çıxdı. Hakim dairələrin açıq müdaxiləsi və təzyiqi nəticəsində seçkilərdə mandatların çoxusunu B.Sidqi və H.Süleymana yaxın qüvvələrin nümayəndələri qazandılar. Xalq İslahatları Cəmiyyəti isə parlamentdə yalnız 10 deputatla təmsil oluna bildi.

Parlamentdə gedən siyasi mübarizə və oradakı əksər qüvvələrin kəskin müqaviməti səbəbindən islahatların tam həcmdə həyata keçirilməsi mümkün olmadı. Etiraz əlaməti olaraq 1937-ci il iyunun 17-də "əl-Əhali" sıralarında parçalanma baş verdi. Əbu Timman və əl-Çadırçı da daxil olmaqla dörd nazir istefa verdi. Onlar ölkədən sürgün olundular, yerlərinə B.Sidqinin yaxın tərəfdarları gətirildilər. Xalq İslahatları Cəmiyyətinin fəaliyyəti isə qadağan edildi. H.Süleyman - B.Sidqi çütlüyünün milli qüvvələrdən uzaqlaşması onun həm daxili, həm xarici irtica qarşısında aciz qalmasına gətirib çıxardı. Cütlük vəziyyətdən çıxış yolunu növbəti hərbi çevriliş hazırlamaqda gördü. Lakin bu zaman ingilispərəst qüvvələr B.Sidqiyə sui-qəsd təşkil etdilər və o, 1937-ci il avqustun 11-də öldürüldü. 5 gündən sonra isə H.Süleyman hökuməti istefa verməyə məcbur oldu. Çağdaş İraq tarixində ilk hərbi çevrilişin aqibəti bu sonluqla başa çatdı.

Cəmil əl-Midfainin başçılıq etdiyi yeni hökumətin keçirdiyi seçkilərdə isə ingilispərəst qüvvələr qalib gəldilər və 1938-ci il dekabrın 25-də N.Səidin başçılığı ilə yeni hökumət quruldu. İlk günlərdən o, öz siyasi rəqiblərinə və bütün müxalif qüvvələrə qarşı kütləvi repressiyalara başladı. 1939-cu ilin martında hökumət əleyhinə "sui-qəsd" hazırlamaq adı ilə bir qrup müxalifət lideri həbs olundu. 1939-cu il aprelin 3-də isə naməlum səbəblərdən baş verən avtomobil qəzasında Nuri Səidin xarici siyasət xəttini bəyənməyən kral I Qazi həlak oldu. 4 yaşlı II Feysəl İraqın yeni kralı, əmir Əbdül İllah isə onun qəyyumu elan edildi.

1939-cu il sentyabrın 2-də Böyük Britaniyanın II Dünya müharibəsinə qoşulmasından sonra N.Səid hökuməti Almaniya ilə diplomatik münasibətləri kəsdi. Hərbi vəziyyətlə əlaqədar olaraq ölkənin ərazisində fövqəladə vəziyyət elan olundu və siyasi qüvvələrə qarşı təzyiqləri artırmaqla yanaşı, siyasi senzura tətbiq edildi.

1941-ci ilin martında Böyük Britaniya və İraq hökumətləri arasında ölkədə ingilis komandanlığına yeni hərbi baza verilməsi və qoşunların Bəsrə-Mosul dəmir yol xətti boyunca yerləşdirilməsi haqqında məxfi danışıqlar başlandı. Ölkənin daxili və xarici siyasəti, sənaye malları və aqrar məhsullarının ixracı ingilislərin nəzarəti altında yaradılan Ali Ərzaq Komitəsinin səlahiyyətinə keçdi.

N.Səid kabinetinin Böyük Britaniya meylli siyasəti həm mülki, həm də hərbi müxalifətin narazılığına və bu zəmində onların birləşməsinə səbəb oldu. Birincini təcrübəli siyasətçi Rəşid Əli əl-Qaylani, ikincini isə siyasi dairələrdə "qızıl dördbucaq" adı ilə tanınan dörd polkovnik (Səlahəddin əs-Sabbah, Mahmud Salman, Fəhmi Səid və Kamil Şəbib) təmsil edirdi. Bu qruplaşma ordudakı strateji vəzifələri öz əllərində cəmləşdirə bilmişdi. Hətta Baş Qərargah rəisi vəzifəsini icra edən Əmin Zəki Süleyman da onlara qoşulmuşdu. Hərbi müxalifətin liderləri hakimiyyətin ələ keçirilməsi üçün R.Ə.əl-Qaylani ilə birgə fəaliyyət tərəfdarı idilər və bu məqsədlə onunla gizli saziş bağladılar. Bu iki qüvvənin birgə hərəkəti nəticəsində 1941-ci il aprelin 1-də dövlət çevrilişi baş verdi və hakimiyyət əl-Qaylaninin rəhbərlik etdiyi Milli Müdafiə Şurasına keçdi. Nuri Səid, əmir Əbdul İllah və onların yaxın adamlarının bir qismi Urduna qaçdılar, bəziləri isə ABŞ və Böyük Britaniya səfirliklərinə sığındılar. Milli Müdafiə Şurasının və yeni hökumətin ilk bəyanatında ölkənin müharibədə bitərəflik saxlayacağı və bütün dövlətlərlə, o cümlədən Böyük Britaniya ilə yaranmış mübahisəli məsələlərin dinc yollarla həlli istiqamətində səy göstərəcəyi elan olundu. Eyni zamanda, İraqın "bütün beynəlxalq öhdəlikləri"nə, o cümlədən 1930-cu il İraq-Böyük Britaniya müqaviləsinin şərtlərinə sadiq qalması da vurğulanırdı. Çevrilişdən dərhal sonra Böyük Britaniya hökuməti İraq sərhədlərində iri hərbi hissələr cəmləşdirdi və 1941-ci il mayın 2-də əl-Qaylani hökumətinə qarşı əməliyyatlara başladı. Tez bir zamanda İraq ərazisi yenidən işğal olundu. Əhalinin tələblərinə baxmayaraq əl-Qaylani hökuməti xalqı silahlandırmaqdan imtina etdi və "sakitliyin qorunub saxlanılması və bütün əcnəbilərə qarşı heç bir düşmənçilik hərəkətlərinə yol verilməməsi" çağırışı ilə çıxış etdi. Əl-Qaylani və ordu rəhbərliyi müqavimətin mənasız olduğunu dərk edərək, ölkədən getdilər. 1941-ci il iyunun 1-də Böyük Britaniya qoşunları Bağdada daxil oldular, iyunun 18-də isə bütün iri şəhərlər, əhəmiyyətli strateji məntəqələr, dəmir və şosse yolları, Bəsrə limanı tutuldu. İraq ərazisinə 100 minlik Böyük Britaniya ordusu yerləşdirildi. Əmir Əbdul İllah, N.Səid və ya-

xınları Bağdada döndülər. Oktyabrın 9-da N.Səid yenidən Baş nazir oldu.

İraqın ikinci, bu dəfə dinc işğalı 1947-ci ilin payızına qədər davam etdi. Qeyd etmək lazımdır ki, Böyük Britaniya hakim dairələri bu hadisədən regionda, o cümlədən İraqda mövqelərinin daha da möhkəmləndirilməsi üçün istifadə etdi. Eyni zamanda, İraqdakı hakimiyyət də yaranmış vəziyyətdən siyasi rəqiblərinin tam sıradan çıxarılması üçün yararlanmağa çalışırdı. Məsələn, çevrilişin bir çox fəal iştirakçısı məhbəslərə, həbs düşərgələrinə salındı, ordu rəhbərləri isə edam olundu. Ordu və polis hissələri yenidən təşkil edildi, onların sırasında, eləcə də bir çox nazirliklər və dövlət strukturlarında təmizlənmə əməliyyatları həyata keçirildi. 1943-cü ildə İraq konstitusiyasına edilmiş dəyişikliklər nəticəsində aşağı palatanın hüquqları məhdudlaşdırıldı, eyni zamanda kral və regentin səlahiyyətləri artırıldı.

1943-cü il yanvarın 17-da İraq hökuməti Almaniyaya və İtaliyaya rəsmən müharibə elan etdi. Lakin İraq ordusu bilavasitə hərbi əməliyyatların iştirakçısı deyildi. Sadəcə ölkə ərazisi Böyük Britaniya komandanlığı tərəfindən hərbi hissələrin yerləşdirilməsi və qonşu ölkələrlə əlaqələr saxlanılması, hərbi sursat və ərzağın tranzit daşınması bölgəsi kimi istifadə olunurdu.

Müharibə illərində İraq hakim dairələri ziq-zaqlı siyasətlərini davam etdirməkdə idilər. İqtisadiyyat durğunluq vəziyyətində idi. Yoxsulluğun artması, inflyasiya, xəstəliklər, aclıq, səfalət əhalinin rifah səviyyəsinə mənfi təsir göstərirdi. Bu da vaxtaşırı ölkənin müxtəlif bölgələrində hökumət əleyhinə lokal çıxışlar üçün meydan açırdı. Onlardan ən mütəşəkkili 1943-cü ilin yayında İraqın quzeyində kürd əhalisi yaşayan ərazilərdə baş verdi. Mustafa Bərzaninin rəhbərliyi altında silahlı dəstələr bəzi xarici qüvvələrin maddi və mənəvi dəstəyi ilə hökumət qüvvələrinə qarşı bir sıra uğurlu əməliyyatlar keçirərək, onlara ciddi zərbələr vurdular. Kürdlərin çıxışları 1945-ci ilin payızına kimi davam etdi və yalnız Böyük Britaniya hava qüvvələrinin müdaxiləsindən sonra onlar müqavimətdən əl çəkdilər. 1945-ci ilin oktyabrında M.Bərzani və iki minə yaxın qəbilə üzvləri İrana mühacirət etdilər və orada məskunlaşdılar.

Müharibə illərində İraqda bir sıra siyasi partiya və qurumlar yaranmağa başladı. Bu sırada Xalq və Milli Birlik partiyalarını göstərmək olar ki, onların ətrafında ziyalılar, tələbələr, xırda sahibkarlar və sənətkarlar cəmləşmişdi. Hələ 1934-cü ildə yaranmış İraq kommunist partiyası da fəallaşmışdı və 1945-ci ilin aprelində I qurultayını keçirərək Milli Xartiya adlı

proqram qəbul etdi. Eyni zamanda, mərkəzçi və sağ qüvvələr də fəaliyyətlərini genişləndirmək məqsədi ilə bir sıra partiya və qurum yaratdılar. Məsələn, 1946-ci ilin aprelində milli və şəhər burjuaziyasının maraqlarını ifadə edən Milli-Demokratik partiya, liberal torpaq mülkiyyətçilərini və iri burjuaziyanı təmsil edən Liberal və İstiqlal partiyaları siyasi meydana çıxdı. 1946-ci ildə isə sıralarında ölkənin kürd əhalisini birləşdirən və onların milli-etnik maraqlarından sıxış edən Kürdüstan Demokrat Partiyası yaradıldı.

II Dünya savaşından sonrakı İraq tarixi savaşın gedişi və nəticələrinin istər bütün dünyada, istərsə də bölgədə, o cümlədən ölkənin özündə doğurmuş olduğu şərait və şərtlərdən qaynaqlanan siyasi mübarizənin yüksəlişi, istiqlaliyyət və iqtisadiyyatın möhkəmləndirilməsi forma və yollarının axtarışı, bölgədə aparıcı dövlətə çevrilmək uğrunda səy və cəhdlərin artması ilə xarakterikdir.

Elə oradan başlamaq istərdik ki, irəlidə sözügedən və yarım-leqal fəaliyyət göstərən Xalq, Milli Birlik, Milli-Demokrat, Liberal, İstiqlal və Milli-İstiqlal partiyalarında birləşmiş siyasi qüvvələr hələ savaşın son illərində ölkə həyatının demokratikləşdirilməsi, sosial-iqtisadi dəyişikliklər aparılması şüarları ilə yanaşı Böyük Britaniya ilə münasibətlərə yenidən baxılması, ondan asılılığa və işğala son qoyulması, İraqın daha müstəqil olması tələbləri ilə çıxış edirdilər. 1946-cı il fevral 23-də liberal siyasətçi Tovfiq əs-Süveydi hökumətinin fəaliyyəti də həmin tələblər istiqamətində oldu. Hərbi vəziyyət və senzuranı ləğv edən hökumət 1930-cu il İraq-Böyük Britaniya müqaviləsinin dəyişdirilməsi məqsədi ilə xüsusi komitə yaratdı. Həmin ilin aprelində siyasi partiyalar leqallaşdırıldı, seçki qanununa bir sıra müsbət dəyişikliklər edildi, deputatların sayı 115 nəfərdən 135-ə çatdırıldı.

Qeyd edək ki, istər savaş dövründə, istərsə sonra İraqda etnik separatizm və solçu meyllər də güclü təzahür etmişdir. Həmin dövrdə regionda möhkəmlənmək istəyən Sovet İttifaqının maddi və mənəvi yardımı ilə qonşu İranda kürdlərin ayağa qalxmasından ruhlanan Mustafa Bərzaninin başçılıq etdiyi kürd qəbilələri də İraqda fəallaşmışdılar. Onların silahlı çıxışları 1945-ci ilin oktyabr ayında yatırıldı, Mustafa Bərzani və tərəfdarları İrana qaçdılar. Bundan sonra kürdlər mübarizəni siyasi müstəviyə keçirdilər, 1946-cı ildə Kürdüstan Demokrat Partiyası yaradıldı.

Ümumiyyətlə isə, ölkədə siyasi təşkilatlanmanın bu cür genişlənməsi və qütbləşməyə meyl göstərməsi prosesinin gedişinə "soyuq savaş" dövründə Batı və Doğu bloklarının regionda öz planlarını gerçəkləşdirmək istəyi

müəyyən təsir göstərirdi. Çünki, həmin bloklar yerlərdə sağçı və solçu qüvvələrin timsalında öz dayaqlarını tapırdısa, siyasi qüvvələr də blokları öz tərəfdaşları kimi görürdülər.

1946-cı ilin mayında Ərəb Dövlət başçılarının toplantısında, iyulda Ərəb Dövlətləri Liqasının sessiyasında bölgəyə "kommunizmin nüfuz etməsinə qarşı mübarizə"də qüvvələri birləşdirmək haqqında qərarların qəbul olunması və 1946-1947-ci illərdə sollara qarşı bir sıra kəskin tədbirlərin görülməsi də həmin baxımdan edilmişdi. Bu amil 1948-ci il yanvarın 15-də Portsmutda İraq-Böyük Britaniya müqaviləsi imzalanarkən İraqa xeyli güzəştlər edilməsi ilə yanaşı müharibə şəraitində və ya "müharibə təhlükəsi" yaranarsa ölkəyə ingilis qoşunlarının girməsi, buradakı ingilis hərbi bazalarının saxlanılması və s. şərtlərin qəbul edilməsində də əsas rol oynadı.

İraq xalqı nəinki Böyük Britaniyaya verilən güzəştləri, ümumiyyətlə müqaviləni kəskin etirazla qarşıladı, onun bütünlüklə ləğv edilməsi şüarları ilə küçələrə çıxdı. Bağdadda və digər iri şəhərlərdə yüz minlərlə insanın qatıldığı nümayişlər və mitinqlər oldu. Qanlı toqquşmalar baş verdi. Müqaviləni imzalamış Saleh Cəbr hökuməti istefaya getdi. Yeni hökumət 1948-ci il fevral 3-də müqaviləni rədd etdiyini bildirdi. Hökumət həm də yaranmış vəziyyətdən yararlanmağa çalışan aşırı solçulara, xüsusilə də kommunistlərə qarşı təqib və cəzaları artırdı.

Bəlli olduğu kimi, həmin arada baş vermiş 1948-1949-cu illər Fələstin savaşında Ərəb dövlətlərinin məğlubiyyəti nəticəsində bütün Ərəb Dünyasında böyük bir ruh düşgünlüyü yaranmış, ərəb liderləri arasında parçalanma baş vermiş və xalqın ağır sosial-iqtisadi və siyasi şərtlər içərisində səfalətli həyat sürməsi gərginlikləri son həddə çatdırmışdı. Bu hal İraqdan da yan keçmədi.

1949-cu ilin yanvarından hakimiyyətə gələn Nuri Səid ölkədəki mövcud durumu nəzarətə almaq üçün ciddi fəaliyyətə başladı. Savaş səbəbindən ölkədə elan edilmiş hərbi vəziyyət rejimi bir qədər də gücləndirildi. Nuri Səid açıqca bildirdi ki, onun hökumətinin başlıca vəzifəsi ölkəni kommunistlərdən təmizləmək və kommunizmə qarşı mübarizə aparmaqdır. Bu məqsədlə 1949-cu ilin fevralında 1947-ci il hadisələrində təşkilatçı və iştirakçı olmuş, həmin səbəbdən məhkum edilmiş kommunistlər üzərində yenidən məhkəmə işi başladı, onlardan bir neçəsinə edam, böyük bir qrupa isə ömürlük həbs cəzası verildi.

Nuri Səid hökuməti ölkədə sakitlik yarada bildi, lakin bu uzun sürmədi.

Çünki, həmin dövrdə bütün ərəb dünyasında olduğu kimi İraqda da ərəb millətinin mövcud şərtlər içərisində yaşamasının mümkünsüzlüyü daha çox dərk olunurdu. Yaranmış vəziyyətdən çıxmaq yolları haqqında daha çox düşünülürdü. Milli hisslər güclənir, milli şüur yüksəlir və millətçilik ideyaları daha çox insanları əhatə edirdi. Məhz bu zəmində siyasi qüvvələrin yenidən birləşməsi və təşkilatlanması prosesi gedirdi. İlk öncə Nuri Səidi dəstəkləyən qüvvələr 1949-cu ilin noyabrında Konstitusiya İttifaqı Partiyasında birləşdilər. İkinci bir güclü partiya 1951-ci ilin iyulunda Saleh Cəbrin başçılığı altında yarandı. Milli-Sosialist Partiyası adlanan bu təşkilatın sıralarında millətçi ovqatlı sağ qüvvələr cəmləşdi.

Orta təbəqəni təşkil edən siyasi qüvvələr isə daha çox Vahid Xalq Cəbhəsi və Ərəb Sosialist Dirçəliş (Bəəs) partiyalarına daxil olurdular və onlar təkcə siyasi müxalifət kimi yox, həm də ideoloji müxalifət kimi get-gedə kifayət qədər möhkəmlənirdilər. Ümumiyyətlə isə, bütün qüvvələr ölkənin daha müstəqil və daha azad dövlətə çevrilməsinə özlərinin başlıca vəzifələri kimi baxırdılar. Ölkədə yeni bir siyasi mühit hakim idi.

1951-ci il iyulun 26-da İraq hökumətinin İPK ilə gəlirlərin yarıbayarı bölünməsi və digər güzəştlər haqqında saziş bağlanması məhz həmin mühitin, daha dəqiq desək, onu yaradanların qələbəsi sayılmalıdır.

1952-ci ilin martında hərbi vəziyyətin ləğvindən sonra isə ölkədəki siyasi partiya və təşkilatların fəallaşmaq imkanları xeyli genişləndi. Nümayişlər, mitinqlər və piketlərin keçirilməsi gündəlik həyat normasına çevrildi. 1952-ci ilin noyabrında Bağdadda baş verən güclü çıxışlar zamanı parlamentə birbaşa seçkilər keçirilməsi müxalifət partiyalarının əsas tələbi oldu. Bağdad çıxışları daha da böyüdü və ona qoşulanların sayı xeyli artdı. Çıxışlar get-gedə antihökumət xarakteri aldı və idarəolunmaz bir hala gəldi. Onu yatırmaq üçün göndərilən qüvvələr heç nə edə bilmirdi. Vəziyyətin son dərəcə gərgin və qorxulu olduğunu görən hökumət silaha əl atdı. Ölən və yaralananlar oldu.

1952-ci il noyabrın 23-də hərbi rejimə keçildi. Hökumətə başçılıq isə Baş Qərargah rəisi general Nurəddin Mahmuda tapşırıldı. Bağdada və ölkənin digər iri şəhərlərinə qoşun yeridildi, bütün müxalifət partiya və təşkilatları, həmkarlar birlikləri buraxıldı, onların mətbu orqanları bağlandı. 3 mindən çox adam həbsə alındı və hərbi tribunallar tərəfindən müxtəlif cəzalara məhkum edildi.

Bununla yanaşı hakimiyyət bir sıra güzəştlərə getməyə məcbur oldu.

1952-ci il dekabrın 16-da ikipilləli parlament seçkiləri birbaşa seçkilərlə əvəz edildi. 1953-cü il yanvarın 17-də isə seçkilər keçirildi. Cəmil əl-Midfai baş nazir oldu. Onun dövründə də hərbi vəziyyət saxlanıldı, müxalifət partiyalarına qarşı təqib və cəza tədbirləri davam etdirildi.

Həmin illərdə regionda, o cümlədən İraqda antiingilis ovqatının güclənməsi zəminində ABŞ-ın mövqelərinin möhkəmlənməsi xarakter hala çevrilmişdi. Bu, İraqda da açıq-aşkar şəkildə müşahidə olunurdu. 1953-cü il sentyabrın 17-də baş nazir vəzifəsinə amerikapərəst Fazil əl-Cəmalinin gətirilməsi, onun dövründə ABŞ-la daha da yaxınlaşma, təbiidir ki, təsadüfi deyildi. Öz sələfindən fərqli olaraq Fazil əl-Cəmali hərbi vəziyyəti ləğv etdi, kommunistlərdən başqa bütün partiyaların fəaliyyətinə icazə verdi. Ölkədə demokratik prinsiplərin bərpası istiqamətində müəyyən işlər görüldü. Antikommunist və antisovet ovqat rəsmi siyasət olaraq davam etdirilməkdə idi. İraqın "Dalles planı" çərçivəsində Türkiyə, Pakistan və İrandan ibarət yeni regional müdafiə paktına qoşulmağa meyl göstərməsi onun Batı bloku və müttəfiqləri ilə əlaqələri möhkəmləndirmək kursunun tərkib hissəsinə çevrildi. ABŞ-dan hərbi yardım almaq üçün Vaşinqtonda danışıqlar başladı. 1954-cü il martın 12-dı kral II Feysəl və Nuri Səid Pakistanda oldular. Burada, sonra isə Ankarada aparılan danışıqlarda İraqın pakta qoşulması prinsipcə razılaşdırıldı. Aprelin 25-də isə Bağdadda ABŞ-dan güzəştli şərtlərlə silah alınması haqqında müqavilə imzalandı.

İraqın birtərəfli və nümayişkaranə şəkildə Batı ilə hərbi tərəfdaşlığı həm ölkənin daxilində, həm də qonşu ərəb ölkələrində güclü reaksiya doğurduğundan, yenidən siyasi gərginliyin artacağından ehtiyatlanan hökumət istefaya getdi.

Ərşad əl-Ömərinin başçılıq etdiyi hökumət pakta qoşulmağın təxirə salındığını bildirdi. Kral II Feysəlin fərmanı ilə parlament buraxıldı və 1954-cü il iyunun 9-da seçkilər təyin edildi.

Seçkilərdə partiyalardan heç biri tam üstünlük qazana bilmədi. Konstitusiya İttifaqı Partiyası 56 mandat, Milli-Sosialist Partiyası 21 mandat aldı. Parlamentdəki 135 yerdən 11-i isə seçkilər ərəfəsində Vahid Milli Cəbhədə birləşmiş solçu qüvvələrə çatdı.

1954-cü ilin avqustunda Nuri Səidin başçılığı altında yalnız Konstitusiya İttifaqı Partiyası üzvlərindən ibarət hökumət təşkil olundu. Nuri Səid hökumətinin başlıca vəzifəsi ölkədə açıq və gizli şəkildə özünü göstərən və hər an partlaya biləcək siyasi gərginliyin mənbələrini aradan qaldırmaq ol-

du. Bu məqsədlə hökumət gərginliyin başlıca mənbəyi hesab etdiyi kommunistlərə yönəli bir sıra dekretlər verdi. Kommunistlər və digər aşırı solçular vətəndaşlıq hüququndan məhrum olunmaqdan başlayaraq ölkədən sürgün edilməyədək cəzalara məruz qaldılar, həmkarlar təşkilatlarının fəaliyyəti isə dövlətin güclü nəzarəti altına alındı.

1954-cü il sentyabrın 12-də parlamentə yeni seçkilər keçirildi və yerlərin 90%-dən çoxunu Nuri Səid tərəfdarları qazandı. Beləliklə də Nuri Səid hökuməti istədiyi hər hansı sənədi parlamentdə təsdiq etdirmək imkanı əldə etdi. Müdafiə paktı yaradılması məsələsinə yenidən önəm verildi. 1955-ci ildə qarşılıqlı əməkdaşlıq haqqında İraq-Türkiyə müqaviləsinin bağlanması ilə sonralar Bağdad Paktı adı ilə tanınacaq təşkilatın əsası qoyuldu. Böyük Britaniya (5 aprel), Pakistan (23 sentyabr) və İran (3 noyabr) da qoşulmaqla Bağdad Paktının yaranması başa çatdı.

1955-ci il aprelin 4-də bağlanan İraq-Böyük Britaniya sazişi ilə xarici təhlükədən birgə qorunmaq, hərbi planlar hazırlamaq, İraq silahlı qüvvələrinin yenidən təşkilində əməkdaşlıq etmək və s. məsələləri ehtiva edirdi. Sazişə görə İraqdakı ingilis hərbi bazaları yerli hərbi komandanlığın sərəncamına verilirdi. Lakin ehtiyac olduqda Böyük Britaniyanın həmin bazalardan istifadə hüququ saxlanılırdı.

Qeyd edək ki, bu proses Sovet İttifaqı ilə münasibətlərin korlanması ilə müşayiət olunurdu. Hətta 1955-ci il yanvarın 3-də İraq sovetlərlə diplomatik münasibətləri belə kəsmişdi.

İraqın Bağdad Paktına girməsi bir sıra ərəb dövlətləri (bunların başında Misir və prezident C.Ə.Nasir dururdu) tərəfindən kəskin etirazla qarşılandı. Bu zəmində ölkə daxilində də narazı qüvvələr fəallaşdılar və İraqın Bağdad Paktından çıxmasını tələb etməyə başladılar. 1956-cı ilin oktyabrında Süveyş böhranı dövründə isə vəziyyət xeyli qorxulu xarakter aldı. Ölkədə Misiri müdafiə etmək şüarları altında güclü çıxışlar baş verdi. Böyük Britaniya, Fransa və İsrailin Süveyşdə apardığı hərbi əməliyyatlara etiraz olaraq Nuri Səid bir sıra tədbirlər gördü. Misirə hərbi və digər köməklər göstərilməsi, Fransa ilə diplomatik münasibətlərin kəsilməsi, Bağdad Paktı şurasının ingilis təmsilçisinin olduğu toplantılarında iştirakdan imtina və s. haqqında bəyanatlar verildi.

Bütün bunlara baxmayaraq, etirazlar dalğası səngimək bilmirdi və daha çox antihökumət xarakteri kəsb edirdi. Odur ki, polis və ordu qüvvələrinə qəti hərəkətə keçmək əmri verildi və iki həftədən çox sürmüş çıxışlara

son qoyuldu, təşkilatçılar və fəal iştirakçılar müxtəlif cəzalara məruz qaldılar.

Lakin məğlubiyyət narazı qüvvələrin, xüsusilə də aşırı solçuların, güclənməkdə olan bəasçılər və nasirçilərin bir araya gəlməsində mühüm rol oynadı. İraq Kommımist Partiyası, Milli-Demokrat Partiyası, Bəəs və İstiqlal Partiyasının iştirakı ilə 1957-ci ilin fevralında Milli Birlik Cəbhəsi yaradıldı. Onun başlıca proqram vəzifələri isə mövcud rejimi devirmək, parlamenti buraxmaq, Bağdad Paktından çıxmaq və s. oldu. Gizli fəaliyyət göstərən "Azad zabitlər" təşkilatı da Milli Birlik Cəbhəsini və onun proqramını dəstəklədi. Hadisələrin sonrakı gedişində isə polkovnik Əbdül Kərim Qasim və müavini polkovnik Əbdül Səlam Arifin başçılıq etdiyi "Azad zabitlər" önə çıxdı.

Həmin dövrdə "Azad zabitlər" təşkilatında birləşən və onu dəstəkləyən hərbçilər ayrı-ayrılıqda müxtəlif partiyalarla ünsiyyətdə idi və heç də hamısı eyni ideyanı müdafiə etmirdi. Ancaq onların qəbul etdiyi Milli Paktda monarxiyanın devrilməsi, parlament demokratiyasına əsaslanan respublika qurulması, hakimiyyətə yiyələndikdən sonra "Azad zabitlər"in Bağdad təşkilatını İnqilabi Şura (İŞ) elan etmək və bütün hakimiyyət strukturlarını İŞ-in nəzarəti altına vermək kimi məsələlərdə hamı yekdil idi. Proqramda ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı digər vəzifələr də var idi. Misirlə yaxınlaşmaq, hətta bir dövlət halında birləşərək ərəb dünyasına nümunə göstərmək niyyəti də "Azad zabitlər"in proqramında xüsusi nəzərə çatdırılırdı.

Təbiidir ki, həmin dövrdə ərəb dünyasında və xüsusilə də Misirdə antibatı ovqatının şiddətlənməsi və perspektiv inkişaf yollarının axtarışı cəhdlərinin artması İraqdakı duruma təsirsiz ötüşə bilməzdi. Müxalifət qüvvələrinin ciddi hərəkətə keçmək anı çatmaqda idi.

1958-ci il fevralın 14-də Böyük Britaniya və ABŞ-ın təşəbbüsü ilə Birləşmiş Ərəb Respublikasına alternativ kimi İraq və Urdundan ibarət Ərəb Federasiyası yaradılması isə mövcud siyasi gərginliyi daha da artırdı. 1958-ci il iyulun 13-də Urdundan keçməklə Lubnana kömək üçün göndərilən hərbi qüvvələrin komandirləri polkovniklər Əbdül Kərim Qasim, Əbdül Səlam Arif və "Azad zabitlər" təşkilatının digər üzvləri Milli Birlik Cəbhəsinin rəhbərləri ilə əlaqəyə girdilər və Nuri Səid hökumətini devirməyə qərar verdilər. İyulun 14-də hərbi qüvvələr Bağdada daxil oldu, kral sarayı və digər strateji obyektlər tutuldu, kral II Feysəl və baş nazir Nuri Səid

öldürüldü, digər dövlət adamları zərərsizləşdirildi.

İraq respublika elan edildi. Polkovnik Əbdül Kərim Qasimin başçılığı altında respublikanın ilk hökuməti təşkil olundu. Polkovnik Əbdül Səlam Arif isə baş nazirin müavini və daxili işlər naziri vəzifələrini tutdu. Hökumətin tərkibinə, kommunistlər istisna olmaqla, Milli Birlik Cəbhəsində birləşən bütün partiyaların təmsilçiləri daxil edildi.

Doğrudur, çevrilişin birinci günü Bağdad Paktı ölkələri, xüsusilə ABŞ və Böyük Britaniya qanuni hakimiyyəti müdafiə etmək məqsədi ilə İraqa qoşun yeritmək təşəbbüsü göstərdilər. Lakin ölkədaxili və beynəlxalq ovqatı nəzərə alaraq geri çəkildilər. Az sonra isə İraq respublikasını de-yure tanıdılar.

Beləliklə də, İraqın tarixində yeni bir inkişaf yolunun gerçəkləşdirilməsinə başlanıldı və bunun da mahiyyətində monarxiya rejimindən respublika rejiminə keçmək, respublika idarəçilik sisteminin siyasi-hüquqi bazasını hazırlamaq dayanırdı. 1958-ci il iyulun 26-da ölkənin müvəqqəti konstitusiyası qəbul edildi. O, bütün vətəndaşların hüquq bərabərliyini, siyasi və ictimai təşkilatların sərbəst fəaliyyət göstərmək haqlarını elan etdi. Keçmiş rejimin nümayəndələri həbsə alındı. Parlament buraxıldı və onun səlahiyyətləri Dövlət Şurasına verildi. Dövlət strukturları şübhəli sayılan şəxslərdən təmizləndi. Siyasi məhbuslar və xarici mühacirlər azadlıq aldılar.

Əbdül Kərim Qasim hökuməti sosial-iqtisadi sahədə də ciddi dəyişikliklər apardı. 1958-ci il sentyabrın 30-da aqrar islahat haqqında qanun verildi. Həmin qanuna görə torpaqların yarısı onun mülkiyyətçisindən əvəzi ödənilmək şərti ilə alınmalı və torpaqsız kəndlilər arasında bölüşdürülməli idi. Bunun ardınca hökumət sənaye inkişaf proqramını irəli sürdü. Digər tərəfdən isə xarici ticarət-iqtisadi əlaqələrinin üzünü daha çox Sovet İttifaqına tərəf döndərdi. 1958-ci il iyulun 18-də diplomatik münasibətlər bərpa olundu və oktyabrın 11-də Bağdadda tərəflər arasında ticarət müqaviləsi bağlandı. 1959-cu ilin martında isə əlaqələrin daha geniş spektrini əhatə edən iqtisadi və texniki əməkdaşlıq haqqında müqavilə imzalandı. Sonrakı sazişlərə görə Sovet İttifaqı İraqa kreditlər də verməyə başladı.

Qeyd edək ki, aparılan islahatlar və dəyişikliklər ölkədə kifayət qədər güclü mövqeləri olan siyasi və iqtisadi güc sahiblərinin maraqlarına zidd idi və onların güclü müqaviməti ilə qarşılanırdı. Eyni zamanda hakim siyasi elitanın üzvü olan bir sıra qruplaşmaların özü də Əbdül Kərim Qasim hökumətinin volüntar siyasətindən narazı idilər və buna baş nazirin şəxsi ha-

kimiyyətini möhkəmləndirmək cəhdləri kimi baxırdılar. Məhz bu zəmində Əbdül Kərim Qasim hökumətinə qarşı olan qüvvələrin fəallaşması və təşkilatlanması başladı. 1958-ci ilin noyabrında Bağdadda Ə.S.Arifin başçılığı ilə bəasçilərin və yunionistlərin iştirakı ilə antihökumət qəsdi, dekabrın 9-da İstiqlal Partiyası liderlərinin dövlət çevrilişi cəhdi nəticəsiz qaldı. 1959-cu ilin martında Mosul qarnizonu hərbçilərinin qiyamı yatırıldı.

Yaranmış vəziyyətdən kommunistlərin başçılıq etdiyi sol qüvvələr öz mövqelərini möhkəmləndirmək üçün istifadə etməyə cəhd göstərdilər. Onlar communistlərin iştirakı ilə hökumət təşkili ideyasını irəli sürdülər. Ə.K.Qasim sol partiyaların bu təklifini qəbul etmədi və ölkədəki başlıca qüvvələrin balanslaşdırılmış şəkildə hakimiyyətdə təmsil olunması kursuna keçdi. 1959-cu il mayın 3-də yaradılmış yeni kabinetdə artıq ənənəvi mühafizəkar siyasi və hərbi dairələrin təmsilçiləri də var idi.

Daxili həyatda köklü dəyişikliklər aparılması və ziddiyyətlərin tənzim edilməsinə çalışılması ilə yanaşı Ə.K.Qasim hökuməti xarici siyasət kursunda da ciddi dönüş yaratdı. 1959-cu il martın 24-də İraq Bağdad Paktından çıxdı və 1955-ci il 4 aprel tarixli İraq-Böyük Britaniya müqaviləsi qüvvədən düşdü. Martın 30-da ingilis hərbçiləri ölkəni tərk etdilər. Həmin gün ABŞ-la 1954-1955-ci illərdə bağlanmış üç saziş birtərəfli qaydada ləğv edildi. İraq sterlinq blokundan çıxdı.

Görülən tədbirlər Ə.K.Qasim hökumətinin sosial və siyasi dayaqlarını az da olsa möhkəmləndirdi. O, təqib və cəzaları davam etdirməklə yanaşı, cəmiyyətin demokratikləşməsi baxımından da müəyyən tədbirlər gördü. Belə ki, 1959-cu il sentyabrın 20-də ildə monarxiya rejiminin dörd siyasi xadimi və Mosul qiyamının 13 iştirakçısı edam olundu. Noyabrın 12-də İraq Həmkarlar Təşkilatları Federasiyasına, 1960-cı il yanvarın 6-da isə partiya və ictimai təşkilatlara leqal fəaliyyət imkanı verildi.

Ə.K.Qasim hökumətini rahatsız edən bir məqam də kürd etnik azlığı ilə bağlı idi. 1958-ci il Konstitusiyası ərəblərin və kürdlərin bərabərliyini və vahid dövlət çərçivəsində bu xalqın milli maraqlarının təmin olunacağını bəyan etdi. Kürd separatçıları liderlərinin mühacirətdən qayıtmasına icazə verildi və Mosul, Kərkük, Ərbil, Süleymaniyyə kimi əyalətlərin inzibati-idarə strukturlarında kürdlər daha çox təmsil olunurdu, hökumətdə kürd nazirlər var idi. Hətta prezident səlahiyyətlərini daşıyan Dövlət Şurasına kürd əsilli Xalid Nəqşbəndi başçılıq edirdi. Kürd dilində təhsil və mətbuat var idi. Kürdlərin siyasi fəaliyyətinə normal şərait yaradılmışdı və s. Lakin Kürdü-

stan Demokrat Partiyasında və digər sol yönümlü təşkilatlarda birləşən qüvvələr İraq Kommunist Partiyası ilə əməkdaşlıq zəminində getdikcə radikallaşır, mədəni muxtariyyəti milli muxtariyyətə çevirməyə çalışırdılar. Onlar bu niyyəti gerçəkləşdirmək üçün xarici havadarlarından xeyli maddi və mənəvi dəstək də alırdılar, hərbi dəstələr təşkil edir və silahlanırdılar. Belə olan təqdirdə hakimiyyət də onlara qarşı siyasətdə müəyyən korrektələr etməli oldu.

Əvvəlcə tərəflərin söz və qələmlə apardığı mübarizə 1961-ci ilin sentyabrında silaha əl atılması və qardaş qırğını ilə nəticələndi. Tərəflərdən birinin qələbəsi və digərinin məğlubiyyəti ilə əvəzlənən hərbi əməliyyatlar seriyası başlandı. Bunun yeganə nəticəsi o oldu ki, günahsız insan qırğınından əlavə onsuz da uğursuz islahatlar səbəbindən iqtisadi çətinliklərlə üzüzə qalan və mürəkkəb daxili siyasi vəziyyəti tənzimləmək imkanları lazımi səviyyədə olmayan hökumətin iflası sürətləndi.

Həmin dövrdə sosial-iqtisadi və siyasi durumun necəliyini təsəvvür etmək üçün bir sıra faktları sadalamaq istərdik. Məsələn, çevrilişdən keçən müddətdə başlıca ərzaq məhsullarının qiyməti 2 dəfədən çox artmış, işçilərin real əmək haqqı 50% azalmışdı. Şəhər əhalisinin yarısı işsiz idi. Bu zəmində tətil hərəkatı genişlənir və daha çox sosial təbəqələri əhatə edirdi.

Hökumətin bəzi tədbirləri isə İraqın bir sıra dövlətlərlə münasibətlərində ciddi gərginlik yaratdı. 1961-ci ilin iyununda Küveytə ərazi iddiası edilməsi Misir ilə əlaqələri tamamilə pozdu, Lubnan, Urdun və ABŞ ilə diplomatik münasibətlərin kəsilməsi ilə nəticələndi, Böyük Britaniya ilə düşmənçiliyə gətirdi. Həmin ilin dekabrında İPK ilə yaranan ziddiyyətlərə görə şirkətin kapitalının 20%-ni və bəzi strukturları bütünlüklə milliləşdirmək tələbi rədd cavabı aldıqda hökumət milli bir şirkət qurulduğunu elan etdi. Təbiidir ki, son tədbir Ə.K.Qasim hökumətini xarici dəstəkdən də məhrum etdi.

Hadisələrin bu məcrada davamı istər siyasi müxalifət qüvvələrinə, xüsusilə solçulara, istərsə də hakimiyyət daxilindəki narazı qüvvələrə geniş əl-qol açmaq imkanı yaratdı. Sollar "Sosialist bloku"nda birləşdi, ordudakı narazı bəəsçi zabitləri də öz tərəflərinə çəkərək onların iştirakı və köməyi ilə "Milli qvardiya" adlanan hərbi dəstələr təşkil etdilər. Bu qüvvələr Ə.K.Qasim hökumətini devirmək üçün birgə hərəkətə keçdilər və 1963-cü il fevralın 8-də Bağdad qarnizonunun tank və piyada hissələri dövlət və hökumət binalarını tutdular. Ə.K.Qasim öldürüldü, bir sıra silahdaşları həbsə alındı.

Çevriliş nəticəsində Milli İnqilabi Komandanlıq Şurası (MİKŞ) və yeni

hökumət təşkil olundu. Əbdül Səlam Arif prezident və Əhməd Həsən əl-Bəkr baş nazir oldu. Dövlət və hökumətdəki başlıca vəzifələr əsasən Bəəs partiyasının üzvlərinə çatdı.

Yeni hakimiyyət ilk gündən öz rəqiblərinə qarşı amansız hücuma keçdi, kommunistlərə və Qasim tərəfdarlarına divan tutuldu. Bütün siyasi partiyalar və ictimai qurumların fəaliyyətinə yasaq qoyuldu. Rəsmi "əl-Cəmahir" qəzetindən başqa bütün mətbu orqanları bağlandı.

1963-cü il martın 15-də hökumət sosial-iqtisadi və siyasi islahatların istiqamətini müəyyənləşdirən "Mərhələli proqram" adlı elan etdiyi sənəddə siyasi həyatda bloklara qoşulmamaq və BMT-nin Nizamnaməsinə uyğun olaraq bütün ölkələrlə, ilk növbədə ərəb ölkələri ilə sıx münasibətlər qurmaq nəzərdə tutulurdu. Misir, Suriya, Yəmən, Əlcəzair və İraqdan ibarət vahid ərəb dövləti yaratmaq planlaşdırılırdı. “Mərhələli proqram” iqtisadi sahədə “sosializm” prinsiplərinə söykənən və İraqın xüsusiyyətlərini nəzərə alan planlı iqtisadiyyat qurulması, başlıca sənaye sahələrinin müəyyənləşdirilməsi və aqrar islahatın dərinləşməsini nəzərdə tuturdu.

Bu proqramın həyata keçirilməyə başlanması ilə hökumətdə təmsil olunan qruplaşmalar arasında fikir ayrılığının meydana çıxması bir vaxtda oldu. Bir tərəfdən bəəsçilər yunionistlər və "Ərəb birliyi“ ideyasını dəstəkləyən nasirçi qüvvələrlə birlikdə İraqın Misir və Suriya ilə birliyinə can atırdılar, digər tərəfdən isə onlarla əvvəlcə gizli, sonra açıq mübarizə aparırdılar. 1963-cü il martın 25-də ildə "Ərəb birliyi“ tərəfdarları və yunionistlər dövlət çevrilişində ittiham olundular və hökumətdən uzaqlaşdırıldılar. İyunda isə 8 fevral çevrilişində Bəəs-lə birlikdə olmuş digər siyasi qüvvələr və prezident Əbdül Səlam Arifi dəstəkləyən hərbçilər koalisiyadan çıxdılar. Nəticədə hökumətin yürütdüyü siyasətin də istər sosial-iqtisadi, istərsə siyasi nəticələri baxımından uğursuzluğu ilə müşayiət olunan bir durum yarandı. Doğrudur, ölkə qapılarının xarici ticarətin üzünə açılışı ilə İPK ilə münasibətlər normallaşdı. Lakin aqrar islahat zamanı baş verən əyintilər həm torpağı alınanları, həm də torpaq alanları narazı salır, özəl sənaye müəssisələrinin milliləşdirilməsi özünü doğrultmur, yenidən xarici özəl şirkətlərin ölkədə fəaliyyətinə icazə verilir və bütün bunlar iqtisadiyyatda bir xaos yaradırdı.

1963-cü ilin martında kürdlərə vəd edilən muxtariyyət statusu haqqında razılığa gəlinməməsi səbəbindən iyulda hərbi əməliyyatlar başlandı.

1963-cü il martın 8-də Suriyada Bəəs tərəfdarlarının çevriliş etməsi və

hakimiyyətə gəlməsindən sonra Suriya, Misir və İraq federasiyasının yaradılmasına cəhdlər edildi. 1963-cü il aprelin 18-də birlik haqqında bəyanata imza atıldı. Ancaq İraq ilə Suriyanın ikitərəfli münasibətlərə önəm verməsi, məsələn, oktyabrda İraq-Suriya hərbi müqaviləsi bağlanmışdı, Misirin Suriya ilə olan ziddiyyətlərini daha da artırdı və imzalanan sənəd quru bir kağız olmaqdan o yana getmədi.

Bütün bunlar hökumətin və Bəəsin xalq arasında nüfuzdan düşməsini sürətləndirirdi. Durumun ağır və əlverişli olduğunu görən prezident Əbdül Səlam Arif hərbçilərin dəstəyi ilə 1963-cü il noyabrın 18-də yuxarıdan bir çevriliş etdi, bəəsçiləri siyasi hakimiyyətdən uzaqlaşdırdı.

Bundan sonra MİKŞ və hökumətin tərkibi əsasən hərbçilərdən ibarət oldu. Hökumətə başçılıq general Tahir Yəhyaya tapşırıldı. Noyabrın 26-da elan olunan hökumət proqramında İraqda "ərəb sosializmi" prinsiplərinə əsaslanan, vətəndaşların azadlığı, bərabərliyi və təhlükəsizliyini təmin edən bir dövlət yaradılacağı bildirilirdi. Daxili siyasi həyatda ictimai təşkilatlar və həmkarlar birliklərinin rolunun artırılacağı, Ərəb Sosialist İttifaqı Partiyası yaradılacağı vədi verilirdi.

Çevrilişin ilk günlərindən dövlət aparatında və orduda öz mövqelərini gücləndirən Ə.S.Arif - T.Yəhya hakimiyyəti kürd probleminin dinc yollarla həllinə nail olmaq və hərbi əməliyyatları dayandırmaq üçün danışıqlara başladı və 1964-cü il fevralın 10-da tərəflər atəşkəs və tətbiq olunan iqtisadi blokadanın götürülməsi haqqında saziş imzaladılar. Bu hadisə daxili siyasi vəziyyətin sabitləşməsində mühüm rol oynadı.

Hökumətin elan etdiyi sosial-iqtisadi və siyasi proqramın gerçəkləşdirilməsi məsələsi və əvvəlcə elan olunan məsələlər kəskin müzakirələr doğurdu, onların həlli yolları haqqında vahid fikir yox idi. Lakin hakimiyyətdə təmsil olunan yunionistlər və onlara dəstək verən prezident Əbdül Səlam Arif proqramın tez bir zamanda həyata keçirilməsinin vacibliyinə önəm verilməsini qarşı tərəfə inandıra bildilər. Hökumət sözdən işə keçdi və bir sıra tədbirlər gördü. Fevralın 8-də yaradılan İraq Milli Neft Şirkətinin (İMNŞ) İPK-dan alınmış neft yataqlarında axtarış-kəşfiyyat işlərinə başlaması və apreldə aqrar islahatın davam etdirilməsi haqqında qanunlar verildi.

1964-cü mayın 4-də ildə yeni müvəqqəti Konstitusiya elan olundu. 1964-cü il 14 iyul qanununa əsasən xarici və yerli özəl bankların, sığorta şirkətlərinin və bir sıra iri sənaye müəssisələrinin milliləşdirilməsi, maaşların artırılması üçün yaradılmış xüsusi fonda hər müəssisənin gəlirinin 25%-nin

keçirilməsi, dövlət müəssisələrinin idarə olunmasında işçilərin iştirakı və s. iqtisadi tədbirlər arasında mühüm yer tuturdu.

İraqın BƏR ilə yaxınlaşması prosesi başladı. Yunionistlərin təkidi ilə iki dövlət arasında siyasi, hərbi və mədəni əməkdaşlıq genişləndi. 1964-cü il mayın 26-da 25 nəfərdən ibarət birləşmiş Prezident Şurası yaradıldı.

Sovet İttifaqı ilə münasibətlər normallaşdı. Onunla və digər sosialist ölkələri ilə bir sıra müqavilələr bağlandı.

Siyasi həyatın ən önəmli hadisələrindən biri iyulun 14-21-də Ərəb Sosialist İttifaqı Partiyasının təsis qurultayının keçirilməsi oldu. Bu partiyanın yaradılmasında başlıca məqsəd ölkədəki bütün siyasi qüvvələri bir araya gətirmək idi.

Lakin partiyanın mərkəzi orqanlarında buraxılmış yunionist təşkilatların liderlərinin daha çox təmsil olunması siyasi qüvvələr arasında nisbəti kəskin şəkildə pozdu. Onlar partiyadakı ovqatı tədricən dövlət hakimiyyətinə də keçirməyə çalışdılar. Məhz bu da 1964-cü ilin sonları - 1965-ci ilin əvvəllərində yunionistlərlə baş nazir T.Yəhya tərəfdarları arasında siyasi mübarizənin kəskinləşməsinə gətirdi. Yaranmış şəraitdə prezident Əbdül Səlam Arif baş naziri dəstəklədi, münaqişə açıq şəkil aldı və hökumətin yürütdüyü kursda dəyişikliklər baş verdi. 1965-ci il aprelin 4-də kürdlərlə döyüşlər bərpa olundu, iyunun 6-da isə İPK-ya güzəştlər edildi, ona verilən kompensasiyalar iki dəfə artırıldı. Etiraz olaraq yunionistlər partiya rəhbərliyindən çıxdılar, İPK ilə bağlanan sazişlərin ləğvini tələb etdilər. Belə olduqda prezident və tərəfdarları yunionistlərə qarşı hücuma keçdilər, 1965-ci ilin avqustunda Ərəb Sosialist İttifaqı buraxıldı. Sentyabrda isə T.Yəhya hökuməti istefaya göndərildi, yeni kabinetin təşkili general Arif Əbdül Rəzzaqa tapşırıldı. O, yunionistlərlə sıx bağlı olsa da, hökumətdəki başlıca vəzifələri prezident tərəfdarları tutdular.

1965-ci il sentyabrın 15-də prezidentin Kasablankada Ərəb Dövlət başçılarının toplantısına qatılmasından istifadə edən yunionistlər baş nazirlə birlikdə dövlət çevrilişinə cəhd etdilər. Uğursuzluqla nəticələnən bu aksiyadan sonra Ə. S. Arif nəinki yunionistlərlə, ümumiyyətlə bütün solçu qüvvələrlə əlaqəni kəsdi. Bu səbəbdən onun mühafizəkar qüvvələrlə ittifaqı yarandı. Hakimiyyətə məhz onlar gətirildilər. Əbdül Rəhman əl-Bəzzaz baş nazir oldu. İraq yenidən ərəbyönümlü siyasətə keçdi. Avropa dövlətləri ilə münasibətlər normal məcraya düşdü.

1966-cı il aprelin 13-də prezident Ə.S.Arifin təyyarə qəzası nəticəsində

həlak olması siyasi elita daxilində mübarizəni kəskinləşdirdi. Lakin qarşılıqlı güzəştlər zəminində prezident kürsüsü Əbdül Səlam Arifin qardaşı Əbdül Rəhman Arifə çatdı (o, həmin vaxt baş qərargah rəisi idi — müəl.). Prezidentliyə digər iddiaçılardan əl-Bəzzaz baş nazir qaldı, hərbi nazir Uqeyli və tərəfdarları isə vəzifələrindən uzaqlaşdırıldılar.

Prezident Ə.R.Arif ilk gündən İraqın "özünütəcrid kursu"ndan imtina etdi. Onun təkidi ilə baş nazir əl-Bəzzazın 1966-cı ilin aprel-may aylarında Türkiyə, İran və Misirə səfəri zamanı mövcud problemlərin danışıqlar yolu ilə həlli haqqında razılaşmalar əldə olundu. İraq və BƏR-in birləşməsi gündəmə gətirildi. 1966-cı il iyulun 27-də Sovet İttifaqına səfər edən əl-Bəzzaz iki dövlət arasında münasibətlərin daha da genişləndirilməsi ilə bağlı bir sıra problemləri həll edə bildi. İraqın bu cür xarici siyasəti beynəlxalq aləmdə onun nüfuzunu qaldırdı, ölkədaxili gərginliyi bir qədər yumşaltdı.

1966-cı ilin iyununda vahid İraq çərçivəsində kürd probleminin dinc yolla həlli məqsədilə hökumət qoşunlarının hərbi əməliyyatları dayandırması daxili siyasi istiqrar üçün əhəmiyyətli rol oynadı.

Lakin prezident və baş nazir arasında bir sıra məsələlərdə fikir ayrılığı da var idi. Baş nazir yunionistlərlə yaxınlaşmaqdan imtina etdiyi kimi, yüksək rütbəli zabitləri də hakimiyyətə iddialarından çəkindirməyə cəhd göstərirdi. Bu zəmində narazılıq böyüdü və 1966-cı il avqustun 5-də ildə əl-Bəzzaz istefa verdi. BƏR-lə birləşmək tərəfdarı general Naci Talib baş nazir oldu.

Naci Talib hökuməti kürd probleminin dinc yollarla həlli ilə bağlı 1967-ci ilin əvvəlində danışıqlara başlanması və eyni zamanda seçki haqqında qanun verməsi vədləri ölkədə rəğbətlə qarşılandı. Lakin seçki qanunu yalnız Ərəb Sosialist İttifaqına namizədlər irəli sürmək haqqı verdiyindən o, qeyri-leqal fəaliyyət göstərən müxalifət liderlərinin güclü etirazını da doğurdu. Hökumət parlamentdəki yerlərin 25%-ni "fəhlə və qulluqçulara" ayırmaq və qadınlara seçki hüququ verməklə bu etirazı yatıra bildi.

Lakin 1967-ci ilin iyununda baş verən növbəti Ərəb-İsrail müharibəsi İraqda da hadisələrin normal gedişini pozdu. Belə ki, müharibənin ilk günündən İraq müharibəyə qoşuldu və Urdun cəbhəsinə qoşun göndərdi. ABŞ, Böyük Britaniya və AFR İsraili dəstəklədiklərinə görə bu ölkələrdən idxal olunan mallara embarqo qoyuldu, onlarla diplomatik əlaqələri kəsildi və s.

General T.Yəhyanın başçılığı ilə müharibənin nəticələrini aradan qal-

dırmaq məqsədi ilə yeni hökumət təşkil olundu. Ölkənin iqtisadiyyatını, xüsusilə neft hasilatını inkişaf etdirmək bu hökumətin başlıca vəzifəsi elan edildi. İMNK-ya geniş hüquqlar və imkanlar verildi, o, İPK-yə alternativ bir quruma çevrildi. İMNK-nın fransız şirkətləri ilə birlikdə fəaliyyəti sayəsində neft hasilatı sahəsində İPK-nın hegemonluğuna son qoyuldu. Eyni zamanda Sovet İttifaqının iqtisadi-texniki yardımı ilə Quzey Rümeylədə yeni milli neft sənayesinin yaradılması planlaşdırıldı.

T.Yəhya hökumətinin neft sənayesinin inkişafı sahəsində əldə etdiyi müsbət dəyişikliklər heç də ölkədə mövcud olan digər problemlərin həlli deyildi. Demokratik proseslərin ləngliyi, kürd probleminin həll olunmaması, parlament seçkilərinin təxirə salınması, aqrar islahatlar zamanı buraxılan səhvlər sosial-iqtisadi və siyasi həyatda istiqrarsızlığın mənbəyi olaraq qalmaqdaydı. Müxtəlif siyasi qüvvələr arasında edilən manevrlər həm sol, həm də sağ müxalifətin narazılığını artırmaqla yanaşı, hökuməti həm də müstəqil və nüfuzlu hərbçilər korpusunun dəstəyindən məhrum etdi.

Doğrudur, 1968-ci ilin may-iyun aylarında Əbdül Rəhman Arif - T.Yəhya hakimiyyəti vəziyyətdən çıxmaq üçün "keçid dövrü"nün iki il uzadılması, Milli Şuranın yaradılması və qanunvericilik səlahiyyətinin bu quruma verilməsi, hökumətin tərkibində müxalifətin də təmsil olunması və s. kimi müəyyən güzəştlər etdilər. Lakin bütün bunlar istənilən nəticəni vermədi.

Yaranmış vəziyyətin daha da kəskinləşməsi şəraitində bəəsçilər hakimiyyəti ələ keçirmək planı hazırladılar. Bu məsələdə qonşu Suriyanın təcrübəsi də onların işinə yaradı. Hərbçilərlə ittifaq quruldu. Məhz hərbçilər də 1968-ci il iyulun 17-də növbəti dövlət çevrilişi etdilər, Əbdül Rəhman Arif prezidentlikdən götürüldü və xaricə sürgün edildi, T.Yəhya və silahdaşları həbsə alındı. Ölkənin idarə olunması yeni yaradılan İnqilabi Komandanlıq Şurasına (İKŞ) tapşırıldı. İKŞ-nin sədri Ə. H. əl-Bəkr həm də prezident postunu tutdu. Çevrilişin təşkilatçıları Əbdül Rəzzaq ən-Nayifə və İbrahim Davuda müvafiq olaraq baş nazir və müdafiə naziri vəzifələri verildi. Lakin az sonra Bəəs rəhbərliyi və ordu qruplaşmaları liderləri arasında kəskin mübarizə başladı. İyulun 30-da Əbdül Rəzzaq ən-Nayif və İbrahim Davud vəzifələrindən çıxarıldı, hökumətə başçılıq da prezidentə həvalə olundu. Bu, faktik olaraq bəəsçilərin qələbəsi idi və həmin tarixdən onlar ölkənin siyasi hakimiyyətini ələ keçirdilər.

Hökumətin proqramı daxili və xarici siyasət sahəsində Bəəs rəhbərliyi

mövqeyinin təkrarı oldu. İqtisadi siyasət xarici kapitalın fəaliyyətini məhdudlaşdırmaq, dövlət bölməsini möhkəmləndirmək, özəl bölməni dövlət nəzarətinə götürmək, aqrar islahatı başa çatdırmaq zəminində müstəqil inkişaf kursu yaradılmasını nəzərdə tuturdu. Proqramda kürd probleminin vahid dövlət çərçivəsində həlli, bütün vətəndaşların hüquq və azadlıqlarının təmini vədi verilirdi. Daha çox Sovet İttifaqı və digər sosialist ölkələri ilə yaxınlaşma xarici siyasətin başlıca istiqaməti elan olunurdu. Ən başlıcası isə ölkədəki müvafiq siyasi qüvvələrə təklif edildi ki, İraq "Ərəb millətinin imperializmə və İsrail təcavüzünə qarşı mübarizəsində və dünyanın bütün istiqlalçı qüvvələrini birləşdirmək işində başlıca rol oynaya" bilməsinin dəstəklədilər.

Məhz sonuncu istək sonrakı dövrlərdə İraqı regionda liderlik uğrunda mübarizədə Misirin rəqibinə çevirdi. Hakimiyyətdə bəəsçilərin güclənməsi onların İraqı Ərəb Dünyasında nüfuzlu dövlətə çevirmək cəhdlərini artırdı. İraq qeyri-kapitalist inkişaf yolu seçdiyini bildirirdi. Milliləşdirmə, planlı iqtisadiyyat, ticarətin dövlət nəzarətinə alınması və s. Bəəs liderlərinin başlıca hədəfləri oldu. İlk dövrlərdə Bəəs hakimiyyəti bəzi demokratik addımlar atdı. Siyasi məhbuslar azad edildi, siyasi motivlərə görə təqiblərə son qoyuldu, bu səbəbdən işdən çıxarılanlar öz vəzifələrinə qaytarıldı və s. 1968-ci ilin avqustunda prezident Ə.H. əl-Bəkr kommunist və digər sol təşkilatların nümayəndələri ilə görüşündə onlara hakimiyyətdə təmsil olunmaq təklifi verdi. Lakin solların təkliflərinin bir hissəsi Bəəs üçün məqbul olmadığından bu niyyət baş tutmadı.

1968-ci il sentyabrın 21-də İKŞ İraqın yeni konstitusiyasını qəbul etdi. Konstitusiyaya görə İKŞ geniş səlahiyyətlərə malik idi və onun sədri həm prezident, həm baş nazir, həm də ali baş komandan vəzifələrini yerinə yetirirdi. Konstitusiya vətəndaşlara geniş hüquq və azadlıqlar vədi verir və ölkədə yaşayan bütün xalqların, o cümlədən kürdlərin hüquq bərabərliyini elan edirdi. Lakin o, ölkədəki siyasi qüvvələr tərəfindən birmənalı qarşılanmadı. Həm sollar, həm də sağlar Konstitusiyadan narazı qaldılar. Hətta sağ qüvvələr general Əbdül Hadi ər-Ravinin başçılığı altında dövlət çevrilişinə uğursuz cəhdi etdilər. Sollar isə kommunistlərin timsalında fəallaşdılar. Kommunist Partiyasının əsas məqsədi bütün sol qüvvələri öz ətrafında birləşdirmək və Bəəslə əməkdaşlığın şərtlərini ehtiva edən Xartiya elan edilməsi oldu.

Hadisələrin bu yöndə inkişafı Bəəsin ölkədəki qüvvələri birləşdirmək

perspektivsizliyini və ölkədə siyasi vəziyyətin mürəkkəbləşməsini hər gün daha aydın göstərirdi. Belə bir şəraitdə 1968-ci ilin noyabrında partiyanın VII məhəlli qurultayı çağırıldı. Qurultayda ölkədəki mövcud durum müzakirə edildi və bir qədər irəlidə İraqın inkişaf istiqamətlərinə dair haqqında bəhs etdiyimiz məsələlər onun sənədlərində yenidən təkrar olundu. Qurultayın yeganə əhəmiyyəti isə həmin məsələlərin həyata keçirilməsini sürətləndirməyə qərar verilməsi sayıla bilər.

Həqiqətən də 1969-cu ilin əvvəlindən başlayaraq nəzərdə tutulan məsələlərin həlli yolunda bir fəallıq özünü göstərdi. Dövlət bölməsinin inkişafı məqsədi ilə həyata keçirilən tədbirlər nəticəsində sənayedə onun payı 1970-ci ildə 56%, istehsal etdiyi məhsullar isə 70% oldu. 1970-1974-cü illərə dair beşillik plana görə qoyulacaq kapitalın 35%-i sənayeyə ayrıldı. 1970-ci ilin mayında qəbul olunan yeni aqrar qanuna görə torpaq sahibliyinin maksimum həddi iki dəfə azaldıldı. Aqrar sahədə kooperativlər yaradılmasına önəm verildi. 1972-ci ilin sonunda İraqda olan müxtəlif tipli 1100 koopertivdə 158 min ailə birləşmişdi. Sosial sahə ilə bağlı 1970-ci ildə Əmək, 1971-ci ildə isə sosial və təqaüd təminatı haqqında qanunlar qəbul olundu.

Xarici siyasətdə sosialist ölkələri ilə yaxmlaşmaya xüsusi önəm verildi. Xarici ticarətdə Avropa dövlətlərinin iştirakı 45%-dən 26%-ə endi, sosialist dövlətlərinin payı isə artdı. 1969-cu ildə Sovet İttifaqı ilə texniki-iqtisadi əməkdaşlıq haqqında imzalanan sazişə görə milli neft sənayesinin yaradılması və möhkəmləndirilməsi başlıca qayə oldu.

Daxildə siyasi istiqrarı möhkəmlətmək məqsədi ilə kürd probleminin dinc yolla həlli üçün yenidən danışıqlara başlandı və uzun müzakirələrdən sonra 1970-ci il martın 11-də qəbul edilmiş bəyanatda vahid İraq çərçivəsində kürdlərə milli muxtariyyət vəd edildi. 1970-ci ilin iyununda qəbul olunan yeni konstitusiyada ölkədə "sosializm qurulacağı", əsas istehsal vasitələrinin dövlətə məxsus olması ilə yanaşı özəl mülkiyyətin də toxunulmazlığı, Milli Şuranın yaradılması və s. kimi başlıca vəzifələr bir daha təkrarlandı. Sola doğru bu sərt dönüş sağ qüvvələrin güclü etirazı ilə qarşılanırdı. Hətta 1970-ci ilin yanvarında hərbi və polis qüvvələrinin dövlət çevrilişi cəhdi də oldu. Cəhd uğursuz olsa da, bəəsçilərin kommunistlərlə yaxınlaşmasına təkan verdi. 1971-ci il noyabrın 16-da Bəəs rəhbərliyinin Milli Fəaliyyət Xartiyasını müzakirəyə təqdim etməsi məhz həmin istəkdən qaynaqlanırdı. Xartiya öz məzmunu baxımından əvvəllər elan edilmiş rəsmi sənədlərdən heç nə ilə fərqlənmirdi. Lakin partiyaların onu geniş müzakirə etmə-

sindən sonra razılaşdırılmış zəmində birgə fəaliyyətə dəvət olunması yenilik idi. Müzakirələrin gedişində kommunistlərlə əməkdaşlıq baş tutdu və onlar hökumətdə təmsil olundular.

Xartiyada göstərilən istiqamətlərdə hökumətin fəaliyyəti gücləndi. 1972-ci ildə Sovet İttifaqı ilə dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Quzeyi Rümeylədə neft mədənlərinin işə düşməsindən sonra İPK ilə münasibətlərə yenidən baxıldı və bu onunla nəticələndi ki, 1972-ci ilin mayında İPK milliləşdirildi. Aqrar islahat, sosial təminat və s. sahələrə aid bir sıra qanunlar qəbul edildi. Kürd məsələsinin həlli mümkün olmasa da, müəyyən addımlar atılırdı.

Ortaq zəmində partiyaların birgə fəaliyyətini tənzim etmək üçün Xartiyanın Milli Cəbhə yaratmaq tezisi reallaşmaq üzrə idi ki, 1973-cü il iyunun 30-da təhlükəsizlik xidmətinin rəisi polkovnik Nazim Qəzzarın başçılığı altında yüksək vəzifəli hərbçilər yeni bir uğursuz dövlət çevrilişinə cəhd etdilər. Bu hadisə Bəəsin Kommunist Partiyası və digər müxtəlif siyasi qurumlarla ittifaqının gerçəkləşməsini sürətləndirdi.1973-cü il iyulun17-də Mütərəqqi Milli - Vətənpərvər Cəbhə (MMVC) çərçivəsində əməkdaşlıq prinsipləri haqqında saziş imzalandı. MMVC-nin platforması və nizamnaməsi qəbul edildi və rəhbər strukturları yaradıldı. MMVC-nin Ali Komitəsi, onun katibliyi və əyalət komitələrində yerlərin yarısı bəəsçilərə, yarısı isə qalan siyasi qüvvələrə çatırdı.

Qeyd edək ki, MMVC-nin yaradılması heç də bütün siyasi qüvvələrin bir araya gəlməsi demək deyildi. KDP-nin timsalında hətta onun daxilində hakimiyyətin rəsmi kursundan həmişə razı qalmamaq ənənəsi var idi. Odur ki, hökumət 1973-cü ilin sentyabrında Kürdüstan muxtariyyəti haqqında qanunu geniş müzakirəyə çıxardı. Lakin 1973-cü ilin oktyabrında növbəti Ərəb–İsrail savaşının başlaması səbəbindən məsələnin həlli bir qədər ləngidi. Çünki, İraq dolayısı da olsa, savaşın iştirakçısı idi. Onun hərbi birləşmələri Colan təpələrindəki Suriya ordusuna köməyə gəlmişdi. Qeyd edək ki, bu zəmində İraqın Misir, Libiya və Əlcəzair ilə münasibətləri normallaşdı.

Savaşdan sonra kürd məsələsinin həlli yönündə göstərilən təşəbbüslər, hətta 1974-cü ilin yanvarında hökumətin KDP ilə birbaşa danışıqları və 11 martda Kürdüstana muxtariyyət verilməsi haqqında İKŞ-nın çıxardığı qanun nəticəsiz qaldı. Apreldə hərbi əməliyyatlar yenidən başlandı və onunla nəticələndi ki, birincisi, məsələyə münasibətdə kürdlərin öz arasında parçalanma baş verdi; ikincisi, bir sıra mübahisəli məsələlər üzündən İraqla

münasibətləri pis olan İran kürd partisan-peşmərgə dəstələrini və onların lideri M.Bərzanini maddi və mənəvi cəhətdən dəstəkləyir, onları ən müasir silahlarla təchiz edirdi. Lakin hadisələrin gərginləşməsi İraqı tədricən İranla müharibəyə sürükləyirdi və bu getdikcə daha çox hiss edildiyindən İran şahı məharətlə geri çəkilməyə üstünlük verdi. 1975-ci ilin martında iki dövlət arasında sərhədlər boyunca təhlükəsizliyin təminatı məqsədilə ciddi nəzarət qoyulması, bir-birinə qarşı düşmənçilik hərəkətlərinə yol verilməməsi və Şətt ül-Ərəb çayındakı mübahisəli ərazilər üzrə razılığa gəlinməsi haqqında saziş imzalandı. Bununla da kürdlər İran köməyindən məhrum oldular. Artıq bir aydan sonra, yəni 1975-ci ilin mayında hökumət qüvvələri kürd peşmərgələrini susdura bildi və hərbi əməliyyatlara son qoyuldu.

Ümumiyyətlə, 70-ci illərdə İraqın daxili siyasi, sosial-iqtisadi və xarici kursunda bir sıra köklü dəyişikliklər baş verdi və onlar ölkənin sonrakı inkişaf istiqamətlərinin dönməz olmasında əsaslı rol oynadı. Bu kursun başlıca prinsipləri 1974-cü ilin yanvarında Bəəs-in VII məhəlli qurultayında qəti olaraq müəyyənləşdi. Xüsusi önəm verilən milliləşdirmə xətti 1972-1974-cü illərdə ölkədəki özəl neft şirkətləri və neft emalı sənayesinin bütünlüklə dövlət mülkiyyətinə çevrilməsi ilə nəticələndi. Həmin ərəfədə neftin və neft məhsullarının dünya bazarında qiymətlərinin qalxması İraqın neft gəlirlərini xeyli artırdı, onun maliyyə imkanlarını kifayət qədər yaxşılaşdırdı. 1975-ci ildə neftdən gələn vəsait 8,4 milyard dollar məbləğinə çatdı. Bu rəqəm 1973-cü il ilə müqayisədə 5 dəfə artıq idi. Əhalinin hər nəfərinə düşən gəlir isə 1975-ci ildə 1974-cü ilə nisbətən 2,5 dəfə yüksəlmişdi.

Ölkənin maliyyə ehtiyatlarının artması hökumətə imkan verdi ki, o, bir tərəfdən iqtisadiyyatın inkişafına kapital yatırımlarını artırsın, məsələn, 1971-1975-ci illərə dair beşillik plana nəzərdə tutulduğundan 45% artıq, növbəti 1976-1980-ci illərə dair beşillik plana əvvəlki illə müqayisədə 6 dəfə çox vəsait qoyuldu, o biri tərəfdən əhalinin sosial durumunu yaxşılaşdırmaq üçün kifayət qədər vəsait ayrıldı. Təbiidir ki, hər iki halda ölkədə mövcud olan sosial gərginliyin yumşalması labüd idi və belə də oldu.

İraq regionda güclü dövlət olmaq planını gerçəkləşdirmək üçün hərbi gücünü daha da artırmaq kursu götürdü. Sovet İttifaqının köməyi ilə ordunun modernləşdirilməsinə iri məbləğdə vəsaitlər ayrıldı, ordu müasir texnika və silahlarla təchiz edildi. Yeri gəlmişkən deyək ki, kürd partizan dəstələrinin darmadağın edilməsində bu amil az rol oynamamışdır.

Bəəsçilərin ölkə və partiyadaxili siyasətində bir mühüm cəhətə də diqqət

verilməlidir. Belə ki, 1963-cü ilə kimi partiya rəhbərliyi əsasən ölkənin güneyindən çıxmış şiə ərəblərdən ibarət idisə, 1968-ci ildə vəziyyət xeyli dəyişmiş, partiya rəhbərliyi sünni ərəblərə keçmişdi.

Həmin dövrdən etibarən həyata keçirilən sosial-iqtisadi islahatlar daha çox ölkə iqtisadiyyatında kifayət qədər güclü mövqe sahibləri olan şiə ərəblərin maraqlarına zidd idi. Xüsusilə də daxili bazara tam nəzarət edən ticarət burjuaziyasının sıxışdırılması və onların böyük çoxluğunun ölkəni tərk etməsi nəzərə çarpacaq dərəcədə idi. Maraqlıdır ki, bəəsçilər hökuməti yaranmış bu vəziyyətdən öz maraqları üçün məharətlə istifadə edə bildilər. Bir tərəfdən təkcə partiya rəhbərliyində deyil, sosial-iqtisadi həyatda da sünni ərəblərin sayı və rolu artdı. O biri tərəfdən isə hökumət güneydə yoxsul şiə ərəblərin həyat şəraitini yaxşılaşdırmaq yolunu tutdu və bu işdə aqrar siyasətdən xeyli yararlandı. İslahat nəticəsində əsasən aqrar rayon olan güneydə iri latifundiyalar ləğv edilir, yeni torpaq sahiblərinə çevrilən icarədar kəndlinin icarə şərtləri xeyli yüngülləşdirilirdi.

Qeyd edək ki, güneyli yoxsul kəndlilərin timsalında bəəsçilərin öz sosial bazasını genişləndirmək cəhdləri kommunistlərin maraqlarına zidd gəlirdi. Belə ki, onlar da məhz yoxsullara istinad edirdilər və Bəəsin siyasəti kommunistlərin həmin dayaqları itirməsinə gətirirdi. Odur ki, kommunistlər aqrar islahatın kəndlilər üçün daha əlverişli şərtlərlə, az qala hər şeyin kəndliyə məccani başa gəlməsi şərti ilə keçirilməsini tələb edirdilər. Bu səbəbdən bəəsçilərlə kommunistlər arasındakı münasibətlər çat verməyə başladı və getdikcə dərinləşməyə üz tutdu.

XX əsrin 70-ci illərinin ortalarında ölkədə siyasi istiqrarın bərqərar olmasından sonra hakim partiyanın öz müttəfiqlərinə qarşı siyasəti də dəyişirdi. Hələ 1974-cü ilin sonlarında hökumət bütün dövlət müəssisələrində və orduda qeyri-bəəsçi təbliğat və təşviqata yasaq qoydu. 1975-ci ildə İKP hökumətin tələbi və təzyiqi altında kütləvi təşkilatlarda fəaliyyətini dondurdu və MMVC-nin bütövlüyünün saxlanması naminə hakim partiyaya bir sıra güzəştlərə getdi. MMVC-nin fəaliyyəti, onun kütləvi dayaqlarının yaradılması çox ləng gedirdi. 1976-cı ildən etibarən isə onun fəaliyyət dairəsi hökumətin daxili və xarici siyasətinin təbliği və dəstəklənməsi ilə məhdudlaşırdı. MMVC hakim partiyanın yardımçı təşkilatı rolunu oynayır və onun varlığı faktik olaraq formal xarakter daşıyırdı. Bu isə ölkədə tədricən bəəsçilərin təkhakimiyyətliliyinə gətirirdi. 1976-cı ilin avqustunda İKP hökumətin siyasəti ilə bağlı öz tənqidi mülahizələrini Bəəs rəhbərliyinə çatdırdıqda

tərəflər arasında ciddi narazılıq yarandı və Bəəs İKP-dən tələb etdi ki, hökumətin tənqidinə son qoysun.

Lakin hadisələrin sonrakı gedişi tərəflər arasında qarşıdurma yaratdı, ilk toqquşmalar baş verdi. 1977-ci ilin fevralında Nəcəf və Kərbəlada olmuş qarışıqlıqlarla əsası qoyulan açıq mübarizə 1979-cu ilin may ayına qədər davam etdi. Kifayət qədər möhkəmlənmiş Bəəs rəhbərliyi öz müttəfiqlərinə qarşı təqib və təzyiqləri gücləndirdi və onları ölkənin siyasi rəhbərliyindən uzaqlaşdırmaqla İraqın siyasi sistemini başdan-başa "bəəsləşdirmək" və "ərəbləşdirmək" kursuna önəm verdi. 1978-ci ilin yazında İKP üzvlüyündə şübhəli bilinən 21 zabit edam edildi, yay və payız aylarında onun mətbu orqanları, dekabrda isə yerli özəklərinə qədər bütün strukturları təqiblərə məruz qaldılar. Yaranmış vəziyyətdə İKP rəhbərliyi 1979-cu ilin mayında MMVC strukturları və hökumətdəki nümayəndələrini geri çağırmaq və qeyri-leqal fəaliyyətə keçmək qərarına gəldi.

Həmin dövrdə MMVC-dən kənarda siyasi fəaliyyətin qadağan olunması səbəbindən hakim qüvvələrə qarşı müxalifətçi ovqatı daha çox islamçı təşkilatların öz üzərinə götürməsi ənənəsi də daxili həyatın xarakter cəhəti oldu. Onların da ən güclüsü və mütəşəkkili "əd-Daava əl-islamiyyə" ("İslam çağırışı") adlı dini-siyasi təşkilat idi. "Əd-Daava" MMVC daxilindəki ziddiyyətlərdən istifadə edərək 1977-ci ildə gizli təbliğatdan açıq mübarizəyə keçdi, bir sıra kütləvi etiraz aksiyaları təşkil edə bildi. Hökumət yalnız ordunu işə qatdıqdan sonra bu aksiyaları yatırmağı bacardı.

Məhz həmin arada qonşu İranda 1978-1979-cu illər islam inqilabının qələbə çalması, 1979-cu ilin yazında İslam Respublikasının yaradılması və dövlətin idarə olunması şiə müsəlmanların əlinə keçməsi İraqa güclü təsir etdi. İraqın şiə əhalisi ölkənin iqtisadi və siyasi həyatında sünnilərin güclənməsinə müqavimət zəminində xeyli fəallaşmışdı. Əhalinin yarıdan çoxunun şiə olduğunu nəzərə alsaq, hadisələrin sonrakı inkişafının törədəcəyi nəticələri təsəvvür etmək mümkün idi.

Təbiidir ki, bu, hakim qüvvələri düşündürməyə bilməzdi və onlar çıxış yolunu 1979-cu ilin yayında "saray çevrilişi" etməkdə gördülər. Belə ki, iyulun 16-da prezident Ə.H.əl-Bəkr tutduğu bütün vəzifələrdən "könüllü" istefa verdi və həmin vəzifələrə partiya və hökumət orqanlarında onun müavini olan gənc və enerjili Səddam Hüseyn gətirildi. İlk gündən S.Hüseynin başlıca önəm verdiyi kurs "vahid iradə, vahid hakimiyyət və vahid istiqamətin təmin edilməsi" şüarı altında cəmiyyətin başdan-başa və birdəfəlik "bəəs-

ləşdirilməsi“ oldu.

Beləliklə, İraqın tarixində S. Hüseyn dövrü başladı və ölkə 80-ci illərə yeni prezident, yeni siyasi kurs və yeni hakimiyyət strukturları ilə daxil oldu. Belə ki, 1979-cu ilin dekabrında məsləhətçi səlahiyyətinə və qanunvericilik təşəbbüsü hüququna malik Milli Şura və Kürdüstan muxtariyyəti üçün Qanunverici Şura yaradılması haqqında qanun layihəsi elan edildi. 1980-ci ilin iyununda müxalifətin iştirakı yasaq olunan parlament seçkilərində 250 yerin hamısı Bəəs və onu dəstəkləyən qüvvələrin təmsilçilərinə çatdı. Sentyabrda Kürdüstan muxtariyyətində Qanunverici Şuraya ilk seçkilər keçirildi və buraya da yalnız Bəəs partiyası ilə əməkdaşlıq edən kürd siyasi qüvvələrinin namizədləri seçildilər. Beləliklə də, müxalifət partiyaları və qüvvələrinin iştirakının yasaqlanması şəraitində keçən seçkilər Bəəsin təkpartiyalı diktaturasının "demokratiya" örtüyündən başqa bir şey olmadı.

Bəəs partiyasının dövlət idarəçiliyində mövqelərinin möhkəmləndirilməsi ilə yanaşı bütün ölkə boyu onun ideyalarının təbliği, müxtəlif sosial təbəqələrin nümayəndələrinin kütləvi şəkildə bu partiyaya qəbulu kampaniyası başlandı. Partiyanın 1982-ci il iyunun 24-27-də keçirilən növbədənkənar IX qurultayı siyasi hakimiyyətin konsolidasiyası baxımından böyük rol oynadı. Ölkənin daxili və xarici siyasətinin əsas istiqamətləri müəyyənləşdirilən qurultayda həm də təşkilati məsələlər müzakirə edildi. S.Hüseyn Bəəs partiyasının baş katibi seçildi. İKŞ-nin tərkibi 16 nəfərdən 6 nəfərə endirildi və onların da hamısı Bəəsin yeni seçilən rəhbərliyinə daxil idi. IX qurultayın qərarına əsasən 1983-cü ilin fevralında MMVC-nin yeni şərtlər əsasında qurulması və onun Xartiyasının yeni layihəsi müzakirəyə çıxarıldı. Bəəsin cəmiyyətdə rəhbər rolunun hamı tərəfindən qəbulu müzakirələrin başlıca məqsədi idi.

S.Hüseynin hakimiyyətə gəlməsindən sonra ölkənin iqtisadi inkişaf kursunda da müəyyən dəyişikliklər baş verdi. Bu da hər şeydən əvvəl, mövcud kursun səmərəsizliyindən qaynaqlanırdı. 1981-1982-ci illərdə dövlət və kooperativ bölmələrinin fəaliyyət sahələri yenidən müəyyənləşdirildi. İKŞ-nin qərarı ilə kənd təsərrüfat kooperativlərinin çoxu ləğv edildi və fərdi təsərrüfatlara çevrildi. Aqrar Bankın fəaliyyəti fərdi təsərrüfatların maliyyələşdirilməsinə yönəldildi. Sənayedə özəl bölmənin fəaliyyəti nəinki zəruri, hətta dövlət və kooperativ bölmələrinə bərabər tutuldu. Bu məsələlərə IX qurultayda da baxıldı və müvafiq qərarlar qəbul olundu. Qurultay İraqda “ərəb sosializmi quruculuğu”nun başa çatmasını və "qeyri-istismarçı özəl

mülkiyyətə" iqtisadiyyatın bütün sahələrində imkan yaradılmasını bəyan etdi.

İraqın daxili siyasətində baş verən dəyişikliklər onun xarici siyasət kursundan da yan keçməmişdir. 70-ci illərin ikinci yarısından keçən müddətdə Yaxın Doğu probleminin həllində əsaslı bir uğur qazanılmadığından İraq antiBatı yönümlü ərəb ölkələri koalisiyasından ayrıldı. Kemp-Devid sazişindən sonra ərəb dünyasında Misirə olan münasibətin dəyişməsi zəminində İraqın regionda aparıcı ərəb dövləti olmaq iddiası artdı. Bu sahədə fəallaşma eyni iddiada olan Suriya ilə münasibətlərdə gərginlik yaratdı. Digər tərəfdən İraqın Ərəb Körfəzi bölgəsində liderliyi ələ almaq və burada söz sahibinə çevrilmək siyasətinə üstünlük verməsi, S. Hüseyn dövründə isə xüsusilə buna çalışılması yenə də həmin iddiada olan İranla rəqabəti düşmənçilik səviyyəsinə gətirdi.

Ümumiyyətlə, həmin dövrdə İraq-İran münasibətlərinin getdikcə pisləşməsi xroniki hal almışdı. Ənənəvi qarşılıqlı ərazi iddiaları, kürd problemi, Xuzistan ərəblərinin muxtariyyəti məsələsi, sünni-şiə ziddiyyətləri, iki dövlət rəhbərlərinin şəxsi ambisiyaları və s. bu şəraitin başlıca şərtləri olaraq qalırdı. İranda islam inqilabından sonra hakimiyyətin şiə din xadimlərinə keçməsi, onların region ölkələrinə islam inqilabı "ixracı" planını əhalisinin xeyli hissəsinin şiə olduğu qonşu İraqdan başlamaq istəyi Bəəs hakimiyyəti üçün çətinliklər yaradır, daxili siyasi istiqrarı pozurdu. İraq şiələrinin lideri ayətullah Məhəmməd Bəkir əs-Sədr islam inqilabını dəstəklədiyini açıq bildirməkdən çəkinmirdi. Hətta 1979-cu il iyunun əvvəllərindən onun tərəfdarları S.Hüseyn hakimiyyətinə qarşı çıxmağa başladılar. M.B. əs-Sədrin edam edilməsi və bir çoxunun həbsə alınması ilə nəticələnən bu kimi hadisələr zəminində iki dövlət arasında münasibətlərin get-gedə kəskinləşməsi istiqaməti hər gün daha artıq şəkildə savaşın yaxınlaşdığından xəbər verirdi. Hər iki dövlət zora əl atacağını açıqca bildirirdi. 1980-ci il fevral 8-də ildə S. Hüseyn "Milli Bəyannamə" adlı bir sənədlə çıxış etdi. Həm də artıq həmin dövrdə iki dövlət arasında sərhədboyu hərbi toqquşmalar başlamışdı və getdikcə də artırdı. 1980-ci il sentyabr 17-də İKŞ-nin 1975-ci il İraq-İran müqaviləsinin qüvvədən düşdüyünü bildirməsinin ardınca sentyabrın 22-də tərəflər rəsmi olaraq savaşa başlamış oldular.

Savaşın təfərrüatına varmadan demək istərdik ki, o, hər iki tərəf üçün uğursuz oldu, mənasız insan itkisindən və maddi xəsarətdən başqa heç nə ilə nəticələnmədi. Nəhayət, BMT Təhlükəsizlik Şurasının 1987-ci il 20 iyul

598 saylı qətnaməsinin prinsipləri əsasında savaşa son vermək imkanı yarandı. Qətnaməyə görə hər iki tərəf dərhal atəşkəs elan etməli, quruda, suda və havada bütün hərbi əməliyyatlar dayandırılmalı, ordu hissələri beynəlxalq-hüquqi sənədlərlə təsdiq olunmuş sərhədlərə çəkilməli, atəşkəs rejiminin təmininə və qoşunların çəkilməsinə nəzarət üçün BMT tərəfindən müşahidə qrupu göndərilməli, habelə 1949-cu il 12 avqust Cenevrə sazişinə əsasən hərbi əsirlər azad olunmalı və hərbi əməliyyatlar kəsildikdən sonra onların vətənlərinə dönməsi təmin edilməli idi. İranın rəyinə əsasən müharibənin günahkarlarını müəyyənləşdirmək üçün BMT Təhlükəsizlik Şurasının xüsusi komissiyası da yaradıldı.

Müharibənin müəyyən mənada "şərəfli heç-heçə" ilə nəticələnməsinə baxmayaraq, İraq nəinki Körfəzdə aparıcı dövlətə çevrilmədi, hətta ötən illər ərzində toplamış olduğu siyasi kapitalı itirdi. Müharibəyə çəkilən xərclər ölkə iqtisadiyyatı üçün ağır yük oldu və daxili gərginliyi artırdı. Dövlət borcu 80 milyard dollar həddinə çatdı. Şəhərlər, digər yaşayış məntəqələri və sənaye obyektləri bombardmanlara məruz qaldı və dağıldı, yüz minlərlə insan öldürüldü və şikəst edildi.

Maraqlıdır ki, S. Hüseynin İraq üçün fəlakətlər gətirən militarist siyasəti 80-90-cı illərində onu xalqın gözündə əvəzsiz milli rəhbər və həqiqi xarizmatik liderə çevirdi. Hamı da olmasa, əhalinin böyük əksəriyyəti S.Hüseynə böyük ümidlə baxır və inanır, onun bütün hərəkətlərini dəstəkləyirdi. Qeyd edək ki, S.Hüseynin bu cür məşhurlaşmasında onun iqtisadiyyatı liberallaşdırmaq siyasəti, sələflərindən fərqli olaraq sosializm haqqında çox danışmağa son qoyması, daha çox milli hisslərin qabardılmasına üz tutması da az rol oynamadı. Bütün bunlar imkan verdi ki, o, qısa zaman kəsiyində öz potensial rəqiblərini sıradan çıxartsın və ölkədə totalitar bir rejim yaratsın. Məhz bu səbəbdən idi ki, S.Hüseyn uzun sürən İraq-İran savaşının ölkədə yaratmış olduğu çətinliklərin nəinki böhranlı həddə çatmasını saxlaya bildi, həm də daha bir avantüraya qərar verdi. Növbəti hədəf kimi ikitərəfli münasibətlərin tarixən gərgin olduğu qonşu Küveyt əmirliyi seçildi.

Bu seçim bir sıra məqsədlər güdürdü və onlar uğurla gerçəkləşdiyi halda İraq təkcə ərəb dünyasının deyil, bəlkə də bütün İslam dünyasının ən qüdrətli dövlətinə çevrilərdi. Belə ki, Küveyt kimi zəngin neft ölkəsinin İraqa ilhaqı İranla savaşın gətirdiyi iqtisadi bəlalardan xilas olmaq imkanı verərdi. Digər tərəfdən, əgər böyük dövlətlər Küveytin işğalına qarşı olub İraqla savaşa girərlərsə, - İraq onların sırasında İsraili də görürdü-, o, bütün

hərbi imkanlarını, o cümlədən kütləvi qırğın silahlarını İsrailə yönəldər və onu məhv edə bilərdi.

Bu planın gerçəkləşdirilməsi yolunda İraqın ilk mühüm addımı 1990-cı il iyulun 16-da Ərəb Dövlətləri Liqasının baş katibliyinə göndərdiyi memorandum oldu. Sənəddə İraq Küveyti iqtisadi təcavüzkarlıqda ittiham edir və ona qarşı iddialar qaldırırdı. İraqa məxsus Güney Rümeylə yatağında Küveyt tərəfindən 2,4 milyard dollar dəyərində qeyri-qanuni neft çıxarılması, eləcə də Küveytin OPEK kvotalarından artıq neft hasil edərək dünya bazarında qiymətlərin aşağı düşməsinə səbəbkar olması nəticəsində İraq iqtisadiyyatına güclü ziyan vurması bildirilirdi.

Yaranan münaqişəni aradan qaldırmaq üçün Misir və Səudiyyə Ərəbistanının, -qeyd edək ki, bu dövlətlər İraq-İran müharibəsi dövründə də İraqı dəstəkləmiş və ona yardım etmişdilər, - vasitəçiliyi ilə 1990-cı il iyulun 31-də münaqişə tərəfləri Ciddə şəhərində görüşdülər və danışıqlar apardılar. Lakin tərəflərdən heç birinin öz mövqeyindən çəkilməməsi səbəbindən danışıqlar nəticəsiz qaldı. Avqustun 2-də İraq qoşunları Küveytə girdi və İraqın 19-cu vilayəti elan edilmiş əmirlik işğal edildi.

Lakin İraqın Küveyt ərazisinə yiyələnmək cəhdləri baş tutmadı. Körfəzdə vəziyyətin gərginləşməsindən narahat olan beynəlxalq birlik ilk gündən bu işğala qarşı çıxdı və BMT Təhlükəsizlik Şurası avqustun 2-də İraqın müdaxiləsinin pislənməsi və qoşunların dərhal və qeyd-şərtsiz Küveytdən çıxarılması, avqustun 6-da İraqa qarşı iqtisadi sanksiyaların tətbiqi, avqustun 9-da İraq tərəfindən Küveytin ilhaqının qeyri-qanuniliyi və hüquqi qüvvəyə malik olmaması, avqustun 11-də İraq və Küveyt ərazilərində saxlanılan üçüncü ölkə vətəndaşlarının azad olunması və avqustun 25-də Körfəzdə bütün dəniz nəqliyyat vasitələrinin yoxlanılmasına icazə verilməsi haqqında bir-birinin ardınca beş qətnamə qəbul etdi.

Ərəb ölkələrinə gəlincə, onların da dövlət və hökumət başçıları 1990-cı il avqustun 10-da Qahirədə toplaşdılar, İraq təcavüzünü pislədilər və qoşunların dərhal Küveytdən çıxarılmasını tələb etdilər. Onlar İraq təhlükəsi ilə üzləşmə ehtimalı olan Səudi Ərəbistana yardım göstərmək üçün ümumərəb qüvvələrinin formalaşdırılmasına qərar verdilər.

Lakin İraq nə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq birliyin tələb və təkidlərinə məhəl qoyurdu, nə də qoşunları Küveytdən çıxarmağa çalışırdı. Məsələ belə olduqda, ABŞ başda olmaqla anti-İraq koalisiyası dövlətləri bölgəyə çox sayda hərbi qüvvə çıxardılar. Onlar da öz

növbəsində İraqa qarşı hərbi güc tətbiq edilməsində israrlı idilər. Qarşıdurmanın son dərəcə şiddətlənməsinə baxmayaraq BMT Təhlükəsizlik Şurası qoşunların Küveytdən çıxarılması üçün İraqa 1991-ci il yanvarın 15-ə kimi vaxt verdi. İraq rəhbərliyi bunu da rədd etdikdən sonra yanvarın 16-sı gecəsi çoxmillətli koalisiya qüvvələri, - koalisiyada 28 dövlət iştirak edirdi və onların arasında bir sıra ərəb dövləti də var idi, - "Səhrada tufan" kod adı altında hərbi əməliyyatlara başladılar. Fevralın 6-da Küveytin paytaxtı azad edildi. Bir gün sonra isə İraq hökuməti münaqişənin çözülməsi haqqında BMT Təhlükəsizlik Şurasının qətnamələrini qəbul etdiyini bildirdi.

Savaşın bir sonucu da o oldu ki, təkcə İsrail üçün yox, həm də digər qonşu dövlətlər üçün ciddi qorxu törədən İraq malik olduğu kimyəvi, bakteroloji və nüvə-raket silahları ehtiyatı və ya onların istehsah haqqında BMT-nin xüsusi komissiyasına hesabat vermək məcburiyyəti qarşısında qaldı.

Beləliklə də, S.Hüseynin bu növbəti planı da boşa çıxdı. Nə Küveyt ilhaq olundu, nə də İsrail baş verən proseslərə qoşuldu. O, hətta İraq tərəfindən edilən davamlı raket atəşlərinə belə reaksiya vermədi və özünü təhlükədən qoruya bildi.

Belə bir paradoksa diqqəti cəlb etmək istərdik ki, bu biabırçı məğlubiyyət də S.Hüseynin mövqelərini sarsıtmadı. Əksinə, İraqın güclənməsindən böyük dövlətlərin rahatsız olması haqqında təbliğat S. Hüseynin qüdrətli lider obrazını daha da qabartdı. Nəticədə S.Hüseyn və İraq xofu bir kabusa çevrildi. Bu da ona gətirdi ki, İraq dünya birliyindən xeyli təcrid olundu və bir dövlət kimi əvvəlki mövqe və rolunu itirdi. Bir neçə illər ərzində savaşın törətdiyi ciddi çətinliklər qarşısında qaldı. Təkcə bu faktı söyləmək kifayətdir ki, savaşın İraq iqtisadiyyatına vurduğu zərər müxtəlif hesablamalara görə 50-150 milyard dollar olmuşdur. Çox sayda neft mədənləri, neft emalı qurğuları, terminallar, eləcə də irriqasiya sistemləri və infrastrukturlar məhv edilmişdi. 1991-ci ilin yazında İraq öz ordusunu Küveytdən çıxartsa da, BMT tərəfindən ona qarşı tətbiq edilən iqtisadi sanksiyalar uzun müddət saxlanıldı. Əhalinin gündəlik tələbat malları, dərman preparatları, ərzaq və s. ilə təminatında böyük çatışmazlıqlar yarandı.

Savaşdan sonra İraqın üzləşdiyi çoxsaylı və mürəkkəb problemlər ölkədə müxalifət meyllərini gücləndirdi və hakimiyyət əleyhinə çıxışların bərpasına təkan verdi. 1991-ci il martın 3-də bütün kürd məskənlərini əhatə edən ərazilərdə hökumətə qarşı üsyan baş verdi. Az sonra isə şiələrin kompakt

yaşadığı güney bölgələrində çıxışlar oldu. Beynəlxalq və regional müstəvidə İraq ətrafında yaranmış son dərəcə təhlükəli durumu və daxili siyasi vəziyyətin gərginliyini nəzərə alaraq ölkə rəhbərliyi kürd hərəkatının liderləri ilə danışıqlara getmək məcburiyyətində qaldı. Danışıqlar 1991-ci il mayın 18-də Kürdüstan Muxtariyyətində demokratik seçkilərin keçirilməsi, söz və mətbuat azadlıqları, hökumət üzərində hakim Bəəs partiyasının nəzarətinin və himayəsinin ləğvini nəzərdə tutan birgə sənədin imzalanması ilə nəticələndi. Daxili siyasi gərginliyi yumşaltmaq məqsədi ilə həmin il iyulun 4-də Milli Şura ölkədə bəzi demokratik azadlıqların tətbiq edilməsi haqqında qanun layihəsini bəyəndi.

Ölkə daxilində mövqelərini qismən möhkəmləndirdikdən və şiələrin çıxışlarını yatırdıqdan sonra S.Hüseyn BMT tərəfindən verilmiş mandata əsasən İraqda kütləvi qırğın silahlarının aşkarlanması və ləğvini təşkil edəcək beynəlxalq təşkilatlarla qarşıdurmaya start verdi. 1992-1993-cü illər ərzində İraq ilə BMT arasında kəskin münaqişə yaşandı.

1992-ci il avqustun 27-də ABŞ və Böyük Britaniya hərbi təyyarələri şiə əhalinin təhlükəsizliyinin təmin edilməsi bəhanəsi ilə 32-ci paraleldən aşağı İraq ərazisi üzərində nəzarət uçuşları etdilər.1993-cü il iyunun 26-da isə ABŞ Bağdadda yerləşən kütləvi qırğın silahı hazırlanması üzrə tədqiqat mərkəzlərini raketlərlə vurdu. ABŞ başda olmaqla Avropa dövlətləri İraqın beynəlxalq təşkilatlarla əməkdaşlıqdan imtina edəcəyi halda bu cür hücumların davam etdiriləcəyini bildirdilər.

Lakin S.Hüseyn inadkarlıq göstərməkdə israrlı idi. Hətta 1994-cü ilin ortalarında 70 minlik ordunu yenidən Küveyt sərhədlərinə çıxardı. ABŞ da müvafiq olaraq Körfəz bölgəsinə 40 min əsgər, çoxlu hərbi texnika və təyyarə göndərdi. Vəziyyət xeyli gərginləşdi və artan təhlükə qarşısında İraq geri çəkildi, qoşunlar Küveyt sərhədlərindən uzaqlaşdırıldı. 1994-cü il noyabrın 10-da isə S.Hüseynin imzası və Milli Şuranın təsdiqi ilə İKŞ İraq tərəfindən Küveytin müstəqilliyi və ərazi bütövlüyünün tanınması haqqında fərman verdi. Bunun ardınca İraq BMT Təhlükəsizlik Şurasının bütün tələblərini qəbul etdi. BMT Təhlükəsizlik Şurası da öz növbəsində iqtisadi sanksiyalar nəticəsində ölkənin məruz qaldığı çətinlikləri qismən də olsa yüngülləşdirmək üçün 2 milyard dollar məbləğində İraq neftinin dünya bazarında satışına icazə verdi. Həm də bu vəsait dərman preparatları və ərzaq alınmasına xərclənə bilərdi.

1997-ci ilin ortalarından İraq hökuməti BMT Xüsusi Komissiyası ilə

əməkdaşlıqdan imtina etdi. Məsələ Təhlükəsizlik Şurasında müzakirəyə çıxarıldı. 1997-ci il 21 iyul və 23 oktyabr tarixli qətnamələrdə İraqdan BMT-nin bütün qərarlarını yerinə yetirmək tələb olundu və əks təqdirdə ona qarşı yeni sanksiyaların tətbiq ediləcəyi bildirildi. Qətnamələrdə o da nəzərdə tutulurdu ki, yalnız Xüsusi Komissiya raket, nüvə, kimyəvi və baktereoloji silahlar haqqında məlumatları dəqiqləşdirdikdən və İraqın bu silahlara malik olmaması və istehsal etməyə hazırlaşmamasını aydınlaşdırdıqdan sonra İraqa qarşı sanksiyalar qaldırıla bilər.

S.Hüseyn nəinki bu qətnamələrə məhəl qoymadı, hətta 1997-ci il oktyabrın 29-da xüsusi komissiyanın ABŞ-dan olan ekspertləri casusluqda ittiham etdi və ölkədən çıxardı. BMT Xüsusi Komissiyası isə embarqonu qeyri-müəyyən vaxta kimi uzatmaqda və S.Hüseyni devirmək üçün ABŞ-ın əlində bir vasitə olmaqda suçlandırıldı. Növbəti İraq-ABŞ və İraq-BMT qarşıdurması yenidən ölkənin raket atəşinə tutulacağını qaçılmaz səviyyəyə çatdırdı. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçü — Rusiya Federasiyası, Çin və Fransa hərbi əməliyyatların bərpasına razı olmadı. Buna görə də böhranı aradan qaldırmaq üçün beş daimi üzv dövlətin xarici işlər nazirləri 19-20 noyabr 1997-ci il tarixdə bir araya gəldilər. Danışıqlar nəticəsində ərzaq və dərman almaq üçün dünya bazarına çıxarılacaq İraq neftinin illik limiti 4 milyard dollara qaldırıldı. Bunun müqabilində İraq BMT Xüsusi Komissiyasının fəaliyyətinə imkan yaratmalı idi. Lakin 1998-ci ilin yanvarında İraq hökuməti BMT ekspertlərini "Prezident obyektləri" adlandırılan ərazilərə buraxmadı. Yenə də ABŞ və Böyük Britaniya İraq sərhədləri yaxınlığında hərbi qüvvələr topladılar və manevrlər keçirməyə başladılar. Məsələyə BMT-nin Baş katibi K.Annan qarışdı. O, 1998-ci il fevralın 28-də Bağdadda oldu və S.Hüseynlə keçirilən danışıqların sonunda “BMT və İraq Respublikası arasında qarşılıqlı anlaşma haqqında Memorandum" imzalandı. Memorandumda İraq ilk dəfə olaraq öz öhdəliklərini yazılı şəkildə təsdiq etdi. Bununla da hərbi əməliyyatlar təhlükəsi növbəti dəfə aradan qaldırıldı.

Lakin ABŞ və Böyük Britaniya İraqın inadkarlığına son qoyulduğu qənaətində deyildilər və belə bir halın təkrar baş verməsi zamanı güc tətbiq ediləcəyi haqqında qərar verilməsində israr edirdilər. BMT Təhlükəsizlik Şurası bu məzmunda olmasa da, razılaşmanı pozduğu təqdirdə İraqın ağır nəticələrlə üz-üzə qalacağını bildirən qətnamə qəbul etdi.

Həmin vaxtdan ABŞ-ın S.Hüseyn rejiminə qarşı siyasəti daha da kəs-

kinləşdi. İraqa heç bir güzəşt edilməyəcəyi ilə yanaşı, mövcud rejimin devrilməsi və nisbətən mötədil rejimlə əvəz edilməsi planları haqqında açıq-aşkar danışılmağa başlandı. Bu məqsədlə 1999-cu ilin oktyabrında Nyu-Yorkda "İraqa azadlıq aktı"[1] çərçivəsində ABŞ-ın maliyyə dəstəyi ilə İraq müxalifətinin 300 nəfərdən çox təmsilçisinin iştirakı ilə böyük bir toplantı keçirildi. İraq Milli Konqresinin himayəsi altında dörd gün davam edən bu toplantıda İraqın siyasi sistemində islahatlar aparılması və ölkədə demokratik rejimin qurulmasına dair fəaliyyət proqramı müzakirə edildi və qəbul olundu.

İraq rejimi öz ətrafında yaranmış mühasirə dairəsinin getdikcə daralmasına cavab olaraq bəzi tədbirlər gördü. Bu baxımdan iki hadisəni xüsusilə qeyd etmək lazımdır: birincisi, 2000-ci ilin noyabrında Misirlə 1991-ci ildə pozulmuş diplomatik münasibətlər bərpa olundu və 2001-ci ilin yanvarında iki dövlət arasında yerli istehsal mallarının gömrüksüz ticarəti haqqında müqavilə bağlandı. 2001-ci il yanvarın sonlarında Suriya ilə də həmin məzmunlu sənədlər imzalandı. Qısa zaman kəsiyində Suriya ilə olan mal dövriyyəsi iki dəfə artdı və bir milyard dollarlıq dəyərinə yüksəldi; ikincisi, regionda ABŞ-ın etibarlı müttəfiqləri olan Səudi Ərəbistan və Türkiyənin İraqa qarşı sanksiyaları yumşaltmaq haqqında BMT-yə müraciətləri də ölkə üçün böyük əhəmiyyət kəsb etdi. Belə ki, Səudi Ərəbistan İraqla quru sərhədlərini açdı (həmin vaxta qədər İraqın xaricə yeganə çıxışı Bağdad - Əmman şosse yolu ilə idi - müəl.), Türkiyə isə öz ərazisindən keçən boru xətti ilə İraq neftinin dünya bazarına çıxarılmasına icazə verdi və İraqla sərhədyanı ticarətin genişlənməsinə əlverişli şərait yaratdı.

Qonşu ərəb dövlətləri, o cümlədən Küveytlə əlaqələri tənzim etmək üçün İraq Urdun və Misirin vasitəçilik missiyasına böyük ümid bəslədiyini bildirmək zorunda qaldı.

Sonrakı illərdə də İraqa qarşı bombardmanların sistematik davam etdirilməsilə bağlı müzakirələr beynəlxalq səviyyədə bir sıra görüşlərin və danışıqların başlıca mövzusu olaraq qalmışdı. Xüsusilə 2000-ci ilin sentyabrında BMT Baş Məclisinin "Minilliyin sammiti" adlanan 55-ci sessiyası dövründə istər maraqlı tərəflərarası görüşlərdə, istərsə də Baş Məclisdə ümumi siyasi müzakirələrdə İraq məsələsi önəmli yer tutdu. 2001-ci il fevralın sonlarında Nyu-Yorkda BMT mənzil-qərargahında İraqa dair sanksiyalar haqqında

[1] Bu akt 31 oktyabr 1998-ci ildə ABŞ prezidenti B. Klinton tərəfindən qəbul edilmişdir və S. Hüseyn rejiminin devrilməsini nəzərdə tuturdu.

müzakirələr növbəti dəfə gündəmə gətirildi. ABŞ-ın yeni prezidenti C.Buş İraqa qarşı sanksiyaların daha da kəskinləşdirilməsi kursuna qərar verdi.

11 sentyabr 2001-ci il hadisələrindən sonra isə İraq Quzey Koreya və İranla yanaşı "şər üçbucağın"dan biri kimi dəyərləndirildi, ona qarşı antiterror əməliyyatın tətbiq edilməsi və ya S.Hüseynin hakimiyyətdən uzaqlaşdırılması yolunda mövqeləri razılaşdırmaq üçün qonşu Türkiyə və ərəb ölkələri başçıları ilə ABŞ rəsmilərinin danışıqları intensivləşdirildi.

Təbiidir ki, şəraitin bu cür kəskinləşməsi İraq rəhbərliyini rahatsız etməyə bilməzdi. Bu səbəbdən 2002-ci ilin fevralında S.Hüseyn BMT ekspertlərinin İraqda fəaliyyətinin bərpası üçün dialoqa hazır olduğunu bildirdi. Martda isə xarici işlər naziri N.Səbri Nyu-Yorkda BMT Baş katibi ilə görüşdü. Bu zaman ona bir daha xəbərdarlıq edildi ki, İraq BMT Təhlükəsizlik Şurasının bütün müvafiq qətnamələrinə əməl etməlidir və bu yolda ilk addım kimi tərksilah üzrə BMT müşahidəçiləri və təmsilçiləri ilə qeyd-şərtsiz əməkdaşlığa başlamalıdır.

İraq rəhbərliyi deyilənlərə məhəl qoymadı. Odur ki, ABŞ problemin çözülməsini hərbi qüvvə tətbiqində gördü və bu haqda BMT Təhlükəsizlik Şurasının sanksiyasını almağa cəhdlər etdi. Fransa və Rusiyanın birbaşa və dolayısı maneçiliyi səbəbindən sanksiya alınmasının mümkünsüzlüyü üzə çıxdıqda, ABŞ BMT çərçivəsindən kənarda fəaliyyətə önəm verdi. 2003-cü il martın 18-də S.Hüseynə vəzifəsini və ölkəni tərk etməsi ultimatumu verildi. Müsbət cavab alınmadıqda ABŞ və onu dəstəkləyən 35 ölkənin hərbi qüvvələri İraqa girdilər və S.Hüseyn rejiminə son qoydular.

İraq müharibəsi rəsmən 2003-cü il mayın 1-də bitmiş elan olundu. ABŞ tərəfindən hazırlanan plana görə, İraqın siyasi idarəçiliyi üç mərhələdə həyata keçirilməli idi: birinci mərhələdə ölkənin idarə edilməsi ABŞ-ın Müdafiə nazirliyi nəzdində yaradılan və ehtiyatda olan general C.Qarnerin rəhbərliyi ilə "Bərpaetmə və Humanitar yardım Bürosuna" verilməli idi. Lakin bu qurumun fəaliyyəti qısa müddətli oldu və tezliklə onun funksiyaları diplomat P.Bremerin rəhbərlik etdiyi Müvəqqəti Koalisiya Administrasiyasına (MKA) keçdi. İkinci mərhələdə - ölkənin əsas milli, etnik və dini qruplarının nümayəndələrini təmsil edən Müvəqqəti İdarə Şurası (MİŞ) formalaşdırılmalı, yalnız üçüncü mərhələdə parlament seçkilərindən və yeni konstitusiyanın qəbulundan sonra bütün hakimiyyətin yeni İraq rəhbərliyinə keçməsi nəzərdə tutulurdu.

İyulun 13-də İraqda Müvəqqəti İdarə Şurası yaradıldı. Ölkədəki bütün

milli və dini qüvvələrdən təşkil olunan Şuranın vəzifəsi ABŞ nümayəndəsinin nəzarəti altında İraqda istiqrarı, iqtisadiyyatı və sosial strukturları bərpa etmək və 2004-cü ilin ortalarında hakimiyyətin konstitusiyalı orqanlara keçməsi prosesini başa çatdırmaq oldu.

Qeyd edək ki, İraqda siyasi hakimiyyətin dəyişməsi cəmiyyətdə çoxdan bəri gizli və süst formada cərəyan edən destruktiv proseslərə təkan verdi. Eyni zamanda ABŞ-ın başçılıq etdiyi koalisiya əhali tərəfindən həm "İraq xalqını S.Hüseyn tiranlığından və diktaturasından azad edən" qüvvə, digər tərəfdən isə "işğalçı", "müqəddəs müsəlman torpaqlarını zəbt edən kafirlər ordusu" s. kimi qəbul olunurdu. Müharibənin gedişində və sonrakı ilk dövrdə ölkədə yaranmış xaos, hərc-mərclik, zorakılıq, terror və s. əhalinin ümumi anti-amerikan ovqatının güclənməsinə təkan verdi. Çox keçmədi ki, koalisiya qüvvələrinə qarşı müxtəlif məqsədlərlə yaradılan, daxili və xarici amillərdən qaynaqlanan mütəşəkkil müqavimət hərəkatı meydana gəldi. Məqsəd və məramından asılı olmayaraq, həmin hərəkat yekcins deyildi – burada dağılmış Səddam ordusunun tör-töküntülərindən tutmuş, müxtəlif təməyüllü islamçı qüvvələrədək çoxsaylı ünsürlər təmsil olunurdu.

ABŞ-ın müdaxiləsindən sonrakı ilk dövrdə İraqda üç əsas qüvvə – şiələr, sünnülər və kürdlər cəmiyyətdə real çəkiyə malik idilər və gələcək hakimiyyət bölgüsündə daha iddialı görünürdülər. Bu baxımdan Əhməd Çələbinin rəhbərlik etdiyi və əsasən mühacir müxalifətçiləri birləşdirən, uzun müddət S.Hüseyn rejiminə yeganə alternativ qüvvə kimi mübarizə aparan İraq Milli Konqresini (İMK) də göstərmək olar.

Hələ I Körfəz müharibəsindən sonra aralarında çəkişmələrə baxmayaraq İraq kürdləri ABŞ və müttəfiqlərinin ciddi dəstəyi nəticəsində özlərinin başlıca məqsədlərini reallaşdırmaq – müstəqil kürd dövləti yaratmaq istiqamətində konkret addımlar atmışdılar. Koalisiya qüvvələri tərəfindən İraqın Quzeyində "uçuşlara yasaq" zonalarının yaradılmasından sonra (1991) kürdlər burada öz hakimiyyət strukturlarını – yerli parlamenti və hökuməti formalaşdırdılar və bu, İraqın ərazi bütövlüyünə ciddi təhdid olmaqla yanaşı, həm də "de-fakto" müstəqil kürd dövlətinin yaradılması yolunda atılan növbəti addım idi. Digər tərəfdən, ABŞ da 2003-cü ildə müharibəyə başlayarkən ölkə daxilindəki qüvvələr arasında əsas müttəfiqi kimi kürdləri görürdü. ABŞ-ın himayəsi və dəstəyinə arxalanan kürd rəhbərləri –KDP lideri M.Bərzani və KYB-in lideri C.Talabani aralarındakı ixtilaflara baxmayaraq ümumi mövqedən çıxış etməyə başladılar. Məqsəd yeni İraqın qu-

rulmasında üstün mövqe əldə etmək, təbii sərvətlərə yiyələnmək və daxili siyasi proseslərdə söz sahibi olmaq idi. Təsadüfi deyildi ki, postsəddam dövründə kürdlər Quzey İraqın tamhüquqlu sahibinə çevrildilər, "peşmərgələr" koalisiyanın gözü önündə burada yaşayan ərəblərə və türkmanlara qarşı etnik təmizləmə siyasəti həyata keçirmiş, terror və silah gücü ilə onları yurd-yuvalarını tərk etməyə vadar etmişdilər.

İraqın əsas konfessional qrupu olan şiələr S.Hüseyn rejimi dövründə ən çox əzilir, təzyiqlərə və repressiyalara məruz qalırdı. Qeyd edək ki, şiə icması kifayət qədər fərqli siyasi və ideoloji qruplaşmalardan ibarət idi və onların həm dini, həm də dünyəvi liderləri əsasən ölkədən kənarda fəaliyyət göstərirdilər. Hətta ən nüfuzlu təşkilat olan İraq İslam İnqilabının Ali Şurası (İİİAŞ) qərargahı da xaricdə - İranda yerləşirdi. Həmin mühacir şiə müxalifəti də müharibədən sonrakı dövrdə real siyasi və hərbi çəkiyə malik bir qüvvəyə çevrildi. Onu da qeyd edək ki, İİİAŞ-ın lideri ayətullah M.əl-Həkimin terror nəticəsində həlak olmasından sonra şiə icması müxtəlif qruplara parçalandı: radikal qanad əsasən Müqtəda əs-Sədrin ətrafına cəmləşdi, nisbətən mötədillər isə Ə.əl-Həkim və Ə.Sistaninin rəhbərliyi altında birləşdilər. Dünyəvi şiə liderlər isə əsasən ABŞ-a loyal münasibət bəsləyirdilər. Elə ilk dövrlərdə məhz onların hakimiyyətdə təmsilçiliyi nəzərdə tutulurdu.

Sünnü kəsim isə S.Hüseyn rejimi dövründə hakim mövqelərə malik idi, iqtidarda olan Bəəs partiyası, dövlət, hökumət, güc strukturları və s. əksərən onlardan təşkil olunurdu. Səddamdan sonrakı dövrdə isə onlar, demək olar ki, üstünlüklərini itirdilər və yeni İraqın qurulmasında, xüsusən də ilk dövrlərdə autsayder rolu ilə kifayətlənmək zorunda qaldılar.

Koalisiya qüvvələrinə qarşı kütləvi etirazların artdığı və silahlı müqavimətin fəallaşdığı bir dövrdə ABŞ İraqla bağlı məsələni BMT TŞ-nın müzakirəsinə çıxarmalı oldu. 19 may 2003-cü ildə Təhlükəsizlik Şurasına təqdim olunmuş layihədə iqtisadi embarqonun aradan qaldırması nəzərdə tutulurdu. Mayın 23-də TŞ-nın 1438 saylı qətnaməsi ilə İraq üzərindən iqtisadi sanksiyalar götürüldü.

2003-cü il 1-3 iyunda Fransanın Evian şəhərində "böyük səkkizliyin" sammitində də İraq məsələsi müzakirə obyekti oldu və iştirakçılar "onu suveren, sabit və demokratik dövlət" kimi görmək istədiklərini bəyan etdilər. Koalisiya eyni zamanda silahlı müqaviməti qırmaq məqsədi ilə 2003-cü il mayın sonu - iyunun əvvəllərindən "Yarımadaya zərbə", "Əqrəb" və s. kod adları altında genişmiqyaslı hərbi əməliyyatlara başladı. Bunlarla yanaşı,

İraq dövlətinin yenidən qurulması prosesinə də start verildi. 2003-cü il iyulun 13-də əsas milli, etnik və dini qruplarının təmsilçilərindən ibarət MİŞ-in formalaşdırılması başa çatdı. Bu qurum BMT TŞ-nın 1500 saylı qətnaməsi (16 avqust 2003-cü il) əsasında ölkəni beynəlxalq aləmdə təmsil etmək hüququ qazandı.

Dövlət quruculuğunda digər konkret addımların atılmasına baxmayaraq, ölkədaxili vəziyyət mürəkkəb olaraq qalırdı. Silahlı müqavimətin terror və zorakılıqla müşahidə olunan aksiyaları koalisiya qüvvələri sırasında itkilərin sayını durmadan artırırdı. Digər tərəfdən bu qanlı olayların qurbanları sırasında dinc əhalinin də sayı az deyildi. Siyasi proseslərin bu cür inkişafı ABŞ-ı ciddi çətinliklərlə üz-üzə qoydu. Yaranmış şəraitdə prezident C.Buş 2003-cü ilin sentyabrında özünün xüsusi telemüraciətində İraqın bərpasında BMT rolunun genişləndirilməsinə və digər beynəlxalq qurumları bu proseslərdə fəal iştiraka çağırdı. Ağ Ev İraqda siyasi prosesin hərbçilərin nəzarətindən çıxarılması və mülkü idarəçiliyə keçməsi zərurətini anlayaraq 2003-cü il oktyabrın əvvəllərində Dövlət katibi K.Raysın başçılığı ilə geniş səlahiyyətlərə malik "İraqın sabitləşməsi qrupu"nu formalaşdırdı. TŞ-nın 16 oktyabr 2003-cı il 1511 saylı qətnaməsi ilə İraqda ABŞ-ın komandanlığı altında BMT-nin çoxmillətli kontingenti yaradıldı. Bununla da, formal olsa belə, ABŞ-ın İraqa qarşı hərbi aksiyası beynəlxalq dəstək aldı.

Müvəqqəti Koalisiya Administrasiyası və Müvəqqəti İdarə Şurası təmsilçiləri P.Bremer və C.Talabani arasında aparılmış danışıqlardan sonra 2003-cü il noyabrın 15-də İraqda siyasi islahatlar planının həyata keçirilməsini ehtiva edən "Siyasi proses haqqında saziş" imzalandı. Sənədə görə, 2004-cü il fevralın 28-nə qədər ölkənin "Əsas qanunu" (konstitusiyası) qəbul edilməli və bunun əsasında keçid dövrü parlamentinin – Təmsilçilər Məclisinin formalaşdırılması mexanizmi müəyyənləşməli idi. Parlament seçkilərinin 2004-cı ilin 31 mayına qədər keçirilməsi planlaşdırılırdı.

Gərgin siyasi mübarizə şəraitində 2004-cü ilin mayında şiə Ayyad Əlləvinin başçılıq etdiyi müvəqqəti hökumət formalaşdı və parlament seçkilərinə hazırlıq kampaniyasına start verildi. 2005-ci il yanvarın 30-da keçirilən parlament seçkiləri İraq dövlətinin çağdaş tarixində ən azad və demokratik seçkilər oldu. O, ölkədə legitim prezident və parlament hakimiyyətinin formalaşdırılması üçün real imkanlar yaratdı. Parlamentdə 275 deputat mandatı aşağıdakı şəkildə bölüşdürüldü: ayətullah Ə.Sistaninin başçılıq etdiyi "Birləşmiş İraq Alyansı" (BİA) 140 mandat (48% səs), "Kürdüstan Alyansı"

(KA) - 75 mandat (25,7% səs) qazandı; üçüncü yeri isə 40 mandatla (13,8% səs) Baş nazir şiə A.Ələvinin "İraq siyahısı" (İS) bloku tutdu. Sünnülərin bu seçkiləri boykot etməsi şiələrin qələbəsini şərtləndirsə də, onlar parlamentdə təkbaşına prezident və baş nazir postuna nəzərdə tutulan namizədlərini keçirə bilmədilər (Konstitusiyaya görə, onların hər birinə deputatların 3\2-dən çoxu səs verməli idi). Məhz buna görə də şiələr kürd bloku ilə razılığa gəldilər və birlikdə həm prezident, həm də baş nazirin namizədliyini müəyyən etdilər. 2005-ci ilin aprelində müxtəlif siyasi qüvvələrin qarşılıqlı anlaşması nəticəsində kürd liderlərindən C.Talabani ölkənin prezidenti, şiə Ə.Əbdül-Mehdi və sünnü Qazi əl-Yavər isə vitse-prezidentlər oldular. Üç ay sonra parlament "əd-Daava" şiə partiyasının lideri İbrahim əl-Cəfərinin başçılığı ilə nazirlər kabinetinin tərkibini formalaşdırdı. Hökumətin başlıca vəzifəsi İraqın yeni konstitusiya layihəsinin hazırlaması oldu.

2005-ci ilin avqustundan etibarən bu məsələ ətrafında ölkənin əsas en-to-konfessional qrupları arasında zorakılıqla müşayiət olunan qızğın mübahisələr başladı. Çünki qarşıda İraqın inzibati-ərazi bölgüsü və üç muxtar bölgənin - şiə, kürd və sünnü bölgələrinin yaradılması problemi dururdu. Bu, İraqın ərazi bütövlüyünə ciddi təhdid idi və layihənin qəbul olunacağı təqdirdə ölkənin unitar quruluşu federasiya ilə əvəzlənə bilərdi. Konstitusiya məsələsi ətrafındakı qarşıdurma siyasi prosesləri ləngidir və ölkə maraqlarına cavab vermirdi. Odur ki, məsələnin həllinin tezləşdirilməsi üçün parlament fraksiyalarına ciddi təzyiqlər edilməyə başlandı. Nəticədə 2005-ci il oktyabrın 15-də yeni konstitusiyanın qəbulu üçün keçirilən referenduma muxtar rayonların yaradılması haqqında bəndlər salınmadı. İraq əhalisinin 78%-i konstitusiya layihəsinə səs verməklə 2005-ci ilin dekabrında ölkənin daimi parlamentinə seçkilərin keçirilməsinə yol açdı. Yeni seçkilər qanun pozuntuları ilə müşayiət olunsa da, beynəlxalq meyarlara görə, onları azad və demokratik hesab etmək olardı. Daimi parlamentdə yerlər aşağıdakı kimi bölüşdürüldü: BİA – 128 yer, KA – 53 yer qazandı. Üçüncü yeri 44 mandatla sünnülərin "İraq Birlik Cəbhəsi" tutdu. A.Ələvinin İS bloku isə 25 mandatla dördüncü yerlə kifayətlənməli oldu. Üç aydan sonra parlament şiə Nuri əl-Məlikinin rəhbərliyi altında İraqın yeni hökumətinin tərkibini təsdiq etdi.

Bunlar göstərirdi ki, yenidən qurulmaqda olan İraqda demokratik proseslər, çətinliklə də olsa, tədricən sürətlənir. Lakin ölkədə minlərlə insanın həyatına son qoyan terror və zorakılıq halları hələ də qalmaqda idi. Şiə

çoxluğu və sünnü azlığı arasında ziddiyyət və münaqişələr, aparıcı siyasi qüvvələrin hakimiyyət, milli sərvətlər, dövlət quruluşu və ölkənin gələcəyi uğrunda apardıqları kəskin mübarizə vətəndaş müharibəsinə rəvac verirdi. Ziddiyyətlərin durmadan artması, əksər rayonlarda təhlükəsizliyin təmin edilməməsi ictimai-siyasi durumun sabitləşməsi yolunda başlıca maneələr idi.

Daxili çətinliklərə baxmayaraq, həmin dövrdə İraq rəhbərliyi ölkənin xarici siyasət kursunu da müəyyənləşdirməyə önəm verirdi. 2004-cü ilin ortalarından ABŞ, Avropa Birliyi (AB), islam və ərəb dövlətləri ilə əlaqələr quruldu, diplomatik münasibətlər bərpa edildi. Təhlükəsizliyin qorunması məsələsində NATO ilə əməkdaşlığa cəhdlər göstərildi. Prezident Q.əl-Yavər Belçika, Almaniya, İtaliya və Polşada, Baş nazir A.Əlavi Böyük Britaniya və Rusiyada oldu. Bütün bunlarla yanaşı, qeyd edək ki, həmin dövrdə faktik olaraq İraqın daxili və xarici siyasətinin başlıca istiqamətləri Vaşinqton tərəfindən müəyyənləşdirilirdi.

Vəziyyəti nəzarət altında saxlamağın getdikcə çətinləşməsi səbəbindən ABŞ administrasiyası da ciddi tədbirlər görürdü. Çünki yaranmış problemlərin çözülməsindəki əngəllər ilk növbədə ABŞ-ın superdövlət imicinə mənfi təsir göstərir, onun bölgədəki strateji məqsəd və məramlarına mənfi təsir göstərirdi. Bununla belə, "İraq təcrübəsi"nin uğurlu gedişi bölgədə diktatorluq rejimlərinə qarşı və demokratiya uğrunda mübarizə üçün əlverişli şərait yaradırdı. Odur ki, ABŞ İraq problemi "yükünün" müəyyən hissəsini müttəfiqlərin və bəzi beynəlxalq qurumların üzərinə qoymaqla məsuliyyəti bölüşdürmək qərarına gəldi.

2005-ci il iyunun 22-də Brüsseldə ABŞ və AB təşəbbüsü ilə İraq məsələsinin müzakirəsində maraqlı dövlətlər və müxtəlif beynəlxalq təşkilatlardan olan 80 nümayəndənin iştirakı ilə beynəlxalq konfrans çağırıldı. Onun başlıca məqsədi İraq problemlərinin həllində müttəfiq dövlətlərin tam həcmdə əməkdaşlığının bərpası, ölkədə gedən siyasi proseslərin dəstəklənməsi, iqtisadiyyatın yenidən qurulmasına yardım edilməsi, vətəndaş hüquqları və asayişin təmin edilməsi məsələlərinin müzakirəsi idi. İraq hökuməti siyasi, iqtisadi və sosial sahələrə aid proqramlar paketini konfrans iştirakçılarına təqdim etdi və ölkənin yenidənqurulması üçün yardım istədi.

Buna cavab olaraq ilk mühüm addım kimi, ABŞ və AB nümayəndələri iqtisadiyyat və infrastrukturun bərpası üçün İraqın borclarının silinməsi məsələsini gündəmə gətirdi və onun Dünya Ticarət Təşkilatı (DTT) və Bey-

nəlxalq Valyuta Fondu (BVF) ilə sıx əməkdaşlığının vacibliyini önə çəkdi. Konfransda Paris klubuna üzv olmayan kreditor-dövlətlərdən Səudi Ərəbistan, Küveyt, BƏƏ, Çin, Hindistan və s. 70 mlrd dollar məbləğində borcun hissələrlə qaytarılması, yaxud bir hissəsinin silinməsi məsələsinə yenidən baxması üçün müraciət olundu. Amma ABŞ və AB-nin İraq problemi ilə bağlı mövqelərində müəyyən ziddiyyətlər hələ də qalmaqda idi. Belə ki, AB-yə üzv dövlətlər İraqda mövqelərini gücləndirməyə, ABŞ isə problemin öz nəzarəti altında saxlamağa çalışırdı. Bununla belə, konfransın ABŞ və AB-nin iştirakı ilə keçirilməsi ilk növbədə müharibə öncəsi ixtilafların arxada qaldığını və AB-yə üzv dövlətlərin İraqın yenidənqurulması prosesinə cəlb olunmasına ABŞ-ın razılığını ifadə edirdi.

Bu səbəbdən idi ki, İraqa maliyyə yardımı göstərmək məqsədi ilə donor təşkilatlar 2005-ci ilin 18-19 iyulunda Urdunda toplaşdılar və infrastruktur layihələrin, təhsil, səhiyyə və müxtəlif iqtisadi islahatların həyata keçirilməsi üçün bir mlrd dollar civarında vəsait ayrılmasına razılaşdılar.

Onu da qeyd edək ki, İraqda yaranmış vəziyyətdən daha az mənəvi-siyasi və hərbi itkilərlə çıxmaq üçün ABŞ Konqresi "İraqı öyrənmə qrupu" (bunu Beyker-Hamilton qrupu da adlandırmaq olar - müəl.) adlı xüsusi komissiya yaratdı. Komissiya İraqdakı durumu ciddi və hərtərəfli araşdırdıqdan sonra 2006-cı ilin dekabrında prezident C.Buşa hesabat təqdim etdi. Hesabatda vəziyyət "olduqca mürəkkəb və getdikcə pisləşən" kimi dəyərləndirilir, "böhranın İraq və bütün Yaxın Doğu regionu üçün ciddi mənfi nəticələr verə biləcəyi ehtimalının yüksək olduğu" vurğulanırdı. Komissiya yaranmış vəziyyətdən çıxış yolunu İraqda təhlükəsizliyin təmin olunması məsuliyyətini yerli hökumətin üzərinə qoyulmasında görürdü. Qeyd olunurdu ki, "genişlənməkdə olan proseslərə yardım etmək üçün ABŞ ölkədə hərbçilərin sayını artırmalıdır", lakin onların vəzifəsi "hərbi əməliyyatlarda iştirak etmək yox, İraq ordusunun hazırlanması, yerli hökumətin özünə inamının bərpası, siyasi böhrandan və xarici qüvvələrin pozucu təsirindən qorunması" olmalıdır. Komissiya İraqla bağlı "yeniləşdirilmiş" strategiyanın qəbul edilməsi zamanının artıq gəlib çatdığını bildirdi.

İraq və onun ətrafındakı durumun son dərəcə mürəkkəb və çətin proqnozlaşdırılan olması onun beynəlxalq və regional münasibətlərə ciddi təsir göstərdiyini deməyə əsas verirdi. Ölkədə zorakılığın yüksək səviyyədə olması, müxtəlif yerlərdə törədilən çoxsaylı terror aktları, silahlı toqquşmalar və basqınlar, şiə və sünnülər arası siyasi və çox zaman da silahlı qarşıdurma-

nın geniş vüsət alması böyük itkilərə səbəb olurdu, iqtisadi durum daha da pisləşdirirdi. Aparıcı siyasi qüvvələr arasında ölkənin gələcək inkişafı onun dövlət və siyasi quruluşuna dair prinsipial ziddiyyətlərin mövcudluğu konstruktiv dialoqa və milli birliyin yaranmasına mane olurdu, genişmiqyaslı və qanlı vətəndaş müharibəsinin hər an qızışması ehtimalını artırırdı. 2006-cı ilin noyabrında Ali tribunal diktator S.Hüseynin və onun bir neçə yaxın silahdaşının edam edilməsi haqqında qərar çıxarması və icrası durumu daha da gərginləşdirdi. Ölkədəki böhranlı vəziyyətin Vaşinqtonun və Bağdad hökumətinin nəzarətindən çıxa bilməsi ehtimalı yarandı. ABŞ-ın özündə də Ağ Evin "İraq siyasətindən" narazılıq gün gündən artırdı.

Yaranmış şəraitdə Ağ Ev İraq probleminin çözülməsinə dəyişikliklər etmək zorunda qaldı. Təsadüfi deyildi ki, prezident C.Buş 2007-ci il yanvarın 11-də Konqresdə ənənəvi illik çıxışını "Yeni İraq strategiyası"nın müəyyənləşməsinə həsr etmişdi. Onun əsas mahiyyəti İraqdakı 132 minlik amerikan hərbi kontingentinin sayını daha 21,5 min nəfər artırmaq, onlardan 17,5 min nəfərini Bağdadda, 4 min nəfərini isə sünnü silahlı müqavimətinin əsas mərkəzi olan əl-Ənbər vilayətində yerləşdirməkdən ibarət idi. C.Buşun çıxışında iki məqam diqqəti xüsusi cəlb edirdi: birincisi, İraqdakı böhranlı vəziyyətin çözülməsi üçün universal düstur mövcud deyil; ikincisi, amerikan hərbçilərinin ölkədən dərhal çıxarılması durumu daha da gərginləşdirəcək, bununla da regionda ekstremist və terrorçu qrupların mövqeləri güclənəcəkdir. C.Buş hərbi kontingentin sayının artırılmasını ona görə vacib hesab edirdi ki, onlar terrorçulardan və yaraqlılardan azad olunan ərazilərdə yerləşdirilsin və həmin qüvvələrin geriyə qayıtmasına imkan verilməsin. Hökumətin ABŞ qoşunlarının İraqda uzunmüddətli qalması planına baxmayaraq, həm də yerli ordu hissələri və polisin tezləşdirilmiş rejimdə təlimlər keçməsi və təchizatına önəm verildi.

Rəsmi Vaşinqton N.əl-Məliki hökumətini dəstəklədiyini dəfələrlə bəyan etməklə yanaşı, eyni zamanda İraqda milli barışığa nail olmaq üçün konstruktiv dialoqun aparılmasının vacibliyini də qeyd edirdi. Bildirilirdi ki, hökumət daxili sabitliyə nail olmaq üçün hakimiyyətin təşkili, neft gəlirlərinin bölüşdürülməsi, keçmiş hakim Bəəs partiyası üzvlərinin əfv olunması, müxtəlif siyasi qüvvələr arasında dialoqun təşkili, yerli idarəçilik orqanlarının yaradılması, demokratiyanın genişləndirilməsi sahəsində qanunlar qəbul etməli, islahatlar aparmalıdır. Lakin ölkədə təhlükəsizliyi və sabitliyi təmin edə bilmək çətinliyi qarşısında qalan hökumət vəziyyətdən çıxmaq

yolunu sülhməramlı qüvvələrin İraqda qalması müddətinin uzadılmasında gördü və BMT TŞ-na müraciət olundu. TŞ İraqdakı siyasi proseslərin inkişafının dəstəklənməsi, yaranmış çətinliklərin aradan qaldırılması və keçid dövrünün məhdudlaşdırılması məqsədi daşıyan 1546 saylı qətnamə qəbul etdi. Bununla da İraq hökuməti nəzərdə tutulan islahatların həyata keçirilməsi üçün beynəlxalq siyasi dəstək qazandı.

Ümumiyyətlə, dünya birliyi, aparıcı dövlətlər və qurumlar 2004-2005-ci illərdən etibarən İraq probleminin nizamlanmasına dair beynəlxalq konfransın çağırılması təşəbbüsləri ilə çıxış etməyə başlamışdılar. Hələ 2004-cü ildə Rusiya üstünlüyü ələ almaq və regionda zəifləmiş nüfuzunu bərpa etmək məqsədilə İraqın əsas siyasi qüvvələrinin, qonşu ölkələrin, BMT TŞ-nın daimi üzvlərinin və digər maraqlı dövlətlərin iştirakı ilə beynəlxalq konfransın çağırılması ideyasını irəli sürmüşdü. ABŞ Dövlət katibi K.Rays ölkəsinin bu məsələyə münasibətini: "təklif olunan forumun gündəliyinin nədən ibarət olduğunu bilənədək ABŞ öz üzərinə heç bir öhdəlik götürmək niyyətində deyil" şəklində ifadə etmişdi. Dövlətlərin həmin təşəbbüsə maraq göstərməməsi nəticəsində Rusiyanın təklifi üç il sonra nisbətən dar çərçivədə - Bağdadda akkreditə olunmuş səfirlər və BMT TŞ-nın beş daimi üzvünün təmsilçiləri səviyyəsində baş tutdu. Toplantının başlıca müsbət nəticəsi İraq probleminə dair xarici işlər nazirlərinin iştirakı ilə beynəlxalq konfransın çağırılması haqqında qərarın qəbul edilməsi oldu.

2007-ci il mayın 3-4-də Misirin Şərm əş-Şeyx şəhərində BMT TŞ-nın Baş katibi və daimi üzvlərinin, "səkkizlərin" xarici işlər nazirləri, Ərəb Dövlətləri Liqası və İslam Əməkdaşlıq Təşkilatı, AB, Dünya Bankı və digər nüfuzlu təşkilatlar və maliyyə qurumlarının iştirakı ilə konfrans çağırıldı. Konfransda yaxın beş il üçün İraqın siyasi, iqtisadi və sosial inkişafı naminə beynəlxalq birliyin birgə fəaliyyətinin "kompakt" planı qəbul edildi. Mayın 4-də isə yenə də orada İraqda vəziyyətin sabitləşdirilməsi ilə bağlı xarici işlər nazirlərinin toplantısı keçirildi.

Eyni zamanda İraq rəhbərliyi Asiyanın Yaponiya, Çin və Güney Koreya kimi iqtisadi güc mərkəzləri ilə əlaqələrini canlandırmağa önəm verməyə başladı. Həmin dövrün ən əhəmiyyətli hadisələrindən biri 2007-ci ildə AB ilə İraq arasında Əməkdaşlıq və Qarşılıqlı Ticarət haqqında sazişin imzalanması oldu. Bu sazişin gerçəkləşməsini sürətləndirmək məqsədi ilə İraqın baş naziri N. əl-Maliki 2008-ci ilin aprelində AB bir sıra ölkələrində oldu. 29-31 mayda isə o, Stokholmda İraqın gələcəyinə dair BMT-nin təşkil

etdiyi konfransa qatıldı. 83 ölkənin və 12 beynəlxalq təşkilatları təmsil edən konfrans nümayəndələri İraqa geniş və hərtərəfli yardım göstərməsi haqqında məşhur "Stokholm Bəyannaməsi"ni qəbul etdilər.

Həmin arada İraqda altı iri neft yatağında axtarış və hasilat işlərinin aparılması üçün beynəlxalq tender elan olundu. 31 dekabr 2009-cu ildə həmin siyahıya daha 11 neft yatağı əlavə edildi. Bu sahədə Rusiyanın neft və qaz şirkətləri də fəallaşdı. 2009-cu ilin noyabrından Bağdad Ticarət–Sənaye yarmarkası yenidən fəaliyyətə başladı. Birinci ildə onun işində 400 civarında xarici şirkət iştirak etdi. Onlardan da 60-ı İrana, 44-ü Türkiyəyə, 40-ı Fransaya, 20-si Britaniyaya məxsus idi. Sonrakı ildə isə iştirakçı şirkətlərin sayı 1200 oldu. Onların sırasında yerli şirkətlər də az deyildi.

Bütün bunların nəticəsi idi ki, elə 2008-ci ilin əvvəllərindən etibarən İraqda təhlükəsizlik, milli barışıq və həmrəylik sahəsində bəzi müsbət dəyişikliklərin ilk işartıları göründü və ictimai-siyasi durumun tədricən yaxşılaşması ehtimalı artdı. Bu, ilk növbədə ölkənin davamlı inkişafında maraqlı olan siyasi qüvvələrin fəallaşması ilə bağlı idi. Onlar şiə, sünnü və müstəqil deputatlardan ibarət, ümumi platforma və mövqedən çıxış edən yeni parlament blokunun formalaşdırılmasına nail olmağa çalışırdılar. Bəyanatda təhlükəsizlik qüvvələrinin möhkəmləndirilməsi və xarici orduların tez zamanda ölkədən çıxarılması üçün bütün imkanlarin səfərbər olunmasının vacibliyi də vurğulanırdı. Hökumət isə öz növbəsində ölkədə milli barışıq prosesinin sürətləndirilməsi və siyasi sistemin möhkəm təməl əsasında yaradılması üçün bütün siyasi qüvvələrin iştirakını zəruri sayırdı.

Mövcud problemləri bütün siyasi qrupların mövqelərini nəzərə almaqla həlli məqsədilə "İdarəetmə Məclisi" adlı qurum yaradıldı. Onunu tərkibinə prezident, onun iki müavini və baş nazir daxil idi. Eyni zamanda milli birlik hökumətinin formalaşmasında bütün aparıcı siyasi qüvvələrin təmsilçilərinin iştirakı vacib sayılırdı. Vəziyyətin sabitləşməsinə "İstintaq və Ədalət haqqında" yeni qanunun qəbulu da müsbət təsir göstərdi. Yeni qanun Bəəs partiyası üzvləri haqqında 2003-cü il qanununu əvəzlədi. Nəticədə keçmiş hakim partiyanın S.Hüseyn rejiminin cinayətlərində əli olmayan sıravi üzvlərinin öz xidməti vəzifələrinə qayıtması təmin edildi. 2008-ci ilin oktyabrında Prezident Şurası parlamentin qəbul etdiyi "Yerli hakimiyyət orqanlarına seçkilər haqqında" yeni qanunu da təsdiqlədi.

2007-ci il noyabrın 28-də İraqla ABŞ arasında "Dostluq və Əməkdaşlıq prinsipləri haqqında Bəyannamə" imzalandı. Bundan sonra müxtəlif sahə-

lərdə müəyyən razılaşmaların əldə edilməsinə yol açıldı.Tərəflər arasında 2008-ci il martın 11-də Bağdadda başlanan və xeyli sürən danışıqlarda əsas müzakirələr amerikan qoşunlarının gələcək statusuna dair "Strateji əmək-daşlıq" müqaviləsinin hazırlanması ilə bağlı oldu. Nəhayət, amerikan qo-şunlarının 2011-ci ilin sonuna qədər İraqdan çıxarılması haqqında razılıq əldə edildi. Gərgin danışıqlar 17 noyabr 2008-ci ildə müqavələnin imzalan-ması ilə başa çatdı. Hər iki sənəd noyabrın 27-də parlament tərəfindən təs-diq edildi.

Həmin vaxt kəsimində Parisdə hərbi-texniki əməkdaşlığın bərpası məq-sədi ilə İraq-Fransa danışıqları oldu. 2009-cu ilin fevralında isə Fransa pre-zidenti N.Sarkozinin İraqa ziyarəti zamanı tərəflər arasında iqtisadi, ene-rgetika və təhlükəsizlik sahələrində əməkdaşlıq haqqında razılaşmalar əldə edildi.

Həmin ildə İraq-Türkiyə münasibətləri də yüksələn xətlə inkişaf edirdi. 2009-cu ilin martında bir çox sahələri ehtiva edən ikitərəfli sazişlər imza-landı. İyulda isə Türkiyənin Baş naziri R.T.Ərdoğanın Bağdada ziyarəti zamanı "Yüksək səviyyəli strateji əməkdaşlıq şurası" yaradılması razılaşdı-rıldı. Bu Şuranın sentyabrda İstanbulda keçirilən ilk toplantısında 40-dan çox saziş və memorandum imzalandı.

Bunlardan sonra, xüsusi ilə də 2009-cu ilin ortalarından daxili siyasi həyatda da fəallıq başladı. O, yeni parlament seçkiləri ilə bağlı idi. Həmin il oktyabrın 1-də Baş nazir N.əl-Məliki 40 siyasi partiya və hərəkatı birləşdi-rən "Qanun dövləti" adlı siyasi blokun yaradıldığını bəyan etdi. Oktyabrın 31-də isə keçmiş baş nazir Ə.Ələvinin başçılığı ilə "əl-İraqiyyə" adlı siyasi alyans yarandı. Onun tərkibinə həm şiələri, həm də sünnüləri təmsil edən bir sıra partiya və birliklərin nümayəndələri qatılmışdı. 2009-cu il noyabrın 15-də isə kürd liderlər KDP və KYP-nin də daxil olduğu 14 partiyadan iba-rət siyasi blok yaratdılar.

Lakin seçkilər haqqında qanunun qəbul edilməməsi hələ də siyasi həy-atın ən ziddiyyətli problemindən biri kimi qalmaqda idi. Müxtəlif siyasi qüvvələrin mövqelərində olan ciddi fikir ayrılıqları, ən başlıcası isə seçkinin proporsional və ya majoritar qaydada keçirilməsi və Kərkük şəhərinin sta-tusunun müəyyən edilməməsi kimi məsələlər onun qəbulunu ləngidirdi. Yalnız ABŞ-ın təzyiqləri nəticəsində 2009-cu il dekabr 6-da parlament seç-kilər haqqında yeni qanun qəbul etdi. Qanuna görə parlamentin aşağı pala-tasında deputat yerlərinin sayı 275-dən 325-ə çatdırıldı. Onun da 310-u öl-

kənin 18 əyaləti arasında bölündü, 15 yer isə dini və milli azlıqlar üçün ayrıldı.

Saddam rejiminin süqutundan sonra 2010-cu il martın 7-də İraqda ikinci dəfə parlament seçkiləri keçirildi. Seçki kampaniyası ölkənin siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, region və beynəlxalq birliyk üçün də ciddi maraq kəsb edirdi. Çünki seçkilərin keçirilməsi və nəticələri İraq hakimiyyəti üçün "demokratiya testi" olub, ölkənin gələcək inkişafının müəyyən edilməsində ciddi əhəmiyyətə malik idi.

Seçkilərin nəticələrinə görə Ə.Əlləvinin "əl-İraqiyyə" bloku 91, "Qanun dövləti" alyansı isə 89 yer aldı. 70 deputat yerini dini təməyüllü İraq Milli Alyansı, 43 yeri isə kürdlərin aparıcı bloku qazandı. Digər yerlər kiçik siyasi blok, partiya və müstəqil namizədlər arasında bölüşdürüldü.

Seçkilərdə mütləq qalibin olmaması daxili siyasi mübarizənin yenidən kəskinləşməsinə meydan açdı. Yaranmış vəziyyətdə heç bir siyasi blok və partiya digərlərinin iştirakı olmadan nazirlər kabinetini tək başına formalaşdıra bilməzdi, buna görə də koalision hökumətin qurulması məsələsi gündəmə gəldi. Lakin müxtəlif maraqlardan çıxış edən qüvvələrin bir araya gətirilməsi asan məsələ deyildi.

İraqda doqquz ay davam edən hakimiyyət böhranı uzun sürən və gərgin danışıqlar və qarşılıqlı güzəştlər nəticəsində 2010-cu ilin noyabrında başa çatdı. Əldə edilmiş razılığa əsasən N.əl-Məliki baş nazir postunu tutdu, onun əsas rəqibi olan Ə.Ələvi isə geriyə çəkilmək məcburiyyətində qaldı. Parlamentin sədri "əl-İraqiyyə" blokunun təmsilçisi sünnü Ü.ən-Nəcaifi, prezident isə yenidən C.Talabani seçildi.

Bütün bunlarla yanaşı, sözügedən zaman kəsimində iqtisadiyyatın və ölkənin beynəlxalq əlaqələrinin inkişafı sahələrində də müəyyən işlər görüldü. 2010-cu ilin yanvarında AB ilə "Strateji enerji tərəfdaşlığı haqqında Memorandum"un imzalanması həmin qəbildən ən önəmli hadisə kimi dəyərləndirilə bilərdi. Bu sənəd 2010-2015-ci illərdə İraqın əsasən Yaxın Doğu dövlətləri ilə qarşılıqlı münasibətlərinin başlıca istiqamətlərinin tənzimlənməsi, enerji siyasətinin inkişafı, AB ölkələrinə enerji daşıyıcılarının təhlükəsiz ixracı və bərpa olunan yeni enerji mənbələrinin genişləndirilməsini nəzərdə tuturdu. 2011-ci ilin yanvarında Türkiyə xarici işlər naziri Ə.Davudoğlunun "Yüksək səviyyəli iqtisadi əməkdaşlıq Şurası"nın toplantısına hazırlıqla əlaqədar Bağdada gəlməsi, martda isə Baş nazir R.T.Ərdoğanın bu ölkəyə ziyarəti zamanı İraq rəhbərliyi ilə iqtisadi və siya-

si xarakterli problemlərə dair bir sıra razılaşmaların əldə edilməsi mövcud kursun davamı oldu.

2011-ci ilin dekabrında ABŞ qoşunları İraqdan çəkildi. Bundan sonra hakim siyasi elita ölkədə mövcud olan problemlərin çözülməsi yolunda öz səylərini daha da artırmaq məcburiyyəti qarşısında qaldı. 2013-cü ilin aprelində İraqın 18 əyalətindən 12-sində yerli şuralara seçkilər keçirildi və qalan əyalətlərdə bu iş bir qədər sonraya saxlanıldı. Lakin bütün bunlara baxmayaraq ölkədə müxtəlif sosial-siyasi qruplaşmalar, sünni və şiələr arasında silahlı toqquşmalar, terror aktları səngimədi, demək olar ki, hər gün çox sayda insan ölümü ilə müşayiət olunan qanlı hadisələr baş verdi. Ümumiyyətlə isə, bölgədə cərəyan edən geosiyasi proseslər İraqda mövcud olan qeyri-sabit durumun ömrünü bir qədər də uzatdı.

## SURİYA - LÜBNAN

XX əsrin 40-cı illərinə qədər, nisbi də olsa, tarixən bir çatı altında yaşayan Suriya və Lübnan çağdaş dövrün başlaqğıcında bir neçə ərazi-inzibati vahid şəklində Osmanlı dövlətinin tərkibində idi. Bunlardan Diməşq vilayətinə indiki Suriyanın güney hissəsi, Urdun, demək olar ki, bütünlüklə və indiki Lübnanın bir hissəsi; Hələb vilayətinə Suriyanın quzey hissəsi, həmçinin indiki Türkiyə əraziləri Ayntab, Urfa və İskəndərun nahiyələri, Beyrut vilayətinə indiki Suriyanın Latakiyə bölgəsi və Fələstinin güney hissəsi daxil idi. Muxtar Lübnan sancağı indiki Lübnanın dağlıq bölgəsini, Qüds sancağı isə Fələstinin güney hissəsini əhatə edirdi. Suriyanın güneyindəki Deyr əz-Zur və əl-Cəzirə nahiyələri isə indiki İraqın Mosul vilayətinə daxil idi. Onlar sultanın təyin etdiyi valilər və yerli məmurlar tərəfindən idarə olunurdu.

Suriya və Lübnanın sosial-iqtisadi həyatına gəlincə, bu sahədə aqrar bölmə, xüsusilə də əkinçilik həlledici mövqeyə malik idi. Dövlətin və feodalların mülkiyyətində cəmləşən torpaqlar xırda sahələrə bölünür və əsasən icarədar kəndlilər tərəfindən becərilirdi. Bəzi bölgələrdə icma torpaq sahibliyi və təsərrüfat tərzi hələ də qalmaqda idi. Feodal dövrünə xas olan qayda-qanunların, demək olar ki, dəyişilmədən saxlanılması aqrar təkamül prosesini ləngidir, istehsal səviyyəsinin yüksəlməsinə imkan vermirdi. Bu cəhətdən də kənddə yoxsulluq və kasıblıq tüğyan edirdi. Ən başlıcası isə, əmtəə-pul münasibətlərinin genişlənməsi və bölgə miqyasında daxili bazarın təşəkkülü ləng gedirdi.

Sənaye bölməsi çox zəif inkişaf etmişdi və bir qayda olaraq əl əməyinə əsaslanan kiçik sexlərdən ibarət idi. Bu bölmədə də arxaik istehsal münasibətlərinin hakim rol oynaması məhsuldar qüvvələrin inkişafına ciddi maneə olaraq qalırdı. Nisbətən inkişaf etmiş sənətkarlıq sahələrinə gəlincə, bu baxımdan Lübnanda ipəkəyirməni, Suriyada isə toxuculuğu qeyd etmək olar. Hər iki ölkədə tütün emalı və həllac-yunçırpma fabrikləri, dəyirmanlar, yağ və şərab istehsalı müəssisələri vardı. Onların əksəriyyəti əcnəbilərə məxsus idi. Sənaye bölməsində çalışanların iş şəraiti ağır, əmək haqları çox az və həyat şəraiti dözülməz idi. Bu hal cəmiyyətin bütün təbəqələri üçün xarakterik hal olaraq qalırdı. Eyni zamanda, işsizlik də get-gedə artırdı. Odur ki, müəyyən təhsil almış mütəxəssislər, sənətkarlar və kəndlilər ölkədən çıxır və xarici ölkələrə, xüsusilə də ABŞ-a, Kanadaya və Latın Amerikasına pənah aparırdılar.

XX əsrin əvvəllərində Suriya və Lübnana xaricdən, xüsusilə də Avropadan ucuz sənaye mallarının axını daha da gücləndi. Həmin proses bölgədə xarici kapitalın, xüsusilə də ticarət kapitalının mövqeyinin və rolunun artması ilə müşayiət olunurdu. Bu sahədə fransızlar üstünlük təşkil edirdilər. Onlar bölgədə öz mallarını satmaqla yanaşı, ölkənin taxıl, yun, ipək, tütün və pambıq məhsullarını xammal, ən yaxşı halda ilkin emal formasında alırdılar. Xarici kapital da həmin sahələrə yönəldilirdi. Xüsusilə də, tütünçülük sahəsinə daha çox önəm verilirdi. Hələ XIX əsrin ortalarından başlayan bu prosesin ən böyük göstəricisi 1883-cü ildə fransız şirkətləri tərəfindən "Reji de tabaco" adlı inhisarçı tütün şirkətinin qurulması idi.

Sonrakı illərdə də fransızlar Beyrut limanının, bu şəhərdə qaz və elektrik stansiyalarının və su kəmərinin, Suriyada bir sıra kommunal xarakterli obyektlərin inşasına konsessiyalar almışdılar. Bölgədə xarici bankların filialları açılmışdı, bank- kredit şəbəkəsi genişlənmişdi. Bütün bunların nəticəsində, Suriya və Lübnan bir tərəfdən xarici istehsalın aqrar xammal əlavəsinə çevrilmiş, digər tərəfdən isə beynəlxalq ticarət orbitinə cəlb edilmişdi. Bu da iqtisadiyyatın inkişafına, kapitalist münasibətlərinin təşəkkülünə və formalaşmasına, burjua və işçi təbəqələrinin kəmiyyətcə və keyfiyyətcə artmasına müsbət təsir göstərirdi.

Qeyd edək ki, həmin ərəfədə Böyük Britaniya da bölgəyə xüsusi maraq göstərirdi. Bu sahədə ilk ciddi cəhd 1915-ci ildə Misirdəki ingilis ali komissarı Mak-Maqonun Məkkə şərifi Hüseyn əl-Haşimi ilə gizli danışıqlara girməsi və Osmanlı dövlətinə qarşı ərəblərin hərbi əməliyyatlara başlaması haqqında razılaşmanın əldə edilməsi oldu. Əvəzində müharibə bitdikdən sonra şərifin hakimiyyəti altında vahid ərəb dövlətinin yaradılması vədi verildi. 1916-cı ildə isə Böyük Britaniya və Fransa arasında məşhur Sayks-Piko sazişi imzalandı. Sazişə görə, I dünya müharibəsinin başa çatmasından sonra Batı və Doğu Suriya və Lübnan, eləcə də Kilikiya Fransanın nüfuz dairəsinə keçməli idi. Sazişdə şərifə verilən vəd xatırlanmırdı.

Nəhayət, I Dünya müharibəsi başa çatdı və Mudros barışığının şərtlərinə əsasən, Osmanlı hərbi qüvvələri Suriya və Lübnandan çıxdı və Böyük Britaniya hərbi birləşmələri oranı işğal etdi. Ardınca da Lübnan və Suriyanın sahil bölgələrinə Fransa qoşunları yeridildi. Həmin ərazilər işğal zonası olaraq Fransanın nəzarətinə keçdi. İşğal edilmiş ərazilərin idarə edilməsi fransız ali komissarına həvalə olundu. Suriyada isə həmin funksiyanı formal olaraq şərifin oğlu əmir Feysəl əl-Haşimi icra edirdi. Lakin real haki-

miyyətin sahibi Böyük Britaniya hərbçiləri idi.

Bu vəziyyət 1919-cu il yanvarın 18-də işə başlayan Paris sülh konfransına qədər dəyişilməz qaldı. Konfransın gedişində yaranan kəskin mübahisələrdən sonra Suriya və Lübnanın bütünlüklə Fransanın mandatına verilməsi haqqında razılıq əldə edildi. 1920-ci ilin aprelində San-Remo konfransında həmin razılıq hüquqi status qazandı. Beləliklə də, Suriya və Lübnanın sonraki taleyi bu qaydada həll olundu. Hər iki ölkədə hakimiyyət fransız ali komissarına verildi.

Fransa burada mövqelərini daha da möhkəmləndirmək və yerli əhalini səmərəli idarə etmək üçün münasib dövlət strukturu forması seçmək axtarışına başladı. Nəhayət, 1920-ci ilin sentyabrında fransız general-qubernatoru başda olmaqla "Böyük Lübnan" dövlətinin qurulduğu elan olundu.

Suriyaya gəlincə, qeyd edək ki, buranın əhalisi və yerli siyasi qüvvələr mandata qarşı idilər. Bu barədə 1919-cu ilin iyulunda çağrılan Ümumsuriya konqresində (o, həmin ilin mart ayında yaranmışdı – müəl.) açıq və rəsmi etiraz bildirildi. Lakin Fransanın müəyyən manevrlərindən sonra əmir Feysəl 1920-ci ilin əvvəllərində Baş nazir Klemanso ilə imzaladığı sənəddə faktiki olaraq Doğu Suriyanın Fransa protektoratı olmasına razılıq verdi. Bunun əvəzində həmin ilin martında Ümumsuriya konqresində Suriyanın, eləcə də Lübnan və Fələstinin tam müstəqilliyi bəyan edildi. Eyni zamanda, əmir Feysəl kral elan olundu. Belə olduqda, 1920-ci ilin iyulunda fransız hərbi birləşmələri Doğu Suriyanı işğal etmək üçün hərbi əməliyyatlara başladılar və asanlıqla Diməşqi tutdular. Sonra isə əmir Feysəli ölkədən sürgün etdilər. Siyasi liderlər, xüsusilə Ərəb İstiqlal partiyasının üzvləri Qahirəyə qaçdılar. Ələ keçirilənlərdən 37 nəfəri avqust ayında edam edildi.

Beləliklə, Suriya da tamamilə Fransanın nəzarəti altına keçdi. O, Lübnandan fərqli olaraq, konfessional zəmində bir neçə quruma bölünərək, Hələb, Diməşq, Cəbəl əd-Duruz, Latakiya vilayətlərindən ibarət federal sistemə malik oldu. Bu ərazilər də fransız ali komissarına tabe olan fransız qubernatorlar tərəfindən idarə olunurdu.

Qeyd edək ki, həmin dövrdə Suriya və Lübnan iqtisadiyyatına fransız kapitalının geniş axını başladı. Hələ 1919-cu ilin aprelində ticarət-sənaye kapitalının maraqlarına xidmət edən bank, 1920-ci ildən dövriyyəyə buraxılan yerli valyuta-funtun kəsilməsi sahəsində inhisar sahibi oldu. Suriya və Lübnan Bankı yaradıldı. Dövriyyədə olan qızıl sikkələr ölkədən çıxarıldı, əvəzində kağız pullar gətirildi. Ölkədə fransızlara məxsus çoxsaylı konses-

siyalar şəbəkəsinin yaranması, eləcə də yerli iqtisadiyyatın metropoliya iqtisadiyyatına geniş inteqrasiyası yerli sənayenin və ticarətin inkişafında ciddi maneələrə çevrildi. Ölkə sənayesi yenə də əl əməyinə əsaslanan (kustar) sənətkarlıq emalatxanarından ibarət olaraq qalırdı. Onların texniki təchizatı və məhsulları çox aşağı səviyyədə idi. Aqrar bölməyə gəlincə, burada da feodal münasibətləri qalmaqda davam edirdi. Kəndlilər ya tam torpaqsız, ya da kiçik əkin sahələrinə malik idilər. Yeni fransız hakimiyyəti arxaik icma torpaq mülkiyyəti və istifadəsi formalarını dağıdaraq, faktiki olaraq kəndliləri kütləvi sürətdə torpaqdan məhrum edirdi. İcarə haqlarının yüksək olması və sələmçi kapitalın geniş yayılması səbəbindən kəndlilərin ümumi vəziyyəti getdikcə ağırlaşırdı. Onlar müflisləşir, əkin sahələri azalır, istehsalın səviyyəsi aşağı düşürdü. Yararlı əkin sahələrinin çox az hissəsindən istifadə olunurdu.

Kiçik sahibkarlar və sənətkarlar da eyni vəziyyətdə idi. Müharibə ənənəvi təsərrüfat və ticarət əlaqələrini pozmuşdu. Daxili bazarın məhdudluğu və xarici mallarla qeyri-bərabər rəqabət kiçik istehsalçının onsuz da qeyri-sabit fəaliyyət bazasını sarsıdırdı. Fransanın həyata keçirdiyi maliyyə siyasəti də ticarət-sənaye burjuaziyasının maraqlarına ciddi ziyan vururdu. Beləliklə, bölgədə tətbiq olunan idarəçilik üsulları müxtəlif sosial təbəqələrin narazılığını artırır, onların öz hüquq və azadlıqları uğrunda mübarizəyə qoşulmasına zəmin yaradırdı.

Qeyd edək ki, işğal dövründə Suriya və Lübnanda yerləşdirilən fransız hərbçilərinin sayı da artırılırdı. 1920-ci ildə onların sayı 7 mindən 70 minə qalxmışdı. Bundan da məqsəd bir tərəfdən bölgəyə tam nəzarəti təmin etmək, digər tərəfdən isə işğalın ilk günlərindən fransızlara qarşı başlayan və mandatlıq dövründə daha da güclənən etiraz çıxışları və hərəkatlarını yatırmaq idi. Hələ 1920-ci ilin ortalarında Diməşq tutulduqdan sonra müxtəlif silahlı dəstələr yaradılmışdı və onlar mandat hakimiyyətinə ciddi narahatlıqlar törədirdilər. Heluan əyalətində kəndlilər üsyana qalxmışdılar. Diməşqdə nümayişlər və müxtəlif qayəli iğtişaşlar olurdu. 1921-ci ildə isə Suriyanın bütün əyalətləri üsyanlara bürünmüşdü. Qahirədə məskunlaşan siyasi mühacirlərin qurduğu Suriya Birliyi partiyası və orada fəaliyyətini bərpa etmiş Ərəb İstiqlal partiyası öz konqreslərində mandatlığın ləğv edilməsi, Suriyaya istiqlaliyyət verilməsi tələbi ilə Millətlər Cəmiyyətinə müraciətlər edirdilər.

Ölkə daxilində baş qaldıran bütün çıxışlara fransızlar silahla cavab ve-

rirdilər. Bu da hər iki tərəf üçün itkisiz ötüşmürdü. Fransa mətbuatının yazdığına görə, bu dövrdə suriyalılar 35 dəfə üsyan etmişdilər. Onlara qarşı hərbi əməliyyatlarda Fransa beş min əsgərindən məhrum olmuşdu.

Fransa mandat hakimiyyəti Suriya xalqının güclənən siyasi fəallığının qarşısını almaq və mübarizəni nəzarətdə saxlamaq üçün bəzi güzəştlərə də getməli oldu. Belə ki, millətçi qüvvələrə "Xalq partiyası"nı ("Hizb əş-Şaab") yaratmağa və leqal fəaliyyət göstərməyə razılıq verildi.

Bütün bunlara baxmayaraq etiraz hərəkatı səngimək bilmirdi. Bu, az sonra ən yüksək həddə çatdı. 1925-ci ildə Cəbəl əl-Duruzda Sultan əl-Atraşın rəhbərliyi altında üsyan başladı. Etiraz dalğası ölkənin bir çox şəhər və əyalətlərinə yayıldı, ümumölkə xarakteri aldı və iki il davam etdi. Fəllahlar və bədəvilər silahlı dəstələrdə birləşir, fransızlara məxsus kommunikasiya xətlərini sıradan çıxarır və qarnizonlara hücumlar edirdilər. Sultan əl-Atraşın qüvvələri fransız generalı Mişonun 4 minlik ordusunu darmadağın etdilər. Xalq partiyasının liderləri duruzların başçıları ilə əlaqə yaradaraq, müstəqillik qazananadək üsyanı davam etdirmək haqqında razılığa gəldilər. Özləri isə Diməşqdə üsyana hazırlaşdılar. Lakin fransız ali komissarı Sorel bu planları pozdu. O, 1925-ci ilin avqustunda Xalq partiyasını qadağan etdi, başçılarını isə həbsə atdı. 1926-ci ilin yazında vəziyyətin ağırlığını dərk edən Fransa hökuməti Mərakeşdən Suriya və Lübnan ərazisinə yeni qoşun hissələri yeridərək müdafiədən hücuma keçdi. Cəbəl əd-Duruzda, Quta vadisində və digər ərazilərdə şiddətli döyüşlər baş verdi. Fransız hərbi qüvvələri kəndləri dağıdır və yandırır, fəllahları, bədəviləri və şəhər əhalisini qətlə yetirirdi. Diməşq şəhəri intensiv bombardmanlara məruz qalmışdı. Beyrutda isə artıq küçə döyüşləri gedirdi. Buna baxmayaraq fransızlara qarşı müqavimət dayanmırdı və 1927-ci ilin yazına kimi davam etdi.

1926-1927-ci illər üsyanı mandat hakimiyyətini idarəçiliyin daha çevik formalarını axtarmağa məcbur etdi. Öncə hərbi tədbirlər daha çox iqtisadi təzyiqlərlə əvəz olundu. Sonra fransız şirkətləri Suriya və Lübnan əsilli sahibkarları "kiçik şərik" qismində müştərək *müəssisələrə və səhmdar cəmiyyətlərə* cəlb etməyə başladılar. Bu cür tədbirlərlə fransız hakimiyyəti mandat rejiminin sosial bazasını genişləndirmək və sosial təbəqələri öz tərəfinə çəkmək niyyətində idi. Fransa hətta xoş məram göstərmək naminə Qurucular Məclisinin çağırılmasına razılıq verdi. 1928-ci il aprelin 24-də Məclisə keçirilən seçkilərdə əksər deputat yerlərini Xalq partiyasının əvəzinə yaradılan Milli Blok ("Əl-kutlə əl-vataniyyə") partiyasının təmsilçiləri

tutdu. Qeyd edək ki, Fransa Qurucular Məclisini özünün güvənə biləcəyi bir qurum kimi görmək istəyirdi. Lakin yarandığı gündən Qurucular Məclisi bəzi mühacir mərkəzlərin dəstəyi ilə fransız mandat rejimi idarəçiliyi ilə qarşıdurmaya getdi. Məclisin 1928-ci il avqustun 8-də qəbul etdiyi konstitusiyada Suriya fransız mandatını tanımayan müstəqil dövlət elan edildi. Buna cavab olaraq, yeni ali komissar Pones dərhal Məclisi buraxdı və Konstitusiyanın qüvvəyə minməsi ona mandat rejiminin saxlanılması haqqında müəyyən dəyişiklik edildikdən sonra yalnız 1930-cu ilin mayında baş tutdu. Bu məsələdə 1929-1933-cü illər dünya iqtisadi böhranının Suriya və Lübnan əhalisinin bütün təbəqələrinə son dərəcə mənfi təsir etməsi (əlverişsiz iqtisadi konyuktura zəminində kəndlilərin yoxsullaşması, kustar sənaye istehsalının dağılması və əhalinin iş yerlərini itirməsi, qiymətlərin artması və s.) də az rol oynamamışdır.

Bölgədə növbəti böhranlı hal 1933-cü ilin sonlarında yarandı. Belə ki, həmin ildə yeni Fransa-Suriya müqaviləsinin layihəsi hazırlandı. Sənəddə mandatlığın ləğvi nəzərə tutulsa da, ölkədə Fransanın iqtisadi dominantlığı, ən başlıcası isə Suriyanın federal sisteminin saxlanılması öz əksini tapmışdı. Xalq bu şərtləri qəti şəkildə yaxına buraxmadı və buna görə də, parlament onu təsdiqləmədi. Belə olduqda, ali komissar parlamenti buraxdı və Konstitusiyanın fəaliyyətini dayandırdı.

Bütün bunların nəticəsində 1933-1935-ci illərdə Suriya və Lübnanda milli azadlıq uğrunda mübarizə yenidən gücləndi, Diməşq və Beyrut öndə olmaqla, tətil və nümayişlər çoxaldı. 1936-cı ildə isə vəziyyət daha da gərginləşdi. Fransa mandat hakimiyyəti çıxış yolu kimi öncə dini konfessiyalar arasında düşmənçilik yaratmağa cəhd göstərdi. Bu cəhd uğursuz olduqdan sonra Milli Birlik liderləri ilə danışıqlara başlanıldı və Konstitusiyanın fəaliyyəti bərpa edildi. 1936-ci il sentyabrın 9-da Suriyanın dövlət müstəqilliyini tanıyan müqavilə bağlandı. Müqavilədə onun parlament tərəfindən təsdiqindən 3 il sonra mandatlıq rejiminin ləğvi nəzərdə tutulurdu. Eyni zamanda, Fransa öz qoşunlarını və hərbi bazalarını Suriyada saxlamaq müqabilində ölkənin daxili işlərinə qarışmamağa təminat verirdi. Noyabrın 30-da Suriya parlamentinə yeni seçkilər keçirildi və Milli Blokun nümayəndələri qələbə qazandı, onların lideri Haşim əl-Atasi isə ölkənin prezidenti seçildi. İndiyə kimi müstəqil kiçik dövlət qurumları kimi mövcud olan Hələb, Latakiya, Cəbəl əd-Duruz və Diməşq vilayəti vahid Suriyanın tərkibində birləşmiş oldu.

Lakin Fransa hökuməti regionda öz təsirini itirməmək məqsədilə mandat sisteminin ləğvini gecikdirirdi. Hətta 1937-38-ci illərdə öz hərbi və iqtisadi mövqeyini möhkəmləndirməyə yönələn əlavə sazişı də Suriya hökumətinə qəbul etdirdi. Eyni zamanda, Fransa hökumətini bu addımları atmağa Avropada siyasi vəziyyətin kəskinləşməsi və Almaniya tərəfindən ona qarşı təhlükənin artması da məcbur edirdi. 1939-cu ilin yanvarında Fransa parlamenti 1936-ci il Fransa-Suriya müqaviləsinin təsdiqindən imtina etdi və vilayətlər yenidən Suriyadan alındı. Buna etiraz olaraq, Suriya milli hökuməti istefaya getdi. Ali komissar parlamenti buraxdı və ölkə Konstitusiyasının fəaliyyətini dayandırdı. Onun əvəzində Fransanın tam nəzarəti altında Direktorlar Şurası adlanan yeni qurum yaradıldı.

Bölgə yenidən üsyanlara büründü. 1936-ci ildə başlayan və bütün Suriyanı əhatə edən üsyan Lübnan ərazisində də geniş vüsət aldı. Onun qarşısını almaq üçün Fransa Lübnana dair siyasətində dəyişikliklər etdi. Doğrudur, hələ 1926-cı ildə burada da Konstitusiya qəbul edilmişdi. Ölkədə yerli hökumət və ikipalatalı parlament fəaliyyət göstərirdi. Lübnanlı iş adamları da güzəştlərdən yararlanırdı və s. Lakin Suriyada olduğu kimi, burada da mandat rejimi əleyhinə narazılığın artması Fransa ali komissarı tərəfindən 1927-ci ildə Senatın qovulması, 1932-ci ilin mayında isə Konstitusiyanın ləğvi, parlament və hökumətin buraxılması ilə nəticələnmişdi. Bütün bunlar 1934-cü ildə bərpa olunsa da, Lübnan xalqının narazılığı aradan qalxmadı. Odur ki, 1936-ci ilin noyabrında Fransa Lübnanla da müqavilə imzalamağa məcbur oldu. Fransa, Suriyada olduğu kimi, burada da mandat sisteminin on il ərzində ləğv olunmasına razılıq verdi. Eyni zamanda, gömrük, maliyyə və rabitə sistemləri üzərində nəzarətdən imtina edildi. Lakin xarici siyasət məsələlərində Lübnan hökuməti Fransa ilə məsləhətləşməli idi.

1939-cu ilin sentyabrında II Dünya müharibəsinin başlanması ilə Suriya və Lübnan əraziləri hərbi zona elan olundu, hər iki ölkədə fövqəladə vəziyyət rejimi tətbiq edildi. Yaxın Doğudakı neft yataqlarının yaxınlığında və mühüm ticarət yollarının kəsişdiyi bəlgədə yerləşən həm Suriya, həm də Lübnan hər iki döyüşən koalisiyanın xüsusi maraq obyektinə çevrildi. Elə bu məqam da vahid bir mandatlıq ərəzisi olan Suriya və Lübnanın sonradan iki dövlət kimi müstəqillik qazanmasında həlledici rol oynadı.

Belə ki, 1940-cı ildə Fransanın təslim olmasından sonra Suriya Vişi hökuməti tərəfindən barış üzrə alman-italyan komissiyasının nəzarətinə verildi. 1941-ci ilin mayından buradakı hərbi bazalardan İraqda yerləşən ingilis

hərbi qüvvələrinə qarşı istifadə edilməsi Böyük Britaniyanın adekvat reaksiyası ilə qarşılandı. Düşmən zonası elan olunan Suriya ərazisi ingilislər tərəfindən aramsız bombardımanlara və top atəşlərinə məruz qaldı. Bu, bir tərəfdən, o biri tərəfdən isə Suriya antifaşist hərəkatının qüvvətlənməsi 1941-ci il iyulun 14-də Böyük Britaniya və "Azad Fransa" hərbi qüvvələrinin ölkəyə girməsinə zəmin yaratdı. Böyük Britaniyanın Suriyada nüfuzunun artacağından ehtiyatlanan "Azad Fransa" hərbi birləşmələrinin komandanı general Katru mandat rejiminin ləğv olunacağı vədini verdi. Böyük Britaniya da bildirdi ki, o, Fransanın verdiyi vədin qarantıdır. İki ay sonra isə "Azad Fransanın" rəhbəri general Şarl de Qoll və Böyük Britaniyanın Orta Doğudakı nazir-rezidenti Littiltonun imzaladıqları sazişə görə, Böyük Britaniya Suriyada Fransanın "xüsusi maraqları" olduğunu, Fransa isə hərbi əməliyyatlarda Böyük Britaniyanın aparıcı rolunu qəbul etdilər. Buna baxmayaraq, Böyük Britaniya regionda möhkəmlənmək istəyini gerçəkləşdirməkdə davam edirdi. Belə ki, Suriya funt-sterlinq zonasına daxil edilmiş, xarici ticarət, əhalinin ərzaqla təminatı, kommunikasiya və rabitə vasitələri ingilis nəzarəti altına alınmışdı.

"Azad Fransa" da öz növbəsində 1941-ci il sentyabrın 27-də Suriyanın istiqlaliyyətini elan etdi və bildirdi ki, "müharibə rejiminin tələblərinə uyğun olaraq" müəyyən məhdudiyyətlər hələlik saxlanılacaqdır. Bütün məsələlər tərəflər arasında bağlanılacaq müqavilələr əsasında tənzim olunacaq və yoluna qoyulacaqdır. Lakin mandatlığın birdəfəlik ləğvi və ölkəyə tam istiqlaliyyət verilməsi yenə də həll olunmamış qaldı. Təbiidir ki, bu da Suriyanın tam istiqlaliyyəti uğrunda mübarizə aparan siyasi qüvvələri razı salmırdı və onlar son məqsədə çatmaq üçün daha səfərbər olur və yenidən təşkilatlanırdılar. Bu baxımdan milliyyətçi qüvvələrin fəallığını xüsusilə qeyd etmək istərdik. Mişel Əflak və Səlahəddin Bitar kimi liderlərin təbliğ etdiyi ərəb milliyyətçiliyi və ərəb birliyi ideyaları ətrafında birləşənlərin sırası get-gedə artırdı. Nəhayət, onlar 1943-cü ildə bir araya gəldilər "Əl-Bəəs əl-ərəbi" - "Ərəb Dirçəlişi" Partiyasını yaratdılar. Mandatlığın birdəfəlik ləğvi, ərəblərə əsl istiqlaliyyət verilməsi və ərəb birliyinə nail olunması bu partiyanın proqram məqsədləri elan edildi.

Qeyd edək ki, həmin arada region ölkələrinin maraqlarına toxunan, ingilislərin iştirakı və dəstəyi ilə hazırlanan iki planın ortaya çıxması təkcə Suriyanın deyil, digər ölkələrin də durumuna çox güclü təsir etdi və bu ölkələrin həyatında böyük əks-səda doğurdu. Bunlardan biri 1943-cü ildə Ur-

dun əmiri Abdullahın "Böyük Suriya" planı idi və o, bu ad altında Suriya, Lübnan, Urdun və Fələstinin birləşməsini nəzərdə tuturdu. İraqın baş naziri Nuri Səidin irəli sürduyu "Bərəkətli Aypara" planı isə İraq da daxil olmaqla həmin ölkələrin birliyi məqsədini daşıyırdı.

Göründüyü kimi, hər iki halda birləşmə Haşimilər sülaləsinin bayrağı altında və onun öz mövqeyini itirməməsi baxımından yaranmalı idi, son nəticədə onları dəstəkləyən Böyük Britaniya regionda vahid nüfuz sahibinə çevrilməli idi. Deməliyik ki, bu planlar boş yerdən irəli sürülməmişdi. Sadalanan ölkələrdə həmin ideyaların kifayət qədər tərəfdarları var idi. Ancaq əlehydarları daha çox idi və onlar bu planları hiddətlə qarşıladılar. Fransa yaranmış vəziyyətdə 1943-cü ilin martında hələ 1939-cu ildə ləğv edilmiş konstitutsiyanın bərpa olunmasına və parlament seçkiləri keçirilməsinə razılıq verdi. İyulda keçirilən seçkilərdə Şükri əl-Qüvvətlinin lideri olduğu Milli Blok qalib gəldi. Birpartiyalı hökumət yaradıldı və Şükri əl-Qüvvətli isə prezident seçildi.

Bu hadisə ilə Suriyanın müstəqil bir dövlət kimi yenidən dirçəlişi başladı. O, 1945-ci ilin fevralında Almaniya və Yaponiyaya qarşı müharibə elan etdi. Təbiidir ki, bu müharibə elanı rəmzi bir mahiyyət daşıyırdı, məqsəd yaranacaq yeni Millətlər Birliyinin (gələcək BMT-nin) qurulmasında iştirak etmək və orada təmsil olunmaq idi. Suriya 1945-ci ilin martında Ərəb Dövlətləri Liqasının yaradıcılarından biri oldu. Aprelin 12-də isə BMT-yə üzv seçildi.

Beləliklə də, Suriya II Dünya müharibəsinin sonunda dünya birliyinin üzvü statusuna malik idi. Ancaq ölkə ərazisi hələ də müstəmləkə hərbi birləşmələrindən azad deyildi və Fransadan hərbi-siyasi asılılıq saxlanılırdı. Buna qarşı hər hansı etiraz hətta silahlı qüvvə tətbiqinə əl atmaq da olsa, amansızcasına yatırılırdı. Lakin xalqın istiqlal istəyinin gündən-günə qüvvətlənməsi Fransanı, eləcə də Böyuk Britaniyanı geri çəkilmək zorunda qoydu. 1945-ci ilin sonunda onlar öz qoşunlarını bölgədən çıxarmaq haqqında razılığa gəldilər. Prosesin uzanmasından narazı olan Suriya 1946-cı ilin fevralında məsələni BMT Təhlükəsizlik Şurasına çıxardı. Doğrudur, Təhlükəsizlik Şurası xüsusi bir qərar qəbul etmədi. Lakin məsələnin orada müzakirə edilməsi Fransa və Böyük Britaniyanı öz qoşunlarının bölgədən çıxarılmasının zəruriliyinə inandırdı. 1946-cı ilin martında tərəflər arasında imzalanan sazişə görə bütün xarici qoşunlar aprelin 17-də Suriya ərazisini tərk etdilər. Beləliklə də, Suriya xalqının tam istiqlal uğrunda mübarizəsi uğurla başa çatdı və Suriya bir müstəqil dövlət olaraq tarixinin keyfiyyətcə yeni mərhələsinə girmiş oldu.

İstiqlaliyyətin ilk mərhələsində istər siyasi, istərsə da sosial-iqtisadi sahədə ciddi dəyişikliklər edilməsi və Suriyada demokratik dəyərlərə söykənən bir rejim qurulması istiqamətində əhəmiyyətli tədbirlər görülməsi qarşıda duran vəzifələr idi. 1946-cı ilin iyununda əmək haqqında qanun, 1947-ci ilin aprelində seçkilərin birbaşa və gizli keçirilməsini nəzərdə tutan qanun qəbul edildi. Siyasi qüvvələrin yenidən qruplaşması və təşkilatlanması baş verdi. Milli Blok parçalandı. Onun liderlərindən Səbri əl-Əsəli, Şükri əl-Qüvvətli və Cəmil Mərdəmin başçılıq etdiyi qüvvələr Milli Partiyada birləşdi. İqtisadi planda liberal dəyərlərə üstünlük verən bu partiya siyasi sahədə Suriyanın ərəb ölkələri ilə münasibətlərinin möhkəmləndirilməsi zəminində müstəqil dövlət olaraq inkişafına çalışırdı. O, "Böyük Suriya" və "Bərəkətli

Aypara" planlarına qarşı idi. Milli Blokun Ruşdi əl-Kihya, Nazim əl-Qüdsi və Mustafa Bərmədi kimi digər liderlərinin tərəfdarlarının cəmləşdiyi Xalq Partiyası və Liberal Partiya 1947-ci ildə birləşdilər və Xalq Partiyasını yaratdılar. Xalq Partiyası daha çox İraq və Urdun ilə yaxınlaşmaq kursunu dəstəkləyirdi. Həmin dövrdə baasçıların da fəallaşması özünü göstərirdi. Onlar 1947-ci ilin aprelində I təsis qurultayı keçirdilər və ayın 7-də "milliyyətçi, xalqçı, sosialist və inqilabçı" Ərəb Sosialist Dirçəliş Partiyasının (Baas) yaradılmasını elan etdilər. Həm Xalq Partiyası, həm də Baas hakim Milli Partiyaya müxalifətdə idilər. Bununla yanaşı, kifayət sayda siyasətçilər hələlik "müstəqil" olaraq qalırdılar və gah o, gah bu siyasi kursa dəstək verirdilər.

Nəhayət, 1947-ci ilin iyulunda parlament seçkiləri keçirildi və onun nəticələri müxalifətin xeyrinə oldu. 140 yerdən 53-ü muxalifətə, o cümlədən 20-si Liberal partiyaya, 50-si isə "müstəqil"lərə çatdı. Cəmisi 24 yer qazanmış Milli Partiyanın lideri C.Mərdəmin təşkil etdiyi hökumətə müxalifət nümayəndələri də girdilər.

1948-ci il aprelin 18-də isə Şükri əl-Qüvvətli yenidən prezident seçildi. Həmin ildə təkcə Suriyada yox, ümumiyyətlə, bütün ərəb dünyasında böyük sarsıntılar yaradan, regionda hadisələrin sonrakı inkişafına güclü təsir göstərən Ərəb-İsrail müharibəsi baş verdi. Mayın 15-nə keçən gecə İsrail dövlətinin yaradılmasının rəsmən elan olunmasına qəti etiraz edən və bunu savaşla qarşılayan ərəb dövlətləri sırasına Suriya da qatıldı. Bəlli olduğu kimi, müharibədə ərəb dövlətləri məğlub oldular və 1949-cu ildə BMT Təhlükəsizlik Şurasının vasitəçiliyi ilə döyüşən tərəflər arasında barış haqqında saziş imzalandı. Hələ buna qədər müharibədəki acınacaqlı məğlubiyyət bir tərəfdən ölkənin daxilində siyasi ehtirasları qızışdırmış, o biri tərəfdən isə iqtisadi həyatda mövcud olan çətinliklər daha da artmışdı. Ölkəni güclü sosial etiraz dalğası bürümüşdü. 1948-ci ilin noyabrında bütün ölkə miqyasında baş verən tətilin qarşısında aciz qalan hökumət istefaya getdi. Yaranmış böhrandan çıxış yolunu özünü təcriddən imtinada və Avropa dövlətləri ilə bərabərtərəfli əməkdaşlıqda görən yeni hökumətin siyasəti də müəyyən qüvvələr tərəfindən kəskin etirazlarla qarşılandı. Xüsusilə də "Böyük Suriya" və "Bərəkətli Aypara" ideyalarının yenidən aktuallaşması daxili ziddiyyətləri son həddə çatdırdı.

Hökumətin ABŞ-ın "Taplayn" və Böyük Britaniyanın "İraq Petroleum Kompani" (İPK) şirkətləri ilə neft kəmərinin Suriya ərazisindən keçməsi haqqında imzaladığı sazişə etiraz olaraq müxalifət qüvvələri, xüsusilə də

sollar bütün ölkə boyu etiraz aksiyaları təşkil etdilər. Nə Cəmil Mərdəm hökuməti, nə də onun istefaya getməsindən sonra "müstəqil"lərin təmsilçisi Xalid əl-Əzəmin təşkil etdiyi hökumət nəzərdə tutulan yeni kursun gerçəkləşdirilməsi baxımından heç nə edə bilmədi.

Siyasi ziddiyyətlər və çəkişmələr, nəhayət, orduya da sirayət etdi. Müharibədə məğlubiyyətin səbəblərini araşdırmaq zəminində siyasətçilərlə hərbçilər arasında qarşılıqlı ittihamlar səslənməyə başladı və bu onunla nəticələndi ki, 1949-cu il martın 30-da ordunun Baş Qərargah rəisi polkovnik Hüsnü əz-Zəim hərbi çevriliş etdi. Beləliklə, Suriya hərbi çevrilişlər dövrünə girdi və bu, 1949-1951-ci illəri əhatə edir. İkinci çevriliş 1949-cu il avqustun 14-də polkovnik Sami Hinavi, üçüncü 1949-cu il dekabrın 19-də polkovnik Ədib Şişəkli, dördüncü 1951-ci il noyabrın 28-də yenə də Ədib Şişəkli tərəfindən edilmişdir. Çevrilişlərin hamısı siyasi hakimiyyət uğrunda ayrı-ayrı siyasi qüvvələr arasında gedən mübarizədən qaynaqlanırdı və onların dəstəyi ilə həyata keçirilmişdi. Bu səbəbdən hərbçilərin hakimiyyət illəri məhz həmin qüvvələrin siyasi məqsədlərinə münasibət baxımından bir-birindən fərqlənirdi. Hərbi diktatorluq rejiminin yaranması, ölkədə "korrupsiya, konstitusiya və qanunların pozulması"na qarşı mübarizə elan edilməsi, "ən demokratik rejim yaradılması"na çalışılması və s. kimi şüarların bu və ya digər formada söylənilməsi hamı üçün xarakterik idi. Konkret halda Hüsnü əz-Zəim rejimi Xalq Partiyası ilə əməkdaşlıq edirdi, "Böyük Suriya" planına qarşı idi, Misir və Səudi Ərəbistan ilə ilişgilərə meylli idi və onlardan iqtisadi dəstək almaq istəyirdi. Məhz onun dövründə "Taplayn" şirkəti ilə bağlanan saziş təsdiq olundu. Sami Hinavi İraqla birləşmək tərəfdarı idi, "Taplayn"la bağlanan sazişi və Hüsnü əz-Zəim dövründə verilən bütün dekret və qanunları, o cümlədən, Fransa ilə bağlanan valyuta haqqında sazişi ləğv etmişdi. Ədib Şişəkli isə sələflərindən bir qədər fərqli yol tutdu. O, ordunun Baş Qərargah rəisi vəzifəsinə yiyələndi və ordunun siyasi hakimiyyətə qatışmayacağını elan etsə də, mülki hakimiyyət bütünlüklə onun nəzarəti altında fəaliyyət göstərirdi. 1951-ci il 28 noyabr çevrilişindən sonra isə ölkədə hərbi diktatura rejimi yaradıldı.

Qeyd edək ki, həmin dövr ərzində altı dəfə hökumət dəyişikliyi olmuşdur və onların hamısı ölkədəki müxtəlif siyasi qüvvələrin koalisiyası formasında yaradılmışdı. Maraqlıdır ki, bu hökumətlərin daxili siyasətdə mövqeləri fərqli olsa da, məsələn, H. əz-Zəim dövrünün bütün tədbirləri S.Hinavi dövründə ləğv olundu, Ə.Şişəkli dövründə isə, əksinə, bərpa edildi, - xarici

siyasət sahəsində hamısı eyni kurs yürütmüşlər, Avropa dövlətlərinin irəli sürdüyü hər hansı formada siyasi-hərbi əməkdaşlıq təklifini yaxına buraxmamışlar. Belə ki, 1950-ci ilin mayında Böyük Britaniya, Fransa və ABŞ ərəb ölkələrinə, o cümlədən Suriyaya "Üçlər Bəyannaməsi" adlanan bir sənədlə müraciət etdilər. Sənəd Yaxın və Orta Doğuda sülhü qorumaq və möhkəmlətmək məqsədilə istər BMT çərçivəsində, istərsə də ondan kənarda birgə fəaliyyət göstərməyi nəzərdə tuturdu. Suriya bu sənədi rədd etdi, ardınca isə 1950-ci il iyulun 17-də Lübnan, Misir, Səudi Ərəbistan və Yəmənlə birgə müdafiə və iqtisadi əməkdaşlıq haqqında müqavilə imzaladı. 1951-ci il fevralın 2-də İraq və 1952-ci il fevralın 16-də Urdun da onlara qoşuldu.

1950-ci ilin yayında ABŞ-ın "Trumen doktrinası"na uyğun olaraq ərəb ölkələrinə texniki kömək göstərmək təklifi və eləcə də 1951-ci sentyabrın 11-də ABŞ, Böyük Britaniya, Fransa və Türkiyənin "Orta Doğu Komandanlığı" adlı birgə müdafiə ittifaqına qoşulmaq təklifi Suriyadan rədd cavabı aldı. O biri tərəfdən isə Avropa şirkətləri ilə iqtisadi əməkdaşlığa önəm verildi. Həmin illərdə ölkədə 120 xarici şirkət fəaliyyət göstərirdi ki, onların da yarısından çoxu ABŞ, Böyük Britaniya və Fransaya məxsus idi.

Hərbi rejimlər dövründə Suriyanın siyasi həyatında baş verən ən mühüm hadisələrdən birisi də 1950-ci il sentyabrın 5-də yeni Konstitusiyanın qəbul edilməsidir. Doğrudur, Konstitusiya prezident və hökumət səlahiyyətlərini xeyli məhdudlaşdırdı, ancaq mülki hakimiyyət təmsilçilərinə öz mövqelərini bərpa etmək üçün qanuni əsas verdi. Bu zəmində də hərbiçilərlə mülki hakimiyyət təmsilçiləri arasında münasibətlər kəskinləşdi və bu, 1951-ci il noyabrın 28-də dördüncü hərbi çevrilişlə nəticələndi. Çevrilişin təşkilatçısı Ə.Şişəklinin siyasi liderlərə hökumət təşkili haqqında təklifi rədd cavabı aldıqda, o, əvvəlcə öz üzərinə götürmüş olduğu bütün icra və qanunverici hakimiyyəti 1951-ci il dekabrın 3-də prezident təyin etdiyi polkovnik Fövzi Səloya verdi. Prezident Fövzi Səlo həm də baş nazir və müdafiə naziri kimi parlamentin fəaliyyəti bərpa olunana qədər ölkəni idarə etməli idi. Ə.Şişəkli yenə Baş Qərargah rəisi olaraq qalırdı. Əslində isə Fövzi Səlonun hakimiyyəti onun diqtəsi ilə fəaliyyət göstərirdi və ölkədə bir diktatorluq rejimi yaradılmışdı. Demokratik qayda - qanunlara qarşı hücum başlanmışdı. Doğrudur, bu siyasətə qarşı ölkənin ayrı-ayrı yerlərində xalqın, xüsusilə tələbələrin etiraz çıxışları olurdu. Amma bunlar Ə.Şişəklinin başçılıq etdiyi hərbi xuntanı öz kursundan döndərmək gücündə deyildi. 1952-ci ilin yanvarında tələbələrə nümayişlərdə iştirak etmək və siyasi fəaliyyətlə məşğ-

ul olmaq qadağan edildi, apreldə isə bütün partiya və təşkilatlar buraxıldı. Bunun əvəzində 1952-ci ilin avqustunda vahid Ərəb Qurtuluş Partiyasının yaradıldığı elan edildi. Buna baxmayaraq, buraxılmış partiyalar gizli fəaliyyət göstərməkdə davam edirdilər, hətta Bəəs və Ərəb Sosialist Partiyası 1952-ci ilin noyabrında Ərəb Sosialist Dirçəliş Partiyası (ƏSDP) adı altında birləşmiş və daha da fəallaşmışdılar.

Bu səbəbdən də zor gücünə mövcudluğun çətinliyini dərk edən Ə.Şişəkli diktaturası ehtirasları yatırmaq üçün xalqa parlament rejimini bərpa etmək, yeni konstitusiya hazırlamaq, prezident seçkisi keçirmək, sosial və iqtisadi islahatlar keçirmək və s. kimi bir sıra vədlər verməyə məcbur oldular. Hətta verilən bəzi vədlər yerinə yetirildi. 1952-ci ildə Cəzirə və Fərat əyalətlərindəki boş qalan dövlət torpaqlarının torpaqsız kəndlilərə verilməsi, xarici kapitalın fəaliyyətinin məhdudlaşdırılması və bəzi xarici şirkətlərin, o cümlədən "Reji de Taba" inhisarçı tütün şirkətinin milliləşdirilməsi, 1953-cü il iyulun 10-da yeni konstitusiyanın referendum yolu ilə qəbul edilməsi bu qəbildən idi. Qeyd edək ki, referendumda prezident seçilən Ədib Şişəkli prezident və baş nazir vəzifələrini birləşdirdi və bununla özünün qeyri-məhdud hakimiyyətini saxladı. Hökumət də yalnız onun tərəfdarlarından təşkil olundu. 1953-cü ilin oktyabrında keçirilən parlament seçkilərində Ə.Şişəklinin yaratdığı Ərəb Qurtuluş Partiyası 82 mandatdan 72-sini əldə etdi. Məhz bu sonuncu qələbə də Ə.Şişəklinin süqutuna gətirdi.

Belə ki, 1953-cü ilin noyabrında ölkədəki bütün siyasi partiya və təşkilatları təmsil edən 143 siyasi xadimin parlament seçkilərinin nəticələrini saxta elan etməsi və Ə.Şişəkli rejimini devirmək üçün müxalifət qüvvələrini Milli Cəbhə yaratmağa çağırması böyük əks-səda doğurdu. 1953-cü ilin sonu-1954-cü ilin əvvəlində hökumətə qarşı etiraz dalğası bütün Suriyanı bürüdü. Bu ümümxalq etirazı narazı hərbçilər tərəfindən də müdafiə olundu və nəticədə Ə.Şişəkli diktaturası devrildi. Son çevriliş zamanı prezident vəzifəsindən uzaqlaşdırılmış Xalq Partiyasının lideri Haşim əl-Atasi 1954-cü il fevralın 28-də müvəqqəti prezident seçildi.

1954-cü ilin sentyabrında keçirilən parlament seçkilərində yenə də "müstəqil"lər qalib gəldilər və onlar 142 yerdən 64-nə sahib oldular. Xalq Partiyası 34, Milli Partiya 19, Bəəs 22 mandat qazandı, qalan yerlər digər partiya və qəbilə nümayəndələrinə çatdı. Şeyx Faris əl-Hurinin başçılığı altında koalisiyon hökumət yaradıldı və beləliklə də Suriyada mülki idarəçilik sistemi bərpa edildi. Mülki hökumətin ilk rəsmi bəyanatı Suriyanın suve-

renliyinə və respublika quruluşuna xələl gətirəcək hər hansı ittifaqı yaxına buraxmayacağı haqqında oldu.

Bu bəyanat ona işarə idi ki, birincisi, "Böyük Suriya" və ya "Bərəkətli Aypara" yaratmaq zəmnində Urdun Haşimilər krallığı və ya İraq Haşimilər krallığı ilə birləşmə olmayacaqdır. İkincisi, həmin dövrdə bölgədə nüfuz sahibinə çevrilmək uğrunda Batı və Doğu blokları arasında ciddi mübarizə gedirdi. Sovet İttifaqının buraya girməsinə imkan verməmək üçün Batı bloku dövlətləri bütün Orta Doğunun əhatə edəcək bir təhlükəsizlik və müdafiə sistemi qurulmasını istəyir, bölgədə hərbi-siyasi xarakterli qurumlar yaradılmasına təşəbbüslər göstərirdilər. Bunlardan birisi də qurulması məhz həmin zaman kəsiyinə təsadüf edən Bağdad Paktı idi. Paktın yaradıcıları bəzi ərəb ölkələrinin, o cümlədən Suriyanın da ona qoşulmasını istəyirdilər. Lakin ərəb ölkələri ilə Böyük Britaniya, Fransa və İsrail arasında olan münaqişələr bu planın gerçəkləşməsi yolunda böyük əngəllər törədirdi. Ərəblər sovet və kommunizm təhlükəsi haqqında düşünməyi ağıllarına da gətirmirdilər. Odur ki, İraq istisna olmaqla, ərəb ölkələri, o cümlədən Suriya Pakta girmədilər. Əksinə, Pakt qarşısında güclü olmaq üçün Sovet İttifaqı ilə yaxınlaşdılar.

1955-ci ilin avqustunda prezident seçilən Şükri əl-Qüvvətli 1956-cı ildə Sovet İttifaqına rəsmi səfər etdi, iki dövlət arasında müxtəlif qayəli münasibətlərin genişləndirilməsini nəzərdə tutan sənədlərə imza atdı. ADR, Rumıniya, Macarıstan və Bolqarıstan kimi digər sosialist ölkələri ilə də əməkdaşlığın müxtəlif sahələri üzrə sazişlər bağlandı.

Önəm verilən məsələlərdən birisi də ərəb dövlətləri ilə ilişgilərin daha da möhkəmləndirilməsi idi. 1955-ci il oktyabrın 20-də Misirlə müdafiə ittifaqının bağlanması, 1956-cı ilin iyulunda Süveyş kanalının milliləşdirilməsi səbəbindən Misirə olan ingilis-fransız-israil hücumunun pislənməsi, Misirə dəstək verilməsi və s. bu qəbildən idi. Ümumiyyətlə isə Misirlə yaxınlaşma Suriya xarici siyasətinin ana xəttinə çevrildi. Hətta 1956-cı ilin martında qəbul edilmiş Milli Xartiyanın bir bəndi Suriya və Misir birliyinin qurulmasını nəzərdə tuturdu. Artıq rəsmilərin dilindən iki dövlətin birləşməsi ideyası eşidilirdi. Bu baxımdan 1956-cı il aprelin 17-də Bəəs lideri Səlahəddin Bitarın mitinqdə öz partiyası adından Suriyanın Misirlə birləşməsinə çağırışı xüsusi maraq doğurdu. Məhz həmin çıxışdan sonra S.Bitarın yeni yaradılan hökumətdə xarici işlər naziri vəzifəsinə gətirilməsi Suriya-Misir birləşməsini sürətlə gerçəkləşdirmək üçün edildi.

Qeyd edək ki, həmin arada Süveyş böhranı ilə əlaqədar Böyük Britaniya və Fransa ilə diplomatik münasibətləri kəsmiş Suriyada nüfuz uğrunda ABŞ və Sovet İttifaqı arasında mübarizə kəskinləşdi. Suriya bu məsələdə Sovet İttifaqına üstünlük verdi. 1957-ci ilin yanvarında ABŞ-ın irəli sürdüyü "Eyzenhauer doktrinası"nı rədd etdi. ABŞ-ın və onun ölkədəki tərəfdarlarının təzyiqinə cavab olaraq Suriya 1957-ci ilin oktyabrında Sovet İttifaqı ilə iqtisadi və texniki əməkdaşlıq haqqında müqavilə bağladı. Eyni zamanda Misirlə birləşmək yolunda ciddi addımlar atıldı. 1957-ci il fevralın 17-də vahid xarici siyasət yürütmək üçün iki dövlətin xarici işlər nazirlikləri birləşdirildi. Sentyabrda vahid hərbi komandanlıq yaradıldı. Prosesin gedişində Bəəs xeyli fəallaşdı. Hərbçiləri bu işə cəlb etmək üçün Bəəsin təşəbbüsü ilə 24 nəfər yüksək rütbəli zabitin qatıldığı Hərbi Şura yaradıldı 1957-ci il noyabrın 1-də Bəəs lideri Mişel Əflak Qahirədə prezident C.Ə.Nasirlə qeyri-rəsmi danışıqlar apardı. 1958-ci ilin yanvarında Bəəs rəhbərliyi iki dövlətin bütövləşməsi ideyasını dəstəklədi. Yanvarın 12-də əsasən bəəsçilər olan Hərbi Şura üzvləri Qahirəyə yollandılar. Onlar eyni zamanda Suriya hökumətindən də prosesin sürətlənməsini tələb etdilər.

Nəhayət, 1958-ci il yanvarın 31-də prezident Şükri əl-Qüvvətli başda olmaqla hökumət üzvləri Qahirəyə gəldilər və fevralın 1-də Birləşmiş Ərəb Respublikasının (BƏR) yaradılmasına imza atıldı. Bu sənəd fevralın 21-də keçirilən referendumda hər iki ölkənin xalqı tərəfindən bəyənildi. C.Ə.Nasir BƏR-in prezidenti seçildi. Suriyanın iki təmsilçisi -Bəəsdən Əkrəm əl-Havarani və milliyətçilərdən Səbri əl-Asəli prezident müavinləri oldular.

Təbiidir ki, birləşmiş bu iki dövlət istər siyasi, istərsə də sosial-iqtisadi baxımdan bir-birindən xeyli fərqlənirdi. Odur ki, ilk gündən əsas diqqət həmin fərqləri aradan qaldırmağa, mövcud həyat şərtlərini vahid bir hala gətirməyə yönəldildi. 1958-ci il martın 13-də Misirdə olduğu kimi bütün siyasi partiya və təşkilatlar buraxıldı, onların yerində vahid Milli Birlik Partiyası yaradıldı. İkinci mühüm addım həmin ilin sentyabrında aqrar islahat haqqında dekretlərin verilməsi oldu. Bu zaman Suriya şərtlərinin nəzərə alınmaması islahatların həyata keçirilməsini nəinki çətinləşdirdi, həm də güclü narazılıqlar doğurdu. Bankların və bir sıra sənaye obyektlərinin milliləşdirilməsi narazılıqları daha da artırdı. Ölkə iqtisadiyyatının inkişafında dövlət bölməsinin genişləndirilməsinə xüsusi önəm verildi və bu kurs 1959-cu ildə qəbul edilmiş Suriyanın on illik sənayeləşdirmə planının əsas məqsədi elan olundu.

1960-1961-ci illərdə siyasi hakimiyyət daha da mərkəzləşdirildi. 1960-cı ilin martında vahid Milli Məclis yaradıldı və oraya da yalnız Milli Birlik Partiyasının üzvləri seçilə bilərdilər. 1961-ci ilin avqustunda hər iki ölkənin yerli icra şuraları ləğv edildi və Qahirədə yerləşən mərkəzi hökumət yaradıldı. İstər Milli Məclisdə, istərsə də mərkəzi hökumətdə təmsilçilik nisbəti pozuldu, 385:70 və 35:14 oldu.

Misirlə münasibətləri gərgin olan Urdun, Səudi Ərəbistan, İran və s. kimi ölkələrlə Suriyanın müxtəlif yönümlü əlaqələri, ilk növbədə ticarət əlaqələri pozuldu.

Bütün bunlar bir tərəfdən iki ölkədə mövcud münasibətlərin vahid bir formaya salınmasından daha çox Suriyanın siyasi və iqtisadi həyat şərtlərinin Misirin idarəsi altına verilməsi demək idi. O biri tərəfdən isə bu siyasət Suriyada tarixən formalaşmış ənənələrlə ziddiyət təşkil edirdi və əhalinin müxtəlif sosial təbəqələrinin maraqlarına toxunurdu. Həmin səbəbdən da mövcud şəraitə etiraz hər gün artırdı. İş o yerə çatdı ki, mərkəzi hakimiyyətdə Suriyanı təmsil edən baasçı prezident müavinləri və nazirlər istefa verdilər. Bunun ardınca 1961-ci il sentyabrın 28-də hərbçilər çevriliş etdilər və Suriya Ərəb Respublikasının BƏR-in tərkibindən çıxdığını bildirdilər. Ali İnqilabi Hərbi Komandanlıq hakimiyyəti öz üzərinə götürdü, Ərəb Qurtuluş Partiyasının liderlərindən Məmun əl-Quzbarinin başçılığı ilə müvəqqəti hökumət yaradıldı və onun əsas fəaliyyəti Suriyanı birləşmədən öncəki duruma gətirmək oldu. 1961-ci il dekabrın 1-də Müəssislər Məclisinə seçkilər keçirildi. Xalq Partiyası 33, Milli Partiya 21, "müstəqillər" 62 mandat qazandılar, 33 yer isə Baas də daxil olmaqla digər siyasi qurumlara çatdı. Parlamentin də qəbul etdiyi ilk qərarlar milliləşdirilmiş müəssisələrin öz mülkiyyətçilərinə qaytarılması, aqrar islahatın ləğv edilməsi, siyasi və sosial qurumların fəaliyyətinin tənzimlənməsi və s. haqqında oldu.

Lakin, bütün bu tədbirlər heç də ölkədəki siyasi qüvvələrin hamısı tərəfindən birmənalı qarşılanmırdı. Solçu qüvvələr, xüsusi ilə də ordu zabitləri həmin dövrdə qonşu ərəb ölkələrində mövcud ovqatın təsirilə Suriyanın "ərəb sosializmi" və ya "islam sosializmi" yolu ilə inkişafına önəm verirdilər. Ölkədə hökumət dəyişiklikləri və hərbi çevriliş cəhdləri az qala həyat normasına çevrilmişdi. Nəhayət, hərbçilərin təklifi ilə Nazim əl-Qüdsi prezident və Əhməd Bəşir əl -Azmə baş nazir oldu. Ancaq onların cəhdləri də ehtirasları sakitləşdirmədi. Siyasi mübarizə gərgin olaraq qalırdı. Yenə də bir qrup Misirlə birləşməyi, digər qrup ümumi ərəb birliyi yaratmağı, üçüncüsü

"Böyük Suriya" və ya "Bərəkətli Aypara" planlarını gercəkləşdirməyi tələb edirdi. Hətta 1962-ci ilin aprelində İraqla çox geniş əməkdaşlıq müqaviləsi bağlandı. Qeyd edək ki, 1963-cü ilin fevralında İraqda hakimiyyətin bəəsçilərin əlinə keçməsi Suriyanın da tarixində önəmli dönüş anı oldu. 1963-cü il martın 8-də Bəəs üzvü olan bir qrup zabit yeni çevriliş etdi. Şübhəsiz ki, bu çevrilişin arxasında Bəəs partiyası dayanırdı və həmin səbəbdən də bütün qanunverici və icra hakimiyyəti üzərinə götürmüş Milli Hərbi Komandanlıq Şurası (başçı general Luay əl-Atasi idi-müəl.) hökumət təşkilini bəəsçilərə tapşırdı. Bəəs liderlərindən Səlah əd-din Bitarın yarısı öz partiyasının, o biri yarısı da solçu partiyaların təmsilçilərindən ibarət təşkil etdiyi hökumət fəaliyyətə başladı. Həmin vaxtdan Suriya ilə Bəəsin tarixi bütövləşdi və ölkənin inkişaf istiqamətlərinin əsasında Bəəsin ideya prinsipləri dayandı. Həmin prinsiplər "Sosializm və millətçilik bir-birilə qovuşur və bir-birini tamamlayır, sosializm millətçiliyin yeni formasıdır, millətçilik olmazsa sosializm öz mahiyyətini itirər, ərəb cəmiyyətlərinin tələblərinə ərəb sosializmi cavab verir, o, ərəb millətçiliyinin bir hissəsidir və ondan törəyir" kimi ifadələrdən qaynaqlanırdı. Təcrübədə isə bəəsçilər faktiki olaraq C.Ə.Nasirin Misirdə həyata keçirdiyi tədbirləri Suriyada təkrar etdilər.

Aqrar islahata yenidən önəm verildi və qanuna bir sıra dəyişikliklər edildi, torpaq mülkiyyətinin maksimum həddi müəyyənləşdirildi. Bütün banklar və sığorta şirkətləri milliləşdirildi. Kapitalın xaricə axınına son verildi və bu məqsədlə valyuta nəzarəti yaradıldı. Azad valyuta bazarı bağlandı.

Lakin, bu tədbirlər indiyədək əsasən azad bazar münasibətləri əsasında fəaliyyət göstərən qüvvələrin etirazı ilə qarşılaşırdı və onların tətbiqi çox ağır gedirdi. O biri tərəfdən Suriyanın İraq və BƏR ilə münasibətləri, ümumiyyətlə ərəb dövlətləri arası münasibətlər və bir sıra problemlər sahəsində heç hakimiyyətdə olan qüvvələr arasında da yekdil fikir yox idi. Orduda ayrı-ayrı qruplar siyasi nüfuz uğrunda mübarizə aparırdılar. Bəəsin öz daxilində ideoloji və siyasi zəmində güclü ixtilaflar var idi. Bütün bunlar onunla nəticələndi ki, baş nazirin müavini və daxili işlər naziri general Əmin əl-Hafiz rəqiblərinə qalib gəldi, Milli Hərbi Komandanlıq Şurasının və hökumətin başına keçdi, ətrafına solçu bəəsçiləri və digər sol görüşlu qüvvələri topladı. Bəəsin VI qurultayının (1963-cü il, oktyabr) qərarına əsasən Suriya sosialist təmayüllu inkişaf yoluna keçdi. 1964-cü il aprelin 26-da qüvvəyə minən müvəqqəti Konstitusiyada yazıldı ki, Suriya süveren, xalq-

demokratik sosialist respublikasıdır və o, ərəb dünyasının bir hissəsidir". 1964-1965-ci illərdə iri sənaye müəssisələrinin çoxu milliləşdirildi, ölkənin bütün neft və mineral ehtiyatları dövlətin mülkiyyəti oldu. Xarici ticarət dövlət inhisarına alındı. Ölkə ixracatının 70%-ni təşkil edən taxıl və pambıq satışı istisnasız olaraq dövlət tərəfindən aparılırdı.

Əmin əl-Hafiz hökuməti xarici əlaqələrin genişləndirilməsinə, xüsusilə də Ərəb dövlətlərarası münasibətlərdə fəallaşmağa çalışırdı. Ərəb iqtisadi birliyi haqqında müqaviləyə qoşuldu, neftin nəql edilməsi, gəmiçilik və aviadaşımalar üzrə ümümərəb şirkətinin yaradılması haqqında sazişi dəstəklədi. Tunis, Əlcəzair və Mərakeş ilə iqtisadi əlaqələrin möhkəmləndirilməsinə cəhdlər göstərildi, Sudanla diplomatik münasibətlər quruldu, Libiya ilə əlaqələr yaradıldı. Avropa dövlətləri və Yaponiya ilə iqtisadi əməkdaşlığa dair sazişlər imzalandı. Beynəlxalq Valyuta Fondu, BMT yanında Beynəlxalq İnkişaf Agentliyi və s. kimi maliyyə mərkəzlərindən borc, kredit və kömək almağa başlandı.

Lakin Əmin əl-Hafizin ətrafında birləşən solçu bəəsçilərin "elmi" sosializmə doğru kəskin dönüşü yalnız ölkədəki sağçı qüvvələr arasında deyil, həm də Mişel Əflak və Səlah əd-din əl-Bitarın başçılıq etdiyi sağçı bəəsçilər arasında kəskin narazılıqlar doğurdu. İş o yerə çatdı ki, Mişel Əflak 1965-ci ildə partiya liderliyindən uzaqlaşdı. Bəəs-də daxili mübarizə qısa zaman kəsiyində sağların üstünlüyü ilə müşayət olundu. S.Bitar 1966-cı ilin əvvəlində baş nazir oldu və solçuları hökumətə buraxmadı. "Elmi" sosializm "ərəb sosializmi" ilə əvəzləndi. Solçu bəəsçilərin kursundan imtina edilməsi bəlli olduqda onlar mübarizəni qeyri-siyasi müstəviyə çıxardılar və Hərbi Hava Qüvvələrinin komandanı Hafiz Əsədin iştirakı ilə 1966-cı il fevralın 23-də hərbi çevriliş etdilər. M.Əflak, S.Bitar və digər sağçı liderlər hakimiyyətdən uzaqlaşdırıldılar, müvəqqəti Konstitusiya ləğv edildi, Milli Hərbi Komandanlıq Şurası buraxıldı. Solçuların lideri Yusif Zueynin başçılığı ilə hökumət təşkil olundu, Nur əd-Din əl-Atası isə prezidentliyə gətirildi.

"23 fevral hərəkatı" adı ilə tanınan bu çevrilişdən sonra Suriya rəhbərliyi "ərəb dünyasında mövcud olan konkret şərtləri nəzərə almaqla elmi əsasda sosialist cəmiyyəti quruculuğu"na başladı. İqtisadi həyatda dövlət bölməsinin aparıcı mövqeyə çıxması, bir sıra sosial tədbirlərin görülməsi, fəhlə və qulluqçuların dövlət müəssisələrinin idarə olunmasında iştirakı və s. həmin baxımdan edilirdi. Lakin sola doğru kəskin siyasi və iqtisadi dönüş istər bəəsçilərin öz arasında, istərsə də digər siyasi qüvvələr arasında ciddi

narazılıq doğurdu. Hətta onlar lazım gəldikdə birləşirdilər. 1966-cı il sentyabrın 6-də Baas məhəlli rəhbərliyinin sabiq üzvü Səlim Xatumun başçılığı ilə edilən dövlət çevrilişi cəhdini "Müsəlman qardaşlar" təşkilatının dəstəkləməsi buna misaldır.

Həmin dövrdə ölkə üçün ən böyük təhlükə isə İsrail və Suriya da daxil olmaqla qonşu ərəb dövlətləri arasında münasibətlərin daha da gərginləşməsi idi. 1966-cı ilin sentyabrında başlayan silahlı toqquşmalar 1967-ci il iyunun 5-də növbəti Ərəb-İsrail müharibəsi ilə nəticələndi. Suriya, Misir və Urdunun qatıldığı bu müharibədə ərəblər məğlubiyyətə uğradı. İsrail xeyli ərazi, o cümlədən Suriyanın Colan təpələrini ələ keçirdi. Doğrudur, beynəlxalq ictimaiyyətin kəskin tələbinə əsasən hərbi əməliyyatlar dayandırıldı və noyabrın 22-də BMT Təhlükəsizlik Şurası işğal edilmiş ərazilərdən İsrailin çəkilməsi haqqında 242 №-li qətnamə qəbul etdi. Lakin həmin qətnamə yerinə yetirilmədi. Müharibənin nəticələrini aradan qaldırmaq məqsədi ilə ərəb dövlətlərinin bütün qüvvələri bir araya gətirmək cəhdləri də uğursuzluqla nəticələndi.

1967-ci il noyabrın 22-də BMT Təhlükəsizlik Şurasının qətnaməsinin qəbul edilməsi isə, ümumiyyətlə, region ölkələrinin ovqatında ciddi dəyişiklik yaratdı. Belə ki, həmin qətnamə güzəştli xarakter daşıyırdı və ona görə: 1) işğal olunmuş ərəb torpaqlarından İsrail qoşunları çıxarılmalı və eyni zamanda İsrail və ərəb dövlətləri arasındakı müharibə vəziyyətinə son qoyulmalı; 2) regionun beynəlxalq su yollarında azad gəmiçilik təmin olunmalı; 3) Fələstin qaçqınlarının problemi ədalətli həll edilməli; 4) Regiondakı hər bir ölkənin suverenliyi, ərazi bütövlüyü və siyasi istiqlaliyyəti, onun təhlükəsiz və tanınmış sərhədlər daxilində yaşamaq haqqı tanınmalı və qorunmalıdır.

Ərəb ölkələri bu qətnaməni dövlət başçılarının 1967-ci ilin dekabrında Rabatda çağrılan toplantısında müzakirəyə çıxardılar. Lakin Suriya onu özünün siyasi mövqeyinə uyğun gəlməyən bir sənəd hesab etdiyindən toplantıya qatılmadı. Qeyd edək ki, toplantıda iştirak edənlərin də məsələyə münasibəti eyni deyildi. Odur ki, 1969-cu ilin dekabrında yenidən müzakirəyə qayıdılması qərara alındı.

Suriya rəhbərliyinin tutduğu qarşıdurma və özünü təcrid mövqeyi həm ərəb dövlətləri, həm də ölkədəki siyasi qüvvələr, elə Baas partiyası daxilində ciddi mübahisələr yaratdı. Hərbçi baasçılar ordu komandanlığı ilə birlikdə tələb edirdilər ki, Ərəb-İsrail münaqişəsinin həlli üçün digər ərəb dövlətləri

ilə hərbi-siyasi əlaqələr genişləndirilsin, ordunun texniki təchizatı və döyüş qabiliyyəti yüksəldilsin, ölkədəki bütün hərbi qüvvələr, o cümlədən Fələstin Azadlıq Təşkilatının döyüşçüləri ordunun nəzarəti altına keçsin. Lakin Bəəsin mülki qanadı bu tələbləri yaxına buraxmadı. Partiya daxili böhran yarandı və o, 20 mart 1969-cu ildə çağrılan fövqəladə konfransa qədər davam etdi. Konfransda tərəflər kompromisə gəldilər və "vahid ərəb hərbi cəbhəsi"nin yaradılması məqsədi ilə ölkənin daxilində və xaricində bütün maraqlı qüvvələrin fəaliyyətini əlaqələndirməyi başlıca vəzifə elan etdilər. Ölkədə Bəəsdən savayı digər qüvvələrin,- təbiidir ki, daha çox sol qüvvələrin,- mövcudluğunun etirafı bu yolda atılan ilk addım idi. 1969-cu il mayın 29-da yaranmış yeni hökumətdə bəəsçilərlə yanaşı "müstəqillər" və bir kommunist də təmsil olundu.

Lakin sonrakı hadisələr göstərdi ki, yaranmış güzəşt zahiri xarakter daşıyır və Bəəsin dağılmasının qarşısını almaq üçün edilmişdir. Mülki bəəsçilər partiya rəhbərliyində öz mövqelərini saxlayır və hərbçiləri oraya buraxmırdılar. Hərbçi bəəsçilər isə etdikləri konstruktiv təkliflərlə yerlərdə öz tərəfdarlarının sayını artırır və daha çox rəğbət qazanırdılar. Onlar dövlət idarəçiliyi və hərbi komandanlıqda yüksək vəzifələrə öz adamlarını gətirir və möhkəmlənirdilər. Hökumətin İraq, Urdun və digər ərəb dövlətləri ilə hərbi-siyasi əməkdaşlıq yaratmaq cəhdlərinin müəyyən fikir ayrılıqları zəminində əsaslı nəticə verməməsi də hərbçi bəəsçilərin xeyrinə işləyirdi.

1969-cu ilin dekabrında Rabatda Ərəb Dövlət başçılarının toplantısında təqdim olunan qərar layihəsini Suriyanın rədd etməsi və İraqla birgə oranı tərk etməsi istər ölkə daxili, istərsə də Bəəs daxili vəziyyəti yenidən gərginləşdirdi. Rabat toplantısından sonra "qarşıdurmaya dözümlülüyə və üzücü müharibəyə əsaslanan" strateji kurs yürüdülməsi isə 1970-ci ilin əvvəlindən cəbhədə silahlı toqquşmaların başlanmasına və çox qısa zamanda xroniki hala çevrilməsinə gətirdi. 1970-ci ilin senyabrında qanlı hadisələrlə müşahidə olunan Urdun-Fələstin münaqişəsinə münasibətdə fərqli mövqelər Bəəs və ordu rəhbərliyində qarşıdurmanı qaçılmaz etdi. Sentyabrın 30-da çağrılan Bəəsin X ümumərəb qurultayında mülki və hərbçi fraksiyalar ortaq bir rəyə gələ bilmədilər. Ordu hərəkətə keçdi və Hafiz Əsəd noyabrın 13-də prezident Nur əd-din Atasini və Bəəsin Baş Katibi Salah Cədidi həbsə aldı. Ölkənin hakimiyyəti hərbçi fraksiyanın əlinə keçdi. Əhməd əl-Xətib prezident təyin olundu. Bəəsçilərlə yanaşı digər partiya və siyasi təşkilatların, xüsusilə də Suriya Kommunist Partiyası və Ərəb Sosialist İttifaqının

timsalında sol qüvvələrin nümayəndələrindən ibarət milli birlik hökuməti yaradıldı. Təbiidir ki, başqa partiyaların hökumətdə təmsil olunması hərbçi baasçilərin taktiki gedişi idi və sosial bazanı genişləndirmək baxımından edilirdi. Qeyd edək ki, həmin qüvvələr 173 deputatdan ibarət yeni yaranmış Xalq Şurasında da yer almışdılar.

İlk cəhddə hakimiyyəti ələ keçirməyən Hafiz Əsəd öz son məqsədini 1971-ci il martın 12-də reallaşdırdı və referendum yolu ilə Suriyanın prezidenti seçildi. Mayda isə Baasin məhəlli rəhbərliyinin baş katibi oldu. Baas daxilindəki müxalif qüvvələri zərərsizləşdirmək məqsədilə 1972-ci ilin martında Baas, Suriya Kommunist Partiyası, Ərəb Sosialist İttifaqı, Ərəb Sosialistlər Hərəkatı və Ərəb Sosialist-İttihadçılar Təşkilatı kimi beş solçu partiya və təşkilatı birləşdirən Milli Mütərəqqi Cəbhə yaradıldı. Təşkilatın rəhbərliyində 9 baasçi və hər birindən iki nəfər olmaqla o biri partiyaların nümayəndələri yer aldı.

Cəbhənin qəbul etdiyi Xartiyada elan olundu ki, "Suriya baasçilərinin məqsədi vahid ərəb sosialist cəmiyyəti qurmaqdır". "Hərtərəfli elmi planlaşdırma zəminində beşillik planların təsdiqi və iqtisadi siyasətin başlıca problemlərinin müzakirəsi" əsas iqtisadi kurs olacaqdır. "Özəl və ortaq bölmələrin fəaliyyətinə daha yaxşı rəhbərlik etmək üçün dövlət bölməsinə kifayət qədər diqqət yetirmək, iqtisadi inkişafın başlıca şərtidir". Ərəblərarası münasibətlərdə "Xarici ağalıqdan azad, imperalizmə və sionizmə qarşı mübarizə aparan ərəb ölkələrinin birliyinə nail olmaq" əsas vəzifə sayılırdı. Bu məsələlər 1973-cü il martın 12-də qəbul olunmuş Konstitusiyada da öz təsdiqini tapdı.

H.Əsəd hakimiyyətinin ən mühüm tədbirlərindən biri də 1973-cü il mayın 25-də son 11 ildə ilk dəfə ölkə parlamentinə - Xalq Şurasına seçkilərin keçirilməsi oldu. Milli Mütərəqqi Cəbhə parlamentdə yerlərin mütləq çoxluğunu qazandı və beləliklə də Baasin hərbçilər qanadı Suriyanın şəriksiz idarəçilərinə çevrildi, bu qanadın lideri H.Əsəd ölümünə qədər hakimiyyəti öz əlində saxladı.

H.Əsəd hakimiyyətinin belə uzun ömürlüyünün təməlində nələr dayanırdı?

Hər şeydən öncə göstərmək istərdik ki, ilk dövrlərdə bu hakimiyyət öz solçu sələflərindən heç nə ilə fərqlənmirdi. Yuxarıda da söylədiyimiz kimi, yeni rəhbərliyin bəyan etdiyi proqram sənədləri köhnə fəaliyyət prinsiplərinin yeni redaktədə təkrarı idi. Lakin siyasi həyatda yürüdülən kursun dön-

məz xarakter alması, müxalifətə qarşı bəzən kəskin, lazım gəldikdə mötədil münasibət göstərilməsi, iqtisadi problemlərin həllində qətiyyətli mövqe tutması ,- hərçənd ki, bu heç də həmişə uğurlu olmurdu, -Sovet İttifaqı və digər sosialist ölkələri ilə daha da yaxınlaşmaqla beynəlxalq aləmdə müəyyən dəstək qazanılması və s. nəticəsində ölkədə bir istiqrar yaranması ənənəsi var idi. Elə bu da 1973-cü il oktyabrın 6-da İsraillə növbəti müharibənin gedişində Suriyanın əldə etdiyi az-çox uğurların təməli oldu. Belə ki, müharibənin ilk iki günündə Suriya ordusu Çolan təpələrində İsrailə qarşı döyüşlərdə yüksək hərbi qabiliyyət göstərdi. İndiyə qədər bütün vuruşlarda istənilən ərəb qüvvəsinə asanlıqla qalib gələn İsrail bu dəfə güclü müqavimətlə qarşılaşdı. Lakin gözlənilmədən prezident Ənvər Sədatın Misir cəbhəsində hərbi əməliyyatları dayandırmasından sonra İsrail qüvvələrinin çox böyük hissəsi Suriya cəbhəsinə göndərildi. Suriya və Misirin hərbi əməliyyatları əlaqələndirə bilməməsi səbəbindən İsrail yenidən ölkənin içərilərinə doğru irəliləməyi bacardı.

1973-cü il oktyabrın 22-də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 338 saylı qətnaməyə görə hər iki cəbhədə hərbi əməliyyatların dayandırılması qərara alınsa da İsrail hücum əməliyyatlarını ayın 23-də də davam etdirdi və Süveyş kanalı boyunca bir sıra yerləri ələ keçirdi. Bu hadisə Təhlükəsizlik Şurasının daha qətiyyətli addım atmasına gətirdi. ABŞ və Sovet İttifaqının təklif etdiyi 339 saylı qətnaməyə əsasən atəş təcili olaraq dayandırıldı və ordular okyabrın 22-dəki mövqelərə çəkildilər.

Ümumiyyətlə, 1973-cü il oktyabr savaşından sonra Ərəb-İsrail münaqişəsinə, özəlliklə isə Fələstin probleminə istər beynəlxalq ictimaiyyət tərəfindən, istərsə də ərəb dövlətləri tərəfindən diqqət artdı, Yaxın Doğu probleminin həllinə nail olmaq baxımından müəyyən addımlar atıldı. Bunlardan birisi neft hasil edən ərəb ölkələrinin "neft amilin"ə müraciət etməsi, İsraili dəstəkləyən bir sıra Avropa ölkələrinə və ABŞ-a neft satışına embarqo qoyması idi. Embarqo nəticəsində nəinki Avropa ölkələri və ABŞ, Yaponiya belə böyük iqtisadi itkilərə məruz qaldı. Məhz bundan sonra bir sıra Avropa ölkələrinin məsələyə münasibətində dönüş yarandı və onlar Yaxın Doğu probleminin BMT Təhlükəsizlik Şurasının 242 saylı qətnaməsi əsasında siyasi həllinin zəruriliyini dilə gətirdilər. İlk dəfə olaraq Avropa İqtisadi Birliyinin üzvü olan ölkələr bu haqda bəyanatla çıxış etdilər. Yaponiya da onları dəstəklədi. Sovet İttifaqı isə yaranmış vəziyyətdən yararlandı və regionda mövqelərini möhkəmlətmək məqsədi ilə ərəblərin müdafiəçisinə

çevrildi.

Problemin həllinə münasibətdə ərəb ölkələri arasında bir həmrəylik yarandı. İndiyə qədər xüsusi fəallıq göstərməyən ərəb ölkələri, o cümlədən regionda ABŞ-ın ən etibarlı tərəfdaşı Səudi Ərəbistan məsələ ilə daha yaxından maraqlanmağa başladılar.

1973-cü il dekabrın 21-də Cenevrədə problemi həll etmək üçün Beynəlxalq konfrans çağırıldı. ABŞ və Sovet İttifaqının həmsədirliyi, BMT baş katibi Q.Valdhaymın iştirak etdiyi konfrasa maraqlı tərəflər dəvət olundular. Misir, Urdun və İsrail konfransın işinə qatılsalar da Suriya orada iştirakdan imtina etdi. Doğrudur, konfransda əsaslı bir qərar qəbul edilmədi, lakin problemin danışıqlar yolu ilə həllinin təməli qoyuldu. Bu yöndə ABŞ diplomatiyasının fəallaşmasını qeyd etmək istərdik. Məhz ABŞ-ın vasitəçiliyi ilə 1974-cü il yanvarın 18-də Süveyş zonasında Misir və İsrail ordularının aralanması haqqında saziş imzalandı. Çətinliklə də olsa, 1974-cü il mayın 31-də Suriya və İsrail arasında analoji razılaşma əldə olundu. Sonrakı dövrdə bu proses davam etdirildi və 1974-75-ci illərdə tərəflər arasında ayrı-ayrı yerlərdə orduların aralanması haqqında üç sazişə qol çəkildi.

Qeyd edək ki, görülən tədbirlər problemin dinc yolla həlli yolunda atılan ilk uğurlu addımlar sayılsa da bu yöndə bir sıra başlıca məsələlər, o cümlədən Fələstin xalqının öz müqəddaratını təyin etmək haqqı toxunulmaz olaraq qalırdı. Lakin fakt budur ki, həmin dövrdən etibarən ərəb dövlətləri və İsrail arasında geniş miqyaslı hərbi əməliyyatlara son qoyuldu, sürəkli davam edən gərginlik qismən zəiflədi və dinc inkişaf üçün şərait yarandı.

Məhz bundan sonra Suriya Ərəb Dünyasında aparıcı rolu olan dövlətlərdən birinə çevrilmək iddialarını gerçəkləşdirmək yolunda səy və cəhdlərini artırdı. "Qeyri kapitalist", daha doğrusu "ərəb sosializmi" yönümlü inkişaf, "antiimperialist mübarizənin zəruriliyi, Sovet İttifaqı və digər sosialist ölkələri ilə yanaşı" "milli azadlıq hərəkatları və dünyanın mütərəqqi qüvvələri" ilə əməkdaşlıq və "Fələstin inqilabı"nı dəstəkləmək H.Əsəd hakimiyyətinin fəaliyyət istiqamətləri oldu.

Daxili siyasətdə iqtisadiyyatın "sosialist planları" əsasında qurulması və "istismarın bütün formalarının ləğv edilməsi kursu" davam etdirildi. 1971-75-ci və 1976-80-cı illəri əhatə edən üçüncü və dördüncü beşilliklər dövründə Suriyanı sənaye-aqrar ölkəsinə çevirmək başlıca məqsəd elan olundu. Bunun üçün sənayenin və kənd təsərrüfatının inkişaf sürətinin artımı, müasir

infrastrukturun yaradılması, ərzaqla özünü təmin etmə əsas şərtlər sayılırdı.

Lakin ölkənin inkişaf planlarının gerçəkləşdirilməsi ciddi çətinliklərlə qarşılaşdı. Bunların da başında daxili maliyyə qaynaqlarının zəifliyi, xarici borc və kreditlərin mövcudluğu gəlirdi. Odur ki, hökumət 1974-cü ildə "liberallaşdırma" siyasətinə keçmək zəruriyyəti qarşısında qaldı. Özəl kapitala və xarici şirkətlərə fəaliyyət imkanları yaradıldı. Onu da qeyd edək ki, hökumət rəsmi bəyanatlarında "liberallaşdırma" siyasətinin müvəqqəti xarakter daşıdığını bildirir, iqtisadiyyatda dövlət bölməsinin üstün mövqeyi saxlanılır və planlı inkişaf kursu davam etdirilirdi. Təbiidir ki, belə bir vəziyyət istər özəl kapitalın, istərsə xarici kapitalın genişlənməsini təhdid altına salırdı. Doğrudur, xarici kapitalın milliləşdirilməsini qadağan edən bir sıra sənədlər imzalandı. Lakin xarici kapitalın fəaliyyəti azad ticarət zonalarından kənara çıxmırdı və əsasən də ticarət şirkətlərinin yaradılmasına yönəldildi. İstehsalda onun yeri və rolu çox zəif idi. Həmin səbəbdən də ölkənin ehtiyac duyduğu məhsulların artımı aşağı səviyyədə qalırdı, qiymətlər isə çox sürətlə yüksəlirdi. Həmin illərdə qiymətlər əhalinin gəliri ilə müqayisədə 2-3 dəfə çoxaldı. Hökumət bunların qarşısını almaq üçün müəyyən tədbirlər gördü. 1978-ci ilin əvvəlində maaşlar artırıldı, mükafatlı iş sisteminə keçildi, qiymətlərin artırılması "donduruldu" və s. Lakin görülən tədbirlər o qədər də effektli deyildi. Yaşayış şərtləri get-gedə ağırlaşırdı. Bu zəmində sosial narazılıqlar özünü göstərməyə başlamışdı. Daxili siyasi mübarizə kəskin xarakter alırdı. Fəaliyyəti 1963-cü ildə qadağan edilmiş "Müsəlman qardaşlar" xeyli fəallaşdı. Digər müxalifət qüvvələri tərəfindən dəstəklənən "Müsəlman qardaşlar" milliləşdirmə haqqında qanunda düzəlişlər aparılmasını, xarici ticarət əlaqələrində yeni qaydalar yaradılmasını və qiymətlər üzərində dövlət nəzarətinin götürülməsini tələb etdi. Ümumiyyətlə, 1978-1980-cı illər müxalifətin açıq və qətiyyətli çıxışlarının artması ilə xarakter oldu. Hələbdə, Hamədə və digər şəhərlərdə qanlı toqquşmalar baş verdi. H.Əsəd hakimiyyətinə qarşı silahlı mübarizə o dərəcədə qüvvətləndi ki, onu yatırmaq üçün ordunun gücündən istifadə olundu. 1980-1981-ci illərdə bütün gərginlik ocaqları söndürüldü və narazılara qarşı kəskin tədbirlər görüldü. Müxalifət darmadağın edildi.

Bununla yanaşı baş verən hadisələr Suriyanın bəəsçi rəhbərliyini bəzi güzəştlər etmək zorunda qoydu. 1980-cı ildə qulluqçuların və işçilərin əmək haqlarının yenidən artırılması, torpaq mülkiyyəti hədlərinin azaldılması və artıq torpaqların icarədar kəndlilər arasında bölüşdürülməsi və s. haqqında

fərmanlar verildi. Həmin illərin əvvəlindən Suriyanın siyasi həyatında yaranan davamlı nisbi bir istiqrar imkan verdi ki, müxtəlif istiqamətlərdə müəyyən işlər görülsün. 1981-1985-ci illərin beşillik planında iqtisadiyyata maliyyə qoyuluşunda üstünlük dövlət bölməsinə verilsə də (təqribən 4-ün 1-ə nisbətində-müəl.), görüləcək işlərin maliyyələşdirilməsində özəl və xarici kapitalın payı çoxaldı və təqribən dövlət kapitalının yarısına çatdı. İqtisadiyyatda, xüsusilə kənd təsərrüfatında kooperativ təsərrüfatların inkişafına önəm verildi. 1984-cü ildə 4103 müxtəlif yönümlü kooperativ var idi və orada çalışanların sayı yarım milyon nəfərə çatırdı.

Neft və fosforit hasilatı, elektroenergetika, tikinti materialları və mineral gübrələr istehsalına dövlət xüsusi diqqət göstərirdi. Həmin dövrdə ən çox inkişaf edən və gəlirli sahəyə çevrilən elektroenerji istehsalı idi. Bu sahədə yeni qurğuların tikilməsi və istifadəyə verilməsində, eləcə də bir sıra irriqasiya layihələrinin, Qamışlı-Latakiya dəmir yolunun çəkilişində xarici kapitaldan, daha çox Sovet İttifaqının maddi və texniki yardımından istifadə olundu.

1985-ci ilin yanvarının 5-20-də keçirilən Bəəsin VIII məhəlli konfransında son beşilliyin nəticələri yüksək qiymətləndirildi, daxili və xarici kursun bir sıra məsələləri müzakirə edildi, 1986-1990-cı illər üçün beşillik plan qəbul olundu və Hafiz Əsəd partiyanın Baş Katibi seçildi. 1985-ci il 10 fevral referendumunun nəticələrinə görə o, növbəti yeddi il üçün ölkənin prezidenti vəzifəsində qaldı.

1986-cı ilin fevralında keçirilən parlament seçkilərində Mütərəqqi Milli Cəbhədə birləşən H.Əsəd tərəfdarları 195 yerdən 151-ni qazandılar. Kommunist Partyasına 9, müstəqillərə isə 35 mandat çatdı. Lakin, 1990-cı il parlament seçkilərində bəəsçilərin mandatı xeyli azaldı. Onlar 250 yerdən 134-nə sahib ola bildilər. Digər partiyalar 32, müstəqillər isə 34 mandat qazandılar.

Haqqında danışılan dövrdə də Suriyanın xarici siyasətində aparıcı xətt İsraillə baş verən hərbi əməliyyatların nəticələrini aradan qaldırmaq yolunda ciddi və ardıcıl səy və cəhdlər göstərmək olmuşdur. İrəlidə dediyimiz kimi, 1973-cü ilin oktyabr savaşı istər Suriya üçün, istərsə də digər ərəb ölkələri üçün gözlənilən sonluqla qurtarmadı, əksinə növbəti uğursuzluqlar gətirdi. Bu səbəbdən Suriya öz səylərini Yaxın Doğu probleminin həlli yolunda aparıcı qüvvə ola biləcək hesab etdiyi ərəb dövlətləri konfederasyası yaradılması planının gerçəkləşməsinə yönəltdi. Suriya düşünürdü ki, o, belə

bir qurumun nüvəsi ola bilər, Bəəs isə bu işdə rəhbər rol oynayar. Bu düşüncədən çıxış edən Suriya hələ savaşın bitməsindən az sonra İsraillə münasibətləri ikitərəfli qaydada tənzim etməyə çalışan Misir və onun prezidenti Ənvər Sədatı kəskin tənqid etdi. H.Əsəd belə etməklə istəyirdi ki, ərəb ictimai rəyində Suriyanın İsrailə qarşı münasibətdə yeganə barışmaz dövlət obrazını yaratsın və ərəb cəmiyyətindəki barışmazlıq ideyasının çox saylı tərəfdarlarının dəstəyini qazansın, onların vasitəsilə Misiri təcrid etsin, lazım gələrsə hətta Ərəb Dövlətləri Liqasından uzaqlaşdırsın. Bunun nəticəsi Suriyanın ərəb dünyasında lider dövlətə çevrilməsi olardı.

Doğrudur, Səudi Ərəbistanın vasitəçiliyi ilə 1976-cı ildə Suriya-Misir münasibətləri bir qədər yaxşılaşdı. Lakin prezident Ə.Sədatın 1977-ci ilin dekabrında Qüdsə səfər etməsindən sonra Suriya Misirlə diplomatik əlaqələri kəsdi və onu təslimçilikdə ittiham etdi. Hətta əlaqələrinin xeyli dərəcədə yaxşılaşmaqda olduğu Urdun Ə.Sədatın səfərini rəğbətlə qarşıladığına görə Suriya ondan da üz döndərdi.

Suriya dövlət və partiya rəhbərliyinin İraqla yaxınlaşmaq cəhdləri 1978-ci ilin oktyabrında iki dövlətin birgə fəaliyyətinə dair Milli Xartiyanın və 1979-cu ilin iyulunda onların birləşməsini nəzərdə tutan Siyasi Bəyannamənin imzalanması ilə nəticələnsə də, real bir sonluğa gətirmədi. 1979-cu ilin iyul-avqust aylarında İraqda baş verən hadisələr isə yaxınlaşmaq cəhdlərini heçə endirdi.

Suriya öz istəyinə yalnız Lübnanda çata bildi. Belə ki, 1975-ci ildə bu ölkədə baş verən vətəndaş müharibəsini dayandırmaq və buna nəzarət etmək üçün Ərəb Dövlətləri Liqası xarici işlər nazirlərinin Lübnana ərəb dövlətləri hərbi kontingentinin göndərilməsi qərarını Suriya da dəstəklədi. Lübnana gələn hərbçilərin çox böyük hissəsi Suriyadan idi. Bu da imkan verdi ki, Suriya bu ölkənin siyasi həyatına və Lübnan hökumətinin fəaliyyətinə lazımi təsir göstərə bilsin. H.Əsəd və onun ətrafı bu məsələyə xüsusi önəm verir və Lübnanda daha çox qalmağa çalışırdı. Həmin səbəbdən də Lübnanda elə bir şəraitin yaranmasında maraqlı idi ki, həm ərəb ölkələri, həm də ABŞ və İsrail Suriya qoşunlarının burada qalmasının zəruriliyinə inansınlar.

XX əsrin 80-ci illərinin əvvəli Suriya-İsrail münasibətlərinin yenidən gərginləşməsi ilə səciyyələnirdi. Belə ki, 1981-ci ilin dekabrında İsrail Knesseti ölkə qanunlarının işğal olunmuş Çolan təpələrinə şamil edilməsi haqqında qərar çıxardı. Suriya bunu kəskin etirazla qarşıladı və BMT Təhlükəsizlik

Şurasının çağrılmasını istədi. Çətinliklə də olsa, Təhlükəsizlik Şurası Suriyanı dəstəklədi, Knessetin çıxardığı qanunun heç bir beynəlxalq hüquqi əsası olmadığını söylədi və onun ləğvini tələb etdi.

1982-ci ilin iyulunda Suriya və İsrail yenidən üz-üzə gəldilər. Bu da Lübnanda yerləşən Fələstin Azadlıq Təşkilatının (FAT) hərbi birləşmələrini məhv etmək üçün İsrailin bu ölkəyə hücumu ilə bağlı idi və onunla nəticələndi ki, fələstinlilər məğlub oldular, Suriya isə Lübnanda siyasi təsirini daha da möhkəmləndirdi. O, 1982-ci ilin sentyabrında Fələstin ərəbləri ilə bağlı irəli sürülmüş "Reyqan planı"nı rədd etdi. Suriyanın Fələstin probleminin həlli məsələsini istisnasız öz üzərinə götürməsi FAT rəhbərliyi ilə ziddiyyətləri kəskinləşdirdi. H.Əsəd rejimi Fələstin Müqavimət Hərəkatının 1983-cü ildə FAT lideri Yasir Ərafata qarşı çıxan qüvvələrini dəstəklədi. Hətta suriyalıların köməyi ilə Y.Ərafat tərəfdarları öncə Bəkaa vadisindən, sonra isə əsas dayaqları olan Trablisdən çıxarıldılar. FAT rəhbərliyi öz iqamətgahını Tunisə köçürmək zorunda qaldı. Suriya-FAT münasibətləri 1987-ci ildə H.Əsəd və Y.Ərafatın Əmmanda bir araya gəlməsinə qədər gərgin olaraq qaldı. 1988-ci ildə Y.Ərafatın Suriyaya gəlməsindən sonra isə yaxınlaşma baş verdi.

Suriya 1983-cü il mayın 17-də bağlanmış Lübnan-İsrail sazişinə də qarşı oldu və onun təsdiqlənməməsi üçün ciddi müqavimət göstərdi. Bu səbəbdən H.Əsəd rejimi Lübnanda şiələrin güclü və kütləvi təşkilatı "Amal"la yaxınlaşdı. Nəhayət, məhz Suriyanın diqtəsi və dəstəyi ilə Lübnan hökuməti həmin müqaviləni 1985-ci ildə etibarsız elan etdi.

Əlcəzair, Yəmən Xalq Demokratik Respublikası və Libiya kimi ərəb ölkələri ilə münasibətləri daha da yaxşılaşdırmaq, Misir və Urdun ilə yaxınlaşmaq cəhdləri, xüsusilə isə Sovet İttifaqı ilə müttəfiqlik əlaqələrini möhkəmləndirmək (bu baxımdan 1980-cı il Suriya - Sovet müqaviləsi xüsusi önəm daşıyırdı.-müəl) kursu həmin dövrdə Suriya xarici siyasətində aparıcı istiqamətlər olaraq qalmışdı.

Bu xarici siyasət kursu XX əsrin 80-cı illərinin sonuna qədər davam etdi və Suriyanın məhəlli "güc mərkəzi" olmaq və Yaxın Doguda vəziyyətin inkişaf istiqamətinə əsaslı təsir etmək iddialarından qaynaqlanırdı. Ölkənin həmin əsrin 90-ci illər tarixi isə bir sıra cəhətlərə görə əvvəlki dövrlərdən fərqli olmuşdur. Bu da ondan irəli gəlmişdi ki, istər beynəlxalq miqyasda, istər ərəb dünyasında, istərsə də Suriyanın öz daxilində ciddi dəyişikliklər baş vermişdi. "Soyuq müharibə"nin başa çatması, Sovet İttifaqının çöküşü

və Varşava blokunun dağılması, sosialist istehsal üsulunun iflası, ərəb ölkələri arasında bir sıra ixtilafların yaranması,- məsələn, İraq-Küveyt münaqişəsi kimi, - Ərəb-İsrail münaqişəsinin həllində ərəb dövlətlərinin birgə fəaliyyət ənənəsindən imtina edilməsi və ikitərəfli danışıqlar kursuna keçilməsi, onun Avropa dövlətləri və ABŞ-la yaxınlaşmaq meylinin artması, Suriyanın yürütdüyü Batıdan özünü təcrid və Sovet İttifaqı ilə daha çox bağlanmaq siyasətinin təbii şəkildə sona çatması (Sovet İttifaqı 1991-ci ilin dekabrında rəsmi şəkildə ləğv olundu- müəl.), nəhayət və ən başlıcası, ölkə iqtisadiyyatının məruz qaldığı böhranlı vəziyyət səbəbindən uzun illər boyunca H.Əsədin başçılıq etdiyi Suriyanın dövlət-partiya rəhbərliyi öz fəaliyyətinin bütün sahələrində əsaslı düzəlişlər etməli oldu.

Əslində bu kurs öz başlanğıcını öncəki on illərin sonlarından götürmüşdu. 1986-cı ildə Lübnanda Fələstin və "Amal" döyüşçüləri arasında atəşkəs rejiminin yaranmasında Suriyanın pozitiv rol oynaması FAT-Suriya münasibətlərində dönüş yaratdı. Artıq 1988-ci ildə münasibətlərdəki gərginlik aradan qaldırıldı. FAT lideri Y.Ərafatın həmin ildə Suriyanı ziyarət etməsi bunun təsdiqi idi.

Doğrudur, 1989-cu ilin martında Lübnan prezidenti general Aunun Suriya qoşunlarını öz ölkəsindən çıxarmaq cəhdi iki dövlət arasında gərginliyi artırdı, silahlar yenidən işə düşdü. Ancaq Ərəb Dövlətləri Liqasının himayəsi altında 1989-cu ilin oktyabrında bağlanmış müqavilə (o, daha çox Taif müqaviləsi kimi tanınır -müəl.) Lübnan parlamenti tərəfindən təsdiqləndi. Müqavilə Suriyanın Lübnanda təsir dairəsinin genişləndirilməsini nəzərdə tuturdu. 1990-cı ilin aprelində İlyas Hiravinin Lübnan prezidenti seçilməsindən sonra vəziyyət tamamilə Suriyanın xeyrinə dəyişdi. İ.Hiravi Taif müqaviləsini qəbul edir və dəstəkləyirdi, Suriyanın Lübnandakı roluna yüksək qiymət verirdi. 1990-cı ilin oktyabrında Suriya və Lübnan ordusunun birgə əməliyyatı nəticəsində general Aunun məğlubiyyətə düçar edilməsindən sonra isə iki dövlətin tarixində çox önəmli hadisə baş verdi. 1991-ci ilin mayında Suriya və Lübnan arasında "Qardaşlıq, əməkdaşlıq və bərabərlik" haqqında müqavilə imzalandı. Suriya bu müqavilə ilə ilk dəfə olaraq Lübnanın bağımsızlığını tanıdı. Müqavilədə o da bildirilirdi ki, bu iki ölkə eyni vətənin ayrı-ayrı hissəsidir.

Müqavilə İsrail tərəfindən kəskin narazılıqla qarşılandı və Lübnanın Suriya protektoratı altına keçməsi yolunda atılan ilk addım kimi qiymətləndirilirdi. Buna cavab bəhanəsi ilə İsrail qüvvələri Lübnanın güneyindəki

"bufer zona"sına yeridildi.

1990-cı ildə Körfəz savaşı zamanı Suriyanın ABŞ yanlısı olması H.Əsəd hakimiyyətinin Batıya yaxınlaşmaq istiqamətində ən güclü cəhdi oldu. O, beynəlxalq hərbi qüvvələrə qatıldı və 30 minə yaxın hərbçini Səudi Ərəbistana göndərdi.

Məhz bu hadisədən sonra Suriya ilə Batı dövlətləri arasında əlaqələr xeyli yaxşılaşdı, ABŞ-la diplomatik münasibətlər bərpa olundu. Doğrudur, XX əsrin 80-cı illərinin sonlarında Avropa Birliyi beynəlxalq terrorizmlə əlaqəsi ittihamı baxımından Suriyaya maliyyə yardımlarının kəsilməsinə son vermişdi. Ancaq müəyyən sahələrdə, xüsusilə də silah satışına dair qadağalar hələ də saxlanılırdı. İndi isə əməkdaşlığın bütün istiqamətlərdə inkişafı üçün imkanlar yarandı. Suriya regiondakı əsas dövlətlərlə hesablaşmalı oldu. Misirlə münasibətlərdə regional təhlükəsizlik məsələlərinə önəm verildi. 1991-ci ilin iyulunda H.Əsəd ilk dəfə olaraq ABŞ dövlət katibi C.Beykerlə görüşdü və İsraillə birbaşa danışıqlarda iştirak etməyə razılaşdı. 1991-ci ilin oktyabr ayında Madriddə çağrılan sülh konfransına İsrail, Misir, Lübnan və Fələstin-Urdun ilə yanaşı Suriya da qatıldı. Konfransda Suriya "torpaq müqabilində sülh" prinsipini irəli sürdü. Doğrudur, bu danışıqlar heç də həmişə uğurlu olmurdu. Ancaq əks tərəflərin bir araya gəlməsi və mövqe açıqlamaları baxımından əhəmiyyətli idi. 1994-cu ilin yanvarında Cenevrədə ABŞ prezidenti Klintonun H.Əsədlə görüşü və həmin ilin oktyabrında onun Suriyaya səfərindən sonra Suriya və İsrail arasında ikitərəfli danışıqlar yoluna önəm verməsi məhz həmin toplantıların təsirindən qaynaqlanırdı. Təsadüfi deyildir ki, 1995-ci ilin martında başlanan Suriya-İsrail danışıqları mayda "Təhlükəsizliyin təmin edilməsi haqqında anlaşma"nın imzalanması ilə başa çatdı.

Sonrakı illərdə də iki dövlət arasında münaqişənin həlli yolunda fasilələrlə də olsa danışıqlar davam etdirilirdi. Lakin sülhun şərtlərində mövqe fərqlərinin mövcudluğu yekun sənədinin imzalanmasını mümkünsüz etdi. Hətta 1996-cı ildə İsraildə Likud lideri B.Netanyahunun baş nazir postuna gəlməsindən sonra vəziyyət bir qədər mürəkkəbləşdi. Səbəb də o idi ki, İsrail tərəfi "Sülh əvəzinə torpaq" prinsipindən imtina etdi. ABŞ-ın vasitəçilik təşəbbüsləri də uğurlu olmadı. 1998-ci ilin əvvəllərində isə münasibətlər xeyli kəskinləşdi. Bu hal 1999-cu ilin sonlarına qədər sürdü. Həmin arada ABŞ prezidenti B.Klintonun məsələyə ciddi münasibəti sayəsində tərəflər dörd il əvvəl kəsilən sülh danışıqlarını bərpa etdilər və

2000-ci ilin yanvarında İsrailin baş naziri E.Barak və Suriyanın xarici işlər naziri F.Şaraa ABŞ-da görüşdülər. 2000-ci ilin martında Cenevrədə ABŞ və Suriya prezidentləri B.Klinton və H.Əsədin növbəti görüşü zamanı bu məsələ də müzakirə edilmiş, Suriyanın mövqeyi haqqında məlumat verilmişdir.

Ümumiyyətlə, sözügedən dövrdə H.Əsəd hakimiyyəti Suriyanın siyasi sistemində də bəzi liberal yönümlü islahatlar aparsa da görüləsi çox məsələlər qalmaqda idi. Suriyanın dövlət-partiya rəhbərliyi ölkədə demokratik təməllərin azadlığını təmin etməkdən daha çox hakimiyyətin varisliyinə enerji sərf edirdi. Hətta hakimiyyətin öz daxilində açıq narazılığı hiss olunan şəxslər belə hər cür cəzaya və təqibə məruz qalırdı. Həmin səbəbdən də H.Əsəd rejimi öz mövqeyini qoruyub saxlaya bilirdi. Maraqlıdır ki, istər 1994-cü, istərsə də 1998-ci ildə keçirilən parlament seçkilərində Bəəs partiyasının aparıcı rol oynadığı Milli Mütərəqqi Cəbhə hər dəfə 167 nəfər namizədlə iştirak etmiş, hər dəfə də bir o qədər mandat qazanmışdır. H.Əsəd özü isə 1999-cu il fevralın 10-da beşinci dəfə prezident seçildi.

Təbiidir ki, bu məsələlərdə 30 il müddətində Suriyanı idarə etmiş H.Əsəd hakimiyyətinin ölkədə müəyyən istiqrar yaratması faktı az rol oynamamışdır. Fəaliyyətində güc strukturlarına arxalanan, həm də bu zaman bir demokratiya görünüşü yaratmağı da bacaran (ölkədə partiylar, Milli Cəbhə və parlament var idi. -müəl.) H.Əsədin özü isə xeyli populyar idi və işgüzar dairələr tərəfindən dəstəklənirdi. Orduda və dövlət aparatında vaxtaşırı aparılan "təmizləmə"lər nəticəsində onun şəxsi hakimiyyəti möhkəmləndirilirdi. Son illərdə ağır xəstə olan H.Əsəd bütün gücünü oğlu Bəşarı prezidentliyə gətirməyə yönəltmişdi. Elə onun 2000-ci ildə ölümündən sonra Suriyanın prezidenti Bəşar da oldu. Müşahidəçilər prezident Bəşarın atasından fərqli olaraq bir sıra dövlətlərlə münasibətlərdəki gərginliklərə son qoyacağına və İsraillə münaqişəni həll edəcəyinə inanırdılar.

XX əsrin 90-cı illərində Suriyanın iqtisadi vəziyyətinə gəlincə, demək istərdik ki, dövrün əvvəlləri bir sıra çətinliklərlə xarakterik oldu. Dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi, ticarət balansında kəsirin artması, Suriyanın ixrac malları üçün bazarın darlığı, neft ölkələrindən gələn yardımın fasiləli olması, milli funtun sürətlə qiymətdən düşməsi, hərbi xərclərin çoxluğu ölkə iqtisadiyyatını böhranlı vəziyyətə gətirmişdi. Lakin elə həmin arada da istər ölkə daxilində, istərsə də ölkə xaricində baş verən bir sıra hadisələr nəticəsində vəziyyətdən çıxmaq imkanı yarandı. Belə ki,

birincisi, 1990-cı ilin əvvəllərində yeni neft yataqları kəşf olundu. İkincisi, ABŞ-İraq münasibətlərinin kəskinləşməsi zamanında Suriyanın ABŞ-ı dəstəkləməsi onun Avropa ölkələri ilə əlaqələrini nisbətən yaxşılaşdırdı, borc və kreditlər alınması imkanlarını bərpa etdi. Üçüncüsü və ən başlıcası 1991-ci *ilin mayında parlamentin qəbul etdiyi qanuna görə iqtisadiyyatın* dövlət bölməsi özəl bölmə və xarici investisiyalar üçün açıq elan olundu. Həmin bölməyə kapital qoyan yerli və xarici investorlar 5 ildən 9 ilə qədər vergidən azad edildilər. Bir sıra idxal mallarına qoyulan gömrük vergisi aşağı salındı, gəlirin ölkədən çıxarılmasına icazə verildi. 1994-cü ildə qəbul olunan başqa bir qanuna görə isə dövlət müəssisələri fəaliyyət azadlığı qazandı.

Qeyd edək ki, bütün bunlar, nisbi də olsa, gözlənilən böhranın qarşısını aldı. Lakin istənilən nəticəni vermədi. İqtisadi yüksəliş qısa müddətli oldu. İlk illər 7% olan istehsal artımı 90-cı illərin ikinci yarısında 3,4-ə endi. Adambaşına düşən gəlir 1500 ABŞ dollarından yuxarı qalxmadı. Banklar yenə də güclü dövlət nəzarəti altında qaldı. Ölkədə təminatlı hüquq və azadlıqların yoxluğu investisiya axını qarşısında ən böyük maneə idi. Müşahidəçilər hətta belə bir cəhətə fikir yönəldirlər ki, səmərəsiz milliləşdirilmiş iqtisadiyyat əgər ölkəni fəlakət qarşısında qoymamışdırsa, bu o demək deyildir ki, çətinliklərdən özəl bölmənin gücləndirilməsi nəticəsində çıxılmışdır. Burada ən böyük rol ərəb ölkələrinin etdiyi yardıma məxsusdur.

Bununla yanaşı, həmin dövrün ikinci yarısında bazar iqtisadiyyatına keçidə mane olan səbəblərin aradan qaldırılmasına cəhdlər edirdi. Vahid mərkəzdən idarə olunan planlı iqtisadiyyatdan çoxsahəli iqtisadiyyata keçilməsinin əsasları möhkəmləndirildi. İstehsal mərkəzlərinin qeyri-bərabər yerləşməsindən, - məsələn, sənaye müəssisələrinin 75%-i Dİməşq və Hələb şəhərlərinin payına düşür, - imtina olunur, bazar infrastrukturlarının formalaşdırılması sürətləndirilir, iqtisadiyyatın demokratikləşdirilməsi genişləndirilirdi.

Suriya bu iqtisadi kursun gerçəkləşdirilməsi üçün bir sıra beynəlxalq maliyyə mərkəzləri ilə əməkdaşlığa xüsusi önəm verməyə başlamışdı. 1997-ci ildə ümumi məbləği 17 mld. dollara çatan xarici borcları (Suriyanın ümumi milli məhsulu da həmin məbləğ dəyərində idi. - müəl.) ödəmək üçün Dünya Bankı ilə razılaşma əldə edildi. Razılaşmaya görə ildə yarım milyon dollardan çox borc ödənildi və bu hadisə xarici investorların Suriyaya olan inamını artırdı.

Suriya regional iqtisadi-maliyyə təşkilatları ilə də əlaqələrini geniş-

ləndirirdi. Azad ticarət zonaları yaradılması üçün Ərəb Dövlətləri Liqası və AB ilə müqavilələr imzalanmışdı. Yerli sahibkarları həvəsləndirmək üçün müasir bankçılıq sistemi yaradılması proqramlaşdırıldı. Bu iş AB tərəfindən maliyyələşdirildi və 1997-ci illərin ortalarından həyata keçirildi. 1998-ci ildə isə vahid valyuta sistemi yaradıldı. Bütün bunlar xarici investorların qısa zaman kəsiyində ölkəyə xeyli miqdarda investisiya gətirməsinə imkan verdi.

Ümumiyyətlə, Suriya iqtisadi inkişafa nail olmaq yolunda özəl yerli və xarici kapitala çox önəm verir və bu baxımdan xarici dövlətlərlə, əsasən də AB ölkələri ilə əməkdaşlığa böyük ümid bəsləyirdi. Məhz həmin səbəbdən XX əsrin 90-cı illərində, xüsusilə dövrün sonlarında xarici siyasət kursunda müəyyən dəyişikliklər edildi. Bu, ilk növbədə Urdun, İsrail, İraq, Türkiyə və Misir kimi qonşu dövlətlərə aid idi.

Bir qədər irəlidə Körfəz böhranı dövründə ABŞ-la yaxınlaşma zəminində İraqla münasibətlərin korlanmasından danışılmışdır. İraqla münasibətlər 1999-cu ilə qədər gərgin olaraq qaldı. Tərəflər yalnız həmin ilin martın 24-də Bağdad və Diməşqdə yerləşən Əlcəzair səfirliklərində onların maraqlarını təmsil edən şöbələr açmaq haqqında razılığa gəldilər.

Münasibətlərin gərgin olduğu Urduna yönəli siyasətdə də yumşalma hiss olunmaqda idi. 1999-cu il iyulun 21-də Suriya həbsxanalarında yatan 400 urdunludan 6 nəfərini əfv etməsini yumşalmanın göstəricisi kimi dəyərləndirildi və Urdun kralı II Abdullahın Suriyaya səfərinə isə böyük qiymət verildi. Belə bir yanaşma Türkiyə ilə münasibətlərdə də müşahidə olunurdu.

Misirlə münasibətlərdə müşahidə olunan gərginlik 1988-ci ilə qədər davam etmişdir. Həmin ildə Urdunda keçirilən Ərəb Dövlətləri Liqasının zirvə toplantısında H.Əsəd Suriyaya iqtisadi yardım müqabilində Misirin Liqada hüquqlarının bərpa olunmasına razılıq verdi. 1989-cu ilin dekabrında isə tərəflər arasında diplomatik əlaqələr yenidən bərpa olundu. Misir Suriyanın əsas strateji və hərbi tərəfdarlarından biri idi və o, İsraillə münaqişədə Suriyanı hər cəhətdən müdafiə edirdi.

Suriyanın ənənəvi tərəfdaşı Sovet İttifaqının çöküşündən sonra özünü bu dövlətin varisi elan edən Rusiya Federasiyası ilə 1992-ci ildə qurulan əlaqələr yüksələn xətlə inkişaf etmişdir. 1999-cu ilin aprel ayında RF xarici işlər naziri İ.İvanovun Suriyaya, iyulda isə prezident H.Əsədin doqquz ildən sonra Moskvaya səfəri zamanı münasibətlərin geniş spektrini nəzərdə tutan razılaşmalar əldə edildi.

ABŞ və Avropa dövlətləri ilə əlaqələrdə də dönüş var idi. ABŞ-la yanaşı

Avropa dövlətləri da Suriyaya münasibətdə pozitiv mövqe tutdular. 1991-ci ildə Avropa Birliyinin Suriyaya silah satışına qoyulan embarqonu götürməsindən sonra münasibətlərdə bir canlanma yaranmışdı. H.Əsədin, xarici işlər nazirinin və digər vəzifəli şəxslərin qonşu ölkələrə, Avropaya və ABŞ-a səfərləri artmışdı. 1998-ci ildə H.Əsədin Fransaya səfəri Suriya dövlət başçısının 1976-cı ildən bəri Avropa ölkəsinə ilk gəlişi idi.

Suriyanın xarici siyasi kursunda pozitiv canlanma iqtisadi münasibətlərə də müəyyən təkan vermişdi. Almaniya, İtaliya, Fransa, İspaniya, Türkiyə və s. ölkələr Suriyanın güclü iqtisadi tərəfdaşlar oldular. Həmin illərin sonlarında ölkənin ixrac məhsullarının 20%-ə qədəri Almaniyaya gedirdi. İdxalın isə 30%-a qədəri İtaliyanın payına düşmüşdü.

Bu hal Bəşar Əsədin 2000-ci ildə prezidentliyə başlamasından sonra keyfiyyətcə daha pozitiv çalarlar aldı. Başqa sözlə desək, onun hakimiyyətə gəlişi ilə ölkənin həyatında yeni mərhələ başlandı. Bunu andiçmə mərasimində Bəşarın demokratiya və azadfikirliyin dəstəklənməsi yönümündə etdiyi çıxış aydın göstərirdi. Siyasi və iqtisadi islahatlar vəd edən yeni prezidentin bu mövqeyi ölkədə dəyişikliklər arzulayan təbəqələr üçün böyük əhəmiyyətə malik idi. Modernləşmə işləri ilə məşğul olmaq üçün hakimiyyətə islahatçı-texnokratlar daxil edildi. Onların başlıca vəzifəsi müxtəlif nazirliklərdə inzibati islahatlar aparmaq, iqtisadi sistemin zəif yerlərini aşkarlamaq və bunların aradan qaldırılması yollarını araşdırmaq idi. Hələlik siyasi dəyişikliklər nəzərdə tutulmasa da, Suriyada bir neçə ay ərzində siyasi aşkarıq özünü aydın şəkildə göstərməyə başladı. Analitiklərr bu dövrü "Diməşq baharı" adlandırırdılar. Siyasi məhbusların azadlığa buraxılması, mətbuat üzərində senzuranın götürülməsi, müəyyən tənqid və fikir ayrılığı nümayiş etdirən siyasi forumların dövlət tərəfindən dəstəklənməsi ölkədə yeni ab-havanın təzahürü idi. Demokratik dəyişikliklər içərisində 2002-ci ildə Mütərəqqi Milli Cəbhənin nizamnaməsindən hakim Bəəs partiyasının cəmiyyətdə inhisarçı rolu haqqında bəndin çıxarılması mühüm əhəmiyyətə malik idi. Təsadüfi deyildi ki, 2003-cü ilin mart seçkiləri daha demokratik keçdi, sentyabrda isə Suriyada liberal islahatlar tərəfdarı kimi tanınmış Nəci Atasi yeni Nazirlər Kabineti təşkil etdi. Hökumətdən uzaqlaşdırılmış 15 hərbçinin yerini mülki şəxslər tutdu. Kadr dəyişiklikləri nəticəsində ölkənin siyasi həyatında hərbi məmurların rolu azaldı.

Siyasi məhbusların azad olunması və nəticədə vətəndaş cəmiyyətinin fəallaşması hakim rejimi bir qədər çətin vəziyyətə saldı. "Köhnə qvardiya"

adlandırılan və Hafiz Əsədə yaxın olan qüvvələr B.Əsədlə görüşlərdə ölkədə cərəyan edən hadisələrin rejim üçün təhlükəli olduğunu vurğulayır, ciddi siyasi islahatların hakimiyyətə iqtisadi, sosial və siyasi üstünlüklər verən və sabit əsasları olan sistemin dağılması ilə nəticələnə biləcəyinin söyləyirdilər. Təsadüfi deyildi ki, köhnə rejim tərəfdarlarının çoxu da bu qənaətdə idilər və H.Əsəddən miras qalmış "sabitliy"in qorunub saxlanmasında maraqlı idilər. Onlar B.Əsədi də bu fikrə inandırdılar və onu islahatlar yolundan döndərdilər. Bununla da "Diməşq baharı" sona çatdı və öz yerini "Diməşq qışı"na verdi. Dirçəlməkdə olan yeni siyasi qurum və cəmiyyətlərə qarşı hücum başladı. Onların fəaliyyəti yoxlanıldı, bəziləri bağlanıldı, müstəqil qəzetlərin nəşri dayandırıldı, siyasi fəallar yenidən həbs olundular. Lakin cəmiyyətdə aşkarlığın səviyyəsi əvvəlki dövrlərə nisbətən xeyli genişlənmişdi və öz varlığını qoruyurdu.

Doğrudur, Suriya reallığında yeni prezidentin mövcud rejimi dəyişməsi və İsraillə sülh müqaviləsi imzalaması hələ ki, mümkünsüz idi. Regionda və dünyada cərəyan edən hadisələr, 2000-ci il Fələstin intifadasının başlanması, 2001-ci ilin 11 sentyabrında ABŞ-a qarşı terror aktları, həmin ilin oktyabrında Əfqanıstana, 2003-cü ilin martında isə İraqa koalisiya qüvvələrinin müdaxiləsi Suriyanın vəziyyətini olduqca mürəkkəbləşdirdi. 11 sentyabr hadisələrindən sonra Suriyanın "əl-Qaidə" təşkilatı ilə əlaqədar ABŞ məxfi xidmət orqanları ilə əməkdaşlığına baxmayaraq, C.Buş hökuməti ölkənin HAMAS və Hizbullah kimi təşkilatlara göstərdiyi ənənəvi dəstəyi "əl-Qaidə"nin dəstəklənməsinə bərabər tutdu. Suriya hakimiyyəti ümid edirdi ki qarşıdurma məqamları olmasına baxmayaraq, ABŞ-la əvvəlki münasibətlər saxlanılacıq, halbuki dəyişmiş geosiyasi şəraitdə ölkə artıq böyük bir problemin tərkib hissəsinə çevrilmişdi. 2003-cü ilin martından Diməşq Vaşinqtonun ciddi təhdidləri ilə qarşılaşdı. O, İraq bəəsçilərinə kömək göstərməkdə, qaçqınlara məskunlaşma imkanı yaratmaqda və hətta İraqda tapılmayan kütləvi qırğın silahını öz ərazilərində gizlətməkdə ittiham olunurdu.

ABŞ Konqresi Suriya ilə əlaqədar 2003-cü ilin payızında qətnamə qəbul etdi. Ölkələrarası iqtisadi əlaqələrin onsuz da zəif olmasına baxmayaraq, bu qanun Suriyaya qarşı yeni iqtisadi sanksiyalar tətbiq etməyə imkan verirdi. Eyni zamanda hava məkanının Suriya təyyarələri üçün istifadəsinə qadağa qoyuldu və ticarət əlaqələri dayandırıldı. Suriyaya olan təzyiqlər 2004-cü ildən sonra daha da gücləndi. Səbəbləri də bu idi ki, Suriyaya yaxın

olan Lübnan prezidenti Emil Lahudun səlahiyyət müddətinin uzadılması üçün B.Əsəd böyük səylər göstərmişdi. Bu cəhdlər onun Lübnan siyasətinə müdaxiləsi kimi dəyərləndirildi. ABŞ və Fransa başda olmaqla dünya birliyi həmin məsələyə kəskin reaksiya verdi və BMT Təhlükəsizlik Şurası 1539 №-li qətnaməsində Lübnandan bütün xarici hərbi qüvvələrin çıxarılmasını tələb etdi.

Suriyanın Lübnandakı siyasətinin qəti əleyhinə çıxan baş nazir Rəfiq Həririnin onun avtomobilinə qoyulmuş bombanın partlaması nəticəsində 14 fevral 2005-ci ildə həlak olması Suriyanın imicinə ağır zərbə vurdu. Suriya bu qətldə ittiham edildi. Lübnanda kütləvi etiraz nümayişləri baş verdi. Suriya qoşunlarının ölkədən çıxarılması tələb olunmağa başlandı. Suriyadakı ABŞ səfiri geri çağırıldı. Doğrudur, bir müddətdən sonra o, geri qayıtdısa da münasibətlər gərgin olaraq qaldı.

Lübnanda Hizbullah tərəfindən təşkil edilmiş Suriyaya dəstək mitinqlərinə baxmayaraq, B.Əsəd 2005-ci ilin aprelində qoşunların Lübnandan çıxarılmasına razılıq verdi. R.Həririnin ölümü haqqında BMT Təhlükəsizlik Şurasına təqdim olunmuş məruzədə Suriya rejiminin bir sıra səlahiyyətli məmurlarının və prezidentin qohumlarının bu qətldə əli olduğu göstərilirdi. Lakin Rusiya və Çinin qəti qərar verməməsi nəticəsində Təhlükəsizlik Şurası yekdil fikrə gələ bilmədi.

Qeyd edək ki, R.Həririnin ölümü ilə bağlı qalmaqal 2006-ci ilin ortalarından etibarən səngiməyə başladı, çünki ABŞ hökuməti BMT-də istənilən dəstəyi qazanmadı. Digər tərəfdən, İraq müharibəsi bataqlığına düşən C.Buş administrasiyası Suriya məsələsinə diqqəti zəiflətmiş oldu. Tehranın nüvə silahı istehsal etmək imkanında olduğunu bəyan etdikdən sonra ABŞ diqqətini daha çox bu məsələyə yönəltdi. Yaranmış vəziyyətdən istifadə edən B.Əsəd yenidən Lübnan hadisələrinə müdaxiləni genişləndirdi və ABŞ-ın regional maraqlarına qarşı durmağa başladı. Daxili siyasətdə B.Əsədin hakimiyyətinə təhlükə yarada bilən maneələr aradan götürüldü, 2005-ci ilin yayında onun köhnə rəqibi, ölkənin vitse-prezidenti Əbdül Həlim Həddam istefa verərək mühacirətə getməyə məcbur oldu. Ə.H.Həddamın mühacirətdəki müxalifəti birləşdirmək cəhdləri ilk vaxtlar lazımi nəticə vermədi.

ABŞ-ın yürütdüyü Suriyanı təcrid etmə siyasəti 2007-2008-ci illərdən etibarən zəifləməyə başladı. ABŞ Konqresinin nümayəndələri və Avropa diplomatları mütəmadi olaraq Diməşqə gəlir və prezidentlə danışıqlar aparırdılar. Suriya da öz növbəsində C.Buş administrasiyasının təşkil etdiyi və

2007-ci ilin sonunda ABŞ-da keçirilən Annapolis konfransına öz nümayəndələrini göndərməklə Yaxın Doğuda sülh danışıqlarına başlamaq niyyətini nümayiş etdirdi. Təzyiqlərin C.Buş hökumətinin son illərində də zəifləmiş şəkildə davam etməsinə baxmayaraq, B.Əsəd 2008-ci ilin iyulunda Fransa prezidenti N.Sarkozi tərəfindən Aralıq dənizi dövlətlərinin görüşündə əməkdaşlıq haqqında iqtisadi müqavilənin müzakirəsinə dəvət olundu. İsrailin baş naziri E.Olmertin iştirak etdiyi bu görüşdə Türkiyənin vasitəçiliyi ilə İsrail və Suriya arasında, birbaşa da olmasa, sülh haqqında danışıqlar başlanıldı. Həmin ilin dekabrında danışıqların dayandırılmasına baxmayaraq, İsrail dialoqun davam etdirilməsinə hazır olduğunu bəyan etdirdi.

XXI əsrin əvvəlləri üçün Suriyanın xarici siyasətində ərəb həmrəyliyinə sədaqət, Rusiya, ABŞ və İsraillə münasibətlər başlıca istiqamətlər olaraq qalırdı. Xarici siyasətdə Rusiyaya strateji tərəfdaş, ABŞ və İsrailə isə başlıca rəqib –düşmən kimi baxılırdı. Təsadüfi deyildi ki, Suriya ABŞ-ın terrorizmi dəstəkləyən ölkələr siyahısında ilk yerlərdən birini tuturdu.

Elə bu səbəblərdən idi ki, B.Əsədin 2005-ci ilin yanvarında Moskvaya səfəri çox uğurlu olmuşdu. Səfər zamanı Rusiya Suriyanın 13,4 milyard dollarlıq borcunun 73%-nı ləğv etdi.. Qalan məbləğ (3,618 milyard dollar) hissələrlə ödənilməli, on il müddətində 1,5 milyard dollara endirilməli idi. Bunun ardınca rus neft şirkətləri Suriyada fəaliyyətini genişləndirmiş və bir sıra neft-qaz layihələrini həyata keçirməyə başlamışdılar.

B.Əsədin Moskva səfəri dövründə mətbuatda Rusiyanın Suriyaya taktiki raket komplekslərini satmaq niyyəti haqqında məlumatlar yer aldı. Həmin silahın Suriyaya satılması ehtimalı haqqında məlumatlar Rusiyanın İsraillə münasibətlərini gərginləşdirdi, ABŞ da öz narazılığını bildirdi. B.Əsəd isə vurğulayırdı ki, Moskva səfərində ancaq hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Həmin ərəfədə Suriyanın xarici siyasət kursunda baş verən ən mühüm hadisələrdən biri 2005-ci ilin martında B.Əsədin Lübnandan 16 minlik hərbi kontingentin çıxarılmasına qərar verməsidir. 2006-ci ilin əvvəlində isə mühacirətdə yaşayan Ə.H.Həddamın bəyanatında da məhz B.Əsədin R.Həririnin öldürülməsi haqqında əmr verdiyi iddia edilirdi. Bunun ardınca yayda İsrail-Lübnan münaqişəsi başlandıqda, İsraili terrorçu dövlət adlandıran Suriya hətta istefada olan hərbçilərin səfərbərliyinin elan etdi. İsrail təyyarələri Suriya sərhədləri yaxınlığında olan Lübnan torpaqlarını bombalayır və buradakı Hizbullah dəstələrinə silah və sursatın gətirilməsinə mane

olurdu. Suriya da öz növbəsində İsrailin kəşfiyyat təyyarələrini atəşə tutsa da, açıq müharibə elan etmədi. Colan təpəliklərini qaytarmaq niyyətində olan B.Əsədin bu münaqişəyə girməkdən imtina etməsi regionda yeni müharibə ocağının yaranmasına imkan vermədi.

B.Əsəd 2007-ci il mayın 10-da prezident seçkiləri zamanı yeganə namizəd kimi parlament tərəfindən dəstəkləndi və seçicilərin 97% -dən çox səsini yığdı.

2008-2010-ci illərdə Suriya və İsrail sülh danışıqlarını yenidən başlamağa cəhd etdilər. Türkiyənin vasitəçiliyi nəticəsində Suriya işğal olunmuş ərazilərlə bağlı tələblərini də bir qədər yumşaltdı. Lakin İsrailin Suriyadan İranla hərbi münasibətlərin kəsilməsini tələb etməsi və Qəzza zolağında əməliyyatlar aparması nəticəsində danışıqlar pozuldu. İki ölkə arasında birbaşa danışıqların yenidən başlanmasına B.Əsəd ancaq 2011-ci ilin fevralında razılıq verdi.

Dünya iqtisadi böhranı nəticəsində sosial-iqtisadi vəziyyətin pisləşməsi Yaxın Doğuda da böhranlı vəziyyət yaratdı. Belə ki, 2011-ci ilin yanvar-fevral aylarında Yaxın Doğu və Quzey Afrikanın ərəb ölkələrində iri miqyaslı etiraz aksiyaları başlandı. Nəticədə Tunis prezidenti Zin əl-Əbidin Əli, Misir prezidenti H.Mübarək istefaya getdilər. Libiya lideri Müəmmar Qəzzafiyə qarşı genişlənən etirazlar ölkənin işlərinə BMT-nin qarışması ilə nəticələndi. 2011-ci ilin yanvarında Suriyada da nümayişlər başladı, irəli sürülən başlıca tələblər ölkədə 48 ildən çox davam edən fövqəladə vəziyyətin aradan qaldırılması və siyasi islahatların keçirilməsi idi. Mart ayından etibarən nümayişlər polislə qarşıdurmaların yaranmasına gətirib çıxartdı. İlk olaraq Dəraa şəhərində toqquşmalar nəticəsində 100-ə qədər adam həlak oldu. Suriya hökuməti köklü siyasi islahatlar, əhalinin həyat səviyyəsinin artırılmasına yönəldilmiş dəyişikliklər, korrupsiya ilə mübarizə və siyasi sistemin liberallaşması kimi vədlər verdi, Bəəs partiyasının aparıcı rolunu təsbit edən Konstitusiya bəndi ləğv edildi, 1963-cü ildən mövcud olan fövqəladə vəziyyətə son qoyuldu. Prezidentin yaxın adamlarından M.Obari istefaya göndərildi. Yeni hökumət formalaşdırıldı. Lakin bütün bunlara baxmayaraq etirazlar davam edirdi.

Hakimiyyətlə müxalifət qüvvələri arasında qarşıdurmanın dərinləşməsi və hakimiyyətin narazılığı yatırmaq üçün ordudan istifadəni genişləndirməsi həm ərəb ölkələrinin, həm də dünya birliyinin tənqidi ilə qarşılandı. Hələ 2011-ci ilin noyabrında Ərəb Dövlətləri Liqası Suriyanın təşkilatda

üzvlüyünü dondurdu və bir neçə gün ərzində ölkədə barışıq yaradaraq Liqanın və BMT müşahidəçilərinin ölkəyə buraxılmasını tələb etdi.

Ölkədə yaranmış gərginlik, ordunun hadisələrə müdaxiləsi, hər iki tərəfin böyük itkilər verməsi və günahsız qanlar tökülməsi qonşu dövlətlərlə, ABŞ və Avropada ciddi narahatlıq yaratdı. Mövcud problemin həlli yolunda müəyyən cəhdlər göstərildi. 2012-ci ilin fevralında Fransanın keçmiş prezidenti N.Sarkozünin təşəbbüsü ilə "Suriya xalqının dostları" adlı qrup yaradıldı. Ayın 24-də bu qrupun Tunisdə keçirilən ilk toplantısında dünyanın 70 ölkəsindən təmsilçilər iştirak etdi. Qeyd edək ki, Suriyada cərəyan edən prosesin gedişində həmişə B.Əsədin arxasında duran, ona hər cür mənəvi, maddi və hərbi yardım edən Rusiya həmin qrupa qoşulmadı və onu qeyri-legitim saydı. Yeri gəlmişkən onu da əlavə edək ki, Suriya ilə bağlı bütün hallarda BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin, eləcə də İran Rusiya ilə bir sırada B.Əsəd rejimini müdafiə etmişlər. Xüsusilə də İran Suriya iqtidarına açıq-aşkar şəkildə istənilən yardım göstərməkdən çəkinməmişdir.

Suriyanın vəziyyəti BMT və Ərəb Dövlətləri Liqasının gündəmində ciddi yer tutan məsələ oldu. Vəziyyətlə yerində tanış olmaq üçün BMT və Liqanın nümayəndələri Kofi Annan və sonra isə Lahdar İbrahimi (Əlcəzairin keçmiş xarici işlər naziri - müəl.) Suriyaya gəldilər, B.Əsəd və digər dövlət adamları ilə danışıqlara başladılar. Eyni zamanda ölkəyə beynəlxalq müşahidəçilər heyəti də göndərildi. Lakin onların səyləri heç bir nəticə vermədi. Aprel ayında beynəlxalq müşahidəçilər heyəti ölkəni tərk etdi və onu koordinasiya bürosu adlı qurum əvəzlədi.

Yaranmış vəziyyətdə may ayının birinci yarısında ABŞ və AB Suriyaya qarşı yeni sanksiyalar tətbiq etdi. Silah ixracına qadağa qoyuldu, ölkə məmurlarının bank hesabları donduruldu və onların xarici səfərləri yasaqlandı. B.Əsəddən hakimiyyətdən çəkilməsi tələbi beynəlxalq müzakirələrin gündəmində başlıca mövzu oldu. Onu da qeyd edək ki, beynəlxalq rəyin döyüşən etirazçıları dəstəkləməsi ölkədaxili və xarici siyasi müxalifəti hərəkətə gətirdi və fəallaşdırdı. Onların bir araya gəlməsi və birgə qərarlar qəbul etməsi ənənəsi gücləndi. Siyasi müxalifət B.Əsədin istefa verməsi və ölkənin gələcək statusunun müəyyənləşdirilməsi məqsədilə müzakirələrə başladı, hətta keçid dövrü hökuməti formalaşdırıb öz fəaliyyətini ölkə daxilinə – azad olunmuş əraziyə keçirməyə qərar verdi.

Siyasi gərginliyin getdikcə güclənməsi hakimiyyəti daha da ciddi güzəştlərə getməyə vadar etdi. 2012-ci ilin avqustunda B.Əsəd ölkədə çoxpartiyalı

sistem haqqında fərman imzalamağa məcbur oldu. Ancaq onun digər fərmanları kimi bu sənəd də gecikmiş idi və etirazlar davam etdi. Ölkə getdikcə güclənən və genişlənən silahlı toqquşmalar və hərbi əməliyyatlar dövrünə girdi. Faktik olaraq Suriyanın bütün bölgələrini ehtiva edən vətəndaş savaşında həlak olanların, yurd-yuvalarını tərk edərək qonşu Lübnan, Urdun, hətta İraq kimi digər ərəb ölkələrinə, Türkiyəyə və Avropaya qaçanların sayı sürətlə artdı. Şəhərlər, kəndlər və digər yaşayış məntəqələri bombardmanlara və top atəşlərinə məruz qaldı, dağılaraq xarabalıqlara çevrildi. Maddi-mədəni abidələr yerlə yeksan edildi. Ölkəyə dəyən zərərlər mislibərabəri olmayan həddə yüksəldi. Ümumiyyətlə, hərbi əməliyyatların davam etdiyi iki il ərzində BMT-nin rəsmi məlumatlarına görə həlak olan hərbi və mülki vətəndaşların sayı 100 min nəfər civarındadır və artmaqla davam edir, qaçqınların sayı isə 2 mln nəfərə çatmışdır.

Elə bu səbəbdən idi ki, 2012-ci ilin sentyabrında Böyük Britaniya və Fransa ABŞ-ın dəstəyilə BMT TŞ-na Suriyaya qarşı yeni sanksiyalar haqqında qətnamə layihəsini təqdim etdilər. Lakin Çin və Rusiyanın əks mövqeyi üzündən sənəd müzakirəyə çıxarılmadı. Halbuki, həmin dövrdə Suriya böhranı gündən-günə daha da dərinləşməkdə idi. 2013-cü ilin başlanğıcından keçən müddətdə isə BMT, ABŞ, Avropanın əksər ölkələri, Türkiyə, Səudi Ərəbistan başda olmaqla qonşu ərəb dövlətləri Suriyaya olan diqqətlərini xeyli artırdılar. Humanitar və maliyyə yardımlarının sayı və həcmi çoxaldı. 2013-cü ilin 7-8 mayda ABŞ Dövlət katibi C.Kerrinin Moskvada Rusiya prezidenti V.Putin və xarici işlər naziri S.Lavrovla, ayın 10-da Böyük Britaniyanın Baş naziri D.Kemeronun Soçidə prezident V.Putinlə görüşlərində Suriya böhranını Cenevrə beynəlxalq konfransında müzakirə edilməsi razılaşdırıldı; 15 mayda Türkiyənin Baş naziri R.T.Ərdoğanın ABŞ prezidenti B.Obama ilə görüşü zamanı Suriya hadisələri ətrafında geniş fikir mübadiləsi edildi; 22 mayda Urdunun paytaxtı Ammanda "Suriya xalqının dostları" qrupuna daxil olan ölkələrin xarici işlər nazirlərinin toplantısı keçirildi, sonrakı gün İstanbulda Suriya müxalifətinin bütün qruplarının təmsilçiləri keçid hökumətinin təşkili və digər məsələlər ətrafında müzakirələr apardılar.

Fikrimizcə, Suriya ilə bağlı beynəlxalq müstəvidə, eləcə də ölkənin daxilində cərəyan edən proseslər təkcə bu ölkədə deyil, ümumiyyətlə bölgədə əlverişli bir siyasi və iqtisadi durumun və düzənin yaradılmasına gətirə bilər.

## LÜBNAN

Fransanın 1940-cı ilin iyul ayında II Dünya müharibəsində məğlubiyyətindən sonra Lübnan da Suriya kimi hərbi zona elan olundu və orada fövqəladə vəziyyət rejimi tətbiq edildi. Ölkə ərazisi alman-italyan hərbi birləşmələrinin işğalına məruz qaldı. Vişi hökuməti Almaniyaya oradan öz iqtisadi və strateji maraqları üçün istifadə etməsinə icazə verdi. Bunun ardınca Böyük Britaniya bəyan etdi ki, mandat ərazilərninin düşmən dövlətlər tərəfindən işğalına yol verməyəcəkdir. O, müttəfiqi "Azad Fransa" ilə birlikdə alman-italyan qüvvələrinə qarşı hərbi əməliyyatlara başladı və 1941-ci il iyulun 14-də onları tutduqları torpaqlardan çıxardılar. Elə həmin vaxtdan da bölgə uğrunda müttəfiqlər arasında rəqabət kəskin xarakter aldı. Bu səbəbdən də "Azad Fransa" rəhbərliyi bölgədə öz yerini və təsirnin qorumaq üçün 1941-ci il sentyabrın 28-də "hərbi zamanın tələbi"nə uyğun məhdudlaşdırmalarla Suriyanın, noyabrın 26-da isə Lübnanın müstəqilliyini elan etdi. Mandat sisteminin tamamilə ləğvi isə tərəflər arasında imzalanacaq yeni müqavilədə nəzərdə tutulurdu.

1943-cü ildə isə Lübnan öz istiqlaliyyətinə qovuşdu. Belə ki, hələ 26 noyabr 1941-ci ildə "Azad Fransa" rəhbərliyi bu ölkəyə istiqlaliyyət versə də, mandatlıq sistemi saxlanılırdı. Milliyətçi siyasi qüvvələr vəziyyətin belə davam etməsindən narazı idilər və Lübnanın tam istiqlaliyyətinə nail olmaq istəyirdilər. Bu baxımdan 1936-cı ildə yaradılmış və özündə xritsianları birləşdirən hərbiləşmiş "əl-Kataib əl-Lübnaniyə" (Lübnan falanqaçıları) partiyasında (lideri Pyer Cimayil idi - müəl.), elə həmin ərəfədə ərəb milliyətçiliyi və birliyi ideyaları zəminində yaranmış Bəəs partiyasında (liderləri M.Əflak və S.Bitar idilər - müəl.) birləşən qüvvələrin və digər milliyətçi təşkilatların fəallaşmasını xüsusi ilə qeyd etmək lazımdır. Odur ki, "Azad Fransa" irəliyə doğru bir mühüm addım da atdı və 1943-cü ilin mayında bir qədər əvvəl fəaliyyəti dayandırılmış konstitusiyanın bərpa edilməsinə və parlament seçkiləri keçirilməsinə razılıq verdi. Eyni zamanda bildirildi ki, mandatlıq 1944-cü il yanvarın 1-dən etibarən aradan qaldırılacaqdır. Avqustda keçirilən parlament seçkilərində Bəşar əl-Hurinin liderliyi ilə yaranmış Konstitusiya Bloku qalib gəldi. Bu blok əsasən xristianları birləşdirirdi və lideri Riad Sülh olan müsəlman siyasi təşkilatları ilə birlikdə fəaliyyət göstərirdi. Sentyabrda Bəşar əl-Huri prezident seçildi, Riad Sülh isə baş nazir oldu və noyabrın 22-də Lübnan parlamenti binası üzərində ölkənin milli

bayrağı dalğalanmağa başladı. Həmin ilin ən mühüm hadisəsi isə ölkə əhalisinin böyük hissəsini təşkil edən xristian və müsəlmanların təmsilçiləri Bəşar əl-Huri və Riad Sülh arasında yazılmamış Milli Pakt haqqında razılığa gəlinməsi oldu. Milli Pakt ölkənin dövlət quruluşu və beynəlxalq statusunun əsas prinsiplərini ehtiva edir və aşağıdakıları nəzərdə tuturdu: birincisi, Lübnan tamamilə müstəqil və suveren dövlət olmalıdır. Xristianlar xarici bir hami axtarmamalı, yaxud ölkədə xarici təsirin yaranmasına çalışmamalıdırlar. Müsəlmanlar da Lübnanın Suriya və ya başqa bir ərəb dövləti ilə birləşməsinə cəhd göstərməməlidirlər; ikincisi, Lübnan ərəb dövlətidir və ərəb dünyasının özəl xarakteri olan bir parçasıdır. Bununla yanaşı Lübnan Batı ilə əlaqələrini kəsməyəcəkdir; üçüncüsü, əgər ərəb dövlətləri Lübnanın müstəqilliyini və mövcud sərhədlər daxilində süverenliyini tanısalar, o, bütün ərəb ölkələri ilə əməkdaşlıq edəcək və ərəb birliyinin üzvu olacaqdır. Həm də bu zaman Lübnan ərəb dövlətlərinin müxtəlif qruplaşmalarına qoşulmayacaq, onlardan birinin digərinə qarşı olmasını dəstəkləməyəcəkdir; dördüncüsü, dövlət vəzifələri ədalətli şəkildə dini icmalar arasında bölüşdürüləcək, lakin bu zaman dini etiqadından asılı olmayaraq şəxslərin iş qabiliyyətinə üstünlük veriləcəkdir. Üç başlıca dövlət vəzifəsinə təyinat bu qaydada olacaqdır: prezidentliyi xristian-maroni, baş nazir vəzifəsini müsəlman - sünni, parlamentin sədrliyini - müsəlman - şiə tutmalıdır.

Dini icma nümayəndələrinin dövlət orqanlarında təmsilçiliyi nisbəti 1932-ci ildə fransız mandatlığı hakimiyyətinin keçirdiyi əhalinin siyahıya alınmasının nəticələrinə əsaslanırdı. O zaman Lübnan əhalisinin 30%-i xristian-maroni, 22%-i müsəlman-sünni, 18%-i müsəlman-şiə, 10%-i xristian-provaslav, 6%-i xristian-katolik, 6%-duuz və 8% isə qalanları idi. Parlamentə seçilən hər beş müsəlman deputatın müqabilində altı xristian deputat seçilməli idi.

Ümumiyyətlə, istər Milli Pakt, istərsə də 1943-cü ildə müəyyən əlavələr edilmiş konstitusiya ölkənin idarə olunmasında xristianlara üstünluk verirdi. Məhz bu səbəbdən ölkənin bağımsızlığından keçən ilk iki onillikdə Bəşar əl-Huri - Riad Sülh razılaşması uğurla tətbiq olunsa da, sonralar əhali nisbətinin müsəlmanların xeyrinə dəyişməsi zəminində o, ciddi narazılıqlar doğurmağa başladı, daxili siyasi böhranın başlıca qaynağına çevrildi.

Hər bir halda bu razılaşmanın Lübnanın istiqlaliyyətini və suverenliyini möhkəmləndirmək və qoruyub saxlamaq baxımından əhəmiyyətinin böyüklüyü danılmazdır. İlk milli hökumət məhz həmin razılaşmanın prinsipləri

əsasında fəaliyyət göstərməyə başladı, ölkənin tam istiqlaliyyəti üçün lazım olan hər şeyi etməkdə qərarlı oldu. Bu baxımdan ilk öncə fransız-ingilis hərbi qüvvələrinin ölkədən çıxarılmasına toxunmaq istərdik. Belə ki, 1944-cü ildə çıxmalı olan xarici qüvvələr hələ sonrakı ildə də Lübnanda qalırdılar. Bu isə ölkə ictimaiyyətinin ciddi narazılığına səbəb olurdu. Bu azmış kimi, 1945-ci ilin may-iyun aylarında Fransa Lübnanda öz strateji, iqtisadi və mədəni mövqelərini saxlamaq üçün buraya əlavə hərbi qüvvələr göndərdi. Həmin hadisə Lübnan əhalisinin açıq etiraz çıxışları ilə qarşılandı. Sentyabrda Böyük Britaniya və Fransa öz hərbi qüvvələrini ölkədən çıxarmağa razılaşdılar. Həmin dövrdə məsələyə beynəlxalq qüvvələr də biganə qalmadılar və nəhayət, BMT Təhlükəsizlik Şurası 1946-cı ilin fevralında xarici hərbi qüvvələrin Lübnanda qalmasını dəstəkləmədi. 1946-cı il dekabrın 31-də sonuncu xarici əsgər ölkəni tərk etdi.

Daxili siyasi həyatda bir sıra demokratik tədbirlər görüldü. Mətbuat, toplantı və siyasi fəaliyyət azadlığı bərqərar edildi. Həmkarlar təşkilatlarının geniş şəbəkəsi yaradıldı. 1946-cı ildə əmək haqqında qanun qəbul edildi. Lübnan "azad iqtisadiyyat" ölkəsi elan olundu. Batı ölkələri ilə iqtisadi əlaqələrin genişləndirilməsinə önəm verildi. Bununla yanaşı, milli sənayenin müxtəlif sahələrinin yaradılması yönümündə müəyyən tədbirlər görüldü, fransız və Fransa-Belçika kapitalına məxsus dəmir yolları, elektrostansiyalar, tramvay xətləri dəyəri ödənilməklə milliləşdirildi, bəzi banklara qismən nəzarət qoyuldu. 1947-ci il parlament seçkilərində əl-Huri-Sülh tərəfdarlarının qalib gəlməsi növbəti müddət üçün bu birliyin hakimiyyətini təmin etdi.

Əl-Huri-Sülh iqtidarı xarici siyasət sahəsində bir sıra uğurlar əldə etdi. Lübnanın istiqlaliyyətini bütün ərəb ölkələri, o cümlədən Suriya tanıdı. Lakin Suriya Lübnanla "xüsusi münasibətlər"in mövcudluğu səbəbindən diplomatik əlaqələr qurmadı. Lübnan Ərəb Dövlətləri Liqasının üzvu oldu və həmin təşkilatın ümumi siyasətinə uyğun olaraq 1948-ci il Ərəb-İsrail savaşında iştirak etdi. Digər ərəb dövlətləri kimi 1949-cu ildə Lübnan da İsraillə barışıq sazişi bağladı. Doğrudur, savaş nəticəsində Lübnanın suverenliyinə heç bir xətər toxunmadı, lakin yüz min civarında fələstinli bu ölkəyə qaçdı.

Fransa ilə normal əlaqələr yarandı. 1947-ci ildə Fransa Lübnana ordunun ehtiyac duyduğu texnika və digər ləvazimatlar verdi. O, 1948-ci ildə Lübnanın elan etdiyi azad valyuta ticarəti kursunu dəstəklədi. Qeyd

edək ki, bu yaxınlaşma Suriya tərəfindən narazılıqla qarşılandı və o, 1950-ci ildə Lübnanla iqtisadi və gömrük birliyini pozdu.

Lübnanın Böyük Britaniya ilə münasibətləri də genişləndi. Ölkənin xarici ticarətində Böyük Britaniya birinci yeri tuturdu. Böyük Britaniyanın təsiri ilə 1946-cı ildən Lübnan -Türkiyə siyasi münasibətlərində bir yaxınlaşma başladı. 40-cı illərin sonundan isə ABŞ-ın mövqeyi artmağa başladı. 1948-ci ildə Lübnan ərazisindən neft kəmərinin keçməsi haqqında ARAMKO ilə sazişin imzalanması, Saydada ABŞ-ın köməyi ilə neft ötürmə zavodunun inşası, 1951-ci ildə "Trumen doktrina"sının 4-cü bəndinin Lübnana şamil edilməsi haqqında ABŞ-la müqavilənin imzalanması və həmin ildə Beyrutda ABŞ tərəfindən bütün Yaxın Doğuda ən böyük aeroportun inşa edilməsi ölkənin iqtisadi həyatı baxımından önəm daşıyan hadisələr idi. 1951-ci ildə Beyrut limanında "azad ticarət" zonasının genişləndirilməsi və xarici tranzit ticarətinə əlverişli şərait yaradılmasını da qeyd etmək lazımdır.

Ancaq bütün bunlar azad bazar münasibətlərinin inkişafı zəminində cəmiyyətdə iqtisadi qütbləşmənin böyüməsi, dövlət aparatında korrupsiya və ailə klanı ənənələrinin yer alması, bir sıra sosial və siyasi qüvvələrin narazılığının güclənməsi və onların açıq etiraz hərəkətləri ilə müşayət olunurdu. Bu baxımdan Suriya Kommunist Partiyası və SSRİ-nin dostları cəmiyyəti xüsusi ilə fərqlənirdi. İş o yerə çatdı ki, hökumət 1948-ci ilin yanvarında hər iki təşkilatın fəaliyyətinə qadağa qoydu.

1949-cu ildə yaranan Mütərəqqi Sosialist Partiyası (istiqlal hərəkatının tanınmış şəxslərindən olan və druz icmasının lideri Kamal Cumbulat başçılıq edirdi-müəl.) daha kəskin şüarlarla çıxış edir və ölkənin sosial-siyasi həyatında islahatlar keçirilməsi tələbini irəli sürürdü. "Kataib", Milli Blok və prezidentin partiyasından ayrılan və maroni liderlərindən Kamil Şamunun başçılıq etdiyi sağçı xristian qüvvələri də əl-Huri-Sülh iqtidarından getdikcə daha çox narazı qalırdılar. Bu baxımdan 1949-cu ilin ən böyük hadisəsi Suriya Milli Sosialist Partiyasının (SMSP) dövlət çevrilişi cəhdinin üstünün açılması sayılmalıdır. Partiya qadağan edildi və onun lideri Antuan Saadə isə edam olundu. Bunun cavabında SMSP üzvlərindən biri 1951-ci ildə baş nazir R.Sülhü öldürdü.

1951-ci ilin parlament seçkilərindən sonra müxalifətin mövqeyi daha da möhkəmləndi. Onlar prezidentə qarşı mübarizədə Milli Sosialist Cəbhəsində birləşdilər və islahatlar proqramı irəli sürdülər. Proqram seçki qanunu-

nun dəyişdirilməsi, dövlət aparatının tənzimlənməsi, ərəb ölkələri ilə əlaqələrin daha möhkəmləndirilməsi və s. ehtiva edirdi.

Nəhayət, iş o yerə çatdı ki, 1952-ci il sentyabrın 9-da baş nazir Sami Sülh özü parlamentdə prezidentə qarşı ciddi ittihamlarla çıxış etdi. Bu, Beyrutda və ölkənin müxtəlif şəhərlərində kütləvi etiraz aksiyalarının başlanması üçün siqnal oldu. Ordu rəhbərliyi də Bəşar əl-Hurini dəstəkləməkdən imtina etdikdə, o, sentyabrın 18-də istefa verdi. Yeni prezident isə müxalifətin lideri Kamil Şamun seçildi.

Hakimiyyətə gələrkən müxalifətin islahatlar proqramını yerinə yetirəcəyinə yazılı söz verən prezident K.Şamun az keçmədi ki, hər şeyi unutdu. Yeganə görülən tədbir seçki qanununun dəyişdirilməsi oldu ki, o da mahiyyəti baxımından parlamentdə öz tərəfdarlarının çoxluğuna nail olmaq məqsədi güdürdü. Hər şey, demək olar ki, köhnədə olduğu kimi qaldı.

Ərəb ölkələri ilə daha çox yaxınlaşma heç də Lübnanın Batı dövlətləri ilə əlaqələrinin məhdudlaşdırılmasına gətirmədi. Əksinə, onların, ilk növbədə Böyük Britaniya və ABŞ-ın Lübnan ilə münasibətləri daha geniş və daha çoxşaxəli xarakter aldı.

1954-cu ildə iri milli və xarici şirkətlər 6 il müddətində vergilərdən azad edildi. Bank əməliyyatları və əmanətlərini gizli saxlamaq haqqında qanun verildi. Xarici kapitalın ölkəyə gəlməsi üçün hər cür şərait yaradıldı. Hökumət liberal iqtisadiyyatın inkişafı üçün tam qərarlı oldu.

Bu kurs Batı dövlətləri tərəfindən hər cür texniki və maliyyə dəstəyi qazandı. Böyük Britaniya, ABŞ və Fransa şirkətləri iqtisadiyyatın müxtəlif sahələrinə, yeni infrastrukturların yaranmasına investisiya qoyuluşunu gücləndirdi. 1955-ci ildə ölkəyə gələn təkcə ABŞ özəl kapitalı 45 mln dollar məbləğində idi və bu rəqəm Lübnanın milli müəssisələrinə qoyulan kapitaldan iki dəfə artıq idi. 1956-cı ildə Lübnanda 88 ABŞ şirkətinin təmsilçiliyi və üç böyük bankın filialı fəaliyyət göstərir, 5 min nəfərə yaxın amerikalı yaşayırdı. 1950-1957-ci illərdə "Trumen doktrinası"nın 4-cü bəndi üzrə Lübnana 35 mln dollarlıq kömək daxil oldu.

Lübnan Batı dövlətləri ilə siyasi əlaqələrini də nəinki xeyli möhkəmləndirirdi, həm də ərəb dövlətlərini də buna dəvət edirdi. Prezident K. Şamunun Səudi Ərəbistan, Misir, İraq, Suriya və Urdun səfərləri zamanı çıxışlarında həmin məsələyə önəm verməsini xüsusi ilə qeyd etmək lazımdır.

Digər ərəb dövlətlərindən fərqli olaraq Lübnan Bağdad Paktının yaranmasına müsbət yanaşır, Türkiyə ilə münasibətlərinin yaxşılaşmasına

maraq göstərirdi. K.Şamun və Türkiyə prezidenti C.Bayarın qarşılıqlı səfərləri məhz həmin istəkdən irəli gəlmişdi. 1955-ci ildə Bandunq konfransında Lübnan Bağdad Paktının üzvləri olan Türkiyə və İraqla bir sırada durdu, onların antikommunist ovqatına dəstək verdi.

1956-cı ilin payızında ingilis, fransız və İsrailin hərbi qüvvələrinin Misirə girməsi zamanı da Lübnanın reaksiyası sakit oldu. Deməliyik ki, bu hadisə prezident K.Şamun və onun ətrafı arasında narazılıq yaratdı, hətta Fransa və Böyük Britaniya ilə diplomatik münasibətləri kəsməyə çağıran baş nazir Abdullah əl-Yafi istefaya göndərildi. Sami Sülh yenidən baş nazir oldu.

Həmin hadisədən sonra Lübnan açıq şəkildə ABŞ-la müttəfiqlik kursu götürdü, 1957-ci ilin martında Lübnan "Eyzenhauer doktrinası"na qoşulan ilk ərəb dövləti oldu. Elə həmin ildə Lübnana silah və hərbi sursat verilməsi barədə ABŞ-la saziş imzalandı.

Təbiidir ki, bu zəmində Sovet İttifaqı və sosialist cəbhəsi ölkələri ilə əlaqələrin miqyası xeyli daralırdı. Ölkədəki sol qüvvələr Şamun-Sülh iqtidarının belə kəskin kurs götürməsindən daha çox narazı qalır və bir müxalifət olaraq öz təsir və təzyiq metodlarını artırırdılar. 1957-ci il seçkilərində K.Şamun - S.Sülh tərəfdarlarının qələbəsi, solçu və digər müxalifət qüvvələrinin birləşdiyi Milli Cəbhə namizədlərinin parlametə düşə bilməməsi ehtirasları daha da qızışdırdı. Keçmiş prezident Bəşar əl-Huri də müxalifətçilərə qoşuldu, mövcud iqtidarın siyasətini pislədi. Müxalifət mitinq və toplantılar kampaniyasına başladı və K.Şamun -S.Sülh iqtidarını Milli Paktı və tərəfsizlik siyasətini pozmaqda, ölkəni ABŞ-ın əlaltısına çevirməkdə, antimilli siyasət yürütməkdə ittiham etdi.

1958-ci il mayın 7-də Beyrutda "Teleqraf" qəzetinin sahibi və K.Şamun-S.Sülh hakimiyyətinin qatı əlehdarlarından jurnalist Nəsib Mətninin öldürülməsi isə Lübnanda qanlı hadisələrin baş verməsi üçün bir bəhanə oldu. Müxalifətin çağırışı ilə başlayan ümumi tətil hərəkatı az keçməmiş bütün ölkəni bürüyən silahlı üsyana çevrildi. Bu işdə xarici qüvvələrin əli də olmamış deyildi. Hər bir halda prezident K.Şamunun Birləşmiş Ərəb Respublikasını Lübnanın daxili işlərinə qarışmaqda ittiham etməsi təsadüfi ola bilməzdi.

Gündən-günə artmaqda olan müqavimət hərəkatını yatırmaqda aciz qalan K.Şamun kömək üçün ABŞ-a müraciət etdi. Həmin arada 1958-ci il iyulun 14-də İraqda çevriliş baş verməsi isə regionda vəziyyəti xeyli mürək-

kəbləşdirdi. Bu zəmində ABŞ Lübnanın müraciətinə müsbət yanaşdı və Beyruta hərbi qüvvə çıxardı.

Ölkədə siyasi durumun gərginləşməsi səbəbindən prezident K.Şamun ikinci müddətə seçilməkdən çəkindi və 1958-ci ilin sentyabrında general Fuad Şəhab prezident seçildi. O, qarşıdurmalar dövründə prezidenti müdafiə etməmişdi və buna görə da müxalifətin böyük rəğbətini qazanmışdı. Baş nazir isə Rəşid Kəramə oldu. Seçkilərdən bir ay sonra ABŞ hərbçiləri Lübnandan çıxdılar.

1958-ci il hadisələri Lübnanın istər siyasi, istərsə də sosial-iqtisadi strukturuna heç bir dəyişiklik gətirmədi. Çünki, Şamun-Sülh hakimyyətinə qarşı olan qüvvələr eyni sosial və siyasi təbəqənin az fərqli görüşlü təmsilçiləri idi. Sadəcə onların sırasında müsəlman icmasının nümayəndələri sayca çox idilər. Məhz həmin səbəbdən Şəhab-Kərəmə hakimiyyətinin əsas mübarizə hədəfi keçmiş iqtidarın tərəfdarlarına qarşı mübarizədən o yana keçmədi. İkinci müşahidə olunan hal isə konfessional sistemlə bağlı idi. Bu isə faktik olaraq hakimiyyət daxili ziddiyyətlərə rəvac verirdi. Təsadüfi deyildir ki, onların birləşdiyi Milli Cəbhə Şamun -Sülh hakimiyyətinin devrilməsindən az sonra parçalandı.

Diqqəti cəlb edən başlıca dəyişiklik isə Lübnanın hansı Batı dövləti ilə əməkdaşlığının artması ilə bağlı oldu. Bunun ilk əlaməti hökumətin artıq özünu "Eyzenhauer doktrinası" ilə bağlı olmadığını və tərəfsizlik siyasətinə sədaqətini bildirməsi idi.

1960-cı il seçkilərində Şəhab-Kərəmə tərəfdarlarının qalib gəlməsindən sonra yeni hakimiyyətin dayaqları xeyli qüvvətləndi. Ərəb dövlətləri, o cümlədən BƏR ilə əməkdaşlığın genişlənməsinə, gənc Afrika dövlətlərinin istiqlal niyyətinin dəstəklənməsinə, sosialist cəbhəsi ilə yaxınlaşmaya önəm verildi. 1963-cü ildə Sovet İttifaqı ilə ticarətin inkişafı haqqında saziş imzalandı.

1964-cü ildə Bloklara qoşulmayan ölkələrin Qahirə konfransında Lübnan nümayəndəsi mübahisəli məsələlərin sülh yolu ilə həllinin tərəfdarı kimi çıxış etdi. Yenə həmin ildə İskəndəriyyədə keçirilən Ərəb Dövlətlərinin zirvə toplantısında Lübnan rəsmi şəkildə bildirdi ki, bu cür konfransların qəbul edəcəyi bütün qərarları yerinə yetirəcək, o cümlədən İsrailin Urdun çayının sularından istifadə cəhdlərinə qarşı mübarizədə iştirak edəcəkdir.

Qeyd edək ki, 1964-cü ildə prezident postunun Şarl Heluya keçməsindən sonra da ölkənin xarici siyasət kursu dəyişməz qaldı. Lübnan 1965-ci

ilin yazında İsraillə diplomatik əlaqələr quran Almaniya Federativ Respublikası ilə diplomatik münasibətləri kəsməkdə digər ərəb dövlətləri ilə birgə hərəkət etdi.

İqtisadi siyasətin əsasları olduğu kimi qalırdı. Ölkə Batı və ərəb ölkələri arasında ticarətdə başlıca vasitəçi idi. "Eyzenhauer doktrinası"ndan imtina edilməsi ABŞ-la siyasi münasibətlərdə bəzi mübahisəli məqamlar yaratsa da, bu, iqtisadi əməkdaşlığa xələl gətirmədi. Ölkədə ABŞ-la yanaşı Böyük Britaniya və AFR kapitalının yeri və çəkisi böyüyürdü. Lübnanda həmin dövlətlərə məxsus əlli bank fəaliyyət göstərirdi. Tranzit ticarəti, vasitəçilik və bank əməliyyatlarından əldə olunan vəsaitlər milli gəlirin 70%-ni təşkil edirdi.

Bu cür halın pozitiv tərəfi ilə yanaşı neqativ tərəfi də yox deyildi. Belə ki, 1966-cı ilin payızında yerli "İntra" bankının müflisləşməsi ölkədə böyük siyasi çaxnaşma yaratdı. Doğrudur, R.Kərami hökuməti böhrandan çıxa bildi. Lakin 1967-ci ilin iyununda baş verən növbəti Ərəb-İsrail savaşı nəticəsində ölkədə siyasi şərait dəyişdi. Belə ki, ərəblərin bu dəfə də acınacaqlı məğlubiyyəti bir tərəfdən "Kataib", Milli Liberal Partiya və Milli Blok liderlərinə əsas verdi ki, Misir və Suriyanın tutduğu yolun perespektivsizliyini daha açıq şəkildə dilə gətirsinlər və Lübnanın o yoldan çəkinməsini tələb etsinlər, onun tamamilə ərəb yönümlu kursa qayıtmasına çalışsınlar.

Digər tərəfdən isə həmin vaxtdan Lübnan Fələstin Müqavimət Hərəkatının (FMH) başlıca fəaliyyət mərkəzlərindən birinə çevrildi. Ölkədə kifayət qədər fələstinli qaçqının yaşadığını nəzərə alsaq, bu təşkilatın Lübnanın dövlət həyatına güclü təsirini təsəvvür etmək olar. Xüsusilə də Yaxın Doğu probleminin bütün nəticələrini Batı dövlətlərinin adı ilə bağlayan FMH antibatı kursu və İsrailə qarşı mübarizədə ümumi ərəb birliyinə bağlılığı sağ xristian partiyalarının istəyinə tamam zidd gəlirdi. Həm də FMH-in bu xətti sosial vəziyyəti gündən-günə ağırlaşan və mövcud iqtidardan narazı qüvvələr, əsasən də müsəlmanlar tərəfindən rəğbətlə qarşılanırdı.

Bir-birinə zidd olan bu iki xəttin mövcudluğu nəticə etibarı ilə qarşıdurmalara gətirdi. "Fələstin terrorçuları" ilə mübarizə bəhanəsi altında İsrail hərbi qüvvələrinin tez-tez Lübnan ərazisində əməliyyatlar keçirməsi isə bu prosesi sürətləndirdi. Artıq müəyyən siyasi qüvvələr FMH-in Lübnanda olmasını ölkədə istiqrarsızlığın başlıca amili kimi dəyərləndirir, antifələstin ovqatı yaradır, hətta hökuməti də buna yönəltməyə çalışırdılar. Cəmiyyət

bu zəmində qütbləşməyə başladı. Liderləri Pyer Cimayil, Kamil Şamun və Raymon Eddə olan "Kataib", Milli-Liberal Partiya və Milli Blok kimi sağ xristian qüvvələri "Hilf" adı ilə Üçlər Blokunu təşkil etdilər. Onlar Batı ilə əlaqələrin inkişafı və möhkəmləndirilməsini istəyir, sol təmayyüllü ərəb ölkələri və FMH ilə əməkdaşlıqdan çəkinməyə cəhd göstərirdilər. Hətta Lübnanın İsveçrə və ya Avstriya tipində "tərəfsizliyi" şüarını meydana atmışdılar. Xristian və müsəlman sağların mötədil islahatlar keçirilməsi və ərəb ölkələrinin maraqlarının nəzərə alınması tərəfdarları isə "Nəhc" adlanan qrupda birləşmişdilər və "Hilf"ə qarşı idilər. Sollar isə bir araya gələ bilməsələr də, qarşılıqlı əlaqələri və əməkdaşlığı artırmışdılar. Onlar Batıya qarşı idilər, ərəb ölkələri ilə hər cür iş birliyinə çalışır və FMH-in tərəfində dururdular. Mütərəqqi Sosialist Partiyasının lideri Kamal Cumbulat bu sahədə xüsusi fəallıq göstərirdi.

1968-ci ilin mart-aprel aylarında keçirilən parlament seçkilərində bu qruplar öz mövqelərini müəyyənləşdirə bildilər. Parlamentdə Üçlər Bloku 28 mandat qazandı (əvvəlki parlamentdə 14 yeri var idi-müəl.), "Nəhc" üstünlüyünü saxlasa da, xeyli yer itirdi. Solların təmsilçiliyi isə az qala rəmzi məna daşıyırdı.

1968-ci il dekabrın 28-də İsrail hərbi hava qüvvələrinin Beyrut aeroportuna hücumu və buradakı 13 təyyarəni məhv etməsindən sonra həmin siyasi qüvvələrin sözdən işə keçməsinin təməli qoyuldu. FMH tərəfdarları və əleyhdarları üz-üzə gəldilər. Antifələstin kampaniyası 1969-cu ilin aprelində Lübnan hərbi qüvvələri ilə FMH dəstələri arasında qanlı toqquşmalarla nəticələndi. Hökumət böhranı oldu və baş nazir R.Kərami istefa verdi. 1969-cu ilin oktyabrında baş verən yeni toqquşmalar isə təkcə Lübnan daxilində deyil, digər ərəb ölkələrində, xüsusilə Misir və Suriyada böyük reaksiya doğurdu. Lübnan hökuməti fələstinlilərlə danışığa getdi. 1969-cu il noyabrın 3-də Qahirədə FAT rəhbərliyi və Lübnan hökuməti arasında saziş imzalandı. Saziş fələstinlilərin Lübnanda statusunu müəyyənləşdirir, Fələstin fədailərinin silah daşımasına icazə verirdi. Ancaq xüsusi qeyd olunurdu ki, fələstinlilərin hərəkatı Lübnanın suverenliyi və təhlükəsizliyinə xətər gətirməməlidir və onlar İsrailə qarşı hər hansı bir aksiyanı Lübnan ordusu ilə razılaşdırmalıdırlar.

Saziş Pyer Cimayil və Kamil Şamun kimi sağ xristianlar tərəfindən narazılıqla qarşılansa da, hökumət böhranını aradan qaldırmağa imkan verdi. 1969-cu ilin dekabrında R.Kəramə "Hilf" və "Nəhc" qruplaşmalarından

ibarət hökumət təşkil etdi və solların təmsilçisi Kamal Cumbulata isə daxili işlər nazirliyini tapşırdı.

Lakin bununla vəziyyət dəyişmədi. 1970-ci ilin martında Beyrutda və digər şəhərlərdə antifələstin çıxışlar oldu. Mayın 12-də isə ölkənin güney rayonlarına İsrailin hücumu ehtirasları daha da qızışdırdı. Doğrudur, BMT Təhlükəsizlik Şurası İsrail qüvvələrinin geri çəkilməsi haqqında qərar çıxardı. Ancaq ölkə həm sağ, həm sol qüvvələrin etiraz dalğasına bürünmüşdü. Belə bir şəraitdə 1970-ci il avqustun 15-də daxili işlər naziri Kamal Çumblat bütün sol partiyaların fəaliyyətinin qadağan olunması haqqında sərəncam imzaladı. Lakin bu aksiya da gərginliyi az da olsa zəiflətmədi. Ölkə daxili siyasi böhranının daha da kəskinləşməsi 1970-1975-ci illəri əhatə edir.

1970-ci ilin avqustunda keçirilən prezident seçkilərində "Nəhc"in namizədi İlyas Sərkisdən bir səs artıq toplayan müstəqil deputat Suleyman Franjye qalib gəldi. "Hilf" qrupu və sırasında hətta "Nəhc"in nümayəndələri olan müsəlman deputatlar tərəfindən dəstəklənən S.Franjye sentyabrın 23-də öz vəzifəsinə başladı. Sağ xristianlarla əməkdaşlıq edən mühafizəkar müsəlmanların namizədi Saib Səlam isə baş nazir oldu. Onun təşkil etdiyi hökumət "Nəhc" və "Hilf" təmsilçilərindən ibarət idi və faktik olaraq həmin təşkilatların proqramını yerinə yetirirdi. Həmin səbəbdən hər iki təşkilat özünü buraxdı.

S.Franjyenin altı illik (1970-1976-cı illər) hakimiyyəti istər ölkə daxilində, istərsə də onun ətrafında yaranmış yeni şəraitdə sürmüşdü. Belə ki, 1970-ci ilin sentyabrında Urdunda Fələstin fədai dəstələrinin darmadağın edilməsindən sonra Lübnan FMH-ın başlıca bazasına çevrildi. Bu səbəbdən İsrailin Lübnana qarşı təcavüzü xroniki xarakter aldı. O biri tərəfdən Misir prezidenti C.Ə.Nasirin ölümü və Ə.Sədatın hakimiyyətə gəlməsi, onun öz sələfinin kursundan imtina etməsi istər fələstinlilərin, istərsə də onları dəstəkləyənlərin vəziyyətini ağırlaşdırdı. İrəlidə dediyimiz kimi, Lübnanda da kifayət qədər qüvvə var idi ki, Fələstin amilinə gərginlik mənbəyi kimi baxırdı. Fələstini dəstəkləyənlər heç də onlardan az deyildi.

1972-ci ilin martında parlamentdə "Siyasi partiyalar və cəmiyyətlər haqqında" qanun layihəsinin müzakirəsi zamanı tərəflər üz-üzə gəldilər. Kamal Cumbulatın başçılıq etdiyi solçu qüvvələr onların maraqlarına zidd olan qanunun qəbul edilməsinə imkan vermədilər. Hətta həmin ildə keçirilən parlament seçkilərində lideri K.Cumublat olan Milli Mübarizə Cəbhəsi

(MMC) 10 mandat qazandı. Bu da əvvəlkindən 3 yer çox idi. MMC ilə əməkdaşlıq edən qüvvələr parlamentdə də bir xeyli yer ala bildilər. Bu da Fələstin tərəfdarlarının mövqeyinin möhkəmlənməsi demək idi.

İsrail isə Lübnana olan basqınları artırdı. Hətta 1972-ci ilin iyulunda Beyrutda Fələstin liderlərinin bəzilərinin öldürülməsini təşkil etdi. İsrail təcavüzünün güclənməsi yenidən ölkədə qarşıdurma yaratdı. 1973-cü il aprelin 9 və 10-da Beyruta İsrail desant dəstəsinin çıxarılması və FMH-in üç rəhbərinin öldürülməsi bütün ölkəni hərəkətə gətirdi. Baş nazir Saib Səlam istefaya getməyə məcbur oldu. Onun yerinə Əmin əl -Hafiz gəldi.

Lakin siyasi gərginlik nəinki səngimədi, əksinə, 2 mayda ordu hissələrinin Fələstin qaçqınları düşərgələrini mühasirəyə alması və hətta atəşə tutması onu son həddə çatdırdı. Doğrudur, prezident S.Franjye mayın 8-də hərbi əməliyyatları dayandıra bildi və irəlidə haqqında danışılan Qahirə sazişi prinsiplərinin saxlanıldığını bir daha bəyan etdi. Lakin hökumət siyasi duruma nəzarət etmək imkanını itirmişdi və bu zəmində o özünü buraxmalı oldu. Ümumiyyətlə, isə həmin dövrdə tez-tez hökumət dəyişikliklərinin baş verməsi xroniki xarakterik almışdı.

Yeni kabinetin təşkili mötədil siyasi xadim Tağı əd-Din Sülhə tapşırıldı. Onun kabineti isə ölkədəki bütün siyasi qüvvələri təmsil edirdi və bu, tərəfləri barışdırmaq və birləşdirmək məqsədi daşıyırdı.

Bəlli olduğu kimi, 1973-cü ilin oktyabrında növbəti Ərəb-İsrail müharibəsi baş verdi. Doğrudur, Lübnan müharibədə birbaşa iştirak etmədi. Lakin onun nəticələri Lübnan üçün ağır oldu. Belə ki, Misir prezidenti Ə.Sədatın götürdüyü kurs Fələstin Azadlıq Təşkilatına (FAT) olan münasibəti dəyişdi. İsrail bütün mümkün vasitələrlə ona qarşı təzyiqləri artırdı. 1974-cü ilin yazından başlayaraq Lübnandakı Fələstin düşərgələrini aramsız olaraq bombalayır, yaşayış məskənlərinə hücumlar edir, onları dağıdırdı. Təbiidir ki, bütün bunlar normal həyat ritmini pozur, ciddi iqtisadi və sosial çətinliklər törədirdi. Beyrut, Tirablis, Tir, Sayda, Nabatiya şəhərlərində və digər yaşayış məntəqələrində sosial-siyasi zəmində baş verən çıxışların ardı-arası kəsilmirdi. Vəziyyəti tənzim etmək mümkünsüz hala gəlmişdi və həmin səbəbdən də hökumət 1974-cü il sentyabrın 25-də istefaya göndərildi. Yeni kabinet təşkili yalnız noyabrın 1-də başa çatdı və ona Rəşid Sülh rəhbərlik edirdi. Bu hökumət ən azı ona nail oldu ki, "Kataib" yaraqlıları ilə fələstinlilər arasında toqquşmalar genişlənməsin.

Qeyd edək ki, buna qədər 1974-cü ilin oktyabrında Rabatda Ərəb Döv-

lət başçılarının toplantısı olmuşdu və burada FAT dəstəklənmiş, Lübnan isə bütün beynəlxalq təşkilatlar qarşısında Fələstinin haqq işini müdafiə etməyi öz üzərinə götürmüşdü. Elə 1974-cü ilin noyabrında BMT Baş Məclisində Fələstin məsələsinə dair ümümərəb mövqeyini S.Franjye şərh etdi.

Lakin, İsrailin 1974-cü ilin sonları və 1975-ci ilin ilk yarısında Lübnanın daxili bölgələrinə etdiyi hərbi həmlələr və bombardmanlar vəziyyəti təhlükəli həddə çatdırdı. Artıq silahlı toqquşmalar qaçılmaz idi. Prezident S.Franjye Suriya prezidenti ilə məsələni müzakirə etdi, İsrail təcavüzünə qarşı mübarizədə kömək üçün Ərəb Dövlətləri Liqasına müraciət etmək qərara alındı. Lakin bütün bunlar təsirsiz qaldı. Sağ xristian qüvvələrin böyük qismi fələstinlilərin Lübnanın güneyindən çıxarılmasını prezidentdən tələb edirdi. Bu kampaniyanın da başında "Kataib" və onun lideri P.Cinayil dururdu. Onlar 1975-ci ilin yazından isə silaha əl atdılar. Qanlı toqquşmalar başlandı. Qardaş qırğınının dayandırmaq yolunda nə hökumətin, nə də vasitəçilik missiyasını öz üzərinə götürmüş Ərəb Dövlətlər Liqasının baş katibi Mahmud Riyadın səyləri bir nəticə vermədi. Rəşid Sülh istefaya getdi və 1975-ci il mayın 23-də hökumətə başçılıq general Nürəddin Rifaiyə tapşırıldı. İki gündən sonra o da istefa verdi və Rəşid Kəramənin başçılığı ilə "milli qurtuluş hökuməti" yaradıldı. Öz başlıca vəzifəsini daxili böhranın tənzim edilməsi və lübnanlılarla fələstinlilər arasında qarşılıqlı anlaşmaya nail olmaq elan edən R.Kərami hökuməti dövründə vəziyyət daha da mürəkkəbləşdi. Mübarizə artıq tamamilə konfessional müstəviyə keçmişdi və dövlətin ərazi bütövlüyü təhlükəyə düşmüşdü. Belə bir şəraitdə 1976-cı ilin yanvarında Fələstin Azadlıq Ordusunun hissələri Suriya ərazisindən Lübnana keçdilər. Yanvarın 22-də atəşkəs elan olundu. Tərəflər böhranın həllində güzəştlər yoluna üstünlük verdilər. Prezident S.Franjye və baş nazir fevralın 14-də müəyyən siyasi islahatları nəzərdə tutan "Konstitusiya sənədi"ni elan etdilər. Sənədə görə dövlət idarəçiliyində müsəlmanların xristianlarla bərabər səviyyədə iştirakı təmin olunmalı, Lübnan-Fələstin münasibətlərində 1969-cu il Qahirə sazişinin prinsipləri əsas tutulmalı idi.

Lakin silahlı qarşıdurmada maraqlı olan qüvvələrin pozuculuq fəaliyyəti sənədin gerçəkləşməsinə imkan vermədi. Siyasi və konfessional qütbləşmə orduya da sirayət etdi. Bəkaa vadisində yerləşən bəzi ordu hissələri leytenant Əhməd Xətibin komandanlığı altında birləşdilər və ordu komandanlığına tabe olmaqdan imtina etdiklərini bildirdilər. Ordunun parçalanması böyük həyəcan doğurdu. İş o yerə çatdı ki, Beyrut qarnizo-

nunun komandanı briqada generalı Əziz Əhdəb 1976-cı martın 11-də özünü müvəqqəti hərbi qubernator elan etdi və prezidentə istefa təklifi verdi. Ancaq sağ xristianların təzyiqi ilə S.Franjye 1976-cı sentyabrın 22-də başa çatacaq səlahiyyət müddətini sonadək davam etdirəcəyini bildirdi. Beyrut və ətrafı yenidən alovlara büründü. Ancaq həmin dövrdə ordunun böyük hissəsinin müsəlmanların və fələstinlilərin tərəfində durduğundan onların mövqeyi xeyli güclənmişdi.

Aprelin 10-da parlament vaxtından əvvəl prezident seçkiləri keçirilməsinə qərar verdi. Mayın 8-də İlyas Sərkis prezident seçildi. Lakin S.Franjye öz postundan çəkilmədi. Vəziyyət fövqəladə dərəcədə gərginləşdi. Tərəfləri barışdırmaq üçün göstərilən bütün cəhdlər nəticəsiz qalmaqda davam edirdi. Hər an Lübnanın parçalanması baş verə bilərdi. Bütün təhlükələri qabaqlamaq məqsədilə 1976-cı il iyunun 1-də Suriya öz ordu hissələrini Lübnana yeritdi, əsasən fələstinlilərin məskunlaşdığı əraziləri nəzarətə götürdü və atəşin kəsilməsini tələb etdi.

İyunun 8-də Qahirədə toplaşan Ərəb Dövlətləri xarici işlər nazirləri də atəşin dayandırılmasına və Lübnana ərəb dövlətlərarası təhlükəsizlik heyətinin göndərilməsinə qərar verdi. Ayın 16-da 100 nəfərlik dəstə Lübnana gəldi və bu hadisə sağ xristian qüvvələrinin bütün cəbhə boyu hücumuna bir bəhanə oldu. Tanklar və topların köməyi ilə Fələstin düşərgələri bir-birinin ardınca yerlə yeksan edildi. Ərəb Dövlətləri Liqasının işə qarışması da nəticəsiz qaldı. Vəziyyət 1976-cı sentyabrın 23-dək belə davam etdi. Həmin gün İlyas Sərkisin prezidentliyə başlaması münasibəti ilə FAT İcraiyyə Komitəsi birtərəfli qaydada atəşi dayandırdı. Lakin sağ xristian birləşmələri sonuncu fələstinli döyüşçü Lübnanı tərk etməyincə savaşın sürəcəyini bildirdi.

Ərəb dövlətləri məsələyə daha yaxından yanaşmaq zorunda qaldılar. 1976-cı il oktyabrın 16-də ər-Riyadda Səudi Ərəbistan, Misir, Suriya, Lübnan, Kuveyt dövlət başçıları və FAT rəhbəri bir araya gəldilər. Oktyabrın 21-də atəşin dayandırılması və Lübnana 30 minlik ərəb dövlətlərarası təhlükəsizlik qüvvələrinin göndərilməsinə razılaşdılar.

Oktyabrın 25-26-da Qahirədə görüşən Ərəb Dövlət başçıları Lübnandakı 20 min nəfərlik Suriya hərbi heyətini də həmin saya daxil etdi və bu qüvvələr prezident İlyas Sərkisin komandanlığı altına keçdi. Həm də vəziyyətin tənzim edilməsində Suriyanın iştirakına önəm verildi. Nəhayət, 1977-ci ilin iyulunda Lübnan-Suriya-Fələstin birgə komissiyası bütün

mübahisəli məsələləri Qahirə sazişi prinsiplərinə uyğun həll etmək haqqında razılığa gəldilər. Lakin daxili və xarici maraqlı qüvvələr bu razılığı da pozmağa cəhd etdilər və 1977-ci ilin əvvəlində ölkənin güneyində mayor Səəd Həddadın nəzarəti altında bir oyuncaq inzibati ərazi yaratdılar. 1978-ci il martın 14-də isə İsrail orduları Lübnana hücum etdi və Latani çayına qədər əraziləri tutdu. 1978-ci il martın 19-da BMT Təhlükəsizlik Şurası İsrail qoşunlarının ölkədən çıxarılması və vəziyyəti nəzarətdə saxlamaq üçün BMT qüvvələrinin göndərilməsinə qərar verdi. İsrail gec də olsa öz qoşunlarını Lübnandan geri çəkdi, ancaq uzunluğu 80 km, eni 8-10 km olan özünə bitişik ərazidə "Azad Lübnan dövləti" da yaratdı.

Sonrakı illərdə də Lübnanın daxili vəziyyətində dönüş yaratmaq cəhdləri uğur qazanmadı. 1980-cı ildə milli barışıq planı hazırlandısa da, onu gerçəkləndirmək mümkün olmadı və iyulda baş nazir Salim əl-Xuss istefa verdi.

Yeni baş nazir Şəfiq Vəzzanın dövründə sağ xristian qüvvələrinin mübarizə hədəfi ölkəyə gəlmiş ərəb təhlükəsizlik qüvvələri oldu. O biri tərəfdən İsrail də hərbi təzyiqlərini artırdı. Ərəb Dövlətləri Liqası yenidən fəallaşdı. 1981-ci il mayın 22-də Tunisdə çağrılan sessiyada Lübnan böhranının təhlükəli şəkil aldığı həyəcanla bildirildi. İsraillə əməkdaşlıq edən qüvvələrə ciddi xəbərdarlıq edildi. Lübnan məsələsini həll etmək məqsədilə Səudi Ərəbistan, Küveyt, Suriya və Lübnandan ibarət dördtərəfli komitə yaradıldı.

1981-ci il iyulun 24-də ölkənin güneyində atəşin dayandırılması və fələstinlilərin Lübnan-İsrail sərhəddində heç bir silahlı hərəkətə yol verməyəcəkləri haqqında razılığa gəlindi. Bunun müqabilində İsrail də vəd verdi ki, Lübnandakı Fələstin mövqelərinə atəş açmayacaqdır.

Lakin bu sazişin şərtlərinə ancaq bir ilədək əməl olundu. Bununla yanaşı münaqişənin bütün tərəfləri öz əməllərindən dönmək fikrində deyildilər və bu nisbi sakitliyin hər an pozulacağı imkanı saxlanılırdı. Xüsusi ilə də İsrail özünü daha barışmaz aparırdı. 1982-ci il iyunun 3-də Londonda İsrail səfirinə edilən süi-qəsd Lübnana hərbi təcavüz üçün bir bəhanə oldu. FAT-ın bu aksiyada əli olmadığını bildirməsinə məhəl qoyulmadı və iyunun 4-də Lübnanda fələstinlilərin yaşayış məskənləri hər tərəfdən atəşə tutuldu. Ayın 6-da isə 90 minlik ordu hissələri Lübnan ərazisinin xeyli hissəsini ələ keçirdi. Beynəlxalq ictimaiyyət İsrailin bu hərəkətini dərhal pislədi. İyunun 5-də BMT Təhlükəsizlik Şurası döyüşən tərəflərdən atəşi dayandırmağı, sonrası

gün isə İsrailin tutduğu ərazilərin boşaldılmasını tələb etdi. Lakin atəşi dayandırmaq yolunda BMT-nin təsir imkanları çox da səmərəli deyildi. Həmin səbəbdən İsrail tutduğu ərazilərdən geri çəkilmirdi, fələstinlilər də partizan hərəkatını genişləndirmişdilər və hər gün gərgin döyüşlər gedirdi. Olduqca ağır vəziyyətə düşən FAT (nəzərə alsaq ki, ərəb dövlətlərinin çoxu onu əvvəlki kimi müdafiə etmirdi-müəl.) silahlı dəstələri Beyrutdan çıxarmaq haqqında ABŞ-İsrail tələbi ilə razılaşdı. ABŞ Lübnana NATO dövlətlərindən ibarət çoxmillətli qüvvələr yeritdi. 1982-ci il avqustun sonlarında ABŞ, Fransa, İtaliya, sonra isə Böyük Britaniya heyətləri Beyruta daxil oldular. Əldə edilmiş razılığa əsasən Fələstin yaraqlıları sentyabrın 1-də Beyrutdan çıxdılar.

Həmin arada avqustun 28-də prezident seçilən Bəşir Cimayil sentyabrın 14-də "Kataib" partiyasının qərargahında baş verən partlayış nəticəsində öldu, sentyabrın 21-də onun yerini böyük qardaşı Əmin Cmayel tutdu. Şəfiq Vəzzan baş nazir təyin olundu.

Əmin Cimayil-Şəfiq Vəzzan iqtidarı ilk gündən böyük çətinliklərlə üzüzə qalmışdı. 1982-ci il savaşı Lübnana 2 mld dollar məbləğində zərər vurmuş, 20 min nəfər həlak olmuş, 30 minə yaxın yaralanmışdı. On minlərlə tikili ya tamam dağılmış, ya da yararsız hala düşmüşdü. Ölkə ərazisinin 2/3 hissəsi İsrail işğalı altında idi və bura da yaşayan fələstinlilərə qarşı cəza tədbirləri hər gün davam edirdi. Bu zəmində İsrailə müəyyən cavablar da verilirdi. 1982-ci il noyabrın 12-də Tir şəhərində işğal qoşunlarının qərargahının partladılması bu baxımdan ciddi xəbərdarlıq oldu.

Yaranmış vəziyyət "Lübnan qüvvələri" adlanan sağ xristian hərbi birləşmələrinin qüclənməsinə və fəaliyyət imkanlarının genişlənməsinə zəmin yaradırdı. Buna adekvat olaraq müxtəlif müsəlman dəstələri yaranır və öz mövqelərini möhkəmləndirirdilər. 1982-ci ilin yayından meydana gəlməyə başlayan şiə müsəlmanların "Amal" və "Hizbullah" dəstələri, 1983-cü ilin yayında Tirablisi öz nəzarətinə götürən "İslam Birliyi Hərəkatı" dəstələri xüsusi fəallıq göstərirdilər, istər "Lübnan qüvvələri"nə, istərsə də İsrail hərbçilərinə qarşı mübarizədə ciddi amilə çevrilmişdilər.

Cəmiyyətdə güclü ixtilaf doğuran səbəblərdən biri də Lübnan tarixində falanqaçıların ilk dəfə hakimiyyətə gəlməsi və ölkənin ali dövlət strukturlarına onların tam yiyələnmək cəhdləri idi. Falanqaçıların siyasi hegemonluq hikkələri digər qüvvələrin güclü müqaviməti ilə qarşılaşırdı.

Bütun bunların qarşısını almağın çətinlyi yeni hakimiyyəti inandırdı ki,

yeganə çıxış yolu ölkədəki bütün konfessional icmaların təmsilçilərini bir araya gətirmək, milli birliyə nail olmaqdır. Hakimiyyət ilk olaraq İsrail qoşunlarının Lübnandan çıxarılması üçün danışıqlara razılıq verdi. 1982-ci il dekabrın 29-da başlayan danışıqlar 1983-cü il mayın 17-də ABŞ-ın da iştirakı ilə "Sülh haqqında saziş"in imzalanması ilə sona çatdı. Saziş iki dövlət arasında müharibə vəziyyətinin başa çatdığını və İsrail qoşunlarının Lübnandan çıxarılmasını nəzərdə tuturdu. Bununla yanaşı Lübnan üzərinə bir sıra siyasi şərtlər də qoyurdu. Bunlar Lübnanın güneyində "təhlükəsizlik zonası" yaradılması, "İsrailin təhlükəsizliyini təhdid edən" fəaliyyətə yol verilməməsi, Lübnan ərazisində başqa ölkəyə düşmən olan ünsürlərin mövcudluğuna imkan verən və 17 may sazişinə zidd gələn bütün sazişlərin ləğv edilməsi haqqında İsrailin tələbləri idi. Həmin səbəbdən də saziş birmənalı qarşılanmadı. Ölkədə yeni qarşıdurma yarandı. Vəlid Cumbulat, Rəşid Kərami, Suleyman Franjye kimi siyasi liderlərin 1983-cü il iyulun 23-də yaratdığı Milli Qurtuluş Cəbhəsinin başlıca məqsədlərindən biri sazişin ləğvi oldu. Digər siyasi qüvvələr də bu istiqamətdə müqavimətlərini artırdılar.

Qoşunlarını Lübnandan çıxarmağı Suriya qoşunlarının da çıxarılması ilə bağlayan İsrail geri çəkildi. 1983-cü il sentyabrın 4-də bir sıra strateji məntəqələr boşaldıldı.

Milli Qurtuluş Cəbhəsi tərəfdarlarının fəallaşması ABŞ-ı da rahatsız etdi. Suriya ilə danışıqlar intensivləşdi. Nəhayət, sentyabrın 25-də Suriya və Səudi Ərəbistanın vasitəçiliyi ilə Lübnandakı bütün mübarizə aparan tərəflər bir masa arxasında əyləşdilər və atəşkəs haqqında sazişə imza atdılar. Bunun ardınca 1983-cü il 31 oktyabr - 4 noyabrda qarşıduran tərəflərin təmsilçiləri Əmin Cimayil, Vəlid Cumbulat, Rəşid Kərami, Suleyman Franjye, "Amal" lideri Nəbih Bərri, sağ xristianların liderləri Pyer Cimayil, Kamil Şamun və digərləri, eləcə də Suriya və Səudi Ərəbistan nümayəndələrinin iştirakı ilə milli dialoq üzrə konfrans keçirildi. Konfransda Lübnanın bir ərəb dövləti olaraq qalacağı, 17 may sazişinin ləğvi və İsrail qoşunlarının ölkədən çıxarılmasının başqa formulunu razılaşdırmaq üçün prezident Ə.Cimayilin ABŞ-a getməsi qərara alındı. ABŞ səfərinin uğursuz nəticələnməsindən sonra 1984-cü ilin fevralında prezident Suriyaya getdi. 1984-cü il martın 5-də Lübnan hökuməti 17 may sazişinin qüvvədən düşdüyünü rəsmən elan etdi. Fevral-mart aylarında "çoxmillətli qüvvələr" Lübnandan çıxdılar.

Şəraitin bu cür dəyişməsi səbəbindən milli dialoq üzrə konfransın növbəti turu çağrıldı. 1984-cü il martın 12-20-də Lozanda keçirilən toplantıda tərəflər Lübnanın siyasi strukturunun dəyişdirilməsi haqqında yekun fikrə gəlməsələr də, müəyyən dəyişiklikləri nəzərdə tutan yeni konstitusiyanın hazırlanmasına qərar verdilər. Apreldə Ə.Cimayilin Dİməşqə növbəti səfəri ilə siyasi strukturda ediləcək islahatlar razılaşdırıldı.

Razılaşmaları gerçəkləşdirmək məqsədi ilə 1984-cü ilin yazında Milli Qurtuluş Cəbhəsinin liderlərindən olan Rəşid Kəraminin başçılığı ilə Vəlid Cumbulat, Nəbih Bərri, Pyer Cimayil, Kamil Şamun kimi liderlərin qatıldığı "Milli birlik hökuməti" yaradıldı. Doğrudur, bundan sonra da ara-sıra güclü toqquşmalar oldu, müxtəlif qruplaşmalar bəzi provokasiyalar törədildi. Bununla yanaşı, illərlə davam edən daxili siyasi böhranın tənzim edilməsinin zəruriliyi daha çox dərk olunurdu. İsrail qoşunlarının geri çəkilməsi prosesi ciddi çətinliklər və insidentlərlə müşaiyət olunsa da, davam edirdi. Bu səbəblərdən də 1986-cı ilin əvvəllərində daxili çəkişmələrin qaydaya salınması üçün əlverişli bir ovqat yaranmaqda idi. Hətta hökumət iqtisadi problemlərin aradan qaldırılması haqqında düşünürdü. Bu zəmində 1987-ci ilin yazında qızğın müzakirələrin getdiyi bir zamanda bomba partlayışı nəticəsində baş nazir R.Kərami həlak oldu. Onun yerini Səlim əl-Xuss tutdu.

Fəqət 1988-ci ildə yeni bir siyasi böhran baş verdi. Belə ki, Prezidentliyə namizəd ətrafında vahid fikrə gəlinməməsi səbəbindən seçki keçirmək mümkün olmadı. Prezidentin səlahiyyət müddətinin başa çatdığı sentyabrın 22-də edilən son cəhd də nəticə vermədi və bu, faktik olaraq ölkədə hakimiyyətsizlik vəziyyəti yaratdı. Əmin Cimayil çıxış yolunu baş nazir general M.Aun olmaqla üç xristian və üç müsəlman zabitdən ibarət müvəqqəti hərbi hökumət təşkil etməkdə gördü. Lakin müsəlman zabitlər hökumətə girmədilər, Səlim əl-Xuss isə bu hərəkəti qeyri-qanuni saydı və öz səlahiyyətlərindən əl çəkmədi. Ölkədə iki hakimiyyətlilik yarandı, xristian bölgələrini general Mişel Aun, müsəlman bölgələrini isə Səlim əl-Xuss hökuməti idarə etməyə başladı.

1989-cu ilin martında M.Aun "xarici təsirdən azad cəmiyyət" qurmaq adı ilə "azadlıq müharibəsi" elan etdi. Əslində bu, Lübnandakı Suriya qoşunlarına qarşı yönəlmiş bir aksiya idi və arxasında da İraq dayanırdı. Lakin Ərəb Dövlətləri Liqası məsələnin şişməsinə imkan vermədi və həmin ilin may ayında onun çözülməsi məqsədi ilə Səudi Ərəbistan, Mərakeş və Əlcə-

zair dövlətlərinin başçılarından ibarət Üçlər Komitəsi yaratdı. Onların iyun ayında Kasablankada (Mərakeş) hazırladığı birinci plan general M.Aun tərəfindən rədd edildiyindən məsələnin parlament vasitəsilə həllinə önəm verildi. 1989-cu ildə Taifdə (Səudi Ərəbistan) Lübnan parlamentinin 62 deputatının[1] iştirak etdiyi toplantıda "Milli Razılıq Xartiyası" qəbul olundu. Konfessional sistemin təkmilləşdirilməsi, Lübnanda Suriya qoşunlarının mövcudluğu, ordudan kənar silahlı qüvvələrin tərk-silah edilməsi və təhlükəsizliyin təminatı məsələlərini ehtiva edən həmin sənəd 1989-cu il oktyabrın 22-də deputatlar tərəfindən təsdiq olundu.

General M.Aundan başqa bütün icmalar, ərəb və Avropa dövlətləri, Sovet İttifaqı və s. dövlətlər həmin sənədi bəyəndilər. Bundan sonra 1989-cu il noyabrın 5-də R.Muavvad prezident seçildi və Səlim əl-Xuss baş nazir vəzifəsində saxlanıldı. 17 gündən sonra öldürülən R.Muavvadın yerinə parlament İ.Hiravini seçdi və öz müddətini də 1994-cü ilə qədər uzatdı.

Bundan sonra general M.Aunun qiyam cəhdi başlıca xristian qüvvələrinin dəstəyini qazanmasa da Lübnan XX əsrin 90-cı illərinə onun tərəfdarları ilə Lübnan ordusu arasında gedən qızğın döyüşlərlə daxil oldu. Belə ki, 1990-cı ilin yanvarında başlayan döyüş son nəticədə M.Aunun məğlubiyyətinə gətirdi. Çünki, birincisi, ölkə daxilindəki ən ekstremist qüvvələr belə onu dəstəkləmədilər. Əksinə, Taif müqaviləsinə qovuşdular. İkincisi, onun Batıdan olan tərəfdarları Taif müqaviləsindən sonra əvvəlki cəsarətdə deyildilər. İraq isə 1990-cı ilin avqustunda Küveytə hücum etmişdi və başını daha ağır bəlalardan xilas etməklə məşğul idi. 1990-cı il oktyabrın 10-da Lübnan hökumətinin kömək üçün Suriyaya müraciətindən sonra birləşmiş qüvvələr Aunun dəstələrini darmadağın etdilər və general Fransa səfirliyinə sığınmaqla canını qurtardı.

Buna qədər isə sentyabrın 21-də parlament Taif müqaviləsinin şərtlərinə uyğun konstitusiyada dəyişikliklər etdi. İlk dəfə olaraq Lübnan nisbi də olsa azad nəfəs ala bildi, ölkənin parçalanması təhlükəsinə son qoyuldu və Lübnanın bütövləşməsi istiqamətində addımlar atıldı. "Böyük Beyrut" planına əsasən şəhər bütün yaraqlılardan azad edildi, icmalara bölünmüş şəhər bütövləşdi. Artıq 1991-ci ilin fevralına kimi Lübnan ordusu ölkənin qaynar nöqtələrinə nəzarəti öz üzərinə götürə bildi. Bu məsələdə ordunun baş qərargah rəisi general Emil Ləhudun xidmətlərini xüsusi qeyd etmək lazımdır.

---

[1] Qeyd: Parlamentə son seçkilər 1972-ci ildə olmuşdu və seçilən 99 deputatdan 1989-cu ildə 73-ü həyatda idi.

Onun yaratmış olduğu qırx min nəfərlik komandos briqadası istənilən münaqişəni çevik şəkildə yatıra bilirdi. Sərhəd boyunca yaranmış qeyri-qanuni gəlir mənbələri ləğv edildi. Vergilərin yığılması güclü nəzarət altına alındı. Bu sahədə müxtəlif qüvvələrin qeyri-qanuni hərəkətlərinə son qoyuldu.

1991-ci ilin mayında seçki qanununa dəyişikliklər əlavə edildi və parlamentdə boş qalmış 31 və artırılmış 9 yerə 40 deputat təyin edildi.

Həmin dövrdə Lübnana münasibətdə ABŞ-Suriya qarşılıqlı əməkdaşlığı sadalanan tədbirlərin gerçəkləşməsində bir qaranta çevrilmişdi. 1991-ci il mayın 22-də Lübnan və Suriya arasında əlaqələrin geniş spektrini ehtiva edən "Qardaşlıq, Əməkdaşlıq və Koordinasiya haqqında" müqavilənin, sentyabrda isə "Qarşılıqlı Müdafiə və Təhlükəsizlik Paktı"nın imzalanması Lübnanda hadisələrin normal məcraya düşməsində az rol oynamadı.

Milli barışığı möhkəmləndirmək baxımından hökumətin ən mühüm tədbirlərindən birisi vətəndaş müharibəsi dövründə törədilən cinayətlərin əfv edilməsi idi. Bu əfvdən hətta M.Aun da yararlandı və Fransaya gedə bildi.

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, münaqişə və çətinliklərin kökünü birdəfəlik kəsmək asan başa gəlmirdi, böyük enerji və səbr tələb edirdi. Bu baxımdan bəzi hadisələri xatırlamaq kifayətdir. 1992-ci ilin əvvəllərində Lübnan funtunun məzənnəsinin aşağı düşməsi, qiymətlərin artması, iqtisadi vəziyyətin gərginləşməsi, silsilə tətillərin olması, hökumətin istefası, R.Sülhün baş nazirliyə gəlməsi, seçki qanununda edilən dəyişikliklərə xristian icmasının etirazı, 23 avqust - 6 sentyabrda üç raundlu parlament seçkilərinin keçirilməsi, prezident Hiravinin Lübnan əsilli səudili iş adamı R.Haririni baş nazirliyə gətirməsi, əsasən texnokratlardan ibarət hökumətin Lübnanı bütün cəhətlərdən bərpa etmək cəhdlərinin əngəllərlə qarşılanması vəziyyətin normal məcraya axarından az xəbər verirdi.

Hökumət 1993-cü ilin sentyabrından İsrail ilə FAT arasında imzalanan "İşğal olunmuş ərazilərdə Fələstin özünüidarəsinin prinsipləri haqqında" bəyanata da çox həssas oldu və bu sənəddən narazılığı zəminində ölkədə olan müxtəlif Fələstin silahlı birləşmələrinin Lübnanı yenidən döyüş meydanına çevirəcəyindən ehtiyatlandı və müvafiq addımlar atdı. Bu baxımdan 1994-cü ilin martında parlamentin "siyasi motivli" qətllər üçün ölüm cəzasını nəzərdə tutan qanun qəbul etməsindən sonra bir sıra ekstremist ovqatlı təşkilatları və onların liderlərinin zərərsizləşdirilməsi də istiqrarın möhkəm-

ləndirilməsində mühüm rol oynadı. Həmin qəbildən ikinci addım həmin ilin mayında baş nazirin kabinetdə maroni nazirlərin sayını artırmaq təşəbbüsü idi. Buna prezident və parlamentin sədrinin etirazları Suriya tərəfindən yönünə qoyuldu. Baş nazirin daha bir istəyi başladığı iqtisadi yenidənqurma prosesinin gözlənilən siyasi qarşıdurmalardan xilas etmək idi və bu məqsədlə o, 1995-ci ilin mayında konstitusiyaya düzəliş etdirə bildi. Düzəlişə əsasən prezident Hiravinin noyabrda başa çatan səlahiyyəti daha altı il müddətinə uzadıldı. Baş nazir R.Haririnin istiqrar yolunda israrlı fəaliyyətinin nəticəsi idi ki, 1996-cı ilin aprelində İsrail hərbi qüvvələrinin Lübnanın güneyindəki "Hizbullah" mövqelərini və Beyrutun güney bölgəsini intensiv atəşə tutması ölkədə qorxulu vəziyyət yaratmadı. Münaqişə ABŞ və Fransanın vasitəçiliyi ilə tərəflərin qarşılıqlı güzəştləri zəminində həll olundu. Nəzarət üçün Lübnan, İsrail, Suriya, ABŞ və Fransa nümayəndələrindən ibarət İsrail-Lübnan monitorinq qrupu yaradıldı. Sülhün qorunması imkanı verdi ki, həmin ilin avqust-sentyabr aylarında nəzərdə tutulan parlament seçkiləri keçirilsin. Qeyd edək ki, parlamentdə yerlərin çoxunu R.Hariri tərəfdarları qazandılar. R.Haririnin təşkil etdiyi hökumətdə əvvəlki nazirlərin çoxu öz vəzifələrində qaldı. Siyasi və iqtisadi islahatları möhkəmləndirmək kursunu davam etdirən hökumət sentyabrda siyasi yayımla məşğul olan və cəmiyyətə destruktiv informasiyalar çatdıran 150 radio və 50 televiziya kanalının bağlanmasına sərəncam verdi.

1997-ci il isə Lübnanın tarixində iki hadisə ilə xarakterik oldu. Birincisi, iyul ayında R.Haririnin terrorizmə qarşı mübarizədə əməkdaşlığı genişləndirmək bəyanatına cavab olaraq ABŞ dövlət katibi M.Olbraytın öz ölkəsində Lübnana səyahətə qadağanın ləğv olunduğunu bildirməsidir. İkincisi isə, sentyabrda M.Olbraytın Lübnana gəlməsidir. Bu ABŞ dövlət katibinin 1983-cü ildən bu yana Lübnana ilk səfəri idi.

Ən mühüm hadisələrdən biri 1998-ci ilin yazında bələdiyyə seçkilərinin keçirilməsi oldu (sonuncu bələdiyyə seçkisi 1963-cü ildə olmuşdu-müəl.). 1998-ci ilin ortalarında isə prezident vəzifəsinə Lübnanda istiqrarın yaradılmasında böyük xidmətləri olmuş general Emil Lahud seçildi və o, hökumətə başçılığı Səlim əl-Xussa tapşırdı.

Onların hakimiyyəti dövründə də əvvəlki siyasi və iqtisadi inkişaf kursu davam etdirildi. İsrail amili, Hizbullah-İsrail toqquşmaları, Fələstin qaçqınları problemi və s. həll olunmamış qalsa da, bu sahədə müəyyən pozitiv meyllər də yarandı. Bu baxımdan 1999-cu ilin sonlarından Lübnan-İsrail

münasibətlərinin tənzim edilməsi ətrafında əməkdaşlığın artması, 2000-ci ilin aprelində BMT-nin müraciətinə cavab olaraq İsrailin öz qoşunlarını Lübnandan çıxaracağı haqda bəyanat verməsi ciddi addımlar sayıla bilər. Bunlar regionda, ilk növbədə Lübnanda vəziyyətin yaxşılığa doğru inkişafına inam yaratdı.

XX əsrin 90-cı illərində Lübnanda siyasi istiqrara nail olmaq uğrunda mübarizə iqtisadi həyata da bir canlanma gətirdi. 16 illik vətəndaş müharibəsi ölkəyə ən azı 25 mld dollarlıq zərər vurmuş, "Yaxın Doğu İsveçrəsi" sayılan Lübnan bütün gəlir mənbələrindən məhrum olmuş və bir xarabazara çevrilmişdi. 1990-cı ilin Körfəz böhranı isə vəziyyəti son dərəcə ağırlaşdırdı. Xarici iqtisadi əlaqələrin əsasən İraq və Küveytlə bağlı olması səbəbindən böhran nəticəsində ərzaq və istehlak malları 150%, yanacaq-sürtkü materialları isə 400% bahalaşdı. Nəzərə alsaq ki, Lübnanın ixrac etdiyi sənaye mallarının 50%-i və kənd təsərrüfat mallarının 95%-i bu iki ölkəyə gedirdi və savaş nəticəsində hər şey pozuldu, digər tərəfdən isə həmin ölkələrdə işləyən, ildə 40 min dollar civarında valyuta gətirən 350 min lübnanlı ölkəyə qayıtdı və işsizlər ordusuna qatıldı, vəziyyət bütün ağırlığı ilə dərk oluna bilər.

Lübnan iqtisadiyyatında yaranmış bu acınacaqlı durum Taif müqaviləsinin bağlanmasından sonra 1992-ci ilin oktyabrında R.Həririnin baş nazirliyə gətirilməsi dövrünə qədər azalan xətlə davam etdi. Yalnız R.Həriri hökumətinin ilk andan atdığı cəsarətli addımlar nəticəsində artmaqda olan tənəzzülün qarşısı alındı. Məmurların xəzinə soyğunçuluğuna və rüşvətxorluğuna kəskin hücum başlandı. Ölkənin işgüzar mərkəzinin bərpasını nəzərdə tutan və dəyəri 18 mld dollar məbləğində olan "Əsrin layihəsi" hazırlandı. Xarici investorların köməyi ilə gerçəkləşən bu layihə istər ölkə daxilində, istərsə də xaricdə dəstək qazandı, qısa zaman kəsiyində xeyli vəsait əldə edildi. Yaradılmış İnkişaf və Bərpa Şurası (İBŞ) 1993-2002-ci illəri əhatə edən 10 illik bərpa planı hazırladı. Onun gerçəkləşməsi üçün tələb olunan 10 mld dolların əldə edilməsində Ərəb dövlətləri fondları, Dünya Bankı, Avropa Birliyi və İtaliya başlıca donorlar oldu. Onların sırasına ABŞ da qoşuldu.

Enerjiyə olan ehtiyacın ödənilməsi üçün dağıdılmış elektrik stansiyalarının bərpasına önəm verildi. Nəticədə enerji istehsalı 50% artdı. Kənd təsərrüfatı və sənaye bölməsinə diqqətin artırılması nəticəsində 1995-ci ildə artım 5,5%-ə çatdı. Ölkə iqtisadiyyatında 61% payı olan xidmət sahəsi də

dirçəldi. Büdcə gəlirinin yarıdan çoxunu təşkil edən bu qurumun bərpası və inkişafı həmin baxımdan ciddi əhəmiyyət daşıyırdı. Belə ki, 1994-cü ildə ölkəyə gələn turistlərin sayı 26%, 1995-ci ildə 22% artdı. Bu həm də tikinti sahəsinin inkişafına gətirdi. 1997-ci ildə 27% olan büdcə kəsiri 1998-ci ildə 15%-ə endi, 1995-ci ildə inflyasiya 72% idisə, 1996-cı ildə 6,1% oldu. İşsizlərin sayı iki dəfə azaldı və bu rəqəm 1996-cı ildə ölkə əhalisinin 18,5%-nə bərabər oldu.

Lübnanın xarici ticarət əlaqələrinin coğrafiyası xeyli genişləndi. ABŞ, Fransa, Səudi Ərəbistan, Suriya və Birləşmiş Ərəb Əmirlikləri başlıca ixrac ölkələrinə çevrildi. İdxal ölkələri sırasında ABŞ, Fransa ilə yanaşı Almaniya, İtaliya və İsveçrə kimi ölkələr var idi. Lübnan bir sıra iri beynəlxalq regional maliyyə mərkəzlərinin üzvü idi. Bunlardan Ərəb Sosial və İqtisadi İnkişaf Fondu, Ərəb Valyuta Fondu, İslam İnkişaf Bankı və s. göstərmək olar.

1997-ci ildən 2007-ci ilədək davam edəcək on illik investisiya planının həyata keçirilməsinə başlanıldı. Onun birinci mərhələsində əsasən infrastrukturun bərpası və genişləndirilməsi nəzərdə tutulurdu və bu sahədə xeyli uğurlar əldə edildi. 1998-2002-ci illərdə təhsil, tibb, su təchizatı və sanitar sahələr üzrə layihələrin maliyyələşdirilməsinə 5 mld investisiya qoyuldu və on illik planın bu ikinci mərhələsi də müvəffəqiyyətlə həyata keçirildi.

Bütün bu səbəblərdən də Lübnan XXI əsrə daha istiqrarlı və mövcud çətinlikləri həll etmək yolunda inamlı şəkildə qədəm qoydu. 11 sentyabr 2001-ci il hadisələrindən sonra bir sıra dünya problemlərinin həllinə yeni yanaşma tərzi Lübnanın da maraqlarına uyğun idi və onun gələcək inkişafı üçün əlverişli zəmin yarada bildi.

Ölkədə siyasi vəziyyətin sabitləşməsində mühüm rol oynayan amillərdən biri də 2000-ci ilin mayında İsrail qoşunlarının Lübnan ərazisindən çıxarılması oldu. Bundan dərhal sonra BMT Suriyadan tələb etdi ki, uzun müddət boyun qaçırdığı Lübnanın suverenliyini tanıması məsələsini yazılı surətdə təsdiq etsin. Bu tələbi Lübnan hökuməti də təsdiqlədi. 2000-ci ildən etibarən Lübnanın baş naziri R.Haririnin də fəaliyyəti ölkədə Suriya hegemonluğunun mövcudluğunu məhdudlaşdırmağa yönəlmişdi. Çox keçmədən Suriyanın təzyiqlərinə qarşı druz icmasının və sünnülərin etirazları da xristianların çıxışlarına əlavə olundu və 2001-ci il ortalarından ölkədə etiraz dalğası yüksəlməyə başladı.

ABŞ hökuməti Suriyanın Lübnandakı rolu ilə bir müddət barışsa da,

lakin 2003-cü il İraq müharibəsindən və Suriyanın ona mənfi münasibətindən sonra C.Buş administrasiyası artıq mövcud vəziyyətlə barışmaq istəmədi. Tanınmış Lübnan siyasətçiləri R.Həriri və K.Cumbulat ABŞ və Fransanın dəstəyi ilə 2004-cü ildə prezident E.Lahudun altı ay uzadılmış səlahiyyətinə etirazlarını bildirdilər.

E.Lahudun Lübnan prezidenti vəzifəsində qalması Suriyanın Lübnandakı mövqelərinin saxlanması baxımından mühüm əhəmiyyətə malik idi. Bu ölkədəki hegemonluğunu əldən verməmək üçün Suriya təhlükəsizlik qüvvələri ciddi səy göstərirdi. Belə bir şəraitdə 2004-cü ilin avqustunda Suriyanın təzyiqi ilə R.Həririnin parlamentdə E.Lahudun prezidentlik müddətinin əlavə üç il uzadılması haqqında məsələ qaldırması ölkənin böhranlı vəziyyətini daha da ağırlaşdırdı. ABŞ və Fransa BMT TŞ-dan 1559 saylı qətnamənin reallaşmasını tələb etdilər. Bu qətnamə Suriya ordusunun Lübnandan çıxarılmasını, könüllülərin, ilk növbədə Hizbullah silahlı dəstələrinin buraxılmasını, E.Lahudun B.Əsəd hegemonluğundan qurtulmasını və 2005-ci ilin mayında parlament seçkilərinin keçirilməsini nəzərdə tuturdu. Suriyanın hadisələrə müdaxiləsi nəticəsində 2005-ci ilin fevralında R.Həriri və onunla birgə 22 nəfər yüksək dövlət məmuru Beyrutun mərkəzində baş vermiş partlayış nəticəsində həlak oldular. Terror aktından sonra başlayan nümayişlər Lübnan cəmiyyətində qarşıdurmanın ciddiliyini bir daha təsdiq etdi. Martın 8-də Hizbullahın təşəbbüsü ilə keçirilən 500 minlik nümayiş ölkədə şiələrin mövqeyini və onların Suriyanı dəstəklədiyini aydın şəkildə göstərdi. Martın 14-də isə bir milyona qədər sünnü, xristian və druzun iştirakı ilə R.Həririnin xatirəsinə həsr olunmuş nümayiş keçirildi, ölkə rəhbərliyinin öldürülməsində Suriya ittiham olundu. 2005-ci ilin aprelində isə bütün cəhdlərinə baxmayaraq B.Əsəd beynəlxalq birliyin təzyiqi ilə Suriya qoşunlarını Lübnandan çıxarmaq məcburiyyətində qaldı.

Suriya qoşunlarının ölkəni tərk etməsi, qismən də olsa, vəziyyəti dəyişsə də, burada Suriyanın çoxsaylı tərəfdaşları hələ də qalırdı. Suriya məxfi xidmət qurumları sərhəddən keçirilən silah-sursatın əsasən Hizbullaha ötürülməsini təşkil edir, radikal Fələstin təşkilatlarına dəstək verir və islamçı qurumlara kömək göstərməkdə davam edirdilər. İran hakimiyyəti də bu məsələdə Suriyanın mövqelərini dəstəkləyirdi.

Həmin arada BMT Təhlükəsizlik Şurasında R.Həririnin qətli məsələsinin araşdırılması və günahkarların müəyyənləşdirilməsinə dair qətnamə qəbul olundu. Tədqiqatlara başlanıldı. Ümumiyyətlə, Lübnan daxili və xa-

rici siyasət sahəsində yeni mərhələyə girdi. 2005-ci ilin mayında general Mişel Aun mühacirətdən ölkəyə qayıtdı. Lakin o, R.Həririnin oğlu Saad və Valid Cumbulat ilə əlaqələr yarada bilmədi. Həmin siyasətçilər Aunun prezidentliyə namizədliyini dəstəkləmədilər. Bu səbəbdən də Aun parlament seçkiləri zamanı 2006-cı ildə Hizbullah və şiə qruplaşmaları ilə blok yaratdı. Bu səbəbdən də yeni baş nazir Fuad Sinyora onların ciddi müqavimətilə rastlaşdı. Həm Aun, həm Hizbullah, həm də arxa planda Lübnan hökumətinə ağır zərbə hazırlayan Suriya rejiminin Lübnanın muxtariyyətinə dair layihələri hökumətə qarşı atılmış ciddi addımlar oldu. Digər tərəfdən də məhz bu qüvvələrin fitnəsi ilə 2006-cı ilin yayında İsrail-Lübnan sərhədlərində hərbi əməliyyatlar başladı. Bundan da məqsəd Hizbullah-Suriya-İran koalisiasının diqqəti R.Həririnin ölümündən yayındırmaq və Suriya rejiminə yardım etmək idi. İsrailin 2000-ci ildə Lübnanı tərk etməsindən sonra Suriya və İran Güney Lübnana 15 minə qədər müxtəlif radiuslu raket yerləşdirmiş, bu bölgəni Lübnan ordusu və dövlətinin müdaxilə edə bilməyəcəyi bir qalaya çevirmişdilər. 2006-cı ildə Hizbullahın hücumları başlayanda İsrail cavab olaraq Lübnanın şiələr yaşayan bölgələrini hədəfə çevrdi. Beş həftə ərzində həmin məntəqələrə mindən artıq insanın ölümü ilə nəticələnən hava hücümları həyata keçirildi. İsrail bununla Hizbullahın mövqelərini zəiflətmək istəyirdi. Baş verənlər haqqında BMT TŞ-nın 2006-cı il 14 avqust qətnaməsindən sonra atəşkəsin bərpası mümkün olsa da, vəziyyət gərgin olaraq qaldı. Qətnaməyə görə, Lübnan ordusu BMT sülhməramlı qoşunları ilə birgə sərhəddə yerləşdirilməli və Suriya-Lübnan sərhədləri ciddi nəzarətdə saxlanılmalı idi. Bu, Suriya və İrandan Hizbullaha gələn silah axının qarşısının alınması üçün edilmişdi.

2006-cı il hərbi əməliyyatlarından sonra Lübnanın siyasi düşərgəsi iki hissəyə parçalandı. Antisuriya yanlıları Səad Həriri, Valid Cumbulat və bir sıra sünni liderlər "14 mart bloku"nda, Suriya və İranı dəstəkləyən Hizbullah və Amal kimi şiə təşkilatları, eləcə də Aun tərəfdarı olan xristianlar "8 mart bloku"nda birləşdilər.*

Siyasi qüvvələr daxilində gərginlik yaranması zəminində Suriya yönümlü nazirlər hökuməti tərk etdi. Məqsəd Suriya əleyhinə hazırlanan BMT qətnaməsinin qarşısını almaq olsa da, nazirlərin istefası ölkədə qarşıdurmanı, nümayişləri və tətilləri yenidən gücləndirdi. Vəziyyətin gərginləş-

* Blokların adı 2005-ci ilin 8 və 14 martında keçirilən möhtəşəm nümayişlərin tarixindən götürülmüşdür.

məsinin digər səbəbləri isə 2006-cı ilin noyabrından 2008-ci ilin mayına qədər ömür sürmüş F.Senyoranın kabineti dövründə bir sıra deputat qətllərinin baş verməsi, sünni islamçıların çıxışları və Trablis yaxınlığında yerləşən Fələstin düşərgələrində problemlər yaşanması və 2007-ci ildə prezident postundan getmiş E.Lahuddan sonra yaranmış altı aylıq siyasi hakimiyyət boşluğu idi.

Eyni zamanda BMT sülhməramlı qüvvələrinin sayı artırıldı. Baş nazir F.Senyora yaranmış vəziyyətdən yararlanaraq ABŞ-la işgüzar münasibətlərin möhkəmlənməsi və genişlənməsinə cəhdlər etdi, ABŞ-ın Lübnan ordusuna göstərdiyi yardımların artırılmasına nail oldu. Bütün bunlar şiələr tərəfindən şübhə ilə qarşılanırdı. Özəlliklə də ABŞ-ın İsrailə yaxınlığı onlarda narahatlıq doğururdu. O biri tərəfdən Fransanın da münasibətlərində bir qeyri-müəyyənlik vardı. Lakin Suriya ilə münasibətlərdə prezident N.Sarkozinin də mövqeyində 2007-ci ilin mayından sonra müəyyən yumşalma yarandı. Dostlar sayılan Səudi Ərəbistan və Misir, ehtiyatla da olsa, Lübnanı dəstəklədiklərini nümayiş etdirirdilər. Bununla yanaşı, Suriya və İranın da müxalifətə köməyi öz qüvvəsində qalırdı. Bu da Lübnanda cərəyan edən müsbət yönümlü hadisə və proseslərin nikbin perspektivlərinə təhlükə törədirdi. Göstərilən yardımlar birbaşa olaraq Lübnanın güneyində yerləşən Hizbullah mərkəzlərinə, Saydadakı fələstinli qaçqın düşərgələrinə, Suriya sərhədlərində məskunlaşan Fələstin silahlılarına çatdırılırdı. Ən başlıcası isə, Suriya bəasçiləri Hizbullah təşkilatı ilə əməkdaşlıq edirdi. Bir yandan da 2007-ci ildə Parisdə keçirilən konfransda Suriyaya vəd edilən yardımların verilmə müddətinin qeyri-müəyyənliyi hökumətin nəzərdə tutduğu islahatların keçirilməsini çətinləşdirirdi.

Ümumiyyətlə, Lübnan tarixi üçün belə xarakterik məqamı da vurğulamaq istərdik ki, ölkədə konfessional sistem əsasında təşəkkül tapmış siyasi rejim onun rəhbərliyinə dünyanın islam və xristian dövlətlərinin dəstəyindən həmişə yararlanmaq imkanı vermişdir. Bu baxımdan 2008-ci ildə Lübnan parlamentində iri xristian blokunun rəhbəri general Mişel Aunun Suriyaya səfər etməsi və bu ölkənin rəhbərliyi ilə danışıqlar aparması diqqətçəkən fakt kimi dəyərləndirilə bilər. Belə ki, Suriya prezidenti B.Əsəd və onun Lübnandakı tərəfdarları BMT Təhlükəsizlik Şurasının qərarlarına qarşı ittifaq yaratmağa çalışsalar da, uğur qazana bilmədilər. Bəlli olduğu kimi, BMT Təhlükəsizlik Şurasının 2004-cü il və 2006-cı illər tarixli qətnamələrinə görə Suriya Lübnan ilə əlaqələr yaratmalı, Lübnan-Suriya sərhəd-

ləri dəqiqləşdirilməli idi. Lakin Lübnan Suriyaya qarşı çıxmaq istəmədiyindən səfirliyin açılmasına təkid etmirdi. Suriya isə vurğulayırdı ki, iki qardaş dövlətə sərhəd vacib deyildir. Yalnız beynəlxalq birliyin təzyiqi ilə Suriya 2008-ci ildə Lübnanla diplomatik münasibətləri qaydaya salmağa və səfirliklərin yaradılmasına razılıq verməyə məcbur edildi.

Lübnanda zorakılığın artmasına qarşı B.Əsədin yenidən hərbi müdaxiləyə əl atacağı ilə bağlı hədələrinə baxmayaq, BMT 2007-ci ildə R.Həririnin qətli ilə bağlı məhkəmə prosesinə başladı. Belə bir şəraitdə 2007-ci ilin sonunda ordu generalı Mişel Suleyman prezidentliyə namizədliyini irəli sürdü. Hizbullah da ona dəstək verdi. Lakin "8 mart bloku" milli barışıq hökumətində özlərinə veto hüququnu tələb etdi və yalnız bu halda prezident seçkisinin keçirilməsinə razı oldu. Yaranmış vəziyyətdə 2008-ci ilin mayında yenidən iğtişaşlar başladı. Hizbullah qoşunları Batı Beyruta – sünni bölgələrinə çıxarıldı və gərginlik son həddə çatdı. Bu səbəbdən də məsələyə Ərəb Dövlətləri Liqası vasitəçi kimi müdaxilə etdi. Əldə edilmiş barışıq M.Süleymana prezident seçilməyə imkan verdi. Müxalifət isə onun siyasətinə qarşı çıxmaq imkanını F.Sinyoranın başçılıq etdiyi yeni koalision hökumətdə yer almaqla əldə etdi.

Lübnanda 2009-cu il seçki kampaniyası ölkənin daxili və xarici siyasət kursunda müəyyən dəyişikliklər edilməsinə yol açdı. İttihamlı qərarların qəbul olunması dayansa da, Hizbullahnın təzyiqləri ara vermirdi. Seçkilərdə "14 mart" tərəfdarlarının qalib gəlməsi nəticəsində S. Həriri yeni hökumətin təşkilinə başladı. Lakin onun müttəfiqi olan V.Cumbulatın Suriya tərəfdarları düşərgəsinə keçmək qərarı əlavə problemlər yaratdı. V.Cumbulatın mövqelərindəki belə dəyişiklik Lübnandakı mövcud vəziyyətlə bağlı idi. O, iki qüvvə arasında balans yaratmağa cəhd edirdi. Əslində bununla seçkilərin nəticələri təhlükə altına düşür və gözlənilən qüvvələr tarazlığı pozulurdu. Elə 2009-ci ilin noyabrında mövcud hökumətə alternativ struktur yaratmaq cəhdi, - uğursuz olsa da, - baş verdi. Hökumət də vəziyyətin sabitləşməsi yolunda müəyyən addımlar atmaqda israrlı idi. Lakin göstərilən bütün cəhdlərin səmərəsi qısa müddətli olurdu.

Bunun da səbəbi ilk növbədə siyasi qüvvələrin strateji maraqlarının müxtəlifliyi ilə bağlı idi. Bununla yanaşı, dünyada və bölgədə cərəyan edən proseslər, qismən də olsa, Lübnanda siyasi istiqrarın möhkəmlənməsinə təsir etdi. Belə ki, Baş nazir S.Həriri 2010-cu ildə bir sıra ərəb ölkələrinə rəsmi səfərlərdə oldu. Səudi Ərəbistan, Suriya, Urdun və s. dövlətlərin başçıları

ilə danışıqlar apardı, regionda yaranan vəziyyəti, Lübnanın ərəb ölkələri ilə münasibətlərinin tənzimlənməsini, Ərəb-İsrail münasibətlərinin perspektivlərini müzakirə etdi.

Lübnanın aparıcı partiyalarının nümayəndələri 2009-cu ilin aprelində ümummilli dialoqun növbəti toplantısında ölkənin siyasi sistemi və siyasi həyatını müəyyənləşdirən sənədlərə - 1943-cü il Milli Paktına, 1989-cu il Taif və 2007-ci il Doha razılaşmasına sadiq olduqlarını bir daha bəyan etdilər.

Yaxın Doğuda geosiyasi güclərin çoxluğu Lübnan hökumətinin müxtəlif ölkələrdə aparılan danışıqlara xüsusi diqqət verməsini zəruri etdi. Özəlliklə də, Körfəzin geosiyasi və geoiqtisadi əhəmiyyəti burada ABŞ, Rusiya, Çin, İran, Türkiyə və s. dövlətlərin maraqlarının olmasından və müəyyən hallarda toqquşmasından xəbər verirdi. Təsadüfi deyildi ki, baş nazir S.Həriri 2009-cu ilin mayında ABŞ-a səfərindən və prezident B.Obama ilə apardığı danışıqlardan sonra Rusiya və Pakistan rəhbərləri ilə də görüşlər keçidi.

Ölkə həyatında baş verən hadisə və proseslərin, kövrək də olsa, belə bir normal məcrada davam etməsi, az sonra dünya iqtisadi böhranı və bölgədə baş verən "ərəb baharı" Lübnana da təsirsiz ötüşmədi. Lübnan gərgin hadisələr dövrü yaşadı. Belə ki, 2011-ci il yanvarın 12-də S.Həririnin başçılıq etdiyi milli birlik hökuməti müxalifətdən, əsasən Hizbullahdan olan 11 nazirin istefasından sonra dağıldı. Siyasi böhranın başlıca səbəbi hakim koalisiya və müxalifət arasında ziddiyyətlər və daha çox da R.Həririnin ölümü ilə bağlı tədqiqat barəsində fikir ayrılığı idi. 2011-ci ilin yayına qədər uzanan böhran Nəcib Miqatinin yeni baş nazir seçilməsi ilə başa çatdı. S.Həriri və onun tərəfdarları müxalifət düşərgəsinə keçdilər. Az sonra S.Həririyə qarşı korrupsiya ittihamı irəli sürüldükdə, o, ölkəni tərk etmək məcburiyyətində qaldı. Lübnanda nisbi sakitlik yarandı.

Lakin onu da unutmaq olmaz ki, ənənəvi olaraq Lübnanda siyasi və iqtisadi istiqrarın mövcudluğu və davamlılığı daxili amillərdən daha çox xarici amillərdən asılı olmuşdur. Elə bu səbəbdən də istər bütün dünyada, istərsə də bölgədə gedən proseslər ölkə rəhbərliyinin, siyasi və konfessional qüvvələrin diqqət mərkəzində idi.

Doğrudur, 2010-cü ilin sonlarında Tunisdə başlayan "ərəb baharı" bölgə dövlətlərinin bir çoxuna güclü təsir etdi və ciddi problemlər yaratdı, bəzilərində siyasi rejimlərin dəyişməsinə gətirdisə də, xaos dövründən yenicə çıxmaqda olan Lübnanı sarsıtmadı. Lakin Lübnanın müxtəlif tellərlə üzvi

bağlı olduğu qonşu Suriyaya da "ərəb baharı"nın gəlməsi və baş verən prosesin 2013-cü ilin martından yeni mərhələyə girməsi Lübnanda da oxşar arzu və istəklər törədə bilərdi. Bu baxımdan da demək olar ki, ölkənin gələcəyi konfessional sistemin sabitləşməsindən və ya tənzimlənməsindən və beynəlxalq birliyin dəstəyinin xarakter və davamlılığından daha asılı vəziyyətə düşmüş oldu.

# FƏLƏSTİN

XX əsrin əvvəllərində Fələstin Osmanlı imperiyasının tərkibində idi və ərazisi Suriya və Beyrut vilayətləri, eləcə də Qüds sancağı arasında bölünmüşdü. Fələstin iqtisadi cəhətdən geridə qalmış aqrar ölkə idi. Torpaqların əksəriyyəti iri mülkədarların əlində cəmləşmişdi, aztorpaqlı və torpaqsız kəndlilər isə bir qayda olaraq müəyyən icarə şərtləri əsasında feodal torpaqlarında çalışırdılar. İlk sənaye obyektləri faktiki olaraq XIX əsrin sonu – XX əsrin əvvəllərində yaranmağa başlamışdı. Məhz həmin dövrdə sahibkarlar bir sıra sənaye müəssisəsi aça bilmişdilər. Bu qəbildən sabun və yeyinti məhsulları emal edən fabrikləri, toxuculuq emalatxanalarını və s. göstərmək olar. Nəblus, Hayfa, Yaffa və Qüdsdə zeytun və küncüd yağı, Yaffa və Hayfada isə suvarma sistemi üçün hissələr istehsal edən iki kiçik müəssisə fəaliyyət göstərirdi. Sənaye sahəsində əhalinin təqribən 10%-i çalışırdı.

Həmin zaman kəsimində Fələstin öz tarixinin ən ağır problemi ilə üzləşməli oldu ki, bu da yəhudilərin orada bir milli ocaq yaratmaq və məskunlaşmaq planını gerçəkləşdirmək uğrunda güclü fəaliyyətə başlamasından ibarət idi. Belə ki, XIX əsrin 80-ci illərində Rusiyada antisemitizm ovqatının yüksəlməsi və yəhudi qırğınlarının geniş miqyas almasından qorxuya düşən yəhudilər Fələstinə köç etmək məcburiyyətində qaldılar. Yaranmış acınacaqlı vəziyyət yəhudi sionist liderlərinin hərəkətə gətirdi. Sionizm* hərəkatı geniş vüsət aldı və təşkilatlandı. Belə ki, 1896-cı ildə budapeştli jurnalist Teodor Hertselin "Yəhudi dövləti" adlı kitabı nəşr edildi. Ardınca isə 1897-ci ildə Dünya Sionist Təşkilatı quruldu. Avropa və Amerikadakı nüfuzlu və zəngin yəhudilər böyük dövlətlərə üz tutaraq, "Erets İsrail - Yəhudi məskəni" adlandırdıqları Fələstində bir yəhudi dövlətinin yaradılması üçün onlardan kömək və dəstək istəməyə başladılar. İlk əvvəl onlar Fələstini strateji cəhətdən əhəmiyyətli bölgə kimi dəyərləndirən və buradan bütün Yaxın Doğunu nəzarətdə saxlanmaq istəyən Almaniyaya müraciət etdilər. Lakin az sonra strategiyalarını dəyişərək Böyük Britaniya ilə yaxınlaşmağa başladılar. Qeyd etmək lazımdır ki, Böyük Britaniyanın da Fələstində xüsusi maraqları var idi. Bu ölkə Süveyş kanalına yaxın və imperiyanın bölgədəki əksər kommunikasiya sistemlərinin vacib nöqtəsi hesab olunurdu.

---

* Sionizm – Siona qayıdış ideyasıdır. Sion Qüdsün yerləşdiyi təpəliklərdən birinin adıdır. Tövrata görə yəhudi hökmüdarı Davidin iqamətgahı orada yerləşmişdir.

Sionistlərin I Konqresində qəbul olunan proqramda əsas məqsəd kimi "Yəhudi ocağının" yaradılması nəzərdə tutulurdu. Ancaq hələ o dövrdə sionist liderlərindən çoxu açıqca bildirirdi ki, bu "ocaq" yəhudi dövlətinin yaradılması yolunda yalnız bir mərhələ olacaqdır. Gələcək yəhudi dövlətinin coğrafi çərçivəsi daha geniş düşünülürdü və bura Fələstin torpaqları ilə yanaşı bir sıra digər ərəb əraziləri daxil edilməli idi. Eyni zamanda, yaradılan Dünya Sionist Təşkilatı (DST) Fələstinin işğalı məqsədilə bir sıra iqtisadi qurumlar da təsis etdi. Onlardan Yəhudi Məskunlaşma Bankı (1899), Yəhudi Milli Fondu (1901) və onun şöbəsi olan İngilis-Fələstin Bankını (1902) göstərmək olar. Lakin ilk dövrlərdən DST yəhudi əhalisinin Fələstinə kütləvi köçünü və burada fəal məskunlaşma siyasətini yetərincə təşkil edə bilmirdi. Bunun əsas səbəbi isə böyük dövlətlər sırasından güclü himayədar tapılmaması və sionistlərin ideya-siyasi dəyərlərinin yəhudi əhalisi tərəfindən yetərincə dəstəklənməməsi idi. Qeyd edək ki, hələ XIX əsrin 80-ci illərində yəhudilərin Avropadan Fələstinə sırf dini məqsədlərlə gəlməsi də başlamışdı. Yəhudi axınının ilk dalğası heç də sionist çağırışları ilə bağlı deyildi və bu ilk növbədə yəhudilərə qarşı yürüdülən ayrı-seçkilik siyasətindən, kiçik sahibkarlar və sənətkarların kütləvi şəkildə müflüsləşməsindən irəli gəlirdi. 1882-1890-cı illər arasında Fələstində cəmi 50 minə qədər yəhudi məskunlaşmışdı. Bu səbəbdən də DST maliyyə dəstəyini genişləndirdi. Həmin vəsaitlər də əsasən torpaq sahələri əldə edilməsi üçün sərf edildi. Nəticədə, Fələstində yəhudilərə məxsus torpaq sahələrinin miqyası artdı. 1899-cu ildə onların əlində 247 min dunam (dunam - 0,42 ha) ərazi var idisə, bu rəqəm 1920-ci ildə 450 minə çatmışdı.

Bu da bəllidir ki, I Dünya müharibəsi ərəfəsində və illərində Böyük Britaniya ərəblərlə də geniş əlaqələr qurmuşdu və onları Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara qoşmağa çalışırdı. Bunun müqabilində isə ərəblərə müstəqil ərəb dövlətinin yaradılmasını vəd edirdi. Bu təklif 1915-1916-cı illərdə Böyük Britaniyanın Misirdəki Ali Komissarı H.Mak-Maqon ilə Məkkə şərifi Hüseyn əl-Haşimi arasında aparılan yazışmalarda da öz əksini tapmışdı. Həmin vədlərə inanan ərəblər 1916-cı ilin iyulunda Osmanlı dövlətinə qarşı üsyana qalxmışdılar. Lakin hadisələrin sonrakı gedişində bu vədlərin yalan olması üzə çıxdı. Məlum oldu ki, Böyük Britaniya Ərəb dünyasında heç də öz müstəmləkə siyasətindən əl çəkmək niyyətində deyildir. Bunun bariz nümunəsi onun Fransa ilə 1916-cı il mayın 16-da Osmanlı imperiyasının Asiya hissəsinin bölüşdürülməsi haqqında imzaladığı və ta-

rixdə Sayks-Piko sazişi kimi tanınan gizli razılaşma idi. Sazişə əsasən Fələstin üzərində beynəlxalq nəzarət tətbiq olunmalı idi. Bu, Böyük Britaniya üçün hərbi şəraitə uyğun atılmış bir addım idi. Böyük Britaniya bununla həm də Fələstinlə bağlı ərəblərə verilmiş vədlərdən yayınmaq istəyirdi. Ən başlıcası isə I Dünya müharibəsi illərində bu dövlət sionist liderləri ilə sıx ünsiyyətdə idi və onların təzyiqi ilə yəhudi milli ocağının yaradılması ideyasını dəstəkləyirdi. Nəhayət, Böyük Britaniyanın bu mövqeyi xarici işlər naziri lord Balfurun 1917-ci il noyabrın 2-də ildə sionist dairələrin nümayəndəsi bankir Rotşildin adına göndərilmiş məktubunda bəyanat formasında öz əksini tapdı. Bəyanatda deyilirdi ki, Böyük Britaniya Fələstində yəhudi milli ocağının yaradılması ideyasına rəğbətlə yanaşır və onun reallaşması üçün səylər göstərməyə hazırdır. Balfur Bəyannaməsinə görə, faktik olaraq Böyük Britaniya Fələstini gələcək ərəb dövlətinin tərkibinə qatmaqdan imtina edir və onun beynəlxalq nəzarət altına verilməsinə çalışırdı. Eyni zamanda, Böyük Britaniya və Fransa ərəb liderlərini və əhalini narazı salmamaq üçün 1918-ci il noyabrın 7-də Fələstin, Suriya və İraq əhalisinə müraciət ünvanlamış, onların milli hüquqlarına ehtiramla yanaşmaq və dəstək vermək vəd etmişdilər. Lakin sonralar bütün bunlar kağız üzərində qaldı. Öncə 1919-cu ildə Suriyanın Fransaya verilməsi müqabilində o, Böyük Britaniyanın Fələstinə yönələn iddialarını tanıdı. 1920-ci il aprelin 25-də isə San-Remo konfransında Antanta dövlətlərinin Ali Şurası Böyük Britaniyaya Fələstin üzərində mandatlıq hüququ verdi. Konfransın qərarları 1922-ci il iyulun 24-də Millətlər Cəmiyyətinin Baş Şurası tərəfindən qəbul olundu. 1923-cü il sentyabrın 29-da isə mandatlıq rəsmən qüvvəyə mindi. Bütün qanunverici və icra hakimiyyəti mandatlıq əldə edən ölkənin əlində cəmləşdi. Böyük Britaniya Fələstinin məhkəmə sistemini, xarici əlaqələrini də tam nəzarət altına aldı və burada qoşun saxlamaq hüququ əldə etdi. Mandatlıq sənədi mətninə həm də Balfur bəyannaməsinin bəndləri daxil edilmişdi: Böyük Britaniya Fələstinə yəhudi köçünü dəstəkləməli və Fələstin torpaqlarında onların məskunlaşmasına şərait yaratmalı idi. Fələstin ərazisində boş torpaqların olmaması şəraitində bu siyasətin həyata keçirilməsi, təbii ki, ərəb fəllahlarının torpaqları hesabına ola bilərdi. Fələstində öz hakimiyyətini qurduqdan sonra Böyük Britaniya ölkədə bütün əsas mövqeləri ələ keçirdi. Fələstin funt sterlinq zonasına daxil edildi. Onun Böyük Britaniyadan iqtisadi asılılığı daha da artdı. Eyni zamanda, mandatlıq hakimiyyəti Fələstinin sionistlər tərəfindən işğalına və bunun hüquqi cəhətdən

əsaslandırılmasına dəstəyini artırdı. 1920-ci ilin oktyabrında "Torpaqların verilməsi" haqqında qəbul olunan qanuna görə, ölkədə torpaq azad alqı-satqı obyekti oldu. Bununla da torpaqların sionistlər tərəfindən mənimsənilməsi qanuni çərçivəyə salındı. Böyük Britaniya sionist planlarının həyata keçirilməsinə dəstək verməklə yanaşı, həm də ərəb feodal dairələri ilə geniş əməkdaşlığa girərək, guya ərəblərin maraqları və mənafelərinə rəğbətini nümayiş etdirirdi. Bu siyasət 1920-1925-ci illərdə Fələstində ilk Ali komissar olmuş H.Semüelin idarəçiliyi dövrü üçün çox xarakterik idi. Sionistlərin ən yaxın tərəfdarı kimi ad çıxarmış H.Semüel mandatlıq idarəsinin başçısı kimi onlara daha artıq imkanlar yaratmaqla yanaşı ərəb liderləri ilə də əlaqələri genişləndirməyə çalışırdı. O, hətta ərəblərdən ibarət Məsləhət Şurası yaradılması ideyasını geniş təbliğ edirdi. Bu ideya gerçəkləşməsə də, H.Semüel qatı şovinist görüşləri ilə seçilən ərəbləri, xüsusilə də din xadimlərini müəyyən vəzifələrə gətirdi. Bu tədbir əslində ərəblərin maraqlarından daha çox mandatlıq idarəsinin ərəb-yəhudi ixtilaflarını qızışdırmaq planına xidmət edir, yerli ərəb əhali və yəhudi köçkünlər arasında milli-dini düşmənçiliyi kəskinləşdirmək zəminində xalqın mövcud vəziyyətə qarşı narazılığını azaltmaq məqsədi güdürdü. Bütün bunlara baxmayaraq, Böyük Britaniya mandatlıq idarəsinin sionistpərəst siyasətinə qarşı ərəblərin etirazı artır və acıq şəkildə üzə çıxırdı.

Vəziyyətin kəskinləşməsini qabaqlamaq məqsədilə 1922-ci ilin iyununda Böyük Britaniya özünün Fələstin siyasətinə dair prinsiplərini ehtiva edən "Ağ kitab" (Çörcil memorandumu) adlanan sənəd dərc etdirdi. Orada göstərilirdi ki, Balfur bəyannaməsinin əsas məzmunu bütün Fələstində yox, onun bir hissəsində yəhudi dövlətinin yaradılmasından ibarətdir. Əvvəllər olduğu kimi, Böyük Britaniya indi də yəhudi köçünün davamına təminat verirdi. Lakin qeyd edilirdi ki, köçənlərin sayı ölkənin iqtisadi imkanlarına uyğunlaşdırılmalıdır. "Ağ kitab"da sionist təşkilatlarının Fələstinin idarəçiliyinə cəlb edilməməsi vədi verilir, ölkənin gələcək parlamentində yerli əhalinin bütün milli və dini təbəqələrinin təmsil olunması nəzərdə tutulurdu. Lakin Böyük Britaniyanın gerçək fəaliyyəti 1922-ci ilin "Ağ kitab"ı ilə ziddiyyət təşkil edirdi. Bu siyasət ərəb əhalisinin səbr kasasını doldurdu və həmin səbəbdən də 1929-cu ildə üsyan baş verdi. Üsyan asanlıqla yatırıldı. Lakin dərhal sonra üsyanın baş vermə səbəbərini aşkarlamaq və gərginliyin aradan qaldırılması yollarını aramaq məqsədi ilə Böyük Britaniya iki komissiya yaratdı. 1929-cu ilin sonu - 1930-cu ilin əvvəlində Şounun başçılıq

etdiyi bir komissiya gələcəkdə iğtişaşların qarşısını almaq üçün müəyyən tövsiyyələr hazırladı. Simpsonun komissiyası isə ölkənin iqtisadi vəziyyətini öyrəndi. Onların hesabatında belə bir fikir səsləndi ki, sionistlərin məskunlaşma siyasəti ərəblər tərəfindən onların gələcək taleyinə ciddi təhlükə kimi qiymətləndirilir. Buna görə də, kəndli yəhudilərin Fələstinə köçünü dayandırmaq tövsiyə edilirdi. Hesabatda o da göstəriliridi ki, Fələstində yəhudilərin dəstəklənməsi siyasəti Böyük Britaniya milli maraqlarına ziddir və dövlətin mövqelərinin möhkəmlənməsinə xidmət etmir. Bu fikir həm də 1930-cu ilin oktyabrında dərc olunan və Böyük Britaniyanın Fələstində aparacağı siyasəti ehtiva edən yeni "Ağ kitab"da da səsləndi. Burada yenidən təkrarlandı ki, yəhudi köçkünlərin sayı ölkənin iqtisadi imkanını aşmamalı, 1929-cu ildə yaradılmış Yəhudi Agentliyi ölkənin idarəetməsinə iddialı olmamalıdır. Agentlik haqqında həndin "Ağ kitab"a salınması ərəbləri sakitləşdirmək, sionistləri isə mandatlıq hakimiyyətinin nəzarətindən çıxmaq cəhdlərini önləmək məqsədilə edilmişdi. Güya ərəblərin hüquqlarını qorumağa yönəlmiş "Ağ kitab" əslində mandatlığın əsas prinsiplərini yenidən dilə gətirirdi. Eyni zamanda, Böyük Britaniya sionizmə olan rəğbətini nümayiş etdirir, "yəhudi ocağı"na sədaqətini təsdiqləyirdi. Lakin sionistlər burada olan bir sıra məqamlarla, Böyük Britaniyanın ərəblər və yəhudilər qarşısında götürdüyü bərabər öhdəliklər ilə razılaşmadıqlarını bildirdilər. Onlar Böyük Britaniya hakimiyyəti əleyhinə təzyiq kampaniyasına başladılar.

Əslində "Ağ kitab"a qarşı sionistlərin bu narazılığı Balfur Bəyannaməsinin elanından keçən dövrdə onların mövqelərinin güclənməsinin göstəricisi idi. Bu sionistlərin Böyük Britaniya ilə yeni münasibətlər mərhələsinə qədəm qoymasına dəlalət edirdi. Başqa sözlə, sionizm liderləri artıq Böyük Britaniyanın himayəsi altından çıxmağa cəhd göstərir və yəhudi dövlətinin yaradılması problemini açıq şəkildə ortaya qoyurdular. Faktiki olaraq, "Ağ kitab"a yox, onların həmin dövrdə Fələstinlə bağlı planlarına uyğun olmayan mandatlıq şərtlərinə qarşı çıxırdılar.

Böyük Britaniya təzyiqlər qarşısında geri çəkildi. 1931-ci il fevralın 15-də Baş nazir R.Makdonald DST lideri H.Veysmana göndərdiyi məktubda bildirdi ki, yəhudilərin Fələstinə köç etməsi və onların burada torpaqla təmin edilməsi Böyük Britaniyanın bu ölkədəki fəaliyyətində əsas yer tutur və belə də davam edəcəkdir. Bununla da sionistlərə Fələstinə müdaxilə və orada öz istəklərinə uyğun yəhudi dövləti yaratmaq üçün geniş imkanlar açıldı. Planların reallaşması isə yəhudilərin sayca çoxluğunu tələb edirdi. Bu sə-

bəbdən sionist liderlər bütün səylərini mühacirətin genişlənməsinə yönəltdilər.

Qeyd edək ki, bütün məhdudiyyətlərə rəğmən 1920-ci ilin sentyabrından 1929-cu ilə qədər Fələstinə 100 minə qədər yəhudi köçmüşdü. Mühacirlərin ən böyük sayı – 34 minə yaxın – 1925-ci ilə təsadüf edir ki, bu da, birincisi, Polşada kiçik və orta yəhudi burjuaziyasının hüquqlarına zidd bir sıra qanunların qəbulu, ikincisi, ABŞ hökumətinin ölkəyə mühacirətin məhdudlaşmasına yönəlmiş tədbirləri ilə əlaqədar idi. 1926-1927-ci illərdə Fələstini bürümüş iqtisadi böhran buraya olan axını azaltmışdı. Həmin dövrdə ölkəyə cəmi 13 min adam gəlmiş, 7 mini isə oranı tərk etmişdi. Müqayisə üçün deyək ki, I Dünya müharibəsindən sonrakı on ildə Fələstinə 100 min yəhudi gəlmişdisə, həmin müddət ərzində ABŞ-da bu göstərici 340 min təşkil edirdi. Təbiidir ki, bu fərq Avropanın yəhudi əhalisi arasında sionist ideologiyasının o qədər də dəstək qazanmaması ilə bağlı idi.

Odur ki, yəhudilərin məhz Fələstinə köç etməsi üçün sionistlər bu ölkədə lazımi şərtlərin və şəraitin hazırlanmasına hər zaman xüsusi önəm verirdilər. Bu işə Fələstində Böyük Britaniya mandatlığının bərqərar edilməsindən dərhal sonra başlanılmışdı. Əsas hədəflərdən biri ölkə iqtisadiyyatında əsas mövqeləri ələ keçirmək idi. Bu məqsədlə onlar Batı Avropa və ABŞ-da zəngin yəhudilərin böyük maddi dəstəyi ilə əsasən iri torpaq sahələrini satın alır, bununla da özlərinə məxsus iri torpaq mülkiyyətinin əsaslarını yaratmış olurdular. Bu proses ərəb kəndlilərinin həmin torpaqlardan kütləvi sürətdə qovulması ilə nəticələnirdi. Ona görə ki, yəhudilər özlərinə məxsus olan müəssisələrdə yalnız yəhudi əməyindən istifadə edirdilər. Bu məsələdə onlara ilk dövrlərdə ingilis polisi və ordusu yaxından kömək edirdi.

Torpaqdan qovulmuş ərəb fəllahları şəhərlərə köçməyə məcbur olur və daha çox oradakı işsizlər ordusuna qoşulurdular. Bununla yanaşı, fələstinli bədəvilərə məxsus olan torpaqların ələ keçirilməsi onları qonşu ölkələrə köçməyə vadar edirdi. Bunun nəticəsi idi ki, XX əsrin 20-ci illərində ölkədə bədəvilərin sayı 2 dəfə azalmışdı. Eyni zamanda, sionistlər çalışırdılar ki, Fələstində məhz yəhudilərə məxsus aqrar və sənaye bölmələri, eləcə də kommunikasiya sistemi kimi iqtisadi bölmələr təşəkkül tapsın. Odur ki, bu sahələrə sərmayə qoyuluşuna başlamışdılar və artıq həmin illərdə onun məbləği 26 mln. fələstin funtuna çatmışdı. Eyni zamanda, sionistlər Fələsindəki Böyük Britaniya idarəçiliyi və Londondakı lobbilərin vasitəsi ilə konsessiyaların paylaşdırılmasından özlərinə pay da almağa cəhd edir və

əksər hallarda buna nail olurdular. Hakim iqtisadi mövqelərə yiyələnməklə yanaşı sionistlər Fələstin üzərində onlara tam nəzarət imkanı verən siyasi mühitin formalaşmasına da önəm verirdilər. Bu səbəbdən onlar aşağıdakı fəaliyyət istiqamətlərinə xüsusi diqqət verirdilər: birincisi, yəhudi icmasının siyasi vəziyyətini möhkəmləndirmək və onu ölkənin gələcəyini müəyyənləşdirə biləcək həlledici qüvvəyə çevirmək; ikincisi, ərəblərə öz doğma vətənində elə şərait yaratmaq ki, onlar burada özlərini yad ünsür kimi hiss etsin, yaşadığı yerləri tərk etməyə məcbur olsun və bununla da, ölkədəki demoqrafik durum dəyişsin. Bu da nəticə etibarı ilə, yəhudilər və ərəblər arasında normal insani münasibətlərin pozulmasına gətirməli idi və belə də oldu.

Ərəblər və yəhudilər arasında münasibətlərin gərginləşdirilməsi iki məqsəd güdürdü: birincisi, ərəb əhalisinin ölkədən qovulması üçün zəmin yaratmaq; ikincisi, ərəblərlə yəhudi mühacirləri arasındakı qarşıdurmadan istifadə edərək, yəhudi əhalisini sionist təşkilatlarına sığınmağa və onların ətrafında birləşməyə vadar etmək. Sionistlər yəhudi əhalisi arasında ərəblərə qarşı nifrət hissi yaradır, icmanın Fələstində yaşaması üçün digər milli qruplara qarşı sərt davranmağın vacibliyini təlqin edirdilər. Sionistlər Böyük Britaniya idarəçiliyi vasitəsilə Fələstində iqtisadi və siyasi strukturların, hərbi birliklərin elə şaxəli sistemini yaradırdılar ki, bu, gələcək yəhudi dövlətinin infrastrukturunun qurulmasında zəmin olsun.

Sionist liderlər öz ideya və məqsədlərini 1920-1930-cu illərdə yaradılan bir sıra siyasi partiyalar vasitəsilə yəhudi əhalisi arasında yayırdılar. Onlardan "Poaley Sion" - "Sionun fəhləsi" (1919-cu il), "Ahdut Qaavoda" - "Əməkçilərin birliyi" (1920-ci il), "Hapoel Hatsair" - "Gənc fəhlə" eləcə də "Mizrahi" və "Aqudad İsrael" kimi dini partiyaları göstərmək olar. Qeyd edək ki, 1930-cu ildə "Ahdut Qaavoda" və "Hapoel Hatsair" partiyalarının birləşməsindən yaranan MARAY - Fələstin fəhlələrinin partiyası yəhudilər arasında böyük nüfuza malik idi.

XX əsrin 30-cu illərində Fələstində yəhudilərin artıq ilk hərbləşdirilmiş təşkilatları yaradıldı. Onlardan hələ 1920-ci ildə sionistlərin yaratdığı "Haqana" ("Müdafiə") adlı yarımleqal hərbləşdirilmiş təşkilat faktiki olaraq gələcək yəhudi ordusunun ilk forması idi. Yarandığı gündən Fələstini ələ keçirmək prosesində "Haqana" aparıcı qüvvə kimi çıxış etmiş, ərəblərin kütləvi sürətdə öz torpaqlarından qovulmasında, kəndlərdə narazılıqların və şəhərlərdə nümayişlərin yatırılmasında ondan yetərincə istifadə olunmuşdu.

Sionistlərin önəm verdiyi məsələlərdən biri də Fələstində yəhudi icma-

sına məxsus idarəçilik strukturlarının yaradılması olmuşdur. İrəlicədən qeyd edək ki, onlar bu sahədə yaradılan strukturlara gələcək yəhudi dövlətinin ali hakimiyyət orqanları kimi baxırdılar. Bu məqsədlə XX əsrin 20-ci illərində yəhudi icmasının daxili həyatını tənzimləyən Təmsilçilər Məclisi və onun icra orqanı olan Milli Komitə yaradılmışdı. Dini xarakterli problemlərlə isə Ravvinlər Şurası məşğul olurdu. Bütün bunlar imkan verdi ki, 30-cu illərdə sionistlər Fələstində məskunlaşdırma siyasətindən bütün ölkəyə nəzarət siyasətinə keçsinlər. Fələstinə köçün miqyası genişləndi: 1930-1932-ci illərdə 18 min, 1933-cü ildə 30 mindən çox, 1934-cü ildə 42 min, 1935-ci ildə isə artıq 62 min nəfər Fələstinə köçürüldü. Bunlar qanuni yollarla gələnlər idi. Həmin dövrdə qeyri leqal mühacirlərin sayı 15,5 min nəfərə çatmışdı.

Təbiidir ki, bütün bunlar Şou-Simpson komissiyalarının tövsiyələrinə əməl edilməməsinin nəticələri idi. Bu hal sionistlərin yeni-yeni torpaqlar ələ keçirməsində də müşahidə olunurdu. Belə ki, onlar 1933 və 1934-cü illərdə müvafiq olaraq 32 və 62 min, 1935-ci ildə isə artıq 73 min dunam torpaq əldə etmişdilər. Yəhudi kənd yaşayış məntəqələrinin sayı da durmadan artırdı: 1936-ci ildə onların sayı 2008-ə çatırdı ki, bu da 1927-ci illə müqayisədə təxminən 90% çox idi. Orada yaşayanların sayı da bu dövrdə 40 mindən 98 min nəfərə qalxmışdı.

XX əsrin 30-cu illərində sionistlərin Fələstin iqtisadiyyatında mövqeləri də xeyli artmışdı. Bu həm 1929-cu ilin avqustunda yaradılan Yəhudi Agentliyinin ("Soxnut") vasitəsilə Batı Avropa və ABŞ yəhudi icmalarına məxsus kapitalının prosesə cəlb olunması, həm də mühacirlər sırasında zənginlərin sayının artması ilə bağlı idi. Qeyd edək ki, yəhudilər tərəfindən 1930-cu ildə iqtisadiyyata 2 milyon fələstin funtu məbləğində investisiya qoyulmuşdusa, bu rəqəm 1937-ci ildə 11 milyona çatmışdı. Nəticədə, yəhudilərə məxsus sənaye müəssisələrinin sayı 1930-cu ildəki 2,5 mindən 1937-ci ildə 5,5 minə qədər artmışdı.

Xüsusi vurğulamaq istərdik ki, Fələstində yəhudi işğalı özünün hər bir mərhələsində ərəb əhalisinin ciddi müqaviməti ilə rastlaşmışdır. Hələ XX əsrin əvvəllərindən başlayaraq ölkənin müxtəlif rayonlarında kənd əhalisinin vaxtaşırı çıxışları baş verirdi. Böyük Britaniyanın bu ölkədə 1918-1948-ci illəri ehtiva edən hakimiyyəti dövründə Fələstin ərəb xalqının azadlıq hərəkatı çox ağır və çətin şərtlərlə üz-üzə qalmışdı. Bu da o səbəbdən idi ki, həmin illərdə Fələstində yaranmış vəziyyət özünəməxsusluğu ilə fərqlənirdi.

Başqa sözlə desək, ərəblər eyni zamanda iki cəbhədə – bir tərəfdən onların hüquqlarını pozan Böyük Britaniya mandatlıq rejiminə, o biri tərəfdən isə yəhudi köçünün yaratdığı məhrumiyyətlərə qarşı mübarizə aparmaq zorunda qalmışdılar.

I Dünya müharibəsi bitdikdən sonra ərəblərin mübarizəsi daha da genişləndi və təşkilati forma aldı. Hərəkatın rəhbər qurumu Fələstin Ərəb Konqresi, onun icraedici orqanı isə Ərəb İcraiyyə komitəsi idi. Bu orqan 1920-ci ildən başlayaraq dövri olaraq toplaşır və problemlərin həlli haqqında müəyyən qərarlar qəbul edirdi. 1934-cü ilə qədər Konqresə millətçi liderlərdən Musa Kazım əl-Hüseyn başçılıq etmişdir.

Məhz bu təşkilatın yaradılmasından sonra ərəblərin sionist işğalına qarşı çıxışları məhəlli səviyyədən çıxdı və mütəşəkkilləşdi, ölkə miqyaslı hərəkata çevrilməyə başladı. Bu, özünü ilk dəfə 1921-ci ilin may üsyanı zamanında göstərdi. Ərəblər və sionist hərbi dəstələri arasında Yaffada başlamış toqquşmalar zəminində bölgə xalqı üsyana qalxdı. Üsyan tez bir zamanda Fələstinin mərkəzi hissələrinə yayıldı və iki həftə davam etdi. Üsyanın səbəblərini araşdırmaq üçün yaradılmış komissiya ərəblərin kütləvi narazılığını sionistlərin zorakı hərəkətləri və yəhudi mühacirətinin artması ilə izah etdi.

XX əsrin 20-30-cu illərində Fələstin ərəbləri milli hərəkatının rəhbərləri sionist fəaliyyətinin dayandırılmasını və ölkəyə müstəqillik verilməsini tələb edirdilər. Eyni zamanda, onlar Böyük Britaniya mandatlıq idarəsi ilə qarşıdurmadan çəkinirdilər. Böyük Britaniya mandatlıq idarəsinin siyasətinə gəlincə o, Fələstin hakim dairələrini əməkdaşlığa çağırır və onlara yerli özünüidarə sistemi qurulmasına təminat vədi verirdi. Ərəblər də, öz növbəsində, mandatlıq idarəsi ilə yaxınlaşmağa meyl göstərir və ümid edirdilər ki, onun vasitəsilə Böyük Britaniyanı "yəhudi ocağı" yaradılması ideyasını dəstəkləməkdən çəkindirə bilərlər. Bu məqsədlə fələstinlilər 1921-1923-cü illərdə üç dəfə Londona Böyük Britaniya hökuməti ilə danışıqlar aparmaq üçün nümayəndə göndərdilər. Lakin onlar heç nəyə nail ola bilmədilər. Əksinə, Böyük Britaniya ilə razılıq əldə edilməsi cəhdləri bütün hallarda ərəblərin azadlıq hərəkatının inkişafına əngəl törədirdi. Təbiidir ki, bu da Böyük Britaniyanın maraqlarına cavab verirdi. Hadisələrin belə gedişi ərəblərin narazılığını durmadan artırır, onların mübarizə əzmini yüksəldirdi. Bu mübarizənin zirvə nöqtəsi 1929-cı il usyanı oldu. Belə ki, həmin dövrdə ölkədə daxili siyasi vəziyyət son dərəcə kəskinləşmişdi və kiçik bir qığılcım böyük

partlayışa gətirib çıxara bilərdi. Məhz 1928-ci ildə ərəb və yəhudi dini icmaları arasında Qüdsdə yerləşən "Ağlayan Divarlar" məbədi ətrafında yaranmış münaqişə gözlənilən nəticəyə gətirdi – partlayış baş verdi. Böyük Britaniya mandatlıq idarəsi vəziyyəti tənzimləmək əvəzinə dini ixtilafları qızışdırmağa başladı. 1928-ci ilin noyabrında isə Böyük Britaniya rəsmi olaraq yəhudilərin tərəfində durdu və bu da sionistlərin açıq hücuma keçməsi ilə nəticələndi. 1929-cu ilin avqustunda onlar "Ağlayan Divarların" yanında ərəblərin dini və milli hisslərinə toxunan şuarlarla müşayiət olunan nümayişlər təşkil etdilər. Avqustun 20-də isə ərəblər və yəhudilər arasında iğtişaşlar başladı. Münaqişə qısa bir zamanda genişlənərək ümümərəb üsyanına çevrildi və Fələstinin böyük şəhərlərinə yayıldı. Üsyanın gedişində bəzən dini və milli zəmində toqquşmalar olsa da, onun ana xəttini sionistlərin Fələstində kütləvi məskunlaşmasına qarşı mübarizə təşkil edirdi. Fələstin Ərəb Konqresi mandatlıq idarəsinin təzyiqi ilə ərəb əhalini silahlı mübarizədən çəkindirməyə çalışırdı və milli məqsədlərə dinc yollarla çatmağı tövsiyə edirdi. Nəticədə, nümayişlər rəhbərsiz qaldı və məğlubiyyətə uğradı. 1929-cu il sentyabrın ortalarında mübarizənin əsas mərkəzləri dağıdıldı, ərəblərə qarşı geniş və sərt repressiyalar başladı. Bunlara baxmayaraq, ölkədə sakitlik yaratmaq xeyli vaxt aldı və vəziyyət gərgin olaraq qalırdı.

Üsyan yatırıldıqdan sonra ərəb azadlıq hərəkatının siyasi platformasında keyfiyyət dəyişiklikləri baş verdi. Bu da Fələstində sionist işğalı çərçivəsinin daha da genişlənməsi, ölkənin ərəb xarakterini itirməsi təhlükəsinə qarşı xalq kütlələrinin mübarizəyə daha fəal qoşulmasından irəli gəlirdi. Həmin məsələdə Fələstində ərəb cəmiyyətinin məruz qaldığı sosial dəyişikliklər az rol oynamırdı. Belə ki, bir tərəfdən ölkədə kapitalist münasibətlərinin inkişafı sosial-siyasi proseslərə təsir edir, digər tərəfdən isə kəndlilərin torpaqsızlaşması sosial durumda gərginlik yaradırdı. Nəticədə, həmin qrup əhali siyasi baxımdan daha mübariz və dinamik kütləyə çevrilmişdi. Məhz elə onlar da 30-cu illərdə baş verən müqavimət hərəkatının, xüsusilə də 1933-cü il üsyanının əsas iştirakçıları oldular. Üsyanın ömrü qısa olsa da, o, azadlıq hərəkatının sonrakı inkişafına güclü təsir göstərdi, yeni bir mərhələnin başlanğıcını qoydu.

Üsyan oktyabrın 27-də Yaffada ümumi tətil və kütləvi nümayişlə başladı. Polis və silahlı qüvvələr nümayişçilərə qarşı güc tətbiq etdilər. Bu haqda məlumatlar tez bir zamanda ölkəyə yayıldı, bütün böyük şəhərlərdə də tətillər başladı. Fəllahlar və bədəvilər partizan hərəkatına başladılar. Üsyanın

gedişində ərəblərin azadlıq hərəkatının hədəfləri genişləndi və bu hərəkat yalnız yəhudi köçləri və məskunlaşmasına qarşı deyil, həm də Böyük Britaniya mandatlıq idarəsinin antiərəb siyasətinə qarşı çevrildi. Formalaşmaqda olan Fələstin ərəb burjuaziyasının öndə olan təmsilçiləri hərəkata liderlik etmək uğrunda fəallaşdılar. Eyni zamanda, onların mübarizəyə baxışları da dəyişdi. Bu səbəbdən də 1934-cü ildə Fələstin Ərəb Konqresi parçalandı. Onun bir hissəsi Böyük Britaniya mandatlıq rejimi ilə əməkdaşlığı davam etdirməkdə israrlı idisə, digərləri onun yürütdüyü siyasətə qarşı idilər. Baş verən parçalanma ərəblərin mübarizə ovqatına təsir etsə də, onun gedişini pozmadı. Ayrı-ayrı yerlərdə kəndli iğtişaşları və şəhərlilərin çıxışları aramsız olaraq davam etməkdə idi. 1935-ci ilin noyabrında isə Hayfada yerli din xadimi İzzəddin əl-Qəssaminin rəhbərliyi altında başlanan silahlı üsyan ərəblər arasında canlanma və özünə inam yaratdı. Üsyanın tezliklə yatırılmasına və onun rəhbəri İ.əl-Qəssaminin öldürülməsinə baxmayaraq, noyabrın 26-da ərəb siyasi liderlərinin Böyük Britaniya mandatlıq idarəsinə birlikdə təqdim etdiyi memorandumda Fələstində demokratik milli hökumət yaradılması, yəhudilərə torpaq satışına qadağa qoyulması və yəhudi köçlərinin dayandırılması tələbləri irəli sürüldü.

Böyük Britaniya hakimiyyəti gərginliyin aradan qaldırılması məqsədilə geri çəkildi və hələ 20-ci illərdə irəli sürülmüş Qanunverici Şura layihəsinə qayıtmaq təklifi ilə çıxış etdi. Layihəyə görə həmin Şurada bütün dini icmalar öz sayına uyğun təmsil olunmalı idilər. Ərəb liderləri layihəni onun yarımçıq xarakterinə görə tənqid etsələr də, sonda Şurada ərəblərin sayı 2/3 olmaqla, qəbuluna razılıq verdilər. Yəhudilər isə layihədən kəskin şəkildə imtina etdilər və bildirdilər ki, onlara ərəblərlə eyni siyasi hüquqlar verilməsinə heç cür razı ola bilməzlər. Onların fikrincə, bu, yəhudi dövlətinin yaradılması məqsədinə zidd idi.

Hadisələrin belə bir məcraya düşməsi səbəbindən 1936-cı ilin aprelində siyasi vəziyyət ağırlaşdı. Az sonra isə ölkə tarixində ən davamlı və güclü üsyan baş qaldırdı. Üsyan ilk mərhələdə şəhərlərdə ümumi tətil forması aldı və 170 gündən artıq davam etdi. Kənd yerlərində isə üsyan hərbləşdirilmiş sionist dəstələrinə və mandatlıq polisi və hərbçilərinə qarşı silahlı partizan mübarizəsi şəklini aldı. Ərəb əhalinin orta və aşağı təbəqələrinin siyasi fəallığı nəticəsində bir çox şəhər və kəndlərdə 1936-ci ilin aprelindən başlayaraq milli komitələr yarandı. Hərəkatda aparıcı mövqe əldə etmək məqsədilə bütün ərəb partiyalarının rəhbərləri Əmin əl-Hüseyninin başçılığı ilə həmin

ildə Ali Ərəb Komitəsi (AƏK) adlı qurumda birləşdilər. AƏK hərəkatın aparıcı mərkəzi elan edildi və o, ərəb əhalini ümumi tətilə çağırdı.

Mandatlıq idarəsinin tətillərin qarşısını almaq və üsyançı dəstələri silah gücünə yatırmaq istiqamətində uğursuzluqları Böyük Britaniyanı bəzi manevrlərə əl atmağa məcbur etdi. O, vəziyyətin sabitləşməsindən sonra Fələstindəki durumun dəqiq öyrənilməsi məqsədilə yeni komissiya yaradılacağını vəd etdi. Lakin AƏK xalqın əhval-ruhiyyəsini nəzərə alaraq Böyük Britaniya hökumətinin yəhudi köçlərini dayandırmaq qərarına qədər tətilin davam edəcəyini və hər hansı bir komissiya ilə əməkdaşlıq edilməyəcəyini bildirdi. Böyük Britaniya yardım məqsədi ilə İraq, Səudi Ərəbistanı, Yəmən və Mavaraəlurdun liderlərinə müraciət etdi. Onların təzyiqi nəticəsində AƏK ölkədə sakitliyin bərpasına dair bəyanatla çıxış etdi və oktyabrın 12-də tətil dayandı, lakin gərginlik səngimədi. 1936-cı ilin noyabrında lord Pilin başçılığı altında istintaq komissiyası Fələstində fəaliyyətə başladı. AƏK Böyük Britaniyanın mühacirət məsələsini həll etmədiyinə görə bu işin tam başa çatmasına qədər həmin komissiya ilə hər hansı bir əlaqənin yaradılmasından kənarda durdu. 1937-ci ilin iyununda komissiyanın dərc olunmuş hesabatına mandatlıq rejiminin tam tükənməsi haqqında bənd daxil edildi. Qeyd olundu ki, köçlərin böyük miqyas alması ərəblərdə yəhudilərə qarşı ədavət yaratmış, "milli ocaq" isə faktiki olaraq "dövlət içində dövlət" olmuş və ərəbləri Böyük Britaniya siyasətindən narazı salmışdır. Komissiyanın gəldiyi nəticədə vurğulanırdı ki, mandatlıq müddətinin uzadılması ancaq ərəblərə qarşı repressiyaların güclənməsi şərti ilə mümkün ola bilər. Komissiya Qüds, Vifliyem, Yaffa limanına gedən dəhliz də daxil olmaqla Fələstinin əksər hissəsini Böyük Britaniya nəzarətində saxlamaqla, ölkəni iki yerə - ərəb və yəhudi dövlətlərinə bölməyi tövsiyə etdi. Bu tövsiyə ərəb-yəhudi ziddiyyətlərinin nəinki yumşalmasına, əksinə, onların daha kəskin xarakter almasına səbəb oldu. Təqdim olunmuş sxemə əsasən, yəhudi dövlətinə 258 min yəhudi və 225 min ərəb yaşayan ərazi daxil olmalı idi.

Pil komissiyası hesabatının dərcindən sonra Fələstində partizan hərəkatı yenidən vüsət aldı. Mandatlıq idarəsi əhaliyə qarşı repressiyaları gücləndirdi. 1937-ci ilin sentyabrında AƏK-in fəaliyyəti dayandırıldı və onun beş üzvü ölkədən sürgün olundu. Əmin əl-Hüseyni Beyruta qaçdı. Lakin bu repressiyalar nəinki ərəblərin müqavimətini qıra bilmədi, əksinə, onun yeni yüksəlişinə təkan verdi. Üsyanın ikinci mərhələsi başladı və o, daha geniş və əhatəli oldu. Bu mərhələ üçün xarakterik cəhət ondan ibarət idi ki, keçmiş

liderlərin həbsindən sonra meydana yeni tipli rəhbərlər atılmışdı və onların əksəriyyəti xalq arasından çıxmış şəxslər idilər. Bu dəyişiklik hərəkatın istiqamətinə də təsir göstərdi. Əgər 1938-ci ilə qədər əsas şüar Böyük Britaniyanın sionistləri dəstəkləməkdən əl çəkməsi və ərəblərə özünüidarə hüququ verilməsi tələbləri idisə, indi əsas məqsəd silahlı mübarizə yolu ilə Fələstinin müstəqilliyini əldə etmək oldu. Bu mərhələnin gedişində feodal zümrəsi və burjuaziya arasında siyasi parçalanma dərinləşdi. 1938-ci ilin payızında silahlı mübarizə geniş vüsət aldı. Kəndlərdəki ingilis hərbi düşərgələri ya tam dağıdıldı, ya da başqa yerlərə köçürüldü. Üsyançılar azad olunmuş ərazilərdə yerli hakimiyyət orqanları qururdular. Partizan dəstələri şəhərlərdə yerləşən hərbi düşərgələrə də hücumlar təşkil edirdilər. Nəticədə, bir sıra şəhərlər üsyançıların nəzarəti altına keçmişdi. 1938-ci ilin noyabrında artıq Qüdsün ərəb hissəsi onların əlində idi.

Fələstin ərəblərinin bu uğurlarında iki amilin xüsusi təsiri olmuşdur. Bunlardan biri Almaniyada Hitlerin hakimiyyətə gəlməsindən sonra yəhudilərə qarşı yürütdüyü siyasət zəminində Fələstin ərəblərini dəstəkləməsi, onlara gizli yollarla maliyyə və maddi yardım göstərməsi idi. Yeri gəlmişkən, İtaliya da bu prosesə qoşulmuşdu. Digəri isə 1930-cu ildə İraqın, 1936-cı ildə isə Suriyanın hüquqi baxımdan müstəqillik qazanması idi.

Sionistlərin üsyan dövründəki siyasətinə gəlincə, onlar yaranmış vəziyyətdən öz hərbi- siyasi və iqtisadi mövqelərini daha da möhkəmləndirmək üçün istifadə etdi. Böyük Britaniya hakimiyyəti mandatlıq ordusunun maddi-texniki təminatı ilə bağlı bir sıra layihələrin icrasını onlara tapşırdı. Yəhudi icmasının imkanları hesabına bir sıra strateji yollar, kazarmalar, istehkamlar inşa olundu. Hələ 1936-ci il üsyanı zamanı sionistlər Təl-Əviv limanının inşasını sürətləndirdilər ki, Yaffa limanı vasitəsilə aparılan dəniz ticarəti ərəblərin əlindən alınsın. 1936-1939-cu illərdə sionistlərin əsas hədəfi öz hərbi qüvvələrini gücləndirilmək idi. Böyük Britaniya hərbçiləri ilə birlikdə əməliyyatlarda iştirak edən "Haqana" öz fəaliyyətini leqallaşdırdı və ingilislərdən "rəsmi əsaslarla" silah almağa başladı. "Haqana" dəstələrini Böyük Britaniya təlimatçıları hazırlayırdılar və nəticədə onlar mütəşəkkil hərbi hissələrə çevrildilər. 5 min yəhudi mandatlıq idarəsi tərəfindən polis dəstələrinə cəlb olundu və onlara məxsus polis hissələrinin yaradılmasına icazə verildi. Eyni zamanda, beynəlxalq sionist təşkilatları yəhudi icmasına yardımlarını gücləndirir və Böyük Britaniya hökumətinə qarşı təzyiqləri artırırdı.

Geniş miqyas alan partizan müharibəsinə və Fələstini parçalamaq planlarına ərəb ölkələrinin mənfi münasibəti Böyük Britaniyanı yeni manevrlərə əl atmağa vadar etdi. 1938-ci ilin yazında Fələstinə yeni bir komissiya göndərildi. Onun əsas məqsədi Pil komissiyasının təklifləri əsasında konkret tövsiyələr hazırlamaq idi. Lakin komissiyanın təklif etdiyi bütün variantlar hökumət tərəfindən qəbul olunmadı.

Böyük Britaniya isə öz növbəsində Fələstin probleminin həlli yollarının axtarışını dayandırmadı. Hətta 1939-cu ilin əvvəllərində üsyanın səngiməsi və faktiki olaraq məğlubiyyətə uğraması onu öz cəhdlərindən çəkindirmədi. Bu məsələdə ortaq məxrəcə gəlinməsi üçün 1939-cu ilin fevralında Londonda Böyük Britaniya başda olmaqla bütün maraqlı tərəflərin: Misir, İraq, Səudi Ərəbistan, Mavaraəlurdun, Yəmən, Fələstin ərəb və yəhudi siyasi partiya liderlərinin iştirakı ilə Dəyirmi Masa təşkil olundu. Burada da müvafiq bir qərara gəlmək mümkün olmadı. Odur ki, Böyük Britaniya onların razılığını almadan 1939-cu ilin mayında özünün Fələstindəki siyasətinə dair yeni "Ağ kitab" buraxdı. Sənədə əsasən, on ildən sonra Fələstinə müstəqillik verilməsi, ölkədə vahid ərəb-yəhudi dövləti yaradılması və onun Böyük Britaniya ilə müttəfiqlik müqaviləsi imzalaması nəzərdə tutulurdu. On il davam edəcək keçid dövrü ərzində ərəb və yəhudi liderlər tərəfindən ölkənin idarə edilməsi Böyük Britaniyanın ciddi nəzarəti altında olmalı idi. Beş il ərzində 75 min yəhudinin köçünə icazə verilir, sonra isə köç kvotası ərəb tərəfi ilə razılaşdırılmalı idi. Fələstinin bəzi bölgələrində sionitslər tərəfindən torpaq alqısı məhdudlaşdırılırdı. Beləliklə, Böyük Britaniyanın növbəti "Ağ kitab"ı yəhudilərlə olan munasibətlərində bir balans yaratmaq mahiyyəti daşıyırdı. Ancaq o, həm ərəblər, həm də yəhudilər tərəfindən narazılıqla qarşılandı və Fələstin II Dünya savaşı dövrünə həmin şərtlər içində daxil oldu.

Fələstin II Dünya müharibəsi və onun bitməsindən sonrakı ilk illərdə də bir mandatlıq ərazisi kimi qalırdı və Böyük Britaniya tərəfindən idarə olunurdu. Lakin həmin dövrdə Fələstində baş verən hadisələr artıq Böyük Britaniyanın nəzarətindən çıxmaqda idi və onları tənzim etmək çətinliyi yaranmışdı. Belə ki, 1939-cu ildə yəhudilərin Fələstinə köçürülməsinə ciddi bir məhdudiyyət qoyulmasına baxmayaraq müharibə illərində DST və digər yəhudi təşkilatları mövcud vəziyyətdən xeyli yararlanmağı bacardılar. Birincisi, onlar Avropanın müxtəlif ölkələrindən çox sayda yəhudini qaçaq yolu ilə Fələstinə köçürməklə yanaşı, ölkədə onların da cəlb olunduğu "Ha-

qana" təşkilatının fəaliyyətini gücləndirdilər. Doğrudur, Fələstindəki Böyük Britaniya idarəçiliyi bunun qarşısını almağa cəhd göstərdi. Lakin onun bu cəhdi yəhudilərin silahlı müqaviməti ilə rastlaşdı. Tərəflər arasında toqquşmalar baş verdi. İkincisi, yəhudilər ölkənin ehtiyac duyduğu bir sıra məhsulların istehsalı üçün yerli müəssisələrin yaradılmasına razılıq aldılar və qısa bir zaman kəsiyində Fələstindəki yəhudi sənaye müəssisələri Böyük Britaniyanın bölgədə hərbi ehtiyaclarını tam ödəmək səviyyəsində oldu. Yəhudi aqrar məskənlərinin salınması da davam etdirildi və 1944-cü ildə onların sayı 256-ya çatdı. Üçüncüsü, beynəlxalq və yerli yəhudi təşkilatları Böyük Britaniya mandatlıq idarəsi ilə əməkdaşlığı normal saxlamağa çalışmaqla yanaşı, daha güclü və daha etibarlı müttəfiq axtarışına da başlamışdılar.

II Dünya müharibəsinin gedişində ABŞ-ın bir dövlət kimi mövqeyinin yüksəlməsi və onun regionda möhkəmlənmək cəhdləri yəhudilərin diqqətini çəkdi. Onlar ABŞ-la əməkdaşlığı fəallaşdırdılar. 1942-ci ilin mayında Nyu-Yorkda "Baltimor" hotelində beynəlxalq sionist təşkilatlarının konfransı çağırıldı və burada məşhur "Baltimor proqramı" qəbul edildi. Proqramda nəinki yəhudilərin Fələstinə köçürülməsinə qoyulan məhdudiyyətin ləğv olunması, həm də Fələstində "müstəqil yəhudi cəmiyyəti"nin yaradılması tələbi irəli sürüldü. Bu tələb faktik olaraq Fələstində müstəqil yəhudi dövlətinin qurulmalı olduğu haqqında ilk açıq bəyanat idi və o, sionistləri xeyli fəallaşdırdı. İdeyanın gerçəkləşdirməsi üçün 1944-cü ildən Böyük Britaniya hökumətinə və mandatlıq idarəsinə təzyiqlər kampaniyası başlandı. Eyni zamanda ABŞ prezidenti Ruzveltə də müraciət edildi. Lakin prezident bu barədə rəsmi mövqe açıqlamadı. Çünki, o, həmin dövrdə ərəb ölkələri ilə münasibətlərin inkişafında maraqlı idi, hətta Səudi Ərəbistandan neftin daşınması üçün Fələstindən keçəcək neft kəmərinin çəkilməsi layihəsi gündəlikdə duran məsələ idi. Prezident Ruzvelt 1945-ci ilin yazında Krım konfransından qayıdarkən Səudi Ərəbistan kralı, həmçinin Misir, Suriya və Lübnanın nümayəndələri ilə yolüstü görüşündə bildirdi ki, Fələstinlə bağlı hər hansı məsələ həm ərəb, həm də yəhudi tərəfi ilə razılaşdırılmadan həll oluna bilməz. Lakin Ruzveltin ölümündən sonra yeni prezident H.Trumen sələfindən fərqli kurs götürdü. O, Fələstində yəhudi dövlətinin yaranmasının bölgədə əlverişli konsessiyalar almağın asanlaşacağı və ABŞ-ın Yaxın Doğuda möhkəmlənməsi üçün zəmin olacağı qənaətindən çıxış etməyə başladı. İlk addım olaraq1945-ci ilin avqustunda Böyük Britaniyadan tələb etdi

ki, yüz min yəhudinin Fələstinə köçürülməsinə icazə versin.

Doğrudur, Böyük Britaniya bu tələbə cavab vermədi və əksinə, Fələstinə əlavə hərbi qüvvələr göndərdi. Lakin Fələstindəki yəhudilər buna bir sıra hərbi əməliyyatlar və terror aksiyaları ilə cavab verdilər. Ərəb-yəhudi qarşıdurması böyüdü və durum gərginləşdi. Bu zəmində Böyük Britaniya ABŞ qarşısında geri çəkilmək zorunda qaldı və Fələstində mövcud şəraiti siyasi, iqtisadi və sosial yönümdən dəyərləndirmək məqsədi ilə birgə ingilis-amerikan komissiyası yaradılmasını təklif etdi. 1945-ci ilin noyabrında belə bir komissiya yaradıldı və həmin komissiya 1946-ci ilin aprelində Londonda gəldiyi nəticələri açıqladı. Əslində bu nəticələr mövcud problemin həllindən daha çox, Fələstində Böyük Britaniya və ABŞ-ın mövqeləri barədə razılığı nəzərdə tuturdu. Onun məzmunu isə Fələstində mandatlıq sisteminin qorunub saxlanılması və ölkədə ABŞ-ın mövqeyinin möhkəmlənməsi dayanırdı. Beləliklə, həmin vaxtdan Fələstin probleminin həllində ABŞ-ın bilavasitə iştirakının əsası qoyuldu və hadisələrin belə gedişi həm ərəblər, həm də yəhudilər arasında narazılığı xeyli artırdı. Fələstin məsələsi bu iki xalq arasında açıq düşmənçilik müstəvisinə keçdi və onların birgə mövcudluğunun mümkünsüzlüyü üzə çıxdı.

Gərginliyi zəiflətmək məqsədi ilə Böyük Britaniya Fələstinin dörd vilayətə bölünməsi planını irəli sürdü. Plan ingilis mandatı altında olan ərəb və yəhudi muxtar vilayətinin yaradılmasını nəzərdə tuturdu. Lakin həm ərəblər, həm də yəhudilər onu rədd etdilər.

Gərginlik daha da artdı. "İrqun" yəhudi təşkilatının üzvləri terror aktlarını gücləndirdi. Hətta 1946-cı il iyulun 2-də ingilis hərbi qüvvələrin qərargahı və mandatlıq idarəsinin yerləşdiyi "Çar David" hotelində partlayış törədildi, 91 adam həlak oldu. Ərəb təşkilatlarına və liderlərinə qarşı hücumlar adi hal aldı. Böyük Britaniya çıxılmaz vəziyyətə düşdü və çıxış yolunu məsələnin BMT-nin müzakirəsinə çıxarmaqda gördü. 1947-ci il aprelin 2-də bu barədə BMT Baş Məclisinə müraciət edildi. İki həftəlik müzakirədən sonra Baş Məclis Fələstin məsələsinin həlli üçün bir komissiya yaratdı. Maraqlıdır ki, həmin komissiyaya böyük dövlətlərdən heç biri daxil edilməmişdi.

Böyük Britaniyanın ardınca aprelin 21-də ərəb dövlətlərindən Misir və İraq, aprelin 22-də isə Suriya, Lübnan və Səudi Ərəbistan da BMT Baş Məclisinə "Fələstinin istiqlaliyyətinin elanı" məsələsinin gündəliyə salınması haqqında müraciət etdilər.

BMT komissiyası 16 iyun-24 iyul tarixində Fələstində oldu, buradakı durumu araşdırdı və avqustda öz təkliflərini açıqladı. Komissiya Fələstinə istiqlaliyyət verilməsində yekdil idi. Lakin istiqlaliyyətin necəliyi məsələsində fikirlər haçalandı. Kanada, Çexoslovakiya, Qvatemala, Hollandiya, Peru, İsveç və Uruqvayı birləşdirən çoxluğa görə Fələstin ərəblərlə yəhudilər arasında bölüşdürülməli və iki ayrı bağımsız dövlət yaranmalı idi, Qüds şəhəri isə beynəlxalq statusa sahib olmalıydı. Hindistan, Yuqoslaviya və İrandan ibarət azlıq isə təklif edirdi ki, Fələstində ərəb və yəhudi dövlətlərinin daxil olduğu federasiya yaradılmalıdır. Ərəblər azlığın, yəhudilər isə çoxluğun təklifini bəyəndilər. Ərəblərə görə azlığın təklifi Fələstinin ərazi bütövlüyünü qoruyurdu.

1947-ci ilin noyabrında Fələstin məsələsi BMT Baş Məclisinə çıxarıldı və ayın 27-də çoxluğun təklifi əleyhinə 13, tərəfsiz qalan 10 və lehinə 33 səs olmaqla qəbul edildi. Qərara görə, qurulacaq iki dövlət arasında bir iqtisadi bütövlük də yaranmalı və Fələstin aşağıdakı qaydada bölünməli idi: ölkə ərazisinin 14,1 min kv km-i, yəni 56%-i yəhudi dövlətinə (həmin vaxt o ərazidə 499 min yəhudi və 510 min ərəb yaşayırdı-müəl.), 11,1 min kv km, yəni 43%-i ərəb dövlətinə (orada isə 750 min ərəb və 10 min yəhudi yaşayırdı-müəl) ayrılır. Qüds və ətrafı, yəni 106 min ərəbin və 100 min yəhudinin yaşadığı 1%-lik ərazi isə beynəlxalq statuslu zona olmalı idi. Böyük dövlətlərdən ABŞ, Sovet İttifaqı və Fransa bölünməyə səs verdi, Böyük Britaniya isə tərəfsiz qaldı. Türkiyə və ərəb ölkələri bölünmənin əleyhinə oldular.

Bəs sonralar təkcə Fələstin məsələsində yox, digər məsələlər baxımından da ərəblərin "dostu" və "müttəfiqi" kimi çıxış edən Sovet İttifaqının bölünməni dəstəkləməsi nədən qaynaqlanırdı?

Tədqiqatçılar bunun iki başlıca səbəbinə önəm verirlər: birincisi, həmin dövrdə Sovet İttifaqının ərəb ölkələrindəki kommunist təşkilatlarının vasitəsilə regionda qatışıqlıq törətmək cəhdləri ərəb dövlətlərini qorxutmuşdu və onlar Sovet İttifaqına müxalif ovqatda idilər; ikincisi, təkcə Fələstində deyil, bütün Orta Doğuda yalnız Böyük Britaniyanın hakim mövqe sahibi olması Sovet İttifaqını əndişələndirirdi. O, regionda vəziyyəti qarışdırmaqla Böyük Britaniyanın durumunu ağırlaşdırmaq və bundan yararlanmaq niyyətində idi və hadisələrin sonrakı inkişafı Sovet İttifaqının həmin taktiki gedişinin yanlış olmadığını göstərdi. Belə ki, BMT Baş Məclisinin Fələstini iki dövlətə bölmək qərarı istər Fələstin ərəbləri, istərsə də bütün ərəb dövlətləri tərəfindən qəti şəkildə rədd edildi. Yəhudilər isə qərarı bəyəndilərsə də,

onlara ayrılmış ərazinin az olması iddiasında idilər. Odur ki, "Haqana" və "İrqun" kimi yəhudi təşkilatlarının yaraqlı dəstələri BMT qərarına məhəl qoymadan ərəb dövləti üçün ayrılan əraziləri zəbt etməyə başladı. DST və digər yəhudi təşkilatları onları silah və digər hərbi ləvazimatlarla təchiz etmək üçün bütün imkanlarını işə saldılar. 1947-ci ilin dekabrından tərəflər arasında "elan olunmamış müharibə" başlandı. İstər yəhudi, istərsə də ərəb dövləti üçün ayrılmış bir sıra ərazilərdən ərəblər qovuldu. Yəhudi dövləti ərazisində yaşayan ərəbləri kütləvi şəkildə qaçmağa məcbur etmək üçün Deyr Yasin kəndində dəhşətli qırğın törədildi. Yüzlərlə ərəb, əsasən də qadınlar, qocalar və uşaqlar qəddarlıqla məhv edildi. Yəhudilər, həqiqətən də istəklərinə nail oldular. Yüz minlərlə ərəb öz dədə-baba yurdlarından didərgin salındı. Təsadüfi deyildir ki, 1977-1983-cü illərdə İsrailin baş naziri olmuş M.Begin öz xatirələrində Deyr Yasin vəhşətini "həlledici qələbəyə açılan yol" adlandırmışdır.

Ərəb dünyası da öz növbəsində hərəkətə keçdi. 1947-ci ilin dekabrında Qahirədə Ərəb Dövlətləri Liqasının toplantısında Fələstinin ikiyə bölünməsinə imkan verməmək məqsədilə müharibəyə başlamaq qərarına gəlindi. Ərəb dövlətlərindən olan könüllülərdən ibarət Azadlıq Ordusu (AO) yaradıldı. AO komandanlığı həm də Fələstində fəaliyyət göstərən dağınıq silahlı dəstələri də birləşdirməli idi.

Məlumdur ki, Fələstində yəhudilər həm siyasi, həm də inzibati strukturlara malik idi və mandatlıq idarəsindən daha çox həmin strukturlara tabe idilər. Onlar tərəfindən idarə olunurdular, həm də nizami silahlı qüvvələrə malik idilər. Ərəblər isə, əksinə, mandatlıq administrasiyasına tabe idilər və yaranmış problemin həllində Fələstin ərəb təşkilatları yox, ərəb dövlətləri fəallıq göstərirdilər. Təbiidir ki, onların da dövlət maraqları hər bir müzakirədə özünü göstərirdi. Bundan isə daha çox böyük dövlətlər faydalanırdı. Hətta Fələstinin təmsilçisi rolunu oynayan Ali Ərəb Komitəsinin mərkəzi strukturları belə Qahirədə yerləşirdi. Bu səbəblərdən idi ki, 1947-ci ilin dekabrında Fələstinə gələn Ali Ərəb Komitəsinin liderlərindən Əbdülqadir Hüseynin ərəb silahlı dəstələrini bir araya gətirmək cəhdləri çox da uğur qazanmadı, özü isə 1948-ci ilin aprelində həlak oldu. F.Qavqacının başçılığı altında 500 nəfərlik dəstənin Fələstinə göndərilməsi də vəziyyəti dəyişdirmədi.

Fələstinin bölünməsinə səs verən ABŞ belə bir şəraitdə öz əvvəlki mövqeyindən çəkindi. Prezident Trumen Fələstini bölməyin mümkünsüz ol-

duğunu bildirdi və onun BMT himayəsinə verilməsi təklifi ilə çıxış etdi. Bu təklif həm yəhudilər, həm də ərəblərin təpkisi ilə qarşılandı. Hətta ABŞ-ın təkidi ilə çağrılan BMT Baş Məclisi də bu təkliflə razılaşmadı.

BMT-nin qərarına uyğun olaraq Böyük Britaniya 1948-ci il mayın 15-dək öz qoşunlarını Fələstindən çıxaracağını və həmin gündən etibarən mandatlıq sisteminin qüvvədən düşdüyünü bildirdi. Elə ayın 15-nə keçən gecə Təl-Əvivdə toplaşan Yəhudi Milli Şurası David Ben Qurionun başçılığı altında İsrail dövlətinin yaradıldığını elan etdi.

Bu xəbərin yayılması ilə Misir, Urdun, Suriya, İraq, Səudi Ərəbistan və Yəmənin hərbi qüvvələri İsrailə qarşı savaşa girdilər. Bununla da birinci Ərəb-İsrail müharibəsi başlandı. BMT yenidən işə qarışdı və mayın 22-də və 29-da Təhlükəsizlik Şurası hərbi əməliyyatların dayandırılması haqqında qərar çıxardı. İyunun 11-də atəşkəs elan olundu. Lakin o, uzun sürmədi və iyulun 19-da hərbi əməliyyatlar yenidən başlandı.

İsrail dövləti yarandığı gün ABŞ, müharibənin başlanmasından iki gün sonra isə Sovet İttifaqı tərəfindən tanındı. Müharibə başlanan kimi Böyük Britaniya və ABŞ Fələstin sahillərini nəzarətə götürdülər ki, buraya silah gətirilməsinə imkan verilməsin. Sovet İttifaqı isə, əksinə, qurduğu hava yolu ilə Çexoslovakiyadan yəhudilərə yüngül toplar və avtomat silahlar daşımağa başladı.

Birinci Ərəb-İsrail müharibəsi bir ilə qədər sürdü. Onun gedişində 75 minlik İsrail ordusu nəinki ərəb dövlətlərinin hücumlarını dayandıra bildi, həm də onları ağır məğlubiyyətə uğratdı. Ərəb ordularının yararsızlığı üzə çıxdı və müşahidəçilərin rəyincə, onların içərisində ən döyüşkəni isə Urdun ordusu oldu.

Qeyd edək ki, müharibə başlanan vaxtdan BMT atəşkəsə nail olmaq üçün tərəflər arasında vasitəçiliyi öz üzərinə götürdü və ərəb ordularının dalbadal acınacaqlı məğlubiyyətləri üzündən atəşkəs baş tutdu. 1949-cu ilin fevralında Misir, martında Lübnan, aprelində Urdun və iyulunda Suriya İsraillə hərbi əməliyyatların dayandırılması haqqında saziş imzaladı. Digər ölkələrin İsraillə birbaşa sərhədi olmadığından onlarla sazişə ehtiyac da qalmadı.

Müharibənin gedişində qazandığı qələbələr sayəsində İsrail BMT-nin ərəb dövləti üçün ayırdığı ərazinin dörddə üçünü işğal etdi. Qüdsün yarısı tutuldu. Beləliklə də, Fələstində ərəb dövlətinin yaradılması nəinki mümkün olmadı, həm də bu işin sonralar necə davam etdiriləcəyinin özü haqqında

konkret bir təsəvvür də yox səviyyəsində idi. Bununla yanaşı, 1948-1949-cu illər Birinci Ərəb-İsrail müharibəsi Orta Doğunun ümumi durumuna təsir edəcək nəticələrə gətirdi.

Bunlardan birincisi o idi ki, region ölkələrinə yayılmış bir milyonluq fələstinli qaçqınlar problemi yarandı. Onun həlli BMT də daxil olmaqla maraqlı tərəfləri böyük maddi və mənəvi çətinliklər qarşısında qoydu; ikincisi, ərəb rejimlərinin milli maraqları qoruya biləcək səviyyədə olmadıqlarını, onların çürüklüyünü üzə çıxardı. Ağır məğlubiyyətin bütün acısını və məsuliyyətini dərk etmiş ordu zabitləri yaranmış vəziyyətdən çıxış yolunu həmin rejimlərdən xilas olmaqda gördülər. "Azad zabitlər" təşkilatında birləşən həmin hərbçilər ilk olaraq Misirdə monarxiya rejimini devirdilər və hakimiyyəti ələ aldılar. Onların təcrübəsi digər ərəb ölkələrində də bu və ya digər formada özünə yer tapdı; üçüncü, acı məğlubiyyət ərəb dünyasında güclü bir milliyətçilik hissinin oyanmasına təkan verdi. Bu zəmində ərəblərin birləşməsi və vahid bir qüvvə şəklində çıxış etmək istəkləri genişləndi və region ölkələrinə yayıldı. Bu işdə Misir prezidenti Camal Əbdül Nasirin böyük əmək sərf etdiyi xüsusi qeyd olunmalıdır; dördüncüsü, hərbi əməliyyatların dayandırılması haqqında sazişlərin imzalanması, təbiidir ki, münaqişənin başa çatması və yaxud sülh əldə edilməsi demək deyildi. Yaranmış atəşkəs durumu müvəqqəti xarakter daşıyırdı və əlverişli şərait yaranarsa, hərbi əməliyyatların yenidən başlanmasını istisna etmirdi. Bu səbəbdən də sonralar Ərəb-İsrail savaşları bir neçə dəfə təkrar olundu, onsuz da ağır və mürəkkəb olan Yaxın Doğu problemini, eləcədə region ölkələrinin öz arasında, eləcə də onların böyük dövlətlərlə olan münasibətlərində böyük gərginliklər yaratdı.

ABŞ və Avropa dövlətləri bölgədə yeni hərbi əməliyyatların baş verməsinin qarşısını almaq məqsədi ilə bir sıra tədbirlər gördülər. O cümlədən 1950-ci il mayın 25-də ABŞ, Böyük Britaniya və Fransanın imzaladıqları bəyanata görə ərəb ölkələrinə və İsrailə onların daxili təhlükəsizliyinin təminatına kifayət edən miqdarda silah satıla bilərdi. Həm də bu silahlardan başqa bir dövlətə qarşı istifadə oluna bilməzdi. Bununla da region ölkələrinə silah satışına embarqo qoyulurdu. Lakin Sovet İttifaqı həmin bəyanata imza atmadı və özünün regionda silah satmaq imkanını saxladı. Məhz bu da sonralar Sovet İttifaqının bölgəyə girməsini xeyli asanlaşdırdı.

I Ərəb-İsrail müharibəsində ərəblər məğlub oldular və 1949-cu ilin fevral-avqust aylarında tərəflər arasında bağlanan barışıq müqavilələrinə əsa-

sən hərbi əməliyyatlar dayandırıldı. Bununla da ərəblər müvəqqəti də olsa hərbi əməliyyatların nəticələrini qəbul etmək zorunda qaldılar: BMT qətnaməsinə əsasən Fələstin ərəb dövləti üçün nəzərdə tutulan ərazinin yarıdan çoxu (11,1 min kv km-dən 6,7 min kv km-i – müəl.) İsrail tərəfindən işğal edildi. Qüds şəhərinin batı hissəsi də İsrailin əlinə keçdi. Qalan ərazi isə ərəb dövlətlərinin nəzarətinə keçdi. Bu isə təcrübi həllini belə tapdı ki, Qəzza bölməsi Misir, Doğu Fələstin torpaqları, yəni Urdun çayının batı sahilindəki ərazi Mavaraəlurdun tərəfindən idarə olunmağa başlandı. 1950-ci ilin aprelində isə Mavaraəlurdun parlamenti həmin Fələstin ərazisini və Doğu Qüdsü ehtiva edən Urdun Həşimilər Krallığının yaradılmasına qərar verdi. Bununla yanaşı, qərarda Fələstin torpaqlarının bu dövlətin tərkibində olmasının müvəqqəti xarakter daşıdığı da göstərilirdi. Ərəb Dövlətləri Liqası Fələstinlə bağlı baş vermiş bu reallığı qəbul etdi. Lakin fələstinlilər, xüsusilə də Urdunda yaşayanlar baş verənləri birmənalı qarşılamadılar. Həmin dövrdə Urdundakı Fələstin torpaqlarında yaşayanlarla yanaşı, müharibə nəticəsində qaçqına çevrilmiş bir milyona yaxın fələstinlinin çox hissəsi də çadır şəhərciklərində məskunlaşmışdı. Onların birləşdiyi "Əl-Cihad əl-Müqəddəs" təşkilatı Urdun kralı Abdullahı Fələstin torpaqlarını bölüşdürmək haqqında İsraillə gizli sövdələşmədə ittiham etdi və 1951-ci ilin iyulunda Qüdsdə təşkil olunan sui-qəsd nəticəsində kral öldürüldü.

Doğrudur, hələ 1948-ci ilin sentyabrında Qəzzədə Ərəb Ali Komitəsinin liderlərindən Əmin əl-Hüseynin başçılığı altında ÜmumFələstin hökuməti yaradılmışdı. Lakin bu hökumətin bütün fəaliyyəti baş verənləri müşahidə etməkdən o yana getmirdi və tədricən əhəmiyyətsiz bir quruma çevrildi.

İsrail də həmin arada yaranmış vəziyyətdən istifadə etdi və 1950-ci ilin yanvarında BMT qətnaməsini pozaraq Qüdsün batı hissəsinin ölkənin paytaxtı olduğunu bildirdi. Parlament və bir sıra hakimiyyət strukturları bura köçürüldü.

Ərazinin bu cür parçalanması ilə yanaşı həmin dövrdə Fələstin üçün ən ağrılı problem qaçqınlar ordusunun yaranması idi. BMT-nin məlumatına görə 1950-ci ildə 1350 min fələstinli ərəbin 960 mini qaçqına çevrildi. Onlardan 425 min nəfəri Urdun çayının batı sahili torpaqlarında, 225 mini Qəzza bölməsində, 130 mini Lübnanda, 85 mini Suriyada, 80 mini isə Urdun çayının doğu sahili torpaqlarında BMT qərarı və köməyi ilə yaradılmış düşərgələrdə sığınacaq tapdı. Ümumi sayı 54 olan bu düşərgələr bütün qaç-

qınları özündə yerləşdirmək imkanında deyildi və qaçqınların 40%-ə yaxını, təqribən 400 min nəfəri həmin imkandan yararlana bilmişdilər. Qalanlar isə daha ağır şərtlər içərisində yaşayırdılar. İşsiz və torpaqsız olan fələstinli qaçqınların yeganə yaşayış mənbəyi BMT və digər beynəlxalq təşkilatların verdikləri yardımlar idi. Həmin yardımlar isə onların son minimum tələblərini zorla ödəyirdi. O biri tərəfdən əhali artımının yüksək səviyyədə olması da (ildə 3,2%), əlavə çətinliklər yaradırdı. İsrail tərəfindən işğal olunmuş ərazilərdən qaçanların da sayı ildən-ilə çoxalırdı. Artıq keçən əsrin 60-cı illərin ortalarında fələstinli qaçqınların sayı 1,4 mln nəfər civarında idi.Fələstin ərəb dövləti üçün nəzərdə tutulan ərazinin İsrail tərəfindən tutulan hissəsində isə 50-ci illərin əvvəlində 160 min nəfər fələstinli ərəb yaşayırdı. Bu rəqəm 60-cı illərin ortalarında 300 minə çatmışdı.

Fələstinli qaçqınlar yaşadıqları ölkələrdə ciddi məhrumiyyətlərlə üzləşirdilər. İş, ev, təhsil və sosial təminat çətinlikləri, faktik olaraq, hər bir fələstinli qaçqının daimi qayğısı idi. İsrailin işğal etdiyi ərazilərdə yaşayan fələstinli ərəblərin yaşam şərtləri isə hərbi hakimiyyət strukturları tərəfindən müəyyənləşdirilir və onlar bir sıra insani hüquq və imkanlardan planlı və düşünülmüş şəkildə məhrum edilirdilər. Ümumiyyətlə, İsrail nəinki həmin torpaqlarda, eləcə də onun sərhədlərinə yaxın ərazilərdə yaşayan fələstinli ərəblərin öz yurd-yuvalarından didərgin salınması üçün müxtəlif təsir formalarına əl atmaqdan çəkinmirdi. Həmin dövrdə İsrail dövlətinin siyasəti ona yönəlmişdi ki, fələstinli ərəblər daha çox sayda qonşu ölkələrə qaçmağa məcbur edilsin və onlar yaşadıqları ölkənin ərəbləri ilə qaynayıb-qarışsınlar, bir fələstinli olduqlarını tədricən unutsunlar.

Birinci Ərəb-İsrail müharibəsindən sonrakı on il ərzində hər cür milli, siyasi, iqtisadi və mənəvi zülmlər səbəbindən Fələstin ərəb xalqının başlıca enerjisi bir toplum olaraq qorunub saxlanmaq, var olmaq, cismani məhvə geniş imkan verməmək uğrunda mübarizəyə yönəlmişdi. Onlar baş vermiş bu qanlı siyasi fəlakətdən sarsılmışdılar. Bir toplum olaraq özlərində qüvvə tapıb problemin həllindən daha çox, onun tarixi haqqında düşünürdülər və yaranmış vəziyyəti müvəqqəti hesab edirdilər. Fələstində İsrail dövlətinin qurulması, bu işdə böyük dövlətlərin iştirakı, sonralar isə onların İsrailə hər cür siyasi, iqtisadi və hərbi dəstək göstərməsi baş verən bütün faciələrin yeganə səbəbi kimi dəyərləndirilirdi. Bu zəmində Fələstin ərəbləri arasında antisionist və antiİsrail yönündə qatı millətçilik hissləri geniş yayılırdı, silahlı yolla vətəni xilas etmək və İsrail dövlətini məhv etmək hər bir fələstinli ərə-

bin başlıca həyat idealına çevrilirdi. Lakin bu ideal xeyli müddət arzu olaraq qaldı. Onun məqsədə çevrilməsi və reallaşdırılması yolunda əsaslı bir iş yox idi. Çünki, birincisi, həmin dövrdə keçmiş siyasi partiya və təşkilatlar xalqın gözündən düşmüşdülər və onlara etimad edilmirdi; ikincisi, "Əl-Cihad əl-Müqəddəs" təşkilatı dini şüarlar altında bəzi hərbi əməliyyatlar aparsa da, onun fəaliyyətinin nəticələri fələstinli ərəblər üçün daha ağır itkilərlə müşayiət olunurdu. Ümumiyyətlə isə, "Əl-Cihad əl-Müqəddəs" müxtəlif səbəblər üzündən bütün fələstinli ərəbləri birləşdirmək imkanından çox-çox uzaqda idi; üçüncüsü, həmin illərdə intellektual əməklə məşğul olan və iqtisadi baxımdan imkanlı fələstinlilər yaşadıqları ölkənin, daha çox Urdun, Lübnan, Suriya, İraq, Səudi Ərəbistan, Küveyt, Misir və Libiyanın siyasi və iqtisadi həyatına, tədricən də olsa, qatılırdılar. Özəlliklə də fələstinli ziyalılar ümumərəb miqyaslı və müxtəlif qayəli siyasi partiya və təşkilatların işində iştirak etməyə başlamışdılar. Bəəsdən başlamış "əl-İxvan əl-Müslimin – Müsəlman qardaşlar"a kimi fərqli partiya və təşkilatlarda fəaliyyət göstərən fələstinlilər belə düşünürdülər ki, Fələstinin qurtuluşu panərəbizm və ya panislamizm zəminində bütün ərəblərin birləşməsindən sonra mümkündür. Bu mövqeyi hələ XX əsrin 40-50-ci illərinin hüdudlarında yaranmış və əsasən fələstinlilərdən ibarət olan ümumərəb miqyaslı "Ərəb Milliyyətçiləri Hərəkatı" təşkilatı da dəstəkləyirdi. Misirdə mütləqiyyətin ləğvindən və C.Ə. Nasirin hakimiyyətə gəlməsindən sonra fələstinlilər milliyyətçilik zəminində ərəb birliyinə nail olmaq və Fələstini azad etmək ideyasına daha çox inanırdılar.

Lakin zaman keçdikcə ərəb dünyasında və bütün dünyada baş verən proseslərin ümumi axarı aydınlaşdı, Fələstin qaçqınları arasında gedən sosial-iqtisadi təkamül onların siyasi və milli şüuruna güclü təsir etdi. Fələstinlilik özünüdərkinin artması Fələstin istiqlaliyyət hərəkatının təşkilatlanmasını zərurətə çevirdi. Digər tərəfdən 1958-1959-cu illərdə Misir və İraqda Fələstin məsələsini canlandırmaq üçün bir sıra təşəbbüslərin edilməsi bu işdə az rol oynamamışdır. İsraillə qonşu olan ölkələrdə təşkilatlar yaradıldı. Onların arasında "Fəth"[1] təşkilatı xüsusilə fərqlənirdi. Təşkilatın kiçik bir qrup kimi əsası 1956-cı ilin sonlarında Qəzzədə Y.Ərəfat, S.Xələf və X.əl-Vəzirin başçılığı altında tələbələr tərəfindən qoyulmuşdur. Onlar Fələstin Tələbələri İttifaqı təşkilatının fəalları idilər. Bu da imkan verdi ki, qrup öz

[1] «Fəth» sözü «Hərəkət ət-təhrir əl-vatani əl-Fələstini» -Fələstin Milli Azadlıq Hərəkatı – adlanan təşkilatın adlarındakı baş hərflərin tərsinə düzülüşündən yaranmışdır.

sıralarına təkcə ərəb ölkələrində yox, həm də Avropada təhsil alan gəncləri də qoşa bilsin. "Fəth" qrupu 1958-ci ildə öz mərkəzini Küveytə köçürdü. Burada F.Qaddumi, M.Y.ən-Nəcər, X.əl-Həsən, K.Ədvan və s. kimi şəxslər də "Fəth"də birləşdilər. Küveytdə həmin qrupun əsas təşkilatı yarandı və fəaliyyətə başladı. Təşkilatın orqanı "Fələstinuna" ("Bizim Fələstin") qəzeti "Fələstini fələstinlilər özləri xilas etməlidir!" yönündə güclü təbliğat aparırdı. Sonralar digər ərəb ölkələrində də "Fəth"in gizli özəkləri quruldu.

1960-ci ildə Misir idarəçiliyi altında olan Qəzza bölməsində seçkilər keçirildi və burada Fələstin xalqını təmsil edən yerli özünü idarə strukturları yarandı. İraq Qəzza bölməsi və Urdun çayının batı sahilindəki ərazidə vahid Fələstin Respublikası yaradılması təklifini irəli sürdü. Doğrudur, bu təklif Urdun tərəfindən rədd edildi. Lakin o da, digər təşəbbüslər kimi Fələstin Milli Birliyinin yaradılması yolunda az təsirli olmadı.

1964-cü ilin yanvarında Misirdə keçirilən Ərəb Dövlətləri Liqasının toplantısında Fələstin xalqının ümumi bir təşkilata malik olmasına qərar verildi. Fələstin Milli Azadlıq Təşkilatı (o, 1963-cü ilin sonunda fələstinli Əhməd Şükeyri tərəfindən yaradılmışdı-müəl.) Fələstin xalqının təmsilçisi kimi tanındı. Toplantının qərarına əsasən bu təşkilatın siyasi və hərbi funksiyaları var idi.

1964-cü ilin may-iyun aylarında Qüdsün ərəb bölməsində Fələstin Milli Konqresi çağrıldı. Burada müxtəlif ərəb ölkələrindən gəlmiş 400 nümayəndə iştirak edirdi. Konqres Fələstin Azadlıq Təşkilatının (FAT) yaradılmasına qərar verdi, Milli Xartiya və FAT-ın nizamnaməsini təsdiq etdi və Fələstin Azadlıq Ordusunun (FAO) yaradılmasını bəyan etdi. Qəbul olunan Milli Xartiyada bildirildi ki, BMT-nin Fələstini bölüşdürmək haqqında 1947-ci il 29 noyabr tarixli qərarı qeyri-qanunidir, bütün fələstinlilər vətənə qayıtmaq haqqına malikdirlər, Fələstinin azad edilməsi məsuliyyəti FAT-a və "bütün ərəb milləti"nə həvalə olunur, məqsədə çatmağın yeganə vasitəsi silahlı mübarizədir.

FAT-ın nizamnaməsinə görə bütün fələstinlilər bu təşkilatın üzvü sayıldı. FAT-ın ali orqanı Fələstin Milli Şurası oldu. O, üç il müddətinə seçilir və İcraiyyə Komitəsinin sədrini təyin edirdi. İK-nin 14 üzvünü isə sədr özü müəyyənləşdirirdi.

Ərəb Dövlətləri Liqasının 1964-cü ilin sentyabrında İskəndəriyyədə çağrılan növbəti toplantısında FAT rəsmən tanındı və o, Liqada müşahidəçi statusu ilə iştirak etməyə başladı. Toplantı Fələstin Azadlıq Ordusunun

təşkil edilməsinə də qərar verdi. Həmin vaxtdan ərəb dövlətlərinin çoxu öz ərazisində FAT-ın fəaliyyəti çərçivəsində fələstinlilərin tədbirlər keçirilməsinə icazə verdi.

Lakin, FAT yaranmasından bir neçə il sonra belə bütün fələstinliləri və Fələstin təşkilatlarını birləşdirən güclü qüvvəyə çevrilə bilmədi. Onun rəhbərliyi daha çox daxili çəkişmələrə və ayrı-ayrı ərəb dövlətləri ilə münaqişələrə enerji sərf edirdi. İş görməkdən daha çox İsraillə savaşa girməyə hazır olduqları, "ən müasir silahlar"ın gücü ilə "yəhudiləri dənizə tökəcəkləri" və s. haqqında əsassız bəyanatlar verilirdi. Bununla yanaşı, ərəb dünyası miqyasında təbliğati və diplomatik fəaliyyətin aparıldığını, Fələstin problemi və qaçqınların vəziyyəti haqqında beynəlxalq ictimayyətə həqiqətləri çatdırmağa səy edilməsini qeyd etmək lazımdır. Ən başlıca uğur isə ikisi Misirdə, biri Suriyada olmaqla 12 min döyüşçünü ehtiva edən üç briqadanın təşkili sayıla bilər.

FAT-dan fərqli olaraq, ona qoşulmayan bir sıra təşkilatlar isə həmin dövrdə xeyli fəal idi və həm də FAT-a alternativ yeni təşkilatlar yaranırdı. İdeoloji baxımdan tərəfsiz olan Fəth bütün gücünü İsrailə qarşı çevirmişdi. 1965-ci il yanvarın 1-də ilk hərbi əməliyyatını keçirən bu təşkilat sonralar bu yöndə daha da fəallaşdı. Ərəb milliyyətçilik hərəkatı ilə bağlı olan təşkilatlar da 1966-cı ildən İsrailə qarşı hərbi təzyiqlərini artırmağa başladılar. 1967-ci ilin noyabrında C.Həbəşin rəhbərliyi altında Fələstin Xalq Cəbhəsi, Suriyada Ə.Cəbrayılın rəhbərliyi altında yeni bir Fələstin Xalq Cəbhəsi və 1969-cu ilin fevralında N.Havatmanın rəhbərliyi altında Fələstin Xalq və Demokratik Qurtuluş Cəbhəsi təşkilatları yaradıldı. Fəthdən fərqli olaraq onlar aşırı solçuluq ideologiyasına bağlı idilər və İraq, Suriya, Cənubi Yəmən kimi dövlətlərlə əlaqələr qurmuşdular. Onlar və eləcə də 1967-ci ilin yayında Suriyada qurulan "Saiqa"-"İldırım" və 1969-cu ilin aprelində İraqda qurulan Ərəb Qurtuluş Cəbhəsi bağlı olduqları ərəb dövlətlərindən hər cür maddi və mənəvi dəstək alırdılar.

Bu təşkilatlar ideoloji yönümündən asılı olmayaraq Fələstinin azadlığının başlıca yolunu silahlı mübarizədə görürdülər. Elə həmin baxımdan da onlar istər yarandıqları dövrdə, istərsə də sonrakı illərdə Fələstin Müqavimət Hərəkatının zərbə qüvvələrini təşkil etdilər.

1967-ci il iyunun 5-də başlayan ikinci Ərəb-İsrail müharibəsinin gedişində FAT və digər Fələstin təşkilatları əsaslı bir rol oynaya bilmədilər. Ərəblər bu dəfə də məğlub oldular, Misir və Urdunun idarəsi altında olan

sıralarına təkcə ərəb ölkələrində yox, həm də Avropada təhsil alan gəncləri də qoşa bilsin. "Fəth" qrupu 1958-ci ildə öz mərkəzini Küveytə köçürdü. Burada F.Qaddumi, M.Y.ən-Nəcər, X.əl-Həsən, K.Ədvan və s. kimi şəxslər də "Fəth"də birləşdilər. Küveytdə həmin qrupun əsas təşkilatı yarandı və fəaliyyətə başladı. Təşkilatın orqanı "Fələstinuna" ("Bizim Fələstin") qəzeti "Fələstini fələstinlilər özləri xilas etməlidir!" yönündə güclü təbliğat aparırdı. Sonralar digər ərəb ölkələrində də "Fəth"in gizli özəkləri quruldu.

1960-ci ildə Misir idarəçiliyi altında olan Qəzza bölməsində seçkilər keçirildi və burada Fələstin xalqını təmsil edən yerli özünü idarə strukturları yarandı. İraq Qəzza bölməsi və Urdun çayının batı sahilindəki ərazidə vahid Fələstin Respublikası yaradılması təklifini irəli sürdü. Doğrudur, bu təklif Urdun tərəfindən rədd edildi. Lakin o da, digər təşəbbüslər kimi Fələstin Milli Birliyinin yaradılması yolunda az təsirli olmadı.

1964-cü ilin yanvarında Misirdə keçirilən Ərəb Dövlətləri Liqasının toplantısında Fələstin xalqının ümumi bir təşkilata malik olmasına qərar verildi. Fələstin Milli Azadlıq Təşkilatı (o, 1963-cü ilin sonunda fələstinli Əhməd Şükeyri tərəfindən yaradılmışdı-müəl.) Fələstin xalqının təmsilçisi kimi tanındı. Toplantının qərarına əsasən bu təşkilatın siyasi və hərbi funksiyaları var idi.

1964-cü ilin may-iyun aylarında Qüdsün ərəb bölməsində Fələstin Milli Konqresi çağrıldı. Burada müxtəlif ərəb ölkələrindən gəlmiş 400 nümayəndə iştirak edirdi. Konqres Fələstin Azadlıq Təşkilatının (FAT) yaradılmasına qərar verdi, Milli Xartiya və FAT-ın nizamnaməsini təsdiq etdi və Fələstin Azadlıq Ordusunun (FAO) yaradılmasını bəyan etdi. Qəbul olunan Milli Xartiyada bildirildi ki, BMT-nin Fələstini bölüşdürmək haqqında 1947-ci il 29 noyabr tarixli qərarı qeyri-qanunidir, bütün fələstinlilər vətənə qayıtmaq haqqına malikdirlər, Fələstinin azad edilməsi məsuliyyəti FAT-a və "bütün ərəb milləti"nə həvalə olunur, məqsədə çatmağın yeganə vasitəsi silahlı mübarizədir.

FAT-ın nizamnaməsinə görə bütün fələstinlilər bu təşkilatın üzvü sayıldı. FAT-ın ali orqanı Fələstin Milli Şurası oldu. O, üç il müddətinə seçilir və İcraiyyə Komitəsinin sədrini təyin edirdi. İK-nin 14 üzvünü isə sədr özü müəyyənləşdirirdi.

Ərəb Dövlətləri Liqasının 1964-cü ilin sentyabrında İskəndəriyyədə çağrılan növbəti toplantısında FAT rəsmən tanındı və o, Liqada müşahidəçi statusu ilə iştirak etməyə başladı. Toplantı Fələstin Azadlıq Ordusunun

təşkil edilməsinə də qərar verdi. Həmin vaxtdan ərəb dövlətlərinin çoxu öz ərazisində FAT-ın fəaliyyəti çərçivəsində fələstinlilərin tədbirlər keçirilməsinə icazə verdi.

Lakin, FAT yaranmasından bir neçə il sonra belə bütün fələstinliləri və Fələstin təşkilatlarını birləşdirən güclü qüvvəyə çevrilə bilmədi. Onun rəhbərliyi daha çox daxili çəkişmələrə və ayrı-ayrı ərəb dövlətləri ilə münaqişələrə enerji sərf edirdi. İş görməkdən daha çox İsraillə savaşa girməyə hazır olduqları, "ən müasir silahlar"ın gücü ilə "yəhudiləri dənizə tökəcəkləri" və s. haqqında əsassız bəyanatlar verilirdi. Bununla yanaşı, ərəb dünyası miqyasında təbliğati və diplomatik fəaliyyətin aparıldığını, Fələstin problemi və qaçqınların vəziyyəti haqqında beynəlxalq ictimayyətə həqiqətləri çatdırmağa səy edilməsini qeyd etmək lazımdır. Ən başlıca uğur isə ikisi Misirdə, biri Suriyada olmaqla 12 min döyüşçünü ehtiva edən üç briqadanın təşkili sayıla bilər.

FAT-dan fərqli olaraq, ona qoşulmayan bir sıra təşkilatlar isə həmin dövrdə xeyli fəal idi və həm də FAT-a alternativ yeni təşkilatlar yaranırdı. İdeoloji baxımdan tərəfsiz olan Fəth bütün gücünü İsrailə qarşı çevirmişdi. 1965-ci il yanvarın 1-də ilk hərbi əməliyyatını keçirən bu təşkilat sonralar bu yöndə daha da fəallaşdı. Ərəb milliyyətçilik hərəkatı ilə bağlı olan təşkilatlar da 1966-cı ildən İsrailə qarşı hərbi təzyiqlərini artırmağa başladılar. 1967-ci ilin noyabrında C.Həbəşin rəhbərliyi altında Fələstin Xalq Cəbhəsi, Suriyada Ə.Cəbrayılın rəhbərliyi altında yeni bir Fələstin Xalq Cəbhəsi və 1969-cu ilin fevralında N.Havatmanın rəhbərliyi altında Fələstin Xalq və Demokratik Qurtuluş Cəbhəsi təşkilatları yaradıldı. Fəthdən fərqli olaraq onlar aşırı solçuluq ideologiyasına bağlı idilər və İraq, Suriya, Cənubi Yəmən kimi dövlətlərlə əlaqələr qurmuşdular. Onlar və eləcə də 1967-ci ilin yayında Suriyada qurulan "Saiqa"-"İldırım" və 1969-cu ilin aprelində İraqda qurulan Ərəb Qurtuluş Cəbhəsi bağlı olduqları ərəb dövlətlərindən hər cür maddi və mənəvi dəstək alırdılar.

Bu təşkilatlar ideoloji yönümündən asılı olmayaraq Fələstinin azadlığının başlıca yolunu silahlı mübarizədə görürdülər. Elə həmin baxımdan da onlar istər yarandıqları dövrdə, istərsə də sonrakı illərdə Fələstin Müqavimət Hərəkatının zərbə qüvvələrini təşkil etdilər.

1967-ci il iyunun 5-də başlayan ikinci Ərəb-İsrail müharibəsinin gedişində FAT və digər Fələstin təşkilatları əsaslı bir rol oynaya bilmədilər. Ərəblər bu dəfə də məğlub oldular, Misir və Urdunun idarəsi altında olan

Fələstin torpaqları və Colan təpələri İsrail tərəfindən işğal edildi. Doğrudur, BMT Təhlükəsizlik Şurasının 242 №-li qətnaməsinə görə İsrail işğal olunmuş torpaqlardan öz qoşunlarını çəkməli idi. Lakin o, FAT-ın İsraili bir dövlət kimi tanımaq istəməməsini əsas tutaraq BMT qətnaməsini yerinə yetirmədi. Həmin ərazidə İsrail hərbi idarəçilik rejimi yaradıldı. Fələstinlilər, xüsusi ilə də Fələstin Müqavimət Hərəkatına rəğbət göstərənlər müxtəlif bəhanələrlə öz yurd-yuvalarından qovulur, çıxarılır və məhbəslərə atılırdı. Yeni işğal olunmuş torpaqların özününküləşdirməsi üçün İsrail burada yəhudi yaşayış məskənləri şəbəkəsi yaradır və onu ildən-ilə genişləndirirdi.

Belə bir zəmində ərəb dünyası Fələstin probleminə xüsusi önəm verməli oldu. Fələstinlilər arasında isə qüvvələri bir mərkəzdə birləşdirmək və mübarizə imkanlarını yeni şərtlər baxımından dəyərləndirmək meyli gücləndi. 1968-ci il iyun ayının ortalarında Fəth və digər silahlı qruplaşmalar FAT-ın parlamenti sayılan Fələstin Milli Şurasına girdilər. Fəthin lideri Y.Ərəfat təşkilatın İcraiyyə Komitəsinin sədri oldu.[1] Bu da təsadüfi deyildi. Belə ki, ərəb dövlətlərinin məğlubiyyətdən özünə gələ bilmədikləri bir zamanda 1967-ci ilin avqustundan dekabrına kimi Fəth hərbi dəstələrinin Urdunun batı sahilində işğalçılara qarşı mübarizəsini davam etdirməsi, - hərçənd ki, qüvvələrin və silahlanmanın qeyri-bərabərliyi zəminində Fəth geri çəkilmək zorunda qalmışdı -, təşkilatın ərəb dünyasında siyasi nüfuzunu xeyli artırmışdı, onun lideri Y.Ərəfat isə şöhrətlənmişdi.

Məhz bu səbəbdən idi ki, Fəth və onun lideri Y.Ərəfat ikinci Ərəb-İsrail savaşının yaratdığı yeni şərtlərin tələbləri əsasında Fələstin Azadlıq Hərəkatının (bu sözlərin həm təşkilatın adı, həm də lüğəti mənasında –müəl.) yeniləşdirilməsi prosesinin başında durdu, onun proqramına Fələstin xalqının arzusu kimi yox, məqsədi kimi baxıldı. İsrail dövlətinin ləğv edilməsi, mandatlıq dövründəki sərhədlər daxilində Fələstinin bütünlüklə azad edilməsi və silahlı mübarizənin gücləndirilməsi başlıca qayə elan edildi. 1969-cu ilin fevralında "xristianlara, yəhudilərə və müsəlmanlara bərabər hüquqlar verəcək laik və demokratik bir Fələstin dövlətinin qurulması" qərara alındı.

---

[1] Qeyd: Yasir Ərəfat –Məhəmməd Əbd ər-Rauf əl-Qədvah əl-Hüseyni 1929-cu il avqustun 24-də Qahirədə doğulmuşdur. Atası varlı tacir idi. Ana tərəfdən Qüdsdə antisionist hərəkatın lideri Əmin əl-Hüseyninin yaxın qohumudu. Qahirə Universitetini bitirmişdi. Mühəndis idi. Gəncliyində Tələbə Təşkilatlarının qurucularından olmuş, Misir ordusunda xidmət etmişdi və 1956-cı il hərbi əməliyyatlarının iştirakçısı idi. 1958-ci ildə Küveytə köçmüş və həmin vaxtdan ölümünədək bütün fəaliyyəti Fələstin azadlığı uğrunda mübarizə ilə bağlı olmuşdur.

FAT-ın monolit təşkilat kimi güclənməsi bütün müqavimət hərəkatı iştirakçılarının bir araya gəlməsini qaçılmaz etdi, Fələstin Müqavimət Hərəkatı təşkilatı xarakter aldı, o, yalnız ərəb ölkələrində deyil, bütün dünyada Fələstin xalqının faktiki və rəsmi təmsilçisinə çevrildi. Fələstin Müqavimət Hərəkatının iştirakçıları öz hərbi qüvvələrinin daha da artmasına və böyüməsinə çalışırdılar.

Artıq 1970-ci ilin yayında onların sərəncamında 50 min döyüşçü var idi. İsraillə qonşu ölkələrdə yerləşdirilən hərbi dəstələr işğal olunmuş ərazidə aramsız olaraq əməliyyatlar aparır, getdikcə fəaliyyətlərini genişləndirir və yüksək döyüş səviyyəsinə yiyələnirdilər. Fələstin Müqavimət Hərəkatının belə yüksəlişi az sonra hərbi dəstələrin yerləşdiyi ölkələrin özünü narahat etdi. Onlar Fələstin təşkilatlarının daxili proseslərə qatılacağından və ya İsrailin fələstinlilərə qarşı cavab tədbirləri görəcəyindən ehtiyatlanırdılar. Bu hal Urdunda daha tez və daha kəskin formada üzə çıxdı. 1968-ci ilin noyabrında, 1970-ci ilin fevral və iyun aylarında Urdun və Fələstin silahlı qüvvələri arasında qanlı toqquşmalar baş verdi. Qeyd edək ki, 1969/70-ci ilin qışında İsrail Fələstin hərbi bazalarını məhv etmək üçün Urduna bir sıra hücumlar etmişdi. Lübnanda isə oxşar hadisələr 1969-cu ilin oktyabrında və 1970-ci ilin martında baş verdi. 1970-ci ilin yazında Lübnanın da güneyi İsrail hücumlarına məruz qaldı. Urdundan çıxarılan Fələstin hərbi dəstələrinin Lübnana gəlməsindən sonra burada vəziyyət daha da kəskinləşdi.[1]

Bütün bunların nəticəsində Fələstin Müqavimət Hərəkatı böyük çətinliklərlə üzləşməli oldu. Həm də bu zaman ərəb dünyasının özündə də problemin həllinə yanaşmada fərqli meyllər yaranmışdı. Ə.Sədatın Misirdə prezidentliyə gəlməsindən sonra bu dövlətin siyasətində baş verən köklü dəyişikliklərin ərəb dünyasında birmənalı qarşılanmaması, bu zəmində ərəb dövlətlərarası münasibətlərdə Səudi Ərəbistanın önə çıxması müqavimət hərəkatının perspektivləri haqqında müəyyən bir fikrin formalaşmasını çətinləşdirirdi. Hərəkatın rəhbərləri isə "ya hər şey, ya da heç nə!" prinsipindən əl çəkmirdilər. Təbiidir ki, dəyişən şərtlər və ildən-ilə İsrail dövlətinin möhkəmlənməsi bu prosesin reallaşmasını getdikcə çətinləşdirir.

Yaranmış bu şəraitdə Fələstin Müqavimət Hərəkatının ayrı-ayrı təşkilatları arasında ziddiyyətlər artır, hərbi dəstələrdə ruh düşkünlüyü yaranır, mərkəzi orqanların fəaliyyəti zəifləyirdi. Mübarizənin neqativ formaları, xüsusilə

[1] Qeyd : Bu məsələlər «Urdun» və «Lübnan» bölmələrində ətraflı şərh edilmişdir.

də terror aksiyaları güclənir və genişlənirdi və bu da maraqlı qüvvələrin Fələstin Müqavimət Hərəkatına müxtəlif ləkələr yaxmasına əsas verirdi.

1973-cü ilin oktyabrında baş verən dördüncü Ərəb-İsrail müharibəsindən sonra isə Fələstin Müqavimət Hərəkatının tarixində keyfiyyətcə yeni bir mərhələ başladı: birincisi, problemin danışıqlar yolu ilə həll edilməsi imkanı yarandı. ABŞ və Sovet İttifaqının da qatıldığı Cenevrə konfransında düşmən tərəflər danışıqlar masası arxasında bir araya gəldilər. Fələstin ərəb xalqının taleyi haqqında müzakirələr onun gündəliyindəki əsas məsələlərdən idi; ikincisi, 1973-cü ilin noyabrında Ərəb Dövlətləri Liqasının Əlcəzairdə keçirilən toplantısında (Urdun toplantıda iştirak etmədi-müəl.) "Fələstin ərəb xalqının bütün milli hüquqlarının bərpası uğrunda mübarizənin davam etdirilməsi və FAT-ın bu xalqın yeganə qanuni təmsilçisi olması" haqqında qərar qəbul olundu. 1974-cü ildə Rabat toplantısında Urdun da bu qərara qoşuldu; üçüncüsü, 1974-cü ildən başlayaraq fələstinlilərin öz idarəçiliyinin yaranması və onun tərəfindən idarə olunmasının əsası qoyuldu.

Fələstin probleminin həlli beynəlxalq müstəviyə qaldırıldı. Afrika Birliyi Təşkilatı, İslam Konfransı Təşkilatı, Tərəfsiz Dövlətlər Hərəkatı və s. kimi bir sıra beynəlxalq təşkilatlar bu problemi müzakirəyə çıxarır və qətnamələr qəbul edirdilər. Onlar da BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində qoyulan prinsipləri dəstəkləyir və onun yerinə yetirilməsini tələb edirdilər.

Doğrudur, həmin arada Fələstin Müqavimət Hərəkatında bir parçalanma da özünü göstərdi, FAT-a alternativ yaradılmasına təşəbbüs edildi. Lakin bu cəhdlər uğurlu olmadı və nəhayət, 1977-ci ilin dekabrında bu hala son qoyuldu. Buna qədər isə FAT bir sıra tədbirləri ilə beynəlxalq ictimaiyyətin rəğbətini qazandı. O, 1975-ci ildə Tərəfsizlər Hərəkatına qoşuldu, 1976-cı ildə Ərəb Dövlətləri Liqasının dövlət statuslu üzvü oldu, terror, təyyarə qaçırmaq, girovlar götürmək və s. kimi aksiyalardan imtina etdi. FAT-ın işğal altındakı ərazidə təsiri artdı.

Ümumiyyətlə, XX əsrin 70-ci illərin ortaları ərəb dünyası miqyasında onunla səciyyəvi idi ki, Ərəb-İsrail problemlərinin həllində ABŞ-ın rolu yüksəlirdi. Hələ 1974-cü ildə Misir və İsrail arasında "101-ci km sazişi" adı ilə tanınan sənədin imzalanması ilə bunun əsası qoyulmuşdu. ABŞ dövlət katibi H.Kissencerin "məkik dilpomatiyası" ona yönəldilmişdi ki, problemin həllinə "addım addım" irəliləmək, yəni mərhələli həll yolu ilə son nə-

ticəyə çatmaq olar. Təbiidir ki, bu siyasətin arxasında İsrailin maraqlarının qorunması dayanırdı. İsrail tutduğu torpaqlardan "addım-addım" çəkilməklə ərəblərlə sülh üçün müəyyən güzəştlər qazanırdı və "hər torpaq parçası üçün bir parça artıq sülh" əldə edirdi.

Bu yöndə ilk addım sayılan "101-ci km sazişi" də ABŞ-Ərəb münasibətlərinə yeni bir keyfiyyət gətirdi. Misir problemin həllində ABŞ-ın təşəbbüslərinə üstünlük verdi. 1978-ci ilin sentyabrında Ərəb-İsrail münasibətlərində həlledici dönüş yaradan Kemp-Devid sazişi imzalandı.

Həmin illərdə FAT da baş verən proseslərə yanaşmada bəzən təbəddülatlı mövqe göstərsə də, öz strateji xəttində ciddi korrektələr də etdi. Bunun əsasında o dayanırdı ki, birincisi, Fələstin probleminin həlli haqqında ərəb dövlətləri arasında fikir fərqləri yaranırdı; ikincisi Fələstin silahlı dəstələrinə münasibəti dəyişirdi və onlar daxili münaqişələrə cəlb olunurdular. Bu baxımdan 1975-1976-cı illərdə Lübnanda baş verən hadisələr xüsusilə qeyd olunmalıdır. Fələstin və Lübnan döyüşçüləri arasında baş verən qanlı toqquşmalar iki ilə qədər davam etdi və yalnız Səudi Ərəbistan, Küveyt, Misir və Suriya kimi dövlətlərin vasitəçiləri ilə tənzim olundu; üçüncüsü, Fələstin probleminin həllinə yanaşmada fələstinlilərin öz arasında da fikir ayrılığı yarandı.

Baş verənləri qiymətləndirmək məqsədi ilə 1977-ci ilin martında Qahirədə Fələstin Milli Şurasının növbəti sessiyası çağrıldı və burada qəbul olunan proqramda "bütün Fələstin torpaqlarında laik və demokratik dövlət qurmaq" ifadəsi işlənmədi. İlk dəfə idi ki, təşkilatın proqram sənədində İsrailin məhvindən yox, 1967-ci ildə zəbt edilmiş torpaqlar da daxil işğal altında olan ərazini azad etmək və məhz orada Fələstin ərəb dövləti yaratmaqdan söz açılırdı. Bu isə faktik olaraq İsrail reallığının qəbul edilməsi demək idi. Həmin günlərdə Qahirədə Y.Ərəfat- kral Hüseyn görüşməsi də baş tutdu və Urdun ilə əlaqələr bərpa olundu.

Qeyd edək ki, 1978-ci ilin sentyabrında Kemp-Deviddə Ə.Sədat və M.Begin danışıqlarının sonunda imzalanan iki sənəddən biri "Yaxın Doğu problemi barəsində sülh danışıqlarının çərçivəsi" adlanırdı və birbaşa Fələstinlə bağlı idi. Həm bu sənəddə, həm də 1979-cu il tarixli Misir-İsrail sülh müqaviləsinə əlavə olunan sənəddə Fələstin probleminin həllinin başlıca istiqamətləri öz əksini tapdı. Həmin sənədlərdə göstərilirdi ki, Qəzza və Urdun çayının batı sahili torpaqlarında fələstinlilərə "inzibati muxtariyyət" veriləcəkdir. Bu muxtariyyətin forması və mahiyyəti İsrail, Misir və Urdun

arasında (Kemp-Devid sazişinə görə Urdun maraqlı tərəf kimi tanınırdımüəl.) aparılan danışıqlarda müəyyənləşdiriləcəkdir. "İnzibati muxtariyyət" beş il üçün nəzərdə tutulurdu. Həmin ərazidə İsrailin təhlükəsizliyi üçün şəraitin yaranması zəminində o, əsgərlərin sayını azaltmalı idi. Beşillik dövrün üçüncü ilindən etibarən İsrail, Misir, Urdun və "inzibati muxtariyyət"in təmsilçiləri arasında ərazinin son statusu haqqında müzakirələr başlanmalı idi. İmzalanacaq sənəd Fələstin xalqının "qanuni haqları"nı və "ədalətli tələbləri"ni ehtiva etməliydi. Ayrıca, həmin dövrdə Urdun və İsrail arasında münasibətlər də normallaşmalıydı.

Lakin Misir və İsrail arasındakı Kemp-Devid razılaşmaları bir sıra ərəb ölkələrinin ciddi etirazı ilə qarşılandı. İsrail ilə hər cür əlaqələri qəti rədd edən Suriya, Libiya, İraq, Əlcəzair, Güney Yəmən və FAT-dan ibarət İsrarlıq Cəbhəsi yarandı. İsrarlıq Cəbhəsi Yaxın Doğu probleminin həllində rolu artan ABŞ-a qarşı mübarizədə Sovet İttifaqını bir alternativ gördü. Onunla yaxınlaşmaq zəminində İsrarlıq Cəbhəsinin "müdafiə potensialı"nı gücləndirmək başlıca kursa çevrildi. Suriya prezidenti H.Əsəd oktyabrda Moskvaya getdi və sovet rəhbərliyinin razılığını aldı.

İsrarlıq Cəbhəsinin təşəbbüsü ilə 1978-ci il noyabrın 2-5-də Bağdadda Ərəb Dövlətləri Liqasının toplantısı çağrıldı. Qəbul olunan sənədlərdə Fələstin probleminin həllində heç bir ərəb dövlətinin təkbaşına hərəkət etməyəcəyi bildirilirdi və Misirdən Kemp-Devid sazişini ləğv etməsi və ərəblərin birgə hərəkətinə qoşulması tələb olundu.

Ərəb dünyasında yaranmış bu durum nə zamanında, nə də sonralar ərəblərə heç bir xeyirli nəticə gətirmədi. Lakin o, İsrail üçün yararlı oldu. Belə ki, İsrail işğal olunmuş torpaqlarda daha da möhkəmlənmək siyasətini davam etdirdi. Əlavə yəhudi məskənləri salınmasına önəm verildi. Ərəb əhalisinin zorla qovulması, özünüidarə orqanlarının fəaliyyətinin məhdudlaşdırılması, FAT-a qarşı təzyiqin artırılması və nəhayət, 1980-ci il iyulun 25-də bütöv Qüdsün İsrailin paytaxtı elan olunması imkanı yarandı. Lübnanın güneyində mayor S.Həddadın başçılığı altında "Azad Lübnan" dövləti meydana çıxdı. FAT-ın öz daxilində parçalanma baş verdi.

1979-cu ilin fevralında İranda islam inqilabının qələbəsi, şahlıq rejiminin devrilməsi və Xomeyninin başçılığı altında bir şiə rejiminin yaranması nəinki region ölkələrini, ilk növbədə əhalisi əsasən sünni olan ərəb dövlətlərini, eləcə də bölgədə marağı olan dövlətləri, özəlliklə də ABŞ-ı və İsraili strateji məqsədlərini dəyişdirmək zorunda qoydu. 1979-cu il martın 26-da

Vaşinqtonda Misir-İsrail sülh sazişi imzalanması ilə yanaşı ABŞ-İsrail sülh sazişi də imzalandı. ABŞ, təhlükə yaranarsa, İsraili diplomatik, iqtisadi və hərbi baxımdan qorumağı öz üzərinə götürdü.

Bütün bunlar ərəb dünyasında parçalanmanı daha da dərinləşdirdi. Misir və onu dəstəkləyənlər bir tərəfdə, İsrarlıq Cəbhəsi ölkələri isə başqa bir tərəfdə olmaqla düşmən kimi üz-üzə dayandılar. Sovet İttifaqının regionda nüfuzu artdı. Onun bir sıra ərəb dövlətləri, özəlliklə Suriya ilə münasibətləri genişləndi. 1980-ci il oktyabrın 8-də Suriya-Sovet "Dostluq və Əməkdaşlıq" müqaviləsi imzalandı. Tərəflərdən biri digərinin təhlükəyə məruz qaldığı təqdirdə ona hər cür yardımçı olacağını öz üzərinə götürdü. Buna cavab olaraq Avropa dövlətləri və ABŞ isə Misir və onu dəstəkləyən ərəb dövlətləri ilə yaxınlaşdılar. Misir hər cür iqtisadi və hərbi yardım aldı və xeyli möhkəmləndi.

1979-cu ilin iyulunda İraqda S.Hüseynin hakimiyyətə gəlməsi və 1980-ci ilin sentyabrında İraq-İran savaşının başlanması ərəb dünyasını yenidən parçaladı. Yaranmış şəraitdə Fələstin Müqavimət Hərəkatı öz fəaliyyət kursunda dəyişikliklər etmək zorunda qaldı. 1981-ci ilin aprelində Dəməşqdə Fələstin Milli Şurasının sessiyasında qərara alındı ki, FAT problemin çözülməsi üçün siyasi və diplomatik fəaliyyətini davam etdirə bilər və bu lazımlıdır. İrəli sürülən hər hansı təklif, birincisi, İsrail işğalının dayandırılması tələbinə razılıq verilməsi, ikincisi, FAT-ın Fələstin xalqının yeganə təmsilçisi kimi tanınması, üçüncüsü, Fələstin ərəb xalqının bütün qanuni haqlarının qorunması şərtləri çərçivəsində müzakirə edilə bilər.

Əslində bu qərar Kemp-Devid sazişində BMT Təhlükəsizlik Şurasının 242 saylı (1967-ci il) və 338 saylı (1973-cü il) qətnamələrinin gerçəkləşdirilməsini nəzərdə tutan bəndinin qəbul edilməsi idi. Bu yöndə 1981-ci il oktyabrın 8-də prezident Ə.Sədatın öldürülməsinə qədərki dövrdə Misir və İsrail arasında müəyyən danışıqlar aparıldı. Hətta yeni prezident H.Mübarək də bu işə xeyli əmək sərf etdi. Lakin tərəflər nəinki bir nəticəyə gələ bildilər, əksinə vəziyyət yenidən gərginləşdi. Tərəflərdən hər biri məsələyə yanaşmada fərqli mövqelərdə dayanırdılar. Belə ki, Misir Fələstinin muxtariyyətinə istiqlaliyyətə aparan yol kimi baxırdı. İsraildə isə aşırı dinçilərin bu torpaqları tarixi "İsrail ölkəsi" sayması bir yana qalsın, baş nazir M.Begin və onun hökuməti "Fələstinin istiqlaliyyəti" mənası verən və ya buna yol aça bilən hər şeyə qarşı qətı etiraz edirdi.

Bəs İsrailin bu davranışı nədən qaynaqlanırdı? Suala cavab vermək

üçün həmin dövrdə regionda baş verən hadisələrə və orada möhkəmlənmək uğrunda super dövlətlərin çabalarına ötəri bir nəzər salmaq zərurəti vardır. Birincisi, ABŞ Misir-İsrail münasibətlərini tənzim etməkdə təşəbbüsü ələ almışdı və ümumiyyətlə, Yaxın Doğu probleminin çözülməsini nəzarətdə saxlamağa çalışırdı. İkincisi, 1979-cu ilin dekabrında Sovet İttifaqı Əfqanıstanı faktik olaraq işğal etdi, 1980-ci ilin sonlarından Suriya ilə yaxınlaşma zəminində regiona girmişdi və bölgədə aparıcı rol oynamaq istəyirdi. Təbiidir ki, həm ABŞ-ın, həm də Sovet İttifaqının istəyi region ölkələrinin dəstəyi və qüvvəsi ilə reallaşa bilərdi. Bu səbəbdən ABŞ İsraildən, Sovet İttifaqı isə Suriyadan bir təsir vasitəsi kimi istifadə etməyə başladı. Təsadüfi deyildir ki, XX əsrin 80-cı illərində İsrailin hərbi əməliyyatlarının istiqaməti Fələstin torpaqlarından daha çox Suriya və onunla müəyyən şərtlərlə bağlı olan Lübnana yönəlmişdi. Onu da qeyd edək ki, həmin dövrdə Fələstin Müqavimət Hərəkatının əsas təşkilatı strukturları və hərbi qüvvələri bu iki ölkədə yerləşirdi.

İlk öncə İsrail 1982-ci ilin iyununda Lübnana qarşı hərbi əməliyyatları genişləndirdi. Fələstin qaçqın düşərgələri və hərbi bazaları bombardımanlara məruz qaldı. BMT məsələyə müdaxilə etdi və Təhlükəsizlik Şurasının qətnaməsinə uyğun olaraq 1982-ci il iyulun 24-də İsrail atəşi dayandırdı.

Problemin danışıqlar yolu ilə həlli ətrafında fəallaşma yarandı. Qeyd edək ki, hələ 1980-ci il iyunun 13-də Avropa İqtisadi İttifaqı (indiki Avropa Birliyi) Fələstinə dair Venedikt Bəyannaməsi adlı sənəd qəbul etmişdi. 1981-ci il avqustun 6-də isə Səudi Ərəbistan vəliəhdi Fəhd öz planını açıqlamışdı. ABŞ prezidentinin təmsilçisi F.Həbib Lübnanla bağlı məsələlərin çözülməsi üçün Qüds, Beyrut və Dəməşqlə intensiv danışıqlar aparırdı. Fələstin Müqavimət Hərəkatı rəhbərliyi yaraqlıların Lübnandan çıxarılmasına razılıq verdi və onlar Əlcəzair, Tunis, Sudan, Quzey Yəmən və Güney Yəmən kimi ölkələrə köçürüldülər. FAT-ın mərkəzi qərargahı isə Tunisdə yerləşdi.

Lakin 1982-ci il sentyabrın 14-də Lübnan prezidenti B.Cimayelin öldürülməsi ilə vəziyyət yenidən gərginləşdi və bundan yararlanan İsrail öz ordularını Beyruta yeritdi. Fələstinlilərə divan tutuldu. Dünyanı sarsıdan Şətilə və Sabra faciələri baş verdi. Beynəlxalq təşkilatlar və maraqlı qüvvələr hərəkətə gəldi. ABŞ prezidenti R.Reyqan 1982-ci il sentyabrın 1-də "Yaxın Doğuda sülhün bərqərar edilməsi" planı ilə çıxış etdi. O,1967-ci ildə işğal olunmuş torpaqların azad edilməsi, Fələstin torpaqlarında yəhudi ya-

şayış məskənlərinin salınmasının dayandırılması və gələcəkdə bu torpaqlarda "özünüidarə" orqanlarının yaradılması haqqında ABŞ-ın himayəsi altında və Urdun kralı Hüseynin iştirakı ilə İsraillə danışıqlara başlamaq təklifi irəli sürdü. Bir sıra məsələlərə yanaşmada qaranlıq məqamların qalmasına baxmayaraq "Reyqan planı" öz müsbət rolunu oynadı. 1982-ci il sentyabrın 6-də Fəsdə keçirilən Ərəb Dövlətlərinin zirvə toplantısında Ərəb-İsrail münaqişəsinin həllinə dair ilk ümumi platforma hazırlandı və Fələstin probleminin həllinin başlıca prinsipləri bəyan edildi: 1) İsrail 1967-ci ildə Qüds də daxil işğal olunmuş bütün torpaqlardan çıxmalıdır; 2) Fələstin xalqı öz müqəddaratını təyin etmək və özünün yeganə qanuni təmsilçisi FAT rəhbərliyi altında müstəqil dövlət yaratmaq hüququna malikdir; 3) Vətənə qayıtmaq istəməyən fələstinlilərə kompensasiya verilməlidir.

Məhz həmin illərdə beynəlxalq aləmdə FAT-ın rolu və nüfuzu xeyli yüksəldi və Fələstin xalqının öz müqəddaratını təyin etmə haqqını dəstəkləyən dövlətlərin sayı çoxaldı. BMT Baş Məclisi 1983-cü ilin sonunda Fələstin məsələsinə dair beynəlxalq konfransın çağrılması haqqında qərar qəbul etdi.

Lakin Lübnan hadisələrindən sonra regionda ABŞ-ın rolu və nüfuzu da xeyli möhkəmlənmişdi. FAT daxilində də problemin Urdun-İsrail danışıqları çərçivəsində həlli ideyasına üstünlük verildi və 1982-ci ilin oktyabrında Y.Ərəfat Əmmanda kral Hüseynlə danışıqlar apardı. Urdun-Fələstin konfederasiyası ideyası gündəmə gəldi. Doğrudur, bu ideya sol yönümlü qüvvələr tərəfindən tənqidlə qarşılandı və hətta, 1983-cü ilin fevralında Fələstin Milli Şurasının Əlcəzairdə keçirilən toplantısında başlıca müzakirə mövzusu oldu. FAT İcraiyyə Komitəsi və Fəth Mərkəzi Komitəsinin təkidi ilə danışıqlar apreldə dayandırıldı. Lakin Y.Ərəfat və tərəfdarları başlanmış prosesi davam etdirməkdə israrlı oldular. 1983-cü ilin mayında Fəthin Suriyada yerləşən yaraqlılarının Y.Ərəfata qarşı qiyamı və noyabr-dekabr aylarında isə Tarabulusda baş verən qanlı qarşıdurmalar belə onu yolundan döndərmədi. Tarabulusdan Quzey Yəmənə gələrkən Y.Ərəfat yolüstü İsmailiyyədə Misir prezidenti H.Mübarəklə görüşdü. Bu görüşdən sonra müxalif qüvvələr Y.Ərəfata qarşı hücumlarını gücləndirdilər. Lakin göstərilən bütün cəhdlər nəticəsiz qaldı və 1984-cü ilin sonlarında Y.Ərəfat yenə FAT İcraiyyə Komitəsinin sədri seçildi. 1985-ci il fevralın 11-də Əmmanda kral Hüseyn və Y.Ərəfat arasında "birgə fəaliyyətin çərçivəsi" haqqında saziş imzalandı. Mayda isə kral Hüseyn danışıqların aparılması haqqında

FAT rəhbərliyi ilə razılaşdırılmış planı bəyan etdi. Plana görə danışıqlar dörd mərhələdə keçirilməli idi:1) ABŞ və Urdun-Fələstin nümayəndə heyətləri (bu heyətdə FAT təmsil olunmurdu-müəl.) arasında ilkin danışıqlar aparılır; 2) FAT 242 saylı qətnaməni rəsmən tanıdıqdan sonra onun da nümayəndələrinin təmsil olunduğu Urdun-Fələstin və ABŞ heyətləri arasında danışıqlar davam etdirilir; 3) Urdun-Fələstin və İsrail nümayəndə heyətləri arasında birbaşa danışıqlar olur; 4) sonda BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərin, Urdun, FAT, Suriya və İsrailin iştirakı ilə beynəlxalq konfrans çağırılır.

Lakin bir tərəfdən İsrailin Urdun-Fələstin nümayəndə heyətində FAT-ın təmsil olunmasının qəbul edilməzliyi haqqında bəyanatı-, bu barədə Ş.Peres 1985-ci ilin oktyabrında BMT Baş Məclisinin iclasında açıqca bildirilmişdi-, o biri tərəfdən Y.Ərəfatın İsraili tanıdığını rəsmən elan etməməsi danışıqlar ideyasının reallaşmasına imkan vermədi. Vəziyyətdən çıxmaq üçün ABŞ və Misir işə qarışdılar, məsələnin həllinə təşəbbüs göstərdilər. Hətta kral Hüseyn 1986-cı ilin iyulunda Urdunda Y.Ərəfatla bağlı olan 25 strukturun bağlanmasına fərman verdi.

Ümumiyyətlə, həmin dövrdə Fələstin Müqavimət Hərəkatı, xüsusilə isə FAT beynəlxalq qüvvələrin ciddi təzyiqi ilə üz-üzə qaldı. Belə şəraitdə FAT öz mübarizəsini davam etdirməyin yeni taktikasını tapa bildi. "İntifada" ("dirəniş") adlanan bu hərəkatın əsasında o dayanırdı ki, işğal altında olan torpaqlarda yerləşdirilən İsrail əsgərlərinə qarşı mülki insanlar və hətta uşaqlar "daş-kəsəklə" çıxışlara qoşulsunlar, İsrailə bu torpaqlarda rahatlıq verilməyəcəyini anlatsınlar, onu yorsunlar, geri çəkilməyə və fələstinlilərlə sülhə gəlməyə məcbur etsinlər.

"İntifada"nın rəsmi başlanğıc günü 1987-ci il dekabrın 9-u sayılır. Həmin gün Qəzzada mülki əhali və İsrail əsgərləri arasında açıq toqquşma olmuş, İsrail hökuməti əhaliyə qarşı sərt tədbirlərə əl atmışdı. Əslində isə mülki əhalinin İsrail əsgərləri ilə qarşıdurmaları bütün 1986-1987-ci illər boyunca davam etmişdi. Sonrakı dövrdə isə bu hərəkat xeyli genişlənmiş və xroniki hala çevrilmişdi. "İntifada"nın ikinci ildönümü günü olan 1988-ci il dekabrın 9-a qədər müddətdə toqquşmalarda 700 nəfərdən çox mülki şəxs həlak olmuş və yaralananların sayı 37 min nəfəri aşmışdı. 35-40 min civarında fələstinli isə həbsə alınmışdı. 50 İsrail əsgəri öldürülmüşdü.

"İntifada" hərəkatının genişlənməsi Fələstin Müqavimət Hərəkatı ilə İsrail arasındakı gərginlikləri daha da artırdı. İsrailin "intifada"ya yönəli qəti

və sərt tədbirləri Fələstin probleminin dinc yolla həlli qarşısında böyük maneələr yaradırdı. Doğrudur, Misir prezidenti ABŞ rəhbərliyi ilə təmasları nəticəsində dövlət katibi C.Şuls 1988-ci ilin martında belə bir təkliflə çıxış etdi ki, BMT Təhlükəsizlik Şurasının 242 və 338 saylı qətnamələri çərçivəsində Fələstin təmsilçilərinin də qatıldığı Urdun-İsrail nümayəndə heyətləri sonda beynəlxalq konfransın çağırılması ilə bitəcək danışıqlara başlasınlar. Ancaq bu təklifə də məhəl qoyulmadı.

Belə olduqda Urdun öz torpaqlarında və birinci savaşdan sonra ilhaq edilmiş Fələstin torpaqlarında yaşayan Fələstin əhalisi ilə bütün bağlantılarını kəsdi. Onlara verilmiş Urdun pasportları və Urdun parlamentində fələstinlilərə ayrılmış 50 yer ləğv olundu. Urdun bununla istəyirdi ki, həmin torpaqlarda yaşayan fələstinlilərin ayrıca bir xalq kimi varlığını meydana qoysun, eyni zamanda həmin xalqın idarə olunmasını FAT-ın sərəncamına versin, bu zəmində Fələstin xalqı və FAT "bağımsızlığa" doğru irəliləməyə başlasın.

Urdunun bu addımı uğurlu oldu. Fələstin Milli Şurasının 1988-ci ilin 12-15 noyabrında keçirilən sessiyasının sonunda paytaxtı Qüds olmaqla "Bağımsız Fələstin dövləti"nin yaranması bəyan edildi. Həm də bildirildi ki, Fələstin dövləti BMT Təhlükəsizlik Şurasının 242 və 338 saylı qətnamələrini tanıyır və terrorizmi pisləyir. Bu xəbər dünyada böyük əks-səda doğurdu, Fələstin dövləti çox sayda dövlətlər tərəfindən tanındı. Lakin FAT-ın da həmin qənaətdə olduğu bildirilmədiyindən ABŞ ilk vaxtlar bu dövləti tanımadı. FAT və onun lideri Y.Ərəfat 1988-ci ilin dekabrında ABŞ-ın bütün istəklərini qəbul etdiyini bildirdi və ABŞ ilə FAT-ın Tunisdəki mərkəzi arasında ilk rəsmi təmaslar yarandı.

Burada bir məqamı yada salmaq istərdik: həmin ildə Əfqanıstanda gedən Sovet-ABŞ mübarizəsində ABŞ qalib çıxmış və rus ordularının həmin ölkədən çıxarılmasına başlanmışdı. Odur ki, ABŞ səy və cəhdlərinin xeyli hissəsini Yaxın Doğu cəbhəsinə yönəltdi və çox keçmədi ki, Fələstin-İsrail münaqişəsinin həlli yolunda ilk uğurlar qazanıldı. Tərəflərin sülhə gəlməsi haqqında müxtəlif planlar irəli sürüldü. 1989-cu ilin mayında İsrailin xarici işlər naziri İ.Şamir Kemp-Devid sazişinin müddəalarına əsaslanan təkliflə, sentyabrda Misir prezidenti H.Mübarək Fələstin muxtariyyətinin prinsipləri haqqında planla, oktyabrda isə ABŞ dövlət katibi C.Beyer hər iki sənədin başlıca prinsiplərini birləşdirən layihə ilə çıxış etdilər. Doğrudur, bu sənədlər nə İsrail tərəfindən, nə də FAT tərəfindən birmənalı qarşılanmadı. Anc-

aq onların təsiri idi ki, 1990-ci il yalnız Ərəb-İsrail münasibətləri baxımından deyil, bütün Orta Doğu problemləri baxımından dönüş nöqtəsi oldu. Körfəz savaşının ABŞ-ın istədiyi şəkildə başa çatması bölgədə digər problemlərin həllinin mümkünlüyünə olan inamı artırdı. 1991-ci il martın 6-də ABŞ prezidenti ata C.Buş məşhur dörd nöqtə və dörd prinsip planını elan etdi. Dörd nöqtə: 1) bölgədə təhlükəsizlik və istiqrar sisteminin yaranması; 2) silahsızlaşdırma; 3) özəlliklə İraqın silahsızlaşdırılması və 4) bölgənin təbii qaynaqlarından bölgə ölkələrinin rifahı üçün istifadə olunmasını nəzərdə tuturdu. Dörd prinsipin ən önəmlisi ərəblərlə İsrail və İsrail ilə Fələstin arasındakı dərin ziddiyyətlərin aradan qaldırılması idi. Digərləri isə terrorun heç bir nəticəyə gətirməyəcəyini, diplomatiyanın yerini heç bir şeyin verməyəcəyini, möhkəm bir sülhün əsasında 242 və 338 saylı qətnamələrin və "sülh əvəzində torpaq" prinsipinin dayanması, İsrailin tanınması və təhlükəsizliyinə təminat verilməsi ilə yanaşı Fələstin xalqının da qanuni haqlarının tanınması müddəaları idi.

Prezident ata C.Buşun "Ərəb-İsrail anlaşmazlığına bir son vermək zamanı gəlmişdir!" -sözlərinin reallaşması üçün ABŞ diplomatiyası var gücü ilə hərəkətə gəldi. 1991-ci ilin martından oktyabr ayına kimi müddətdə dövlət katibi C.Beyer Orta Doğu ölkələrinə 8 dəfə səfər etdi, 7 dəfə fələstinlilərlə görüşdü. Bu "məkik diplomatiya"sı səmərəli oldu: 1991-ci il oktyabrın 30-da Madriddə Orta Doğuya dair konfrans çağırıldı. ABŞ ərəblərlə İsraili bir masa ətrafında əyləşdirə bildi. Fələstin təmsilçisi Urdun heyətində yer aldı. Konfransın işinə Sovet İttifaqı (M.Qorbaçov), ABŞ (C.Buş), Avropa Birliyi, Misir (H.Mübarək) ilə yanaşı müşahidəçi sifəti ilə Körfəz Ərəb Dövlətləri Əməkdaşlıq Şurası və BMT Baş Katibinin nümayəndələri də qatıldılar.

Başlanğıcda tərəflər arasında danışıqlar çox çətin məcrada gedirdi. Təsadüfi deyildir ki, açılış mərasimi oktyabrın 30-da olsa da, danışıqların ikinci mərhələsi bir də noyabrın 3-4-də baş tutdu. Sonra isə danışıqlar və müzakirələr Vaşinqtonda davam etdirildi. 1991-ci il dekabrın 10-18-dən 1993-cü ilin iyul ayınadək tərəflər on dəfə bir araya gəldilər.

Onu da qeyd edək ki, həmin arada Fələstin təşkilatlarında sülh tərəfdarları və əleyhdarları, - onların başında C.Həbəş və N.Havatma dayanırdı, - arasında müxtəlif formalarda qarşıdurmalar baş vermiş, hətta bəzən danışıqlar dayandırılmışdı. Y.Ərafat gizli görüşlərdə ittiham olunur, FAT və İsrail heyətlərinin Tunisdə, Norveçdə və s. yerlərdə bir araya gəldikləri xəbərləri yayılırdı.

Nəhayət, 1993-cü il sentyabrın 8-10-da Paris görüşünün sonunda Y.Ərafat və baş nazir İ.Rabin İsrail və FAT-ın bir-birlərini rəsmən tanıdıqlarını bildirdilər. Bu hadisədən çox keçmədi ki, onlar 1993-cü il sentyabrın 13-də Vaşinqtonda prezident B.Klintonun iştirakı ilə FAT və İsrail arasında yaranacaq sülhün əsasları adlandıra biləcəyimiz Prinsiplər Bəyannaməsinə imza atdılar. Həmin sənədə görə Qəzza və Urdun çayının batı sahilindəki torpaqlarda beş ili aşmayan müddətdə Fələstin muxtar idarəçilik sistemi yaradılmalı, bunun ardınca isə məlum qətnamələr çərçivəsində Fələstinin son statusu haqqında müzakirələr davam etdirilməli idi.

Prinsiplər Bəyannaməsinə uyğun olaraq İsrail Qəzzədən və işğal altındakı Əriha bölgəsindən çəkilməli idi. Lakin Əriha ətrafında mübahisə yarandı. FAT həmin ərazinin 110 kv km hesab edirdi. İsrail isə bununla razı deyildi. Məsələ 1994-cü il mayın 4-də Qahirədə imzalanan sazişlə yoluna qoyuldu və 65 kv km-lik ərazi Fələstin muxtariyyətinə verildi.

Fələstin muxtariyyətinə çatacaq ərazilərdən İsrailin çıxması ilə bağlı 1994-cü il iyunun 24-dən başlanan görüşlər 1995-ci il sentyabrın 28-də Vaşinqtonda yeni bir sazişin imzalanması ilə nəticələndi.[1] İsrail 1967-ci ildə işğal etdiyi bəzi ərazilərdən çəkildi və həmin torpaqlar Fələstin muxtariyyəti idarəçiliyi altına keçdi.

Danışıqların növbəti mərhələsi 1996-cı ilin mayında başlanmalı və 1) Qüdsün statusu; 2) Fələstin muxtariyyəti ərazisində yəhudi məskənlərinin taleyi və 3) Fələstin və İsrail dövlətləri arasında sərhədlərin müəyyənləşdirilməsi məsələləri həll edilməli idi. 1995-ci ilin noyabrında İ.Rabinin bir yəhudi ekstremist tərəfindən öldürülməsi sadalanan məsələlərin həllini yarımçıq qoydu. Doğrudur, yeni baş nazir Ş.Peres onun kursunu davam etdirdi. 1998-ci ilin mayında Fələstin muxtariyyətinin başçısı (prezidenti-müəl.) seçkiləri keçirildi və səslərin 83%-ni alan Y.Ərəfat həmin vəzifəni tutdu. Belə ki, bir tərəfdən həmin arada Y.Ərəfatın siyasətindən narazı qüvvələr, xüsusilə də HAMAS üzvləri terror aksiyalarını genişləndirmiş, İsrail isə cavab tədbirlərini sərtləşdirmiş, o biri tərəfdən Güney Lübnanda hizbullahçılar və İsrail arasında hərbi əməliyyatlar başlanmışdı. ABŞ-ın işə qarışması və tərəflərin səyi ilə hərbi əməliyyatlar dayandırılsa da, 1996-cı ilin iyununda hakimiyyətə "Likud" blokunun lideri B.Netanyahunun gəlməsindən sonra danışıqlar prosesinin dinamikasında və Fələstin-İsrail münasibətlərində

---

[1] Qeyd: Fələstin və İsrail arasında sülh yaratmaq sahəsində tarixi xidmətlərinə görə Y.Ərəfat və İ.Rabinə 1994-cü ilin oktyabrında Nobel sülh mükafatı verildi.

ciddi dəyişiklik baş verdi. Sözdə sülh siyasətini dəstəklədiyini bildirən B.Netanyahu hökuməti işdə 1993-cü və 1995-ci illər sazişlərinin yerinə yetirilməsinə daha çox mane olurdu. Qəzza və Batı sahili ərazilərini blokadaya almaqla orada yaşayanların İsrailə işə və oxumağa getmələrini əngəlləmək, İsrail məbhəslərindəki fələstinli siyasi dustaqların azad edilməsi haqqında razılaşmalara məhəl qoymamaq, Urdun çayının Batı sahilində yəhudi məskənləri inşasını genişləndirmək, ərəb hissəsi də daxil olmaqla Qüdsü Fələstindən təcrid etmək, fələstinlilərin dini hissləri ilə oynamaq (məsələn, əl-Aqsa məscidinin altından tunel çəkmək) və s. B.Netanyahu hökumətinin fəaliyyətində önəm verilən adi hadisələr idi.

ABŞ, Böyük Britaniya və ərəb dövlətlərinin təkidlərinə və danışıqları davam etdirmək yolunda səy və cəhdlərinə baxmayaraq Fələstin - İsrail qarşıdurmasına son vermək heç cür mümkün olmurdu. Qeyd edək ki, Y.Ərəfat hökumətinin siyasəti də B.Netanyahu hökumətinin kursundan daha pozitiv idi. Lakin onun Fələstin muxtariyyətində gedən proseslərin hamısını öz nəzarəti altında saxlamaq imkanının zəifliyini də nəzərə çarpırdı. Məhz bu da B.Netanyahunun fələstinliləri sülh müqavilələrini pozmaqda ittiham etməsi və İsrail ordularını Fələstin muxtariyyəti ərazilərindən çəkməyəcəyi haqqında bəyanatları üçün başlıca bəhanə idi. Nəhayət, 1999-cu ilin fevralında sülh müqavilələrinin şərtlərini yerinə yetirmək müddəti bitdi. Lakin hələ də fələstinlilərə çatacaq torpaqların bir hissəsi İsrail işğalı altında qalırdı.

Ümumiyyətlə, təkcə Fələstin-İsrail münasibətləri deyil, bütövlükdə Ərəb-İsrail münasibətləri son dərəcə gərginləşmişdi və müşahidəçilərin qənaətinə görə bölgədə durum həmin illərin əvvəlindəki hala gəlmişdi. Ancaq 1999-cu ilin mayında növbəti parlament seçkilərində "Vahid İsrail" blokunun qələbəsindən və onun lideri E.Barakın (o, Əmək Partiyasını təmsil edirdi-müəl.) hökumətə başçılıq etməsindən sonra vəziyyət dəyişdi. 1999-cu il sentyabrın 4-də Şərm əş-Şeyxdə (Misir) Fələstin muxtariyyəti və İsrail nümayəndə heyətləri "bağlanmış Fələstin-İsrail müqavilələrinin reallaşdırılmamış şərtlərinin mərhələlərlə həyata keçirilməsi və Fələstin Milli Muxtariyyətinin son statusuna dair danışıqların bərpa edilməsi" haqqında razılığa gəldilər. İmzalanan sənədin ən önəmli cəhəti o idi ki, orada 2000-ci ilin sentyabrına qədər Fələstin Milli Muxtariyyətinin son statusu haqqında danışıqların başa çatdırılması konkret tarix olaraq göstərilirdi.

Qeyd edək ki, E.Barak hökuməti verdiyi vədlərin icrası istiqamətində -,

opponentləri tərəfindən ciddi tənqidlərə məruz qalsa da, - müəyyən işlər gördü. Prosesi sürətləndirmək üçün ABŞ vasitəçilik funksiyasını öz üzərinə götürdü. Fələstin dövlətinin yaranmasının rəsmən elan ediləcəyi gün (13 sentyabr 2000-ci il- müəl.) Y.Ərəfat və E.Barak ABŞ prezidentinin iştirakı ilə Kemp-Deviddə görüşdülər. Aralarındakı kəskin fərqli fikirlərə baxmayaraq tərəflər Prinsiplər Bəyannaməsini yerinə yetirməyə qərarlı olduqlarını bir daha bəyan etdilər. Y.Ərəfat geriyə bir qalib kimi döndü, E.Barak isə A.Şaronun başçılıq etdiyi müxalifətin qəti və sərt təpkisi ilə qarşılandı.

Bu səbəbdən də verilən vədlərin gerçəkləşməsi mümkün olmadı. 2000-ci ilin sentyabrında "intifada" hərəkatının növbəti mərhələsi başladı. Fələstin-İsrail münasibətləri qarşılıqlı ittihamlar və qırğınlar məcrasına girdi. Minlərlə insanlar qanlı hərbi əməliyyatların və terrorların qurbanı oldular. 2001-ci il fevralın 11-də A.Şaronun seçkilərdə qələbə çalması və baş nazir postuna yiyələnməsindən sonra İsrail hökumətinin Fələstin muxtariyyətinə, xüsusi ilə isə FAT-ın lideri Y.Ərəfata qarşı siyasəti daha sərt və barışmaz xarakter aldı.

"E.Barak dövrü bitdi!" söyləyən A.Şaron dövründə "torpaq əvəzinə sülh" kursundan "təhlükəsizlik əvəzinə sülh" kursuna keçildi. Bu isə onunla nəticələndi ki, fələstinlilər mümkün olan bütün vasitələrlə, o cümlədən özünə qəsd aksiyaları ilə Fələstin muxtariyyətinin müdafiəsinə qalxdılar. İsrail isə bunun qarşılığında güclü hərb maşınını işə saldı. İstənilən anda Fələstin muxtariyyəti ərazisindəki şəhərlər, kəndlər və qaçqın düşərgələrinə ağır texnika yeridir, hər iki tərəfdən verilən itkilərin sayı artırdı.

Doğrudur, dəfələrlə BMT başda olmaqla müxtəlif beynəlxalq təşkilatlar, ABŞ, Avropa və ərəb dövlətləri yaranmış vəziyyətdən çıxmaq üçün müəyyən təşəbbüslər göstərmiş və bəzən atəşkəsə nail olunmuşsa da, pozitiv bir dəyişiklik baş vermədi. Ancaq 2002-ci ilin martında Fələstin probleminin həlli istiqamətində iki mühüm hadisə oldu. Bunlardan birisi BMT TŞ-nın ilk dəfə olaraq 1967-ci il sərhədləri çərçivəsində Fələstin dövlətinin yaranmasını istəməsi, o biri isə martın 27-də Beyrutda ərəb dövlətlərinin zirvə toplantısında Səudi Ərəbistan vəliəhdinin BMT-nin qəbul etdiyi sənədlərin başlıca müddəalarından ibarət: 1) İsrail işğal etdiyi torpaqlardan çıxmalıdır; 2) Paytaxtı Qüds olmaqla Fələstin ərəb dövləti yaranmalıdır; 3) Qaçqınlar geri qayıtmalıdır; 4) Ərəb dövlətləri İsraili tanımalıdır – təklifi yekdilliklə bəyənilsə də, İsrail bunu da cavabsız qoydu.

Bununla yanaşı, hadisələr göstərirdi ki, hər iki tərəfdə silahlı qarşıdur-

ma şəraitində əbədi yaşamağın mümkünsüzlüyünü dərk edənlərin sayı getdikcə artmaqda idi. 2002-ci ilin sonlarında İsraildə hökumət böhranının baş verməsində həmin amil az rol oynamamışdır. Elə bu faktın özü belə söyləməyə imkan verirdi ki, Fələstin-İsrail münaqişəsinin həlli qaçılmazdır, tarixi zərurətdir və hər iki tərəfin gələcəyinin təminatıdır.

Ancaq həmin dövrdə A.Şaronun hakimiyyətə gəlməsiylə İsrail hökumətinin Fələstinə qarşı siyasəti xeyli sərtləşdi. Fələstin İsrail silahlı qüvvələri tərəfindən blokadaya alındı. İş o yerə gəlib çatdı ki, Y.Ərəfat 2002-ci ilin beş ayı ərzində Ramallahda öz qərargahında İsrail hərbçilərinin mühasirəsində qaldı. A.Şaron hətta onun Fələstindən çıxarılmasını tələb edirdi. ABŞ isə Y.Ərəfat vəzifədən getməyincə Fələstin dövlətini tanımayacağını bildirdi. Bu təzyiqlərə duruş gətirə bilməyən Y.Ərafat 2003-cü ilin martında bir sıra siyasi islahatlara və hətta apreldə hakimiyyəti baş nazir Mahmud Abbasla bölüşdürməyə razılıq verdi.

Y.Ərafatdan fərqli olaraq M.Abbas intifada tərəfdarı deyildi, lakin Fələstin silahlılarına da tam nəzarət edə bilmirdi. Belə bir şəraitdə "yol xəritəsi" yenidən ortaya çıxarıldı. Layihə münaqişənin üç il ərzində mərhələlərlə nizamlanmasını nəzərdə tuturdu və ona görə 2005-ci ildə Fələstin dövlətinin yaradılması gerçəkləşməli idi. Fələstin tərəfi layihəni qəbul etdi, İsrail isə onun tətbiqi ərəfəsində müəyyən düzəlişlər etmək (cəmi 14 düzəliş) hüququnu özündə saxladığını bildirdi. BMT 2003-cü il noyabrın 19-da layihəni bəyəndi və qəbul etdi. Bununla da həmin sənəd beynəlxalq hüquqi status qazandı. Lakin bu da heç bir nəticə vermədi. Çox da böyük siyasi çəkiyə malik olmayan M.Abbas terrorun qarşısını ala bilmədi. Həmin səbəbdən İsrail nəinki yəhudi məskənlərinin salınması siyasətindən imtina etdi, eyni zamanda İsrail və Fələstin bölgələrini ayıran "təhlükəsizlik səddi"nin tikintisinə başladı. Yaranmış şəraitdə M.Abbas istefaya getdi və Y.Ərafat onun yerinə Əhməd Qureişini baş nazir təyin etdi.

İsrailin hərbi əməliyyatları nəticəsində 2004-cü il martın 22-də HAMAS-ın yaradıcısı və mənəvi lideri olan şeyx Əhməd Yasin və təşkilatın 20-dən sox vəzifəli şəxsi məhv edildi. 2004-cü ilin 11 noyabrında isə Y.Ərafat Parisdə vəfat etdi. Onun ölümündən sonra 2005-ci ilin yanvarında 62% səs çoxluğu ilə M.Abbas yenidən baş nazir seçildi. A.Şaron onunla danışıqlarda atəşkəsə razı oldu və tərəflər bir daha sülhə dinc yollarda yaxınlaşmanın vacibliyini etiraf etdilər. İsrail 2005-ci il sentyabrın 5-də fələstinlilərlə "birtərəfli ayrılma" proqramının icrasına başladı. Qəzza bölgəsindəki 21 yaşayış

məntəqəsindən 8,5 min israillinin köçürülməsinə qərar verildi. Eyni zamanda Batı sahildə 4 yəhudi yaşayış məntəqəsi boşaldıldı və buradan hərbçilər də çıxarıldı. Beləliklə də Qəzzanın 1967-ci ildən bəri davam edən işğalına son qoyuldu. Bununla yanaşı, Qəzza bölgəsindən İsrail əhalisinin çıxarılmasına başlananda Fələstin qaçqınlarının oraya qayıtmasına razılıq verilmədi.

Belə bir məqamı da özəlliklə vurğulamaq istərdik ki, sözügedən dövrdə Fələstinin siyasi səhnəsində HAMAS amilinin güclənməsi Fələstin-İsrail münasibətlərində ciddi gərginliklər yaratdı. Belə ki, təşkilat Y.Ərəfatın ölümündən sonra kifayət qədər fəallaşmaq imkanı qazandı və bu da tezliklə bəhrəsini verməyə başladı. HAMAS öncə 2005-ci il bələdiyyə seçkilərində Qəzza bölgəsində, Nablusda və digər iri şəhərlərdə seçicilərin böyük hissəsinin səsini ala bildi. Sonra bu uğur 2006-cı parlament seçkilərində də təkrar olundu. Parlamentdəki 133 yerdən 73-nü HAMAS-ın tərəfdarları tutdu. Təşkilatın liderlərindən İsmayıl Haniyə başda olmaqla yeni hökumət təşkil olundu. Bütün bunlar Fələstində daxili istiqrara yol açmalı olduğu halda, o baş vermədi. Birincisi, Fəth ilə HAMAS arasında münasibətlər pisləşdi və kəskinləşdi. Hər iki təşkilatın silahlı dəstələri üz-üzə gəldilər və qanlı toqquşmalar baş verdi. Digər tərəfdən antiİsrail ovqatlı HAMAS-ın hakimiyyətə gəlməsi həm İsrailin, həm də ABŞ-ın etirazı ilə qarşılandı. 2006-cı ilin iyununda Qəzza bölgəsində İsrailin Q.Şalit adlı hərbçisinin oğurlanması tərəflər arasında münasibətlərin kəskinləşməsinin zirvəsi oldu. Qəzza bölgəsi iqtisadi blokadaya alındı.

Eyni zamanda, daxili siyasi həyatda da ciddi gərginliklər yaşanırdı. 2006-cı il oktyabrın 20-də Qəzzada İsmayıl Haniyəyə qarşı baş tutmayan sui-qəsd cəhdindən sonra HAMAS-Fəth münasibətləri tamam korlandı. Çünki, bu işdə Fəthin əli olduğu iddiaları vardı. Lakin bütün bunlara baxmayaraq həm ölkə daxilindəki siyasi qüvvələr, həm də beynəlxalq ictimaiyyət Fələstində istiqrarın bərpa olmasında daha maraqlı idilər. Məhz bu ovqatın təsiri altında Fəth və HAMAS arasında danışıqlar baş tutdu və 2007-ci ilin fevralında koalisyon hökumət qurulması haqqında razılaşma əldə edilirdi. Lakin bu hökumətin ömrü uzun olmadı. Belə ki, o, həmin dövrdə bir tərəfdən beynəlxalq birliyin tələb etdiyi 1) İsraili tanımaq, 2) fələstinli yaraqlıların tərk-silah edilməsi və 3) zorakılığa son qoyulması tələblərini yerinə yetirməkdən imtina etdi. Digər tərəfdən bu barədə üçtərəfli ABŞ-İsrail-Fələstin danışıqları da nəticəsiz qaldı. Buna cavab olaraq Fələstin

muxtariyyətini maliyyələşdirən bir sıra dövlətlər onun iqtisadi boykotuna başladılar. HAMAS ABŞ-da, Avropanın bir sıra ölkələrində və İsraildə terrorçu təşkilat kimi tanındı. İsrailin baş naziri E.Olmert Fələstin muxtariyyəti ilə əlaqənin kəsilməsi haqqında bəyanat verdi. Ən başlıcası isə 2007-ci ilin may-iyun aylarında HAMAS tələb etdi ki, Fəth tərəfdarı olan polis qüvvələri ya daxili işlər nazirliyinin tabeliyinə keçməli, ya da tərk-silah edilməlidir. Bu tələb ciddi narazılıq doğurdu və yenidən HAMAS-Fəth qarşıdurması alovlandı. Onu da qeyd edək ki, M.Abbasın bəzi tərəfdarları da İsmayıl Haniyə hökumətinə tabe olmurdular və onun bəzi göstərişlərinə qarşı çıxırdılar.

Bütün bunlara son qoymaq məqsədi ilə M.Abbas 2007-ci il 14 iyulda hökuməti buraxdı, ölkədə fövqəladə vəziyyət elan etdi və hakimiyyəti öz üzərinə götürdü. Belə olduqda HAMAS da Qəzzada hakimiyyəti ələ keçirdi və burada islam dövləti qurulmasını elan etdi. Beləliklə də Fələstin muxtariyyəti iki yerə bölündü: Qəzza HAMAS, Batı sahil isə Fəth tərəfindən idarə olunmağa başlandı.

Hadisələrin belə arzuolunmaz məcraya düşməsi səbəbləri sırasında bir məqamı özəlliklə vurğulamaq istərdik ki, HAMAS-ın parlament seçkilərində qələbəsini şərtləndirən amil uzun müddət Fəth-in hakimiyyəti altında olan və mövcud idarəçilik üsullarından cana doymuş xalqın iqtisadi, sosial, səhiyyə, təhsil və s. sahələrdə islahatlar vəd edən HAMAS-ın ciddi dəyişikliklər edəcəyinə inamı idi. Təşkilatın proqramındakı İsrail dövlətinin tam ləğvini və Fələstində islam dövləti quracağını nəzərdə tutan prinsipləri bəyənənlər də az deyildi. Bu səbəbdən HAMAS-ın terrorçu bir təşkilat kimi tanınması onun seçkilərdəki qələbəsindən ciddi narahatlıq doğurmaya bilməzdi. Təşkilatın liderlərindən Xalid Məşəlin başçılığı altında nümayəndə heyətinin məşvərət üçün Rusiya Federasiyası prezidenti V.Putin tərəfindən Moskvaya dəvət edilməsi də böyük əks-səda verdi. Bölgədəki problemlərin çözülməsində iştirakçı və maraqlı olan dövlətlər, Fransa istisna olmaqla, Moskvanın bu hərəkətini dəstəkləmədi. İsrail hökuməti nazirlərindən biri onu "İsrailə arxadan vurulan zərbə" kimi dəyərləndirdi. HAMAS-ın çeçen yaraqlıları ilə əlaqələri haqqında məlumatlar İsrail tərəfindən dünya mətbuatına çıxarıldı.

Fələstin muxtariyyətinin parçalanması səbəbindən İsraillə aparılan danışıqlar dayandırıldı. Bununla yanaşı İsrail və ABŞ yetkililəri bəyan etdilər ki, danışıqlar ancaq M.Abbasla aparılar bilər. Çünki, HAMAS liderləri nə

İsrailin mövcudluq faktını, nə də indiyə qədər əldə edilmiş Fələstin-İsrail razılaşmalarını tanıyırlar.

Bu səbəbdən idi ki, ABŞ-ın təşəbbüsü ilə 2007-ci ilin noyabrında Annapolisdə (ABŞ) Yaxın Doğuya dair beynəlxalq konfrans çağırıldı və burada M.Abbas və E.Olmert "Yol xəritəsi" əsasında yeni danışıqların başlanmasına razılıq verdilər. 2009-cu ilin sonuna kimi müstəqil Fələstin dövlətinin yaradılması layihəsi gündəmə gəldi.

Az sonra 2008-ci il noyabrın 23-də FAT-ın Mərkəzi Komitəsi M.Abbası yeni müddətə Fələstinin prezidenti seçdi. Onu dəstəkləyən ABŞ və AB bəyan etdilər ki, fələstinlilərə birbaşa yardım göstərilməsini bərpa edirlər.

Lakin həmin ərəfədə Fələstin-İsrail münasibətlərində yeni bir gərginlik yarandı və bu, HAMAS-ın İsraillə atəşkəs rejimini pozması və onun ərazilərini raket atəşinə tutması ilə əlaqədar idi. Buna cavab olaraq İsrail 2008-ci ilin sonunda Qəzza bölgəsində hərbi əməliyyatlara başladı. Məqsəd İsrailə yönəli raket atəşlərinə son qoyulması və HAMAS-ın hərbi strukturlarını məhv edilməsi idi. Hərbi əməliyyatlar 2009-cu ilin yanvarınadək davam etdi və onun gedişində 1300 fələstinli həlak oldu, beş mindən çoxu isə yaralandı. Qəzza əməliyyatı kimi tanınan bu hərbi münaqişə İsrail üçün də gözlənilməz nəticələr verdi. Bölgəyə humanitar yardımlar axını geniş miqyas aldı. İsrail Türkiyə və İranın sərt təpkisi ilə üz-üzə qaldı, hətta ABŞ-ın dəstəyindən məhrum oldu.

Bölgə kəskin siyasi gərginliklər zolağına girdi. 2009-cu ilin yanvarın 29-da İsveçrənin Davos şəhərində keçirilən beynəlxalq forumun gedişində Türkiyə Baş naziri R.T.Ərdoğan və İsrail prezidenti Ş.Peres arasında baş verən məşhur "one minute!" insidenti yaranmış gərginliyin ilk və güclü əks-sədası oldu. Türkiyə-İsrail münasibətləri çat verdi. Bir qədər irəli gedərək onu da əlavə etmək istərdik ki, 2010-cu il mayın 30-31-də Qəzzaya humanitar yardım gətirən beynəlxalq gəmi karvanına neytral sularda İsrail hərbçilərinin hücumu zamanı "Mavi Mərmərə" gəmisində doqquz türkün qətlə yetirilməsi və bir çoxunun yaralanması iki dövlət arasındakı ənənəvi dostluq münasibətlərini tamam pozdu.

Bütövlükdə bölgədə cərəyan edən hadisə və proseslərin nəzarətdən çıxması ehtimalı bölgədaxili və xarici gücləri "oyun qaydaları"na daha real yanaşma məcburiyyəti və zərurəti qarşısında qoydu. Ən başlıcası isə, 2009-cu ilin martında İsraildə Likud partiyasının yenidən hakimiyyətə gəlməsi və

B.Netanyahunun Baş nazir postunu tutmasından sonra tərəflərarası münasibətlərdə İsrail sərt mövqe sərgiləməyə önəm verdi. B.Netanyahu münaqişənin nizamlanmasında diplomatiyadan daha çox hərbə, gücə üstünlük verməyə başladı.

Belə mövqe isə ərəb dünyasında ABŞ-ın nüfuzuna xələl gətirir, münaqişəyə yeni maraqlı qüvvələrin qatılması təhlükəsini artırırdı. Təsadüfi deyildir ki, ABŞ prezidenti B.Obama yenidən danışıqlara nail oldu. Lakin ortaya çıxmış fikir ayrılıqları danışıqların müsbət sonluğuna ümidləri azaltmışdı. Bu, ABŞ-ın İsraillə bağlı mövqeyində sərtləşməyə gətirdi. Prezident B.Obama bəyan etdi ki, ABŞ Fələstin dövlətinin yaranmasını dəstəkləyir və hər hansı tikinti işlərinin dondurulması tərəfdarıdır. Sanki bu mövqeyə cavab olaraq İsrailin Baş naziri 2009-cu ilin iyununda Bar İlan Universitetindəki çıxışında danışıqların əsas məqamlarına toxunaraq vurğuladı ki, Fələstin dövlətinin tanınmasının əsas şərti bu dövlətin yaraqlılarının tərk-silah edilməsi və onun İsraili suveren yəhudi dövləti kimi tanıması olmalıdır. B. Netanyahuya görə Qüds İsrail və orada yaşayan fələstinlilərin bölünməz paytaxtı olaraq qalmalı, fələstinli qaçqınlar problemi isə İsrailin hüdudlarından kənarda həll olunmalıdır. Baş nazir bu şərtlər daxilində Batı sahilində heç bir yeni yəhudi yaşayış məskəninin tikilməyəcəyinə təminat verdi və eyni zamanda, bütün ərəb dövlətləri liderlərini Fələstin rəhbərliyinin heç bir şərt qoymadan danışıqlar masası arxasına oturmağa dəstək verməyə çağırırdı.

Belə bir şəraitdə 2009-cu ilin avqustunda Fəth Batı sahildə son iyirmi ildə ilk qurultayını keçirdi. Ancaq rəhbərliyin tərkibində elə ciddi dəyişikliklər baş vermədi. Qurultaydakı çıxışında M.Abbas sülh danışıqlarının nəticəsiz olduğunu əsas səbəb kimi göstərərək, 2010-cu il seçkilərinə getmək istəmədiyini elan etdi. M.Abbasın belə mövqeyi nəinki İsraildə, eləcə də ərəb dünyasında ciddi narahatlıq yaratdı. Çünki, islamçı qüvvələrin radikal mövqeyi münaqişə tərəflərini və digər maraqlı qüvvələri əsla təmin etmirdi.

Nəhayət, 2010-cu ildə ABŞ tərəflərin görüşünü təşkil etdi. Burada da Fələstin yenidən İsraili məskunlaşma siyasətindən əl çəkməyə, 1967-ci il sərhədləri daxilində Fələstini tanımağa və Doğu Qüdsü onun paytaxtı kimi qəbul etməyə çağırdı. İsrail isə bu tələbləri rədd etdi və onları İsrailin milli təhlükəsizliyinə zərbə kimi dəyərləndirdi. Həmin vaxtdan hər iki tərəf güzəşt axtarışlarından uzaqlaşmağa başladı. Bu da beynəlxalq birliyin ciddi narahatçılığına səbəb oldu. Çünki, İsrail "bunun həlli vaxtı çatmamışdır" bəha-

nəsi ilə dövlət sərhədlərinin müəyyənləşdirilməsinə dair danışıqlardan yayınırdı.

Yaxın Doğu bölgəsində yaranmış bu yeni beynəlxalq şərait ilk növbədə ABŞ və Rusiyanı problemə diqqəti artırmağa vadar etdi. "Dördlər"[1] qrupunun üzvləri kimi ABŞ və AB dövlətləri İsraili 1967-ci il sərhədlərinə qayıtmağa çağırdı. Belə qərarları İsrailə ciddi təhlükə sayan B.Netanyahu sülh prosesindən ümumiyyətlə imtina etməklə hədələyərək işğal olunmuş ərazilərdə yeni yəhudi məskənlərinin salınması proqramına qərar verdi.

Həmin dövrdə İsrailin bu siyasətinə qarşı dayanmaqda Fələstinin durumunu ağırlaşdıran ən ciddi problem ölkənin siyasi hakimiyyətinin və qüvvələrinin parçalanmış halda olması idi. Buna son qoymaq məqsədi ilə həmin qüvvələr Qahirədə bir araya gəldilər və 2011-ci il mayın 3-də Fəth və HAMAS daxil olmaqla əksər Fələstin təşkilatları arasında barışıq əldə edildi. Misirin vasitəçiliyi ilə yeni parlament seçkilərinin keçirilməsi və Milli Birlik hökuməti yaratmaq və burada HAMAS-ı siyasi hakimiyyətin tərkib hissəsi kimi qəbul etmək haqqında razılığa gəlindi. Lakin bu, Fələstinə yüz milyonlarla yardım edən ABŞ-ı qane etmədi. İsrailin Baş naziri B.Netanyahu isə onu qəti şəkildə pislədi və bildirdi ki, "HAMAS Fələstin hökumətinə daxil olarsa, heç bir danışıq baş tutmayacaqdır".

Yaranmış şəraitdə Fələstin rəhbərliyi diplomatik hücum taktikasına əl atdı. İlk olaraq BMT-yə qəbulla bağlı müraciət olundu. ABŞ bunun ancaq İsraillə danışıqların nəticəsində baş verə biləcəyini qeyd etdi. Lakin bir sıra ərəb dövlətləri Fələstinin təşəbbüsünü dəstəklədi, Bu, istər ərəb dövlətlərinin, istərsə də beynəlxalq birliyin Fələstin probleminin nizamlanmasına olan istəyi ilə bağlı idi.

Özəlliklə onu da əlavə edək ki, həmin dövrdə Fələstin probleminin gələcəyinə təsir göstərən amillər içərisində "ərəb baharı" da öz rolunu oynadı. Baş verən inqilablar nəticəsində dəyişən dünyəvi rejimlərin başına islamçı qüvvələrin gəlməsindən ehtiyatlanan İsrail ərəblərlə münasibətləri korlamaqdan ehtiyat etməyə başladı. Bu səbəbdən də "ərəb baharı"nın İsrailin mövqelərini yumşaltmasına təsiri kifayət qədər əhəmiyyətli oldu. 2011-ci ilin payızında gərgin danışıqlardan sonra beş il əvvəl fələstinlilərin əsir götürdüyü İsrail hərbçisi Q.Şalitin azad edilməsinin əvəzində minlərlə fələ-

---

[1] Yaxın Doğu üzrə "Dördlər" qrupu ABŞ, Rusiya, BMT və Avropa Birliyindən ibarətdir. Qrup 2002-ci ildə Madriddə təşkil olunmuşdur və təmsilçisi Böyük Britaniyanın sabiq Baş naziri Toni Blerdir.

stinli İsrail məhbəslərindən buraxıldı.

Fələstin rəhbərliyinin öz mövqelərini möhkəmlətmək sahəsində ən mühüm addımlardan biri də 2011-ci il 23 sentyabrda M.Abbasın BMT-yə üzv olmaq haqqında Baş Katib Pan Gi Muna rəsmi müraciət etməsi oldu. Bu məsələ ətrafında gərgin müzakirələr getdi və həmin il oktyabrın 31-də Fələstin YUNESKO-ya üzv qəbul edildi. Təbiidir ki, bu faktın özü də beynəlxalq birliyin Yaxın Doğudakı mövcud münaqişəli vəziyyətə reaksiyası idi. Bu sırada İsrailin kəskin mövqeyinə baxmayaraq, 2011-ci ilin dekabrın 15-də İslandiyanın ilk Batı Avropa dövləti olaraq Fələstinin dövlət müstəqilliyini tanıması və bunun Böyük Britaniya tərəfindən dəstəklənməsi də məxsusi vurğulanmağa layiq hadisə idi. Bu fakt ona dəlalət edirdi ki, artıq beynəlxalq aləmdə Fələstin-İsrail münaqişəsi ətrafında yeni ab-hava yaranmaqdadır. Onun həllinin uzanması bir tərəfdən arzuolunmaz əlavə təzahürlərə meydan açılmasına, digər tərəfdən isə İsrailə qarşı beynəlxalq təzyiqlərin güclənməsinə gətirməkdədir.

Məhz bunların nəticəsi idi ki, 2012-ci il noyabrın 29-da BMT Baş Məclisi Fələstin muxtariyyətini böyük səs çoxluğu ilə müşahidəçi dövlət statusunda təşkilata qəbul etdi. 2013-cü il martın 21-22-də ABŞ prezidenti B.Obamanın İsraildə və Fələstində olması, hər iki tərəfin rəhbərliyi ilə görüşməsi, ən başlıcası isə, pozulmuş İsrail-Türkiyə münasibətlərinin bərpası ilə bağlı tərəflərin razılığını alması bölgənin siyasi həyatına xoş ovqat gətirdi. Bunun ardınca yenə də ABŞ-ın Dövlət Katibi C.Kerrinin həmin ilin aprelin əvvəllərindən bölgəyə səfər etməsi, maraqlı tərəflərlə danışıqlar aparması Fələstinin bir dövlət olaraq gələcəyinin tezliklə müəyyənləşəcəyinə inam və ümidləri artırdı.

Bütün bunlarla yanaşı, onu da məxsusi olaraq söyləmək istərdik ki, sözügedən məsələnin daha müsbət şərtlərlə çözülməsində Fələstinin daxilində mövcud olan bir sıra arzuolunmaz halların və təzahürlərin aradan qaldırılmasına böyük ehtiyac vardır. Bunu Fələstinin və onun xalqının birliyi və bütövlüyü tələb edir və şübhə yoxdur ki, uzun illərin hər cür ağırlıqlarına və çətinliklərinə sinə gərən xalq qarşıda duran problemlərinin də həllinə nail olacaqdır.

# URDUN

Urdun[1] coğrafi baxımdan Doğu Aralıq dənizi ölkələrindən biri olsa da, öz sosial-iqtisadi və siyasi durumu baxımından daha çox Ərəbistan yarımadası ölkələrinə bənzəyir. Onun ərazisi tarixən Suriya, Lübnan və Fələstinlə birlikdə Böyük Suriya coğrafiyasının bir parçası olmuşdur. Urdun termininin siyasi-coğrafi bir məfhum kimi meydana gəlməsi məşhur Sayks-Piko sazişi ilə bağlıdır. Sazişdə Urdun çayı arxasındakı torpaqlarını – Transurdunun (ərəbcə: Mavaraəlurdun) Böyük Britaniyanın nüfuz dairəsinə verilməsi nəzərdə tutulurdu. Həmin zamandan da Transurdun – Mavaraəlurdun termini siyasi-coğrafi termin kimi dövriyyəyə girmişdir. Necə adlanmasından asılı olmayaraq, həmin ərazi XVI əsrin əvvəllərindən XX əsrin əvvəllərinə kimi, - dörd yüz ildən artıq müddətdə, - Osmanlı dövlətinin əyalətlərindən olan Suriyanın tərkibində idi.

Ölkə sosial-iqtisadi durum baxımından çox geridə qalmışdı. Burada köçəri təsərrüfat fəaliyyəti daha geniş intişar etmişdi və sənaye bölməsi isə çox aşağı səviyyədə idi.

Urdunun bir dövlət olaraq təşəkkül tapması Osmanlı dövlətinin süqutu zəminində baş vermişdir. Belə ki, 1915-ci ilin iyununda Böyük Britaniya Hicazın hakimi və daha çox Məkkə və Mədinənin şərifi kimi tanınan Hüseyn əl-Haşimi ilə Osmanlı dövlətinə qarşı birgə çıxışlar etmək haqqında saziş imzalamışdı. Əvəzində isə ona Asiyanın ərəb ölkələrindən ibarət yaradılacaq yeni dövlətin krallığı vəd olunurdu. Hüseyn və onun oğulları Böyük Britaniyanın maddi və hərbi yardımı ilə dəstələr yaratdılar və Osmanlı dövlətinə qarşı üsyan qaldırdılar.

I Dünya müharibəsində Osmanlı dövlətinin məğlubiyyətə uğraması və Mudros (30 oktyabr 1918-cı il) sülhünün şərtlərinə görə tərki-silah edilmiş Osmanlı hərbi qüvvələrinin geri çəkilməsi ilə bir vaxtda Hüseynin üçüncü oğlu Feysəlin rəhbərlik etdiyi ərəb üsyançı dəstələri indiki Suriya-Türkiyə sərhədinə qədər gəlib çıxdılar. Ancaq Feysəlin "Böyük Suriya" üzərində Haşimilərin hakimiyyətini qurmaq cəhdi uğursuzluqla nəticələndi. Onun dəstələri ingilis ordusu tərəfindən işğal olunmuş Fələstin ərazilərinə girə bilmədi. 1920-ci ilin iyulunda isə onlar fransız qoşunları tərəfindən Suriyadan da sıxışdırılıb çıxarıldılar.

Əmir Abdullah Hicazdan qardaşının köməyinə gəldi. Onun dəstələri

[1] Qeyd: Ölkə 25 may 1946-cı ilədək Mavaraəlurdun-batı dillərində Transurdan adlanırdı.

1920-ci ilin noyabrında Məanda cəmləşdilər və 1921-ci il martın 2-də San-Remo konfransının (aprel, 1920) qərarlarına görə Böyük Britaniya mandatlığına verilmiş Fələstinin bir hissəsi olan Ammanı tutdular. Antanta qoşunları tərəfindən zəbt olunmayan "Böyük Suriya"nın istisna olunmaqla qalan ərazisi bu yeganə hissəsi Böyük Britaniya siyasi müşavirlərinin nəzarəti altındakı yerli hakimiyyətin idarə etdiyi muxtar əyalətlərə parçalandı. San-Remoda Suriya və Lübnanı Fransa mandatlığına vermək məcburiyyətində qalan ingilislər Feysəlin Suriya taxt-tacına iddialarına dəstək verməkdən imtina etdilər və eyni zamanda, Diməşqə tərəf hərəkət edən Abdullahın dəstələrini dayandırmaq üçün ciddi səylər göstərdilər.

Məhz bu dövrdə onlar Urdun çayından doğuda yerləşən əraziləri xüsusi inzibati vahidə – Transurdun-Mavaraəlurdun əmirliyinə verilməsi planını irəli sürdülər. Plana görə, Fələstində tətbiq olunan mandatın şərtləri yeni yaradılan əmirliyə də şamil olunmalı idi. Beləliklə də, Transurdun-Mavaraəlurdun əmirliyinin əsası qoyulmuş oldu və nəticədə Böyük Britaniya üç başlıca məqsədinə çatdı: birincisi, Körfəzdən Qırmızı dənizədək uzanan və Böyük Britaniyadan asılı ərəb ölkələri zənciri tamamlandı və bununla Böyük Britaniyanın təsiri altında olan Ərəbistan yarımadasından Misirədək uzanan ərazilərə strateji körpü salındı və həm də Suriyadan kənarda fransız təsirinin genişlənməsinə sədd çəkilmiş oldu; ikincisi, Mavaraəlurdunda yarımmüstəqil feodal-monarxiya rejimi yaratmaqla ərəb feodal-tayfa başçıları bölgə xalqlarının azadlıq mübarizəsinə qarşı qoyula bilərdi. Bununla yanaşı, Böyük Britaniyanın vədlərini yerinə yetirməməsi nəticəsində şərif Hüseynlə pozulan münasibətlərin bərpası məsələsi də həllini tapa bilərdi. Eyni zamanda, Mavaraəlurdun və İraqda Haşimiləri taxt-taca sahib edən Böyük Britaniya vahid ərəb dövlətinin qurulması iddialarını birdəfəlik qapatmaq imkanı qazanırdı. Nəhayət, üçüncüsü, Mavaraəlurdun ərazisi siyonizmlə siyasi oyunların gedişində Fələstində "yəhudi milli ocağı" yaradılması haqqında Balfur Bəyannaməsi şərtlərinin təsir dairəsindən kənara çıxarılırdı.

1921-ci il martın 12-də Qahirədə Böyük Britaniyanın müstəmləkələr naziri U.Çörçillin başçılığı ilə Yaxın Doğudakı mandat idarəçiliyi təmsilçilərinin konfransı keçirildi. Konfransın əsas məqsədi Böyük Britaniyanın bölgədəki siyasətinin başlıca istiqamətlərini müəyyənləşdirmək, bəzi məsələlər ətrafında fikir mübadiləsi aparmaq və lazımi qərarlar qəbul etmək idi. Onun qərarlarından biri də – paytaxtı Amman şəhəri olmaqla Mavaraəlurdun əmirliyinin yaranmasının hüquqi cəhətdən əsaslandırılması, eyni zamanda, Fələ-

stindəki mandat rejiminin şərtlərinin bu əmirliyə də şamil edilməsi oldu.

1921-ci ilin martında əmir Abdullah U.Çörçillin dəvəti ilə Qüdsdə onunla görüşdü. Danışıqlar zamanı Böyük Britaniya tərəfi Haşimilərin Fələstin və Suriya ərazilərinə iddialarını qəti şəkildə rədd etdi. Əvəzində Abdullaha Böyük Britaniya mandatlığı çərçivəsində yeni Mavaraəlurdun əmirliyinə başçılıq etmək təklif olundu. Sonda tərəflər aşağıdakı razılaşmanı imzaladılar: Mavaraəlurdunda əmir Abdullah ibn əl-Hüseynin başçılığı ilə milli hakimiyyət formalaşır; Bu hakimiyyət müstəqil dövlət qurulması üçün lazımı addımlar atır; Paytaxt Ammanda mandat rejimi təmsilçisi kimi Böyük Britaniya nümayəndəsi fəaliyyət göstərir; Böyük Britaniya Mavaraəlurduna zəruri maddi kömək edir; Mavaraəlurdun Suriya və Fələstinə qarşı bütün iddialarından əl çəkir; Böyük Britaniya Ammanda hərbi-hava bazasını inşa etmək hüququnu özündə saxlayır. Xüsusi qeyd olundu ki, Balfur Bəyannaməsinin şərtləri Mavaraəlurduna şamil edilmir.

1921-ci il aprelin 11-də əmir Abdullah Mavaraəlurdunun ilk hökumətini formalaşdırdı. Rəşid bəy Talianın başçılığı ilə məşvərətçi xarakterli "Müşavirlər Şurası" adlı qurum yaradıldı. 1922-ci il sentyabrın 16-da Millətlər Cəmiyyəti Böyük Britaniyanın təqdim etdiyi və Mavaraəlurdunun Fələstin mandatlığından çıxarılmasını nəzərdə tutan təklifiylə razılaşdı. 15 oktyabrda isə əmir Abdullah Londona gələrək Böyük Britaniya tərəfindən əmirliyin tanınması və iki dövlət arasında müvafiq müqavilənin imzalanması üçün danışıqlara başladı.

Lakin bu zaman ölkənin əksər bölgələrini bürümüş antiingilis çıxışları, bədəvi tayfaları arasında yaranan ziddiyyətlər, əmirliyin quzey və doğu sərhədlərində toqquşmaların artması və nəhayət, əmir Abdullahın bütün ölkə boyunca hakimiyyətini qorumasına olan şübhələr Böyük Britaniya hökumətini Mavaraəlurdunla müqavilə imzalamaqdan çəkindirdi. Buna baxmayaraq 1923-cü il mayın 25-də Böyük Britaniyanın Fələstindəki ali komissarı Ammanda Mavaraəlurdun əmirliyinin müstəqilliyinin tanınması haqqında bəyanat verdi. Bəyanatda qeyd olunurdu ki, əmirliyin hakimiyyəti Böyük Britaniyanın üzərinə götürdüyü beynəlxalq öhdəliklərin həyata keçrilməsinə maneçilik törətməməlidir. Bu, mandat rejimi şəraitində, faktiki hakimiyyətin Böyük Britaniya nümayəndəsinin əlində cəmləşməsi demək idi.

Mavaraəlurdun əmirliyinin yaradılması şərtləri onun gələcək siyasi və sosial-iqtisadi inkişaf yollarını da müəyyənləşdirdi. Böyük Britaniya və yerli hakimiyyətin əsas məqsədi dövlət aparatının, ilk növbədə hərbi-polis qüvvə-

lərinin yaradılması oldu. Yaradılan hərbi qüvvələr 1921-ci ildə cəmi 100 nəfərdən ibarət idi və onlar əmirə tabe olan dəstələri əvəz etməli idilər. 1923-cü il sentyabrın 11-də 1200 nəfərdən ibarət hərbi və polis qüvvələri Böyük Britaniya zabiti F.Pikin komandandığı altında Ərəb legionu tərkibində birləşdilər. Bu legiondan ilk vaxtlar ölkədaxili toqquşmaların və iğtişaşların yatrılmasında, sonralar isə ondan Böyük Britaniyanın maraqlarına uyğun olaraq, ölkə xaricində də istifadə edilməyə başlandı.

Eyni zamanda Böyük Britaniya mandat hakimiyyəti və əmir Abdullah bir sıra islahatlar keçirməyə də cəhd göstərdilər. Əhalinin yüksək vergilərə qarşı narazılığını nəzərə alınaraq, vergi sistemi tənzimləndi. Bu tədbir ancaq müəyyən daimi gəliri olan şəhər əhalisinə şamil olunurdu. Lakin islahatlar cüzi və səthi xarakter daşıdığından əhalinin ümumi durumu yaxşılaşmadı. Sosial-iqtisadi həyat ağır olaraq qalırdı.

Böyük Britaniya Mavaraəlurdunun iqtisadi inkişafına xüsusi maraq göstərmirdi. Çünki əmirliyin geridə qalması orada istənilən siyasəti yürütmək üçün geniş imkanlar yaradırdı. Təsadüfi deyil ki, Böyük Britaniyanın əmirliyə göstərdiyi yardımın (ildə 123 min f.st.) böyük hissəsi Ərəb legionuna sərf olunurdu.

Mavaraəlurdunun yaradılmasının ilk illərində Böyük Britaniya ölkədə mövqelərinin möhkəmlənməsinə və əmirliyin sərhədlərinin genişlənməsinə önəm verirdi. Bu isə, təbii ki, Haşimilərin ənənəvi rəqibi olan Səudilərin maraqlarına toxunurdu. Həmin sırada 1922-ci ildə Böyük Britaniyaya güvənən İraq kralı Feysəlin və əmir Abdullahın İbn Səuda qarşı birgə uğurlu çıxışını xüsusi qeyd etmək lazımdır. Ancaq Böyük Britaniyanın Haşimilər Hicazı ilə münasibətlərinin tənzimlənməməsi səbəbindən həm İraqın, həm də Mavaraəlurdunun güney və güney-doğu bölgələri Səudilərin daima təhdidi altında idi. İbn Səud özü də Körfəz və Qırmızı dəniz arası ərazilərə olan iddialarını gizlətmirdi. Buna görə də Böyük Britaniya Hicaza məxsus və böyük strateji əhəmiyyətə malik Məan və Aqaba bölgələrinin Mavaraəlurdun əmirliyinə birləşdirilməsinə can atırdı. Qeyd edək ki, Maanın Hicaz dəmir yolunun son nöqtəsi olması, Aqabanın isə Mavaraəlurdunun dənizə çıxışını təmin etməsi onların əhəmiyyətini daha da artırırdı.

Qeyd edək ki, hələ 1924-cü ilin martında şərif Hüseynin Ammana səfəri zamanı Abdullah Böyük Britaniyanın tələbi ilə Məan və Aqabanın Mavaraəlurdunun tərkibinə qatılması haqqında atasından şifahi razılıq almışdı. Az sonra isə Hicaz-Nəcd müharibəsində (1924-1925-ci illərdə) uğursuzluğa du-

çar olan Hüseyn böyük oğlu Əlinin xeyrinə taxt-tacdan əl çəkdi. İbn Səudla mübarizəni davam etdirən Əli də müqavimət göstərmək gücündə olmadı. Lakin tamamilə məğlubiyyətə uğramasından bir qədər əvvəl o, Məan və Aqabanı qardaşı Abdullaha verə bildi. 1925-ci il iyunun 5-də Ciddədə onların arasında bağlanmış müqavilə ilə həmin bölgələrin Mavaraəlurduna birləşdirilməsi rəsmiləşdi.

Hicazı ələ keçirən Nəcd əmiri İbn Səud bu müqavilənin şərtlərini tanımaqdan imtina etdi və uzun illər Məan və Aqabaya iddialarından geri çəkilmədi. Nəticədə, Haşimilər və Səudilər arasındakı ənənəvi düşmənçilik daha da kəskinləşdi.

Sözügedən hadisələrin ümumi gedişi və nəticələrinə əsasən belə qənaətə gəlmək olar ki, Mavaraəlurdun bir dövlət olaraq yaranması prosesində xüsusi gərginliklər yaşanmamışdır və bu məsələdə Böyük Britaniyanın oynadığı rol inkar olunmamalıdır. Mavaraəlurdun hakimiyyətini narahat edən bir problem var idisə, o da ölkənin iqtisadi qaynaqlarının yoxsulluğu idi. Məhz bu gerçəklik də Mavaraəlurdunun Böyük Britaniya ilə sıx əlaqələr qurmasını zəruri edən amil oldu. Bu səbəbdən idi ki, 1928-ci ildə ingilislərin köməyi ilə Ərəb legionunun ölkənin sabitliyi və təhlükəsizliyini təhdid edən bir sıra xalq çıxışlarını yatırmasından və əmirlikdə daxili vəziyyətin sabitləşməsindən Böyük Britaniya hökuməti də istifadə etdi və Mavaraəlurdunla münasibətlərini hüquqi baxımdan rəsmiləşdirdi. 1928-ci il fevralın 20-də Qüdsdə iki ölkə arasında imzalanan müqaviləyə əsasən, Böyük Britaniya mandatlığı olan Fələstinə şamil edilən qanunverici və icraedici hakimiyyət onun bir hissəsi olan Mavaraəlurdunda əmir tərəfindən icra edilməli idi. Eyni zamanda, Qüdsdəki Böyük Britaniya ali komissarı və onun Ammandakı nümayəndəsi əmirliyin xarici və konsessiya siyasəti, qanunvericilik, maliyyə, hərbi qüvvələr və vergilər üzərində nəzarətini özündə saxlayırdı. Bütün müəssisələrdə Böyük Britaniya müşavirləri institutu tətbiq olunurdu. Müqavilənin xeyli hissəsini hərbi məsələlər təşkil edirdi. Böyük Britaniya Mavaraəlurdun ərazisində hərbi qüvvələri saxlamaqla yanaşı, yerli hərbi qüvvələr yaratmaq və onlara nəzarət etmək, hərbi vəziyyət elan etmək, ölkə ərazisindən hərbi qüvvələr keçirmək, hərbi infrastrukturlar şəbəkəsi yaratmaq, həmçinin mövcud kommunikasiya sistemlərindən istifadə və yenilərini qurmaq hüququ əldə etdi. Mavaraəlurdun Böyük Britaniya qoşunlarının saxlanılma xərclərini ödəməli, Böyük Britaniya isə bunun müqabilində əmirliyə illik müavinət verməli idi. Qeyd edək ki, XX əsrin 20-ci illərində 100 min funt-sterlinq məbləğində olan müavinət-

lər artıq 40-cı illərdə 2 mln.f.st-ə çatmışdı. Bütün bunlar isə əslində o demək idi ki, Böyük Britaniya Mavaraəlurdunda mandatlıq rejimini qarşılıqlı münasibətlər sistemi ilə əvəz etmişdi.

1928-ci il aprelin 19-da Mavaraəlurdun əmirliyinin ilk Konstitusiyası qəbul olundu. Konstitusiya əmirin səlahiyyətləri və məsuliyyətinin hüdudlarını müəyyənləşdirdi, bir sıra azadlıqlar və hüquq prinsiplərini elan etdi. Konstitusiyaya görə, qanunverici hakimiyyət əmirə və Qanunverici Şuraya məxsus idi. Şuranın tərkibi 9 ərəb-müsəlman, 3 ərəb-xristian, 2 çərkəz və 2 bədəvi olmaqla 16 nümayəndədən ibarət idi. İcraedici hakimiyyət isə Baş nazirin rəhbərlik etdiyi və 6 üzvdən ibarət "İcra Şurası"na (hökumətə) həvalə olunurdu. Hökumət yalnız əmirin qarşısında məsuliyyət daşıyırdı. Dövlət başçısı – əmir isə mütləq hakimiyyəti sahibi idi. Onun qanunları təsdiq etmək, Qanunverici Şuranı çağırmaq və buraxmaq hüquqları vardı. Əmir qərarlar verir və ölkənin bütün sərvətlərinin sahibi sayılırdı. Konstitusiya ilə eyni zamanda seçki qanunu da qəbul olundu. Qanuna görə Qanunverici Şuraya seçkilər iki mərhələli olmalı idi. Ancaq 30 yaşına çatmış kişilər seçki hüququna malik olurdu. Köçəri qəbilələr isə bu hüquqdan məhrum idi.

Mavaraəlurdun-Böyük Britaniya müqaviləsi və Konstitusiyanın qəbulu ölkədə müəyyən qüvvələrin etirazı ilə qarşılandı. Onlara 1927-ci ilin martında bir qrup nüfuzlu bədəvi şeyxi və milli burjuaziya nümayəndələri tərəfindən əsası qoyulmuş Xalq partiyası rəhbərlik edirdi. Patiyanın çağırışı ilə şəhərlərdə kütləvi nümayişlər və tətillər baş verdi. Etirazın ən yüksək nöqtəsi 1928-ci il iyulun 25-də Xalq partiyası tərəfindən Milli Konqresin çağırılması oldu. Burada 150 nəfərin iştirakı ilə Milli Əhd qəbul olundu. Onun məhdud, lakin anti-batı yönümlü olması Milli Əhdə xalq kütlələrinin geniş dəstəyini qazandırdı. Milli Əhddə Böyük Britaniya qoşunlarınının saxlanma xərclərindən imtina tələbi qoyulur və Mavaraəlurduna verilən müavinət Böyük Britaniyanın strateji maraqlarına təminat vasitəsi kimi xarakterizə olunurdu. Konqres Hüseyn paşa Taraunanın rəhbərliyi altında 26 nəfərdən ibarət İcraiyyə Komitəsi seçdi. İcrayyə Komitəsinin əmir Abdullahla apardığı danışıqlar nəticəsiz oldu. Ölkədə siyasi vəziyyət get-gedə gərginləşirdi. Mandat idarəçiliyi qeyri-sabit bölgələrdə çox sayda qoşun hissələri yerləşdirdi. Lakin İcraiyyə Komitəsi yaranan əlverişli şəraiti düzgün qiymətləndirə və etiraz hərəkatına başçılıq edə bilmədi.

Bu arada Böyük Britaniya və əmir Abdullah İcraiyyə Komitəsinin qətiyyətsizliyindən istifadə edərək 1929-cu ilin yanvarına Qanunverici Şuraya

seçkilər təyin etdi. Əhalinin əksəriyyəti seçkiləri boykot etsə də, hakimiyyət seçicilərin lazım olan sayda iştirakını təşkil edə bildi. Qanunverici Şuraya qəbilə-tayfa əyanlarının nümayəndələri, iri mülkədarlar və məmurlar seçildi. Gözlənildiyi kimi, bu qurumda təmsil olunanlar Böyük Brtaniya-Mavaraəlurdun müqaviləsinin təsdiqi prosedurunu sürətləndirdi və o, 1929-cu ilin iyunun 4-də qüvvəyə mindi.

Bundan sonra Böyük Britaniya öz diqqətini ölkədə strateji maraqlarının tam təmin edilməsinə yönəltdi. Büdcə vəsaitinin çox hissəsi hərbi infrastrukturun yaradılmasına, o cümlədən strateji əhəmiyyətli yolların çəkilməsinə, Amman və əl-Mafriqdə inşa edilən aviabazanın və digər hərbi obyektlərin, hərbi polis və bürokratik aparatın saxlanılmasına xərclənirdi. 1926-1935-ci illərdə 1200 km-ə yaxın yol çəkilmişdir. 1931-ci ildə İraq Petroleum Kompani (İPK) Mavaraəlurdun ərazisindən keçən Kərkük-Hayfa neft kəmərinin inşası huququnu əldə etdi. Kəmərin tikintisi 1932-1934-cü illərdə həyata keçirildi, 1928-1941-ci illərdə isə böyük strateji əhmiyyətli - Bağdad-Hayfa magistral şosse yolu inşa edildi.

Həmin dövrdə Mavaraəlurdun əmirliyinin qonşu ərəb dövlətləri ilə münasibətləri inkişaf edirdi. 1931-ci ilin martında Həşimilər İraqı ilə əməkdaşlıq, 1933-cu ilin martında isə Səudi Ərəbistan ilə qarşılıqlı tanınma və qonşuluq münasibətləri haqqında müqavilələr imzalandı. Sonuncu müqavilənin əsas şərti Səudilərin Maan və Aqabaya, Abdullahın isə bütün Həşimilərin adından Hicaza olan iddialarından əl çəkməsi idi.

1929-cu ildən sonra Mavaraəlurdunda antibatı hərəkatı tənəzzülə uğradı. Xalq partiyası tədricən kütlə arasında nüfuzunu itirərək siaysi səhnəni tərk etdi. 1934-cü ildə Milli Konqresin İcraiyyə Komitəsi özünü buraxmaq haqqında qərar verdi. Hakimiyyət isə, öz növbəsində, bir sıra fövqəladə qanunlar qəbul edərək ölkədə istənilən etiraz çıxışını asanlıqla yatırırdı. Ancaq strateji obyektlərin tikildiyi bölgələrdə iğtişaşlar heç cür səngimirdi. Odur ki, 1929-cu il qanununa görə, bu bölgələr yerli hakimiyyətin səlahiyyətindən çıxarıldı, əmir və Bədəvi Nəzarət Şurasının idarəçiliyinə keçirildi. 1930-cu ildə isə bədəvi bölgələrinin idarə edilməsi əmirliyə xüsusi missiya ilə göndərilmiş mütəxəssis – Böyük Britaniya zabiti C.B.Qlabba tapşırıldı. 1933-cü ildə o, həmin bölgələrin rəsmi inzibatçısı təyin olundu. Qlabb tayfaların hərəkətlərinə, onların məskunlaşma yerlərinin müəyyənləşməsinə, əmlaklarının müsadirə edilməsinə və s. nəzarət hüququna malik idi. Hələ 1931-ci ilin iyununda yaradılan "Səhra keşikçiləri" adlı bədəvilərdən ibarət xüsusi sərhəd jandarme-

riyası isə bədəvi bölgələrində cəza əməliyyatları keçirir, qəbilə şeyxlərini satın alır, su mənbələrinə və karvan yollarına nəzarət edirdi. Bütün bunların nəticəsində bir neçə ildən sonra bədəvi bölgələri tamamilə ram edilmiş oldu.

Ancaq, hakimiyyətin bu cür ciddi addımlarına baxmayaraq, XX əsrin 30-cu illərində Mavaraəlurdunda kütləvi iğtişaşlar baş verirdi. Məsələn, 1933-cü, 1936-1939-cu illərdəki Fələstin ərəblərinin üsyanlarını göstərmək olar. Bu dövrdə əmirliyin vətənpərvər qüvvələri Mavaraəlurdun-Fələstin sərhədlərini keçərək ümumi düşmənə qarşı birgə mübarizə aparırdılar. Nəhayət, 1936-1939-cu illərdə baş verən xalq üsyanları partizan hərəkatı forması alaraq Fələstindən Mavaraəlurduna keçdi. Partizan dəstələri əsasən Acluna dağlarında fəaliyyət göstərirdi. Onlar Böyük Britaniya hərbi hissələrinə, nəqliyyat vasitələrinə hücum edir, telefon xətlərini dağıdır, İPK neft kəmərinə basqınlar təşkil edirdilər. Mavaraəlurdun hakimiyyəti üsyanın əmirlik ərazisində yayılmasına qarşı bütün vasitələrdən istifadə edir, partizan hərəkatının səngiməsi üçün ciddi səy göstərir, Fələstindən və digər ərəb ölkələrindən gələn silahların və könüllülərin qarşısını alırdı.

1936-ci ildən Fələstində cərəyan edən silahlı mübarizə və kütləvi nümayişləri yatırmaq üçün Böyük Britaniya əmir Abdullahın, İraq kralı Qazinin və İbn Səudun köməyindən istifadə edirdi. Qeyd edək ki, Böyük Britaniyanın Yaxın Doğuya dair gələcək planlarında Mavaraəlurdun əmirliyi əhəmiyyətli yer tuturdu. Həmin dövrdə Fələstində ərəb və yəhudi dövlətlərinin yaradılması layihələrinə əsasən (məsələn, 1937-ci il iyunun 22-də lord Pil tərəfindən verilmiş tövsiyələri göstərmək olar-müəl.) bölgədə yaradılacaq ərəb dövlətinin başçısı kimi əmir Abdullaha üstünlük verilirdi.

1939-cu il mayın 16-da Mavaraəlurdun-Böyük Britaniya müqaviləsinə ölkənin silahlı qüvvələrinin yeniləşməsi və sayının artırılmasını nəzərdə tutan bir sıra əlavələr edildi. Onlara əsasən Ərəb legionu yenidən qurulmalı, "Səhra keşikçiləri" onun tərkibinə qatılmalı və kontingentin sayı 1600 nəfərə çatdırılmalı idi. 1939-cu il iyunun 25-də C.B.Qlabb Legionun başçısı təyin olundu. O, general rütbəsi və paşa titulu aldı və həmin vaxtdan Qlabb paşa Mavaraəlurdunun tacsız hökmdarına çevrildi.

II Dünya müharibəsi illərində Böyük Britaniya Yaxın və Orta Doğuda əlavə hərbi və əsas polis qüvvəsi kimi peşəkar Ərəb legionunun xidmətindən istifadə edirdi. 1941-ci ilin yazında legionun hissələri İraqda R.Ə.əl-Qaylani üsyanının yatırılmasında, iyun ayında isə Böyük Britaniya və Azad Fransa hərbi birləşmələrinin Suriyaya müdaxiləsində iştirak etdi. Misirdə, Fələstin-

də, İraqda yerləşən kommunikasiya, neft kəmərləri, aerodromlar və digər hərbi obyektlərin mühafizəsi legionun dəstələrinə tapşırılmışdı. Müharibənin sonunda onun tərkibində artıq 8 minə yaxın əsgər və zabit xidmət edirdi.

Müharibə dövründə Ərəb legionuna və digər hərbi məqsədlər üçün verilən Böyük Britaniya müavinətləri də xeyli artdı. Əgər 1937-38-ci illərdə müavinətlər Mavaraəlurdunun daxili gəlirinin 28%-ni təşkil edirdisə, 1939-40-ci illərdə bu rəqəm 102%, 1940-41-ci illərdə 208 %-ə qədər artmışdı.

Müharibə illərində Mavaraəlurdun iqtisadiyyatında müəyyən canlanma baş verdi. Xarici ticarət genişləndi, ticarət-sənaye bölməsi inkişaf etdi. Bu, ölkənin ticarət balansının nisbətən yaxşılaşmasına səbəb oldu. Əgər 1938-ci ildə ixracla müqayisədə idxalın ümumi çəkisi 36,9% təşkil edirdisə, 1943-1945-ci illərdə o, artıq 52%-ə qalxmışdı. Dövlətin qiymətlər üzərində nəzarətdən, kommersiya əməliyyatlarına gəlir vergisinin tətbiqindən imtina etməsi, tacirlərin lisenziya vergilərindən azad olunması və s. kimi addımları ticarət-sənaye sahibkarlığının genişlənməsinə şərait yaratdı. Eyni zamanda, ölkədə qaçaqmalçılıq ticarəti də xeyli artmışdı. Onu da deyək ki, ticarət və iqtisadiyyatın nisbi inkişafı hərbi dövrün konyukturasından irəli gəlirdi. Məhz buna görə də, ölkənin iqtisadi həyatında hər hansı köklü dəyişikliyin baş verməsindən danışmaq olmaz, çünki bu inkişaf yalnız tacir zümrəsinin bir qisminin zənginləşməsinə şərait yaratmış, Mavaraəlurdun əvvəlki kimi patriarxal və feodal-qəbilə münasibətlərinin üstünlük təşkil etdiyi, geridə qalmış və iqtisadiyyatı zəif inkişaf etmiş ölkə imicini saxlamışdı.

II Dünya müharibəsi illərində Fransanın Yaxın Doğuda mövqelərinin zəifləməsi Suriya və Lübnan ərazisinin Böyük Britaniya hakimiyyəti altına alınması planlarını yenidən gündəmə gətirdi. 1943-cü ildə Böyük Britaniya əmir Abdullahın başçılığı ilə Suriya, Lübnan, Fələstin və Mavaraəlurdunun "Böyük Suriya" layihəsi çərçivəsində birləşdirilməsi planını işə saldı. Ümumiyyətlə 1920-ci illərdən etibarən bu layihə vaxtaşırı gündəmə gəlirdi və aktuallığını itirməmişdi. Lakin Suriya və Lübnan bu plana, daha doğrusu Haşimilərin ehtimal olunan hakimiyyətinə qarşı çıxdı və bu məsələdə Səudi Ərəbistan və Misir onlara dəstək verdi. Bu ölkələr arasında yalnız İraq Abdullahın təşəbbüsünü dəstəklədi və o da öz növbəsində "Bərəkətli Aypara" adlanan layihəni irəli sürdü. Layihədə "Böyük Suriya" və İraqın da daxil olduğu Ərəb Liqası adlı qurumun yaradılması nəzərdə tutulur və bütün ərəb dövlətlərinə bu ittifaqa daxil olmaq təklif olunurdu. Lakin hər iki layihə həm daxili, həm də xarici qüvvələr tərəfindən rəğbətlə qarşılanmadı.

Bir sıra ərəb ölkələri kimi Mavaraəlurdun da II Dünya savaşında bilavasitə iştirak etmədi. Lakin onun məşhur Ərəb legionu irəlidə deyildiyi kimi, müharibə illərində Böyük Britaniya tərəfindən regionda müəyyən məqsədlər üçün istifadə edildi. Legion kəmiyyət və keyfiyyətcə xeyli böyüdü, müharibənin sonlarında 8 min nəfərlik zabit və əsgəri birləşdirən güclü hərbi qüvvə oldu.

Müharibə illərində ölkənin iqtisadi həyatında da ciddi inkişaf baş verdi. Xarici ticarət əlaqələrinin artması, sənaye-ticarət sahəsində yaranmış canlanma təkcə ölkənin iqtisadi strukturunda deyil, sosial həyatında da dəyişikliklər yaratdı. Lakin yenə də kapitalizmə qədərki iqtisadi həyat tərzi hakim olaraq qalırdı və yeni tipli münasibətlərin – burjua münasibətlərinin inkişafı yolunda ciddi maneə idi. Bununla yanaşı, müharibə dövründə dünyada və ölkənin özündə baş verən hadisələr Urdunun bir dövlət olaraq regionda nüfuzunu və rolunu artırdı. Yaxın Doğuda Fransanın mövqelərinin zəifləməsi zəminində güclənmək istəyən Böyük Britaniya öz məqsədinə çatmaqda Mavaraəlurduna daha çox söykənməyə başladı, "Böyük Suriya" planının gerçəkləşməsi yolunda ona başlıca yer ayrıldı. Məhz bu baxımdan, eləcə də müharibənin başa çatmasından sonra yeni yaşam şərtlərini ehtiva edən dünya düzəninin tələbləri baxımından 1946-cı il martın 22-də Londonda bu iki dövlət arasında imzalanan müqaviləyə görə mandatlıq sistemi ləğv edildi. Bunun müqabilində ölkədə Böyük Britaniyanın hərbi mövqeləri toxunulmaz olaraq saxlanıldı.

1946-cı il mayın 25-də həmin vaxtadək Mavaraəlurdun kimi tanınan ölkə Qanunverici Şuranın qərarına əsasən Urdun Haşimilər Krallığı adlandırıldı və əmir Abdullah kral oldu. 1947-ci fevralın 1-də qəbul olunan yeni konstitusiyada krala geniş səlahiyyətlər verildi. Onun qanunları təsdiq etmək, parlamenti buraxmaq, müharibə və fövqəladə vəziyyət elan etmək hüququ var idi. Kral həm də silahlı qüvvələrin ali baş komandanı idi. İki palatalı Milli Məclis son dərəcə məhdud səlahiyyətlərə sahib olmaqla yanaşı, kral qarşısında məsuliyyət daşıyırdı.

Qeyd edək ki, 1946-cı il müqaviləsi Urdunun beynəlxalq-hüquqi statusunda əsaslı dəyişiklik yaratmadı. Doğrudur, o, beynəlxalq hüququn subyekti kimi davranmağa çalışırdı, qonşu dövlətlərdən 1947-ci ilin yanvarında Türkiyə, apreldə İraqla müqavilələr də bağlamışdı. Lakin, BMT-nin üzvü ola bilmirdi. Bundan qaynaqlanan narazılıq ovqatı zəminində kral Abdullah müqaviləyə baxılması üçün 1947-ci ilin sentyabrında Böyük Britaniyaya

müraciət yenidən etdi. Regionda yaranmış Fələstin problemi səbəbindən Böyük Britaniya güzəştə getməyə razı oldu və 1948-ci il martın 15-də bağlanmış müqaviləyə əsasən onun Urdunda hərbi mövqeləri xeyli məhdudlaşdırıldı. Böyük Britaniya yalnız Əmman və Məfrəqdə hərbi qüvvə saxlaya bilərdi və bu qüvvələr də məhdud hüquqi vəziyyətə gətirildi.

Bəlli olduğu kimi, Urdun hərbi qüvvələri ingilis zabitlərinin komandanlığı altında 1948-1949-cu illər Fələstin müharibəsində iştirak etdilər və sonunda Mərkəzi Fələstinin (sonralar Urdun çayının batı sahili adlandı – müəl.) çox böyük hissəsini və Qüdsün doğu bölməsini tutdular. İsrail ilə atəşkəs haqqında saziş imzalananadək Urdun bu ərazini öz əlində saxladı və ilk əvvəl ora şəxsən kral Abdullaha tabe olan hərbi general – qubernatorun idarəsinə verildi. Sonralar Urdun həmin torpaqları üz ərazisi elan etdi. Doğrudur, hələ 1948-ci ilin sentyabrında Qəzzada Fələstin hökuməti yaradılmışdı və o, Ərəb Dövlətləri Liqasının Urdundan başqa bütün üzvləri tərəfindən tanınmışdı. Lakin kral Abdulla bu hökumətlə əməkdaşlıqdan imtina etdi. O, 1948-ci il dekabrın 1-də Ərihədə keçirilən konqresdə Fələstinlə Urdunun birləşməsi və özünün Fələstinin də kralı elan edilməsi haqqında verilən qərarı dəstəklədi. Baxmayaraq ki, kral buna qədər də həmin məsələdə razılıq əldə etmək məqsədi ilə bir sıra ərəb ölkələrində olmuşdu və rədd cavabı almışdı, lakin o, istəyini gerçəkləşdirməkdən çəkinmədi və dekabrın 13-də Urdun parlamenti Əriha konqresinin qərarlarını təsdiq etdi.

1950-ci il aprelin 11-də isə parlament seçkiləri keçirildi. Urdun çayının batı sahilində yaşayan fələstinlilərin də bu seçkilərdə iştirak etməsi səbəbindən parlamentin hər iki palatasında yerlərin sayı iki dəfə artırıldı. Aprelin 13-də təşkil olunmuş hökumətə fələstinlilər də daxil edildilər. Yeni parlament 1950-ci il aprelin 24-də Batı sahili torpaqlarının Urduna birləşməsinə qərar verdi. Ancaq o da qeyd olunurdu ki, bu qərar müvəqqətidir və Ərəb Fələstininin son statusuna təsir etməyəcəkdir.

Ümumiyyətlə, Fələstin müharibəsinin Urdun ilə bağlı nəticələri bundan ibarət olmadı. Ölkə iqtisadi və siyasi baxımdan bir sıra problemlərlə qarşılaşdı. Bunlardan ən ciddisi qaçqınlar məsələsi idi. 1950-ci ildə sayı yarım milyon nəfərdən çox olan fələstinli qaçqın ölkədə məskunlaşmışdı. Onların ərzaqla və işlə təmin olunması Urdunu çıxılmaz vəziyyətə salmışdı. Qeyd etmək istərdik ki, Urduna birləşdirilən Fələstin ərazisi iqtisadi baxımdan ölkənin inkişaf etmiş bölgəsi sayıldığı kimi, həm də siyasi həyatın qaynar olduğu yer idi. Fələstinli əhali uzun illər idi ki, öz hüquqlarının tapdalanmasına qarşı

Avropanın bir sıra dövlətləri və onların dəstək verdiyi qüvvələrlə mübarizə aparmışdı, müəyyən siyasi təcrübə qazanmışdı. İndi isə onlar kralın məhz həmin dövlətlərlə yaxşı münasibətlərdə olmasını, Fələstin ərazisində mühün vəzifələrə Avropapərəst və daha çox da ingilispərəst şəxsləri təyin etməsini, kiçik bir narazılığı hər vasitə ilə susdurmasını etirazla qarşılayırdılar. Həm də onların bu ovqatı yerli əhaliyə də təsir edirdi və nəticə etibarı ilə ölkədə kralın daxili və xarici siyasət kursundan narazı olanların sayı artırdı. Xüsusilə də, Böyük Britaniyanın regionda zəifləyən mövqelərinin ABŞ tərəfindən ələ keçirilməsi, ABŞ-Urdun yaxınlaşması istər fələstinli, istərsə də yerli əhali tərəfindən birmənalı qarşılanmırdı. 1952-ci il fevralın 27-də "Trumen doktrinası" üzrə kömək haqqında ABŞ-la saziş imzalanması bu baxımdan böyük narazılıq doğurdu. Yaranmış vəziyyətdən sol qüvvələr yararlanmağa çalışır, xalqın etiraz hərəkatına rəhbərliyi öz əllərinə keçirmək istəyirdilər. 1950-ci ilin payızında Süleyman ən-Nəblusinin başçılığı altında mötədil müxalifət qrupunun yaranması, 1951-ci ilin yazında Urdun Kommunist Partiyasının qurulması da bu məqsədlə edilmişdi.

Parlamentin özündə də hökumətin daxili və xarici siyasətini tənqid edən müəyyən qüvvələr var idi. Onlar islahatlar keçirilməsini, siyasi azadlıqların genişləndirilməsini, Ərəb legionunun komandanı general Qlabbın özbaşınalığına son qoyulmasını tələb edirdilər. İş o yerə çatdı ki, 1951-ci ilin mayında parlament hökumətin təqdim etdiyi büdcəni təsdiqləmədi və kral parlamenti buraxdı.

1951-ci il iyulun 20-də isə kral Abdullah Qüdsdə əl-Aqsa məscidinin girəcəyində "əl-Cihad əl-Müqəddəs" adlı Fələstin millətçi təşkilatının üzvü tərəfindən öldürüldü, onun yerini oğlu Təlal tutdu. Yeni kral atasından bir qədər fərqli siyasət yürütmək kursunu götürdü. 1952-ci ilin yanvarında əvvəllər atasının imtina etdiyi ərəb dövlətlərinin "kollektiv təhlükəsizlik paktı"na qoşuldu. Qəbul olunmuş yeni konstitusiya hökumətin parlament qarşısında məsuliyyət daşıdığını, kral hakimiyyətinin müəyyən qədər məhdudlaşdırıldığını, bir sıra demokratik hüquq və azadlıqları elan etdi.

Kral Təlalın xarici siyasəti Böyük Britaniyanın ölkədən daha çox sıxışdırılması müqabilində ABŞ-la münasibətləri genişləndirməyə və ərəb ölkələri ilə olan münaqişələri tənzimləməyə yönəlmişdi. Kralın Böyük Britaniya əleyhinə açıq çıxışları onunla nəticələndi ki, ingilis mətbuatı onun psixi cəhətdən xəstə olması haqqında məlumat yaydı. 1952-ci il avqustun 11-də parlament Təlalı taxtdan saldı və onun böyük oğlu Hüseyn kral elan

olundu. Hüseyn kral kimi 1953-cü il mayın 2-də fəaliyyətə başladı (o, həddbuluğa çatmadığından həmin dövrə kimi ölkəni hakimlər şurası idarə edirdi – müəl.)

Fövzi əl-Mülkinin başçılığı altında mötədil müxalifətçilərdən ibarət hökumət təşkil edildi. Onun dövründə daxili siyasəti əsasən dəyişilməz qalsa da, xarici siyasət xeyli fərqli oldu. Avropayönümlü siyasətdən uzaqlaşma özünü göstərir, ABŞ-la münasibətlər pisləşirdi. Türkiyə və İraqla bağlanmış müqavilələr faktik olaraq donduruldu. AntiAvropa ovqatlı Suriya və Misirlə əlaqələr yaxşılaşdı.

Hökumətin bu siyasəti güclü mövqe sahibi olan siyasi qüvvələrin geniş etirazını doğurdu. 1954-cü il mayın 2-də Fövzi əl-Mülki hakimiyyətdən uzaqlaşdırıldı və onun yerinə əvvəllər də baş nazir olmuş Tovfiq Əbu-l-Huda gətirildi. Lakin ölkədə artmaqda olan siyasi fəallığı dayandırmaq mümkün olmadı.

Müxtəlif ictimai təşkilatların, həmkarlar birliklərinin və siyasi partiyaların yaranması prosesi davam edirdi. Sol yönümlü qüvvələr 1954-cü ildə Milli Sosialist Partiyasını (MSP) qurdular. Onlara Süleyman ən-Nəblusi liderlik edirdi. Həmin ildə Misir təcrübəsi əsasında "Azad Zabitlər" təşkilatı yarandı. Müxtəlif partiyaları və siyasi qüvvələri birləşdirən "Milli Cəbhə"nin fəaliyyətə başlaması siyasi həyatda qüvvələrin konsolidasiyası baxımından ciddi hadisə idi. Cəbhənin proqramında Böyük Britaniya ilə qeyri-bərabər müqavilələrin ləğvi, hərbi bloklara qoşulmamaq, milli iqtisadiyyatı inkişaf etdirmək, demokratik hüquq və azadlıqları genişləndirmək və s. tələbləri var idi. Artıq ölkənin müxtəlif yerlərində hətta hərbçilərin də iştirak etdiyi mitinq və nümayişlərin keçirilməsi adi hala çevrilmişdi. Parlamentdə də Milli Cəbhənin tələbləri müdafiə olunurdu. Bu səbəbdən 1954-cü il iyunun 22-də parlament buraxıldı. 1955-ci ilin yazında Tovfiq Əbu-l-Huda hökuməti də istefa verdi. Lakin ölkədə daxili həyəcanlar səngimədi. Odur ki, Səid əl-Müftinin başçılıq etdiyi hökumət bir qədər geri çəkilmək zorunda qaldı. Böyük Britaniya qarşısında 1948-ci il müqaviləsinə yenidən baxılması məsələsi qaldırıldı. Xarici siyasətdə tərəfsizlik meylləri artmağa başladı, 1955-ci ilin aprelində Bandunqda keçirilən Asiya və Afrika ölkələri konfransında iştirak edildi, Bağdad Paktına qoşulmaqdan imtina olundu və s.

Təsadüfi deyildi ki, ABŞ və müttəfiqlərinin Urdunu Bağdad Paktına cəlb etmək cəhdləri güclü etiraz aksiyaları doğurdu. Təkcə bu faktı xatırlatmaq kifayətdir ki, 1955-ci il dekabrın 15-də baş nazir olmuş əl-Məcalinin Böyük

Britaniya və İranla yaxınlaşmaq, Bağdad Paktına girmək planlarını elan etməsi onun beş gündən sonra istefası ilə nəticələndi. Bütün ölkəni bürüyən etiraz dalğasını yatırmaq üçün polis və ordunun gücündən istifadə olundu. Ərəb legionunun bir sıra əsgərin nümayişçilərə atəş açmaqdan imtina etməsi isə böyük təşviş doğurdu. Onları cəzalandırmaq üçün general Qlabbın başçılığı altında Hərbi Tribunalın yaradılması isə ehtirasları daha da gücləndirdi. "Azad Zabitlər" məsələyə müdaxilə etdilər və general Qlabbı ümumiyyətlə vəzifədən və ölkədən uzaqlaşdırmaq tələbini irəli sürdülər.

1956-cı ilin əvvəlindən etibarən kral Hüseyn yaranmış şəraitdə bir sıra cəsarətli addımlar atdı. General Qlabb bütün vəzifələrdən və ölkədən çıxarıldı, Ərəb legionu Urdun Ərəb Ordusu adlandırıldı, ordudakı bütün ingilis zabitləri tərxis olundu, onların yerinə ərəblər gətirildi və ordu başdan-başa ərəbləşdirildi. "Azad Zabitlər"in rəhbəri Əli Əbu Nüvar Baş Qərargah rəisi oldu və bu təşkilatın digər üzvlərinə məsul vəzifələr verildi.

Doğrudur, kral Hüseyn Böyük Britaniya ilə əlaqələrin yenə də normal qalmasının tərəfdarı idi və həmin zaman kəsiyində hökumətə başçılıq etmiş ər-Rifai, Səid əl-Müfti və İbrahim Haşim Misir, Suriya və Səudi Ərəbistan ilə yaxınlaşmaqla yanaşı İraqla müttəfiqliyi saxlamaq istəsələr də, yüksələn etirazla razılaşmalı oldular. 1956-cı ildə Suriya və Misirlə hərbi, iqtisadi və mədəni əməkdaşlıq haqqında müqavilələr bağlandı.

1956-cı il oktyabrın 21-də parlament seçkiləri keçirildi və hökumətə başçılıq Süleyman ən-Nəblusiyə tapşırıldı. Onun fəaliyyət proqramı faktik olaraq Milli Cəbhənin irəli sürdüyü tələblərdən ibarət idi və ən-Nəblusi onun gerçəkləşməsində qərarlı olduğunu bildiridi. Ancaq həmin arada Misir və Böyük Britaniya-Fransa-İsrail arasında baş verən hərbi əməliyyatlar səbəbindən bu iş bir qədər ləngidi. Urdunun Misiri dəstəkləməsi, Fransa ilə diplomatik münasibətləri kəsməsi, ölkədəki ingilis hərbi-hava bazalarından istifadəyə icazə verilməməsi və onların yerli hərbi qüvvələrin nəzarəti altına alınması, ümumi hərbi səfərbərlik elan edilməsi, ÇXR və Sovet İttifaqı ilə diplomatik əlaqələr qurmaq istəyi bəasçılər və kommunistlərin dəstək verdiyi ən-Nəblusi hökumətinin niyyətlərinin istiqamətindən xəbər verirdi. Digər tərəfdən, İraqla münasibətlər son dərəcə pisləşdi. 1957-ci il yanvarın 19-da Misir, Suriya və Səudi Ərəbistan ilə Urduna ildə 12,5 mln funt sterlinq yardım edilməsi haqqında sənəd imzalanmasının ardınca 1948-ci il 13 mart tarixli Urdun-Böyük Britaniya müqaviləsinin qüvvədən düşdüyü elan olundu. Böyük Britaniya hərbçiləri ölkədən çıxdılar və ingilis hərbi bazaları yerli or-

dunun sərəncamına keçdi. Hökumət 1957-ci ilin yanvarında "Eyzenhauer doktrinası" üzrə veriləcək kömәkdən imtina etdi. Ən-Nəblusi hökumətinin bu siyasəti davamlı olaraq onun rəqiblərinin kəskin tənqidlərinə məruz qalırdı və onlar krala da təsir göstərirdilər.

Həmin dövrdə Misir lideri C.Ə.Nasirin ərəb dünyasında "mütərəqqi" sosialist respublika qurmaq şüarının monarxiya rejimlərinə qarşı çevrildiyini və bunun Urduna güclü təsir etdiyini də söyləmək lazımdır. Bu təbliğat xüsusilə fələstinlilər arasında geniş yayılmışdı. Onların çoxu Nasir tərəfdarı idi, onun Fələstini azad edəcəyinə inanırdı. Ən-Nəblusi bu ovqatdan qaynaqlanan planlarını həyata keçirmək üçün Baş Qərargah rəisi Əli Əbu Nüvarla işbirliyinə girmişdi. Faktik olaraq onların timsalında siyasi və hərbi qüvvələrin krala qarşı güclü müxalifəti yaranmışdı. Hətta lazım olarsa, paytaxta ordu yeridilməsi haqqında razılığa da gəlinmişdi və kralın hakimiyyətdən uzaqlaşdırılmasına artıq bir an qalırdı. Odur ki, kral Hüseyn 1957-ci il aprelin 10-da hökuməti buraxdı, ancaq ən-Nəblusini Hüseyn Fəxri əl-Xalidinin başçılıq etdiyi yeni hökumətin tərkibində saxlandı. Hökumət proqramı da dəyişilməz qaldı.

Kralın sonrakı tədbirləri bu dəyişikliyin vaxt qazanmaq baxımdan edildiyini göstərdi. Belə ki, o, tez bir zamanda özünə sadiq olan qüvvələri hərəkətə gətirdi. Bədəvi hərbi hissələri Əmmana yeridildi, ordu narazı zabitlərdən təmizləndi, Səudi Ərəbistanın Urdundakı hərbi qüvvələri kralın ixtiyarına verildi. ABŞ isə açıq şəkildə kral Hüseyni bütün vasitələrlə dəstəkləyəcəyini bildirdi.

Artıq aprelin 24-də əl-Xalidi hökuməti istefaya göndərildi. İbrahim Həşiminin təşkil etdiyi kabinet isə ilk gündən "sərt kurs" götürdü. Ölkədə fövqəladə vəziyyət və komendant saatı elan olundu, iri şəhərlərə əlavə hərbi qüvvələr gətirildi, sərhədlər bağlandı. Bunun ardınca bütün siyasi partiyaların və ictimai təşkilatların buraxılması haqqında qərar verildi. Mətbuata güclü senzura qoyuldu, siyasi və ictimai xadimlərin kütləvi həbsinə başlandı. "Azad Zabitlər" təşkilatına qarşı ciddi təqibə keçildi. Parlamentin aşağı palatasından olan bir sıra deputat da cəzadan qaça bilmədi, bəziləri isə mandatdan məhrum edildi və həbsə atıldı.

ABŞ başda olmaqla Avropa dövlətləri yeni hökumətə hər cür dəstək verdi. Aprelin 29-da ABŞ 10 mln, iyulda isə 20 mln dollar məbləğində yardım göstərdi. Böyük Britaniya da müvafiq tədbirlər gördü. İki ay müddətində Urduna edilən yardımlar əvvəlki altı ildə olduğundan çox idi.

Ölkənin xarici siyasəti tamamilə Batı yönümlü oldu. 1957-ci ilin avqu-

stunda Tayvan Çini ilə diplomatik əlaqələr yaradıldı. Misir və Suriya ilə əməkdaşlıqdan uzaqlaşma müqabilində İraqla əlaqələr genişləndi. 1958-ci ilin fevralında BƏR-in yaradılmasına cavab kimi İraqla birləşmək haqqında bəyanat elan edildi. Yaranan Ərəb Federasiyasına İraq kralı başçılıq etməli idi. Ərəb Federasiyası çərçivəsində dövlət strukturları yaradıldı. Lakin 1958-ci il iyulun 14-də İraqda dövlət çevrilişi baş verməsi və respublika elan olunması səbəbindən Ərəb Federasiyasının fəaliyyəti dayandı. Regionun məruz qala biləcəyi təhlükəni qabaqlamaq məqsədi ilə ABŞ və Böyük Britaniya hərbi qüvvələri Lübnan və Urdun ərazilərinə gəldi və 1958-ci il boyu burada qaldılar.

Qeyd edək ki, 1958-ci il noyabrın sonlarında ölkədə fövqəladə rejim ləğv edildi. Lakin narazı qüvvələrə qarşı sərt münasibət qalmaqda idi. Bu hal 1959-cu ilin mayında əl-Məcalinin hökumətə başçılıq etməsindən sonra daha da gücləndi. "Qayda-qanunları qorumaq üzrə komissiya" və Dövlət Təhlükəsizlik Tribunalının yaradılması, 1960-cı ildə krala əlavə səlahiyyət verilməsi haqqında konstitusiyada düzəliş edilməsi, kralın seçki çətinlikləri olacağı şəraitdə parlamentin müddətini bir-iki il uzada bilmək hüququ qazanması məhz həmin məqsəddən irəli gəlmişdi.

Lakin çox keçmədi ki, ölkənin daxili və xarici siyasi kursunda müəyyən pozitiv dəyişikliklər oldu. Belə ki, 1960-cı ilin avqustunda əl-Məcalinin öldürülməsindən sonra Bəhcət əl-Təlxuninin və 1962-ci ilin yanvarından Vəsfi ət-Tellin başçılıq etdiyi hökumətlərin fəaliyyəti kral Hüseynin "iqtisadi gerilikdən qurtarmaq və təminatlı minimum yaşayış həddinə nail olmaq!" ideyasının gerçəkləşməsinə yönəlmişdi. Bu məqsədlə 1962-1967-ci illər üçün beş illik iqtisadi inkişaf planı hazırlandı. Onun başlıca vəzifəsi milli gəlirin artımı və xarici yardımlardan asılılığın azalmasına nail olmaq idi. Gürülən tədbirlər öz müsbət nəticələrini verməyə başladı. Əhalinin yaşayış səviyyəsi yüksəldi, səhiyyə və təhsil sahələrində müəyyən uğurlar əldə edildi.

Siyasi həyatda demokratik təməllərə daha geniş imkan yaradıldı, Batı dövlətləri ilə yanaşı digər dünya ölkələri ilə də əlaqələr qurulması kursuna keçildi. 1963-cü ilin ortalarından başlayaraq Sovet İttifaqı və bir sıra sosialist ölkələri ilə diplomatik münasibətlər yaradıldı.

İstər BMT çərçivəsində, istərsə də regional təşkilatlarda ərəb dövlətləri ilə bir mövqedən çıxış edilməsi, 1964-cü ildən ərəb dövlət başçılarının toplantılarında iştirakın bərpa olunması və ərəb "ümumi bazarı"na girilməsi Urdun xarici siyasətinin başlıca uğurları sayılmalıdır.

1963-cü ilin avqustunda S. ən-Nəblusinin ev dustaqlığından azad edilməsi ilə digər siyasətçilərə qarşı münasibət də mötədil axara girdi. 1965-ci ilin martında kralın fərmanı ilə Urdun vətəndaşları haqqında təhlükəsizlik orqanlarının arxivlərində saxlanılan bütün məlumatlar ləğv olundu. Martda isə parlamentin qərarı ilə siyasi dustaqlar və mühacirlər əfv edildi.

1965-ci ildə "Əmək və işçilər haqqında qanun"a düzəlişlərin əlavə edilməsi əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına verilən diqqətin göstəricisi idi.

Beşillik iqtisadi inkişaf planına yenidən baxıldı və 1964-1970-ci illəri əhatə edən yeddillik inkişaf proqramı ilə əvəz olundu. Proqramda kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, irriqasiya problemini həll etmək, sənaye və turizmin inkişafına nail olmaq nəzərdə tutulurdu. Proqramın gerçəkləşdirilməsində üzəl kapitalın iştirakına önəm verilirdi və tələb olunan məbləğin yarıdan çoxu onun payına düşürdü.

Bütün bu tədbirlər ölkədə siyasi istiqrarı xeyli dərəcədə bərpa edə bildi, amma bütün siyasi qüvvələri, xüsusilə də həmin dövrdə Suriya və İraqda gedən siyasi proseslərdən ruhlanan solçu qüvvələri razı salmırdı.

Qonşu dövlətlərin Doğu bloku ölkələri ilə daha da yaxınlaşmaq kursu da Urdunu narahat edirdi. Kral Hüseyn bunu açıq şəkildə söyləməkdən çəkinmədi, "regiona kommunizmin sızması"nı bəyan etdi. O, həmin dövrdə Pakistanın irəli sürdüyü "İslam Paktı" ideyasını dəstəklədi.

Bu hadisə narazı qüvvələrin açıq çıxışları üçün bəhanə oldu, Nəblusda, Qüdsdə və digər yerlərdə etiraz nümayişləri keçirildi. Təbiidir ki, hökumət də adekvat addımlar atmalı oldu. Təqiblər, həbslər və müxtəlif cəzalar yenidən işə düşdü.

Lakin həmin arada İsrail tərəfindən hərbi təhlükənin artması daxili siyasi məsələləri arxa plana keçirdi. Kral Hüseyn gözlənilən hərbi toqquşmalara davam gətirmək üçün Misirlə əməkdaşlığı bərpa etdi. 1967-ci il mayın 30-da Qahirdə səfərdə olan kral Hüseyn və prezident Nasir "Birgə müdafiə haqqında" müqaviləyə imza atdılar.

Bundan az keçmişdi ki, 1967-ci il iyunun 5-də növbəti Ərəb-İsrail savaşı başladı və Urdun da döyüşən tərəflərdən biri oldu. Savaş nəticəsində Doğu Qüds də daxil olmaqla Urdun çayının batı sahili İsrail tərəfindən tutuldu. İqtisadi cəhətdən inkişaf etmiş və zəngin təbii sərvətləri olan bu ərazinin Urdunun əlindən çıxması bir sıra çətinliklər yaratdı. Birincisi, ölkənin bütün əkilən torpaqlarının dörddə biri itirildi, dörd minə yaxın sənaye müəssisəsi (ölkə

potensialının 46%-i – müəl.) işğal altında qaldı, turizmdən gələn vəsait 2 dəfə azaldı. İkincisi, ölkəyə fələstinlilərin yeni axını başladı. Savaş dövründə 300 mindən çox, sonrakı toqquşmalar nəticəsində isə 100 minə qədər fələstinli qaçqın Urdunda məskunlaşdı və 1967-ci ildən 1974-cü ilədək Urdun xroniki daxili gərginliklər həyatını yaşamaq zorunda qaldı.

Belə ki, ABŞ-ı İsraili dəstəkləməkdə ittiham edən prezident Nasirlə kral Hüseynin həmrəy olması ölkəyə ABŞ yardımının kəsilməsi ilə nəticələndi, iqtisadi inkişaf proqramının taleyi təhlükəyə düşdü. Məhz bu da bir sıra siyasi və iqtisadi xarakterli problemlərin üzə çıxmasının əsasını qoydu.

Doğrudur, ilk vaxtlar Urdun 1967-ci il savaşının nəticələrini aradan qaldırmaq yolunda ümumərəb mövqeyindən çıxış edirdi və 1967-ci ilin avqust-sentyabr aylarında Xartumda keçirilən ərəb dövlət və hökumət başçılarının sammitində bu barədə açıqlama da vermişdi. Burada Səudi Ərəbistan, Libiya və Küveyt kimi neft ölkələri savaşdan zərər çəkən Misir və Suriya ilə yanaşı Urduna da yardım göstərməyi öz öhdələrinə götürdülər.

Urdun Batı bloku ölkələri ilə ənənəvi əməkdaşlığı fəallaşdırmaqla yanaşı, Doğu bloku ölkələri ilə də yaxınlaşmağa başladı. 1967-ci ilin oktyabrında kral Hüseyn Moskvaya səfər etdi. İki dövlət arasında mədəni və elmi əməkdaşlıq haqqında saziş bağlandı. 1969-cu ilin yanvarında imzalanan müqavilələr isə iki dövlət arasında iqtisadi-texniki əməkdaşlığı və ticarəti ehtiva edirdi.

Həmin dövrdə Yaxın Doğunun bütün ölkələrini rahatsız edən Ərəb-İsrail münaqişəsinin həllinə nail olmaq Urdunun önəm verdiyi başlıca vəzifə idi. Artıq 1968-ci ilin yazında o da Misir kimi münaqişənin siyasi yolla həllinə tərəfdar olduğunu və BMT Təhlükəsizlik Şurasının 242 saylı qətnaməsini məqbul sənəd hesab etdiyini bildirdi.

1967-ci il savaşından sonra Urdunun daxili siyasi vəziyyətinə təsir edən ən güclü amillərdən biri onun Fələstin Müqavimət Hərəkatı (FMH) ilə münasibətləri olmuşdur. Belə ki, Fəth, Fələstin Xalq Azadlıq Cəbhəsi və s. kimi təşkilatlar üz mənzil-qərargahlarını Əmmana köçürmüş və Urdun ərazisindən İsrailə qarşı hərbi əməliyyatlar keçirirdilər. Bunlardan ən uğurlusu 1968-ci martın 21-də Kəramə kəndinə İsrail hərbçilərinin etdiyi reyd zamanı olmuşdu. Döyüşdə Fələstin dəstələri xüsusilə fərqlənmişlər.

Ümumiyyətlə, FMH-nın nüfuzu getdikcə yüksəlirdi və yerli xalqın rəğbətini qazanırdı. Lakin bununla yanaşı müxtəlif təşkilatlarda kifayət qədər ekstremist və anarxist qüvvələr cəmlənmişdi və onların FMH-i "dövlət içində dövlət"ə çevirmək istəyi Urdun üçün təhlükə yaradırdı. Bəzi müşahidəçilərə

görə həmin qüvvələrin arxasında dolayısı və birbaşa şəkildə Misir, Suriya və İraq dururdu. Belə demək olar ki, bu üç dövlət kral Hüseyni devirmək və Urdunu fələstinlilərə yurd etmək istəyirdilər. Nəhayət, həmin istəyin gerçəkləşdirilməsi məqamı çatdı.

1970-ci il avqustun 7-də ildə Misir və İsrail arasında imzalanan müvəqqəti atəşkəs sazişinə Urdunun da qoşulması ilə bir zamanda Urdun ordusu və FMH hərbi birləşmələri arasında qanlı toqquşmalar baş verdi. Sentyabrın sonlarında doqquz gün davam edən döyüşlərdə 20 mindən çox adam həlak oldu və 100 mindən çox adam yaralandı. "Qara sentyabr" adlanan bu hadisə böyük əks-səda doğurdu. İstər Batı, istərsə Doğu bloku ölkələri ona ciddi reaksiya verdi. Misir prezidenti Nasirin təşəbbüsü ilə ərəb dövlət başçıları sentyabrın 27-də Qahirədə toplaşdılar və Fələstin hərbi birləşmələrinin şəhərlərdən çıxarılmasına qərar verdilər. Oktyabrın 13-də Urdun və Fələstin Azadlıq Təşkilatı (FAT) arasında bağlanan sazişə görə FAT ölkədə fəaliyyət göstərmək hüququnu saxladı. Lakin 1971-ci il yanvarın 12-də sazişlə Fələstin hərbi birləşmələrinin fəaliyyəti güclü nəzarət altına alındı. 1971-ci ilin iyulunda isə ölkədəki Fələstin hərbi bazaları ləğv olundu. Bunun cavabında "Qara sentyabr" adlı ekstremist təşkilat 1971-ci il noyabrın 28-də Qahirədə Urdunun baş naziri Vəsfi ət-Telli qətlə yetirdi. Həmin hadisədən sonra FAT-ın bütün strukturları Lübnan və Suriyaya köçürüldü.

Beləliklə də Urdun nisbi bir dinclik dövrünə girdi, ölkə həyatının müxtəlif sahələrinə hökumətin nəzarət etmək imkanı bərpa edildi. 1967-ci il savaşından keçən müddətdə az qala unudulmuş hala gələn iqtisadi inkişaf proqramı yenidən gündəmə gəldi. 1973-cü il yanvarın 1-dən üç illik (1973-1975) sosial-iqtisadi inkişaf planı qüvvəyə mindi. 1976-1980-ci və 1981-1985-ci illəri əhatə edən beşillik planları qəbul və icra etmək, müəyyən iqtisadi inkişafa nail olmaq məhz yaranmış dincliyin nəticəsi idi. Bu baxımdan bir sıra faktları nəzərə çarpdırmaq istərdik. Məsələn, üç planda 179 mln dinar kapital qoyuluşu nəzərdə tutulurdu. Bu rəqəm birinci beşillikdə 765 mln dinara qalxdı, ikinci beşillikdə isə 2.800 mln dinar idi. 1981-1985-ci illərin sənaye məhsullarının orta illik artımı 14% olmuşdu.

1986-1990-cı illəri əhatə edən üçüncü beşillik dövründə də ənənəvi istehsal sahələrinin inkişafı və genişləndirilməsi nəticəsində sənayenin başlıca sahəsi olan fosforit hasilatına (ildə 4,2 mln ton – müəl.) görə Urdun dünyada altıncı, ərəb ölkələri arasında üçüncü yerə çıxdı. Həmin illərin sonunda fosforit ixracına (ildə 3,5 mln ton – müəl.) görə ABŞ və Mərakeşdən sonra üçüncü

yeri tuturdu.

Sement və neft emalı müəssisələri genişləndirildi və onların istehsal gücü dəfələrlə artdı. XX əsrin 60-cı illərində 100 min ton civarında olan sement istehsalı 80-ci illərdə 2 mln tona çatmışdı. İldə 4,2 mln ton neft məhsulları buraxılırdı ki, bu da ölkənin 2000-ci illərədək artacaq tələbatını ödəmək səviyyəsində idi.

Haqqında danışılan sənaye sahələri dövlət bölməsinə məxsus idi. Bununla yanaşı, özəl bölmə də inkişaf edirdi və sadalanan istehsal sahələri istisna olunmaqla yerdə qalan müəssisələrin 80%-i onun əlində cəmlənmişdi.

Kənd təsərrüfatına gəlincə, o, zəif inkişaf edirdi və bu sahə geri qalırdı. Bunun da başlıca səbəbi yararlı əkin sahələrinin azlığı (300 min ha civarındadır - müəl.), irriqasiya - suvarma sisteminin aşağı səviyyədə olması üzündən həmin torpaqlardan da rasional istifadənin mümkünsüzlüyü idi. Bu sahədə dönüş yaratmaq üçün hökumət kooperativlərin inkişafına və irriqasiya qurğularının tikilməsinə diqqəti artırdı. Keçən əsrin 80-ci illərində becərilən torpaqların 30%-i kooperativlərin payına düşürdü. Vadi Ərəb bəndinin və Doğu Qor kanalının tikilməsi istər əkinçiliyin, istərsə də heyvandarlığın inkişafına təkan verdi.

Urdun sosial sahədə də müəyyən nailiyyətlər qazandı. Onillik məcburi və pulsuz təhsilə keçilməsi, ali təhsilə qayğı və xaricə oxumağa göndərilən gənclərin sayının çoxalması nəticəsində həmin dövrdə Urdun ərəb dünyasında öndə gedən ölkələrdən sayılırdı (əhalinin 70%-i savadlı idi – müəl.).

Səhiyyə inkişaf etmiş Avropa dövlətləri sistemi əsasında qurulur və onun ölkəni daha geniş miqyasda əhatə etməsinə çalışılırdı.

Həmin dövrdə Urdunun daxili siyasi həyatındakı problemlərin başında yenə də Fələstin dayanırdı. Kral Hüseyn bu məsələnin həlli yolunda bütün imkanlardan istifadə etməyə çalışırdı. O, 1972-ci il martın 15-də Birləşmiş Ərəb Krallığı yaradılması ideyasını irəli sürdü. Lakin bu ideya həm İsrail, həm də ərəb ölkələri tərəfindən dəstəklənmədi.

İsrailin işğal olunmuş ərəb torpaqlarında möhkəmlənmək siyasətindən rahatsız olan Urdun 1973-cü ilin aprelində Misir və Suriya ilə birlikdə BMT-nin Baş katibi K.Valdhayma müraciət etdi. Bununla yanaşı, Urdun 1973-cü ilin oktyabrında baş verən növbəti Ərəb-İsrail savaşına qoşulmadı. Lakin 1973-cü il dekabrın 21-də Cenevrədə Yaxın Doğuya dair çağırılan sülh konfransına nümayəndə heyəti göndərdi. Burada çıxış edən baş nazir Zeyd ər-Rifai bildirdi ki, regiondakı bütün dövlətlər beynəlxalq ictimaiyyətin tanın-

dığı sərhədlər daxilində yaşamaq haqqına sahibdirlər və Fələstin ərəb xalqının qanuni hüquqları da BMT qətnamələrinə uyğun şəkildə bərqərar olmalıdır.

Qeyd etmək lazımdır ki, 1973-cü il oktyabr savaşından sonra FAT-ın siyasi yetkinliyi və beynəlxalq nüfuzu xeyli möhkəmləndi. 1974-cü ilin oktyabrında Rabatda keçirilən Ərəb Dövlətlərinin zirvə toplantısında FAT Fələstin xalqının yeganə qanuni təmsilçisi kimi tanındı. Həmin tarixdən Urdunun Batı sahili probleminə yanaşma tərzi dəyişdi. Ölkənin hakimiyyət strukturlarında fələstinlilərin iştirakı məhdudlaşdırıldı. 1974-cü il noyabrın 23-də üzvlərinin yarısı Batı sahili ərazisindən olan parlamentin hər iki palatası buraxıldı. Yeni senata həmin rayondan cəmisi yeddi şəxs daxil edildi. Hökumətdə də fələstinlilərin sayı xeyli azaldı.

Bunlarla yanaşı, Fələstin probleminin həllinə yanaşmada Urdun ümumərəb mövqeyindən çıxış etməkdən geri çəkilmədi, FAT ilə münasibətlərini normal məcraya yönəltdi. 1975-ci ildə Suriya ilə əlaqələrdəki gərginlik götürüldü. Prezident H.Əsədin Əmmana səfəri zamanı ikitərəfli koordinasiya komitəsi, birgə hərbi komandanlıq və s. haqqında razılaşmalar əldə edildi. Hətta 1976-cı ildə iki dövlət başçısı Suriya və Urdun arasında konfederativ ittifaq yaradılması ideyası ilə çıxış etdilər.

Lakin 1977-ci ilin noyabrında Misir prezidenti Ə.Sədatın Qüdsə səfərindən sonra Yaxın Doğu məsələlərində Urdun ikili münasibət tutmağa başladı. Səfərə birmənalı yanaşılmadı. Bir tərəfdən bu hadisə Ə.Sədatın "igidliyi" və "vətənpərvərliyi" kimi təqdim olunur, o biri tərəfdən ərəblərin həmrəyliliyini zəiflədən hərəkət sayılırdı. Urdun Ə.Sədatın təşəbbüsü ilə çağırılan konfransda iştirak etmədi, eləcə də ona qarşı olan ölkələrə də qoşulmadı.

1977-ci ilin noyabrında kral Hüseyn "ərəb birliyini qorumaq məqsədi ilə" vasitəçilik etmək üçün Qahirə, Dəməşq, ər-Riyad və digər paytaxt şəhərlərdə oldu. Lakin onun cəhdləri heç bir nəticə vermədi və dekabrda Suriya, Lübnan, Əlcəzair, YXDR və İraq Misirlə diplomatik əlaqələri kəsdilər.

Sonrakı dövrdə İsrailin baş naziri M. Beginin işğal olunmuş Batı sahili torpaqlarının tarixən yəhudilərə məxsus olması, Urduna birləşmiş ərazidə fələstinlilər üçün "alternativ vətən" yaratmaq haqqında bəyanatları Urdunda kəskin reaksiya doğurdu. O, 1978-ci ilin noyabrında Bağdadda keçirilən ərəb zirvə toplantısında fəal iştirak etdi və Misir - İsrail (Kemp - Devid) müqaviləsinin imzalanmasının ardınca 2 aprel 1979-cu ildə Ərəb Dövlətləri Liqasının Misirlə diplomatik əlaqələri kəsən 18 üzvündən biri oldu.

Bununla yanaşı, həmin arada Urdunun Kemp-Devid prosesinə cəlb edilməsi istiqamətində müəyyən cəhdlər göstərilirdi. Kemp-Devid sazişinin qüvvəyə minməsindən sonra "Batı sahili və Qəzza bölməsinin sakinlərinə tam istiqlaliyyət verilməsi üçün yerli üzünüidarə orqanlarının yaradılması" məqsədi ilə başlanan danışıqlarda Urdunun da iştirakı nəzərdə tutulurdu. Lakin o, danışıqlarda iştirakdan imtina etsə də, sonrakı dövrdə Ə. Sədatın İsraillə birbaşa əlaqələrinə birmənalı yanaşmırdı, hətta bəzən öz rəsmi mövqeyindən xeyli kənara çıxırdı. Bu da onun tərəfdaşlıq etdiyi ərəb ölkələri, ilk növbədə Suriya ilə münasibətlərinə zərər vururdu. Həmin səbəbdən idi ki, 1980-ci ilin noyabrında Əmmanda çağırılan zirvə toplantısına Suriya, Libiya, Əlcəzair, YXDR, FAT və Lübnan qatılmadı.

Ümumiyyətlə, həmin dövrdə ərəb dünyasında qütbləşmə prosesi güclənməkdə idi. 1980-ci ilin sentyabrında başlayan İraq-İran savaşı bu prosesi daha da dərinləşdirdi. Urdun ilk gündən İraqın tərəfində durdu. Savaş dövründə İraqın ehtiyac duyduğu silah və digər mallar Urdun vasitəsi ilə əldə edilirdi. Könüllülərdən ibarət bir Urdun alayı isə İraq cəbhəsində vuruşa yollandı. Bunun müqabilində iki ölkə arasında çox sıx iqtisadi və hərbi əlaqələr yarandı. Tərəflər əməkdaşlığın bir çox sahələrinə dair sazişlər bağladılar.

Urdun həmin illərdə baş verən Lübnan böhranına münasibətdə də bu cür mövqe nümayiş etdirdi. O, bir tərəfdən Lübnandakı bütün xarici qoşunların çıxarılmasını və Yaxın Doğu probleminin dinc siyasi yolla həllini istəyirdi. Digər tərəfdən isə 1982-ci ilin iyununda İsrailin Lübnana hücumuna kəskin etirazını bildirdi. 1984-cü ilin martında Lübnan-İsrail sazişi ləğv olunduqda kral Hüseyn həmin sazişi heç zaman dəstəkləmədiyi və onu separat sövdələşmə saydığı haqqında bəyanat verdi.

1980-ci il iyunun 30-da İsrail knessetinin qəbul etdiyi "Qüds haqqında qanun"a görə Qüdsün "vahid və bölünməz" bir şəhər kimi İsrailin paytaxtı sayılmasını Urdun kəskin etirazla qarşıladı. Bundan sonra Urdun Yaxın Doğu probleminin həlli yolunda ərəb dövlətlərinin göstərdiyi bütün təşəbbüslərə birmənalı şəkildə dəstək verdi. Bu baxımdan 1981-ci ildə Səudi Ərəbistanın təklif etdiyi "Fəhd planı"na tərəfdar çıxmaq, 1981-ci və 1982-ci illərdə Fəs toplantılarına qatılmaq və orada qəbul olunan bütün qərarlara səs vermək, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinə ərəb dövlətlərinin Yaxın Doğu probleminin həllinə dair mövqeyini izah edəcək "Yeddilər komitəsi"nə daxil olmaq və s. kimi hadisələri göstərə bilərik.

1982-ci il sentyabrın 1-də İsrailin işğal etdiyi Fələstin ərazisinin statusu

haqqında danışıqlar aparılmasını nəzərdə tutan "Reyqan planı"nda "müəyyən pozitiv məqamlar"ın olması baxımından kral Hüseyn bu məsələyə dair vahid mövqe və münasibətlərin "birgə formulu"nu hazırlamaq üçün sentyabrın 20-də FAT rəhbərliyinə təklif verdi. 1982-ci ilin payızında başlayan dialoqun ilk mərhələsi 1983-cü il aprelin 10-da kəskin mövqe fərqləri səbəbindən dayandırıldı. Belə ki, Urdun ikitərəfli konfe`derativ əlaqələrin qurulmasını istəyirdi, FAT rəhbərliyi isə bunun yalnız müstəqil Fələstin dövlətinin yaranmasından sonra ola biləcəyini söyləyirdi.

Buna baxmayaraq, Urdun Batı sahili ilə əlaqələri gücləndirmək məqsədi ilə bir sıra tədbirlər gördü. 1984-cü ilin yanvarında hələ 1974-cü ildə buraxılmış deputatlar palatasının fəaliyyəti bərpa edildi və Batı sahilinin təmsilçiləri burada geniş sayda təmsil olundular. Martda isə parlamentdəki boş yerləri tutmaq üçün seçkilər keçirildi. Batı sahili probleminin həlli hökumətin bir nömrəli vəzifəsi elan olundu. Fevralda dialoqun növbəti mərhələsi başladı və o, 1985-ci ilin fevralına qədər sürdü. 1984-cü ilin noyabrında Əmmanda keçirilən Fələstin Milli Şurasının (FMŞ) XVII sessiyası danışıqların gedişini müzakirə etdi və Urdun ilə münasibətlərin möhkəmləndirilməsi üçün FAT-a geniş səlahiyyətlər verdi. Artıq 1985-ci il fevralın 11-də kral Hüseyn və FAT lideri Yasir Ərəfat "birgə fəaliyyətin çərçivəsi" haqqında sazişə imza atdılar. Bundan sonra Fələstinlə bağlı bütün beynəlxalq tədbirlərdə iştirak edən Urdun nümayəndə heyətinin tərkibində fələstinlilər də təmsil olunmağa başladılar.

Lakin Urdunun Batı sahili və Qəzza bölgəsində bir sıra tədbirləri FAT tərəfindən bəyənilmirdi. Xüsusilə 1986-cı ildə bu bölgənin iqtisadi inkişafına dair qəbul edilən beşillik plan oranın ilhaqı yolunda atılan addım və İsraillə münasibətlər yaratmaq cəhdi kimi pislənildi. 1987-ci ildə isə FAT sülh danışıqlarında Urdun ilə birlikdə təmsil olunmaqdan imtina etdi. 1988-ci ilin iyununda Ərəb Dövlətləri Liqasının toplantısında FAT Batı sahili və Qəzzadakı fələstinlilər bölgəsinin tək təmsilçisi elan olunduqdan sonra Urdunun Fələstinə dair siyasəti dəyişdi. Birincisi, kral Hüseyn bu qərarı tam dəstəklədiyini bildirdi. İkincisi, FAT-ın Fələstinin müstəqilliyini elan etməsinə tərəfdar çıxdı və bu müstəqillik haqqını tanıdı. Üçüncüsü, Batı sahili və Qəzzada inzibati və hüquqi mövqelərindən geri çəkildi, bölgə ilə bağlı iqtisadi inkişaf planından vaz keçdi. Eyni zamanda həmin bölgənin təmsilçilərinin Urdun parlamentində iştirakına da son verildi. Beləliklə də, Urdun müstəqil Fələstin dövlətinin yaranması yolundakı bəzi əngəlləri aradan qaldırdı.

XX əsrin 80-ci illərinin sonu Urdun üçün həm də onunla səciyyəlidir ki, iqtisadi-siyasi durum xeyli mürəkkəbləşmişdi və bu sahədə bir sıra dəyişikliklərə ehtiyac yaranmışdı. Bunun ilk əlaməti 1989-cu ilin yazında bəzi malların qiymətlərinin artırılması səbəbindən əhali arasında güclü çaxnaşmaların baş verməsi oldu. Yaranmış gərginliyin aradan qaldırılması üçün hakimiyyət dairələri geri çəkildilər, ölkədə demokratik təməllərə söykənən bir ovqat yaradılması siyasətinə önəm verdilər. Bu baxımdan ən mühüm hadisə 1989-cu ilin noyabrında parlamentə seçkilərin keçirilməsi idi.

Məlum olduğu kimi, 1963-cü ildən ölkədə siyasi partiyaların fəaliyyəti qadağan edilmişdi. Ancaq onlardan bəziləri gizli şəkildə fəaliyyət göstərirdi. Seçkilər ərəfəsində isə siyasi partiyaların fəaliyyətini qanunilşdirmək üçün Kral Komitəsi təşkil olundu və ölkədə mövcud olan əsas partiya və təşkilatların 647 namizədi parlamentdəki 80 yer uğrunda mübarizəyə qoşuldu. Seçkilərdən sonra isə onlar parlamentdə aşağıdakı fraksiyalarda birləşdilər: "Müsəlman qardaşlar" (22 yer), "Müstəqil İslam" (8 yer), "Demokratik Birlik" (14 yer), "Vətənpərvər Qüvvələr" (11 yer), "Milli Birlik" (7 yer), "Liberallar" (7 yer). Bunlardan əlavə 11 nəfər müstəqil deputat da seçilmişdi. Göründüyü kimi, parlamentdə islam təmayüllü və millətçi qüvvələr çoxluq təşkil edirdilər. Onlar birləşdilər və parlament sədrliyinə öz namizədlərini seçdilər. Bu da həmin qüvvələrin parlament vasitəsilə ölkənin siyasi həyatına təsir etmək imkanlarının artması demək idi. Hökumət isə əsasən millətçilərdən təşkil olundu və Urdun 1990-cı ilə Mədar Bədranın başçılıq etdiyi yeni kabinetlə daxil oldu. Həm hökumət, həm də Kral Komitəsi siyasi dəyişikliklər və sosial-iqtisadi inkişafla bağlı təkliflərini hazırladılar və "Milli Xartiya" adı altında krala təqdim etdilər. 8 hissədən ibarət olan bu sənəd hüquqi və demokratik dövlət qurmaq, ölkənin daxili və xarici siyasətini, eləcə də sosial-iqtisadi və mədəni həyatının başlıca inkişaf istiqamətlərini müəyyənləşdirmək, mətbuat və söz azadlığına hüquqi baza yaratmaq və s. haqqında məsələləri əhatə edirdi və həmin səbəbdən konstitusiyanın müvafiq maddələrini tamamlamaq, dəqiqləşdirmək və dərinləşdirmək məqsədi daşıyırdı. Fəqət 1990-cı il avqustun 2-də başlayan Körfəz savaşı bu niyyətlərin sürətlə gerçəkləşdirilməsi yolunda bir əngələ çevrildi. İraqın Küveyti işğal etməsi Urdun iqtisadiyyatını çökdürdü. Birincisi, İraq və Küveytdən 700 min civarında insan Urduna köç etdi. İkincisi, nəzərə alsaq ki, Urdun İraqın başlıca ticarət tərəfdaşı idi və neftə olan ehtiyacının 90%-ni onun hesabına təmin edərdi, vəziyyətin necəliyi aydınlaşar. Digər tərəfdən Urdunun İraqı dəstək-

ləməsi, ona qarşı duran koalisiyada iştirakdan imtina etməsi ölkənin regional və beynəlxalq imicinə zərbə vurdu. Bəzi dövlətlər Urduna iqtisadi-texniki və maliyyə yardımlarını kəsdilər, Misir və Səudi Ərəbistan ilə münasibətlər gərginləşdi.

Doğrudur, az sonra Urdun beynəlxalq təzyiqə davam gətirə bilmədi. BMT-nin İraqa qarşı embarqosuna qoşuldu və problemə yanaşma tərzini dəyişdi. 1991-ci il martın 1-də kral Hüseyn İraq hərbi hissələrinin Küveytə girməsini işğal adlandırdı və bu əmirliyin azad edilməsini müsbət qarşıladığını bildirdi. Məhz bundan sonra ABŞ və aparıcı ərəb dövlətləri ilə əlaqələri normallaşdırmaq mümkün oldu. ABŞ-ın iki il üçün ona ayırdığı 2,4 mld dollar yardım nəticəsində iqtisadiyyatın müəyyən yüksəlişinə, işsizliyin qismən azaldılmasına və əhalinin maddi durumunun yaxşılaşmasına nail olundu. İctimai-siyasi həyatın demokratikləşdirilməsi və liberallaşdırılması istiqamətində yeni addımlar atıldı, Ərəb-İsrail münaqişəsinin nizama salınmasında fəallıq göstərmək imkanı yarandı. 1990-cı oktyabrın 30-da Madriddə başlayan, sonralar Vaşinqton (dekabr 1990-cı il) və Moskvada (oktyabr 1992-ci il) davam etdirilən görüşlərdə tərəflərdən biri oldu və 1993-cü ilin sentyabrında işğal olunmuş ərazidə Fələstin özünüidarəsi haqqında İsrail-FAT danışıqlarının baş tutmasında təkidli və israrlı mövqe tutdu.

1993-cü il avqustun 8-də parlament seçkilərində mötədillərin qələbəsi (seçkidə 20 partiya və təşkilatın namizədləri iştirak etmişdi – müəl.) kral Hüseynə İsrail ilə danışıqlarda manevr etmək imkanı qazandırmaqda mühüm rol oynamışdır. Ümumiyyətlə isə, hələ buna qədər də kral Hüseyn təkcə Urdunda deyil, bütün bölgədə güclü müsbət reaksiya doğuran səylər göstərmişdi. Bu baxımdan aprelin 6-da onun ərəb xalqlarını Urdun təcrübəsinə əsaslanaraq öz ölkələrində demokratikləşdirməyə çağırması, ərəblərin yeni dövrə – "hərənin öz sözünü demək imkanının və bütün ərəb dünyasında demokratik quruluş yaratmağın zəruri olduğu dövrə" qədəm qoyduğunu bəyan etməsi xüsusi maraq doğurur. 1994-cü ilin əvvəllərində isə kral Hüseyn iqtisadi əməkdaşlığı və işğal olunmuş ərazilərdə maliyyə problemlərini nizama salmaq üçün FAT rəhbərliyinə birgə komitə yaratmaq təklifi verdi. Həmin il iyunun 25-də kral və İsrailin baş naziri İ. Rabin Vaşinqton bəyannaməsinə imza atdılar və bununla da 1948-ci ildən bəri Urdun və İsrail arasında davam edən müharibə vəziyyətinə son qoyuldu. Doğrudur, bu hadisə ölkədəki islamçı və millətçi qüvvələrin, eləcə də qonşu Suriyanın güclü reaksiyası ilə qarşılandı. Lakin digər ərəb dövlətləri və ABŞ başda olmaqla Avropa döv-

lətləri kral Hüseynin bu risqinə diqqətlə yanaşdılar və ona dəstək oldular. Hətta ABŞ 1994-cü ilin oktyabrında Urdunun ona olan 70 mln dollar borcunu ləğv etdi. 1995-ci ildən Urdunun İraqdan uzaqlaşmaq siyasətinin müqabilində isə ABŞ bu ölkənin hərbi qüdrətini artırmaq üçün 300 mln dollar, iqtisadi inkişaf üçün isə 100 mln dollar ayırdı. Səudi Ərəbistan da Urdunun bu qərarını bəyəndi və ona maliyyə yardımı etməyə hazır olduğunu bildirdi.

Urdun Doğu Aralıq dənizi bölgəsində İraqın "ən yaxın dostu"ndan tədricən ABŞ-ın ən yaxın dostu olan ərəb dövlətinə çevrildi, Yaxın Doğu probleminin nizama salınmasında fəal rol sahibi oldu. Bu səbəbdən idi ki, Vaşinqton Bəyannaməsinin Qüdslə bağlı bəzi müddəalarından narazı olan Fələstin Urdunun təzyiqləri qarşısında geri çəkildi və 1995-ci ilin yanvarında onlar arasında bütün sahələr üzrə əlaqələri qaydaya salan müqaviləyə imza atdı. Qüdslə bağlı mübahisə belə həll olundu ki, Qüdsün müsəlman ziyaratgahları üzərində Urdunun himayəçiliyi FAT tərəfindən qəbul edildi. Urdun isə fələstinlilərin Qüdsün istiqlaliyyətinə olan iddiasını dəstəklədiyini bildirdi.

Bundan sonra Yaxın Doğu probleminin digər sahələrində də irəliləyişə nail olmaq və Urdun – Suriya arasında mövqeləri uzlaşdırmaq məqsədilə 4 avqust 1996-cı ildə kral Hüseyn Dəməşqə səfər etdi. Tərəflər arasında əsas müzakirə obyekti Colan təpələrinin azad olunmasına qədər İsrail ordusunun Lübnanın güneyindən çıxması haqqında İsrailin irəli sürdüyü təklif idi.

Urdun bütün gücü ilə ona çalışırdı ki, ABŞ və Avropa dövlətləri ilə yaxınlaşma zəminində onların birmənalı şəkildə İsrail yönlü siyasətinə təsir etsin. Bu işdə o, Avropa Birliyinə böyük ümid edirdi. Elə 1996-cı il oktyabrın 23-də Fransa prezidenti Jak Şirakın Əmmana səfəri zamanı danışıqların əsas mövzularından biri həmin məsələ oldu. Urdunun bu istiqamətdə səy və cəhdləri ən azı öz maraqları baxımından nəticəsiz qalmadı. 1996-cı il noyabrın 19-da ABŞ ona NATO çərçivəsindən kənarda müttəfiq statusu verdi. Urdun regionda Misir və İsraillə birlikdə ABŞ-ın bərabərhüquqlu müttəfiqinə çevrildi, geniş hərbi və iqtisadi yardımlar almaq imkanı qazandı.

Lakin kral Hüseynin rəhbərliyi altında aparılan bu siyasət müxalifət qüvvələri, bəzən hətta iqtidar təmsilçiləri tərəfindən etirazla da qarşılanırdı. İsraillə bağlanan müqavilənin ləğv olunması, "cihad"a çağırış və s. kimi şüarlar səslənirdi. Hətta 1997-ci il martın 19-da Urdun-İsrail münasibətləri ilə bağlı kral Hüseynlə baş nazir Ə.S.əl-Məcali arasında fikir ayrılığı meydana gəldi. Baş naziri istefaya göndərən kral noyabr ayına parlament seçkiləri təyin etdi. İslamçı, solçu və aşırı millətçilərin boykot çağırışına baxmayaraq,

seçkilər keçirildi və parlamentdəki 80 yerdən 62-ni hakimiyyət tərəfdarları qazandılar. 10 yer millətçi və solçulara çatdı, qalan yerləri isə müxtəlif islamçı qruplar bölüşdürdü.

Kral Hüseynin 1999-cu il fevralın 7-də vəfatına qədər Urdunun siyasi kursu dəyişilməz qaldı. Onun yerinə kral elan olunan oğlu Abdullah da hakimiyyətə başladığı ilk gündən atasının siyasətini davam etdirmək əzmində olduğunu bildirdi.

1999-cu ildə kral Abdullahın Avropa ölkələrinə, Əlcəzairə, Çinə etdiyi səfərlər zamanı dövlət və hökumət başçıları ilə gürüşlərdə, həmin ilin 28 dekabrında Ciddədə keçirilən Ərəb Dövlətlərinin zirvə toplantısında və 2000-ci ilin sentyabrında Nyu-Yorkda minilliyin sammitində olarkən nümayiş etdirdiyi mövqe bu fikrin təsdiqi sayıla bilər.

Qeyd edək ki, sonrakı illərdə də kral Abdullahın regionda baş verən hadisələrə münasibətində ciddi bir təmkinlilik və məsələlərin köklü surətdə çözülməsi istəyi dəyişmədi. Məsələn, 2000-2001-ci illərdə Fələstin-İsrail münasibətlərində yaranan gərginlik və onun aramsız toqquşmalarla müşayət olunduğu bütün vaxt ərzində bu münaqişəyə bilavasitə qarışmayacağını bildirsə də, məsələnin dinc yolla həlli istiqamətində xüsusi fəallıq göstərdi. 2001-ci il avqustun sonlarında Rusiyaya rəsmi səfəri zamanı prezident V.Putinlə danışıqlarda Yaxın Doğu probleminin tənzimlənməsi prosesinə xüsusi diqqət verildi. İraq ətrafında baş verən hadisələrə də bu səpgidə yanaşıldı. Bunlarla yanaşı, iki dövlət arasında əlaqələr və əməkdaşlıq, onun hüquqi bazasının hazırlanması da müzakirə edildi. 2001-ci il noyabr 5-8-də kral Böyük Britaniyada olarkən də bu məsələlər başlıca müzakirə obyekti oldu. Kral Abdullah ilk ərəb dövlət başçısı kimi Böyük Britaniya parlamentində çıxış etdi.

2001-ci il sentyabrın 11-də Nyu-Yorkda baş verən terror aktını ilk pisləyənlər və ona qarşı olanlardan biri də Urdun oldu. O, birinci müsəlman ölkəsidir ki, 2001-ci il dekabrın 25-də Əfqanıstana hərbi dəstə və tibbi yardım heyəti göndərmişdir.

Bunların ardınca kral Abdullah Fələstin-İsrail məsələsinin həlli üçün Qahirədə ərəb dövlətləri xarici işlər nazirlərinin bir araya gəlməsi təklifi ilə çıxış etdi. 2002-ci il yanvarın 27 -də Səudi Ərəbistana səfər etdi və burada Fələstin-İsrail qarşıdurmasının müzakirəsinə xüsusi önəm verdi.

Biz XX əsrin 90-cı illərində Urdun dövlətinin yürütdüyü bu siyasətin, ümumi də olsa, daxili və xarici istiqamətlərinə toxunduq, onun gedişini və siyasi nəticələrini diqqətə çatdırmağa çalışdıq. Bəs onun iqtisadi həyata təsiri

necə olmuşdur? Körfəz savaşı nəticəsində iqtisadiyyatın çökməsindən Urdun necə xilas ola bilmişdir?

İrəlidə Körfəz savaşının Urdun iqtisadiyyatına vurduğu zərbə və onun bəzi nəticələri haqqında söylədiklərimizə bunları da əlavə etmək istərdik: 1990-cı il sentyabrın 1-də şəkər, düyü və süd kimi əsas qida məhsullarına ərzaq kartları tətbiq edilməyə başlandı, sentyabrın 5-də sənaye və kənd təsərrüfatı üçün ümumi xərclər 25% azaldıldı. Təkcə 1990-cı ildə Urdun 730 mln dollar məbləğində gəlirini itirdi. Büdcə borcları artdı və Urdunun İraqın "yaxın dostu"ndan ABŞ-ın "yaxın dostu"na çevrilməsi prosesinin başlanmasına, yəni 1992-ci ilə qədər iqtisadi vəziyyət ağır olaraq qaldı. Yalnız bundan sonra ABŞ-dan və digər ölkələrdən alınan yardımlar, borclar və kreditlər hesabına iqtisadi çökmə dayandırıldı. 1993-1996-cı illərdə inkişaf bərpa olundu və bir sıra problemlərə baxmayaraq, demək olar ki, bütün istehsal sahələrində irəliləyiş baş verdi. İqtisadi artım 6%-ə çatdı. Ənənəvi iqtisadi-ticarət əlaqələri saxladığı İraq, Səudi Ərəbistan, AFR, Fransa, İtaliya, Türkiyə və s. ölkələrin sırasına Yaponiya, Hindistan və s. kimi yeni və perspektivli tərəfdaşlar qatıldı. ABŞ, AB üzvü olan ölkələr, qonşu islam və ərəb ölkələri, müxtəlif beynəlxalq və regional qurumlar Urdun hökumətinin irəli sürdüyü layihələrin maliyyələşdirilməsində iştirak etdilər. Təkcə 1997-ci ildə Paris klubunun kreditorları Urdunun təqribən 400 mln dollar, ABŞ isə 65 mln dollar məbləğində borcunu sildilər. Həmin ildə iqtisadi yenidənqurma planının bir hissəsinin həyata keçirilməsi və xarici valyutanın hərəkətinə əngəl olan məhdudiyyətlərin aradan qaldırılması ölkəyə investisiya axınını gücləndirdi. 1998-ci ildə iqtisadiyyata 650 mln dollar məbləğində investisiya qoyuldu. 1998-ci il dekabrın 4-də yaradılan Urdun-Fransa birgə klubu investisiya qoyuluşu, yeni texnologiyanı mənimsəmə, kadr hazırlanması və s. sahələrdə geniş fəaliyyət göstərdi. Ümumiyyətlə isə, Fransa Urdunun bir nömrəli iqtisadi-ticarət tərəfdaşına çevrildi.

Səudi Ərəbistan və digər neft ixrac edən ərəb ölkələri 1999-cu il fevralın 10-da Urduna aşağı tariflərlə neft göndərilməsi haqqında razılığa gəldilər.

Urdun və Misir energetika sistemlərinin birləşdirilməsi, gələcəkdə Suriya, Lübnan, İraq və Türkiyənin də bu layihəyə qoşulmaq ehtimalı ölkənin qonşuları ilə geniş iqtisadi inteqrasiyaya meylindən qaynaqlanırdı. Bu layihənin gerçəkləşməsi üçün Ərəb İqtisadi və Sosial İnkişaf Fondu 230 mln dollar vəsait ayırmışdır.

Urdunun 1999-2001-ci illər üçün təqdim etdiyi yenidənqurma planı Bey-

nəlxalq Valyuta Fondu (BVF) tərəfindən dəstəkləndi və layihənin icrasına 220 mln dollar məbləğində vəsait ayrıldı.

Urdun XXI əsrə əsas istiqamətləri özəlləşdirmə, liberallaşdırma, iqtisadiyyatda özəl bölmənin üstünlüyü, xarici investisiyaların geniş cəlb edilməsi olan iqtisadi kursla qədəm qoydu. Bu kurs daxili siyasi həyatda yaranmış və möhkəmlənməkdə olan istiqrar və fəal xarici siyasətlə üzvi surətdə bağlı idi.

Məhz həmin gerçəklikdən çıxış edən Urdun hakimiyyəti ölkənin yaxın gələcəkdə bölgədə modern siyasi və sosial-iqtisadi strukturlara malik dövlətə çevrilə bilməsi uğrunda fəaliyyət göstərməyi özünün başlıca proqramı elan etmişdi. Bu məqsədlə də kral II Abdullah hakimiyyətə gəldiyi ilk vaxtlarda liberal islahatların həyata keçirilməsinə önəm verdi. Onun hüquqi bazasının hazırlaması və yeni qanunların qəbul olması başlıca fəaliyyət istiqaməti oldu. Kral həmçinin islamçı qüvvələrin ("Müsəlman Qardaşlar", "İslami Hərəkat Cəbhəsi" və s.) cəmiyyətdəki nüfuzunun azaldılması üçün hakimiyyətə loyal münasibətdə olan dünyəvi partiyalar yaradılması ideyasını bəyan etdi.

Az sonra isə o, 2002-ci ilin oktyabrında "Öncə - Urdun" konsepsiyasını irəli sürdü. Bunun başlıca hədəfi əhalinin diqqətini ölkədaxili sosial-iqtisadi problemlərinin həllinə yönəltmək və regional problemlərdən, əsasən də Fələstin-İsrail münaqişəsindən yayındırmaq idi. Konsepsiya həmçinin Urdun əhalisini etnik və yer mənsubiyyətindən asılı olmayaraq (urdunlular, fələstinlilər və qafqazlılar – çərkəzlər, adıqlar və s.) hakimiyyətin ətrafında birləşdirmək və ümumərəb birliyini təbliğ edən ideoloji cərəyanların təsirindən uzaqlaşdırmaq idi. Kral Abdullah ölkə əhalisinin bir hissəsi olan və biznes sahəsində zənginləşən Fələstin toplumunu cəmiyyətin ictimai-siyasi həyatına daha çox cəlb etməyə çalışırdı. O, Batımeylli lider kimi qloballaşmanın mahiyyətini və onun Doğu ölkələri üçün gətirdiyi müsbət və mənfi dəyişiklikləri dərk edərək siyasi sistemin modernləşməsinə diqqəti artırdı.

İqtisadi sahədə atası kral Hüseynin kursunu davam edən kral Abdullah xammal və təbii ehtiyatlardan kasad olan Urdunda müasir bazar iqtisadiyyatının yaradılmasını vacib hesab edirdi. Fələstin "intifadası" və 2003-cü il İraq müharibəsi dövründə Urdunun iqtisadiyyatı ciddi sarsıntılarla üzləşdi, ölkənin investisiya mühütü pisləşdi, inflyasiya və neftin qiymətinin artması müşahidə olundu. Lakin ABŞ və Ərəb əmirliklərinin maddi yardımı, İraqla ticari-iqtisadi əlaqələrin bərpası, xaricdə çalışan Urdun vətəndaşlarından ölkəyə daxil olan vəsaitlərin həcminin artması və s. amillər 2005-2008-ci illərdə iqtisadi yüksəlişə təkan verdi. Bu dövrdə ÜDM-nin artımı ildə 8% təşkil etdi.

Hökumət özəlləşdirməyə, özəl bölmənin və sahibkarların dəstəkləməsinə, biznesdə şəffaflığa, ticarət, xüsusilə də xarici ticarət şərtlərinin asanlaşdırılmasına, investisiyaların cəlb olunmasına, xidmət sahələrinin (turizm, səhiyyə və təhsil) inkişafına və s. xüsusi qayğı göstərirdi. Eyni zamanda, dövlət qulluqçularının vəzifə maaşları artırıldı. Təbiidir ki, bu da hakimiyyət strukturlarının möhkəmləndirilməsinə xidmət edirdi.

Qeyd edək ki, hakimiyyətdə təmsil olunan mühafizəkar qüvvələr – xüsusilə də "köhnə qvardiya" islahatlara qarşı çıxır və bunu ölkədəki sabitliyin pozulacağı ilə izah edirdilər. Bədəvi tayfa əyanları isə yeni qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin siyasi qüvvələr balansının pozulmasına və daha çox şəhərlərdə yaşayan fələstinlilərin xeyrinə dəyişməsinə gətirib çıxaracağından ehtiyatlanırdılar. Siyasi partiyalar haqqında yeni qanuna görə, onlara mətbuat orqanlarının yaradılmasına, hökumətin tərkibindəki nazirlərə isə siyasi partiyaların fəaliyyətində iştirak etməyə icazə verilirdi.

Kralın xüsusi fərmanı ilə 16 iyun 2001-ci ildə parlament buraxıldı və yeni seçkilərin keçirilməsi iki il ləngidi. Səbəb kimi mürəkkəb regional durum və bunun "vətəndaşların düzgün seçim etməsinə təsiri" göstərilmişdi.

Nəhayət, 2003-cü il iyunun 17-də parlament seçkiləri keçirildi və hakimiyyət özünə loyal münasibət bəsləyən tərkibin seçilməsinə nail oldu. İslamçı müxalifət ilə hakimiyyətin münasibətlərinin gərgin olmasına baxmayaraq, "yumşaq", yəni münaqişəsiz yanaşı yaşamaq prinsipinə üstünlük verildi. Məhz buna görə hakimiyyət islamçı qüvvələrin ölkənin siyasi həyatında iştirakında maraqlı idi. Qeyd edək ki, islamçı müxalifət də mövcud rejimin qalması və leqal siyasi mübarizənin tərəfdarı kimi çıxış edirdi. Əks halda siyasi boşluğu HAMAS və onunla sıx bağlı olan qüvvələr tuta bilərdilər.

2003-cü il seçkilərində "İslami Hərəkat Cəbhəsinin" biri qadın olmaqla 17 üzvünün parlamentin aşağı palatasına,- Nümayəndələr palatasına seçilməsi islamçı siyasi kəsimin real gücünün nə dərəcədə olduğunu göstərirdi. Misirdə 2005-ci il parlament seçkilərində "Müsəlman Qardaşların" uğuru, 2006-cı ilin yanvarında HAMAS-ın Fələstin milli muxtariyyətində parlament seçkilərindəki qələbəsi Urdunda islamçı qüvvələrin bir qədər də fəallaşmasına səbəb oldu. Bundan narahat olan hakimiyyət onların bəzilərini ölkədə terror aktları törətmək planı hazırlamaq və HAMAS-la işbirliyi qurmaq ittihamları ilə müxtəlif cəzalara məhkum etdi. Belə tədbirlər, qismən də olsa, islamçı qüvvələrin zəifləməsinə və 2007-ci il noyabr parlament seçkilərində məğlubiyyətlərinə gətirib çıxardı.

Yeni seçki qanununa görə, parlamentin aşağı palatası 110 deputatdan ibarət olmalı idi, bunlardan – 83 deputat ümumi əsaslarla, 27 deputat isə kvota ilə (9-bədəvi tayfaların nümayəndələri, 9-xristianlar, 6-qadınlar, 3-qafqazlı diasporası üçün nəzərdə tutulurdu) seçilməli idi. Həmin seçkilər 2007-ci ildə noyabrın 20-də keçirild. Hakimiyyətə yaxın qüvvələr aşağı palatada əksəriyyət qazansalar da, onun ömrü uzun olmadı. Belə ki, dünya maliyyə böhranı zəminində ölkədə yaranmış sosial-iqtisadi gərginlik hökumət böhranı ilə nəticələndi və kral Abdullah 2009-cü il noyabrın 24-də parlamenti buraxdı. Nümayəndələr palatasının əhali arasında nüfuzu çox aşağı idi, onu korrupsiyada, iş əmsalının aşağı olmasında və səriştəsizlikdə ittiham edirdilər. Nadir Dahabinin başçılıq etdiyi nazirlər kabineti də az sonra istefaya göndərildi və dekabrın 9-da yeni Baş nazir postuna Samir ər-Rifai təyin olundu. Kral Abdullahın bu kabinetə ünvanladığı müraciətdə islahatların davam etdirilməsi, modernləşmə, korrupsiya ilə mübarizə, məmur və dövlət orqanlarının məsuliyyəti və fəaliyyətinin şəffaflığının artırılması, seçki qanunvericiliyinin təkmilləşdirilməsi vacib vəzifə kimi qeyd edilirdi. 2010-cu ilin mayında seçkilər haqqında yeni qanun qəbul edildi və "bir seçici – bir səs" prinsipi saxlanmaqla parlamentin aşağı palata üzvlərinin sayı 110-dan 120-yə, qadınlar kvotasının 6-dan 12-yə yüksəldilməsi və s. kimi cüzi dəyişikliklər edildi.

Həmin dövr krallığın region və beynəlxalq siyasətinin proiritet istiqamətini Yaxın Doğuda mövcud mürəkkəb durumda münaqişələrdən mümkün qədər kənarda qalmaq, ölkədaxili və iqtisadi problemlərin həlli üçün əlverişli xarici şəraitə nail olmaq xətti təşkil edirdi. Ölkə iqtisadiyyatının zəif inkişafı, yanacaq-energetika və ərzaq qıtlığı, su mənbələrinin azlığı dövləti xarici siyasətdə əsas vəzifə kimi xarici yardımların həcminin artırılmasına diqqət yetirməyə vadar edirdi.

Ərəb-İsrail münaqişəsinin iştirakçısı olan Urdun xarici siyasətinin ümdə məqsədlərindən biri problemin həllində səylərini artırmaq və daha çox tərəflər arasında vasitəçi qismində çıxış etmək idi. Çünki Fələstin-İsrail problemi Urdun dövlətinin və hakim Haşimilər sülaləsinin mövcudluğu üçün həmişə böyük əhəmiyyət kəsb etmişdir. Məhz buna görə də Urdun bu problemin həllində "iki xalq üçün iki dövlət" prinsipinə söykənən vasitəçiliyə üstünlük verirdi. Fələstin-İsrail danışıqlarının bərpasını dəstəkləyən kral Abdullah fələstinliləri Urdun çayının batı sahilində yəhudi məskənləri inşasının dayandırılması müqabilində İsraillə danışıqlar prosesini davam etdirməyə çağırdı.

Urdun ilk dövlətlərdən biri kimi, 2006-ci ilin yanvarında Fələstin ərazilərində keçirilmiş və HAMAS-ın qələbə çaldığı seçkilərin nəticələrini tanıdı. Həmin dövrdə Fələstin-İsrail münasibətlərində artan gərginlik Urdun rəhbərliyini ciddi narahat edirdi. Kral Abdullah İsrailin Qəzza bölgəsində və Lübnanda hərbi əməliyyatlarda "həddən artıq güc tətbiq etməsini" pisləməklə yanaşı, Fələstindəki bəzi xarici qüvvələrə arxalanan radikal qruplaşmaları, ilk növbədə HAMAS-ı və "Hizbullah"ı "əhalini təhlükəyə sürükləməkdə" qınamışdır. "Yol xəritəsi"nin yaranmış şəraitə uyğunlaşdırılmasının tərəfdarı olan kral Abdullah "mərhələli" plandan imtina edilməsinin və siyasi dialoqun bərpasının tərəfdarı kimi çıxış edir və bəzi radikal qüvvələrin neytrallaşdırılmasını önə çəkirdi.

2005-si ilin fevralında Misirin Şərm əş-Şeyx şəhərində keçirilmiş Ərəb-Fələstin danışıqlarından sonra Urdun İsraillə 2000-ci ildə kəsilmiş diplomatik münasibətləri bərpa etdi. Beləliklə, iki ölkə liderləri arasında mütəmadi görüşlər keçirilməsi, tərəflərin terrorizmlə mübarizə sahəsində əməkdaşlığı və eyni zamanda ticari-iqtisadi əlaqələrin də inkişafı normal məcraya düşdü. Bununla belə, İsraillə münasibətlərin dərinləşməsinə qarşı ölkə daxilində güclü müxalifət də var idi. Bura ilk növbədə islamçı qüvvələri, ziyalı təbəqəsinin və işgüzar dairələrin müəyyən qismini aid etmək olardı.

Sözügedən dövrdə də Urdunun Batı dövlətləri, ilk növbədə ABŞ-la münasibətləri, əvvəllərdə olduğu kimi, onun təhlükəsizliyinin başlıca komponenti, ölkənin daxili inkişafını müəyyənləşdirən əsas amil kimi qəbul edilirdi. Hətta bəzi ekspertlərin fikrincə, kral Abdullah ABŞ-a atası kral Hüseyndən daha yaxın idi. Urdun Misir və Səudi Ərəbistanı ilə yanaşı, ABŞ-ın Yaxın Doğudakı ən yaxın hərbi-siyasi tərəfdaş olaraq qalırdı. ABŞ krallığa xeyli iqtisadi, maliyyə və hərbi yardım göstərirdi. Əmman və Vaşinqton arasında yüksək səviyyəli daimi dialoq mövcud idi. Buna baxmayaraq kral Abdullah ölkə ərazisində amerikan hərbi bazalarının daimi əsaslarda yerləşdirilməsinə razılıq vermədi. Qeyd edək ki, Urdunun Böyük Britaniya və Rusiya ilə də çoxşaxəli münasibətləri inkişaf edirdi.

Urdun ərəb ölkələri ilə əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verirdi. Burada ilk növbədə İraqla münasibətlərin inkişaf etdirilməsi diqqəti cəlb edirdi. S.Hüseyn rejiminin süqutundan sonra məhz kral Abdullah ərəb liderlərindən birinci olaraq Bağdadı ziyarət etdi. 2008-ci ildə baş tutan səfər çərçivəsində bir sıra dövlətlərarası müqavilələr imzalanmışdır.

Xarici siyasət kursundakı fərqli mövqelərinə baxmayaraq Urdunun Su-

riya ilə münasibətləri qarşılıqlı dialoqa əsaslanırdı. Tərəflər 2004-cü ildə sərhədlərin demarkasiyasına dair saziş imzaladılar. Digər ərəb ölkələrindən Misir, Səudi Ərəbistan və Körfəz əmirlikləri ilə də sıx siyasi və iqtisadi əlaqələr uğurla davam edirdi. Bu sırada sonuncular tərəfindən krallığa edilən maliyyə yardımları göstərilməsi böyük əhəmiyyət daşıyırdı.

2005-ci ilin sentyabrında kral Abdullahın Ankaraya rəsmi səfəri Urdun–Türkiyə münasibətlərinin dinamik inkişafının göstəricisi kimi xarakterizə oluna bilərdi. Qeyd edək ki, ölkə əhalisinin su ilə təchiz edilməsi məsələsinin çözülməsi Urdunun qonşu dövlətlərlə, o cümlədən Türkiyə ilə münasibətlərində mühüm rol oynayırdı.

Ümumiyyətlə, Urdun mötədil xarici siyasət kursu həyata keçirirdi. Bu da krallığın xarici təhlükəsizliyinin təminatı üçün hesablanmış xətt kimi Doğu və Batı diplomatiyası tərəfindən dəstəklənirdi. Belə ki, 2003-cü ildən Urdunda Dünya İqtisadi forumları keçirilməyə başlamışdı. Bu toplantılar "Şərq Davosu" adı altında ildə bir dəfə aparıcı dövlətlərin və beynəlxalq qurumların iştirakı ilə çağırılır. Belə beynəlxalq səviyyəli forumun məhz Urdunda keçirilməsi onun həm dünya, həm regional miqyasda nüfuzunun artmasına dəlalət edirdi.

XXI əsrin ilk illərindən Urdunun daxili və xarici siyasətində müsbət dəyişikliklərlə yanaşı, bir çox problemlərin həllinin bəzi obyektiv və subyektiv səbəblərdən ləngiməsi, buna görə də ölkə daxilində siyasi və sosial-iqtisadi gərginliyin artması da bir gerçəklik oldu.

Qiymət artımı, işsizlik, yoxsulluq və s. kimi təzahürlər əhalinin narazılığına və müxalif qüvvələrin mövqelərinin güclənməsinə şərait yaratdı. İqtidar Fələstin probleminə biganəlikdə ittiham olunur və İsraillə bütün əlaqələrin kəsilməsi tələb edilirdi. İsrail knessetində "Urdun variantı" adlı planın müzakirəsi isə ölkədə siyasi durumu partlayış həddinə çatdırdı. Bu planın əsasında müstəqil Fələstin dövlətinin yaradılmasına ehtiyacın olmaması və fələstinlilərin 1948-ci ildən Urdunda məskunlaşması və buranın vətəndaşı olması prinsipi dayanırdı. Əslində bu Urdun çayının Batı sahilinin ilhaqı və Urdunun fələstinlilərin alternativ vətəni olması məsələsinin İsrail tərəfindən rəsmiləşdirilməsi təhlükəsini yaradırdı.

Məhz belə ağır şəraitdə - 2010-cu ilin 9 noyabrında parlamentə yeni seçkilər keçirildi. Seçkinin nəticələrinə görə 120 nəfərlik aşağı palatada yalnız 17 deputat müxalif siyasi partiyaların təmsilçiləri idilər. Müxalifət partiyaları koalisiyasının ("Haşid", Bəəs, Kommunist və Milli birlik partiyaları) 8 nami-

zədindən ancaq "Haşidin" Baş katibi Abla Əbu Bəkr qadın kvotası əsasında Amman dairəsindən seçilmişdi. 7 müstəqil islamçı namizəddən 1 nəfər seçilmiş, əsas islamçı partiyalar isə seçkiləri boykot etmişdi. Bu seçkilərin xüsusiyyətlərindən biri də fələstinli deputatların sayının iki dəfə azalması idi.

Tunisdə və Misirdə 2011-ci ilin yanvarında baş verən siyasi hadisələrin təsiri altında Urdunda da etiraz nümayişləri başladı. Diban, Kərək, Salt şəhərlərində başlanan çıxışlar az sonra paytaxt Əmmana və Zərqa, Məan, Əclun şəhərlərinə yayıldı. Etirazçılar sosial-iqtisadi şüarlar səsləndirir, yanacaq və ərzaq məhsullarının qiymətlərinin kəskin şəkildə artmasına, inflyasiyaya (2010-cu ildə 6,1% təşkil edirdi), işsizliyə və korrupsiyaya qarşı çıxırdılar. Yaranmış vəziyyətdə hakimiyyət tələblərin yerinə yetirəcəyini bəyan etdi – dövlət işçilərinin maaşlarının artırılmasına, yanacağın və 12 sosial yönümlü əsas malların qiymətlərini tənzimlənməsinə 500 mln dollar vəsait ayrıldı. 2011-ci il fevralın 1-də kral Abdullah S.ər-Rifai kabinetini istefaya göndərdi, yeni Baş nazir nüfuzlu batı Urdun tayfalarının birinin təmsilçisi, Türkiyə və İsraildə səfir olmuş, Kəşfiyyat İdarəsinin başçısı Maaruf Bəhit təyin olundu. Hökumətin əsas vəzifəsi ölkənin sosial-iqtisadi problemlərinin həlli, müxalifətlə dialoqun qurulması və yeni seçki qanunvericiliyinin hazırlanması olmalı idi. Urdunda hadisələrin nəzarətdən çıxmaması üçün ABŞ 2010-cu ildə verilən 363 mln dollar yardıma əlavə olaraq hökumətə daha 100 mln dollar ayırdı.

Lakin müxalifət hakimiyyətin maliyyə tədbirlərini yetərsiz saydı və hesab etdi ki, onlar yalnız qısa müddətli səmərə verə bilər. Yeni Baş nazir və ümumən parlamentin fəaliyyətindən narazı qalan müxalif qüvvələr konstitusiyanın bəzi müddəalarının dəyişdirilməsi və hökumətin parlament qarşısında məsuliyyətinin artırılmasını gündəmə gətirdilər. Təsadüfi deyildi ki, M.Bəhiti islahatçı hesab etməyən müxalifətin tələbi ilə tezliklə onun da istefaya göndərilməsi reallaşdı və yeni hökuməti qurmaq hüquqşünas Aun Həsənə həvalə olundu. 2011-ci ilin fevralında 36 bədəvi qəbilə başçısı və əyanları kral Abdullaha kraliça Raniyanın ictimai -siyasi proseslərdə iştirakını və Fələstin kökənli olaraq öz həmvətənlərinin cəmiyyətdə nüfuzunun artması yönümündə fəaliyyətini tənqid edən xüsusi müraciət ünvanladılar.

Regionda baş verməkdə olan hadisələrin təsirini azaltmaq məqsədi ilə kral elan etdi ki, sosial-iqtisadi islahatlar davam etdiriləcək, iqtisadiyyatın modernləşməsinə diqqət gücləndiriləcək və işsizliyin aradan qaldırılması yönümündə tədbirlər həyata keçiriləcəkdir. Bu baxımdan 30 mlrd dollar dəy-

ərində iri infrastruktur layihələrinin həyata keçirilməsi göstərilən məqsədlərə xidmət etməli idi. 20 il müddətinə hesablanmış meqalayihələrdən olan AES-in inşası nəticəsində 2030-cu ilə qədər Urdunun enerji daşıyıcılarından asılılığı tamamilə aradan qaldırılmalı (ona büdcənin 25% xərclənirdi), hətta onların ixracına imkan yaranmalı idi. Dəyəri 12 mln dollar olan "Qırmızı dəniz layihəsi" adlanan başqa bir layihədə içməli su probleminin həlli və Ölü dənizin qurumasının qarşısını almaq nəzərdə tutulmuşdu. İri layihələr sırasında 1080 km uzunluğunda olan, Urdunu Suriya və İraqla birləşdirən dəmir yol xəttinin çəkilməsi planı da mühüm əhəmiyyətə malik idi. Bunun nəticəsində Urdunun Batı Asiya regionunda mühüm tranzit qovşağına çevrilməsi və Avropa-Aralıq dənizi iqtisadi əməkdaşlıq projesində daha fəal iştirak etməsinə imkan yaranacaqdır.

Daxili siyasi sahədə durumun mürəkkəb olmasını və ərəb dünyasında ciddi proseslərin davam etməsini nəzərə alan kral Abdullah iki yeni məşvərətçi orqanın yaradılması haqda fərman verdi. Bunlardan birincisi Senatın spikeri T.əl-Masrinin rəhbərlik etdiyi Dialoq üzrə Milli Komitə, digəri isə sabiq baş nazir Ə.əl-Luzinin sədrliyi ilə yaradılan Konstitusiya İslahatı Komitəsi idi. Bu iki qurumun əsas vəzifəsi dinc yollarla bütün siyasi qüvvələri cəlb etməklə dialoq şəraitində 1952-ci ildən qüvvədə olan Konstitusiyaya dəyişikliklərin edilməsindən ibarət idi.

Bütün bu deyilənlər belə bir inam yaradır ki, Urdun xalqı və onun siyasi elitası dəyişən dünyanın dəyişən şərtlərinin mahiyyətinə uyğun cəmiyyət yolunda hərəkət edəcəyi əzmindədir.

## SƏUDİ ƏRƏBİSTAN

Çağımızda siyasi-inzibati ərazi anlamını verən Səudi Ərəbistan istilahı dünya xəritəsində XX əsrin 20-ci illərində özünə yer tapmışdır. O, Ərəbistan yarımadasında eyni adlı dövlətin ehtiva etdiyi coğrafi məkanın adıdır. Səudi dövlətinin yaranmasına qədər həmin ərazi formal baxımdan Osmanlı dövlətinin tərkibində idi. Orada Nəcd, Hicaz və Şəmmar kimi bir sıra əmirliklər var idi. Bir tərəfdən onların arasında bölgədə siyasi hegemonluq uğrunda mütəmadi hərbi toqquşmalar baş verir, digər tərəfdən isə Osmanlı dövlətinin ağır durumundan istifadə edən Avropa dövlətlərinin həmin əmirliklərə strateji maraqları artırdı. Belə bir şəraitdə vaxtılə Şəmmar əmirliyinin özünə tabe etdiyi Nəcdin əmiri Əbdül Əziz – o, mənsub olduğu sülalənin adı ilə İbn Səud kimi tanınırdı, - fəallaşmışdı. O, 1900-cu ilin payızında vəhhabi hərbi dəstələrinin başında duraraq arxasında ingilislərin dayandığı Küveytin dəstəyi ilə Nəcdin suverenliyi uğrunda mübarizəyə başladı. Əmirliyin ən böyük şəhəri sayılan ər-Riyadı azad etmək uğrunda ilk cəhd uğursuz olsa da, 1902-ci ilin yazınadək Nəcdin bütün torpaqları tutuldu. Əvvəllər Nəcd əmirliyinə məxsus olmuş həmin torpaqlarda Səudilərin hakimiyyəti bərpa olundu.

Bölgədə baş verən bu hadisələrdən həm Osmanlı, həm də Avropa dövlətləri razı qalmadı. Osmanlı dövləti bölgəyə ordu göndərsə də uğur qazana bilmədi. Odur ki, mövcud status-kvo ilə razılaşdı və əsas gücünü Hicaza yönəltdi. Orada möhkəmlənmək məqsədilə tikintisi 1904-cü ildə başlanmış Hicaz dəmir yolunun tamamlanmasına xüsusi önəm verildi. İlk vaxtlar bu işə maneçilik törədənlər olsa da, yolu 1908-ci ildə Məkkəyə qədər çatdırmaq mümkün oldu. Bundan narahat olan Avropa dövlətləri, ilk növbədə Böyük Britaniya, fəaliyyətə keçdilər və həmin ildə məhz onların dəstəyi ilə antiosmanlı mubarizənin önündə gedən II Hüseyn əl-Haşimi Məkkənin şərifi vəzifəsinə gətirildi. Çox keçmədi ki, 60 yaşlı şərif Hicazın müstəqil hakimi olmaq və Ərəbistan yarımadasının digər ölkələrini də öz hakimiyyəti altında birləşdirmək fikrinə düşdü. Onun bu hərəkətlərinin Osmanlı rəsmilərini rahatsız etməsinə və tərəflər arasında tez-tez münaqişələrə qətirməsinə baxmayaraq, Hüseyn Hicazdakı türk hərbi birləşmələrinin köməyi ilə Nəcd əmirliyinə qarşı mübarizəyə başladı. 1911-ci ildə oradan həcc ziyarətinə gələnləri Məkkəyə buraxmadı.

Hicazla mübarizədə uğursuzluqlara duçar olan əmir Əbdül Əziz öz işğalçılıq siyasətini yarımadanın doğusunda genişləndirməyə başladı. O, hələ

1910-cu ildə qəbul edilmiş vəhhabi hərəkatının ideoloji dirçəlişinə, vəhhabiliyə və özünə sadiq bədəvi tayfaların oturaq həyata keçməsini nəzərdə tutan qərarın reallaşmasına başladı. Səudilərin başlıca hərbi qüvvəsi sayılan və ixvanlar* kimi tanınan vəhhabilərin cəmləşdiyi dini icmalar yaradıldı. Onlar xüsusi yerlərdə oturaq yaşayır, bu qayda ilə əkinçilərə çevrilir və aqrar təsərrüfat həyatına cəlb olunurdular. İxvanlar həm də Səudi dövlətinin əsgərləri idi. Məhz onların köməyi ilə Əbdül Əziz zəngin əl-Həsa vadisini ələ keçirdi. Həmin hadisədən sonra Əbdül Əziz 1914-cü ilin mayında türklərlə, 1915-ci ildə isə ingilislərlə dostluq və müttəfiqlik haqqında müqavilə imzaladı.

I Dünya müharibəsi illərində yarımada ölkələrində anti-türk övqatı güclənmişdi və bu, Böyük Britaniya tərəfindən dəstəklənirdi. Bu zəmində həm Hicazın, həm də Nəcdin ingilislərlə əməkdaşlığı yaranır və güclənirdi. Belə ki, hələ 1914-cü ildə türklərə qarşı mübarizədə vahid cəbhə yaratmaq məqsədilə şərif Hüseynin bir oğlu Feysəl ərəb millətçi qüvvələri ilə əlaqələr qururdusa, o biri oğlu Abdullah Misirdəki Böyük Britaniya konsulu Kitçener və ingilis agenturası ilə danışıqlar aparırdı. Bu cəhdlər az sonra öz nəticəsini verdi. 1915-ci il iyunun 5-də şərif Hüseyn Hicazın müstəqilliyini, özünü də yeni yaranan dövlətin məliki-kralı elan etdi və Antanta tərəfindən Osmanlı dövlətinə qarşı mübarizəyə başladı. Məşhur kəşfiyyatçı Lourensin başçılıq etdiyi bədəvi dəstələri isə 1917-ci ilin axırlarınadək Hicaza nəzarəti ələ keçirə bildilər və Aqaba limanını tutdular.

Nəcd isə Böyük Britaniya ilə müqaviləsi olmasına və ildə ondan 50 min funt sterlinq yardım almasına baxmayaraq Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara qoşulmadı.

I Dünya müharibəsində Osmanlı dövlətinin təslim olması haqqında 1918-ci il oktyabrın 30-da Antanta dövlətləri ilə bağlanan Mudros sülhünün şərtlərinə görə noyabr ayında Mədinədəki türk hərbi qüvvələri oradan çıxdı. Bu isə yarımada əmirliklərinin faktiki olaraq müstəqillik qazanması demək idi.

Həmin dövrdə çağdaş Səudi Ərəbistan ərazisində Hicaz, Nəcd, Cəbəl əş-Şəmmar və Əsir kimi dörd müstəqil siyasi-inzibati qurum var idi. Onların da sonrakı taleyi qarşılıqlı mübarizə forması aldı və bu, güclülərin, daha çox isə Böyük Britaniyanın dəstəklədiyi əmirliklərin qələbəsi ilə başa çatdı. Mübarizə əsasən, Nəcd və Hicaz arasında gedirdi. Belə ki, hələ 1917-ci ilin payızından

* İxvan – ərəbcə «qardaşlar» deməkdir. İbn Səudun yaratmış olduğu hərbi-dini qurum «İxvan ət-təvhid» adlanırdı.

onların arasında ziddiyyətlər xeyli kəskinləşməyə başlamışdı. Səbəbi də o idi ki, Hicaz kralı Hüseyn bütün yarımadanın quzeyini öz hakimiyyəti altına almaq istəyirdi. Nəcd əmiri Əbdül Əziz isə, öz növbəsində, Hicaza hakimi olduğu ərazilərin bir parçası kimi baxırdı. Bu zəmində onların arasında 1919-cu ilin əvvəlində başlayan və qarşılıqlı üstünlüklə davam edən hərbi münaqişə həmin ilin ortalarında Böyük Britaniyanın ultimatumuna əsasən dayandırıldı. İyulun 4-də Hicazın qapısı sayılan Turaba vadisinə yiyələnmiş nəcdlilər geri çəkilməyə məcbur edildi. Həmin gün bölgənin sonraki tarixinin başlanğıcı oldu. Nəcd öz işğallarının istiqamətini əvvəlcə Cəbəl əb-Şəmmara yönəltdi və buranı 1921-ci ilin noyabrında öz tərkibinə qatdı. 1922-ci ilin sentyabr-oktyabr aylarında isə Əsir əmirliyi tutuldu. Hicaz kralının bu məsələyə müdaxilə cəhdi mövcud durumu dəyişmək gücündə olmadı. Əksinə, onların arasında gələcək hərbi toqquşmaları qaçılmaz etdi. Lakin həmin ərəfədə 1921-ci ildə Qahirədə Böyük Britaniyanın müstəmləkələr naziri U.Çörçillin rəhbərliyi ilə çağrılan konfransda Hüseynin oğulları Feysəl və Abdullahın türklərə qarşı döyüşdə göstərdikləri xidmətə görə yeni yaradılacaq İraq və Mavaraəlurdun kralları taxtına oturacaqları qərara alınmışdı. Odur ki, Nəcd üç tərəfdən Haşimilər sülaləsinin başçılıq etdiyi İraq, Mavaraəlurdun və Hicazla əhatə olunduğundan və şimal qonşuları ilə tez-tez hərbi toqquşmalara cəlb edildiyindən Hicazla qarşılaşmağı təxirə saldı. Yeri gəlmişkən qeyd edək ki, 1921-ci ildə Səudilər ailəsinin üzvləri və qəbilə şeyxlərinin toplantısında Əbdül Əzizə "Nəcdin və ona birləşdirilən ərazilərin" sultanı titulu verilmişdi.

Onun 1922-ci il noyabrın 21-də əl-Ukayra adlı yerdə Böyük Britaniya təmsilçisi P.Koks ilə imzaladığı protokola əsasən İraqla sərhəd münasibətləri tənzimləndi. Eyni məzmunlu sənəd Küveytlə də imzalandı.

Hicazla münasibətlərə gəlincə, artıq onunla hərbi toqquşmanın qaçılmazlığı açıq-aşkar görünməkdə idi. Birincisi, Hicazın özündə kralın siyasətindən, xüsusilə də vergilərin artması səbəbindən güclü narazılıq vardı; ikincisi, Hicaz kralı Hüseynin Böyük Britaniya ilə münasibətləri korlanmışdı. Buna səbəb o olmuşdu ki, Suriyada fransız, Fələstində isə ingilis mandatlıq rejimi yaradılmasına etiraz edən kral Hüseyn Hicaz – Böyük Britaniya müqaviləsini imzalamamışdı; üçüncüsü, 1924-cü ilin martında Türkiyədə xilafətin ləğv edilməsinin ardınca kral Hüseyn özünü xəlifə elan etdi. Bununla o, ən azı Asiyanın ərəb ölkələrinin hökmdarı kimi öz iddiasını irəli sürmüş oldu. Lakin kralın bu iddiası qonşu ərəb ölkələrində ciddi etirazla qarşılandı, Nəcddə isə

vəhhabilərin dini hissləri ilə oynamaq kimi qiymətləndirildi.

1924-cü ilin iyununda İbn Səud müsəlmanlara müraciət etdi ki, Hüseyni xəlifə kimi tanımasınlar. Həmin ildə Nəcd üləma və şeyxlərinin toplantısında Hicazla müharibəyə qərar verildi. Münasibətlərin belə gərginləşdiyi bir zamanda Böyük Britaniya Hüseynə etdiyi köməyi dayandırdı. Fransa və İtaliya isə bitərəf mövqe tutdular. 1924-cü ilin sentyabrında hərbi əməliyyatlar başladı. 1925-ci ilin dekabrına qədər Məkkə və Mədinə də daxil olmaqla bütün Hicaz torpaqları Nəcd qoşunları tərəfindən tutuldu. 1926-cı il yanvarın 8-də Məkkənin Böyük məscidində sultan Əbdül Əziz Hicaz kralı elan edildi. Bundan sonra Əbdül Əziz güneyə – Yəmənə doğu irəliləmək istədi. Lakin onun bu cəhdi Böyük Britaniya tərəfindən dayandırıldı.

Beləliklə də, XX əsrin əvvəllərindən başlayaraq Səudi hakimiyyətinin dirçəldilməsi uğrunda aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində müqəddəs şəhərlər Məkkə və Mədinənin yerləşdiyi zəngin Hicaz da daxil olmaqla Ərəbistan yarımadasının böyük bir hissəsi vahid bir hakimiyyət və dövlət halında birləşmiş oldu. 1925-ci il yanvarın 15-də İbn Səud həmin torpaqların kralı elan olundu. İyulda isə ona ərəb ölkələri, Hindistan, Türkiyə və Əfqanıstanın təmsil olunduğu ümümmüsəlman konqresində bütün müsəlmanların müqəddəs şəhərləri Məkkə və Mədinənin xidmətçisi titulu verildi.

Bundan sonra İbn Səud dövlətin və hakimiyyətin möhkəmləndirilməsi üçün idarəçilik, məhkəmə, maliyyə və digər sahələrdə islahatlar keçirməyə başladı. İslahatlar nəticəsində o, bütünlüklə dövlət, eləcə də dini həyata nəzarəti öz əlində cəmləşdirdi. Bununla yanaşı, ən mühüm dövlət məsələləri haqqında qərarlar Nəcdin qəbilə-tayfa əyanları və vəhhabi üləmalarının toplantılarında qəbul olunurdu.

Hicazın idarəçiliyi ilə bağlı olaraq oranın ənənəvi əyanlarına müəyyən güzəştlər verildi. 1925-ci ildə maliyyə və xarici işlər üzrə qurumlar yaradıldı. 1926-cı il avqustun 31-də Hicaz əmirliyi haqqında qəbul olunan əsasnaməyə görə, ölkədə "məşvərətçi qurumlara malik mütləqiyyət üsul-idarəsi" yaradıldı.

Ölkədə köklü dəyişikliklərə və ciddi nəticələrə gətirən sənəd isə 1927-ci il avqustun 17-də verilmiş məhkəmələr haqqında fərman oldu. Ənənəvi bədəvi adətləri və hüququ əsasında şeyxlər tərəfindən icra olunan məhkəmələr sistemi şəriət məhkəmələri ilə əvəz olundu. Bu isə, faktiki olaraq, yerli qəbilə-tayfa qurumlarının ləğvi, onların funksiyalarının mərkəzi hakimiyyətə verilməsi demək idi.

Ümumiyyətlə, mərkəzi hakimiyyətin möhkəmlənməsinə və güclənməsinə

xidmət edən islahatlar yerlərdə qəbilə-tayfa şeyxlərinin, daha çox isə ixvanların ciddi narazılığı ilə müşaiyət olunurdu. Mərkəzi hakimiyyətin təsərrüfat və hərbi ehtiyaclarının təmin edilməsi üçün istifadə olunan texniki vasitələr (nəqliyyat, radio, telefon və s.) ixvanlar tərəfindən şeytan əməli kimi qəbul olunurdu.

İxvanların dini fəaliyyətini nəzarətdə saxlamaq məqsədi ilə İbn Səud 1926-cı ilin yayında İctimai Əxlaq Liqasını yaratdı. Onun məqsədi dini polis səlahiyyətlərini yerinə yetirmək və Hicaz əhalisinin davranışına nəzarət etmək idi. Ancaq bu tədbirlər onunla nəticələndi ki, mərkəzi hakimiyyətə qarşı ixvanların etirazları get-gedə artdı, onların ayrı-ayrı yerlərdə və zamanlarda üsyanları baş verdi və ölkə vətəndaş müharibəsinə sürükləndi. İbn Səud üsyançı ixvan dəstələrini yalnız 1930-cu ilin yanvarında məğlub edə bildi və onların rəhbərləri həbs olundu. Bu qarşıdurmalar ölkənin iqtisadiyyatını zəiflətsə də, hakimiyyət gücləndi, İbn Səud isə böyük ərazilərin tamhüquqlu sahibinə çevrildi.

1930-cü ildə İbn Səud xarici işlər nazirliyinin yaranması haqqında fərman verdi və onun başına ikinci oğlu Hicaz valisi vitse-kral Feysəl gətrildi. 1932-ci ilin yanvarında isə Feysəlin başçılığı ilə Nazirlər kabineti təşkil olundu. Onun tərkibinə xarici və daxili işlər, maliyyə nazirlikləri, eləcə də vitse-kraldan, onun müşavirləri və Hicaz əyanlarının 6 nümayəndəsindən ibarət olan Məşvərət Şurası daxil idi. 1932-ci il sentyabrın 18-də kral "Ərəb krallığı ərazilərinin birləşdirilməsi haqqında" fərman verdi və dövlət Səudi Ərəbistan Krallığı adlandırıldı. Həmin fərmana görə, Quran dövlətin Konstitusiyası elan olundu və varislik qaydaları müəyyənləşdirildi. 1933-cü ildə kralın böyük oğlu Səud vəliəhd təyin olundu.

Ölkənin əhalisi üçün İbn Səud (1932-1953) həm kral, həm də əmir idi, yəni feodal hökmdar və eyni zamanda, onun əcdadları kimi imam titulunun daşıyıcısı – müsəlman icmasının (ümmənin) dini başçısı idi. O, idarəçilikdə müxtəlif qüvvələrin imkanlarından da istifadə edirdi. Bu baxımdan üləmaları xüsusi qeyd etmək lazımdır. Onların arasında ən nüfuzluları əş-Şeyx ailəsinin üzvləri idilər. Bu ailənin Səudilərlə qohumluq əlaqələri bağlayırdı. Ümumiyyətlə isə, hakimiyyət İbn Səud və onun ailəsinin əlində cəmləşmişdi. Onlar həm də hökumətdə müəyyən vəzifə tuturdular. Əyalət vali və əmirlərini kral özü təyin edirdi. Ölkə Hicaz istisna olmaqla beş iri əyalətə bölünürdü: Nəcd, Qasim, Cəbəl əş-Şəmmar, əl-Hasa və Əsir. Hicazda isə İbn Səud yerli dövlət hakimiyyəti və idarəcilik sisteminin təkmilləşdirilməsinə çalışırdı. Hələ

1926-ci ilin avqustunda o, "Hicaz krallığının əsasları"nı təsdiq etmişdi. Bu sənəd krallığın "Konstitusiyası" sayılırdı. Sənədə əsasən, kral Hicazda baş valini (vitse-kral) və idarə başçılarını təyin edir, vitse-kral isə kral qarşısında məsuliyyət daşıyırdı. Kral tərəfindən vitse-kral, onun müşavirləri və Hicaz əyanlarının 6 nümayəndəsindən ibarət Məşvərət Şurası da yaradılmışdı. Məşvərət Şurasının əsas vəzifəsi büdcəyə nəzarət, müxtəlif iqtisadi layihələrin həyata keçirilməsi, o cümlədən konsessiyalar verilməsi idi. 1932-ci ildən onun səlahiyytlərinə həm də həcc və zəvvarlarla bağlı məsələlərin tənzimlənməsi də daxil oldu.

Hicazın birləşdirilməsindən sonra krallığın beynəlxalq əlaqələri genişləndi. Ciddədə bir sıra dövlətlərin daimi konsulluqları açıldı, 1925-ci ildə isə Hicazda xarici məsələlər üzrə idarə yaradıldı. 1926-1936 illərdə Səudi Ərəbistan bir sıra aparıcı dünya dövlətləri ilə diplomatik əlaqələr qurdu. 1927-ci ildə Böyük Britaniya ilə "dostluq və xoş niyyətlər" haqqında müqavilə imzalandı. 1929-cu ildə Almaniya, 1933-cü ildə İtaliya ilə dostluq müqavilələri bağlandı. 1930-1937-ci illərdə qonşu ərəb dövlətləri ilə, o cümlədən 1936-cı ildə Misir və İraqla, 1937-ci ildə Yəmənlə müxtəlif səviyyəli əlaqələr quruldu.

İqtisadi həyata gəlincə, bu sahədə əvvəllərdən mövcud olan münasibətlər sisteminin, demək olar ki, dəyişmədən qaldığını söyləmək lazımdır. Ənənəvi köçəri maldarlıq və vahələrdə təşəkkül tapmış əkinçilik yenə də ölkə iqtisadiyyatının başlıca bölmələri idi. Yeganə bir dəyişikllik var idisə, o da dövlət büdcəsinin artan xərclərini ödəmək üçün vergilərin miqdarının artması idi. Çünki, ənənəvi olaraq zəkat adlanan vergilər dövlət xəzinəsinin doldurulmasında böyük önəm daşıyırdı. Qeyd edək ki, Hicazın tutulmasından sonra həccə gələn zəvvarlardan da məxsusi vergilər alınırdı.

Büdcə gəlirləri isə, təbiidir ki, dövlət strukturlarının saxlanılmasına sərf olunurdu. Onların sırasında ordu vacib yer tuturdu və onun saxlanması böyük xərc tələb edirdi. Belə ki, ixvan hərəkatının dağıdılmasından sonra nizami ordu hissələri yaradılmasına başlanılmışdı. Bunun üçün Suriya və İraqdan təlimatçılar də dəvət edilmişdi. Artıq 1930-cu ildə Ciddədə keçirilən paradda üç piyada alay, topçu və atıcı alayları iştirak etmişdi. Taifdə hərbi məktəb açılmışdı. Hətta müəyyən sayda gənclər xaricə təlim almağa göndərilirdi. Əvvəllər əsasən quru qoşunlardan ibarət olan ordunun sırasına az sonra hərbi hava qüvvələri də əlavə olunmuşdu. Ordu quruculuğu ilə bağlı bütün məsələlərin tənzimlənməsi üçün 1946-cı ildə Müdafiə nazirliyi yaradıldı.

Büdcə gəlirlərinin müəyyən hissəsi ölkədə sayı gündən-günə artmaqda olan yoxsulların saxlanılmasına ayrılırdı. Təkcə paytaxt ər-Riyadda və onun ətrafında yaşayan böyük yoxsul kütləsindən 2 min adam gündə iki dəfə kral mətbəxindən yemək alırdı. Bəzi vaxtlarda isə bu rəqəm 10 minə çatırdı. Paytaxtda yüzlərlə əsir ailəsi saxlanılırdı. Onların ev, yemək və s. kimi bütün ehtiyacları kral tərəfindən ödənilirdi. Əlavə olaraq kasıblara xüsusi hədiyyələr də veririrdi və kral bununla özünün cəmiyyətdə varlı və kasıbların bərabərliyi haqqında vəhhabi prinsiplərinə sədaqətli hökmdar obrazını saxlamağa çalışırdı.

1920-30-cu illərdə keçirilən dəyişikliklər həm də mədəni-maarif sisteminin inkişafında öz əksini tapdı. Məsələn, Hicazda ilk rəsmi qəzet "əl-Qiblə" nəşr edildi, bir neçə dünyəvi məktəb və orta ixtisas məktəbləri açıldı. 1926-cı ildə maarif idarəsi yaradıldı, xaricdən ölkəyə müəllimlər dəvət edildi. Həmin ildə ər-Riyadda və ona yaxın əyalətlərdə 12 dövlət və özəl məktəb fəaliyyətə başladı. 1930-cu illərdə Nəcdin və Hicazın iri şəhərlərində də yeni məktəblər açıldı. Bununla yanaşı, üləmalar təhsil və maarif sistemini öz əllərindən vermək istəmirdilər və dini mədrəsələr öz fəaliyyətini davam etdirirdi. 1924-cü ildən ilk həftəlik qəzet "Umm əl-qura" nəşr olunmağa başladı.

Beləliklə, İbn Səudun həyata keçirdiyi islahatlar nəticəsində vəhhabiliyin erkən islam prinsiplərinin dirçəldilməsi ideyalarına əsaslanan bir dövlət strukturu quruldu və o, mahiyyət etibarilə bölgədə hakim olan sosial-iqtisadi inkişaf səviyyəsinə uyğun gəlirdi. Lakin onun xarici təsirlərə məruz qalması qaçılmaz oldu. Bu məsələdə neft amili böyük və həlledici rol oynadı.

XX əsrin 30-cu illərində ölkədə zəngin neft yataqlarının kəşfi və istismara verilməsi, neftçıxarma və emal sənayesinin yaradılması, neft satışından əldə olunan misli görünməmiş gəlirlər nəticəsində ənənəvi sosial strukturlar güclü təsirə məruz qaldı, onların bir qismi tamamilə dağılıb sıradan çıxdı, bir qismi isə köklü dəyişiklərə uğradı.

Bu istehsal sahəsinin əsası 1933-cü ilin əvvəlində amerikan neft şirkəti "Standard Oyl of Kalifornia"nın (SOKAL) Səudi Ərəbistan ərazisində neft axtarışına konsessiya əldə etməsi ilə qoyuldu. Doğrudur, bu hüququ başqa şirkətlər də qazanmaq istəyində idi. Lakin SOKAL-ın şərtlərini daha münasib sayan Səudi tərəfi həmin ilin 29 may tarixində onunla saziş bağladı. Bu, SOKAL-a 100 min qızıl funt-sterlinqə başa gəldi. Noyabr ayında SOKAL qazandığı konsessiya hüququnu öz filialı "Kalifornia-Arabien Standard Oyl Kompani"yə verdi. Səudi Ərəbistanda fəaliyyət göstərən bu şirkətin səhmlə-

rinin yarısını 1936-cı ildə "Texas Oyl Kompani" şirkəti aldı. 1944-cü ildə isə onların əsasında məşhur "Arabien-Amerikan Oyl Kompani" (ARAMKO) yaradıldı.

Konsessiya haqqında sazişin şərtlərinə görə, SOKAL 60 il müddətində neft yataqlarının kəşfi və istismarı, neft məhsullarının emalı, nəqli, satışı və ixracı hüququ almışdı. Bu məqsədlə şirkətə Səudi Ərəbistanın doğu hissəsində yerləşən 400 min kv.mil ərazi verilmişdi. SOKAL da öz növbəsində bir sıra şərtlərə əməl etməli idi: 1. Səudi Ərəbistana 50 min qızıl f.st. borc verilməsi idi; 2. Neft yataqlarının tam aşkarlanmasına kimi hər il 5 min qızıl f.st. ödənilməsi idi; 3. Neft yataqlarının kəşfindən sonra Səudi hökumətinin çıxarılan hər ton neftə görə icarə haqqı kimi 4 qızıl şillinq və ya onun ekvivalentini alması. Bunların müqabilində Səudi dövləti öz növbəsində şirkəti və onun müəssisələrini vergilərdən, kömrük rüsumlarından və s. azad edirdi.

1938-ci ildə satışa çıxarılacaq həcmdə neft hasil olunmasına başlanıldı. Həmin il mayın 1-də neftlə dolu ilk tanker Səudi sahillərindən yola çıxdı. Neftin aşkar edilməsindən sonra Səudi hökuməti güney və doğu bölgələrində onun kəşfiyyatı üçün yeni sazişlər imzaladı. Buraya Səudi Ərəbistan və İraq, Səudi Ərəbistan və Küveyt arasındakı ərazilər də daxil oldu. Artıq II Dünya muharibəsinə qədər verilmiş neft konsessiyaları ölkə ərazisinin 496 min kv mil qurusunu və 11 min kv. mil Körfəz kontinental şelfini əhatə etdi.

II Dünya müharibəsinin başlanması ərəfəsində bəlli oldu ki, ölkə ərazisi neft yataqları ilə zəngindir. Odur ki, Səudi hakimiyyəti ölkənin güney və doğu bölgəsində geoloji axtarış-kəşfiyyat işləri aparmaq üçün yeni sazişlər imzaladı.

Neft amili həmin dövrdə, xüsusilə də II Dünya müharibəsinin başlanmasından sonra Səudi Ərəbistanın *geostrateji durumuna* və beynəlxalq əlaqələrinə ciddi dəyişikliklər gətirdi. Bu sahədə hələ XX əsrin 30-cu illərində onunla diplomatik əlaqələr qurmuş və dostluq müqavilələri imzalamış Almaniya və İtaliya daha çox fəallıq göstərirdi. 1939-cu ilin sonlarında Almaniya İtaliya vasitəsilə səfiri Qrobba üçün Səudi Ərəbistandan aqreman ala bildi. Ardınca isə kansler Hitler İbn Səuda göndərdiyi məktubunda Böyük Britaniyaya qarşı çıxmaq təklif etdi və əvəzində "bütün ərəblərin tax-tacının" ona çatacağı vədini verdi. Lakin kralın cavabı mənfi oldu. 1941-ci ildə Suriya və İraqa Böyük Britaniya qoşunlarının girməsindən sonra İbn Səud Almaniya ilə dostluq müqaviləsini ləğv etdi və səfir Qrobbanı ölkədən çıxardı. Hələ buna qədər, 1940-ci ildə İtaliya ilə diplomatik əlaqələr kəsilmişdi.

Səudi Ərəbistan II Dünya müharibəsində bitərəf mövqe tutsa da, həmin illərdə təkcə müharibəyə cəlb edilmiş Avropada və Yaxın Doğuda deyil, eləcə də Uzaq Doğuda cərəyan edən siyasi, hərbi və iqtisadi xarakterli proseslər bu ölkənin sonrakı tarixi inkişafına təsirsiz ötüşmədi. Belə ki, həmin vaxta kimi ölkə Avropa dövlətlərinin, daha çox da Böyük Britaniyanın nüfuz dairəsində idisə, müharibənin əvvəllərində Güney-Doğu Asiya ölkələrinin Yaponiya tərəfindən işğalından sonra ABŞ həmin ölkələrdən idxal etdiyi neftdən məhrum oldu və çıxış yolunu Səudi Ərəbistan neftinə üz tutmaqda gördü. O biri tərəfdən isə, Avropa dövlətlərinin daha çox müharibə ilə məşğul olması səbəbindən bölgənin siyasi durumunda müəyyən boşluq yaranmışdı. ABŞ bu şəraitdən istifadə edərək Avropanın həmin sahədəki rolunu da ələ keçirməyə qərar verdi və 1943-cü ildə Səudi Ərəbistanı özünün müdafiəsi üçün həyati əhəmiyyət daşıyan ölkə elan etdi. Elə həmin ildə Yaxın Doğuda ABŞ silahlı qüvvələrinin Baş komandanı burada hərbi bazaların yaradılmasına və aerodromların inşasına razılıq aldı. Lend-liz[1] qanununa uyğun olaraq Səudi Ərəbistana köməklər göstərilməyə başlanıldı. Bu xətlə Səudi Ərəbistana 99 min dollar verildi. Həmin ilin mayında ABŞ-Səudi diplomatik münasibətləri quruldu. Artıq 1944-cü ildə Dəhranda hərbi aerodromun inşasına başlandı. Səudi ordusunda hərbi təlimlərin təşkili ABŞ hərbi missiyasına həvalə edildi.

İki dövlətin daha da yaxınlaşması prosesində ən mühüm hadisə isə 1945-ci il fevralın 14-də Yalta konfransından qayıdan prezident Ruzveltin "Kuinsi" kreyserində kral İbn Səud ilə görüşü oldu. Onlar arasında müxtəlif sahələrdə əməkdaşlığa dair razılaşmar əldə edildi.

1945-ci ilin martında Səudi Ərəbistan Almaniyaya müharibə elan etdi. Bu da ona Birləşmiş Millətlər Təşkilatına üzv olmağa imkan verdi. Ümumiyyətlə isə, II Dünya müharibəsi dövründə Səudi Ərəbistanın iqtisadi, siyasi və hərbi sahələrdə məruz qaldığı təsirlər bu ölkənin müharibədən sonrakı inkişafının başlıca dayaqları oldu.

Səudi Ərəbistanın II Dünya müharibəsindən sonrakı tarixi daha çox onunla xarakterdir ki, ölkə müharibədə birbaşa iştirak etməsə də, həmin dövrdə müxtəlif səbəblər üzündən onun böyük dövlətlərlə münasibətlərinin istiqaməti dəyişdi. Səudi Ərəbistan-ABŞ yaxınlaşması zəminində ənənəvi tərəfdaş Böyük Britaniya arxa plana keçdi və ümumiyyətlə, bu yaxınlaşma ölkənin gələcək inkişaf istiqamətlərinə güclü təsir etdi. Ərəbistan yarımadasının

---

[1] Qeyd: Lend-liz qanunu ABŞ-ın borc və ya icarə formasında antihitler koalisiyası ölkələrinə silah, hərbi sursat və digər maddi ehtiyatların verməsini nəzərdə tuturdu.

sadəcə zəngin neft ölkəsi kimi tanınan dövlət regionda siyasi və hərbi cəhətdən güclü nüfuz sahibinə çevrildi.

Səudi Ərəbistan-ABŞ yaxınlaşmasının tarixinə gəlincə, o, 1945-ci il fevralın 14-də Yalta konfransından qayıdan ABŞ prezidenti Ruzveltlə kral İbn Səudun "Kuinsi" kreyserində görüşündən başlanmışdır. Belə ki, ikitərəfli danışıqlarda kral mövcud konsessiyaları bir daha təsdiq etdi və əl-Həsadakı neft mədənlərini Aralıq dənizi ilə birləşdirən neft kəmərinin çəkilişinə razılıq verdi. Əvəzində prezident də vəd etdi ki, Səudi Ərəbistanın xarici hədələrə qarşı mübarizəsini dəstəkləyəcəkdir və İranda cəmləşən ABŞ silahının bir hissəsini ona verəcəkdir. Həmin dövrdə ərəbləri rahatsız edən Fələstin məsələsi ilə əlaqədar prezident 1945-ci il aprelin 5-də krala göndərdiyi məktubunda bildirirdi ki, ABŞ ərəblərə zərər gətirən heç bir hərəkətə yol verməyəcək və öz siyasətini həm yəhudilər, həm də ərəblərlə razılaşdırmadan dəyişdirməyəcəkdir.

Nəhayət, II Dünya müharibəsi bitdi və Səudi Ərəbistanın yeni şərtlər zəminində inkişaf tarixi başladı. İstər daxili, istərsə də xarici siyasət kursunda neft amili başlıca təsir vasitəsi kimi yeni əhəmiyyət kəsb etdi. Bu məsələdə ABŞ-la iqtisadi və siyasi-hərbi tərəfdaşlığın möhkəmlənməsi neft amilindən geri qalmadı, hətta demək olar ki, onlardan hər biri digərinə dəstək oldu və qısa zaman kəsiyində Səudi Ərəbistanı dünyanın ən böyük neft ixrac edən ölkəsinə çevirdi. Belə ki, məhz ABŞ şirkətlərinin, xüsusilə də ARAMKO-nun 1945-ci ilin sonlarından başlayaraq quruda və şelfdə bir sıra böyük neft yataqlarının kəşf edib istifadəyə verməsi neft hasilatını dəfələrlə artırdı. XX əsrin 50-ci illərinin əvvəlində Havar adlı ərazidə aşkarlanmış uzunluğu 250 km, eni 35 km olan neft yatağının dünyada bərabəri yox idi. Neftin emalı və daşınması üçün infrastrukturların gücü artırılır və yeniləri inşa olunurdu. Abkayk neft mədənlərindən Lübnanın Sayda limanınadək uzanacaq 1712 km-lik neft kəmərinin çəkilməsinə qərar verildi və o, 1950-ci ildə işə düşdü. Onun gücü ildə 25 mln tona çatmalı idi.

1948-ci ildən etibarən ARAMKO ilə yanaşı "Standard Oyl Kompani of Nyu-Cersi", "Mobil Oyl" və s. şirkətlər istər quruda, istərsə də şelf sularında neft yataqlarının kəşfində böyük uğurlar qazandılar.

1949-cü ildə Səudi-Küveyt tərəfsiz zonasında neft axtarış-kəşfiyyat işləri aparmaq üçün konsessiya alan "Qetti oyl kompani"nin səyləri 1953-cü ildə ilk neftin fontan vurması ilə nəticələndi. Sonrakı illərdə Yaponiya və İtaliya şirkətləri də ölkədə neft axtarışına qoşuldular. Onların sayəsində tərəfsiz şelf

sularında zəngin yataqlar kəşf edildi və istifadəyə verildi.

Neft hasilatının çox sürətli artımı ölkəyə misli görünməmiş gəlir gətirməyə başladı. Bir qədər sonra, hökumət xarici şirkətlərin əldə etdiyi xalis gəlirin bölüşdürülməsində öz payının artırılması tələbini irəli sürdü. Şirkətlərlə danışıqlar 1950-ci il dekabrın 30-dan 1957-ci ilədək olan müddətdə Səudi Ərəbistanın neftdən əldə etdiyi gəlirlər iki dəfədən çox oldu.

Ölkənin bu gəlirləri ilk növbədə hakim sülalənin ehtiyaclarının ödənilməsinə xidmət edirdi. Həmin dövrdə Səudi Ərəbistan krallığı dövlət kimi iri bir feodal malikanəsi olaraq qalırdı. Elə indinin özündə də vəziyyət çox az dəyişmişdir. Hakim sülalə nümayəndələrinin bütün hakimiyyət strukturlarında geniş təmsil olunması, hökumətdə, ordu komandanlığında və digər güc strukturlarının rəhbərliyində başlıca vəzifələrin onlara məxsusluğu, yerdə qalan vəzifələrin, bütünlüklə isə yerli idarəçiliyin qəbilə-tayfa aristokratiyası nümayəndələri arasında bölüşdürülməsi fikrimizin ən üzdə olan sübutlarıdır. Ancaq onu da qeyd edək ki, ölkə iqtisadiyyatının inkişafı yeni ixtisaslı kadrların yetişdirilməsini zərurətə çevirirdi. Bu zəmində təhsil sistemi genişlənir, istər nəsli aristokratiyanın, istərsə də adi ailələrin təmsilçiləri olan ixtisaslı insanlar iqtisadi, eləcə də dövlət həyatının idarə edilməsinə qatılırdı. Yeni orta sinif kimi meydana çıxan bu qüvvələr həyatın bütün sahələrində daha çox sayda iştirak etməkdə maraqlı idilər. Hakim sülalənin bir sıra nümayəndələrinin ABŞ və Avropada olması, orada təhsil alması, Batı idarəçilik ənənələri ilə tanış olması həmin marağın gerçəkləşməsi üçün müəyyən şərait yaradırdı. Bu baxımdan 1953-cü ilin oktyabrında kral İbn Səudun Nazirlər Kabinetinin yenidən qurulması haqqında dekretini xatırlamaq istərdik. Dekretə görə Kabinetin funksiyası həm formal, həm də real olaraq bütün ölkə ərazisini əhatə etməli idi. Onun tətbiqinə 1953-cü il noyabrın 9-da İbn Səudun ölümündən sonra kral elan olunmuş Səud (1953-1964) dövründən başlanıldı. Təbiidir ki, bu, kral ailəsinin hakimiyyətinə heç bir xələl gətirmədi. Baş nazir vəzifəsini özündə saxlayan kral Səud vəliəhd Feysələ baş nazirin müavini və xarici işlər naziri vəzifələrini verdi.

Kral Səud 1954-cü ilin martında tacqoyma mərasimində söylədiyi nitqində ənənələrə sadiq qalacağını söyləməklə yanaşı, yeni qayda-qanunların yaradılması və dövlət strukturlarının təkmilləşdirilməsinin də zəruri olduğunu bildirdi. İlk tədbir kimi səkkiz əlavə nazirlik təsis olundu və bu vəzifələr əsasən də hakim sülalənin nümayəndələri arasında bölüşdürüldü.

Ümumiyyətlə, kral Səudun hakimiyyəti ölkə həyatında bir sıra siyasi və

sosial xarakterli təzahürlərin canlanması ilə xarakterdir. Bu da hər şeydən əvvəl neft sənayesinin misilsiz inkişafı və ABŞ amilinin güclənməsindən qaynaqlanırdı. İlk dəfə olaraq 1945-ci ildə ARAMKO-da çalışan xarici fəhlələrin tətili ilə əsası qoyulan fəhlə hərəkatı yaranmışdı. Hələ 1947-ci ildə əmək haqqında qanun qəbul olunmuşdu. Səudun hakimiyyətə gəldiyi ildə Doğu əyaləti fəhlə tətillərinə bürünmüşdü və oraya ordu yeridilmişdi.

Qonşu ərəb ölkələrində baş verən hadisələr Səudi Ərəbistana da təsirsiz ötüşmürdü. 1956-ci ildə Doğu əyaləti yenidən güclü çıxışlara şahid oldu. Iyulun 9-da Dəhrana gələn kral Səud nümayişlərlə qarşılandı. Nümayişçilər Dəhrandakı ABŞ hərbi bazasının ləğv olunmasını, əmək haqqının artırılmasını, yerli fəhlələrin də xaricilərlə bərabər tutulması və s. tələb edirdilər. Lakin bütün etiraz aksiyaları yatırıldı və XX əsrin 80-ci illərinin əvvəlinə kimi bu cür hal bir də təkrar olunmadı. Bu məsələdə Milli Qvardiya ("Ağ Ordu") və qatı din xadimlərini birləşdirən Əxlaq Qoruma Liqası kralın başlıca dayaqları idilər.

1952-ci il Misir hadisələrinin təsiri ilə gizli təşkilatlar yaradılmasına təşəbbüslər oldu. Hətta 1953-cü ildə bəzi hərbçilərin, məmurların və ARAMKO qulluqçularının da qatıldığı Milli İslahatlar Cəbhəsi adlı təşkilat üzə çıxdı. Lakin hökumət bu cür halların qarşısını çox kəskin şəkildə ala bildi və 1956-ci ildə Milli İslahatlar Cəbhəsi darmadağın edildi.

Ancaq baş verən siyasi və sosial yönümlü hadisələr ölkə həyatında dərin izlər buraxdı. İqtisadi vəziyyət xeyli ağırlaşdı.1958-ci ildə Səudi Ərəbistanın təkcə xarici banklara 120 mln dollar məbləğində borcu yaranmış, daxili xəzinə borcları neçə yüz milyonlarla riyal məbləğində idi. Bu məsələdə Süveyş kanalının bağlanması da mühüm rol oynamışdı. Bir tərəfdən neftin Avropa bazarlarına çıxarılması mümkünsüz olmuş, o biri tərəfdən isə neftin qiyməti xeyli aşağı düşmüşdü. 1957-ci ildə əlavə yardım qaynağı olan "Trumen doktrinası"ndan da imtina edilmişdi. Halbuki həmin xətlə 1952-ci ildən başlayaraq kənd təsərrüfatı, nəqliyyat və təbii ehtiyyatlar sahələrində bir sıra infrastrukturlar yaradılmışdı. ABŞ-la hərbi əməkdaşlıq isə saxlanılır və ona önəm verilirdi. Dəhrandakı hərbi-hava bazasının icarə müddəti hər dəfə uzadılır, ora Səudi Ərəbistan hərbi-hava qüvvələrinin təlim-hazırlıq mərkəzinə çevrildi.

Ölkədə ənənəvi mövqe sahibi olmuş Böyük Britaniya ilə münasibətlərə gəlincə, bu sahədə getdikcə daha yeni münaqişələr baş verdi. Əslində bunun əsası XX əsrin 40-cı illərində Ərəbistan yarımadasında neft axtarışlarının

genişlənməsi dövründə qoyulmuşdu. Həmin dövrdə yarımadadakı əmirliklərin müstəqil dövlət kimi sərhədlərinin müəyyənləşməməsi səbəbindən bir sıra mübahisəli ərazilər var idi. Onlardan əl-Buraymi bölgəsinə həm səudilər, həm də ingilislər iddia edirdilər. 1949-cu ildə İbn Səudun həmin ərazidə ARAMKO-ya kəşfiyyat işləri aparmağa icazə verməsi münaqişəni qızışdırdı. Səudilər geri çəkildikdə 1950-ci ildə ingilis şirkəti orada işə başladı. Münaqişə daha da kəskinləşdi və ərazi iddiasından kənara çıxdı. 1951-ci ildə ingilis hərbi missiyası ölkəni tərk etdi. Məsələ arbitraj məhkəməsinə çıxarıldı. 1955-ci ilin əvvəlində başlayan məhkəmə iclasını ingilis təmsilçi tərk etdiyindən proses baş tutmadı. Oktyabrda isə ingilislərin komandanlıq etdiyi Əbu Dabi və Məsq'ət hərbi qüvvələri əl-Buraymiyə yeridildi.

Bu məsələdə ABŞ Səudi Ərəbistanı dəstəklədi, eyni zamanda hər iki tərəfi danışıqlara dəvət etdi. ABŞ-ın cəhdləri nəticəsiz qaldı və 1956-cı il noyabrın 9-da Səudi Ərəbistan Böyük Britaniya ilə diplomatik münasibətləri kəsdi. Həm də Böyük Britaniyanın Süveyş böhranında iştirakı səbəbindən ona neft verilməsinə embarqo qoydu.

Münaqişə yalnız 1961-ci ilin iyununda Küveytin istiqlaliyyət qazanmasından sonra həll oluna bildi. Belə ki, Küveyti özünə birləşdirmək istəyən İraqa qarşı ingilislərlə yanaşı səudilər də hərbi hissələr göndərdi. Bu əməkdaşlıq səbəbindən tərəflər Əl-Buraymi məsələsində də dil tapdılar. Ərazi inzibati baxımdan Səudi Ərəbistan və Küveyt arasında bölüşdürüldü və oradakı neft ehtiyatlarından bərabər qaydada istifadə haqqında razılıq əldə edildi. Bunun ardınca Səudi Ərəbistan-Böyük Britaniya diplomatik münasibətləri bərpa olundu.

Həmin dövrdə Səudi Ərəbistanın ərəb dövlətləri ilə münasibətləri də heç də həmişə normal məcrada getməmişdir. 1945-ci ildə Ərəb Dövlətləri Liqasının qurucularından biri kimi Səudi Ərəbistan bu təşkilatda Misirin üstün rol oynamasına razı olmadığı kimi, Haşimilər sülaləsi nümayəndələrinin nüfuzunun artacağından da rahatsız idi. Səudi-Haşimi ziddiyyətləri Mavaraəlurdun kralı Abdullahın 1948-ci ildə ər-Riyada səfərinə kimi gərgin olaraq qalırdı.

Zaman keçdikcə Səudi Ərəbistan-Misir münasibətləri də yaxınlaşmağa doğru üz tutdu. Bu məsələdə İsrailə və Böyük Britaniyaya yönəli neqativ ovqat az rol oynamamışdır. Kral İbn Səud 1952-ci il 23 iyul çevrilişindən sonra Misirə ziyarət edən ilk ərəb dövlət başçısı oldu. Hər iki dövlət Bağdad Paktına qarşı olmaq zəminində daha da yaxınlaşdı və 1955-ci ilin

oktyabrında hərbi müqavilə bağladı. 1956-cı ilin martında Qahirədə Misir, Səudi Ərəbistan və Suriya dövlət başçıları əməkdaşlıq və qardaşlıq paktına imza atdılar. Aprelin 21-də isə kral Səud, prezident Nasir və Yəmən dövlət başçısı imam Əhməd birgə müdafiə sazişi bağladılar. 1956-cı il Suveyş böhranı zamanı Səudi Ərəbistan Misiri dəstəklədi, Böyük Britaniya ilə yanaşı Fransa ilə də diplomatik münasibətlərini kəsdi və ora neft göndərilməsinə embarqo qoydu. Misirə böyük məbləğdə pul yardımı etdi.

Lakin, Səudi Ərəbistan – Misir münasibətlərinin yüksəlişi az sonra çat verdi və çox sürətlə geriləməyə başladı. Ölkədə krala və monarxiya rejiminə qarşı təşkil edilmiş bir sıra aksiyalarda Misirin əli olduğu dilə gətirildi. Həmin səbəbdən də Səudi Ərəbistan öz tərəfdaşlıq istiqamətini dəyişdi, qismən də olsa, rəğbət bəslədiyi Urdunla yaxınlaşdı.

1957-ci ilin aprelində Urdunda siyasi böhran zamanı kral Səud kral Hüseyni hərbi qüvvə və 30 mln dollarlıq pul yardımı ilə müdafiə etdi. Lakin bir il sonra Urdun ilə münasibətlərdə də soyuqluq yarandı.

Kral Səudun ərəb dövlətləri ilə bu cür ziqzaqlı münasibətləri, eləcə də hakim sülalə daxilində güclənməkdə olan ziddiyyətlər, hakimiyyət təmsilçilərinin sui-istifadə hallarına daha çox meyillənməsi və s. kimi hadisələr cəmiyyətdə gizli bir narazılıq doğurdu və onun hər an üzə çıxması zamanı sürətlə yaxınlaşırdı. 1958-ci ilin fevralında BƏR-in yaradılmasından az sonra kral Səudun prezident Nasirə sui-qəsd təşkilində ittiham olunması bu prosesə təkan verdi. Xəbər ölkədə vəziyyəti kəskin şəkildə dəyişdirdi və indiyədək yığılmış narazılıqlar bütün cəhətlərdən üzə çıxdı və cəmiyyətin, demək olar ki, bütün təbəqələri hərəkətə gəldi. Zəif şəkildə də olsa, konstitusiya qəbulundan tutmuş ABŞ hərbi bazasının ləğvinə qədər, hər cür tələblər səsləndi. Qorxuya düşmüş hakim sülalə üzvlərinin və ölkədə nüfuz sahibi olan şəxslərin bir çoxu hətta saray çevrilişi edilməsinə belə meyilli idilər. Nəhayət, 1958-ci il martın 24-də Fəhd İbn Əbdül Əzizin başçılığı ilə bir qrup şahzadə krala ultimatum verdi və tələb etdi ki, hakimiyyəti Feysələ versin, xəzinənin talan olunmasına son qoysun, bir sıra xoşa gəlməz müşavirləri işdən uzaqlaşdırsın və sülalənin bütün üzvlərini öz oğulları ilə bərabər tutsun.

Kral geri çəkildi və 1958-ci il martın 31-də baş nazirliyi Feysələ verdi. Kralın 11 may dekretinə görə isə Nazirlər Kabinetinin statusunda dəyişiklik edildi, inzibati-idarə hakimiyyəti bütünlüklə baş nazirə şamil edildi, siyasi hakimiyyət isə krala məxsus oldu. Nazirlər Kabinetinin üzvləri hər hansı

formada dövlət mülkiyyətinə yiyələnə və ticarət şirkətlərinin idarəçiliyində iştirak edə bilməzdilər.

Bununla da hakimiyyət böhranı dayandırıldı, lakin onun aradan tamamilə qaldırılması baş vermədi. Həmin dövrdən ölkədə faktik olaraq iki hakimiyyətlik yarandı, sülalədaxili mübarizə siyasi həyatın reallığı oldu. Doğrudur, ilk vaxtlar zahiri bir sakitləşmə verdi. Belə ki, hələ 1957-ci ildən Səudi Ərəbistanın üzv olduğu Beynəlxalq Valyuta Fondunun (BVF) tövsiyyəsi ilə Feysəl 1958-ci ilin iyununda maliyyə stabilliyi proqramını qəbul etdi. Ona görə xərclər gəlirlərdən çox olmamalı, valyuta sistemi qaydaya salınmalı, ərzaq idxalı azalmalı idi. Rialın devalvasiyası və kağız pulların dövriyyəyə buraxılması sayəsində ölkənin qızıl və valyuta ehtiyatları xeyli artdı. İndiyə qədər konsessiya əsasında işləyən Ciddə limanı milliləşdirildi. Ərəb dövlətləri ilə azad ticarətə məhdudiyyət qoyuldu. 1960-cı il qanununa görə xaricilər ölkədə yalnız səudilərlə birlikdə iş görə bilərdi və bu zaman kapitalın 51%-i yerli şəxsə məxsus olmalı idi.

Ümumiyyətlə, Feysəl hökumətinin kəskin qənaət siyasəti biznes fəaliyyətinin zəifləməsi, ictimai xarakterli işlərin azalması və s. zəminində işsizliyin xeyli artmasına gətirdi, müəyyən qüvvələr arasında ciddi narazılıq doğurdu.

Həmin dövrdə kral Səud isə sosial bazasını genişləndirmək məqsədi ilə qəbilə-tayfa başçıları və üləmalarla əlaqələri daha da gücləndirir, özünün ərəb milli və dini ənənələrinin sadiq qoruyucusu obrazını möhkəmləndirirdi. Ərəb dövlətləri, xüsusi ilə də Misirlə münasibətlərini yaxşılaşdırmağa çalışırdı və hətta Misirə səfər də etdi. İstər kralın, istərsə də baş nazirin bütün fəaliyyətlərinin məğzində cəmiyyət üçün kimin daha çox yararlı olduğunu göstərmək dayanırdı.

Belə bir şəraitdə üçüncü bir qüvvə də meydana çıxdı. Hakim sülalənin "Azad əmirlər" adlanan gənc üzvləri şahzadə Təlal İbn Səudun başçılığı altında konstitusiyalı monarxiyadan tutmuş demokratik islahatlar keçirilməsinə kimi müxtəlif şüarlar irəli sürür və hakimiyyətə can atırdılar. "Azad əmirlərin" Nasir ideyalarına qapılmasına baxmayaraq, kral Səud Feysələ qarşı mübarizədə onlarla əlaqəyə girdi. O, 1960-cı il dekabrın 21-də Feysəli vəzifəsindən çıxardı, baş nazir özü oldu, Təlal və bir neçə tərəfdarlarını nazir təyin etdi.

Beləliklə, hakim sülalənin bu üç şəxsi arasında mübarizə kəskinləşdi. Bir qrup şahzadə və bəzi qəbilə-tayfa başçıları kralın, digər qrup şahzadə və əksər üləmalar Feysəlin, universitet məzunları olan ziyalılar və müəyyən

sayda məmurlar Təlalın ətrafında birləşdilər.

"Azad əmirlər"in anti-Avropa ovqatlı olması, hətta Dəhrandakı ABŞ bazasının icarə vaxtının uzatmaqdan imtina etmələri və onların islahat cəhdləri istər kralı, istərsə də digər qüvvələri qorxuya saldı, 1962-ci il sentyabrın 11-də Təlal və tərəfdarları hökumətdən çıxarıldı. Səhhətinin ağırlaşması səbəbindən kral yenidən hökumətə başçılığı Feysələ tapşırdı, Təlal və tərəfdarları isə ölkəni tərk etmək zorunda qaldılar.

Yenidən Urdun ilə yaxınlaşma başladı. 1962-ci il avqustun 30-da kral Səud və kral Hüseyn Taifdə hərbi sahə də daxil olmaqla əməkdaşlığın geniş spektrini ehtiva edən pakt imzaladılar. 1962-ci il sentyabrın 28-də Yəməndə monarxiyanın devrilməsi ilə nəticələnən çevrilişin Nasir tərəfindən dəstəklənməsi onsuz da pisləşməyə üz tutan Səudi-Misir münasibətlərini daha da kəskinləşdirdi. Yəməndə hakimiyyətə yiyələnmiş hərbçilərin Ədənə və digər ərazilərə iddiaları Səudi Ərəbistan və Böyük Britaniyanı Yəmən kralı imam Məhəmməd əl-Bədri müdafiə etməkdə bir araya gətirdi.

Regionda hadisələrin gərginləşməsi Səudi Ərəbistan hökumətini ABŞ-a üz tutmaq zorunda qoydu. 1962-ci ilin oktyabrında Nyu-Yorkda BMT Baş Məclisinin sessiyasında iştirak edən Feysəl ABŞ rəhbərliyi ilə görüşdü və Vaşinqtonun dəstəyinə nail oldu. Oktyabrın 30-da yeni hökumət təşkil edən Feysəl noyabrda monarxiyanı saxlamaq şərti ilə on maddədən ibarət dəyişikliklər planını elan etdi. Şəriət zəminində konstitusiya hazırlamaq, yeni məhkəmə sistemi qurmaq, iqtisadi inkişafı təmin edəcək qanunlar qəbul etmək və s. kimi vədlər verildi. Neft və mineral ehtiyyatlar üzrə idarə strukturları, 1963-cü ildə sənaye və kənd təsərrüfatı bankları yaradıldı, quldarlıq rəsmi olaraq qadağan edildi. Rejimdən narazı olanlara qarşı hücuma keçildi və 1963-cü il yanvarın 1-də ölkədə hərbi vəziyyət elan olundu.

Hələ 1962-ci ilin payızında kralın müalicə üçün Avropaya getməsindən istifadə edən Feysəl qardaşlarını mühüm vəzifələrə gətirməklə mövqeyini xeyli möhkəmləndirdi. 1963-cü il aprelin 27-də ölkəyə qayıdan Səud 39 yaxın qohumu tərəfindən formal olaraq kral qalmaqla bütün hakimiyyəti Feysələ vermək ultimatumu ilə qarşılandı. O, ölkəni tərk etdi. 1964-cü il martın 22-də qayıdıb hakimiyyəti bütünlüklə özünə qaytarmağa cəhd göstərdikdə isə kəskin təpkiyə məruz qaldı və noyabrın 4-də taxtdan əl çəkməli oldu. Yeni kral Feysəl (1964-1975) 1965-ci ilin martında şahzadə Xalidi vəliəhd elan etdi. Beləliklə, hakimiyyət mübarizəsi başa çatdı. Feysəl kral və baş nazirin bütün funksiyalarını öz əlində cəmləşdirdi.

Bunun ardınca "Azad əmirlər"in timsalında sülalənin müxalifət qanadı da sakitləşdi. Belə ki, Təlal başda olmaqla "Azad Əmirlər"in 1962-ci ildə yaratdığı Ərəb Azadlıq Cəbhəsi, eləcə də 60-cı illərin əvvəlində Qahirədə fəaliyyətə başlamış Ərəbistan Oğulları Federasiyası (sonralar Ərəbistan Xalqı İttifaqı adlanırdı- müəl.) kimi təşkilatlar bütün səy və cəhdlərinə baxmayaraq güclü bir qüvvəyə çevrilə bilmədilər. "Azad Əmirlər"in Ərəb Azadlıq Cəbhəsi ilə birləşməsi məhz həmin səbəbdən uzun sürmədi. Prezident Nasir ilə əlaqələri pozulan "Azad Əmirlər" həmin təşkilatdan ayrıldılar, 1964-cü ildə vətənə qayıtdılar və faktik olaraq mübarizəyə son qoydular.

Ölkə daxilində hakimiyyətdən narazılığa isə, irəlidə dediyimiz kimi, əsasən imkan verilmirdi. Bu baxımdan 1962-ci ilin dekabrında dövlət çevrilişi cəhdində ittiham olunan 40 zabitin həbsə alınması, 1963-cü ilin əvvəllərində antihökumət qrupun üzə çıxarılması və s. qeyd etmək olar.

Doğrudur, zəif də olsa, yerli və xarici işçilərin nümayiş və çıxışları baş verirdi. Hökumət 1965-ci ildə hər cür fəhlə təşkilatının fəaliyyətini qadağan edən dekret versə də, yenə də tətil hərəkatlarına cəhdlər edilirdi. Ancaq o, kütləvi xarakter ala bilmədi. Hətta 1967-ci ildə Ərəb-İsrail müharibəsi dövründə İsrail və ABŞ-a qarşı etiraz nümayişlərinin genişlənməsinə də imkan verilmədi.

1968-ci ildə öz qoşunlarını Yəməndən çıxaran və bunun müqabilində Səudi Ərəbistandan maddi və digər yardımlar alan Misirin krala qarşı olan qüvvələri dəstəkləməkdən imtina etməsi daxili müxalifəti yox səviyyəsinə endirdi. Ciddi əks-səda doğuran bir hadisə də 1969-cu il iyunun 5-də bir dəstə zabitin dövlət çevrilişi etmək cəhdidir. Çevrilişdə şübhəli bilinən 100-dən çox zabit həbsə alındı və onlardan 40-ı edam edildi.

Coğrafi və insan əhatəsi baxımından ən iri miqyaslı etiraz dalğası 1979-cu ilin payızında oldu. Ölkənin bir sıra rayonlarında "Əsil İslam" bayrağı altında təməlçi-vəhhabilərin təşkil etdiyi etiraz nümayişləri baş verdi. Onlar hətta noyabrın 29-da Məkkəni tutdular. Bu qruplaşmalara Məhəmməd əl-Qəhtani adlı şəxs başçılıq edirdi. O, özünü "Mehdi" elan etmişdi və Səudi Ərəbistanın "əsil islama" qayıtması şüarı ilə narazı qüvvələri ətrafına toplaya bilmişdi. Məkkə hadisələri ilə eyni zamanda Doğu əyalətində şiə müsəlmanlar arasında müəyyən həyacanlar təzahür etməyə başlamışdı və bu halın yaranmasında regionda fəallaşan İran təbliğatının rolu böyük idi.

Hökumət bu etirazı da yatıra bildi. Ancaq hökumət narazı qüvvələrə güc və cəzalar tətbiq etməklə yanaşı Doğu əyalətinin sosial-iqtisadi inkişafı üçün

nəzərdə tutulan xərcləri də xeyli artırdı.

Hadisələrin kral Feysəlin xeyrinə axarı, onun fəal xarici və daxili siyasətinin həm nəticəsi idi, həm də zəmini oldu. Belə ki, Feysəl istər baş nazir kimi, istərsə də kral kimi Batı dövlətləri ilə əməkdaşlığa önəm verməklə yanaşı milli iqtisadiyyatın, özəlliklə də sənayenin inkişafına da qayğı göstərirdi. 1975-ci ildə Feysəlin öldürülməsindən sonra taxta çıxmış kral Xalid (1975-1982) də həmin kursu davam etdirdi.

İqtisadi dirçəlişə nail olmaq məqsədilə hələ 1964-cü ilin sonunda maşın idxalı gömrükdən azad edildi, 1965-ci ildə neft axtarışı və çıxarılması, neft-kimya və digər sənaye müəssisələrinin inşası üçün bir sıra xarici şirkətlərlə müqavilələr bağlandı. Həm də bu zaman gəlirin 80%-nin Səudi Ərəbistana çatacağı nəzərdə tutulurdu.

Ümumiyyətlə, XX əsrin 60-cı illərində şəhərsalma, abadlıq, elektrikləşdirmə və məişət xidməti sahələrinə böyük məbləğdə vəsait ayrıldı. Elə həmin səbəbdən idi ki, iqtisadi inkişaf daha çox infrastukturların genişlənməsi və yenidən qurulmasında nəzərə çarpırdı.

Qırmızı dənizdə Ciddədə və Yanbo körfəzində Damman, əl-Hubar və Mina-Səud kimi limanlar yenidən quruldu və ya inşa edildi. Ər-Riyad, Mədinə və Taifdə iri aerodromlar işə salındı. Səudi Ərəbistan aviaşirkətləri dünyanın onlarca ölkəsinə reyslər təşkil etməyə başladılar. 1970-ci illərin əvvəllərindən telefon şəbəkələri avtomatlaşdırıldı.

1973-cü ildən sonra neftdən gələn vəsaitlərin xeyli artması nəticəsində ölkənin sosial –iqtisadi strukturunda müəyyən dəyişikliklər yarandı. 1971-1975-ci illəri əhatə edən 1-ci beşillik planın yerinə yetirilməsi üçün ayrılan vəsait cəmisi 9 mld dollar məbləğində idisə, 2-ci beşillikdə (1976-1980-ci illər) bu rəqəm 140 mld-a, 3-cü beşillikdə (1981-1985-ci illər) isə 211 mld dollara qalxdı; 2-ci beşillikdə sənayenin inkişafına 20 mld dollar nəzərdə tutulurdusa, 3-cü beşillikdə o, 45 mld-a qalxdı. Neft emalı və neft-kimya, qaz emalı sahələrində iri müasir sənaye kompleksləri yaradıldı və onların məhsulları bir qayda olaraq xaricə göndərilirdi. Daxili bazarın ehtiyaclarını ödəmək məqsədi ilə isə metallurgiya və mineral gübrə istehsalı müəssisələri, elektrik stansiyaları, su təmizləmə qurğuları şəbəkəsi genişləndirildi.

Ölkədə iki iri sənaye rayonu təşəkkül tapmağa başladı. Bunlardan birisi mərkəzi Cubayl olmaqla körfəz zonasında, o birisi isə mərkəzi Yanbo olmaqla Qırmızı dəniz zonasında yerləşirdi.

1981-ci ildə Doğu əyalətindəki neftçıxarma mərkəzlərini Yanbo sənaye

kompleksi ilə birləşdirən və uzunluğu 1,2 min km olan neft kəməri çəkildi. ABŞ şirkətlərinin yaxından iştirakı ilə ölkədəki sənaye müəssisələrinin ən müasir avadanlıqlarla yenidən təchizi də başlıca diqqət mərkəzində idi.

Qeyd edək ki, 1980-ci ildə ARAMKO şirkəti milliləşdirildi və o, neft istehsalçısından neft alıcısına çevrildi.

Sosial-iqtisadi həyatda belə bir ənənə də gücləndi ki, səudili iş adamları və kral ailəsinin üzvləri iri sənaye obyektlərinin qurulması və idarə olunması işlərinə daha çox cəlb olunurdular.

Ümumiyyətlə, neftlə bağlı iqtisadi inkişaf 1981-ci ilədək yüksələn xətlə getdi. Lakin həmin ildə neftin qiymətinin aşağı düşməsi səbəbindən ölkədə neft hasilatı azaldı. Əgər 1980-ci ildə gündə 9 mln barrel neft çıxarılırdısa, 1985-ci ildə bu rəqəm 2,3 mln-a endi. Müvəqqəti olaraq neft satışından əldə olunan gəlir də azaldı və 101 mld dollardan 22 mld-a düşdü. Ölkənin valyuta ehtiyatlarının azalması, büdcə xərclərinin ixtisara salınması, biznes fəaliyyətinin zəifləməsi, iş yerlərinin bağlanması, işsizlərin çoxalması və s. kimi hallar iqtisadi həyatın reallıqları oldu.

İqtisadi həyatın aqrar sahəsinə gəlincə isə, o, mülkiyyət formalarının arxaikliyi və aqrotexniki səviyyənin primitivliyi ilə səciyyələnirdi. 1974-cü il siyahıya alınmasına görə torpaq sahiblərinin 95%-i patriarxal, ən yaxşı halda feodal təsərrüfatı ilə bağlı, ölkənin iqtisadi fəal əhalisinin 7,5%-i isə köçəri maldarlıqla məşğul idi. İcarədarlıq geniş yayılmışdı. Əkin üçün yararlı torpaqların isə 60%-ni öz əlində saxlayan və əksəriyyətinin şəhərlərdə yaşadığı iri və orta torpaq sahibləri də icarədar kəndli təsərrüfatından ayrıla bilmirdilər. Aqrotexniki nailiyyətlərdən istifadə və intensiv əmtəə təsərrüfatı yaradılması prosesi çox ləng gedirdi.

Kənd təsərrufatının, özəlliklə də əkinçiliyin inkişafı yolunda ən böyük maneə suvarma və irriqasiya sisteminin yox səviyyəsində olması idi. Doğrudur, hələ 1937-ci ildə dövlət İraq və İran mütəxəssislərinin köməyi ilə su mənbələrinin zəngin olduğu əl-Xərcə bölgəsində böyük və müasir təsərrüfatlar yaratmağa başlamışdı. XX əsrin 60-70-ci illərində Cizan, Mədinə, Qasim, ər-Riyad və Xufuf rayonlarında daha beş müasir təsərrüfat yaradıldı. Onlar həm əkinçiliklə, həm də cins mal-qara becərməklə məşğul olurdular. 1964-cu ildə isə kənd təsərrüfat bankının qurulması imkan verdi ki, bir sıra imkanlı kəndlilər fermer təsərrüfatları yaratmaq və müasir texniki vəsaitlər almaq üçün lazımı kreditlər əldə edə bilsin. Bu iş sonrakı illərdə də davam etdirildi. Paytaxta yaxın rayonlarda kənd təsərrüfatının inkişafına,

burada müasir dövlət və özəl təsərrüfatların yaradılmasına diqqət artırıldı. Müasir aqrotexniki qaydaların və texnikanın tətbiqi nəticəsində məhsuldarlığın yüksəlməsi istər dövlətin, istərsə də özəl bölmənin iqtisadiyyatın bu sahəsinə daha çox investisiya qoymağına inam yaratdı. 80-ci illərin birinci yarısında investisiya qoyuluşunun həcmi artdı və 18 mld dollar məbləğində oldu.

Böyük xərclərlə də olsa, əkilən torpaq sahələrinin genişlənməsinə xüsusi diqqət verilir və müəyyən uğurlu nəticələr qazanılırdı. 1975-ci ildən keçən on il ərzində əkilən torpaq sahələri xeyli böyüdü və 150 min ha-dan 1985-ci ildə 2 mln ha-ya çatdı. Konkret sahələrdə böyük göstəricilər əldə edildi. Məsələn, 1975-ci ildə ölkədə cəmisi 3 min t taxıl istehsal olunurdu. Bu rəqəm 1985-ci ildə 700 min t-a çatdı, Səudi Ərəbistan taxıla olan bütün ehtiyacını ödəməklə yanaşı, həm də xaricə taxıl satmağa başladı. Kənd təsərrüfatının sonrakı yüksəlişi isə bazar münasibətlərinin iqtisadiyyatın bu sahəsinə yol açması və getdikcə daha çox möhkəmlənməsi ilə bağlı idi.

Əkinçiliyin və oturaq maldarlığın inkişafı köçəri maldarlığa güclü təsir etdi və bu həyat və təsərrüfat tərzinin əsrlərlə dəyişməz qalan əsasları həmin illərdə sürətlə dağılmağa məruz qaldı. Dağılma prosesində ən başlıca amil isə ölkənin müxtəlif rayonlarında buruq-qazma işlərinin intensivləşməsi olmuşdur. Belə ki, ağır həyat şərtləri ilə yaşayan köçərilər-bədəvilər tapılan neft mədənlərinin işçilərinə çevrilir, orada salınan qəsəbələr ətrafında öz daimi məskənlərini qururdular. Yaxud, fontan vuran neft və su quyuları hər hansı qəbilənin mülkiyyəti olmadığından yaranmış imkanlardan müxtəlif qəbilələr bərabər istifadə edə bilərdilər və bu zəmində onların qaynayıb qarışması prosesi gedirdi. Ən başlıcası isə köçəri qəbilələrin oturaq həyata keçməsi və daimi iş yeri əldə etmək imkanı qazanması sıravi üzvlərin qəbilə aristokratiyasının asılılığından çıxması, daha çox dövlət hakimiyyətinə tabe olması ilə nəticələnirdi. Bir tərəfdən yeni salınan qəsəbə və şəhər əhalisinin ətə olan ehtiyacının artması, o biri tərəfdən su təchizatının yaxşılaşması, yük maşınları və digər daşıma texnikasından geniş istifadəyə keçilməsi səbəbindən bir sıra qəbilələr öz dəvə sürülərini, daha çox qoyun-keçi sürüləri ilə əvəz edirdi. Bu səbəbdən ölkədə xırda buynuzlu heyvanların sayı kifayət qədər artdı.

Bədəvilərin ən çox meyl etdiyi sahə isə yüksək maaşlı hərbi və polis xidməti idi. Qəbilə-tayfa aristokratiyası tədricən dövlət idarəçiliyində çox da ağır olmayan işlərdə çalışmağa başladılar. Bu məsələdə hakim sülalənin

müxtəlif qanadlarının siyasi məqsədləri də az rol oynamırdı. Beləliklə, təkcə hansı klana yox, həm də hansı qüvvəyə bağlılığın cəmiyyətdə fərdin mövqeyi üçün zəruri olması təsəvvürü hakim forma alırdı.

Dövr üçün xarakter olan inkişaf ənənəsi həyatın digər sahələrində də özünü göstərmişdir. Yeni yaranmış istehsal sahələrində çalışmaq üçün kadrlar hazırlanmasına diqqətin artırılması, səhiyyə xidmətinin müasir səviyyəyə qaldırılması və genişləndirilməsi buna misaldır. Bu baxımdan bəzi faktları sadalamaq istərdik. Məsələn, 1975-ci ildə ölkədə 4 minə yaxın məktəb var idi, 1981-ci ilədək onların sayı 2 min də artdı və 6 min oldu. Dəhran və ər-Riyadda 16 kollec fəaliyyətə başladı. Orta təhsil müəssisələrində oxuyanların sayı 1976-cı illə müqaisədə 1985-ci ilədək artdı və 2,1 mln nəfərdən çox oldu.

Ali təhsil sahəsində də xeyli irəliləyiş baş verdi. Hələ 1957-ci ildə ər-Riyadda dövlət universiteti açılmışdı. 1962-ci ildə isə texnologiya institutu işə düşdü. 1967-ci ildə Ciddə və Məkkədə özəl universitetlər, Mədinədə İslam və Ümm əl-Qura universitetləri fəaliyyət göstərdilər. Ümumiyyətlə isə, keçən əsrin 80-ci illərin əvvəlində ölkənin 81 universitetində 54 min tələbə oxuyurdu, onların 21 min nəfəri, o cümlədən 6 min qız tələbə ər-Riyad universitetinin payına düşürdü.

XX əsrin 60-ci illərindən başlayaraq ölkədə müasir səhiyyə xidməti yaradılırdı. Dövlət səhiyyə müəssisələrində xidmət pulsuz idi. Bu xidmət sahəsi əsasən şəhəri əhatə edir. 1975-ci ildə ölkədə cəmisi 10 min yerlik 86 xəstəxana var idi. 1985-ci ildə onların sayı müvafiq olaraq 37 minə yaxın və 190 idi. Qeyd edək ki, güc və nəqliyyat strukturlarının xüsusi səhiyyə xidməti sistemi vardı və buradakı xidmət öz səviyyəsinin üstünlüyü ilə fərqlənirdi. Həkimlərin sayı xeyli artmış, 1981-ci il ilə müqayisədə 1985-ci ildə iki dəfə çox, yəni 15 min nəfər olmuşdu.

Bəs haqqında danışılan dövrdə ölkənin xarici siyasəti necə olmuşdur?

Səudi Ərəbistan bütün əməkdaşlıq və müttəfiqlik telləri ilə daha çox ABŞ-la bağlı olmuşdur və onların arasındakı münasibətlər həmin dövrün birinci yarısında xüsusilə genişlənmişdi. İqtisadi baxımdan göstərmək istərdik ki, Səudi Ərəbistan ABŞ-ın ən böyük maliyyə əmanətçilərindən idi. 1978-ci ildə Beynəlxalq Valyuta Fonduna (BVF) hökumətin təqdim etdiyi hesabata görə ölkənin xarici investisiyaları 133 mld dollar məbləğində olmuşdur və onun çox böyük hissəsi ABŞ-ın payına düşürdü.1981-ci ilin sonlarında bu rəqəm 100 mld dollar məbləğində daha artdı və bu pullar başlıca olaraq "Çeyz Manhetten Bank" və "Morqan Qaranti Trast" bankları vasitəsilə ABŞ-

da dövriyyəyə girdi.

1977-ci ildə kral Xalid və prezident C.Fordun neftin qiymətini 1984-cü ilə qədər 5%-dən artıq bahalaşdırmamaq haqqında saziş imzalamaları iki tərəfli münasibətlərin möhkəmlənməsində gərəkli rol oynadı. Sazişə görə ABŞ Səudi Ərəbistanı hər hansı hərbi təcavüzdən qorumağı öz üzərinə götürdü. Məhz həmin ildə Səudi Ərəbistan ABŞ silahının bir nömrəli alıcısına çevrildi və bu baxımdan regionda rəqib saydığı İranı ötdü. 1980-ci ildə 22 mld dollarlıq silah sifariş verilmişdisə, bu rəqəm 1982-ci ildə 25 mld-a çatdı. Səudi Ərəbistan silahlı qüvvələrinin modernləşməsi və yeni hərbi obyektlərin yaradılmasında çalışan ABŞ hərbi mütəxəssislərinin sayı 20 min nəfəri ötdü. Ciddədə və əl-Cubeyldə hərbi-dəniz, yenə Ciddə, Dəhran, Xamis-Muşayt, Tabus və Taifdə hərbi hava bazaları yenidən quruldu və tikildi. 1981-ci ildə Səudi Ərəbistana 8,5 mld dollar dəyərində AVAKS tipli "uçan radar" qurğularının satılmasına icazə verilməsi isə iki dövlət arasında hərbi əməkdaşlığın zirvəsi hesab oluna bilər. Çünki həmin dövrdə ABŞ-dakı bir sıra siyasi qüvvələr ərəb ölkələrinə modern silahların satılmasına heç cür razı deyildilər.

Səudi Ərəbistanın xarici əlaqələrində ABŞ-dan sonra Böyük Britaniya gəlirdi. İqtisadi əməkdaşlıqla yanaşı Böyük Britaniya ilə də hərbi əlaqələrə önəm verilirdi. Bu baxımdan Səudi Ərəbistan hərbi-hava müdafiə sisteminin qurulmasında Böyük Britaniyanın iştirakını qeyd etmək olar. Həmin illərin sonunda Böyük Britaniyadan 7 mld dollar məbləğində silah və müxtəlif avadanlıqlar alındı. 1984-cü ildə isə 132 ədəd döyüş təyyarəsinin alınması haqqında saziş bağlandı.

Səudi Ərəbistan hərbi sahədə Fransa ilə də sıx əməkdaşlıq edirdi. Həmin illərdə Fransa Səudi Ərəbistana 7,4 mld dollar dəyərində xeyli sayda müasir döyüş təyyarələri və tanklar satdı. 1983-cü ildə isə Fransadan 4,5 mld dollar dəyərində zenit raketləri alınması haqqında saziş imzalandı.

Ümumiyyətlə, Səudi Ərəbistanın Avropa dövlətləri və Yaponiya ilə fəal və müxtəlif yönlü əməkdaşlığı bütövlükdə ABŞ səviyyəsinə çatdı. Bu ölkələr Səudi neftinin əsas alıcıları idilər və Səudi Ərəbistanın neftdən əldə etidiyi vəsaitin bir hissəsi də həmin ölkələrdə müxtəlif banklara və iş sahələrinə qoyulurdu. Həmin illərdə Səudi Ərəbistan və Fransa, İtaliya, Danimarka, Yaponiya, İsveçrə, Böyük Britaniya arasında iqtisadi və texniki əməkdaşlıq müqavilələri bağlandı.

XX əsrin 80-ci illərində Almaniya Federativ Respublikası ilə əlaqələr

xüsusi olaraq genişləndi. Səudi Ərəbistan və AFR hərbi əməkdaşlıq haqqında saziş imzaladılar. 1985-ci ildə iki dövlət arasında ticarət dövriyyəsinin həcmi 3,4 mld dollara çatdı.

Səudi Ərəbistan ərəb və digər müsəlman ölkələri ilə də əlaqələrin səviyyəsini yüksəltməyə çalışırdı. Güclü maliyyə imkanlarından regionda söz və nüfuz sahibi olmaq üçün istifadə edirdi. Onun təşəbbüsü və iştirakı ilə 1972-ci ildə Ciddə şəhərində 42 dövləti birləşdirən İslam Konfransı Təşkilatı[1] yarandı. 1974-cü ildə Ümumi İslam Bazarı və İslam Valyuta Fondu təsis olundu. Səudi Ərəbistan ehtiyacı olan bir sıra ərəb və müsəlman ölkələrinə maliyyə yardımı göstərir, bir sıra dini, mədəni və sosial xarakterli ümummüsəlman təşkilatlarının yaradılması və maliyyələşdirilməsində fəal iştirak edirdi.

Səudi Ərəbistan Fələstin xalqının mübarizəsini dəstəklədiyini dəfələrlə qeyd edirdi. XX əsrin 70-ci illərində Lübnanda problemlər yarandıqda tərəfləri barışdırmaq və məsələni həll etmək yolunda təşəbbüskar kimi çıxış etdi.

1979-cu ildə Misir İsraillə birtərəfli qaydada sülh müqaviləsi bağladığı səbəbindən Misirlə münasibətlər pisləşdi və Səudi Ərəbistan Misirə etdiyi maliyyə yardımını dayandırdı.

Qonşu Yəmənlə münasibətlər həmişə ön planda dururdu. Güney Yəmənin istiqlaliyyət qazanmasından sonra 1975-ci ildə YXDR ilə diplomatik əlaqələr quruldu və məqsəd oradakı rejimə təsir göstərmək idi. Bu baxımdan YƏR və YXDR arasında müharibə baş verdikdə Səudi Ərəbistanın YƏR-ə 400 mln dollar dəyərində silah və hərbi sursat verməsini də qeyd etmək lazımdır.

Həmin illərdə Səudi Ərəbistanın xarici siyasət kursunda yeni bir istiqamət özünü göstərdi. Bu da 1968-ci ildə Böyük Britaniyanın Körfəz ölkələrində protektoratlıq sisteminə son qoymaq və öz ordu hissələrinin çox böyük hissəsini həmin ərazidən çəkmək qərarından qaynaqlanırdı. Başqa sözlə desək, Səudi Ərəbistanın həmin əraziyə iddiasının gerçəkləşdirilməsi yolunda səy və cəhdlərini artırması günün reallığı oldu. Doğrudur, bu məsələdə İran da ciddi maraq göstərirdi. Həmin dövrdə hərbi potensialı İrandan beş dəfə az olan Səudi Ərəbistan daha ehtiyatlı davranır və hətta İranla əməkdaşlığa meyl edirdi. Lakin Böyük Britaniyanın 1971-ci ildə öz qoşunlarını Körfəz ölkələrindən çıxarması zəminində İranın həmin ölkələrin

[1] Qeyd: Bu təşkilat 2011-ci ildən İslam Əməkdaşlıq Təşkilatı adlanır.

təhlükəsizliyini öz üzərinə götürdüyünü elan etməsi, hətta bir sıra adaları tutması münasibətlərdə böyük gərginlik yaratdı.

Regionda gedən proseslər Səudi Ərəbistanın planlarına uyğun gəlmədiyi səbəbindən o, geri çəkilməyə məcbur oldu və Körfəz ölkələrinin bağımsızlığını tanıdı, onlarla diplomatik əlaqələr qurdu. 1979-cu ildə İranda islam inqilabının qələbəsindən sonra Səudi Ərəbistanın Körfəz ölkələri ilə siyasəti yeni keyfiyyət qazandı və onun da əsasında əlaqələrin hərtərəfli möhkəmlənməsi dayandı. 1981-ci ildə Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası (KƏDƏŞ) təsis olundu. Səudi Ərəbistanı, Küveyt, Qatar, Bəhreyn, BƏƏ və Omanı birləşdirən bu təşkilat hərbi, iqtisadi, ticarət, təhsil, tibb və informasiya sahələrində əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi məqsədini daşıyırdı. Getdikcə hərbi xarakterli əməkdaşlıq güclənirdi. Bu baxımdan hava hücumundan vahid müdafiə sistemi, birgə çevik hərbi dəstələr, hərbi zavodlar və komplekslər yaradılması və s. qeyd edə bilərik.

Sonrakı illərdə İranla münasibətlərin daha da pisləşməsi müqabilində Səudi Ərəbistan Türkiyə ilə əlaqələrini xeyli yaxşılaşdırdı və əməkdaşlığı genişləndirdi. 1984-cü ildə Türkiyə prezidenti K.Evrenin Səudi Ərəbistana səfəri zamanı hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalandı.

Səudi Ərəbistanın xüsusi önəm verdiyi ölkələrdən birisi də Əfqanıstan idi. 1978-ci il çevrilişi nəticəsində Əfqanıstanda solçu qüvvələrin hakimiyyəti ələ keçirməsi və bu ölkəyə rus-sovet qoşunlarının təcavüzü kəskin etirazla qarşılandı. Səudi Ərəbistan ilk gündən rus-sovet təcavüzünə qarşı çıxan qüvvələri dəstəklədi və onlara yardım göstərdi. Bu zəmində Pakistanla olan münasibətlər daha da canlandı. Tərəflər arasında hərbi əməkdaşlıq genişləndi. Onlar 1983-cü ilin martında birgə təhlükəsizlik haqqında saziş bağladılar.

Ümumiyyətlə isə, həmin illər Səudi Ərəbistan üçün onunla xarakterdir ki, bu dövlət beynəlxalq arenada əvvəlki dövrlərlə müqayisədə daha mühüm rol oynamağa başladı, maliyyə və neft imkanları sayəsində regionun lider dövləti səviyyəsinə qalxdı.

Həmin dövrdə Səudi Ərəbistanda baş verən siyasi, sosial-iqtisadi xarakterli dəyişikliklər digər ərəb ölkələrinə nisbətən daha sürətli getmişdir. Bu hal kral Feysəl zamanında özünü göstərməyə başlamışdı. Onun 1962-1975-ci illərdə tətbiq etdiyi modernləşdirmə kursu nəticəsində ARAMKO şirkəti dövlətin nəzarəti altına keçmiş və müstəqil neft siyasəti yürütməsi

mümkün olmuş, emal sənayesi müəssisələri və müasir infrastukturalar yaradılmış, sosial təminat, tibbi xidmət, yüksək səviyyəli təhsil sistemi qurulmuşdur.

1975-ci il martın 25-də kral Feysəl qohumu Feysəl ibn Musaid tərəfindən öldürüldü. ABŞ-da təhsil aldığından sonra vətənə dönmüş bu gəncin kralı nə üçün öldürdüyünün səbəbi indiyə qədər bəlli deyildir. Həmin tarixdən ölkənin kralı Xalid (1975-1982) oldu. O, həm də baş nazir idi. Ölkənin daxili və xarici siyasət kursuna rəhbərlik baş nazirin birinci müavini təyin edilmiş vəliəhd Fəhdin əlində cəmləşdi. Rəhbərliyin üçüncü sırasında Milli Qvardiyanın komandanı Abdullah durdu.

Kral Xalidin 1982-ci ilə qədər davam edən hakimiyyəti dövründə də sosial-iqtisadi inkişaf prosesi davam etdi və bunun da əsasında o dayanırdı ki, dünya bazarında neftə olan ehtiyac sabit olaraq qalırdı və neftin yüksək qiyməti dəyişmirdi. Lakin kral Fəhdin (1982-2005) hakimiyyətə gəlməsi dünya neft bazarında vəziyyətin dəyişməsi vaxtına təsadüf edir. Həmin dövrdə dünya bazarında neftə olan ehtiyac azalır, qiymətlər aşağı düşürdü. Bu da gəlirlərin əsasən neft ixracından olduğu ölkədə iqtisadiyyatın zəifləməsini qaçılmaz edirdi. Şəraitin kəskin dəyişməsi Səudi Ərəbistanın yeni rəhbərliyini modernləşdirmə kursunu necə davam etdirmək sualı qarşısında qoydu.

Bu kursun bəzi istiqamətləri haqqında irəlidə danışılmışdır və onları belə yekunlaşdırmaq olar ki, hakimiyyətin bütün cəhdləri özünü siyasi-hərbi cəhətdən möhkəmləndirməyə yönəldilmişdi. Təbiidir ki, həmin sahədə atılacaq hər bir addım böyük maliyyə xərcləri tələb edirdi. Odur ki, dövlətin yeni kursu öz tam formasını ilk olaraq iqtisadi siyasət sahəsində göstərdi. Bu baxımdan 1985-1990-cı illəri əhatə edən dördüncü beşillik planın göstəricilərinə nəzər salaq: planın yerinə yetirilməsinə nəzərdə tutulan 276,7 mld dollardan 90 mld-ı müdafiə xərclərinə, 37,5 mld-ı əmək ehtiyatlarının və 31 mld-ı isə iqtisadiyyatın inkişafına ayrıldı. Rəqəmlərdən görünür ki, müdafiə qabiliyyətini artırmaq dövlətin başlıca vəzifəsi elan olundu.

İqtisadi sahədə dövlətin tənzimləyici, nəzarət edici və bəzən də istehsalın təşkili funksiyaları saxlanılmaqla yanaşı özəl bölmənin fəallaşmasına diqqət artırıldı. Planda ölkə iqtisadiyyatının əsasən neft istehsalı və ixracı üzərində qurulmasının ciddi neqativ nəticələrini aradan qaldırmaq yolunda lazımi tədbirlər görülməsi nəzərdə tutuldu.

Həmin vaxtdan istehsalın səmərəlilik əmsalının yüksəldilməsi, maddi

ehtiyatlardan səmərəli istifadə edilməsi, emal sənayesinin inkişafı zəminində iqtisadiyyatın neftdən asılılığının azaldılması, kənd təsərrüfatı və maliyyə bölməsinin inkişaf etdirilməsi, KƏDƏŞ üzvləri ilə iqtisadi inteqrasiyaya keçilməsi, ixtisassız xarici işçilərin sayının ixtisarı və iqtisadi həyatın bütün sahələrində özəl bölmənin fəal iştirakının dəstəklənməsi iqtisadi siyasətin önəmli istiqamətləri oldu.

Yeni kurs ilk illərdə bir sıra hallarda ağrısız da ötüşmədi. Məsələn, qeyri-istehsal sahələrinə dövlət xərclərinin ixtisarı inşaat işlərinin həcminin iki dəfədən çox azalmasına gətirdi. Verilən dövlət sifarişləri əvvəlki ildə 8,3 mld dollar məbləğində idisə, 1985-ci ildə 3,9 mld dollara endi. Bir sıra səmərəsiz fəaliyyət sahələri iflasa uğradı. Bu baxımdan özəl bankların taleyini misal gətirmək olar. XX əsrin 80-ci illərin ikinci yarısında onların gəlirləri 60% azaldı. Yüzlərlə birgə şirkət fəaliyyətini dayandırdı.

Hökumət daxili maliyyə qaynaqlarına üz tutmaq zorunda qaldı. İqtisadiyyatın modernləşdirilməsindən keçən on beş ildən sonra ilk dəfə olaraq benzinin qiyməti, bir sıra vergi və gömrük rüsumları qaldırıldı, müxtəlif ödəmələr ixtisar edildi, 250 mindən artıq dövlət məmurlarına verilən güzəştlər və mükafatlar ləğv edildi. Bir sözlə, hökumət neft gəlirlərinin azalmasını "toqqaları daraltmaq" yolu ilə zərərsizləşdirməyə çalışdı.

Ümumiyyətlə isə, kral Fəhdin hakimiyyətinin ilk on ili ərzində diqqət ona yönəldildi ki: birincisi, dövlət bölməsində iri sənaye istehsalı saxlanılsın və onun səviyyəsi qorunsun; ikincisi, daxili bazar üçün hər cür məhsullar istehsalında və ixrac üçün müasir sənaye məhsulları istehsalında özəl kapitalın fəaliyyətinin genişləndirilməsinə önəm verilsin; üçüncü, yüksək səviyyəli avtomatlaşdırılmış kapital və enerji tutumlu, həmçinin az preslənmiş su tələb edən istehsal sahələrində özəl investisiya qoyuluşu dəstəklənsin. Bir sıra məhsulların rəqabətə davamlılığını saxlamaq üçün bəzi proteksionist tədbirlər də görüldü. Bütün bunların nəticəsində nəinki yaranmış iqtisadi çətinlikləri aradan qaldırmaq mümkün oldu, həm də sonrakı on illikdə ciddi inkişaf əldə edildi.

Təbiidir ki, Səudi Ərəbistan iqtisadiyyatının əsasında dünya şərtlərinin dəyişməsindən asılı olmayaraq, neft dayanır. Bu da təsadüfi deyildir. XXI əsrin əvvəlinə olan məlumata görə dünya neft ehtiyatlarının 25%-dən çoxu onun payına düşürdü. Neft axtarışı və hasilatı ilə, digər şirkətlər olsa da, əsasən ARAMKO məşğul olurdu. Şirkətin bütün mülkiyyəti 1980-ci ildən Səudi Ərəbistan dövlətinə məxsusdur, 1984-cü ildən isə ARAMKO-ya Səudi

Ərəbistan vətəndaşı prezidentlik edir. Neft hasilatı ilk vaxtdan çox sürətlə artırdı. Bu hal uzun müddət dəyişməz qalmışdı və XX əsrin 80-ci illərinin əvvəlində gündə bir milyon tondan çox neft çıxarılırdı. Həmin dövrdə dünya bazarında neftə olan ehtiyacın azalması səbəbindən hasilatın səviyyəsi ildən-ilə endi və neft gəlirləri də sürətlə azaldı. 1981-ci ildə 102 mld dollar məbləğində olan gəlir, 1989-cu ildə 24 mld dollara düşdü. Vəziyyət yalnız 1990-cı ildə İraqın Küveytə təcavüzündən sonra düzəlməyə başladı. Neftə olan ehtiyac artdı.1992-ci ildə Səudi Ərəbistan gündəlik neft hasilatını 80-ci illərin əvvəli səviyyəsinə qaldırdı və gündəlik hasilat 1,15 mln t oldu və bunun da 97%-i ARAMKO-nun payına düşürdü. Həmin ildən neft gəlirləri artdı və 43,5 mld dollar səviyyəsinə qalxdı. Qeyd edək ki, 1998-ci ildə OPEK də Səudi Ərəbistanın gündəlik hasilat kvotasının 1,17 mln t həcmində müəyyənləşdirmişdi. Həmin səbəbdən də ölkənin neft gəlirlərinin məbləği sonrakı illərdə və XXI əsrin əvvəllərində əsasən dəyişməz olaraq qalmışdı. 2000-ci ildə ölkənin 60 mld dollar civarında olan gəlirinin 45 mld dollara qədəri neft-qaz bölməsinin payına düşdü.

3-cü beşillik (1985-1990-cı illər) planla əsası qoyulan yeni iqtisadi kursa uyğun olaraq istər ilk illərdə, istərsə də sonrakı 4-cü (1990-1995), 5-ci (1995-2000-ci illər) beşilliklər dövründə, eləcə də XXI əsrin ilk illərində qeyri-neft sahələrinin inkişafına xüsusi önəm verilmişdir. Cubeyl, Yanbo və Ciddə şəhərlərində kimya məhsulları, plastmaslar, şüşə, tikinti məhsulları, özəlliklə sement istehsalı üzrə iri sənaye kompleksləri yaradıldı. Artıq 1996-cı ildə daxili məhsul istehsalının 55%-ə yaxını həmin sənaye sahələrinin hesabına idi.

XX əsrin 90-ci illərində bir sıra qiymətli metal yataqları aşkarlandı və istifadəyə verildi. Təkcə bunu göstərmək lazımdır ki, həmin dövrdə illik qızıl hasilatı 5 t civarında olmuşdur.

Aqrar sahədə kapital qoyuluşu artırıldı. Müasir texnika və texnologiyalar tətbiqi sayəsində əkilən torpaq sahələri genişləndi. Su mənbələri aşkarlandı və suvarma qurğuları yaradıldı. Qeyd edək ki, ölkə ərazisinin yalnız 2%-i əkin üçün yararlıdır və 1976-cı ildə onun 162 min hektarından istifadə olunurdu. Görülən tədbirlər nəticəsində bu rəqəm 90-cı illərin ortalarında 1 mln hektara çatdı. Səudi Ərəbistan daha çox ərzaq məhsulları idxal edən ölkədən ixrac edənə çevrildi. Kənd təsərrüfat məhsullarının illik dəyəri 6 mld dolları ötmüşdü və onun 550 mln dollara yaxını taxıl, xurma, süd və digər məhsulların ixracından əldə edilirdi. Həmin illərdə daxili məhsul

istehsalında aqrar sahənin payı 7%-ə qədərə çatmışdı.

Su mənbələrinin aşkarlanması və onların istifadəyə verilməsi dövlətin önəm verdiyi sahə olaraq qalırdı. Bu işə 1965-ci ildə dərin artezian quyularının qazılması ilə başlanmışdır. Sonralar isə böyük su anbarları tikilmiş, əkin sahələrinin fasiləsiz su təchizatı sistemi yaradılmışdı. Həcmi 0,5 mld kub m çatan 200-dən çox su anbarı inşa olunmuşdu. Bununla yanaşı həmin illərdə dəniz suyunu saflaşdıran 33 zavod işə salındı. Onlar gündə 2,2 mld litr su təmizləyə bilər ki, bu da ölkə əhalisinin içməli su ehtiyacının 70%-i demək idi.

XX əsrin son illərində Səudi Ərəbistanın yürütdüyü yeni iqtisadi kurs özünü doğrultmuş, bir sıra sənaye və kənd təsərrüfatı məhsullarının ixracı sayəsində ölkənin valyuta ehtiyatlarını 7-8 mld dollar civarında saxlamaq mümkün olmuşdu, həyatının digər sahələrində də müəyyən pozitiv dəyişikliklər müşahidə edilmişdi. Təbiidir ki, siyasi hakimiyyəti möhkəmlətmək bunların başında gəlir. Belə bir xarakter cəhətə diqqəti cəlb etmək istərdik ki, digər ərəb monarxiyalarında hakim sülalənin nümayəndələri hakimiyyət strukturlarında əsas vəzifələri öz əllərində saxlayırlarsa, Səudi Ərəbistanda hakim sülalə hakimiyyət səlahiyyətlərinin çox böyük hissəsini mənimsəmişdir. Sayı 5 min nəfəri ötən sülalənin həddi-buluğa çatmış hər bir nümayəndəsi dövlət siyasətinin formalaşmasında iştirak haqqına sahibdir və bundan istifadə edir. Kral onlara arxalanaraq ölkəni idarə edir. Ən başlıca vəzifələrin icrası kralın qardaşlarına tapşırılır. Bu baxımdan kral Fəhd dövrü xüsusi qeyd olunmalıdır. Bununla yanaşı, hakim sülalə ölkədəki digər nüfuzlu və güclü ailələrlə əməkdaşlığı da unutmur və onların hakimiyyət strukturlarında təmsil olunmasına çalışır. Onlardan əs-Sudayriləri, İbn Ciluviləri və Al əş-Şeyxi göstərmək olar. Həmin ailələr iki yüz ildən çoxdur ki, hakim sülalə ilə əməkdaşlıq edirlər. Bu qüvvələrin, eləcə də onları dəstəkləyən digər qəbilə-tayfa başçılarının iş birliyi Səudilər hakimiyyətinin və daxili siyasi istiqrarın qarantıdır. Lakin bu o demək deyildir ki, hakim sülaləyə və yürüdülən siyasətə qarşı heç bir etiraz olmamışdır və ya yoxdur. İrəlidə bunlardan bəziləri haqqında danışılmışdır və bir daha təkrar etmək lazımdır ki, İran İslam inqilabından sonrakı illərdə hakim sülaləyə qarşı dini pərdə altında açıq etirazlar gücləndi. Bu səbəbdən idi ki, hələ 1980-ci ilin əvvəllərində vəliəhd Fəhd ölkədə Məşvərət Şurasının yaradılacağı haqqında bəyanət verdi. Lakin bu iş yalnız 1992-ci ildə baş tutdu. 80 nəfərdən ibarət olan Məşvərət Şurasının üzvləri ölkənin tanınmış biznes və elm adamları, məmurlar və din xadimləri sırasından təyin olundu. Doğrudur, Məşvərət

Şurasının hakimiyyət səlahiyyəti yox idi. Lakin onun işində cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən şəxslərin iştirakı siyasi həyata daha geniş qüvvələrin cəlb edilməsinin başlanğıcı kimi dəyərləndirilə bilər. 1993-cu ildə əyalətlərin 103 dairəyə bölünməsi də həmin baxımdan edildi. Ər-Riyad, Məkkə, Mədinə və s. kimi iri şəhərlərin mərkəz olduğu əyalətlərin valiləri bir qayda olaraq hakim sülalənin nümayəndələri olsa da, bir çox əyalət və dairələrin başçıları digər nüfuzlu qəbilə-tayfa başçıları sırasından təyin olundular. Bölgələrdə fəaliyyət göstən əyalət şuraları yerlərdəki nüfuzlu şəxslərdən formalaşdırılırdı.

XX əsrin 80-ci illərində, xüsusilə isə 90-cı illər ərzində ölkənin hərbi potensialının kəmiyyət və keyfiyyət baxımından qüvvətləndirilməsinə böyük önəm verilməsi də dövlətin başlıca siyasəti olmuşdur. Bu, İran-İraq müharibəsi və İraqın Küveytə müdaxiləsindən doğan narahatlıqdan və Səudi Ərəbistanın da belə bir təhlükə ilə üzləşə biləcəyi əndişədən irəli gəlmişdi. Doğrudur, silahlı qüvvələrin yenidən qurulmasına xeyli əvvəldən - 70-ci illərdə başlanılmışdı və bu işə böyük maliyyə vəsaitləri ayrılırdı. Proses sonralar da davam etdirilmişdir. XX əsrin 90-cı illərində isə o, yeni mərhələyə qədəm qoydu. Birincisi, ordu xeyli böyüdüldü. Belə ki, həmin illərin ortalarında orduda 70 min, yüksək təlim görmüş Milli Qvardiyada 40 min civarında döyüşçü var idisə, bu rəqəmlər on illiyin sonunda müvafiq olaraq 105,5 min və 77 min nəfərə çatdı. İkincisi, ordu yenidən ən modern silah və texnika ilə təchiz olundu. Üçüncüsü, dövlətin müdafiəsi və təhlükəsizliyi üçün böyük məbləğdə vəsaitlər ayrıldı. Bu xərclər dövlət büdcəsinin 37,5%-ini təşkil edirdi. 2000-ci ildə isə həmin göstərici 40,5% oldu.

XX əsrin 80-90-cı və XXI əsrin ilk illərində Səudi Ərəbistan öz xarici siyasət kursunda da bəzi korrektələr etdi. Bu da həmin dövrdə dünyada və regionda baş verən hadisələr səbəbindən idi. Əfqanıstana rus-sovet təcavüzü, İran-İraq savaşı, Misir prezidenti Ə.Sədatın öldürülməsi, İsrailin Lübnana qoşun yeritməsi, İraqın Küveytə təcavüzü, Libiya rəhbəri M.Qəzzafinin tənqid və təhqirlərə məruz qalması və s. kimi hadisələr ilk öncə ərəb dövlətləri ilə münasibətlərə təsir göstərdi.

1979-cu ildə Kemp-Devid sazişinin imzalanmasından sonra Misirlə diplomatik münasibətləri kəsən Səudi Ərəbistan az sonra həmin ölkəyə qarşı siyasətini dəyişdi. Doğrudur, onların barışması xeyli vaxt aldı və diplomatik münasibətlər yalnız 1987-ci ildə bərpa olundusa da, ona qədər tərəflər bir-birinə qarşı açıq düşmənçiliyə son qoymuşdular.

İdeoloji zəmində İraqla gərgin münasibətlər İran-İraq savaşının ilk vaxtından yumşaldı. Səudi Ərəbistan bu məsələdə tərəfsiz mövqedə dayandığını elan etsə də, İraqa 25 mld dollar məbləğində maddi yardım göstərdi. Lakin 1990-cı ilin avqustunda İraqın Küveytlə bağlı törətdiyi təcavüz Səudi Ərəbistanı xeyli əndişələndirdi. Səudi Ərəbistan İraqın hərəkətlərini pislədi və ona qarşı hərbi əməliyyatlarda özü də iştirak etdi və çoxmillətli qüvvələrin öz ərazisində yerləşdirilməsinə icazə verdi.

Digər ərəb ölkələri, xüsusilə qonşu ərəb əmirlikləri ilə münasibətlərdə xeyli irəliləyiş oldu. ABŞ-la yaxın münasibətlərə baxmayaraq Səudi Ərəbistanı İsrailə olan münasibətində ümumərəb həmrəliyinə sədaqətli idi. Bununla yanaşı o, 1981-ci ildən belə bir bəyanatla çıxış etməyə başlamışdı ki, Fələstin ərazisində hər iki dövlətin mövçudluğu və dinc şəraitdə yaşaması hər iki xalqın təbii haqlarıdır.

2002-ci ildə vəliəhd Abdullahın Fələstin probleminin çözülməsi haqqında irəli sürdüyü planın gerçəkləşməsi, Fələstin-İsrail münasibətlərinin tənzimlənməsinin məqbul yolu ola bilərdi. İsrailin 1967-ci ildə işğal olunmuş torpaqlardan çəkilməsi və həmin ərazidə müstəqil Fələstin dövlətinin qurulması müqabilində ərəb dövlətlərinin İsraili tanıması bu planın məzmununu təşkil edirdi.

Səudi Ərəbistan 11 sentyabr 2001-ci ildə ABŞ-da törədilən terror aktını pislədi və ABŞ-ın yaratdığı beynəlxalq antiterror koalisiyasına qoşuldu, islam ekstremizminə, daxili və xarici terror təşkilatları və onların fəaliyyətinə qarşı bir sıra ciddi addımlar atmaq məcburiyyətində qaldı. Onun belə fəallığı bir sıra amillərlə bağlı idi: Birincisi, islamçı terror təşkilatlarının fəaliyyətinin getdikcə genişlənməsi müəyyən mənada Səudi Ərəbistanda daxili sabitliyi təhdid altına alırdı. Buna misal olaraq 2003-cü ilin may-noyabr aylarında, 2004-cü ilin aprelində paytaxt ər-Riyadın müxtəlif yerlərində, Məkkə, Mədinə, Hail, Yambo, Ciddə və digər şəhərlərdə törədilmiş terror hadisələrini göstərmək olar; ikincisi, 11 sentyabr terror aktının 19 iştirakçısından 15-i Səudi Ərəbistanın vətəndaşı idi. Buna görə də radikal islam ideologiyasının yayılması, müxtəlif ekstremist və terrorçu qruplaşmaların dəstəklənməsi, onlara küllü miqdarda maliyyə yardımları edilməsi və s. ittihamları birmənalı şəkildə rədd etməsinə və ümumiyyətlə, terror və terrorizmə qarşı çıxdığını bəyan etməsinə baxmayaraq, rəsmi ər-Riyad həm də onunla mübarizədə real addımlar atmalı idi. Məhz buna görə də 2001-ci ilin sentyabrından 2003-cü ilin mayına qədər Səudi Ərəbistanda terror fəaliyyətində günahkar bilinən 300

nəfər həbs olundu, 100 nəfər isə məhkəmə qarşısında dayandı. Eyni zamanda "əl-Qaidə" və digər terror təşkilatlarının bir neçə tanınmış üzvü təhlükəsizlik qüvvələri tərəfindən məhv edildi. Antiterror koalisiyası çərçivəsində Səudi Ərəbistanın digər dövlətlərlə işbirliyi və əməkdaşlığı genişləndi. Eyni zamanda təhlükəsizlik və terrora qarşı ikitərəfli və çoxtərəfli sazişlər bağlandı, ölkənin müxtəlif səpkili beynəlxalq və regional qurumlarla əlaqəsi gücləndi, İnterpol xətti ilə tədbirlərdə yaxından iştirakına önəm verildi. Səudi Ərəbistan həmçinin terrorun maliyyələşdirilməsinin qarşısının alınmasına dair Beynəlxalq konvensiyaya da qoşuldu. ABŞ-ın bəyan etdiyi və Yaxın Doğuda tədricən həyata keçirdiyi "modernləşmə" siyasəti, regionun bəzi ölkələrində olduğu kimi, Səudi Ərəbistanda da müxtəlif radikal islamçı qruplaşmaların aktivləşməsinə təkan verdi. Çoxlu sayda terror aktları baş verdi ki, onlardan ən qanlısı 12 may 2003-cü il hadisəsi idi. 2003-cü il İraq müharibəsi başlanandan sonra isə terror hadisələri daha intensiv xarakter aldı. Onları törədənlərin əsas tələbləri arasında Səudi Ərəbistan ərazisindən amerikan qoşunlarının çıxarılması mühüm yer tuturdu.

Dünyada baş verən qlobal dəyişikliklər ən mühafizəkar dövlətlərdən olan Səudi Ərəbistanda da islahatlara yol açdı. Belə ki, 2005-ci ilin fevral-aprel aylarında Səudi Ərəbistan tarixində ilk dəfə olaraq bələdiyyə seçkiləri keçirildi. Seçkilər hələ 1977-ci ildə kral Fəhdin dönəmində "Bələdiyyələr və Kəndlər haqqında" verilmiş fərman əsasında baş tutdu. Bu fərmana görə, bələdiyyələr "vəzifələrini icra edən maliyyə və inzibati cəhətdən müstəqil orqan" kimi fəaliyyət göstərməli idilər. 2005-ci ilin fevralından başlayaraq yerli özünüidarə orqanlarına seçkilər üç mərhələli keçirildi: 1-ci mərhələ - ər-Riyad və paytaxt bölgəsində; 2-ci mərhələ - Doğu əyalətində; 3-cü mərhələ - batı əyalətləri, o cümlədən Məkkə, Mədinə, Tubruk, Hail və s. keçirildi.

Bu, Səudi Ərəbistan yaranandan bəri keçirilən ilk seçkilər ölkənin siyasi sisteminin təkamülü və köklü islahatların başlanğıcı kimi mühüm hadisə oldu.

2005-ci ilin avqustunda uzun sürən xəstəlikdən sonra Səudi Ərəbistanı kralı Fəhd dünyasını dəyişdi. Yeni kral ölkəni faktiki 10 ilə yaxın müddətdə idarə edən Abdullah elan olundu. Daxili həyatda onun başlıca hədəfi krallığın siyasi sisteminin dəyişən dünyaya uyğunlaşdırılması, ölkənin təhlükəsizliyinin təmin edilməsi, məhkəmə və təhsil sahəsində islahatların həyata keçirilməsi idi. Burada ilk növbədə, krallığın mövcud sisteminin daha da dayanaqlı olması üçün vacib məsələlərdən biri kimi siyasət-din balansının qoru-

nub saxlanılmasına xüsusi önəm verildi. Geniş mənada isə kral Abdullahın yürütdüyü daxili və xarici siyasət xəttinin məğzini ənənəvi dayaqlara söykənən, şəriət və panərəbizm simbiozu çərçivəsində ölkənin iqtisadi inkişafının və sosial rifahının təmin edilməsi təşkil edirdi.

2006-cı ilin oktyabrında kral Abdullahın 135 saylı fərmanı ilə ölkənin əsas qanunlarından birinə – vəliəhdlik institutunu tənzimləyən "Hakimiyyətin Əsas qanunu"na dəyişikliklər edildi. Bu fərmana görə, vəliəhdin seçilməsi səlahiyyəti kraldan alınaraq kollektiv orqan olan "Biət (andiçmə) Komitəsinə" verildi. Qanunun qəbul edilməsi daxili siyasi həyatın sabitləşməsi və islahatların daha da genişlənməsi yönündə əhəmiyyətli addım idi.

Başlanmış islahatların davamı kimi, 2007-ci ilin dekabrında Nazirlər Kabinetinin hazırladığı "İctimai Təşkilat və Qurumlar" haqqında qanun Məşvərət Məclisi tərəfindən qəbul olundu və kralın təsdiqinə göndərildi. Bu qanun Hakimiyyətin əsas qanunu, Əyalətlərin İdarə Olunması, Məşvərət Məclisi haqqında Qanun və Andiçmə haqqında Qanunla (vəliəhdlik mexanizmini tənzimləyən qanun) birlikdə krallığın ən əhəmiyyətli qanunları olaraq Konstitusiya Aktı kimi qəbul edilmişdi.

Kralın 2009-cu il 4 fevral tarixli fərmanı əsasında bir neçə mühüm dövlət qurumunda, o cümlədən Məşvərət Məclisi, Nazirlər kabineti, məhkəmə sistemi və İctimai əxlaq Komitəsində islahatların keçirilməsi nəzərdə tutulurdu. Məşvərət Məclisinə 81 yeni üzv daxil etməklə onun tərkibi 150 nəfərə çatdırılırdı. Onların əksəriyyətini Batıda və yerli üniversitetlərdə təhsil alan orta və ziyalı təbəqəsinin nümayəndələri təşkil edirdi. İlk dəfə olarq Məşvərət Məclisində krallığın bütün əyalətləri təmsil olunmuşdu. Təbiidir ki, bu təbəqənin Məşvərət Məclisinə gətirilməsi onların krallığın daxili və xarici siyasətindəki rolunun artırılmasına yönəlmişdi. Məşvərət Məclisinin yeni spikeri Məhəmməd ibn Əbdül Vahhabın nəslindən olan ədliyyə naziri Abdullah Al əş-Şeyx təyin olundu.

Kral Abdallahın fərmanı ilə yeni səhiyyə, mədəniyyət, informasiya və təhsil nazirləri, habelə Səudi-Ərəb valyuta idarəsinin (Səudi Milli Bankının) başçısı dəyişdirildi. Yeni nazirlər Batı təhsili almışdılar və müxtəlif təbəqələri təmsil edirdilər. Ölkənin tarixində ən sensasiyalı təyinat isə, ilk dəfə olaraq Nazirlər Kabinetinin tərkibinə - "Qızların təhsili" nazirliyinə Nura bint Abdullah əl-Faiz adlı qadının nazir müavini postuna gətirilməsi oldi.

İslahatlar nəticəsində Ali Üləmalar Şurası əsaslı dəyişikliklərə məruz qaldı. Şuranın tərkibinə krallığın 20 nüfuzlu din xadimi daxil edildi. Başında

Ali müfti Əbdül-Əziz ibn Abdullah Al əş-Şeyxin durduğu Şura ölkənin ali dini orqanı kimi fəaliyyətini davam etdirdi. İlk dəfə olaraq bu quruma sünnülüyün hənbali məzhəbi ilə yanaşı digər məzhəblərin, o cümlədən hənifi, maliki və şafii məzhəblərinin təmsilçiləri də daxil edildi. Bununla da Səudi siyasi dairələri rəsmi hənbali məzhəbi ilə yanaşı, ölkədə digər fiqh hüquq məktəblərinin olmasını etraf etdilər.

Milli məhkəmə sisteminin təkmilləşdirilməsi sahəsində atılan addımlardan biri də Ali Məhkəmənin yaradılması idi. Şeyx Əbdür-Rəhman əl-Kulliyin rəhbərliyi altında fəaliyyət göstərən Ali Məhkəmənin funksiyalarına şəriət qanunlarının düzgün həyata keçirilməsinə nəzarət, kral və icra hakimiyyəti tərəfindən qəbul edilən qərarların şəriət qanunlarına uyğun olub-olmamasını müəyyənləşdirmək və aşağı instansiya məhkəmələrinin qərarlarının yenidən baxılması daxil idi. Məhkəmə sisteminin təkmilləşdirilməsi kursu həmçinin Arbitraj Məhkəməsinə (Divan əl-Məzalim) də şamil edilirdi. Bu qurum bilavasitə krala tabe idi.

Dəyişikliklərin çəkisi və əhəmiyyətindən asılı olmayaraq, onların bəyan edilməsi və tədricən həyata keçirilməsi Səudi Ərəbistanın islahat yoluna qədəm qoyması kimi dəyərləndirilə bilərdi. Lakin islahatların ilk növbədə mövcud sistemin qorunub saxlanılmasına yönəlməsini nəzərə alsaq, bunu bir növ "mühafizəkar inqilab" da adlandırmaq olardı. Bu dəyişiklikləri qaynaqlandıran amillərin əsasında həm də kral Abdullahın şəxsi keyfiyyətləri və baxışları dayanırdı.

XXI yüzilliyin əvvəllərində də Səudi Ərəbistan ərəb-müsəlman dünyasının siyasi güc mərkəzi olaraq özünün balanslaşdırılmış və çoxşaxəli xarici siyasət kursunu davam etdirməkdə idi. Ənənəvi xarici siyasətlə yanaşı, krallıq yeni istiqamətlərə də əhəmiyyət verir və həmçinin regional munaqişələrin çözülməsində vasitəçi kimi fəal iştirakçı olmuşdur. Bu sırada Ərəb-İsrail münaqişəsinin tənzimlənməsinə dair kral Abdullahın irəli sürdüyü planı[1], HAMAS və Fəth arasında vasitəçi kimi danışıqların təşkili və tərəflər arasında sazişin imzalanmasına nail olması, Lübnan və İraq problemlərinin həllində əsas tərəflərdən biri kimi fəaliyyətini və s. göstərmək olar.

Məlum olduğu kimi, 2005-ci ilin sonlarında ər-Riyad İsrailə qarşı tətbiq etdiyi iqtisadi embarqonu götürdü. Bu addım Səudi Ərəbistanın Dünya Tica-

---

[1] Kral Abdullahın planına görə, 1948-1949-cu illər müharibəsi zamanı didərgin düşmüş Fələstin qaçqınları və onların törəmələri yurd-yuvasına qayıtmalı, İsrail isə 1967-ci il 4 iyuna qədərki atəşkəs xəttinə çəkilməli idi

rət Təşkilatına (DTT) daxil olunması üçün tələblərlə bağlı olsa da, eyni zamanda krallığın bölgəsəl siyasətinin bir elementi idi. İlkin tələblər paketinin həyata keçirilməsindən və öhdəliklərin yerinə yetirilməsindən sonra Səudi Ərəbistan 2005-ci ilin 28 oktyabrında DTT-ə üzv qəbul edildi. Qeyd edək ki, üzvlük haqqında müraciət hələ 1993-cü ildə edilmişdi. Aradan keçən illər ərzində Səudi Ərəbistan üzv dövlətlərlə ikitərəfli sazişlər imzalamış, milli iqtisadiyyatın normativ bazasını təşkilatın standartlarına uyğunlaşdırmış, 2003-cü ildə isə AB və ABŞ-la müvafiq sazişlər imzaladıqdan sonra DTT-nin tamhüquqlu üzv olması üçün maneələr aradan qalxmışdı.

Səudi Ərəbistan bir sıra beynəlxalq və regional problemlərin həllində ABŞ-la birgə hərəkət və yaxından əməkdaşlıq kursuna sadiq qalmış və onu daha da genişləndirməyə başlamışdı. Antiterror koalisiyasının gedişindəki işbirliyindən sonra 2006-cı ilin oktyabrında ABŞ-ın Dövlət katibi K.Raysın Ciddəyə səfəri və krallığın rəsmi şəxsləri ilə bir sıra regional problemlər ətrafında fikir mübadiləsi aparması ABŞ-ın da Səudi Ərəbistana verdiyi əhəmiyyəti göstərirdi. Səfərin gündəliyində Fələstin-İsrail, Lübnan və İraq problemlərinin tənzimlənməsində Səudi Ərəbistanın iştirakı və yardımı, həmçinin İranın nüvə dosyesi ilə bağlı məsləhətləşmələr dururdu. Eyni məzmunlu səfərlər sırasına ABŞ-ın Dövlət katibi K.Raysın 2007-ci ilin yanvarında ər-Riyada səfəri zamanı İraqda yeni amerikan strategiyasının müzakirəsini və Səudi Ərəbistandan dəstək istənilməsini də aid etmək olar. 2008-ci ilin mayında Yaxın Dogu səfəri çərçivəsində ABŞ prezidenti C.Buş (kiçik) ər-Riyadda olmuş, kral Abdullahla danışıqlar aparmış və qarşılıqlı əhəmiyyət kəsb edən ikitərəfli əməkdaşlığın bəzi sahələrinə dair bir sıra sənədlər imzalanmışdı. Bunların içərisində hərbi-texniki əməkdaşlıq haqqında saziş və nüvə enerjisinə dair Bəyannamə mühüm əhəmiyyətə malik idi.

ABŞ prezidenti B.Obamanın 2009-cu ilin mayında Səudi Ərəbistana səfəri də ənənəvi dostluq və əməkdaşlığın möhkəmləndirilməsi yolunda atılmış mühüm addımlardan biri olmuşdur. Səfər zamanı dünya iqtisadi böhranına qarşı birgə mübarizə və regional təhlükəsizlik kimi taleyüklü məsələləri müzakirə edilmiş, birgə fəaliyyətlə bağlı məsələlər razılaşdırılmışdır.

Əvvəllərdə olduğu kimi, yeni yüzillikdə də Səudi Ərəbistanın xarici siyasətində və xarici iqtisadi əlaqələrində Avropa Birliyi ölkələri ilə əməkdaşlıq mühüm yer tuturdu. Belə ki, krallığın rəsmi dairələri Səudi-Avropa yaxınlaşmasının əhəmiyyətini və faydasını dərk edir, onun aparıcı dövlətlərini isə həm də elmi-texniki tərəqqinin və sənaye inkişafının vacib mənbəyi kimi

görürdülər. Ənənəvi xarici siyasət kursunu davam etdirən Səudi Ərəbistan eyni zamanda onu çoxşaxəli etməyə çalışırdı. Bu, bir tərəfdən Yaxın Doğu regionunun dünya siyasətindəki rolunun güclənməsi ilə bağlı idisə, digər tərəfdən Səudi Ərəbistanın bölgəsəl nüfuzunun artması və onun əlavə imkanlar əldə edilməsi istəkləri ilə bağlı idi.

2007-ci ildə kral Abdullah aparıcı Avropa dövlətlərinə səfərlər etdi. Yayda İspaniya, Fransa və Polşaya, oktyabrın sonlarında isə Böyük Britaniya, Almaniya, İtaliya (bu səfər çərçivəsində Səudi Ərəbistanla Vatikan arasında diplomatik münasibətlər quruldu - müəl.) edilən səfərlər zamanı həm çoxtərəfli əlaqələrin genişləndirilməsi ilə bağlı saziş və müqavilələr imzalandı, həm də dövlətlərarası münasibətlərdə əngələ çevrilən bir sıra problemlər aradan qaldırıldı.

Avropa dövlətləri arasında dərin köklərə söykənən Səudi-Böyük Britaniya münasibətləri xüsusi qeyd olunmalıdır. Bu iki dövləti bir-birinə bağlayan və onların maraqlarında üst-üstə düşən çoxlu məqamlar var. Bunların içərisində Körfəzdə status-kvonun saxlanılması, onun radikal dəyişikliklərə uğramaması, subregional stabilliyin və təhlükəsizliyin qorunması və s. ən başlıcasıdır. Səudi Ərəbistan ingilis hərbi texnikasının ən iri alıcılarından biridir. Təkcə 2006-cı ildə imzalanmış hərbi müqaviləyə əsasən Səudi Ərəbistan Böyük Britaniyadan 72 ədəd "Tayfun" tipli reaktiv təyyarə aldı. Digər tərəfdən iki dövləti birləşdirən bir çox iqtisadi və investisiya maraqları vardı. Yaxın Doğuda ingilis sənaye mallarının alıcıları arasında Səudi Ərəbistan ikinci pillədə dururdu. 2006-cı ildə iki ölkə arasında ticarət dövriyyəsi 16 mlrd dollar təşkil etmişdi. Ümumi kapitalı 450 mlrd dollara bərabər 150 müştərək şirkətin fəaliyyəti dövlətlərarası münasibətlərdə mühüm əhəmiyyətə malik idi.

Kral Abdullahın 2007-ci ildə Böyük Britaniyaya rəsmi dövlət səfəri çərçivəsində o, hökumət rəsmiləri ilə görüşmüş və kraliça II Yelezaveta tərəfindən də qəbul edilmişdi. Böyük Britaniyanın Baş naziri Q.Braunla danışıqlar zamanı ikitərəfli iqtisadi münasibətlərin perspektivlərinin müzakirəsi ilə yanaşı kral Abdullah bəzi mühüm regional problemlərin həllində tərəf-müqabilinin mövqeyi ilə maraqlanmışdı. Bunların arasında ən önəmlisi Ərəb-İsrail münaqişəsinin siyasi tənzimlənməsinə dair Abdullahın sülh planı, o cümlədən paytaxtı Doğu Qüds olmaqla müstəqil Fələstin dövlətinin yaradılması məsələsi də müzakirə olundu, İraq problemi və İranın nüvə proqramı ətrafında yaranmış gərgin vəziyyətlə bağlı fikir mübadiləsi edildi.

Səudi Ərəbistan-Fransa münasibətləri də yüksələn xəttlə inkişaf edirdi.

Belə ki, 2008-ci ilin yanvarında prezident N.Sarkozinin Səudi Ərəbistana səfəri zamanı siyasi, iqtisadi və təhsil sahələrində bir sıra sazişlər imzalandı.

Səudi Ərəbistan-Almaniya siyasi və ticarət-iqtisadi əlaqələrinin inkişafında da müsbət meyllər sezilirdi. 2007-ci ildə kral Abdullahın Berlin səfəri və Almaniya rəsmiləri ilə aparılan danışıqlar buna müsbət impuls verdi. 2009-cu ilin oktyabrında Almaniyanın xarici işlər naziri H.Vestervelle ər-Riyada səfər etdi, həmkarı əmir Səud əl-Feysəl və digər rəsmi şəxslərlə görüşlərdə beynəlxalq, regional və ikitərəfli münasibətlər müzakirə olundu. Danışıqlarda əsas mövzulardan biri də iqtisadi əlaqələrin inkişaf perspektivləri ilə bağlı idi. Almaniya tərəfi Səudi Ərəbistanda həyata keçirilən və nəzərdə tutulan bir sıra irimiqyaslı layihələrin iştirakında maraqlı olduğunu bildirdi. Bunların arasında dəmiryol xətlərinin çəkilməsi və alternativ enerji mənbələrindən istifadə məsələləri mühüm yer tuturdu.

Səudi Ərəbistanın çoxşaxəli xarici siyasət kursunun istiqamətlərindən biri də Rusiya ilə ikitərfli əlaqələrin inkişafı olmuşdur. 2007-ci ilin fevralında Rusiya prezidenti V.Putinin ər-Riyada səfəri zamanı iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilmiş, 2007-ci ilin noyabrında isə V.Putinin şəxsi dəvətilə Moskvaya səfər etmiş vəliəhd Sultan ibn Əbdül-Əziz Rusiyanın rəsmi şəxsləri ilə görüşlərdə ikitərəfli əməkdaşlığın dərinləşməsi, siyasi, maliyyə, ticarət-iqtisadi, elmi-texniki və mədəni münasibətlərin inkişafı haqqında fikir mübadiləsi aparılmış və bir sıra sənədlər imzalanmışdır.

XXI yüzilliyin əvvəllərində Səudi Ərəbistanın xarici siyasətində aparıcı Asiya dövlətləri ilə sıx əməkdaşlığın inkişafı və dərinləşməsi mühüm yer tuturdu ki, bu dövlətlərin sırasında Yaponiya önəmli mövqelərə malik idi. Səudi Ərəbistan-Yaponiya əlaqələri dinamik xətlə yüksəlirdi. İnvestisiyalar üzrə Səudi Baş İdarəsinin məlumatlarına görə, sözügedən dövrdə Səudi Ərəbistan iqtisadiyyatına qoyulan yapon investisiyalarının həcmi 10 mlrd dollardan çox olmuşdur. Əmir Sultanın 2009-cu ilin martında Tokioya, Yaponiyanın Baş naziri S.Abenin 2010-cü ilin aprelində ər-Riyada rəsmi səfərləri ikitərəfli münasibətlərə yeni impuls verdi. Səfər nəticəsində qəbul edilmiş birgə bəyanatda qeyd olunurdu ki, Səudi Ərəbistan və Yaponiya arasında strateji əlaqələr mövcuddur, ikitərəfli münasibətlər isə möhkəm iqtisadi təməllərə söykənir. Səfərin gedişində bu ölkələrin iqtisadiyyatının hansı istiqamətlərinə investisiya qoyulmasını müəyyənləşdirən müştərək komissiya yaradıldı, "azad iqtisadi zonaların" yaradılması haqqında ilkin razılıq əldə olundu, ha-

va nəqliyyatı, elmi əməkdaşlıq, tələbə mübadiləsi və s. haqqında sazişlər imzalandı.

Kral Abdullah 2006-cı ilin əvvəllərində Asiya turnesi çərçivəsində Çini, Hindistanı, Malayziya və Pakistanı ziyarət etməsi Səudi Ərəbistanın beynəlxalq əlaqələrinin genişlənməsində, qloballaşan dünyaya inteqrasiyasında mühüm əhəmiyyətə malik idi.

Qeyd edək ki, ikitərəfli Səudi-Çin münasibətləri də yüksələn xətlə inkişaf edirdi. Bu sahədə Səudi-Çin müştərək komissiyasının rolu böyük olmuşdu. 2005-ci ildə Səudi Ərəbistanın Doğu əyalətində Çinin iştirakı ilə Cubeyl sənaye kompleksinin inşasına başlanıldı. İlkin dəyəri 1,76 mlrd dollar olan bu obyektdə ildə 2 mln ton müxtəlif çeşidli neft-kimya məhsulları istehsal edilməli idi. Kral Abdullahın Çinə səfəri zamanı isə 5 yeni saziş imzalandı. Bunların arasında ən önəmliləri neft, təbii qaz və metallurgiya sənayesi ilə bağlı idi. Tərəflər idxal olunan mallara ikiqat verginin ləğvi və Çin iqtisadiyyatının bəzi sahələrinə Səudi investisiyalarının qoyulması haqqında razılığa gəldilər.

Asiya dövlətləri arasında Səudi Ərəbistanın Hindistanla münasibətləri də çoxşaxəli olmuşdur. Əgər 1991-ci ildə Səudi Ərəbistanın xarici ticarət dövriyyəsində Hindistanın payı 2,3% təşkil edirdisə, artıq 2004-cu idə bu rəqəm 5,85%-ə çatmış, Səudi Ərəbistanın idxalında Hindistan 4-cü yerdə qərarlaşmışdı. Kral Abdullahın bu ölkəyə səfəri çərçivəsində ikitərəfli investisiyaların qorunması və təşviqi, ikiqat verginin ləğvi haqqında sazişlər imzalandı. Səfərin gedişində Dehli Bəyannaməsi də qəbul olundu. Bu sənəddə dövlətlər arasında ikitərəfli, regional və beynəlxalq əməkdaşlığın dərinləşməsi və koordinasiyası, ticarət və sərmayə qoyuluşu, informasiya texnologiyaları və mədəniyyət sahələrində əməkdaşlığın genişlənməsi və s. öz əksini tapmışdı. Kral Dehlidə səudi malları sərgisinin açılışında iştirak etmiş və Səudi-Hindistan muştərək Şurasının üzvləri ilə görüşmüşdü. 2010-cu ilin martında Hindistanın Baş naziri M.Sinqhin ər-Riyada səfəri çərçivəsində tərəflər arasında energetika sahəsində əməkdaşlığın genişlənməsinə dair razılaşma əldə olundu ki, bu da Hindistana satılacaq neftin həcminin artırılmasını nəzərdə tuturdu. Qeyd edək ki, hazırda Hindistanın neftə olan ehtiyaclarının 20%-ni Səudi Ərəbistan təmin edir.

Asiya səfəri çərçivəsində kral Abdullahın 2006-cı il fevralın 1-də Pakistanı ziyarət etməsi ölkənin xarici siyasətində mühüm hadisələrdən biri oldu, çünki, Pakistan Səudi Ərəbistanın islam dünyasında ən önəmli tərəfdaşlarından biri kimi, onun yaxın siyasi və ticari-iqtisadi müttəfiqi idi. Pakistan Kör-

fəz ölkələrindən 90%-a qədər neft və neft məhsulları idxal edir, bunun da 45%-i Səudi Ərəbistanın payına düşürdü. Həmin illərdə Səudi Ərəbistanla Pakistan arasında illik mal dövriyyəsi 2,1 mlrd dollar təşkil edirdi ki, bunun da yalnız 350 mln dollar Pakistanın payına düşürdü. Səudi Ərəbistan Pakistan diasporunun mərkəzlərindən biridir, 2 milyona yaxın pakistanlı krallığın iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən sənaye, xidmət və s. bölmələrində çalışırdı. Kral Abdullahın səfərinin nəticəsi kimi elmi-texniki və hərbi sahədə əməkdaşlıq, ikiqat vergilərin ləğvi haqqında sazişlər imzalandı. Səudi Ərəbistan kralı Kəşmir probleminin dinc yolla həllini dəstəklədiyini və Hindistan-Pakistan danışıqlarının davam etdirilməsi zərurətini vurğuladı.

Səudi Ərəbistanın xarici siyasətinin başlıca istiqamətlərindən biri də Yaxın Doğu regionu və burada yerləşən ərəb və qeyri-ərəb dövlətləri ilə münasibətlərin normallaşdırılması və inkişafından ibarətdir. Üzvü olduğu KƏDƏŞ və onun aparıcı dövləti statusunda çıxış edən Səudi Ərəbistan bu qurumun fəaliyyətinin daha da genişlənməsinə və regional problemlərin həllində səylərinin artırılmasında maraqlı idi. 1 yanvar 2008-ci ildə KƏDƏŞ-ə üzv dövlətlər təşkilatın vahid bazarının yaradılmasını bəyan etdilər. Bunun əsasında dövlətlər arasında kapitalın və vətəndaşların azad yerdəyişməsi, yaşayışı və işlə təmin edilməsi, habelə bərabər iqtisadi imkanlar yaradılması nəzərdə tutulurdu. Səudi Ərəbistan həmçinin KƏDƏŞ-in statusunun artırılması və onun Körfəz ərəb ölkələrinin ittifaqına çevrilməsi haqqında təkliflərlə çıxış edirdi. Son dövrlərdə İranın Körfəz regionunda yürütdüyü təhdid siyasəti KƏDƏŞ üzvlərinin fəallaşmasına səbəb olmuşdu. Belə ki, 2011-ci il mayında 10-da KƏDƏŞ-in ər-Riyadda keçirilən sammitində bu quruma Urdun və Mərakeş də qoşuldular. Urdun KƏDƏŞ-in rəsmi üzvü oldu, Mərakeş isə qurum üzvləri ilə xüsusi müttəfiqlik münasibətləri qurmaqla kifayətləndi.

Dünya iqtisadi böhranı və "Ərəb baharının" təsiri altında regionda baş verən hadisə və prosesləri nəzarətdə saxlamaq o qədər də asan deyildi. İsrailin Fələstin ərəblərinə qarşı təcavüzü davam etdirməsi beynəlxalq terrorizmin və düşmənçilyin dərinləşməsini şərtləndirir, sünnü-şiə qarşıdurması isə vəziyyəti daha da ağırlaşdırırdı. Bu baxımdan Səudi Ərəbistan-Yəmən münasibətləri xüsusilə gərgin idi. Yəmən Səudi Ərəbistan üçün əsil potensial təhlükə mənbəyinə çevrilmişdi. Bu, bir tərəfdən Yəməndəki mürəkkəb durumla, digər tərəfdən isə onun ərazisində Səudi Ərəbistana qarşı düşmən mövqedə dayanan terrorçu və radikal şiə qruplaşmalarının pozucu fəaliyyəti ilə bağlı idi.

Səudi Ərəbistanın əsas regional rəqiblərindən ən başlıcası isə İrandır.

Səudi-İran rəqabəti həm də müsəlman dünyasında liderlik uğrunda aparılan mübarizədə özünü büruzə verirdi. Tehranın hərbi gücünün artması, raket və nüvə silahına yiyələnmək cəhdləri, assimetrik hərbi əməliyyatlar aparmaq qabiliyyəti və s. Səudi Ərəbistan rəhbərliyini ciddi dilemma qarşısında qoymuşdu. Hərbi, iqtisadi və elmi-texniki sahələrdə İrandan geri qalan Səudi Ərəbistan ona qarşı mübarizəni hərbi müstəvidə deyil, digər vasitələrlə aparmağa üstünlük verir, ərəb ölkələrində onun mövqelərinin və təsirinin azaldılmasına çalışırdı.

İraqda, Bəhreyndə, Suriya və Yəməndə üstünlük əldə etmək uğrunda ər-Riyad-Tehran gizli qarşıdurması iki ölkə arasında əsas aparıcı xətlərdən idi. İranın da, öz növbəsində, Səudi Ərəbistanın daxili siyasi vəziyyətini gərginləşdirməsi üçün imkanları mövcud idi. Əsas neft bölgəsi və əksər əhalisi şiələrdən ibarət olan Krallığın Doğu əyalətində İranın təsirinin artması Səudi Ərəbistan rəhbərlərini ciddi narahat edirdi. Səudi Ərəbistan da öz hərbi qüdrətinin artırılması, milli maraqların təmin edilməsi və hərbi paritetin qorunmasını Batıdan alınan çoxmilliyardlıq müasir hərbi texnika vasitəsi ilə saxlamaqda görürdü. Bu yöndə ABŞ-ın hərbi-siyasi yardımı və dəstəyi Səudi Ərəbistan üçün böyük əhəmiyyət kəsb edirdi.

Ziddiyyətlərə və siyasi rəqabətə baxmayaraq iki dövlət arasında dialoq davamlı olaraq aparılırdı. Belə ki, 2007-ci ilin martında İran prezidenti M.Əhmədinecad ər-Riyada səfəri zamanı o, kral Abdullah və digər rəsmi şəxslərlə bir sıra regional və ikitərəfli problemləri müzakirə etmişdir.

Səudi Ərəbistanın region siyasətində Suriya ilə əlaqələrin mühüm yer tutmasına baxmayaraq, onların münasibətləri mürəkkəbliyi ilə səciyyəvi olmuşdur. Tərəflər arasındakı fikir ayrılığı əsasən Lübnan, Fələstin problemi və Suriya-İran müttəfiqlik əlaqələrinin dərinləşməsindən qaynaqlanmışdır. HAMAS, "İslami Cihad", "Hizbullah" təşkilatlarının Suriya tərəfindən dəstəklənməsini Səudi Ərəbistan rəsmiləri radikallığa meylli qüvvələrin güclənməsinə və regional münasibətlər sistemi dəngələrinin pozulmasına yol açan bir xətt kimi qəbul etmiş, ilk növbədə Lübnanda Suriya hegemonluğuna son qoyulmasına çalışmışdılar. 2005-ci ildə Lübnanın Baş naziri R.Haririnin qətlindən sonra ABŞ və Fransa ilə yanaşı Səudi Ərəbistan da Lübnandan Suriya qoşunlarının çıxarılması ilə bağlı B.Əsədə edilən təzyiqlərə qoşulmuşdu.

2009-cü ilin oktyabrında kral Abdullahın Suriyaya rəsmi səfəri ikitərəfli münasibətlərin nizamlanması və ziddiyyətlərin aradan qaldırılması yolunda atılan ilk addım idi. B.Əsədlə aparılan danışıqlarda Lübnan və İraq problem-

ləri ilə bağlı bəzi müsbət nəticələr əldə olundu. Tərəflər iki ölkə arasında ticari-iqtisadi əlaqələrin genişlənməsi üçün müştərək komissiyaların yaradılmasına və öncül istiqamətlərin müəyyənləşdirilməsinə razılıq verdilər. Lakin əldə olunan nəticələr Səudi Ərəbistan və Suriya arasında problemlərin tam çözülməsi anlamına gəlmirdi.

Ərəb dünyasının lider dövlətindən olan Misir ilə Səudi Ərəbistan əlaqələrinə gəlincə, yeni yüzillikdə dünyada və regionda cərəyan edən proseslər onların mövqelərinin müəyyən mənada yaxınlaşmasına təkan vermişdi. İkitərəfli münasibətlərin əsasını ümumi maraqlar və regional dəngələrin qorunması təşkil edir. Yaranmış şəraitdə iki ölkə arasında ərəb dünyasında liderlik uğrunda mübarizə belə ikinci plana keçmişdir. Körfəz bölgəsində Misirin öz təsirinin artmasında maraqlı olmasına baxmayaraq, burada hər hansı ciddi təhlükənin yaranacağı təqdirdə Səudi Ərəbistan onun kömək və yardımına arxalana bilərdi. Misir də öz növbəsində ölkənin sosial-iqtisadi problemlərinin həlli üçün ər-Riyaddan alınan maliyyə yardımlarının daimi olmasına səy göstərirdi.

İki ölkə arasında hərbi sahədə əməkdaşlıq yüksələn xətlə inkişaf etməkdədir. Qırmızı dəniz akvatoriyasında hərbi-dəniz qüvvələrinin "Mərcan" adlı birgə təlimləri keçirilir, tərəflər hərbi sahədə əməkdaşlığı daha da genişləndirməyə səy göstərirdi. Buraya hərbi qüvvələrin birgə təlimləri, ordu və təhlükəsizlik sahəsində saudi zabitlərinin hazırlanmasında Misirin iştirakı, terrorçu və ekstremist qruplaşmalarla bağlı kəşfiyyat məlumatlarının mübadiləsi və s. daxil idi.

Sözügedən dövrdə Səudi Ərəbistan-Türkiyə münasibətləri yüksələn xətlə inkişaf edirdi. 2002-ci ildə Ədalət və İnkişaf partiyasının hakimiyyətə gəlməsindən sonra Türkiyənin Yaxın Doğu siyasətində ciddi dəyişikliklər baş verdi və Ərəb dövlətləri ilə yaxınlaşma kursu ardıcıl və davamlı xarakter aldı.

Səudi Ərəbistan ilə Türkiyə arasında son on ildə siyasi rəhbərlik səviyyəsində sıx və daimi əlaqələr qurulmuşdur ki, bunlar da həm ikitərəfli, həm də regional problemlərin həlli baxımından mühüm əhəmiyyət kəsb etmişdir. 2006-cı və 2007-ci illərdə kral Abdullah Türkiyəni ziyarət etdi. 2007-ci ildə Ankarada tərəflər arasında əməkdaşlığa dair Bəyannamə imzalandı. Bu sənəd iki dövlət arasında investisiya fəaliyyətinin təşviqini və ticarət mübadiləsinə yardım məsələlərini ehtiva edirdi.

Türkiyə prezidenti A.Gül 2009-cu ildə, Baş nazir R.T.Ərdoğan isə 2010-cu ildə ər-Riyadda səfər etdilər. A.Gülün rəsmi səfəri çərçivəsində kral Ab-

dullah, xarici işlər və maliyyə nazirləri ilə danışıqlar aparması, Məşvərət Məclisində çıxış etməsi və sahibkarlarla görüşməsi əsasən iqtisadi-ticari əlaqələrin inkişafına yönəli məqsədi güdürdü. Danışıqlar zamanı A.Gül ikitərəfli əməkdaşlığın dörd konkret istiqaməti ətrafında kral Abdullah ilə fikir mübadiləsi apardı. Bunlar: 1) Türkiyənin kənd təsərrüfatına, xüsusilə də Anadolu bölgəsinin güney hissəsinin iqtisadi inkişafına Səudi Ərəbistan investisiyalarının cəlb olunması; 2) Səudi Ərəbistan tələbələrinin Türkiyənin istənilən universitetində müxtəlif sahələr üzrə ali təhsil alması; 3) Səudi Ərəbistandan Türkiyəyə turist axınının artırılması; 4) Səhiyyə sahəsində əməkdaşlığın inkişafı, Səudi Ərəbistan vətəndaşına Turkiyənin ən yaxşı səhiyyə ocaqlarında lazımi tibbi xidmətin göstərilməsi idi.

Səudi Ərəbistan ilə Türkiyə arasında başlıca inkişaf etmiş sahə ticari-iqtisadi əlaqələrdir. İkitərəfli işgüzar şura yaradılmış və onun çərçivəsində daimi komissiyalar fəaliyyət göstərir, görüşlər keçirilirdi və s. Səudi Ərəbistanın maliyyə naziri İ.əl-Əssafın sözlərinə görə, 2010-cu ildən etibarən beş il ərzində krallıq tərəfindən Türkiyə iqtisadiyyatına 40 mlrd dollar civarında investisiya qoyulması nəzərdə tuturludu. Türkiyə isə öz növbəsində Səudi biznesinin səmərəli fəaliyyəti üçün hər cür şəraitin yaradılacağı öhdəliyini götürmüşdü. Türkiyə şirkətləri də Səudi Ərəbistanda müxtəlif sahələrdə həyata keçirilən ümumi həcmi 7 mlrd dollar civarında olan 10 biznes-layihədə iştirak edirdi.

2010-cu ilin mayında Səudi Ərəbistan Müdafiə və Aviasiya nazirinin müavini əmir Xalid ibn Sultanın Ankaraya səfəri zamanı hərbi sahədə əməkdaşlığa dair çərçivə sazişi imzalandı. Sazişdə hərbi kadrların hazırlanması, elmi və texniki sahədə əməkdaşlıq, hərbi qüvvələrin müştərək təlimlərinin keçirilməsi, Türkiyənin köməyi ilə Səudi Ərəbistanda hərbi sənayenin inkişafı və bəzi silah növlərinin modernləşdirilməsi kimi məsələlər nəzərdə tutulurdu.

Ümumilikdə isə Səudi Ərəbistanın xarici siyasət kursu regional və ərəblərarası münasibətlərdə münaqişəli vəziyyətin yaranacağı təqdirdə məsələləri daha çox masa arxasında diplomatik yolla, kəskin mövqe bildirmədən cözülməsinin, tərəflərin hamısı ilə eyni məsafə saxlamaqla manevr imkanlarından sonacan istifadə edilməsi tərəfdarı kimi xarakterizə oluna bilərdi. Yalnız krallığın milli-dövlət maraqlarına toxunulması onun bitərəf mövqedən əl çəkməsi ilə bitə bilərdi.

Yeni yüzilliyin əvvəllərində regionda cərəyan edən hadisələrə baxmayaraq, Səudi Ərəbistan öz iqtisadi çəkisini qoruyub saxlaya bildi. Səudi Ərəbi-

standa həyata keçirilən "ümumi iqtisadi inkişaf" konsepsiyası əsasında 8-illik plan qəbul olundu və onun əsas məqsədi krallığın davamlı iqtisadi inkişafının təmin edilməsindən, xarici investisiyaların cəlb olunmasından ibarət idi. Belə kurs öz növbəsində "yoxsulluqla mübarizənin milli strategiyası" çərçivəsində problemli bölgələrdə hər cür müasir infrastrukturun, lazımi tədris və peşə-texniki mərkəzləri olan və əsasən qeyri-neft bölmələrini əhatə edən "sənaye şəhərciklərinin" yaradılmasını nəzərdə tuturdu. Bu şəhərciklərin əsas işçi qüvvəsi müxtəlif sahələrdə çalışan yerli vətəndaşlar olmalı idi, başqa sözlə, istehsalı "səudiləşdirmək" prinsipi irəli sürülürdü. Həmin iqtisadi proqram nəticəsində 70 min yeni iş yeri açılmış, "sənaye şəhərciklərində" qeyri-neft bölməsində istehsal edilən məhsulun payı 67%-ə çatmışdı.

Məlum olduğu kimi, Səudi Ərəbistanda ölkə büdcəsinə ümumi ixracdan daxil olan vəsaitin 90-95% -i neftin payına düşürdü. Bu da ÜDM 40%-i demək idi. Səudi nefti əvvəlki illərdəki kimi ABŞ-a, Avropa dövlətlərinə, Yaponiyaya və Asiyanın digər ölkələrinə ixrac olunurdu. Statistika Səudi Ərəbistanın xam neftin ixracından asılılığını və dünya bazarlarında onun qiymətinin artıb-azalması faktorunun daxili iqtisadi bazara təsir etməsini göstərirdi. Bu səbəbdən də krallıq ölkə iqtisadiyyatının müxtəlif sahələrinə xarici investisiyaların cəlb edilməsində maraqlı idi. Potensial investorların ölkəyə gəlməsi üçün hüquqi baza yaradılması və təşviq edilməsi üçün göstərilən səylər artmışdı. Ölkədə Ali İqtisadi Şura yaradılmışdı. Onun da əsas vəzifəsi xarici investisiyaların cəlb olunması, ölkə vətəndaşları üçün yeni iş yerlərinin yaradılması və özəlləşdirmənin daha da sürətləndirilməsi olmuşdu. Yeni qanunvericilikdə xarici investorlar üçün vergilərin 45%-dən 30%-ə endirilməsi və investisiyaların hüquqi təminatı nəzərdə tutulmuşdu. Lakin əvvəlki kimi ölkədə bir çox sahələrin, o cümlədən neft emalı, neft kəmərləri, KİV, sığorta, telekommunikasiya, səhiyyə, topdan və parakəndə satış ticarətinin tamamilə xarici kapitalın əlində cəmləşməsi qadağan edilmişdi.

Xarici investisiyaların cəlb olunmasının yeni istiqaməti təbii qazın emalını nəzərdə tutan "Qaz təşəbbüsü" layihəsi çərçivəsində gerçəkləşdirilməli idi. Bu layihəyə orta hesabla 25 mlrd dollar investisiyanın cəlb olunması gözlənilirdi.

Səudi Ərəbistanın neft sənayesində sutkada 1,75 mln barrel nəqletmə imkanları olan 8 neft emalı zavodu fəaliyyət göstərirdi. Onların bir neçəsinin nəqletmə imkanlarının artırılması və yenidən qurulması istiqamətində işlər başlanmış, bunun həm daxili, həm də xarici investorların hesabına həyata

keçirilməsi nəzərdə tutulmuşdu.

Sözügedən dövrdə Səudi Ərəbistanda yerli sənaye istehsalı sahələri də inkişaf edirdi. Bunlardan, məsələn, beynəlxalq səviyyəyə yüksələ biləcək, kapitalının 70%-nin dövlətə məxsus olduğu "SABİK" şirkəti dünya neft-kimya məhsulunun 10%-ni istehsal edirdi.

Qeyd edək ki, Səudi Ərəbistan dünyanın ən iri investorlarından biridir. Batı mənbələrinə görə 1300 mlrd dollar məbləğində olan ərəb investisiyalarından 750 mlrd dolları Səudi Ərəbistanın payına düşürdü. Krallığın xaricdə yerləşdirilən investisiyalarının 40%-i ABŞ-ın, 30%-i Batı Avropa, 10%-i isə Asiya dövlətlərinin payına düşürdü. Bu, əsasən sənaye, ticarət, daşınmaz əmlak və s. sahələri əhatə edirdi. XXI əsrin əvvəllərindən başlayaraq neftin qiymətinin kəskin artması və uzun müddət sabit qalması Səudi Ərəbistan investisiyalarının dünya iqtisadiyyatının müxtəlif sahələrinə qoyulması prosesini daha da gücləndirdi, krallığın qlobal maliyyə bazarında xüsusi çəkisi və təsiri artdı. Səudi Ərəbistanda yaradılan yeni investisiya fondunun həcm dəyəri 1 trln dollar çivarında olması nəzərdə tutuldu. Əgər Səudi Ərəbistan Mərkəzi Bankı 2007-ci ilin avqustunda 248 mlrd dollar məbləğində olan xarici aktivlərə nəzarət edirdisə, 2011-ci ildə onun xarici aktivləri təqribən 600 mlrd dollara yüksəlmişdi.

2007-2012-ci illərdə dünya iqtisadiyyatının artım templərinin aşağı enməsi Səudi Ərəbistana ciddi təsir göstərmədi. Belə ki, 2008-ci ilin birinci yarısında qeyri-neft bölməsində artım 5,6% təşkil etmiş, layihə-inşaat işlərinin həcminin isə xeyli artması müşahidə olunmuşdur.

Yaxın Doguda cərəyan edən "Ərəb baharı" ilə bağlı hadisələr Səudi Ərəbistandan, demək olar ki, yan keçdi. Krallığın Doğu əyalətində 2011-ci ilin yaz-payız aylarında şiələrin etiraz çıxışları əsasən lokal xarakter daşımış, hökumət qüvvələri tərəfindən asanlıqla yatırılmışdı. Ər-Riyad və bəzi şəhərlərdə demokratik tələblərlə keçirilən etiraz aksiyaları isə epizodik xarakter daşıyırdı. Kütləvi etiraz çıxışlarını önləmək üçün kral Abdullah 2011-ci ildə 1309 mlrd dollar vəsaitin ayrılması ilə bağlı fərman vermişdi ki, həmin vəsait əsasən dövlət qulluqçularının maaşlarının artırılması, sosial və infrastruktur proqramlarının həyata keçirilməsi, mənzil tikintisi, işsizlik üzrə müavinətlərin artırılmasına sərf olunmalı idi. Eyni zamanda dövlətin xüsusi xidmət orqanları müxtəlif dini ekstremist və terror təşkilatlarının üzvlərinin neytrallaşdırılması istiqamətində səylərini gücləndirmişdi.

2011-ci ilin fevralında bir qrup dini xadim və ziyalı "İslam Ümməti par-

tiyasını" təsis etdilər. Onlar ölkəndə inkişafını təmin edilməsi və sabitliyin qorunması üçün iqtisadi, siyasi və sosial islahatların həyata keçirilməsi ilə bağlı krala müraciət ünvanladılar. 2011-ci il sentyabrın 25-də kral Abdullah bəyan etdi ki, qadınlara Şura üzvü olmağa və bələdiyyə seçkilərində iştirak etməyə icazə veriləcəkdir.

Səudi Ərəbistanın siyasi həyatında 2011-ci ildə baş verən hadisələrdən biri də vəliəhd Sultanın 22 oktyabrda uzun sürün xəstəlikdən sonra vəfat etməsi və əmir Naifin vəliəhd elan olunması idi.

Orta Doguda, xüsusilə də ərəb ölkələrində qeyri-sabit şəraitin hökm sürdüyü bir zamanda, İranın nüvə proqramı ətrafında yaranmış gərgin durumda Səudi Ərəbistanın daxili, xarici və hərbi təhlükəsizliyinin təmin edilməsi ölkə rəsmilərindən ciddi siyasi tədbirlərin görülməsini və xeyli maliyyə vəsaitinin ayrılmasını tələb etməkdədir. Bu, həm də ər-Riyadın bölgəsəl liderlik iddialarının təmin edilməsi və onun cərəyan edən proseslərə təsir imkanlarının saxlanması üçün vacib olmuşdur.

Deyilənləri belə yekunlaşdırmaq istərdik ki, mövcud şərtlər daxilində Səudi Ərəbistanın bölgədə rolunun saxlanılacagı və hətta artması imkanları yaranıb. Lakin ölkədaxili problemlərin həlli perspektivinə qloballaşmanın təsirini də unutmaq olmaz.

## YƏMƏN

I Dünya müharibəsinə qədərki dövrdə formal cəhətdən bütünlüklə Osmanlı dövləti tərkibində olan tarixi Yəmən ərazisi bir neçə hissəyə parçalanmışdı. Məlumdur ki, 1839-cu ildə Ədən və ona yaxın bölgələr ingilislər tərərfindən zəbt olunmuşud. 1915-ci ildə Güney Əsir əyalətinin əmiri Məhəmməd əl-İdrisi Böyük Britaniyadan aldığı pul, silah və sursat sayəsində Əsirin bütün dağlıq hissəsini və Yəmən Tihamasını ələ keçirmişdi. Dağlıq Cəbəl bölgəsinin quzey və quzey-doğusunda zeydi tayfalarının yaşadığı ərazilərdə hakimiyyət tamamilə şiə zeydi təriqətinin başçısı imam Yəhya Həmidəddinin əlində cəmləşmişdi. 1911-ci ildə o, Osmanlı dövləti ilə idarə etdiyi ərazilərə geniş muxtariyyət verən Daan müqaviləsini imzalamışdı. Dağlıq Yəməndə və Tihamanın güney hissəsində isə türk idarəçiliyi və hərbi qarnizonları yerləşirdi. Bu ərazilər Osmanlı dövlətinin tabeçiliyində qalırdı.

Osmanlı imperiyasının müharibədə məğlub olmasından və 1918-ci ilin oktyabrında Mudros barışığının imzalanmasından sonra Yəməndə türk idarəçiliyinin hüquqi varisinə çevrilən imam Yəhya (1918-1948) Yəmənin bütün əyalətlərini öz hakimiyyəti altında birləşdirməyə çalışdı. İmam Yəhya Ərəbistan yarımadasının nüfuz dairələrinə bölünməsinə dair Osmanlı imperiyası və Böyük Britaniya arasında imzalanmış bütün müqavilələri tanımaqdan imtina etdi. Böyük Britaniya və Məhəmməd əl-İdrisi tərəfindən zəbt edilmiş torpaqların qaytarılmasını tələb edən imam Yəhya həmin əraziləri tarixi Yəmənin ayrılmaz hissəsi sayırdı. İmam tərəfindən irəli sürülən iddialar ingilislərin narazılığına səbəb oldu. Onlar imama qarşı ciddi tədbirlərə əl atmağa başladılar.

1918-ci ilin sonlarında ingilislər Dağlıq Yəməni dənizdən və qurudan mühasirəyə aldılar, sonra isə Hudeyda limanını tutdular. Eyni zamanda, Böyük Britaniya kəşfiyyatı Yəmənin daxili bölgələrində qəbilələr arasında iğtişaşlar təşkil edir, qəbilə şeyxlərini Yəhyaya qarşı separat hərəkətlərə yönəldirdi. Bununla yanaşı, Yəməndə yerləşən ingilis müstəmləkə idarəçiliyi Ərəbistan yarımadasına İtaliya və Fransanın müdaxiləsindən ehtiyatlanaraq imam Yəhya ilə olan ziddiyyətləri diplomatik vasitələrlə həll etməyin yollarını da axtarırdı. Bu məqsədlə Sanaya polkovnik Cekobun başçılığı ilə diplomatik missiya göndərildi. O, Ərəbistan yarımadasının güneyində mövcud sərhədlərin tanınmasını və Böyük Britaniyaya iqtisadi imtiyazlar verilməsini imamla razılaşdırmalı idi. Lakin Cəbəl ətəyi bölgələrdə məskun-

laşan qəbilələr missiyanın öz ərazilərindən keçməsinə icazə vermədilər. Missiya Hudeydaya dönməyə məcbur oldu.

İmam Yəhya ingilislərlə mübahisəli məsələlərin həllinin mümkünsüz olduğunu görüb, özünün qəbilə-tayfa könüllülərinə Yəmən-Ədən sərhədlərinə toplaşmaq və Ədənə hücum etmək əmrini verdi. 1919-cu ilin noyabrında imamın dəstələri artıq Güney Yəmənin quzey-batı bölgələri üzərində nəzarəti ələ keçirdilər. İmam Yəhyanın hərbi zəfərləri Böyük Britaniya hökumətini yenidən danışıqlara başlamağa məcbur etdi. 1919-cu ildə imamın xüsusi nümayəndəsi Ədənə dəvət olundu. Danışıqlar zamanı ingilis heyəti Daliya və Kətəbə bölgələrinin boşaldılmasını, imam Yəhyanın nümayəndələri isə Hudeydanın imamın nəzarətinə verilməsini istədilər. Onlar Güney Yəmən əraziləri üzərində Böyük Britaniyanın protektoratlığını tanımaqdan da imtina etdilər. Beləliklə, tərəflərin güzəştsiz mövqe tutması nəticəsində uzun sürən danışıqlar iflasa uğradı.

1921-ci ildə ingilislər Hudeydanı Məhəmməd əl-İdrisiyə verdilər. 20-ci illərin birinci yarısından etibarən Tihamanın dağətəyi bölgələri imam Yəhya və əl-İdrisi qoşunları arasında saysız-hesabsız toqquşmalar meydanına çevrildi. 1924-cü ildə imamın tayfa-qəbilə döyüşçüləri bu əraziləri ələ keçirdilər. 1925-ci ilin əvvəllərində isə Hudeydaya hücuma başladılar. Həmin ilin martında şəhər azad olundu. Bunun ardınca imamın hərbi qüvvələri Tihamanın quzeyinə yeridilər, idrisiləri əs-Səlifə, əl-Luhayyə və əl-Maydi bölgələrindən qovdular. Lakin onlar İbn Səud tərəfindən tutulmuş Əsirin quzey hissələrini qaytara bilmədilər. Bununla yanaşı, Yəhya zeydi imamlarının ənənəvi dayağı sayılan Cəbəlin mərkəz bölgələrini birləşdirməyə cəhdlər göstərdi və Sana ətrafında məskunlaşan qəbilə şeyxləri tərəfindən hakimiyyətinin tanınmasına nail oldu. Yəmənin dağlıq hissəsində ona qarşı çıxan bəzi narazı qüvvələri də silah gücünə susdurdu.

Cəbəl bölgəsində möhkəmləndikdən sonra imam Yəhya Yəmənin güney istiqamətində hücumlara başladı. 1925-ci ildə əl-Baydanı tutdu, Nəcran və əl-Cauf bölgələrinə nəzarəti yenidən öz əlinə aldı. İmam qoşunlarının Yəmənin güneyinə doğru yürüşlərindən ehtiyat edən Böyük Britaniya hücumları dayandırmaq məqsədilə onlara qarşı aviasiyadan istifadə etdi. İmam Yəhyadan güneydə tutduğu torpaqlardan qoşunları geri çəkmək və Yəmənin güneyində ingilislərin hüquqlarını tanımaq tələb olundu. Böyük Britaniya imam Yəhya ilə olan problemləri İsveçrənin Lokarno şəhərində Avropa dövlətlərinin keçiriləcək konfransına qədər həll etməyə can atırdı.

Böyük Britaniya eyni zamanda, İtaliya və Fransanı Qırmızı dənizin Ərəbistan sahillərindəki ərazilərə olan iddialarından daşındırmağa çalışırdı.

Yaranmış bu əlverişli şəraitdən istifadə edən imam Yəhya 1925-ci ilin sonuna qədər Guzey Yəmən torpaqlarının öz hakimiyyəti altında birləşdirilməsinə nail oldu. Onu da qeyd edək ki, baş verən həmin hadisələrlə paralel olaraq mərkəzləşdirilmiş Yəmən dövlətinin qurulması və müvafiq hakimiyyət qurumlarının formalaşması prosesi də başlamışdı. Bu, son dərəcə mürəkkəb təzahürlərlə müşayiət olunurdu və çox uzun müddət davam etdi. Yəmən cəmiyyəti və onun üzvi hissələri olan müxtəlif sosial qruplar bir-birindən kəskin surətdə fərqlənirdilər. Onların sırasında ən böyük nüfuza malik olanları zeydi seyyidləri idilər. İmamlar da məhz onlar arasından seçilirdi.

Dövlətdə ən yüksək inzibati vəzifələrə Həmidəddin sülaləsinin nümayəndələri və ona yaxın olan zeydi seyyidləri təyin edilirdilər. Ali teokratik hakimiyyətə sahib olan imamın hakimiyyəti dövlətin möhkəmlənməsi prosesinin gedişində daha avtokratik xarakter aldı. İmam mərkəzi hakimiyyətin tabeçiliyində olan silahlı qüvvələrin yaranmasına da xüsusi əhəmiyyət verirdi.

Yeni yaradılan bu dövlətin gücü və mövcudluğu onun qəbilə şeyxləri üzərində nəzarəti saxlaya bilməsindən asılı idi. Bu, əsasən özünü zeydilərin yaşadıqları ərazilərdə göstərirdi. Çünki burada tayfa-qəbilə şeyxləri mütləq hakimiyyətə sahib idilər. İnzibati, məhkəmə, maliyyə işlərinə nəzarət və qəbilə döyüşçülərinin idarə edilməsi şeyxin əlində cəmləşirdi. Şeyx formal olaraq seçilmiş şəxs idi, əslində isə o, hakimiyyətini vərəsilik yolu ilə ailə üzvünə verə bilərdi. Şeyx seçilən şəxs imama sədaqət əhdi verəndən sonra vəzifəsinə təsdiqlənirdi.

Dövlətin yaranmasının ilk günlərindən imam Yəhya əyalətlərə mərkəzi hakimiyyəti təmsil edən məmurlar təyin edirdi. Amma zeydilər yaşyan bölgələrdə qəbilə şeyxləri müstəqilliklərini saxlaya bildilər. Yəhyanın hakimiyyətini qəbul edən şeyxlər sədaqət rəmzi olaraq oğullarını girov kimi imamın yanına göndərirdilər. Bu tədbirlərin görülməsinə baxmayaraq, ölkədə mərkəzdənqaçma meylləri səngimirdi və qəbilələr vaxtaşırı mərkəzi hakimiyyətə qarşı üsyana qalxırdılar. Məsələn, 1922-ci ildə haşid və bəkil qəbilələri, 1926-ci ildə Tihamada şafii qəbilələri, 1928-ci ildə yenə orada əzzaraniq qəbilələri imam hakimiyyətinə qarşı çıxdılar. Sonrakı illərdə bu cür üsyanlar digər bölgələrdə də baş vermişdi.

30-cu illərdə imam Yəhya məhkəmə islahatları keçirərək şəriət normalarına əsaslanan yeni məhkəmə sisteminin yaradılmasına cəhd göstərdi. Lakin bu addım iflasa uğradı. Artıq 30-cu ilin ortalarında imam ölkədə iki məhkəmə sisteminin mövcudluğunu rəsmən etiraf etməli oldu.

Qeyd edək ki, müstəqilliyini qazanan Yəmənin müxtəlif bölgələrində ictimai və iqtisadi inkişaf səviyyəsi də eyni deyildi. Patriarxal, feodal istehsal üsulu qalıqları ilə yanaşı, kapitalist inkişafına xas olan bəzi təzahürlər də özünü biruzə verirdi. Ümumiyyətlə, iki dünya müharibəsi arası dövrdə Yəmən geridə qalmış aqrar ölkə olaraq qalırdı. Ən inkişaf etmiş aqrar bölgə Cəbəl idi. Bu bölgə ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatını tam ödəyirdi. Həmin məhsulların bir qismi, məsələn, qəhvə, yun, dəri və s. hətta qonşu ölkələrə və dünya bazarına çıxarılırdı. Sənaye Sana, Hudeyda, Zabid və Taiz kimi şəhərlərdə yerləşən və əsasən əl əməyinə əsaslanan kiçik kustar sənətkarlıq müəssisələrindən ibarət idi.

XX əsrin 30-cu illərinin sonlarında ticarət sahəsində bəzi dəyişikliklər baş verdi. Quzey Yəmən torpaqlarının mərkəzləşmiş dövlət halına gəlməsi ölkənin müxtəlif bölgələri arasında ticarət əlaqələrinin qurulmasına və milli bazarın formalaşmasına təkan verdi. Sözü gedən dövrdə Yəmənin sosial-mədəni həyatında da bəzi irəliləyişlər müşahidə olunmaqda idi. İbtidai təhsil verən ərəb məktəbləri açıldı. 1925-ci ildə Sanada Böyük məsciddə kitabxana yaradıldı. 1937-ci ildə isə "əl-İman" adlı aylıq qəzet nəşr olunmağa başladı.

Onu da qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərindən başlayaraq ölkənin sosial-iqtisadi və ictimai-mədəni inkişafına müəyyən xarici dövlətlərin də dəstəklədiyi bəzi qüvvələrin törətdiyi qeyri-sabitlik müəyyən maneçilik yaradırdı. Odur ki, xarici təsirlərdən qorunmaq üçün hakim rejim orta əsr qayda-qanunlarının və həyat tərzinin saxlanmasına yönələn özünütəcrid siyasətinə əl atdı. Nəticədə ölkədə köklü sosial-iqtisadi və mədəni islahatların həyata keçirməsinə ciddi əngəl yarandı. 30-cı illərin ortalarından etibarən imam Yəhyanın yürütdüyü siyasət həyatın bütün sahələrində durğunluğa gətirib çıxartdı, Yəmənin digər ərəb ölkələrindən xeyli geridə qalmasına səbəb oldu.

İmam qoşunlarının Yəmənin güney ərazilərinə mütəmadi yürüşləri Böyük Britanıyanı yenidən Yəhya ilə sərhəd məsələlərinin tənzimlənməsinə dair danışıqlara girməyə məcbur etdi. Bu məqsədlə 1926-cı ildə Sanaya təcrübəli diplomat C.Kleytonun başçılıq etdiyi nümayəndə heyəti göndəril-

di. İngilislər Yəmənin müstəqilliyinin tanınması və onunla dostluq müqaviləsinin imzalanması müqabilində zeydi qəbilələrinin Ədən protektoratlığı ərazisindən çıxarılmasını və Hadramautun daxili işlərinə qarışmamasını, İdrisilər əmirliyinin gələcəyi məsələsinin müzakirə olunmasını təklif etdi. İmam Yəhya isə öz tərəfindən Böyük Britaniyanın işğal etdiyi Yəmənin güney ərazilərini, o cümlədən Ədənin qaytarılmasını tələb etdi. Tərəflərin mövqelərinin uzlaşmaması səbəbindən danışıqlar nəticəsiz qaldı.

Bununla yanaşı, həmin illərdə Yəməndə nüfuz uğrunda Böyük Britaniya və İtaliya arasında rəqabət daha da gücləndi. 1927-ci ildə Romada bu iki dövlət arasında danışıqlar baş tutdu. Danışıqlar nəticəsində onlar Qırmızı dəniz hövzəsində nüfuz dairələrinin bölünməsi haqqında razılığa gəldilər. Eyni zamanda Yəmənin daxili işlərinə, ilk növbədə Yəhya və İbn Səud arasında əl-Əsir uğrunda münaqişəyə qarışmamaq da qərara alındı. Belə ki, hələ 1925-ci ildə Hicaz, Nəcd və Birləşdirilmiş Ərazilər kralı titulu almış İbn Səud əmir Məhəmməd əl-İdrisi ilə mübarizə dövründə imam Yəhya qoşunları tərəfindən azad edilmiş Tihamanın quzey hissəsinə iddialar irəli sürürdü.

İtaliya ilə razılığa gələn və Ədən protektoratlığında silahlı qüvvələrinin sayını və döyüş qabiliyyətini artıran Böyük Britaniya yenidən Yəmənin güneyi üzərində onun hüquqlarının tanınmasını və mübahisəli ərazilərdən imam qoşunlarının çıxarılmasını Yəhyadan tələb etdi. Əks təqdirdə, Yəmənin sərhəd şəhərlərinin silahlı müdaxilə ilə üzləşəcəyini bildirdi. 1928-ci ilin yazında Böyük Britaniya sözdən işə keçdi: imamlığın sərhəd kəndləri, Kətəbə və Dalia şəhərləri hava hücumuna məruz qaldı, hərbi gəmilər isə sahil sularını mühasirəyə aldı. Bununla yanaşı, Böyük Britaniya casusları zeydilər və şafiilər arasında dini ədavəti qızışdırır, separatçı şeyxləri pulla ələ alırdılar. Amma bütün səylərə baxmayaraq, Böyük Britaniya gözlənilən nəticəni əldə edə bilmədi. İmam Yəhya da öz növbəsində hərbi qüvvərərini 1914-cü il Böyük Britaniya – Osmanlı dövləti konvensiyası ilə müəyyənləşən sərhəd xəttindən geri çəkməyə məcbur oldu. Bu isə imamın Yəmənin tamamilə birləşdirilməsi arzusunun puça çıxması demək idi.

Yəmənin İtaliya ilə münasibətlərində də bir gərginlik vardı. 1922-ci ildə faşistlərin hakimiyyətə gəlməsindən sonra İtaliyanın Qırmızı dəniz hövzəsində yerləşən ərazilərə təcavüzü xeyli güclənmişdi. Doğrudur, 1926-cı ilin sentyabrında İtaliya ilə Yəmən arasında 10 il müddətinə dostluq və ticarət müqaviləsi imzalandı. Bu, Yəmən üçün xarici dövlətlə imzalanmış ilk

müqavilə idi və imam güman edirdi ki, Böyük Britaniya-İtaliya rəqabəti fonunda həmin müqavilə ölkəsinə müstəqilliyini qorumaq yolunda əlavə imkanlar verə bilər. Lakin onun İtaliyanın siyasi dəstəyinə, iqtisadi və texniki əməkdaşlığına olan ümidləri doğrultmadı. Əksinə, müqavilənin imzalanmasından az sonra iki dövlət arasında mövcud ticarət əlaqələri getdikcə tənəzzülə uğramağa başladı.

Böyük Britaniya tərəfindən siyasi və iqtisadi blokadaya alınan Yəmən Fransanın dəstəyini almağa can atırdı. Amma yarımadanın güneyində Fransanın mövqelərinin zəifliyi Yəhyanı bu fikirdən daşındırdı. Həmin arada ABŞ da Yəmənə girməyə cəhd edirdi, hətta imamın razılığı ilə o, Hudeyda - Sana şosse yolunun inşasına başlamışdı. Lakin ABŞ-ın Yəməndəki mövqeləri zəif olaraq qalırdı və tezliklə o, fəaliyyətini dayandıraraq ölkəni tərk etdi.

Yaranmış belə gərgin siyasi şəraitdə Yəmənin üz tutduğu bir dövlət də Sovet İttifaqı olmuşdu. 1926-cı ildə onların rəsmi nümayəndələri Ankarada görüşdülər. 1927-ci ildə Yəmən tərəfi Ciddədəki sovet konsulluğuna müraciət edərək iki dövlət arasında diplomatik və ticarət əlaqələri qurulması haqqında təkliflərini çatdırdı. 1928-ci il noyabrın 1-də Sanada 10 il müddətinə nəzərdə tutulan Yəmən-Sovet dostluq və ticarət müqaviləsi imzalandı.

30-cu illərin əvvəllərində yarımadanın güneyindəki mövcud durum da imamın xeyrinə deyildi. Ədənlə bağlı problemlərin tənzimlənməməsi Böyük Britaniyaya "nə hərb, nə sülh" vəziyyətini qoruyub saxlamaq imkanı verirdi. Digər tərəfdən, Yəmənlə həmsərhəd bölgələrdə də gərginliklər qalmaqda idi. Böyük Britaniya imam Yəhya və İbn Səud arasındakı düşmənçiliyi qızışdırmaqda davam edirdi və bu da, öz növbəsində, Yəmənin quzey sərhədlərindəki vəziyyəti daha da ağırlaşdırırdı. İki cəbhədə - quzey və güneydə mübarizə aparmaq imkanı olmayan imam Yəhya çıxış yolunu Böyük Britaniya ilə danışıqların bərpasına razılıq verməkdə gördü. Böyük Britaniyanın irəli sürdüyü bir sıra ilkin şərtlərin Yəmən tərəfindən yerinə yetrilməsindən sonra 1934-cü ilin fevralında Sanada iki dövlət arasında dostluq və qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalandı. Müqavilədə Yəmənin sərhədlərini müəyyənləşdirən xəttin 40 il müddətinə toxunulmaz saxlanılması nəzərdə tutulurdu. Bu isə faktiki olaraq Yəmənin güneyində Böyük Britaniyanın mövcudluğunu qanuniləşdirmək demək idi.

Böyük Britaniya ilə münasibətlər dinc məcraya salındıqdan sonra imam

Yəhya yenidən Əsir məsələsinə qayıtdı. İdrisilər əmirliyinin tərkibində olan bəzi əraziləri Yəmənin tarixi torpaqları hesab edən imam Yəhya onların qaytarılmasını tələb etdi. Böyük Britaniya ilə müttəfiqliyə arxalanan İbn Səud bu tələbləri rədd etdi və öz növbəsində Yəmənin bəzi ərazilərinə, ilk növbədə Nəcran əyalətinə olan iddialarını irəli sürdü. 1932-1934-cü illərdə iki ölkə arasında həmin məsələyə dair aparılan danışıqların heç bir nəticə verməməsi genişmiqyaslı hərbi toqquşmalara gətirdi. Yəmənin Nəcranı tutmasna cavab olaraq, 1934-cü ilin aprelində İbn Səudun qoşunları əks-hücuma keçdi. Tihama, Hudeyda və Saab zəbt edildi. İki qonşu dövlət arasında gedən müharibədən Böyük Britaniya və İtaliya öz maraqları üçün istifadə etməyə şalışdılar. Hudeydanın ələ keçrilmsindən sonra buraya ingilis, italyan və fransız gəmiləri yan aldı. İtaliya hökuməti Yəmənə öz dəstəyini bəyan etdi, rəsmən bitərəf qalan Böyük Britaniya isə Yəmənə qarşı hərbi təcəvüzün dayandırılması ilə bağlı Səudilərlə danışıqlara başladı. Yaranmış gərgin və mürəkkəb şəraitdə Ali İslam Şurası nümayəndələrinin vasitəçiliyi ilə Taifdə Səudi-Yəmən sülh danışıqları bərpa olundu. Nəhayət, onlar 1934-cü il mayın 20-də "Müsəlman dostluğu və ərəb qardaşlığına dair müqavilə" imzaladılar. Müqavilədə müharibənin sona çatması və iki dövlət arasında dinc münasibətlərin qurulması bəyan edildi. İmam Yəhya əl-Əsirə və Nəcrana olan iddialarından imtina etdi, İbn Səud isə müharibə dövründə işğal olunmuş Yəmən torpaqlarını geri qaytardı. 1936-cı ilin fevralında isə bu dövlətlərin sərhədlərini müəyyən edən Taif müqaviləsinə iki bənd əlavə olundu. Onlara əsasən, Cizan əyaləti Səudi Ərəbistan tərkibində qaldı, Nəcran isə iki dövlət arasında bölündü.

II Dünya müharibəsi ərəfəsində Yəməndə siyasi vəziyyət sabitləşdi. Torpaqlarının birləşdirilməsi, milli müstəqillik və suverenlik uğrunda mübarizənin davam etməsinə baxmayaraq, hətta Güney və Quzey arasında sərhədlərdə əmin-amanlıq hökm sürürdü. Bununla yanaşı, bir sıra çətinliklər də ortaya çıxdı. Onlar, hər şeydən öncə, imam Yəhyanın özünütəcrid siyasəti ilə əlaqədar idi. Əgər əvvəllər imam dövlət başçısı kimi bütün sosial təbəqələrin, o cümlədən kəndlilər, qəbilə üzvləri, tacirlər, feodalların dəstəyinə malik idisə, 30-cu illərin ikinci yarısından etibarən özünütəcrid siyasətinə keçməsi artıq narazılığa, hətta açıq qarşıdurmalara gətirdi. İqtisadiyyatda durğunluğun aradan qaldırılması, sosial münasibətlərdə arxaik formaların ləğvi və avtokratik hakimiyyətin səlahiyyətlərinin nisbətən məhdudlaşdırılması kimi məsələlər gündəmə gəldi. Cəmiyyətdə sosial-siyasi və iqtisadi

narazılığın artmasında həm də Böyük Britaniya ilə imzalanan müqavilə və 1934-cü ildə Səudi Ərəbistan ilə aparılan uğursuz müharibə az rol oynamadı.

Yəməndə müxalif meylli ilk dərnəklər qurulmağa başladı. 1935-ci ildə Sanada "Mübarizənin təşkili" adlı məxfi qurum təsis olundu. Digər şəhərlərdə də qeyri-leqal fəaliyyət göstərən ədəbi cəmiyyətlər yarandı. Həmin illərdə Yəmən bir sıra ərəb və Avropa dövlətləri ilə diplomatik münasibətlər qurdu. Ölkəyə ərəb dövlətlərindən mütəxəssislər dəvət olunur, yəmənli gənclər isə Qahirə, Bağdad və Beyruta təhsil almağa göndərilirdi. Sanada "Əl-hikmə əl-yəməniyyə" adlı ilk jurnal dərc olunmağa başladı. Onun səhifələrində maarifzilik ideyaları təbliğ olunur, iqtisadi tələblərlə yanaşı, ilk dəfə olaraq siyasi tələblər, o cümlədən də islahatlar keçirilməsi tələbi irəli sürülürdü.

Lakin II Dünya müharibəsinə az qalmış bütün ədəbi və siyasi cəmiyyətlər, jurnallar bağlandı, müxalif qüvvələrə qarşı təqib və təzyiqlər artdı. Eyni zamanda, həmin dövrdə Qırmızı dənizin güney hissəsindəki ərazilər uğrunda Böyük Britaniya-İtaliya rəqabəti daha da kəskinləşdi. Efiopiyanın işğalından sonra İtaliya Yəməndə xüsusi imtiyazlar əldə edilməsi uğrunda mübarizəyə girişdi, amma buna nail ola bilmədi. 1937-ci ildə iki dövlət arasında iqtisadi əməkdaşlığa dair yeni müqavilə imzalandı.

Bu dövrdə Yəmənin Böyük Britaniya ilə münasibətlərində gərginlik davam edirdi. Bölgədə Böyük Britaniya və İtaliya arasındakı rəqabət, nəhayət, hər iki tərəfi qane edən və mövcud status-kvonu qoruyub saxlayan 1936-ci il sazişinin imzalanması ilə tənzimləndi.

Bütün bunlar isə həm bölgədə, həm də Yəməndə nisbi bir istiqrar yaratdı. Bundan istifadə edən imam Yəhya ərəb və bir sıra Avropa dövlətləri ilə əlaqələri genişləndirdi. 1936-cı ildə Fransa və Belçika ilə dostluq və ticarət haqqında saziş imzalandı. 1937-ci ildə Yəmən İraq-Səudi müqaviləsinə qoşuldu, İraqla iqtsiadi və mədəni əlaqələr quruldu. Həmin illərdə Yəmənin Misir, Lübnan və Suriya ilə iqtisadi əlaqələri də yüksəldi. 1938-ci ilin sonlarında imam Yəhya Sovet İttifaqı ilə imzalanmış dostluq və ticarət haqqında müqavilənin müddətinin uzadılması ilə bağlı sovet hökumətinə müraciət etdi.

II Dünya müharibəsinin Yəmən ərazilərindən yan keçməsinə baxmayaraq, onun ölkə iqtisadiyyatına xeyli ziyanı dəydi. Bir tərəfdən ölkənin ənənəvi xarici ticarət əlaqələri zəiflədi, digər tərəfdən isə, uzun sürən quraqlıq

əhali arasında aclığa və çoxlu sayda xəstəliklərə yol açdı. Həmin dövrdə ən mühüm təzahür isə Yəmənin hər iki hissəsində – həm quzeydə, həm də güneydə ölkənin gələcəyi haqqında düşüncə və mübarizə istəklərinin güclənməsi və genişlənməsi oldu. Çağımızda Yəmən Ərəb Respublikası kimi tanınan vahid Yəmən II Dünya müharibəsindən sonrakı uzun illər ərzində Güney və Quzey Yəmən adları ilə iki yerə bölünmüş halda qalırdı. Güney Yəmən bir protektoratlıq, onun əsas şəhəri Ədən isə müstəmləkə ərazisi kimi Böyük Britaniyaya məxsus idi. Quzey Yəmən müstəqil monarxiya idi və onun da başında zeydilər təriqətinin imamları dayanırdılar. Güneylə Quzeyin siyasi baxımdan birləşdiyi yeganə və güclü təmas nöqtəsi hər ikisinin regionda Böyük Britaniya siyasətinin mərkəzində dayanması idi.

### *Quzey Yəmən*

Quzey Yəmən II Dünya savaşı illərində hərbi əməliyyatlardan xeyli uzaqda olsa da, lakin Böyük Britaniya və İtaliyanın timsalında iki qarşıduran koalisiyanın təzyiqlərindən kənarda deyildi. Həmin səbəbdən də imam Yəhya ilk dövrlərdə tərəfsizlik mövqeyində dayanmağa üstünlük verirdi. Elə ki, 1941-ci ilin fevralında ingilislər Qırmızı Dəniz zonasında italyanları əzdilər, imam Yəhya "ox" ölkələri ilə münasibətləri kəsdiyini bildirdi. Bu, faktik olaraq mövcud tərəfsizlik kursundan imtina edilməsi idi.

Savaşın ən böyük təsiri özünü iqtisadi həyatda göstərdi. Ölkə ciddi çətinliklərlə üz-üzə qalmış, başlıca ixrac məhsulu olan qəhvənin satışı, demək olar ki, dayanmış, un, şəkər, yağ, neft məhsulları və s. malların idxalı çox aşağı düşmüşdü. Əhalinin əksər hissəsi aclıq səviyyəsində yaşayırdı. Yoluxucu xəstəliklərin artması minlərlə insan məhvinə gətirmişdi.

Təbiidir ki, iqtisadi vəziyyətin kəskin ağırlaşması müəyyən etirazlar doğurmaya bilməzdi və müxalifət hərəkatı zaman-zaman özünü göstərirdi. Əhməd Numan, Məhəmməd Mahmud əz-Zübeyri və onların ətrafında cəmləşən qüvvələr imamın hakimiyyətini məhdudlaşdırmaq, siyasi və sosial islahatlar aparmaq kimi ideyalar irəli sürür, bunları gerçəkləşdirmək yolunda vəliəhd Əhmədlə iş birliyinə can atırdılar. Sonda onların cəhdləri baş tutmadı və hakimiyyət müxalifətə qarşı hücuma keçdi. Ə.M.Numan və M.M.əz-Zübeyri tərəfdarları ilə birlikdə 1944-cü ilin yayında Ədənə mühacirət etmək zorunda qaldılar. Burada onlar "Azad yəmənlilər" adı ilə

fəaliyyət göstərir, konstitusiyalı monarxiya ideyasını təbliğ edirdilər. 1944-cü ilin sonlarında "Böyük Yəmən Cəmiyyəti" adlı siyasi təşkilat yaradan həmin qüvvələr qısa zaman kəsiyində kifayət qədər məşhurlaşdılar və xeyli tərəfdarlar qazandılar.

Xarici siyasət baxımından Quzey Yəmənin savaş dövrü tarixi iki hadisə ilə əlamətdardır. Birincisi, 1944-cü ildə Bab əl-Məndəb boğazında gəmiçiliyin təhlükəsizliyi bəhanəsi ilə Böyük Britaniyanın Şeyx Səid adlı yaşayış məntəqəsini işğal etmək zəminində iki dövlət arasında münaqişə baş verdi və o, Misir və Səudi Ərəbistanın vasitəçiliyi ilə yoluna qoyuldu. İkincisi, ABŞ ölkənin iqtisadi həyatında mövqe tutmağa səy göstərdi və 1945-ci ildə buraya öz nümayəndə heyətini göndərdi. Lakin ABŞ-ın bu cəhdi uğur qazanmadı.

Bu iki hadisə ilk baxışdan o qədər də ciddi əhəmiyyət kəsb etməsə də, əslində II Dünya savaşından sonrakı dövrdə Quzey Yəmənin xarici siyasət sahəsində yürüdəcəyi kursun başlanğıc nöqtələri oldu. Belə ki, Güney Yəmən və Ədən protektoratları ilə sərhəd məsələlərinin tam tənzimlənməsi zəminində Yəmən – Böyük Britaniya münasibətləri savaş bitdikdən sonra da gərgin olaraq qaldı. Hətta 1946-cı ildə tərəflər arasında silahlı toqquşmalar baş verdi.

ABŞ ilə münasibətlər isə yaxınlaşma məcrasında davam edirdi. Bu baxımdan 1946-cı ildə tərəflər arasında imzalanan "Dostluq, Ticarət və Gəmiçilik haqqında" ilk müqavilənin xüsusi əhəmiyyəti olmuşdur. Həmin vaxtdan tərəflər arasında diplomatik əlaqələr quruldu. 1947-ci il mayın 24-də isə ABŞ-dan silah alınması üçün Yəmənə 1 milyon dollar məbləğində beş il müddətinə borc verilməsinə dair ikitərəfli saziş imzalandı.

Savaşdan sonra önəm verilən məsələlərdən birisi də ərəb dövlətləri ilə çoxtərəfli münasibətləri genişləndirmək və möhkəmləndirmək siyasəti idi. Əslində imam Yəhya bu işə savaş ərəfəsi və dövründə başlamışdı, indi isə daha çox fəallıq göstərirdi. 1945-ci ildə Yəmən Ərəb Dövlətləri Liqasının yaradıcıları və ilk üzvlərindən biri oldu. Həmin ildə Misirlə siyasi və ticarət əlaqələrinin möhkəmləndirilməsinə dair saziş imzalandı. 1947-ci ildə isə Yəmən BMT-nin üzvü oldu.

Dünya savaşından sonrakı ilk illərdə Yəmən tarixində önəmli yer tutan problemlərdən biri də mühacirətdəki "Azad yəmənlilər" cəmiyyətinin fəallaşması idi. Bu təşkilat Güneydə olduğu kimi, Quzeydə da nüfuzlu siyasi qüvvə olaraq tanınır, bir sıra ticarət-maliyyə qrupları tərəfindən dəstəklə-

nirdi. Hətta imam Yəhyanın oğullarından biri də 1946-cı ilin sonlarında Ədənə mühacirət etmiş və onlara qoşulmuşdu. Cəmiyyətin liderləri 1947-ci ilin payızında imamlıq postuna iddialı olan əl-Vəzir ailəsi ilə əlaqələr qurmuş və "Müqəddəs Milli Xartiya" imzalamışdılar. Bu sənəddə dinc yolla konstitusiyalı monarxiya sisteminə keçilməsi, Məşvərət Şurasının – parlamentin formalaşdırılması, konstitusiya qəbul olunması, idarəetmə, maliyyə və vergi strukturlarının qurulması, bəzi hüquq və azadlıqlar verilməsi və bir sıra mədəni-maarif təsisatlarının açılması nəzərdə tutulurdu. 1947-ci ilin sonu – 1948-ci ilin əvvəlində tərəflər arasında keçirilən görüşlərdə imam Yəhyanın öldürülməsinə qərar verildi və o, 1948-ci il fevralın 17-də qətlə yetirildi. Səna Üləmalar Şurası Abdullah əl-Vəziri imam və Yəmənin kralı elan etdi. O, ərəb dövlətləri başçılarına və Böyük Britaniyaya yeni hökuməti tanımaq, mənəvi və maddi dəstək haqqında müraciət etdi, amma heç bir cavab ala bilmədi. Həmin arada imam Yəhyanın böyük oğlu vəliəhd Əhməd özünü ona qarşı təşkil edilmiş qəsdlərdən xilas edə bildi və tərəfdarları ilə birlikdə Bacil şəhərinə qaçdı. Əhməd burada özünü imam elan etdi və xalqı hakimiyyəti "qəsb etmiş" şəxslərə qarşı mübarizəyə çağırdı. İmam ailəsinin mənsub olduğu zeydilər qəbiləsi onun müdafiəsinə qalxdı. Abdullah əl-Vəziri əsasən mənsub olduğu şafiilər qəbiləsi dəstəkləyirdi. Beləliklə də tərəflər arasında silahlı toqquşmalar qaçılmaz oldu, ölkədə qanlı hadisələr baş verdi. Bir sıra səbəblər üzündən Abdullah əl-Vəzir tərəfdarlarının cəhdləri uğursuzluqla sona çatdı. Belə ki, bir tərəfdən ölkə əhalisinin böyük çoxluğu ona qarşı çıxdı və heç bir ərəb dövləti nəinki yeni hakimiyyəti tanıdı, hətta baş verən hadisələrin arxasında Böyük Britaniyanın dayandığı bildirildi. Digər tərəfdən isə Abdullah əl-Vəzirin yaxın adamları arasında parçalanma baş verdi və qüvvələri bir araya gətirmək mümkün olmadı. Bunun əksinə, Əhməd isə qanuni hakimiyyətin sahibi kimi həm xarici, həm də daxili qüvvələr tərəfindən daha çox dəstəkləndi və onun hərbi dəstələri 13 mart 1948-ci ildə paytaxt Sənanı tutdular. 15 martda isə Əhməd imam və yeni kral elan olundu. Ona "Mütəvəkkil alə-Allah" – ("Allaha bel bağlayan") titulu verildi, Yəmən isə "Əl-Məmləkət əl-Mütəvəkkiliyyə" – ("Mütəvəkkillik Krallığı") adlandırıldı. Çevrilişin təşkilatçıları və iştirakçılarının bir qismi edam edildi, digərləri həbsə alındı, başqa bir qismi isə əfv olundu.

İmam Əhməd (1948-1962) hakimiyyətinin ilk günlərindən ölkədəki mövcud siyasi durumun mürəkkəbliyini nəzərə alaraq teokratik-feodal quruluşun əsaslarını dəyişmədən bir sıra siyasi, iqtisadi və mədəni tədbirlər

həyata keçirdi. Ölkə tarixində ilk dəfə olaraq nazirlər kabineti təşkil olundu. Bəzi istehsal sahələrinin işi bərpa edildi və yeni obyektlər yaradıldı. İlk dünyəvi məktəblər açıldı. Xəstəxanalar tikildi və istifadəyə verildi. Mübahisəli sərhəd məsələlərinin çözülməsi üçün 1950-ci ildə Böyük Britaniya ilə birbaşa danışıqlar aparıldı. Münasibətlərin normal məcraya düşməsindən sonra iki dövlət arasında diplomatik nümayəndəlik yaradıldı. 1951-ci ildə mübahisəli zonalarda sərhədlərin müəyyənləşdirilməsi haqqında Yəmən – Böyük Britaniya müqaviləsi imzalandı. Böyük Britaniya Yəmənə maliyyə və iqtisadi kömək göstərməyə başladı.

Lakin 1953-cü ildə Böyük Britaniyanın Ədən protektoratlarındakı sultanlıq və əmirliklərdən ibarət bir federasiya yaratmaq planı ikitərəfli münasibətlərə gərginlik gətirdi. Yəmən tərəfi plana mövcud müqavilələri pozmaq və Güney Yəməndə müstəmləkə rejiminin saxlanılması kimi baxdı və bunu yolverilməz saydı.

Həmin illərdə Yəmən İtaliya və ABŞ ilə diplomatik münasibətləri bərpa etdi, AFR ilə ticarət müqaviləsi bağladı. Sovet İttifaqı ilə yenidən ticarət əlaqələrinə başladı. Ərəb dövlətləri, xüsusi ilə Səudi Ərəbistan və Misirlə münasibətləri genişləndirdi. Hətta 1956-cı il aprelin 21-də bu üç dövlət arasında birgə müdafiə haqqında müqavilə imzalandı.

Bütün bunlara baxmayaraq, ölkədə imam Əhmədə qarşı müxalifət hərəkatı səngimədi. Əksinə, "Azad yəmənlilər" öz fəaliyyətini həm ölkənin daxilində, həm də xaricdə gücləndirmiş, hakim sülalənin bəzi nümayəndələri belə krala qarşı çıxmağa başlamışdılar. Kralın iki qardaşı Abdullah və Həsən, eləcə də oğlu Məhəmməd əl-Bədr taxt-taca yiyələnməyə çalışırdılar. Ordunun daxilində də narazı zabitlər qrupu meydana gəlmişdi və onların başında podpolkovnik Əhməd əs-Sülyai dururdu. Müxalifət qrupları bir-birilə əlaqə yarada bilmiş və hakimiyyətə "güclü bir şəxsiyyət"in gətirilməsi üçün hərbi çevriliş etməyə razılaşmışdılar. Bu işdə 1952-ci ildə Misirdə "Azad zabitlər" təşkilatının etdiyi çevriliş təcrübəsi də həmin qüvvələrə bir örnək idi və Yəmən müxalifəti Misirdə gedən prosesi dəstəkləyir və ondan yetərincə təsirlənirdi. Bir sözlə, ölkədə daxili siyasi vəziyyət getdikcə gərginləşirdi. İmam Əhmədin müxalifətə qarşı hücuma keçmək niyyətindən xəbər tutan Taiz qarnizonunun rəisi Əhməd əs-Sülyai 31 mart 1955-ci ildə hərbi hissələrə kral sarayını mühasirəyə almaq əmri verdi. Radio mərkəzi və teleqraf tutuldu və kraldan hakimiyyəti qardaşı Abdullaha vermək tələb edildi. Abdullah bu işdə Məhəmməd əl-Bədrdən dəstək istədi. Lakin Məhəmməd

əl-Bədr buna razılıq vermədi və krala sadiq hərbi qüvvələrin başında duraraq qiyam etmiş dəstələri əzdi, Taiz üzərində hakimiyyətin nəzarəti bərpa edildi. Çevriliş cəhdinin qarşısı alındı, Əhməd əs-Sülyai və kralın qiyamçı qardaşları edam edildi. Əmir Məhəmməd əl-Bədr sülalə qarşısında göstərdiyi xidmətlərə görə vəliəhd elan olundu. Yeni kabinetdə o, həm də baş nazirin müavini, xarici işlər naziri və baş qərargah rəisi vəzifələrini tutdu. Məhəmməd əl-Bədr ölkədə islahatlar keçiriləcəyi vədi verdi və bu yöndə bir sıra işlər də gördü. İqtisadi sahədə səhmdar tikinti, energetika, ticarət, nəqliyyat və s. müəssisələrin, öz kapitalına əsaslanan bir sıra xırda sənaye obyektlərinin yaradılması, xarici kapitalın köməyi ilə dövlət sənaye bölməsinin inkişafına çalışılması, özünütəcrid siyasətindən imtina zəminində xarici ticarət əlaqələrinin genişlənməsi həmin islahat kursunun başlıca istiqamətləri oldu. ABŞ-ın köməyi ilə Moxa-Taiz-Səna və Çin Xalq Respublikasının köməyi ilə Səna-Hudeyda şosse yollarının çəkilməsi, 1961-ci ildə Sovet İttifaqının köməyi ilə Hudeyda limanının istifadəyə verilməsi ölkə tarixində mühüm hadisələr idi.

Ölkənin xarici siyasət kursunda da ciddi dəyişikliklər oldu. Ərəb dövlətləri ilə daha da yaxınlaşma, sosialist ölkələri ilə diplomatik və iqtisadi-ticarət əlaqələrinin yaradılması, Avropa dövlətləri və ABŞ-la münasibətlərin yaxşılaşması müşahidə olunurdu. Bununla yanaşı, Böyük Britaniya ilə Güneylə bağlı gərginliklər qalırdı və Yəmən tədricən Ədən və Hadramautda Böyük Britaniya ağalığına qarşı mübarizə aparan qüvvələrin başlıca sığınacağına çevrilirdi.

Həmin dövrdə Yəmən müxalifəti də öz mərkəzini Ədəndən Qahirəyə keçirmişdi. Onlar ölkədə teokratik sistemin respublika rejimi ilə əvəz olunmasını başlıca məqsəd elan etdi və onun gerçəkləşdirilməsi üçün ölkə daxilindəki bütün narazı qüvvələri birləşdirmək üçün güclü fəaliyyət göstərdi. Bunun nəticəsi idi ki, az sonra ölkədə çoxlu çıxışlar oldu. Zeydi-Şafii ziddiyyətləri səbəbindən qəbilələrin müxtəlif etiraz aksiyaları, bəzən silahlı toqquşmalar, orduda narazılıqların açıq şəkildə bildirilməsi və s. get-gedə artdı.

Yaranmış siyasi gərginliyi səngitmək üçün Məhəmməd əl-Bədr islahatlar kursunu dərinləşdirmək yolunu bir daha bəyan etdi. Maaşlar artırıldı, Misirdən müəllimlər və digər mütəxəssislər dəvət olundu. Misirli mütəxəssislərin köməyi ilə ölkənin inkişaf planı hazırlandı. Lakin Məhəmməd əl-Bədrin tədbirləri imam Əhmədin xoşuna gəlmədi. İmam oğlunu tutduğu

bütün vəzifələrdən uzaqlaşdırdı və elan olunmuş islahatların isə ləğv edildiyini bildirdi. Ölkənin idarə edilməsində yenidən ənənəvi metodlara qayıdıldı. İmamın bu hərəkəti narazılıqla qarşılandı. Hətta zeydilərdən olan güclü nüfuz sahibləri də onunla razılaşmadılar. Ölkənin müxtəlif yerlərində etiraz aksiyaları baş alıb gedirdi. 1961-ci ilin martında isə bir qrup gənc zabit imama qarşı uğursuz sui-qəsd cəhdi etdi.

Artan siyasi böhran qarşısında imam Əhməd geri çəkilmək zorunda qaldı. O, 1962-ci ilin yanvarında müxalifətin də dəstəklədiyi Məhəmməd əl-Bədri yeni hökumətin tərkibinə daxil etdi. Məhəmməd əl-Bədr bütün keçmiş vəzifələrinə qaytarılmaqla yanaşı həm də müdafiə naziri oldu. O, atasından narazı olan qüvvələrlə danışıqlara başladı. Lakin onun cəhdləri heç də hər yerdə uğurlu olmurdu və siyasi vəziyyət gərgin olaraq qalırdı.

1962-ci il sentyabrın 19-da imam Əhmədin ölməsi və Məhəmməd əl-Bədrin imam elan olunması ilə vəziyyət son dərəcə mürəkkəbləşdi. Məhəmməd əl-Bədrin siyasi sistemdə ciddi dəyişikliklər edəcəyi və sosial-iqtisadi islahatlar keçirəcəyi haqqında verdiyi vədlər də müxalifətin yüksələn etiraz səsləri içərisində eşidilməz oldu. Bir tərəfdən "Azad yəmənlilər" imamın qardaşı Həsəni hakimiyyətə gətirmək istəyir, o biri tərəfdən "Azad zabitlər" təşkilatının liderləri hakimiyyətə can atırdılar.

Məhəmməd əl-Bədr kömək üçün Səudi Ərəbistan və Urdun krallarına müraciət etdi. Bunun da faydası olmadı. Sentyabrın 26-dan 27-nə keçən gecə hərbçilər çevriliş etdilər, monarxiyanın devrildiyini və respublika rejiminin yaradıldığını bildirdilər. Sentyabrın 28-də çevrilişə başçılıq etmiş zabitlərdən ibarət polkovnik Abdullah əs-Səlalın rəhbərliyi altında İnqilabi Komandanlıq Şurası (İKŞ) yaradıldı və elan edildi ki, ölkədə ümumi seçkilər keçirilənədək hakimiyyət İKŞ-yə məxsus olacaqdır.

Həmin gündən ölkə Yəmən Ərəb Respublikası (YƏR) adlandırıldı. İKŞ ilə yanaşı Prezident Şurası, Nazirlər Şurası və Ali Milli Müdafiə Şurası kimi yeni hakimiyyət strukturları yarandı. Ali Milli Müdafiə Şurasına 180 nəfər nüfuzlu qəbilə başçısı – şeyx daxil edildi və hərbçilər onların timsalında respublika rejiminin sosial bazasını yaratmaq istəyirdilər. Bu məqsədlə həmin şeyxlərin hər birisinə öz qəbilə ərazisini qorumaq tapşırıldı.

Qeyd edək ki, 27 sentyabr çevrilişi istər ölkə daxilində, istərsə də xaricdə birmənalı qarşılanmadı. Bu hadisə nəticəsində nəinki ölkədə siyasi istiqrar yarandı, əksinə, Yəmən iki yerə bölündü, qanlı və uzun çəkən vətəndaş savaşı dövrünə girdi. Belə ki, çevriliş zamanı öldürüldüyü güman edilən

imam Məhəmməd əl-Bədrin az sonra salamat qaldığı və onun quzeyə qaçdığı, özünə sadiq olan zeydi qəbilələrinin köməyi ilə mübarizəyə başladığı məlum oldu. O, quzeydə böyük bir əraziyə nəzarət edirdi və çevrilişdən narazı olan bütün qüvvələri öz ətrafında birləşdirmişdi. Səudi Ərəbistan və Urdun krallıqları YƏR-i tanımadılar və imam əl-Bədrə hər cür yardım göstərirdilər.

YƏR-i tanıyan ilk böyük dövlət isə Sovet İttifaqı oldu. Çevrilişin ilk günündə qiyamçı zabitlər BƏR prezidenti C.Ə.Nasirə teleqram vurmuş, onunla eyni mövqedə olduqlarını bildirmişdilər. Sentyabrın 29-da BƏR artıq YƏR-i tanıdı. Bunun ardınca hökumətlərarası razılaşmaya əsasən Misir qoşunları respublika rejimini qorumaq üçün Yəmənə yeridildi. Beləliklə də, Quzey Yəməndə iki hakimiyyət yarandı. Zeydilərin yaşadığı ərazilər imam əl-Bədrin hakimiyyətini tanıyır və ona tabe idilər. Şafiilərin yaşadığı ərazilərdə isə respublika hakimiyyəti mövcud idi və İKŞ-nin həyata keçirdiyi tədbirlərin həmin sərhədlər daxilində qüvvəsi vardı.

Yeni hakimiyyətin respublika rejimini qorumaq və möhkəmlətmək yolunda ilk dövrlərdə göstərdiyi səy və cəhdlər o qədər səmərəli deyildi. Doğrudur, hələ 1962-ci il noyabrın 10-da YƏR və BƏR arasında dostluq və qarşılıqlı yardım haqqında imzalanmış müqaviləyə əsasən Abdullah əs-Səlalın komandanlığı altında bu iki dövlətin orduları monarxistlərə qarşı hərbi əməliyyatlar aparırdı. Lakin imam əl-Bədrin qüvvələri onları xeyli sıxışdıra bilmiş və respublikaçıların nəzarəti altında olan bir sıra rayonları ələ keçirmişdi. 1962-ci ilin sonunda vəziyyət xeyli ağırlaşdı. Misir buraya əlavə çoxsaylı qüvvələr göndərdi və yalnız bundan sonra döyüşlərin gedişində dönüş yaratmaq mümkün oldu.

1963-cü ilin yazından etibarən YƏR-in beynəlxalq mövqeyi də möhkəmlənməyə başladı. O, 50 dövlət tərəfindən tanındı. Mövcud durumu tənzimləmək üçün BMT işə qarışdı və onun vasitəçiliyi ilə tərəflər öz qüvvələrini döyüş xəttindən araladılar. Yaranmış nisbi dinclikdən YƏR yararlana bildi. Dövlət strukturlarının və ordunun qurulmasına xüsusi önəm verildi. Həm də, bu iş bütünlüklə misirlilərin iştirakı ilə aparılır və onların bilavasitə rəhbərliyi altına keçirdi. Bu səbəbdən bir sıra qəbilə-tayfa başçıları öz mövqelərinin zəifləməsinə müqavimət göstərir və hakimiyyətə qarşı çıxırdılar. Onların timsalında Abdullah əs-Səlal hakimiyyəti yeni narazı qüvvələr qazanırdı. Daxili ziddiyyətləri aradan qaldırmaq üçün respublika və monarxiya meylli qəbilə-tayfa şeyxləri, din xadimləri, müxtəlif təşkilatların

nümayəndələri və nüfuzlu şəxslərin iştirakı ilə 1963-cü il sentyabrın 1-də Amran şəhərində ümumyəmən toplantısı keçirildi və ölkənin idarə edilməsində ənənəvi qəbilə-tayfa təmsilçilərinin mövqeyini artırmağa qərar verildi. Xüsusilə isə BƏR, Sovet İttifaqı və bir sıra sosialist dövlətləri ilə sıxı əlaqələr qurmaq və onlardan hər cür hərbi, maddi-texniki və iqtisadi yardımlar almaq hesabına respublika rejimi xeyli möhkəmləndi. 1963-cü il aprelin 13-də ölkənin müvəqqəti, 1964-cü il aprelin 27-də isə daimi konstitusiyası qəbul olundu. 1964-cü il 29 oktyabr-2 noyabrda Sudanın Arkvit şəhərində döyüşənlər bir araya gəldilər və atəşkəsə razılaşdılar.

Lakin, vəziyyəti sabitləşdirmək baxımından görülən hər bir tədbir həm az ömürlü olurdu, həm də birmənalı qarşılanmırdı. Məsələn, Amran toplantısının qərarı BƏR və BƏR yönlülər tərəfindən qəti etirazla qarşılandı. BƏR rəhbərliyinin iradəsi əleyhinə getmək cəsarəti olmayan prezident Abdullah əs-Səlal çıxış yolunu hakimiyyətin yenidən təşkilində gördü. 1964-cü ilin yanvarında o, faktik olaraq hakimiyyəti bütünlüklə öz əlinə aldı və ölkədə fövqəladə vəziyyət elan etdi. Ali hakimiyyət strukturlarına rəhbərlik yalnız hərbçilərə tapşırıldı. Buna cavab olaraq ənənəvi qəbilə-tayfa təmsilçiləri üsyan etdilər. Digər tərəfdən atəşkəs də pozuldu və paytaxt Sənanın tutulması təhlükəsi yarandı. BƏR-in göndərdiyi yeni hərbi qüvvələr də artan hücumlar və üsyanlar qarşısında heç nə edə bilmirdi. Hakimiyyətin öz daxilində fikir ayrılığı dərinləşirdi. Hətta başda əz-Zübeyri, Numan və əl-Əryani olmaqla bir neçə nazir istefa verdi. Respublikaçıların bu qanadı bəzi monarxiya tərəfdarları ilə əlaqəyə girərək özlərini "üçüncü qüvvə" elan etdilər. Onlar 1965-ci il mayın 2-də Həmərdə konfrans çağırdılar və mövcud problemin dinc yolla çözülməsi haqqında razılığa gəldilər. Abdullah əs-Səlal və tərəfdarları bu ideyanı yaxına belə buraxmadılar, Milli Xartiya qəbul etdilər və bu sənəddə respublika quruluşunun dəyişməz olduğunu, monarxistlərlə hər cür danışıqlardan imtina etdiklərini bildirdilər.

Siyasi qüvvələr arasında qarşıdurmanın daha da dərinləşməsi respublikaçıların nəzarəti altında bir sıra ərazilərin monarxistlər tərəfindən tutulması və nəhayət, Misir qoşunlarının ölkədən çıxarılması tələbinin gündəmə gətirilməsi ilə nəticələndi. Bu şərait 1965-ci ilin avqustunda BƏR-i Səudi Ərəbistanla danışıqlara getmək zorunda qoydu. Ciddədə prezident Nasir və kral Feysəl razılığa gəldilər ki, noyabrın 23-dən başlayaraq Misir qoşunları on ay müddətində Yəməndən çıxarılmalı, Səudi Ərəbistan monarxistlərə köməyi kəsməli, Yəmənin dövlət quruluşunun müəyyənləşdirilməsi üçün

referendum keçirilməlidir.

Lakin Yəmənin dövlət quruluşu haqqında BƏR-in birmənalı mövqe tutması və respublika quruluşunun saxlanılması üçün mümkün olan bütün vasitələrə əl atması səbəbindən Yəməndəki siyasi qüvvələrin bütün cəhdləri uğursuz oldu. Odur ki, bütün müxalifət qüvvələri BƏR-in ölkədə ən böyük dayağı olan Abdullah əs-Səlala qarşı birləşdilər. 1967-ci il iyunun 5-də Ərəb-İsrail savaşında BƏR-in məğlubiyyəti isə onun regionda mövqeyini xeyli zəiflətdi. Yəmən probleminin çözülməsinə digər ərəb dövlətləri də maraq göstərməyə başladılar. 1967-ci ilin avqustunda Xartumda ərəb dövlətlərinin zirvə toplantısında Ciddə razılaşmasının şərtlərini ehtiva edən qərar qəbul olundu və onun icrasına nəzarət üçün Sudan, Mərakeş və İraqdan ibarət komissiya yaradıldı. BƏR-in təzyiqi ilə YƏR-in bu qərara etirazı ehtirasları daha da coşdurdu.

1967-ci il noyabrın 5-də Abdullah əs-Səlal Sovet İttifaqına Oktyabr çevrilişinin 50 illik təntənələrinə gedərkən İraqa çatar-çatmaz tutduğu bütün vəzifələrdən azad olunduğu xəbərini aldı. Qansız dövlət çevrilişi nəticəsində hakimiyyət ənənəvi müxalifət qüvvələrinin əlinə keçdi. Əbdürrəhman əl-Əryaninin başçılığı altında üç üzvdən ibarət Respublika Şurası yaradıldı. Mühsin əl-Ayni Nazirlər Şurasının sədri, general Həsən əl-Əmri isə Baş Qərargah rəisi vəzifələrini tutdular. Yeni hakimiyyət daxili siyasətdə qəbilə-tayfa şeyxləri ilə kompromis razılaşmalara nail olmaq, Ərəb Nəzarət Komissiyası ilə əməkdaşlıq, xarici siyasətdə əvvəlki kursa sədaqət yolunu tutdu. Hakimiyyət bütün gücünü bir çox bölgələri tutmuş və Sənanı mühasirəyə almış monarxistlərin geniş miqyaslı hərbi əməliyyatlarının qarşısını almağa yönəltdi. Kömək üçün müxtəlif ərəb ölkələrinə müraciət edildi. Məhz onların köməyi və yardımı, xüsusi ilə ölkəyə gətirilmiş Əlcəzair hərbi kontingentinin, uzun vaxtdan bəri Yəmən ordusunun qurulmasında çalışan çoxsaylı sovet hərbçilərinin əməliyyatları birbaşa planlaşdırması və icrasına rəhbərlik etməsi, daha çox isə Sovet İttifaqından alınan qırıcı-bombardmançı təyyarələrin monarxistlərin düşərgə və bazalarına intensiv hücumları nəticəsində monarxistlərin hücumları dayandırıldı. Sənanın mühasirəsi yarıldı. Bundan sonra monarxiyanı bərpa etmək ümidi birdəfəlik qırıldı.

Yeni hakimiyyət ölkədə istiqrar yaradılması yolunda digər uğurlu addımlar atdı. Siyasi hakimiyyət və ali ordu strukturlarında, bəzən isə ayrı-ayrı mülki və hərbi qruplaşmalar arasında gizli və açıq qarşıdurmalara son

qoyuldu. 1968-ci ilin yazında monarxistlərin hərbi əməliyyatlara yenidən başlamasına güclü hücumlarla cavab verdi və 1969-cu ildə monarxistlər tamamilə darmadağın edildilər. Onların çox böyük hissəsi respublikaçılarla əməkdaşlıq etməyə razılaşdı.

1969-cu ilin martında Sənada müvəqqəti qanunvericilik orqanı Milli Şuranın iclası çağırıldı. Sessiyada son hadisələr dövründə kifayət qədər fəal rol oynamış şeyx Abdullah əl-Əhmər Şuranın sədri, əl-Əryani, əl-Əmri və tanınmış siyasi xadim Məhəmməd Əli Osman isə Prezident Şurasının üzvü seçildilər. Ölkənin ali hakimiyyət strukturlarına hərbi, siyasi və ənənəvi qüvvələrin təmsilçilərinin seçilməsi bu üç güc mərkəzinin rəmzi və birbaşa göstəricisi idi. Hökumətə rəhbərliyin isə texnokrat və Avropa yönümlü şəxs olan Abdullah əl-Kurşumiyə tapşırılması da yeni hadisə idi. Əl-Kurşumi hökuməti özəl bölmənin inkişafına önəm verən iqtisadi proqram qəbul etdi və onun reallaşdırılması yolunda real addımlar atdı. Lakin iqtisadiyyatın tənzimlənməsində dövlətin rolunun saxlanılması özəl bölməni ciddi çətinliklər qarşısında qoyurdu və o, istefaya getmək zorunda qaldı.

1970-ci ilin fevralından hökumətə əl-Ayni başçılıq etdi. O, əvvəlki inkişaf kursunu saxlamaqla yanaşı, ölkədəki bütün siyasi qüvvələrin əməkdaşlığına və Səudi Ərəbistanla münasibətləri normallaşdırmağa nail oldu. Bunun nəticəsi idi ki, 1970-ci ilin aprelində ölkənin bütün ərazisində hərbi əməliyyatlar dayandırıldı, Səudi Ərəbistan YƏR-i tanıdı, çoxillik vətəndaş müharibəsinə son qoyuldu.

Bundan sonra YƏR Batı dövlətləri ilə münasibətlərin tənzimlənməsinə nail oldu. AFR, Fransa, Böyük Britaniya və ABŞ kimi dövlətlərlə diplomatik münasibətlər bərpa olundu, iqtisadi əlaqələr genişləndi. Ölkədə Avropa dövlətlərinin iqtisadi fəallığı artdı.

İctimai-siyasi həyatda baş verən əsaslı dəyişikliklər 1970-ci ilin dekabrında qəbul olunmuş konstitusiyada öz hüquqi əksini tapdı. Ölkə "parlamentli respublika" elan olundu, siyasi partiyaların fəaliyyətinə yasaq qoyuldu, kooperativ strukturların və həmkarlar birliklərinin fəaliyyətinə imkan verildi. Yalnız dövlət silahlı qüvvələr, təhlükəsizlik orqanları və ordu yarada bilərdi.

YƏR-də dinc inkişaf dövrü başlandı. Mötədil demokratik islahatlar və batıyönümlü inkişaf kursu ölkədəki bütün qüvvələrin bir araya gəlməsinin təməlində dayandı. Həmin qüvvələrin ali hakimiyyət strukturlarına rəhbərliyi öz aralarında bölüşdürməsi ənənəsi yarandı. Doğrudur, bu kurs bəzən

narazılıqlarla müşayiət olunurdu, qüvvələrdən birinin qüvvətlənməsi, digərinin zəifləməsi halı baş verirdi. Bununla yanaşı, qüvvələrin hakimiyyətdə təmsilçilik balansının qorunmasına çalışılırdı.

1971-ci ildən hökumət həll olunmamış bir sıra maliyyə və iqtisadi çətinliklərdən qurtulmağın yolunu "açıq qapılar" siyasətində gördü. Batı və ərəb dövlətlərindən alınan maliyyə yardımları xeyli artdı. Sovet İttifaqı və digər sosialist dövlətləri ilə əməkdaşlığa da cəhdlər edildi.

Xarici siyasətdə Səudi Ərəbistan ilə daha sıx münasibətdə olmaq və bağlılıq kursu əsas məqsədə çevrildi. Məhz Səudi Ərəbistanın təzyiqi ilə Güney Yəmənlə açıq qarşıdurma xətti götürüldü. Bunun da kökündə Güney Yəmənin sovet sosializm inkişaf yolunu tutması dururdu. YƏR və YXDR arasında sərhəd toqquşmaları artdı. Hətta 1972-ci il sentyabrın 26-da Güney Yəmənin müxalifətçi qüvvələri Quzey Yəmən qəbilələrinin köməyi ilə YXDR ərazisində geniş miqyaslı hərbi əməliyyatlara başladı. İki dövlət arasında münasibətləri tənzim etmək və ölkənin birləşməsi perspektivlərini müəyyənləşdirmək məqsədi ilə 1972-ci ilin oktyabrın 21-də Qahirədə, noyabrın 26-28-də isə Tarabulusda (Libiya) görüşlər oldu. Tərəflər iki Yəmənin birləşdirilməsi məsələsində razılığa gəldilər və Yəmənin iki hissəsi arasında birliyin prinsipləri haqqında sənədlər imzaladılar. Sənədlərdə vahid Yəmənin siyasi əsasları açıqlanır, gələcək dövlətdə idarəçiliyin "respublika, milli və demokratik formada" olacağı, dövlətin əsasında istismarın bütün formalarını rədd edən "sosial ədalət prinsipi dayanan ərəb sosializmi" cəmiyyəti qurmağa çalışacağı bildirilirdi.

Ümumiyyətlə, XX əsrin 70-ci illərin əvvəlindən iki Yəmənin birləşdirilməsi məsələsinə YƏR hakimiyyəti ciddi önəm verirdi və bir sıra problemlərin həllinə məhz həmin maraqdan yanaşırdı. 1972-ci ilin iyununda Səudi Ərəbistan yanlısı Abdullah əl-Həcərinin Prezident Şurasına daxil edilməsi və konstitusiyaya zidd olaraq dekabrın 30-da baş nazir təyin olunması, sonra isə 1973-cü il martın 17-də bilavasitə onun imzası ilə bir sıra mübahisəli ərazilərin Səudi Ərəbistanın tərkibində qalması haqqında müqavilənin bağlanması buna misaldır. Səudiyyə Ərəbistanı da Güney Yəməni zor gücünə birləşdirmək üçün YƏR-ə maliyyə və hərbi baxımdan hər cür yardım göstərirdi. 1973-cü ilin yazından etibarən müharibəyə ciddi hazırlıq gedirdi. Təbiidir ki, hökumətin daxili və xarici siyasət kursunun müəyyənləşməsində Səudi Ərəbistanın təsirinin güclənməsi siyasi qüvvələr arasında narazılıq yaratmaya bilməzdi. Məhz bu zəmində hakimiyyət dairələrində mötədil və

mühafizəkar qruplaşmalar qarşıdurması gücləndi və bu, sonuncuların lideri Abdullah əl-Həcərinin istefası ilə nəticələndi. Onu da əlavə edək ki, ölkəni davamlı böhranlardan çıxarmaq, sosial-iqtisadi və siyasi inkişafın yollarını müəyyənləşdirmək, bu istiqamətdə təxirəsalınmaz tədbirlər görmək sahəsində hakimiyyətin gücsüzlüyü getdikcə daha aydın şəkildə üzə çıxırdı və cəmiyyətdə yeni bir qüvvənin yaranmasına ehtiyac artırdı. Mülki idarəçilərin acizliyi yenidən "üçüncü qüvvə" kimi ordunu hərəkətə gətirdi. YƏR silahlı qüvvələri Ali Baş Komandanının müavini podpolkovnik İbrahim əl-Həmdi qarşıduran tərəfləri barışdırmağa cəhd etdi. Lakin bundan heç nə alınmadı və 1974-cü il iyunun 13-də ölkənin ali siyasi hakimiyyətinin təmsilçiləri əl-Əryani, Numan və əl-Əhmər istefa verdilər. 7 illik fasilədən sonra ordu yenidən hakimiyyəti öz üzərinə götürdü. Ölkəni idarə etmək üçün Komandanlıq Şurası yaradıldı, konstitusiyanın fəaliyyəti dayandırıldı, bütün ali siyasi hakimiyyət orqanları və əvvəlki hərbi komandanlıq buraxıldı.

İbrahim əl-Həmdinin başçılıq etdiyi Komandanlıq Şurası ölkənin sosial-iqtisadi və siyasi inkişafının normal məcraya düşməsi üçün bir sıra tədbirlər gördü. Daxili siyasətdə "qanun və qaydaları qoruyan dövlət" qurmaq, bu məqsədlə dövlət strukturlarına yeni kadrlar gətirmək, idarəetmədə quzey və güney şeyxlərinin iştirakında balans yaratmaq, ümumiyyətlə isə mərkəzi hakimiyyəti daha çox gücləndirmək, parlament demokratiyasını bərpa etmək və sosial həyatda köklü islahatlar keçirməklə ənənəvi qəbilə-tayfa başçılarının həyatın müxtəlif sahələrindəki təsirlərini az da olsa zəiflətmək kursu götürüldü. Ölkədəki siyasi güc mərkəzləri ilə əməkdaşlıq etməyə və normal münasibətlər saxlamağa da önəm verilirdi. Bu baxımdan şeyx Abdullah əl-Əhmərin siyasətə qayıtmasına imkan yaradılması, Mərkəzi Bankın direktoru Əbdüləziz Əbdülqəninin baş nazir postuna gətirilməsi, əl-Həcərinin seçkilərin təşkili və keçirilməsinə rəhbər təyin olunması və s. kimi faktları sadalamaq istərdik. Lakin onu da qeyd edək ki, Komandanlıq Şurasının tədbirləri güclü etirazlar da doğururdu. Xüsusilə də qəbilə-tayfa şeyxləri mövqelərinin zəifləməsinə yönəlmiş hər bir hərəkətə sərt reaksiya ilə cavab verirdilər. 1977-ci ilin yayında iş o yerə çatdı ki, YƏR ərazisi faktik olaraq iki hissəyə parçalanmışdı. Onlardan birinə mərkəzi hakimiyyət, digərinə isə qiyamçı şeyxlər nəzarət edirdi. Buna son qoymaq məqsədilə hakimiyyət bir tərəfdən qiyamçılara qarşı nizami ordu qüvvələri göndərdi, o biri tərəfdən şeyx əl-Əhmər və əl-Həmdi arasında həmin problemi həll etmək haqqında razılaşma əldə edildi. Əl-Əhmər Komandanlıq Şurası sədrinin qəbilələr ilə

iş üzrə müavini təyin edildi. Bu işdə Səudi Ərəbistanın da xüsusi rolu oldu.

YƏR - YXDR münasibətlərində yaxşılaşma yarandı. İki Yəmənin birləşməsi üçün nazirlər səviyyəsində birgə komitə fəaliyyətə başladı.

Əl-Həmdinin başçılıq etdiyi Komandanlıq Şurasının bu cür balanslaşdırma siyasətindən narazı olanlar 1977-ci il oktyabrın 11-də onu qətlə yetirdilər, yerinə isə Komandanlıq Şurasının üzvü Əhməd Hüseyn əl-Haşimi gətirildi.

Əl-Haşimi ölkədaxili gərginliyi aradan qaldırmaq üçün güzəştlərə getdi: qəbilə şeyxləri ilə barışdı, hərbçilərin və polislərin maaşlarını artırdı. Yeni hakimiyyət orqanları formalaşdırıldı. Qəbul olunan Konstitusiya Bəyannaməsinə görə yaradılan Xalq Müəssislər Məclisi sonralar parlamentə çevrilməli idi. Xalq Müəssislər Məclisi 1978-ci ilin fevralından işə başladı və apreldə o, ölkədə prezident idarəçiliyinə keçilməsi haqqında qərar verdi. Prezidentlik Şurası ləğv edildi və əl-Haşimi prezident seçildi. Lakin onun hakimiyyəti uzun çəkmədi. 1978-ci il iyunun 24-də əl-Haşimi öldürüldü və ölkənin yeni prezidenti polkovnik Əli Abdullah Saleh oldu.

Prezident Əli Abdullah Saleh öz başlıca məqsədinin "müasir mərkəzləşdirilmiş qanun və qaydaları qoruyan dövlət" yaratmaq olduğunu bildirdi. Lakin onun hakimiyyəti ilk gündən iki Yəmən arasında ziddiyyətlərin kəskinləşməsi və hərbi toqquşmaların çoxalması faktı ilə üz-üzə qalmışdı. Münasibətlərin bu məcraya düşməsinin başlıca səbəbi isə əl-Haşimini YXDR kəşfiyyatının qətlə yetirməsi idi. YXDR rəhbərliyinin YƏR-dəki solçu qüvvələri müxtəlif formalarda dəstəkləməsi də bu məsələdə ciddi rol oynayırdı. Tərəflər arasında hərbi qarşıdurma 1979-cu ilin martında Küveytdə Ərəb Dövlətləri Liqasının vasitəçiliyi ilə iki dövlət başçısının görüşünədək davam etdi. Həmin görüşdə isə atəşkəs, orduların aralanması və sərhədlərin açılması haqqında razılıq əldə edildi. Vahid Yəmən haqqında qəbul olunan Bəyanatda isə bildirildi ki, son məqsədə çatmaq üçün birgə Konstitusiya Komissiyası yaradılır.

Hərbi əməliyyatların dayandırılmasından sonra dövlət quruculuğu sahəsində bir sıra tədbirlər görüldü. Demokratik idarəçiliyin genişləndirilməsi məqsədi ilə Xalq Müəssislər Məclisinin hüquqları və üzvlərinin sayı artırıldı. Prezident yanında 15 üzvdən ibarət məşvərət orqanı yaradıldı, hökumətin tərkibinə daha mötədil siyasətçilər gətirildi.

1980-ci ilin mayında Milli Dialoq Komitəsi yaradıldı və onun 50 nəfərlik tərkibi prezident tərəfindən təyin olundu. Komitə ölkədəki bütün siyasi

qüvvələri bir araya gətirmək məqsədi ilə Milli Xartiya hazırladı və xalqın müzakirəsinə verdi. Milli Xartiya 1982-ci il avqustun 24-də Ümumxalq Konqresində təsdiqləndi. Ümumxalq Konqresinin tərkibi 1000 nəfərdən ibarət idi və onların 300 nəfərini prezident təyin etmişdi, qalanları isə birbaşa seçkilərdə seçilmişdi. Konqres dörd illik müddət üçün formalaşır, öz ali strukturu Daimi Komissiya tərəfindən idarə olunur və ildə bir dəfə tam tərkibdə toplanırdı. Xalq Konqresinin baş katibi və Daimi Komissiyanın sədri prezident Əli Abdullah Saleh seçilmişdi. Xalq Konqresi və parlament çərçivəsindən kənarda siyasi fəaliyyət qadağan olunsa da, yeni ictimai təşkilatların və həmkarlar birliklərinin meydana gəlməsi həyatın demokratikləşdirilməsi yolunda mühüm hadisələrdən birisi kimi qeyd olunmalıdır.

Ölkənin iqtisadi inkişafına diqqətin artırılması Əli Abdullah Saleh hakimiyyətinin fəaliyyətində xüsusi yer tutdu. Birinci beşillik planda (1977-1981-ci illər) infrastrukturların, sənayenin və aqrar sahənin inkişafında nəzərdə tutulan göstəricilərə əsasən nail olundu. İkinci beşillik planda (1982-1986-cı illər) başlıca diqqət kənd təsərrüfatı və dağ-mədən sənayesinin inkişafına yönəldildi. Dövlət bölməsi yaradıldı, bir sıra sənaye obyektləri, sement zavodları və energetika müəssisələri tikildi və istifadəyə verildi.

Beşillik planlarda nəzərdə tutulan layihələrin gerçəkləşdirilməsi əsasən xarici dövlətlər və beynəlxalq təşkilatlardan alınan borclar və kreditlər hesabına mümkün olmuşdu. Onların da önündə Səudi Ərəbistan gəlirdi.

Əli Abdullah Saleh iqtidarının elan olunan "sosial ədalət və demokratiya cəmiyyəti qurmaq" işinə əhalinin daha geniş sosial təbəqələrini cəlb etməsi kursu da uğur qazandı. 1980-ci ilin yanvarında radikal solçu təşkilatların birləşdiyi Milli – Demokratik Cəbhənin nümayəndələri ilə danışıqlar oldu. Qərara alındı ki, onlar da hakimiyyət strukturlarında iştirak etsinlər. Doğrudur, sonralar Milli – Demokratik Cəbhədəki bəzi qüvvələr bu razılaşmanı pozdular və ölkənin dağlıq rayonlarında silahlı çıxışlar etdilər. Maraqlıdır ki, radikal islamçı qüvvələri birləşdirən "İslam Cəbhəsi" Milli – Demokratik Cəbhəyə qarşı mübarizədə hökumətlə birgə oldu və silahlı çıxışlara son qoyuldu. Həmin dövrün ən mühüm hadisəsi isə iki Yəmənin birləşdirilməsi istiqamətində göstərilən səy və cəhdlərin daha çox gerçəkləşməsi idi. 1980-ci ildə quru və dəniz daşımaçılığı üzrə iki birgə şirkət, 1981-ci ildə turizm üzrə yeni birgə şirkətin yaradılması, Ədən-Taiz şosse yolunun açılması, 1982-ci ildə hər iki ərazidə birgə geoloji-kəşfiyyat işləri aparılmasına başlanılması və s. bu qəbildən olan tədbirlər idi. Birgə komissiyanın hazırladığı

konstitusiya layihəsinin müzakirəyə çıxarılması və iki dövlət arasında razılaşdırılmış tədbirlərin gerçəkləşdirilməsinə nəzarət etmək üçün iki dövlətin başçısından ibarət Prezident Şurasının və hökumət başçılarının sədrlik etdikləri hökumətlərarası komissiyanın təşkili isə hər iki tərəfin ölkəni birləşdirmək yolundakı fəaliyyətini əlaqələndirmək, göstərilən səy və cəhdləri bir məcraya yönəltmək baxımından misilsiz əhəmiyyət kəsb etdi. Birləşmə ideyası ümumi istəyə çevrildi və buna xalqın tam inamı yarandı. Bu zəmində YƏR xalqın Əli Abdullah Saleh iqtidarına rəğbəti və dəstəyi artdı.

YƏR hakimiyyətinin balanslaşdırılmış xarici siyasəti, ərəb ölkələri ilə münasibətlərdə ümumərəb maraqlarına sədaqət nümayiş etdirməsi, Avropa dövlətləri ilə yanaşı sosialist cəbhəsi dövlətləri ilə də əlaqələrini yaxşılaşdırmağa cəhd etməsi əsas siyasi qüvvələr tərəfindən birmənalı şəkildə bəyənilirdi və ölkədə siyasi istiqrarın davamlı olmasına xidmət edirdi. Elə bunun nəticəsi idi ki, 1988-ci ildə Məşvərət Şurasına keçirilən seçkilərdə müxtəlif siyasi qüvvələrin təmsilçiləri iştirak etdi. Məşvərət Şurasının sədri əl-Araşi oldu. Ə.A.Saleh isə üçüncü dəfə (ikinci dəfə 1983-cü ildə seçilmişdi – müəl.) ölkə prezidenti seçildi.

### *Güney Yəmən*

Güney Yəmənin II Dünya savaşından sonrakı tarixinin ilk illəri onunla xarakterikdir ki, regionda baş verən dəyişikliklər səbəbindən Böyük Britaniya burada möhkəmlənmək kursu götürmüşdü və bu yöndə müxtəlif planları gerçəkləşdirmək üçün var gücü ilə çalışırdı. Həmin kurs iki cəhəti nəzərdə tuturdu. Belə ki, bir tərəfdən təkcə Güney Yəməndə deyil, ümumiyyətlə bütün Güney və Doğu Ərəbistanda müstəmləkə idarəçilik sistemi yeniləşdirilir, yerli əhalinin bu işdə iştirak payı artırılırdı. Digər tərəfdən isə, buradakı qüvvələri parçalamaq, bir-birindən ayrı salmaq, onların hər birini ayrılıqda metropoliya ilə daha sıx bağlamaq istəyirdi. Məsələn, 1947-ci ildə Ədəndə İcra Şurasına əlavə olaraq Qanunverici Şuranın yaradılması, 1944-1954-cü illərdə protektoratlıqda olan bütün əmirliklərlə birbaşa müqavilələr bağlamaq, onların hər birinə öz müşavirini təhkim etməklə müstəqil idarəçilik hüququ verilməsi həmin siyasətdən qaynaqlanmışdı. 1954-cü ildə isə bu cırtdan dövlətlərin federasiyası ideyası irəli sürüldü və 1959-cu ildə başlanan proses 1964-cü ildə Ədən də daxil olmaqla bütün əmirliklərin federasiyada birləşdirilməsi ilə sona çatdırıldı. Böyük Britaniya federasiyaya daxil olan

dövlətlərin xarici siyasəti və müdafiəsi üçün məsuliyyəti öz üzərinə götürdü. Bu federasiyaya bir müstəqil dövlət görüntüsü verildi. Qubernator ali komissar adlandırıldı, İcra Şurası Nazirlər Kabinetinə çevrildi. Regionun iqtisadi inkişafına qayğı artırıldı. Ədən limanı genişləndirildi, iri neft emalı zavodu tikildi və s. Təbiidir ki, bütün bunların başlıca məqsədi Güney Yəməni Quzeydən tamam ayrı salmaq və burada Böyük Britaniyanın daha uzun müddətə qalmasını təmin etmək idi. Lakin Güney Yəməndə yetərincə qüvvələr var idi ki, onlar Böyük Britaniyanın planlarına qarşı çıxırdılar və müstəmləkə əsarətindən azad olmaq, bağımsız bir dövlət yaratmaq uğrunda dövrün şərtləri daxilində mübarizə aparırdılar. Həmin illərdə Güney Yəməndə elə bir qəbilə və ya tayfa birliyi olmamışdır ki, bu və digər formada ingilis müstəmləkə hakimiyyətinə qarşı çıxmasın, öz etirazını bildirməsin. Ən maraqlısı isə o idi ki, narazı qüvvələrin təşkilatlanması prosesi başlanmışdı, aparılan mübarizənin amalları daha çox insanlara çatdırılırdı.

Ədəndə ziyalıların təşkil etdiyi "Ərəb Ədəbiyyatı Klubu", "Ərəb Barışıq Klubu" və Ləhcdə "Xalq Klubu" və s. kimi qurumlar maarifçilik fəaliyyəti ilə məşğul olur, vətənpərvərlik mövqeyindən çıxış edirdilər. Milli şüurun inkişafında 1949-cu ildə yaranan "Böyük müsəlman cəmiyyəti"nin (BMC) rolunu xüsusi qeyd etmək lazımdır. Bu cəmiyyət Güney Ərəbistanın bütün müsəlmanlarını vahid bir dövlət halında birləşdirməyə çağırırdı. 1950-ci ildə BMC-dən aralanan bir sıra ziyalı "Güney Ərəbistan Oğulları Liqası"nı (CƏOL) qurdular. Az sonra Quzey və Güneyin birləşməsi ideyası ilə yanaşı siyasi rejim seçimi haqqında fikirlər söylənilməyə başladı. Ərəb millətçiliyi, sosializm, demokratiya və hətta teokratiya tərəfdarları müxtəlif qurumlarda birləşir və geniş fəaliyyət göstərirdilər. Bu zəmində Güney Yəmən əhalisinin siyasi fəallığı artır, ölkənin taleyüklü problemlərinin həlli uğrunda mübarizə yüksəlirdi. 1956-1963-cü illər dövrü həmin baxımdan xeyli zəngin olmuşdur və bu işdə sol yönümlü qüvvələr də yaxından iştirak edirdilər. Onlar 1962-ci ildə Xalq Sosialist Partiyasında (XSP) birləşdilər. Ömumiyyətlə isə, istiqlal mübarizəsinin bütün ağırlığı həmin illərin ikinci yarısında Ərəb Sosialist Dirçəliş Partiyasının (Bəəs) Quzey və Güney Yəməndə yaranan yerli təşkilatının üzərinə düşürdü.

Ərəb Millətçiləri Hərəkatının (ƏMH) Yəmən təşkilatında birləşən nasirizm və Misir təcrübəsi tərəfdarları isə bir qədər də irəli gedərək bütün ərəb ölkələrinin azadlığı və birləşməsi ideyasını təbliğ edirdilər.

1962-ci il sentyabrın 26-da Quzeydə teokratik monarxiyanın ləğvi və la-

ik respublika rejiminin yaranması Güneya güclü təsir etdi, istiqlal mübarizəsi yeni vüsət aldı. Xüsusilə də 1963-cü il fevralın 24-də Sənada Güneyun vətənpərvər qüvvələrinin konfransında Yəmənin zəbt edilmiş güneyunun azadlığı uğrunda Milli Cəbhənin (MC) yaradılmasından sonra təşkilatın rəhbərliyi silahlı mübarizəyə önəm verdi. Bu işin əsası 1963-cü ilin sonlarında Rədfan qəbilələrinin üsyanı ilə qoyuldu. Qısa zamanda Hadramautdan başqa bütün ərazilər silahlı üsyanlara büründü. Qeyd edək ki, Nasir hökuməti də Güney Yəmən xalqının silahlı mübarizəsini dəstəklədiyini bildirdi, ona hərbi-texniki yardım göstərməyə başladı.

Böyük Britaniya əks tədbirlərin heç bir sonuc verməediyindən geri çəkilmək zorunda qaldı. Ədəndə yerli hökumət yaradıldı. Güney Yəmən məsələsini çözmək üçün 1964-cü ilin iyununda konfrans çağırıldı. Ən nəhayət elan olundu ki, Güney Yəmən 1968-ci ilədək öz bağımsızlığına qovuşacaqdır. Lakin Ədəndəki Böyük Britaniya hərbi bazası saxlanılacaqdır.

Güney Yəmən xalqının silahlı mübarizəsi beynəlxalq ictimai rəyin də diqqətini çəkdi. BMT-nin xüsusi komitəsi Güney Yəmənə istiqlaliyyət verilməsi və buradakı ingilis hərbi bazalarının ləğv edilməsi haqqında qərar verdi.

Təbiidir ki, bu uğurların əldə edilməsi MC-nin fəaliyyəti və qətiyyətli mövqeyi sayəsində mümkün olmuşdu. MC-nin ciddi addımlarından biri də Ədənin özündə partizan müharibəsinə önəm verilməsi sayılmalıdır. Bundan sonra istər Ədəndə, istərsə də digər yerlərdə ingilislərin vəziyyəti son dərəcə ağırlaşdı. İngilislərin apardığı həbslər, təqiblər və zor tətbiqi siyasəti MC partizanlarının daha fəal tədbirləri ilə qarşılanırdı.

MC-nin silahlı mübarizəsi həmin vaxtadək ona qoşulmayan digər vətənpərvər təşkilatları da hərəkətə gətirdi. Onlar da vahid bir təşkilatda birləşib istiqlal savaşında yaxından iştirak etmək yolunda cəhdlər göstərirdilər. Xalq Sosialist Partiyası və Güney Ərəbistan Liqasının da qatıldığı işğal olunmuş Güneyin Azadlığı Təşkilatını (GAT) yaratdılar. MC-dən fərqli olaraq GAT Güney Yəmən problemin həllində dinc siyasi mübarizəyə önəm verirdi.

Ümumiyyətlə isə, istiqlal mübarizəsi 1965-ci ildən özünün yeni mərhələsinə qədəm qoydu. Bu, MC-nin təşkilati, hərbi və ideya-siyasi baxımdan istiqlal hərəkatına başçılıq edən təşkilat kimi formalaşmasından qaynaqlanırdı. 1965-ci ilin iyununda Cibləddə (YƏR) MC-nin I qurultayının keçirilməsi, burada bir sıra proqram sənədlərinin, o cümlədən Milli Xartiyanın

qəbul edilməsi, silahlı inqilab kursuna keçilməsi, təşkilatın icra strukturlarının formalaşdırılması və onların rəhbərlərinin seçilməsi istiqlal savaşının sonrakı taktika və strategiyası baxımdan mühüm əhəmiyyət daşıyan hadisə oldu. Həmin vaxtdan ayrı-ayrı hərbi dəstələr Azadlıq Ordusu adı ilə vahid komandanlıq altında birləşdi, faktik olaraq müstəmləkəçilərə və onları dəstəkləyənlərə qarşı aramsız müharibəyə başladı, xeyli əraziləri öz nəzarəti altına aldı. Digər tərəfdən, MC-nin daxilində Güney Yəmənin gələcəyi haqqında fərqli yanaşmalar və bu zəmində qruplaşmalar özünü göstərməyə başladı. Bunlardan birinə MC-nin ölkədaxili fəaliyyətinə bilavasitə rəhbərlik edən Əbdül Fəttah İsmayıl, o birinə isə əsas fəaliyyəti ölkə xaricində olan Qəhtan əş-Şəabi istiqamət verirdi. "Daxili" qanad yaranmış şəraitdə MC-ni ölkənin gələcəyini müəyyənləşdirən yeganə qüvvə sayırdı və onun xarici təsirlərdən uzaqlaşmasına çalışırdı. "Xarici" qanad isə, əksinə, hesab edirdi ki, MC yeganə təşkilat olaraq qala bilməz və ölkənin maraqları gələcəkdə onun digər qüvvələrlə iş birliyinə girməyini tələb edir. Bu ideya Misir və digər xarici qüvvələr tərəfindən dəstəklənirdi. Həmin dövrdə dinc siyasi mübarizə tərəfdarı olan GAT rəhbərliyi də silahlı mübarizəyə keçdi.

Göründüyü kimi, istər MC, istərsə Güney Yəmən istiqlal hərəkatı və onun dəstəklədiyi qüvvələr ciddi sınaq qarşısında qalmışdı. 1966-cı il yanvarın 13-də Qahirədə bəzi qüvvələrin MC və GAT-dan ibarət "Yəmənin işğal olunmuş Güneyinin Azadlığı Təşkilatı"nın (YGAT) yaradılması haqqında sənəd imzalanması MC-nin həm "xarici", həm də "daxili" qanadı tərəfindən kəskin etirazla qarşılandı. "Daxili" qanadın tərəfdarları hətta MC rəhbərliyində təmsil olunan şəxslərin fəaliyyətinə xitam verdilər və Əbdül Fəttah İsmayılın başçılığı altında yeni rəhbərlik formalaşdırdılar. Lakin Misirin və Ərəb Dövlətləri Liqasının təkidilə rəhbərlik YCAT tərkibində qalmağa razılaşdı. Ərəb Dövlətləri Liqası YGAT-ı ölkə xalqının qanuni təmsilçisi kimi tanıdı, Misir isə bütün köməyini YGAT-a yönəltdi.

Həmin arada Böyük Britaniya da artan silahlı mübarizə qarşısında geri çəkildi və 1968-ci ilə qədər Güney Yəmənə istiqlaliyyət veriləcəyini bir daha bəyan etdi. Buna baxmayaraq silahlı mübarizə, Ədəndə isə partizan müharibəsi bir an belə səngiməmdi və daha şiddətlə davam etməkdə idi. Azadlıq Ordusunun və Ədən partizanlarının uğurlu fəaliyyəti MC liderlərini yenidən hərəkətə gətirdi və onlar 1966-cı ilin oktyabrında YGAT-dan çıxdıqlarını bildirdilər. Qəhtan əş-Şəabi və digər tanınmış liderlər yenidən MC-nin rəhbərliyinə gətirildilər. MC silahlı qüvvələrinin bir-birinin ardınca apardığı

uğurlu əməliyyatlar nəticəsində artıq 1967-ci ilin sentyabrında Güneydəki 17 vilayətdən 12-si azad edilmişdi. Həmin rayonların idarə edilməsi üçün mülki və hərbi xalq komitələri yaradılmışdı.

1967-ci il iyunun 5-də Ərəb-İsrail müharibəsindən sonra bütün ərəb dünyasında güclənən antiingilis ovqatı Güney Yəməndə gedən proseslərin sürətlənməsində əhəmiyyətli rol oynadı. Böyük Britaniya son qərarı vermək məcburiyyəti qarşısında qaldı. O, MC-nin artan nüfuzunu dərk etdi və bu təşkilatı Güney Yəmən xalqının yeganə qanuni təmsilçisi kimi tanıdığını bildirdi. 1967-ci il noyabrın 22-də isə tərəflər Cenevrədə danışıqlara başladılar. Qarşılıqlı güzəştlər nəticəsində razılığa gəldilər. Noyabrın 30-da ölkənin istiqlaliyyəti və Güney Yəmən Xalq Respublikasının (GYXR) yaradıldığı elan edildi.

MC həmin vaxtdan özünü Milli Cəbhə Siyasi Təşkilatı (MCST) elan etdi və onun rəhbərliyi bildirdi ki, təşkilat ölkənin ali hakimiyyətidir, GYXR-də prezident idarə forması yaradılmış, Qəhtan əş-Şəabi prezident təyin olunmuşdur. Əş-Şəabi həm də baş nazir və Ali Baş Komandan idi. Hökumətin 1968-ci il 11 dekabr tarixli qərarı ilə ölkədə bütün əmirlərin, şeyxlərin və digər feodal hakimlərin hakimiyyəti ləğv olundu, onların mülkiyyəti isə müsadirə edildi. Yeni inzibati-ərazi bölgüsü aparıldı, ölkə 6 vilayətə bölündü.

Bir məsələyə diqqəti yönəltmək istərdik ki, MCST-nin iki qanadı arasındakı mövcud ənənəvi fikir ayrılıqları hakimiyyətin ilk günlərindən gündəmə gəldi. Əş-Şəabinin başçılıq etdiyi sağçı "xarici" qrup əsasən şəhərin və kəndin orta sosial təbəqəsinə arxalanır, əski sosial-iqtisadi qayda-qanunların, başqa sözlə, kapitalist təsərrüfat tərzinin saxlanılması tərəfdarı idi. Əbdül Fəttah İsmayılın başçılıq etdiyi solçu "daxili" qrup daha çox yoxsul təbəqələrin müdafiəçisi rolunda çıxış edir, mövcud siyasi və iqtisadi strukturları dağıtmaq, sosialist rejiminin və təsərrüfat tərzinin yaradılması istiqamətində köklü islahatlar aparılmasını istəyirdi. 1968-ci ilin əvvəllərində tərəflər arasında fikir ziddiyyətləri son dərəcəyə çatdı.

Digər tərəfdən hakimiyyətə xarici aləmin, o cümlədən YƏR-in də münasibəti birmənalı deyildi. GYXR-də respublika rejiminə önəm verilməsi səbəbindən YƏR-də də respublika rejiminin müdafiə edilməsi burada qüvvətlənməkdə olan monarxist qüvvələrin üzünü MCST-in ənənəvi rəqibi YGAT-a çevirməsinə gətirdi. YGAT onlardan kömək alır və bir müxalifət qüvvəsi kimi fəallaşırdı. Yaxud, sol təmayüllü ərəb rejimləri də GYXR ha-

kimiyyətinin seçdiyi mövcud kursa isti münasibət göstərirdilər və s.

Belə bir şəraitdə və "daxili" qüvvələrin təzyiqi ilə MCST 1968-ci il martın 2-8-də özünün IV qurultayını çağırdı. Qurultayda solçular təşkilatın elmi sosializm mövqelərinə keçməsi də daxil olmaqla ölkə şərtlərinə uyğun gəlməyən aqrar islahat, torpaqların müsadirə edilməsi və kooperativ kəndli təsərrüfatlarının yaradılması, prezident vəzifəsinin kollektiv rəhbərliklə əvəz olunması, fəhlə, kəndli və əsgər sovetlərinin və xalq-inqilab ordusunun qurulması, eləcə də bu xarakterli digər təkliflər irəli sürdülər. Sağlar həmin təklifləri ciddi tənqidlə qarşıladılar. Bununla yanaşı, bir sıra təkliflər baş rəhbərlik tərəfindən yenidən baxılmaq üçün qəbul edildi. Ən mühüm hadisə isə solçuların baş rəhbərlikdə daha çox yer tutması oldu.

Bundan sonra ziddiyyətlər tərəflərin açıq qarşıdurması ilə əvəz olundu. Az keçmədi ki, sağ yönümlülər martın 20-də ordunun köməyi ilə çevrilişə cəhd etdilər. Hüseyn Osman Əşşalın rəhbərlik etdiyi hərbçilər MCST-in bir çox solçu liderlərini və istiqlal hərəkatının nüfuzlu xadimlərini həbs etdilər. Prezidentdən hökumətin yenidən formalaşdırılması tələb olundu. Lakin Ədən şəhərinin və bir sıra vilayətlərin əhalisi bu xəbəri kəskin etirazla qarşıladı. Çevriliş cəhdi baş tutmadı, ancaq təsirsiz də qalmadı.

Belə ki, iki tərəf arasında qarşıdurma daha da şiddətləndi. Doğrudur, prezident əş-Şəabi solçuların bir sıra tələblərini yerinə yetirdi. Martın 25-də aqrar islahat haqqında qanun qəbul edildi. Qanuna görə suvarılan sahələrdə 25 fəddandan və dəmyə sahələrdə 50 fəddandan artıq torpaqlar mülkiyyətçilərindən əvəzi ödənilməməklə alınmalı və yoxsul kəndlilər arasında bölüşdürülməli idi. Ləng də olsa, bu işə başlanıldı.

Lakin solçular sağ qüvvələrlə bütün əlaqələri kəsməyə qərar verdilər və mayın 14-də hökumətə göndərdikləri məktubda hakimiyyət strukturlarına, orduya və polisə qarşı silahlı mübarizə də daxil olmaqla bütün mümkün vasitələrlə çıxışa başladıqlarını bildirdilər.

MCST-in solçu liderlərinin Abyan vilayəti mərkəz olmaqla bir mübarizə ocağı yaratmaq cəhdləri digər müxalif qüvvələr tərəfindən dəstəklənmədi və bu səbəbdən üsyançı qüvvələr YƏR-in dağlıq rayonlarına qaçdılar. Lakin onlar mübarizədən geri çəkilmək niyyətində deyildilər. Növbəti cəhd iyulun 27-də edildi. Bu dəfə keçmiş qəbilə-tayfa şeyxləri və sultanlarının, eləcə də MCST-ə müxalif olan siyasi təşkilatların qoşulduğu bu üsyanı yatırmaq mümkün olmadı. Solçu liderlər Ədənə qayıtdılar. Tərəflər arasında kollektiv rəhbərlik, ordu və polisin yenidən qurulması, iqtisadiyyatı xarici

kapitalın inhisarından qurtarmaq və s. haqqında razılaşma əldə edildi.

1969-cu ilin mayında prezident Qəhtan əş-Şəabi və daxili işlər naziri Məhəmməd Əli Xeysəm arasında münaqişə yarandı. Prezident naziri vəzifəsindən azad etdi və bu zəmində münasibətlər yenidən pozuldu. MCST-in sol qanadı əş-Şəabini özbaşınalıqda ittiham etdi. Prezident ordu və polisin onu müdafiə edəcəyinə inanaraq istefa verdiyini bildirdi. Solçular vəziyyətdən yararlandılar və çevriliş etdilər. Ölkənin hakimiyyəti 1969-cu il iyulun 22-də MCST-in sol qanadına keçdi. Bu çevriliş "təshih hərəkatı" adı aldı.

1969-cu ilin sonlarında MCST-in ali rəhbərliyinin qərarları ilə Salim Rübəyyə Əli (sədr), Əbdül Fəttah İsmayıl və Məhəmməd Əli Xeysəmdən ibarət Prezident Şurası yaradıldı və fəaliyyət proqramı kimi "Tənqidi İcmal" adlanan sənəd qəbul edildi. Sənəd ölkənin sosialist təmayüllü inkişafını nəzərdə tuturdu. Bu baxımdan bəzi tədbirləri sadalamaq istərdik. 1969-cu noyabrın 27-də verilən "Dövlət bölməsinin iqtisadi tənzimlənməsi və milli planlaşdırma" qanununa əsasən xarici kapitala məxsus banklar, sığorta və ticarət şirkətləri, neft və dənizçilik təsisatları milliləşdirildi. Bir sıra əsas istehsal və ticarət sahələri dövlət inhisarına keçdi. 1972-ci ilin avqustunda icarəyə verilən bütün özəl tikintilər, evlər, binalar, ticarət və xidmət müəssisələri milliləşdirildi.

1970-ci il 5 noyabr tarixli aqrar qanuna görə torpaq mülkiyyəti suvarılan ərazidə 20 fəddan, dəmyə torpaqlarda 40 fəddan oldu. Kənddə kooperativ və dövlət təsərrüfatları yaradılmağa başlanıldı.

1970-ci il noyabrın 30-da yeni konstitusiya qəbul olundu. Ölkə Yəmən Xalq Demokratik Respublikası adlandırıldı. 1971-ci ilin iyununda əsasən MCST və ona yaxın olan partiya və təşkilat üzvlərindən ibarət ali qanunverici orqan olan Ali Xalq Şurası formalaşdırıldı. Orta və aşağı sosial təbəqələri öz bazasına çevirmək üçün hakimiyyət onların bu və ya digər təşkilatlar yaratmasına, - təbiidir ki, MCST-in nəzarəti altında, - qayğı göstərirdi.

Xarici siyasət sahəsində Sovet İttifaqı başda olmaqla digər sosialist dövlətləri ilə geniş əlaqələr qurulmasına önəm verildi.

1972-ci ilin martında MCST-in V qurultayında yeni proqram və nizamnamə qəbul edildi. MCST-in ideoloji əsasının elmi kommunizm olduğu rəsmən bəyan olundu.

Sol təmayüllü Xalq Demokratik İttifaqı (XDİ) və Bəəs partiyası ilə birləşmək haqqında aparılan uzun danışıqlar 1975-ci ilin martında çağırılan birləşdirici qurultayda Birləşmiş Milli Cəbhə Siyasi Təşkilatının (BMCST)

yaradılması ilə nəticələndi.

BMCST hakim partiya oldu və ölkənin bütün yerlərində və hər bir təşkilatda onun özəkləri yaradıldı. BMCST Sovet İttifaqı Kommunist Partiyası və digər kommunist partiyaları ilə sıx əlaqələr qurdu, öz fəaliyyətində beynəlxalq kommunist hərəkatı təcrübəsinə əsaslanmağa xüsusi önəm verməyə başladı.

Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, BMCST liderlərinin elmi sosializm haqqında düşüncələri bir-birindən kəskin surətdə fərqlidir. Hətta bəzən belə təsəvvür yaranırdı ki, onların elmi sosializmə meyli şüurdan daha çox həyəcanlı hisslərə söykənir. Əslində bu, belə də olmalıydı. Qəbilə-tayfa münasibətlərinin hakim olduğu bir cəmiyyətdə nəinki elmi sosializm, heç humanist sosializm də özünə normal mühit tapa bilməzdi. Həmin səbəbdən də *partiya liderləri arasında ixtilaflar* həmişə mövcud olmuşdu və zaman-zaman özünü göstərmişdi.

Birləşmədən sonra partiyadaxili mübarizənin ilk qurbanı Salim Rübəyyə Əli oldu. Opportunizmdə suçlandırılan Rübəyyə Əlidən istefası tələb olundu. Tələb yerinə yetirilməyincə isə o, dövlət çevrilişinə cəhddə ittiham edildi və edam olundu.

Qeyd edək ki, ideoloji ixtilafların artmasında aparılan iqtisadi siyasətin də nəticələri az rol oynamamışdır. Belə ki, BMCST liderləri iqtisadi inkişafın başlıca şərtləri kimi dövlət və koopertaiv bölmələrinin genişləndirilməsinə və planlı təsərrüfat prinsiplərinin tətbiqinə önəm verirdilər. Doğrudur, bu istiqamətdə müəyyən uğurlu addımlar atıldı. Lakin elə ilk vaxtdan iqtisadi uğursuzluqlar daha çox oldu. 1971-1973-cü illərə dair üçillik plan, ümumiyyətlə, yerinə yetirilə bilmədi. 1974-1978-ci illərə dair beşillik plan isə kəsirlə başa çatdı. İqtisadiyyatın dövlət bölməsi yaradıldı və faktik olaraq onun payı 60%-i keçdi. Ancaq dövlət bölməsindəki əsas və iri istehsal obyektləri bir qayda olaraq zərərlə işləyirdi. Aqrar sahədə kooperativləşmə siyasəti isə, demək olar ki, uğursuz oldu. Kənddə ənənəvi təsərrüfat tərzi dağıdıldı, yenisini isə lazımi səviyyədə qurmaq mümkün olmadı. Bu işdə kəndlilərin kooperativ təsərrüfat tərzinə heç cür alışa bilmədikləri amilini xüsusilə qeyd etmək lazımdır. Kooperativlər yönümündən asılı olmayaraq rentabelli deyildi və böyük zərərlə işləyirdi.

Yaranmış siyasi və iqtisadi çətinliklər səbəbindən BMCST liderləri öz fəaliyyət kurslarında müəyyən dəyişikliklər etdilər. Birincisi, BMCST bazasında Yəmən Sosialist Partiyası (YSP) yaradıldı. 1978-ci il oktyabrın 11-13-

də partiyanın I qurultayında proqram və nizamnamə qəbul olundu. Əbdül Fəttah İsmayıl YSP MK-nın baş katibi seçildi. İkincisi və ən başlıcası, proqramda "sosialist perspektivli vahid demokratik Yəmən qurulması" əsas məqsəd kimi qarşıya qoyuldu. Bu isə, dolayısı da olsa, ölkədə başdan-başa sosializm quruculuğundan imtina edilməsi idi.

Sonrakı dövrdə də partiyadaxili mübarizə səngimədi və 1980-ci ilin aprelində Əbdül Fəttah İsmayıl tutduğu vəzifələrdən istefa verdi. Onun yerini Əli Nasir Məhəmməd tutdu.

YSP rəhbərliyi iqtisadi inkişaf perspektivlərinə bəzi düzəlişlər etsə də, neqativ ənənələrdən tamam xilas ola bilmədi. 1981-1985-ci illərə dair ikinci beşillik planda dövlət bölməsinə xüsusi yer verilməsi ilə yanaşı orta və kiçik özəl istehsalçılara qayğı göstərilməsi də nəzərdə tutuldu. Özəl bölməyə yaradılan bu imkan onunla nəticələndi ki, həmin illərdə özəl istehsal obyektlərinin səmərəliliyi zəminində dövlət bölməsinin yararsızlığı daha qabarıq şəkildə görsəndi. YSP rəhbərliyi bundan düzgün nəticə çıxarmaq əvəzinə, əksinə, həmin faktdan partiyadaxili mübarizədə qarşılıqlı ittiham məqsədilə bir istinad kimi istifadə etməyə başladı. 1985-ci ilin oktyabrında YSP-nin III qurultayında növbəti beşillik (1986-1990-cı illər) plan qəbul olunanda partiyadaxili mübarizə son həddə çatdı. MK-nın baş katibi Əli Nasir Məhəmməd güclü tənqidə məruz qaldı. Səngimək bilməyən gərginlik 1987-ci ildə onun istefası ilə nəticələndi və yerinə Əli Səlim əl-Beyd MK-nın baş katibi, Heydər Əbu Bəkr əl-Əttas Ali Xalq Şurasının sədri, Yasin Səlim Numan isə baş naziroldular.

YSP hakim partiya kimi yarandığı gündən siyasi təşkilat olmaqdan daha çox bir dövlət strukturu rolunu oynayırdı. YSP və dövlətin siyasəti və tarixi bütövləşmişdi desək, daha doğru olardı. Bununla yanaşı, formal da olsa, həmin dövrdə bəzi dövlət strukturlarının yaranması və fəaliyyət göstərməsi halları da oldu. Bu baxımdan 1978-ci il oktyabrın 31-də qəbul olunmuş yeni konstitusiyaya əsasən parlamentə – Ali Xalq Şurasına və yerli xalq şuralarına seçkilərin keçirilməsini qeyd etmək lazımdır.

YSP-nin hakimiyyəti dövründə sosialist təmayüllü inkişaf kursunun iflası və böhranı getdikcə dərinləşdi. Ölkədə sosial şərtlərin patriarxal səviyyədə olması, mədəni gerilik, milli ənənələrə möhkəm bağlılıq və cəmiyyətin alt qatında güclü bir durğunluğun mövcudluğu "sosialistlər"in əsaslı dəyişikliklər aparmaq istəyi ilə ziddiyyət təşkil edirdi. "Proletar" və "fəhlə-kəndli" şüarları, "proletar beynəlmiləlçiliyi" xalq üçün daha doğma olan

"ərəb millətçiliyi" və "ərəb sosializmi" şüarları qarşısında gücsüz görünürdü, xalq tərəfindən dəstəklənmirdi. İrəlidə haqqında danışdığımız "vahid cəbhə"lərin yaranması, təbiidir ki, ölkədə bir-birinə zidd bu iki cərəyanın mövcudluğundan qaynaqlanırdı. Həm də "vahid cəbhə"lər nə qədər ki, istiqlaliyyət və suverenlik uğrunda mübarizə aparırdılar, öz bütövlüyünü qoruyub saxlayırdılar. Sonrakı dövrdə "vahid cəbhə"lərdə cəmləşən qüvvələrin birliyinin pozulması labüd idi və belə də oldu. "Sosialistlər" Sovet İttifaqında rəhbərliyə M.Qorbaçovun gəlməsindən sonra yeganə qarantlarını – sovet maddi yardımını və mənəvi dəstəyini itirdilər. Həmin vaxtdan YSP rəhbərləri marksizmə-leninizmə sədaqətlərini dilə gətirməkdən vaz keçdilər. 1985-ci ildən sonra YXDR-in iqtisadi, siyasi və mənəvi həyatında böhranlı şərait yarandı. Artıq 1988-ci ildə dövlətin beynəlxalq maliyyə hesablaşmalarının yeganə mənbəyi neft ölkələrində çalışan ölkə vətəndaşlarının vətənə göndərdikləri valyuta idi. 1988-1990-cı illərdə xarici borcları ödəmək baxımından YXDR çıxılmaz duruma düşdü.

### *İki Yəmənin birləşməsi və vahid dövlətin yaranması*

XX əsrin 80-ci illərinin sonu iki dövlətə bölünmüş və fərqli ideoloji şərtlər içərisində yaşayan yəmənlilərin tarixində dönüş dövrü oldu. Hər iki dövlətdə aramsız davam edən çəkişmələrin mahiyyəti və törətdiyi çətinliklərin ağırlığı cəmiyyət tərəfindən daha düzgün qiymətləndirilməyə başladı. Bunlardan xilas olmağın yolları haqqında düşünmək daha aktual oldu. Xüsusilə də Sovet İttifaqının timsalında sosialist rejiminin çöküşü radikal düşüncələrə güclü təsir göstərdi. Xəyali sosializm quruculuğundan çəkilmək və həyat reallıqları ilə hesablaşmaq zərurəti YXDR rəhbərliyini bir çox problemlər haqqında düşünməyə məcbur etdi. Bunların da başında bölünmüş vətənin bütövləşməsi məsələsi dayanırdı. Doğrudur, bu məsələ həmişə hər iki dövlətin siyasətində müəyyən yer tuturdu. Hələ 1981-ci ildə əsası qoyulan Yəmən Şurası 1983-cü ildə Sənada toplaşıb YƏR və YXDR-in unifikasiya məsələlərini müzakirə etmiş və qərarlar qəbul etmişdi. 1986-cı ildə birləşmə haqqında ilkin sənəd imzalanmışdı. Bir sıra problemlərin həlli istiqamətində müəyyən addımlar atılmış, o cümlədən qaçqınların böyük bir qismi 1987-ci ildə Quzeydən Güneyə qayıtmaq imkanı qazanmışdı. 1988-ci ildə hər iki dövlətin silahlı güvvələri mübahisəli sərhəd zonalarından geri çəkilmiş və tərəflər arasında təhlükəsizlik zolağı yaradılmışdı. Hər iki dövlətin vətənda-

şının azad hərəkət etmək hüququ var idi.

Bütün sadalananlar, ləng də olsa, birləşmə prosesinin getməsinin göstəriciləri idi. Lakin onun intensivləşməsi və birləşmənin gerçəkləşməsi üçün qəti qərar verilməsi, yuxarıda deyildiyi kimi, keçən əsrin 80-ci illərinin sonuna təsadüf edir.

Belə ki, 1989-cu ilin noyabrında hər iki Yəmənin rəhbərləri birləşmə haqqında sənədi imzaladılar. Vahid dövlətin konstitusiya layihəsi hazırlandı. Bütün sənədlər hər iki dövlətin parlamenti tərəfindən təsdiqləndi və Yəmən xalqının tarixində misilsiz əhəmiyyəti olan hadisə baş verdi: 1990-cı il mayın 22-də vahid Yəmən Respublikasının yaradıldığı elan olundu. Səna siyasi paytaxt, Ədən isə iqtisadi və ticarət mərkəzi statusu qazandı. Quzeyin lideri Əli Abdullah Saleh prezident, Güneyin lideri Əli Salim əl-Beyd onun müavini oldu. 20 nəfər Quzeydən və 19 nəfər Güneydən olmaqla 39 nəfərlik müvəqqəti Nazirlər Şurası (baş nazir Güneyin prezidenti əl-Əttas idi), Ə.A.Saleh başda olmaqla 5 nəfərlik Prezident Şurası və 45 nəfərlik Məşvərət Şurası yaradıldı.

1991-ci ilin mayında keçirilən referendumda bəzi radikal islamçı təşkilatlar və siyasi partiyaların etirazına baxmayaraq xalq birləşməyə səs verdi. İllərlə iki yerə bölünmüş ölkə və xalq bütövləşdi. İstər sosial-iqtisadi, istərsə mədəni-mənəvi inkişaf bir məcraya düşdü. Vətəndaş müharibəsinə və günahsız qanlar axıdılmasına son qoyuldu. Bölünmüş ailələr birləşdi və s. Ən başlıcası isə Quzey çoxpartiyalılığa olan neqativ münasibətindən, Güney isə öz ideoloji kursundan imtina etdi. Yeni konstitusiya ölkədə çoxpartiyalılığı qanuniləşdirdi.

Təbiidir ki, birləşmə həm də obyektiv olaraq müəyyən çətinliklər də yaratdı. Xüsusilə də Körfəz böhranı (1990-1991-ci illər) zamanı Yəmənin İraqı dəstəkləməsi onun maliyyə yardımlarından məhrum edilməsi və bir milyona yaxın yəmənlinin Səudi Ərəbistandan qovulması ilə nəticələndi. İşsizlik, sosial çətinliklər, inflyasiya, yerlibazlıq, qohumbazlıq, korrupsiya və s. artdı. Ölkə böhranlı duruma düşdü. Daxili münaqişələr, qəbilələr və müxtəlif siyasi partiyalararası toqquşmalar, terror aktları, sui-qəsdlər, siyasi rəqiblərə qarşı amansız hücumlar səngimirdi. Bu şəraitdə Yəmənin yeni rəhbərliyi ölkədə siyasi istiqrara nail olmaq və iqtisadi çətinlikləri aradan qaldırmaq yolunda qərarlı oldu. Milliləşdirilmiş mülkiyyətin öz sahibinə qaytarılması haqqında qanun (iyun, 1990-cı il), yeni konstitusiyanın qəbulu (22 may 1991-ci il), siyasi partiyalar və təşkilatlar haqqında qanunun qəbulu və s.

ciddi əhəmiyyəti olan tədbirlər kimi dəyərləndirilməlidir. 1993-cü il aprelin 27-də parlamentə seçkilər keçirildi. Deputat yerlərinin çoxunu Xalq Konqresi, Sosialist Partiyası və "İslah" Partiyası (İslahatlar Uğrunda İslam Hərəkatı – müəl.) qazandı. Seçkilərdən sonra 2,5 il ərzində bütün ölkə boyu dövlət və qanunvericilik strukturlarının unifikasiyasının başa çatdırılması qərarlaşdırıldı.

1993-cü ilin mayında prezident seçilən Əli Abdullah Saleh (o, Xalq Konqresi Partiyasını təmsil edirdi – müəl.) ölkədəki əsas siyasi qüvvələri bir araya gətirmək üçün Xalq Konqresi, Sosialist Partiyası və "İslah" Partiyası təmsilçilərindən ibarət koalisyon hökumət təşkil etdi. Sosialist Partiyasının lideri Əli Səlim əl-Beyd vitse-prezident, "İslah"ın lideri şeyx əl-Əhmər parlamentin spikeri və Heydər əl-Əttas baş nazir oldular. Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, unifikasiya prosesi heç də normal məcrada getmir. Prezident və vitse-prezident arasında bir sıra məsələlərə yanaşmada fikir ayrılığının mövcudluğu qanlı nəticələrə gətirdi. 1993-cü ilin avqustunda ölkə vətəndaş müharibəsinə sürükləndi. Doğrudur, 1994-cü ilin əvvəlində siyasi partiyaların liderləri bir araya gəldilər və təhlükəsizliyin qorunmasını, konstitusiya və iqtisadi siyasətin yeniləşdirilməsini nəzərdə tutan "Qarşılıqlı öhdəliklər və razılaşmalar" adlı sənəd qəbul etdilər. Sənəd fevralda Urdunun paytaxtı Əmmanda Ə.A.Saleh və Ə.S.əl-Beyd tərəfindən də imzalandı. Lakin münaqişəyə son qoymaq nəinki mümkün olmadı, əksinə, tərəflər ölkə daxilində və xaricində özlərinə tərəfdarlar axtarışında daha da fəallaşdılar. Martda Quzey və Güney arası sərhədlərdə toqquşmalar baş verdi. Mayın 21-də isə (birləşmənin 4-cü ildönümü günü – müəl.) Ə.S.əl-Beyd Yəmən Demokratik Respublikasının yaradıldığını elan etdi. Prezident bu hərəkətin qeyri-qanuni olduğunu bildirdi və iştirakçıların əfvi haqqında fərman verdi. Eyni zamanda Ədənə ordu yeridildi.

Böhranın ciddiliyi Misir və Körfəz dövlətlərini hərəkətə gətirdi. Onların tələbi ilə məsələ BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarıldı. BMT TŞ atəşin dayandırılması, dialoqa başlanması və bölgəyə BMT komissiyasının göndərilməsi haqqında qətnamə qəbul etdi. Ə.A.Saleh qətnaməni qəbul etdi, ancaq əl-Beydın təslim olmasını da istədi. Tərəflərin ümumi razılığa gəlməməsi səbəbindən hərbi əməliyyatlar yenidən başladı. Hökumət qüvvələri 1994-cü il iyulun 7-də Ədəni tutdular və Ə.A.Saleh rəsmən vətəndaş müharibəsinin dayandırıldığını bildirdi. Bundan sonra o, öz mövqeyini və siyasi istiqrarı möhkəmlətmək məqsədi ilə bir sıra tədbirlər gördü. Əfv

fərmanı verildi və onun nəticəsində 5 minə yaxın vətəndaşın ölkəyə qayıtması mümkün oldu. Orduda partiya üzvlüyü yasaq edildi. Konstitusiyada dəyişikliklər aparıldı. Prezident Şurasının ləğvi və prezidentin ümumi səsvermə ilə seçilməsi qərara alındı. Şəriət qanunvericiliyin əsas mənbəyi elan edildi.

1994-cü il oktyabrın 1-də keçirilən prezident seçkilərində Ə. A. Saleh qalib gəldi. Oktyabrın 30-da isə müxtəlif siyasi partiyaların hakimiyyətin bütün strukturlarında əməkdaşlığına dair saziş və qarşılıqlı öhdəlik haqqında sənəd imzalandı. 1995-ci il isə bütünlüklə dövlət və hakimiyyət strukturlarının bütövləşməsinin başa çatması ili oldu. Ölkədə nisbi bir siyasi istiqrar yarandı. Məhz bu da imkan verdi ki, həmin vaxt kəsiyində Yəmən və qonşuları arasında üzə çıxan bir sıra problemlər, Səudi Ərəbistan ilə sərhədlərin dəqiq müəyyənləşdirilməsi və ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi haqqında razılaşma əldə edildi. Omanla sərhədlər qaydaya salındı. Eritreya ilə mübahisəli ərazilər məsələsinin həllinə önəm verildi və tərəflər 1996-cı ildə danışıqlar masası arxasında əyləşdilər.

Həmin dövrdə Yəmənin daxili siyasi həyatında ən mühüm hadisə 1996-cı ildə seçkilər haqqında qanunun qəbulu və 1997-ci il aprelin 27-də parlamentə vahid Yəmən coğrafiyasında seçkilərin keçirilməsi sayılmalıdır. Qeyd edək ki, vətəndaş müharibəsi illərində əsasən Güneyun güclü siyasi qüvvəsi sayılan Yəmən Sosialist Partiyasının zəifləməsi və parçalanması səbəbindən parlament seçkilərində 301 yerdən 187-ni Xalq Konqresi, 53-nü isə "İslah" Partiyası qazandı. Qalan yerlər digər partiya və müstəqil qüvvələr arasında bölüşdürüldü. "İslah" Partiyasının lideri şeyx əl-Əhmər yenidən parlamentin spikeri seçildi.

1997-ci ilin mayında prezident Məşvərət Şurasının fəaliyyətini bərpa etdi. Şuranın əsas işi parlament üzərində nəzarət olmuşdu. Onun tərkibi ölkənin bütün ərazisini təmsil edən və prezident tərəfindən təyin olunan 59 nəfərdən ibarət idi.

Yəmənin birləşməsindən sonra dövlətə başçılıq edən prezident Əli Abdullah Saleh ölkənin və xalqın birliyi yolunda meydana çıxan əngəlləri aradan qaldıra bildi, bütün qüvvələrin konsolidasiyasına nail oldu və vahid vətənin yenidən parçalanmaq ehtimalının təcrübədə mümkünsüzlüyünü sübut etdi, birləşmiş Yəmənin rəğbət göstərdiyi liderə çevrildi. Elə bu səbəbdən də o, 1999-cu ildə keçirilən prezident seçkilərində qalib gəldi (onun rəqibi Güney Yəmənin ilk prezidentinin oğlu Nəcib əş-Şəabi idi – müəl.) və beşinci

dəfə prezident seçildi.

Vahid Yəmənin iqtisadi həyatında baş verən dəyişikliklərə gəlincə, qeyd edək ki, birləşmədən sonra dövlətin həm siyasi kursu, həm də iqtisadi inkişafı vahid bir məcraya düşdü. Bu baxımdan bütün ölkədə iqtisadiyyatın liberallaşdırılması yönündə göstərilən səy və cəhdlər, həyata keçirilən tədbirlər mühüm rol oynadı. Lakin ölkənin göstəriciləri o qədər də uğurlu deyildi. Çünki: birincisi, birləşmədən sonra müxtəlif inkişaf yollarının bütövləşməsi xeyli zaman tələb etdi; ikincisi, Körfəz savaşı dövründə ərəb ölkələrindən gələn maliyyə yardımlarının kəsilməsi ciddi çətinliklər yaratdı və üçüncü, ölkədə gedən vətəndaş müharibəsi, Səudi Ərəbistan və Eritreya ilə hərbi münaqişələr hərbi xərclərin artırılmasına gətirib çıxarmışdı. Həmin illərdə Yəmən ən kasıb və yoxsul ərəb ölkələrindən birisi olaraq qalırdı və sadalanan səbəblər üzündən dövlətin iqtisadi inkişaf planlarının gerçəkləşməsi mümkün olmurdu. Məsələn, 1990-1991-ci illərdə Məarib bölgəsində zəngin neft yataqlarında axtarış-kəşfiyyat işlərinin aparılması və neft hasilatının səviyyəsi Körfəz savaşı dövründə iki dəfəyə qədər aşağı düşdü. Sonrakı illərdə Məribdə tapılan yeni neft yataqlarının, eləcə də Hadramaut və Məsilə bölgələrində kəşf edilən neft və qaz yataqlarının istismarı olduqca ləng gedirdi. İqtisadiyyatın digər sahələrində də vəziyyət belə idi. Bir tərəfdən daxildə gedən siyasi, bəzən də qanlı hərbi qarşıdurmalar, o biri tərəfdən böyük maliyyə çatışmamazlığı iqtisadi həyatda, xüsusilə energetika sahəsində dönüş yaratmaq imkanını heçə endirmişdi. Bu hal ölkədə daxili siyasi istiqrarın, nisbi də olsa, bərqərar olunduğu 1994-cü ilədək dəyişilməz qaldı. Həmin ildə prezident Ə.A.Saleh ABŞ, Kanada və İtaliya kimi ölkələrə ziyarət etdi. O dövlətlərin rəhbərləri ilə yüksək səviyyəli görüşlərdə əsas diqqət iqtisadi məsələlərə verildi. ABŞ və İtaliya ilə Yəmən sənayesinə, xüsusilə energetika sahəsinə sərmayə qoymaq, Kanada ilə isə neft-kəşfiyyat işlərinin aparılması və neft hasilatına yardım edilməsi haqqında razılaşmalar imzalandı.

Yəmənin üzünü ABŞ-a və Avropaya tutması, beynəlxalq maliyyə mərkəzləri ilə əlaqələr qurması ölkənin ehtiyac duyduğu kapital qaynaqlarının yaranmasına imkan verdi. Məhz həmin dövrdən də iqtisadi layihələrin həyata keçirilməsinə başlanıldı. Bu baxımdan Kanadanın iqtisadi və texniki yardımı ilə neft yataqlarının istifadəyə verilməsi və ölkədə neft sənayesinin dirçəldilməsini qeyd etmək lazımdır. Sonralar bu işə digər ölkələr də qoşuldu və 20-yə qədər ABŞ, ingilis, fransız, italyan və s. neft şirkəti ölkədə fəa-

liyyət göstərirdi. Yəmən dünyanın ən iri neft ixrac edən ölkələr sırasında yer aldı və 2000-ci ildə gündəlik neftin orta hasilatı 375 min barrelə çatdı. Çıxarılan neftin 70%-i ixrac edilirdi. Həmin illərin sonlarında qəbul edilən iqtisadiyyatın modernləşdirilməsi proqramının əsas hədəfi isə xarici borcların (1999-cu ildə bu rəqəm 8 milyard dollar idi – müəl.) maksimum azaldılması oldu. Neft məhsulları, tikinti materialları, sement, duz, ərzaq məhsulları, toxuculuq, ayaqqabı, siqaret və dərman istehsalı sənayenin başlıca sahələrinə çevrildi.

Ölkə əhalisinin 10%-i sənayedə çalışırdı və milli gəlirin 12%-i sənayenin payına düşürdü. Əhalinin 70%-i isə kənd təsərrüfatı sahəsində çalışırdı. Ümummilli gəlirdə kənd təsərrüfatının payı 20%-oldu. Bununla yanaşı, ümumi iqtisadi gerilik və ağır təbii şəraitin mövcudluğu aqrar sahənin inkişafına maneə olaraq qalırdı. Bu səbəbdən Yəmən ehtiyac duyduğu əsas ərzaq məhsullarının 70%-ni idxalın hesabına ödəyirdi.

Dövlət pambıqçılıq və digər əkinçilik məhsulları istehsalının (xüsusilə dənli bitkilər sahəsində) inkişafına önəm verirdi. Bu səbəbdən də, Yəmənin ixracatında pambıq, taxıl, meyvə-tərəvəz və süd məhsulları da yer aldı. Lakin əsas ixrac məhsulları neft və qəhvə idi. Dünyanın bir sıra ölkələri ilə ticarət əlaqələri genişləndi və onların da başında Çin (31%), Güney Koreya (19%), Tayland (17%), Yaponiya (5%) və Braziliya (5%) gəlirdi.

Yəmən fəal xarici siyasət kursunu davam etdirir, qonşu dövlətlərlə normal və sabit əlaqələr saxlamağa çalışırdı. Mövcud problemlərin dinc vasitələrlə həllinə önəm verirdi. 1998-ci ildə Səudi Ərəbistan ilə mübahisəli sərhədlər məsələsinin həllində müəyyən razılaşmalar əldə olundu. Eritreya ilə olan mübahisəli ərazi məsələsini isə Haaqa Beynəlxalq Arbitrajı Yəmənin xeyrinə həll etdi.

Bununla yanaşı, ölkədə insan haqlarının pozulması hallarının genişlənməsi, radikal islamçı təşkilatların fəallaşması, bəzi xarici vətəndaşların girov götürülməsi və s. Yəmənin beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən ciddi tənqidinə səbəb olurdu. Hətta 11 sentyabr 2001-ci il hadisələrindən sonra Yəmənin adı terrorçu təşkilatların yerləşdiyi və fəaliyyət göstərdiyi ölkələr sırasında yer aldı.

Yəmən hakimiyyəti edilən xəbərdarlığa anında reaksiya verdi. Ölkənin təhlükəsizlik qüvvələri bəzi radikal islamçı qüvvələrə qarşı əməliyyatlar keçirdi, onların üzvlərinin bir hissəsi həbs olundu, digərləri isə xaricə qaçmaq məcburiyyətində qaldı. Görülən tədbirlərə baxmayaraq radikal islamçı

qüvvələrin Yəmənin ictimai-siyasi həyatına və təhlükəsizliyinə təsiri aradın qalxmadı. Bununla yanaşı, onu da qeyd edək ki, prezident Ə.A.Saleh hələ də müxtəlif siyasi qruplaşmalar arasında manevr imkanlarını saxlayır və mövqelərini qoruyurdu.

Yəməndə 2001-ci ildə keçirilən referendumda deputatların və prezidentin səlahiyyət müddətləri müvafiq olaraq 4 ildən 6 ilə, 5 ildən 7 ilə qədər artırıldı. 2001-ci ildə özünüidarəetmə orqanlarına - bələdiyyələrə də ilk dəfə seçkilər keçirildi. Yeni qanunvericiliyə görə, əyalətlərin valiləri də seçilməli idi. Lakin bu seçkilər ilk dəfə 2008-ci ildə baş tutdu. Bunlarla kifayətlənməyən müxalifət prezident Ə.A.Salehdən Konstitusiyada əsaslı dəyişikliklərin edilməsini tələb edirdi. Ən başlıcası isə icra hakimiyyətinin səlahiyyətlərinin azaldılması hesabına qanunverici hakimiyyətin gücləndirilməsi, əyalətlərin muxtariyyətinin və yerli özünüidarə orqanlarının funksiyalarının artırılması istənilirdi. Müxalifətin bəzi qrupları isə prezident üsul-idarəsinin ləğv edilməsini və parlament sisteminə keçilməsi tələbini irəli sürürdü.

Belə bir məqamı xüsusi vurğulamaq lazımdır ki, 11 sentyabr 2001-ci il terror hadisəsindən sonra ABŞ və antiterror koalisiyasının Yəmənə diqqəti gücləndi. Bu, bir tərəfdən ölkənin hərbi-strateji əhəmiyyəti, onun Avropadan Qırmızı dəniz və Bab əl-Məndəb boğazı vasitəsilə Asiyaya gedən dəniz yolları, Afrika Buynuzu və Ərəbistan yarımadasının kəsişdiyi yerdəki mövqeyi ilə bağlı idisə də, digər tərəfdən, Ərəbistan yarımadasında yerləşən iri neft yataqları və neftin böyük hissəsinin bu yollar vasitəsi ilə dünya bazarlarına nəqli ilə bağlı idi. Neft və geosiyasətin qarşıdurması isə bölgəyə yaxşı heç nə vəd etmirdi. Hadisələrin sonrakı gedişi bunun obyektiv olduğunu göstərdi.

Yəmən antiterror koalisiyasına qoşuldu və kampaniya çərçivəsində ona verilən yardımların həcmi artdı. 2002-ci ildə ölkənin bütün dəniz limanlarında, aerodromlarında, Sana və Ədənin digər strateji obyektlərində müasir kompüter-nəzarət sistemləri quraşdırıldı. Yəmən ordusunun hissələri və ABŞ-ın Xüsusi təyinatlıları Məarib və əl-Cauf əyalətlərində radikal islamçı qruplarına qarşı və ölkə ərazisində gizlənən "əl-Qaidə" başçılarının tutulması üçün birgə əməliyyatlar keçirdilər.

Yəmən ABŞ və Batı dövlətləri ilə siyasi, hərbi-texniki və iqtisadi sahələrdə əməkdaşlığı genişləndirdi. 2001-ci ildə ABŞ və Yəmən arasında təhlükəsizlik sahəsində saziş imzalandı. Onun şərtlərinə görə, ABŞ-ın 5-ci donanmasının təchizatı Ədən limanında olmalı idi.

XXI əsrin əvvəllərindən etibarən ölkənin əsas müxalifət qüvvələri Saleh rejiminə qarşı vahid hərəkatın yaradılması zərurətini önə çəkməyə başladılar. YSP lideri X.Ömərin səyləri nəticəsində 2002-ci ildə "Birgə Görüş" ("Liqa Muştərakə") adlı koalisiya yaradıldı. Onun tərkibinə YSP, "İslah" partiyası, Nasirçilər (yunionistlər), "Haqq partiyası" (Hizb əl-Haqq), "Xalq qüvvələri Birliyi" (İttihad əl-quvva əş-şaabiyyə) və Bəəs partiyası daxil idi. Koalisiyanın əsas hədəfi 2006-ci ildə keçirilməsi nəzərdə tutulan prezident və yerli özünüidarə orqanlarına seçkilərlə bağlı idi. Onu da qeyd edək ki, Ə.A.Salehin iqtisadi proqramının iflasa uğraması və əhali arasında sosial narazılığın artması da müxalif qüvvələrin mövqeyini gücləndirirdi. Ölkənin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırması məqsədilə koalisiyaya daxil olan partiyalar yeni islahatlar proqramı hazırladı. Lakin 2003-cü ildə keçirilən parlament seçkiləri Ə.A.Salehin nüfuzunun ölkədə yetərincə olduğunu göstərdi. İqtidar partiyası olan Xalq Konqresi parlamentdəki yerlərin 2/3-ni əldə etdi və öz mövqelərini daha da gücləndirdi. İkinci yeri "İslah", üçüncü yeri isə 7 mandat qazanan YSP tutdu. Parlamentin spikeri A.əl-Əhmər oldu, özünüidarə orqanlarına seçkilərdə də Xalq Konqresi əksər yerləri qazandı.

Bununla belə, Yəməndə daxili siyasi vəziyyət daha da mürəkkəbləşməkdə idi. 2004-cü ilin yayında ölkənin quzey-doğusundakı Səad əyalətində (Yəmən-Səudi sərhədlərinə yaxın) şeyx Əli Hüseyn əl-Hausinin başçılığı altında zeydi tayfalarının üsyanı baş verdi. Üsyan hakimiyyət qüvvələri tərəfindən yatırılsa da, tayfalar şeyxin qətlindən sonra da mübarizəni dayandırmadılar. Buna baxmayaraq, 2005-ci ildən etibarən ABŞ Yəməndə korrupsiyanı, idarəçilikdə ciddi nöqsanların olmasını, islahatların ləng aparılmasını, insan haqlarının pozulmasını önə çəkməyə başladı. Məhz bu səbəbdən də Ə.A.Salehin Vaşinqton səfəri təxirə salındı və "Minilliyin çağırışı" layihəsi çərçivəsində ölkəyə verilməsi nəzərdə tutulan yardımdan imtina edildi. Dünya Bankı tərəfindən Yəmənə verilən yardımın miqdarı da azaldılaraq 420 mln dollardan 280 mln dollara endirildi. 2006-cı ilin fevralında ABŞ, Böyük Britaniya və Almaniya hökumətləri korrupsiya, idarəetmədə şəffaflığın olmaması və s. problemlərin tezliklə aradan qaldırılmasını Ə.A.Salehdən tələb etdilər. 2007-ci ildə əl-Hausi tayfalarının yenidən silahlı üsyanı başladı. Sonrakı illərdə də onlarla hökumət qüvvələri arasında qanlı döyüşlər davam etdi. Qatar əmirliyinin vasitəçiliyi ilə 2008-ci ildə baş tutan atəşkəs 2009-cu ildə pozuldu və silahlı qarşıdurma yenidən alovlandı.

Hökumət əleyhinə kütləvi çıxışlar ölkənin digər yerlərində də baş verirdi. Onlardan ən mütəşəkkili istefada olan zabitlərin öz acınacaqlı iqtisadi durumu ilə bağlı çıxışları idi. Az sonra onlara dövlət qulluqçuları, işsiz gənclər, müəllimlər və s. də qoşuldular. Eyni zamanda Güney-Quzey qarşıdurması üzrə ziddiyyətllər də artırdı. Güneyi təmsil edən qüvvələrin əsas narazılığı Quzey tərəfindən aparılan aşkar ayrı-seçkilik siyasətinə qarşı yönəlmişdi. 2008-ci ildən başlanan açıq çıxışlar sonralar da davam etdi. Həmin dövrdə böyük əks-səda doguran hadisələrdən birisi də paytaxt Sənada ABŞ səfirliyinə hücum edilməsi oldu. 2009-cu ilin ortalarından etibarən Yəmənin müxtəlif bölgələrini kütləvi etirazlar dalğası bürüdü. İlk olaraq ölkənin Güneyində - Ədən və Dalaa əyalətində müxtəlif şüarlarla, o cümlədən Güneyin ayrılması, ayrı-seçkiliyə son qoyulması və s. şüarlarla kütləvi mitinq və nümayişlər keçirildi. Sana və digər şəhərlərdə qiymətlərin kəskin surətdə artmasına, siyasi hüquq və azadlıqların pozulmasına qarşı mitinq və nümayişlər baş verdi.

2009-cu ilin sonlarında hökumətlə şiə üsyançılarının başçısı Ə.M.əl-Hausi arasında başlanmış danışıqlar müsbət nəticə verdi, 2010-ci ilin yanvarında müvəqqəti atəşkəs əldə edildi. Lakin onun ömrü uzun olmadı. Az sonra hərbi əməliyyatlar yenidən qızışdı. İş o yerə çatdı ki, 2010-cu il mayın 13-də bölgəyə səfər edən Baş nazirin müavini S.Ə.Əbu Rasaya qarşı sui-qəsd təşkil edildi.

Beləliklə, ölkənin Quzeyində və Güneyində müxtəlif şüarlar altında müxalif qüvvələrin və əhalinin hökumətə qarşı çıxışları nəinki daxili istiqrarın pozulmasına, hətta respublika üsul-idarəsinin qalıb-qalmamasına, yenidən imamlığın və zeydi imamlarının hakimiyyətinin bərpa edilməsi kimi meyllərə meydan açdı.

Qeyd edək ki, bütün bu hadisələr, xüsusilə də aşırı islamçı qüvvələrin getdikcə daha da fəallaşması və ABŞ səfirliyinə hücum faktı onu göstərdi ki, Yəmən hökuməti öz gücü daxilində "Ərəbistan yarımadasındakı əl-Qaidə" təşkilatı ilə mübarizə aparmaq iqtidarında deyildir. Ona görə də ABŞ antiterror kampaniyası çərçivəsində Yəmənə yardımları artırmaq məcburiyyətində qaldı.

Yaranmış şəraitdə Yəmən xüsusi xidmət qüvvələrinə hərbi təlimlərin keçirilməsi məqsədi ilə 2009-cu ildə ABŞ-dan xüsusi mütəxəssis qrupu göndərildi. Həmin ilin sentyabrında isə ABŞ Yəmənə göstərilən yardım proqramını bərpa etdi. Tərəflər arasında "Stabilləşdirmə Proqramı" adlı sənədə

görə ABŞ üç il müddətində Yəməndə yeni iş yerlərinin açılması, səhiyyə və sosial təminatların gerçəkləşməsi üçün 120 mln dollar məbləğində yardım ayırdı. O zamandan da antiterror kampaniyası çərçivəsində ABŞ-Yəmən əməkdaşlığı öz bəhrəsini verməyə başladı. Belə ki, Sənadakı Batı dövlətlərinin diplomatik, ticari və sivil qurumlarına qarşı genişmiqyaslı terror cəhdlərinin qarşısı alındı. Əbyan və Ərhab əyalətlərində "əl-Qaidə" bazalarına birgə uğurlu əməliyyatlar oldu. Çoxlu sayda terrorçu məhv edildi və həbsə alındı, bir qisim isə ölkənin sərhədlərini aşaraq Səudi Ərəbistana qaçdı.

Qeyd edək ki, daxili siyasi istiqrarsızlığın ən mühüm səbəblərindən biri ölkənin ağır iqtisadi durumu idi. Yəmən XXI əsrdə də ərəb dünyasının ən kasıb ölkələri sırasında qalmaqda davam edirdi. Doğrudur, irəlidə deyildiyi kimi, Hadramautda neftin kəşfi, hasil edilməsi və ixracına başlanılmasından, eləcə də 2005-ci ildə Məaribdə zəngin təbii qaz ehtiyatlarının aşkarlanmasından sonra müəyyən iqtisadi canlanma baş vermişdi.

2005-ci ildən sonra neftin dünya bazarlarında qiyməti də artmışdı. Lakin buna baxmayaraq inflyasiyanın çox sürətlə dərinləşməsi və genişlənməsi nəticəsində ölkə iqtisadiyyatında müsbət artım, demək olar ki, müşahidə olunmadı. Ədən azad ticarət zonasının yaradılması və limanın yenidən qurulması ilə minlərlə iş yerinin açılması və insanların rifah halının yaxşılaşdırılmasına olan ümidlər də özünü doğrultmadı. Ümumi Daxili Məhsul artımı çox aşağı səviyyəyə endi, işsizlər və kasıbların sayı artdı və əhalinin 40%-indən çox oldu. Adambaşına düşən gündəlik gəlir 3,5 dollar civarında idi. Dövlət və özəl bölmədə hökm sürən korrupsiya, rüşvətxorluq, yerliçilik və s. kimi neqativ hallar sosial-iqtisadi həyatı daha da gərginləşdirir, zənginlər və digər təbəqələr arasında uçurumu son dərəcədə dərinləşdirirdi.

Ə.A.Saleh iqtidarının az-çox uğurları var idisə, o da xarici siyasətlə bağlı idi. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən ölkədə aparılan islahatların dəstəklənməsi və onlara yardım edilməsi, ABŞ və Batı dövlətləri ilə yaxınlaşma cəhdləri müsbət addımlar idi. Xarici siyasət sahəsində Yəmən rəhbərliyinin ən önəm verdiyi istiqamət onun öz qonşuları ilə münasibətlərini daha da normallaşdırmaq və genişləndirmək məqsədi güdürdü. Yəmən ilk növbədə Səudi Ərəbistanı ilə olan mübahisəli ərazi və sərhəd məsələlərini tənzimlədi. Tərəflər 2003-cü ildə sərhədləri birgə qorumaq haqqında razılığa gəldilər. Müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi məqsədilə Yəmən-Səudi Ərəbistan Koordinasiya Şurası yaradıldı. 2005-ci ildə ilk dəfə olaraq birgə hərbi təlimlər keçirildi. 2006-cı ildə isə sər-

hədlərin demarkasiyasına aid saziş imzalandı. Beləliklə də, ərazi və sərhəd problemlərinin bir hissəsinin çözülməsi iki ölkə arasında münasibətlərin normalaşdırılmasına imkan verdi. Yəməndən daxil olan terrorçu və ekstremist ünsürlərin, qaçaqmalçıların, qeyri-leqal mühacirlərin və s. qarşısının alınması üçün Səudi Ərəbistan sərhədində müasir tipli istehkam və qurğular inşa edilməyə başlandı.

Sözügedən illərdə Yəmənin Körfəz əmirlikləri ilə münasibətləri dinamik inkişaf edirdi. Həmin dövrdə Yəmən Afrika Buynuzu regionunda da fəal siyasət yürüdürdü. O, Somali münaqişəsinin tənzimlənməsində vasitəçi kimi iştirak edir və burada keçid hökumətinin fəaliyyətini dəstəkləyirdi. Çünki Somali, Eritreya və Efiopiyadan gələn qaçqınlar Yəmənin zəif inkişaf etmiş iqtisadiyyatı və infrastrukturu üçün ciddi problemə və stabilliyi poza biləcək amilə çevrilmişdi.

Yəmən Rusiyanın Yaxın Doğuda ənənəvi tərəfdaşlarından biri olsa da, son dövrlərdə onların həm siyasi, həm də iqtisadi-ticari əlaqələri xeyli zəifləmişdi. Lakin Rusiya Ticarət-Sənaye palatasının prezidenti Y.Primakovun rəhbərlik etdiyi nümayəndə heyəti 2005-ci ildə Sanada olmuş və iki ölkə arasında ticarət əlaqələrinin bərpası ilə bağlı danışıqlar aparmışdı. Danışıqlar nəticəsində ikitərəfli İşgüzar Şuranın yaradılması haqqında razılıq əldə olunmuşdu. 2007-ci ilin sonunda Sanada Şuranın forumu keçirilmiş və tərəflər arasında ticari-iqtisadi əməkdaşlığın prioritet istiqamətləri müəyyənləşdirilmişdi. Bunlar ilk növbədə energetika, neft emalı, tikinti, dəniz və dəmir yol nəqliyyatının inkişafı, kənd təsərrüfatı və s. sahələrə aid idi. Bununla da ikitərəfli münasibətlərdə dirçəliş baş verdi.

Prezident Ə.A.Salehin 2009-cı ilin aprelində Moskvaya rəsmi səfəri çərçivəsində iki ölkə arasında ticari-iqtisadi əlaqələrin daha da genişləndirilməsi ilə bağlı danışıqlar aparıldı. Ə.A.Saleh Rusiya ilə energetika, hərbi-texniki və təbii ehtiyatların istismarı sahəsində əməkdaşlığa xüsusi önəm verildiyini qeyd edərək ölkəsində həyata keçirilən bir sıra iri layihələrdə rus şirkətlərinə xüsusi imtiyazların verilməsinə hazır olduğunu bildirmişdi.

Xüsusi qeyd etmək lazımdır ki, XXI əsrin ilk illərindən Türkiyə ilə münasibətlərin inkişafı da yüksələn xarakter almışdır. 2005-ci ildə Baş Nazirlər səviyyəsində səfərlər zamanı tərəflər arasında ticarət, energetika, səhiyyə, turizm və mədəniyyət sahəsində əməkdaşlığa dair bir sıra razılaşmalar imzalandı. Paytaxtlar arasında gündəlik aviareyslər açıldı. 2008-ci ildə Yəmən prezidenti Ə.A.Saleh Ankaraya səfər etdi. 2009-cu ildə isə Türkiyə-

nin xarici işlər naziri Ə.Babacan və TBMM spikeri K.Toptanın başçılıq etdikləri parlament nümayəndə heyəti Sanada oldu, tərəflər arasında bir sıra yeni sənədlər imzalandı.

Bütün bunların nəticəsində iki ölkə arasında ticari-iqtisadi əməkdaşlıq xeyli inkişaf etdi. 2009-cu ilin nəticələrinə görə, ikitərəfli ticarət mübadiləsi 380 mln dollara çatdı. Bu rəqəm 2008-ci ilin göstəricilərindən 7%, 2007-ci ildən isə 38% çox idi. Türk şirkətləri Yəməndə 1,5 mlrd dollar dəyərində bir neçə iri layihənin iştirakçısı oldu. 2010-cu ilin yanvarında Yəmənin iqtisadiyyatına, idarəetməsinə və qanunvericilik bazasının təkmilləşdirilməsinə yardım etmək məqsədilə yaradılan "Yəmənin dostları" adlı beynəlxalq Qrupun tərkibinə Türkiyə də daxil oldu.

Türkiyə prezidenti A.Gul 2011-ci ilin yanvarında iki ölkə tarixində ilk dəfə olaraq Yəmənə səfər etdi. Səfərin gedişində Yəmənin dövlət və hökumət rəhbərləri ilə ikitərəfli əlaqələrin inkişafı, regional və beynəlxalq problemlər müzakirə olundu və müxtəlif sahələri əhatə edən bir sıra sazişlər imzalandı. Diplomatik akademiyalar, dövlət teleşirkətləri, informasiya agentlikləri və hərbi sənaye kompleksləri arasında imzalanmış sazişlər hər iki tərəfin maraqlarını təmin edirdi. İki ölkə arasında işgüzar Şuranın yaradılması haqqında imzalanmış saziş ikitərəfli dialoqun perspektivləri baxımından mühüm əhəmiyyətə malik idi.

Təbiidir ki, Ə.A.Saleh hakimiyyətinin istər daxili, istərsə də xarici siyasət sahəsində fəaliyyətinin başlıca qayəsi ölkənin düçar olduğu çoxsaylı siyasi, iqtisadi və sosial böhranlar burulğanından çıxarmaq idi. Lakin bu yöndə görülən tədbirlər, edilən güzəştlər və verilən cəzalar nəticəsiz qalırdı. Hətta Yəmənin Quzey və Güney hissələrinin vahid dövlətdə birləşməsinin 20 illiyi münasibəti ilə 21 may 2010-cu ildə prezident Ə.A.Salehin ümumi əfv fərmanı gecikmiş və əhəmiyyətsiz bir sənəd oldu. Fərmana görə separatçılıqda ittiham olunan 800-ə yaxın güneyli, 2000-ə yaxın şiə üsyançı əfv edilməli idi. Fərmanın siyasi qüvvələri dialoqa dəvət etməsi, parlamentdə təmsil olunan bütün siyasi partiyalardan ibarət milli birlik hökuməti qurmaq təklifi də boş söz olaraq qaldı.

Bundan əlavə, siyasi sabitliyə nail olmaq məqsədilə 2010-cu ilin yanvarında hökumət aşağıdakı tələbləri irəli sürməklə şiə üsyançılara atəşkəs təklif etdi: atəşin dayandırılması və yolların açılması; bütün zəbt olunmuş ərazilərdən üsyançıların çıxarılması; əməliyyatlar vaxtı ələ keçirilən bütün növ silah və sursatların hökumət qüvvələrinə təhvil verilməsi; bütün hərbi əsirlər

və mülki şəxslərin azad edilməsi; ölkənin konstitusiyasına və qanunlarına riayət edilməsi; Səudi Ərəbistan ərazisinə basqılardan əl çəkilməsi.

Aparılmış siyasi danışıqlardan sonra 2010-cu ilin fevralında üsyançıların liderləri hökumətin irəli sürdüyü şərtləri qəbul etdiklərini bəyan etdilər. Bu şərtlərin yerinə yetirilməsinə nəzarət məqsədi ilə parlament xüsusi Milli Komitə yaratdı. Onun tərkibinə həm iqtidar, həm də üsyançıların nümayəndələri daxil edildi. Eyni zamanda Yəmən-Səudi sərhədlərinə yaxın Səada əyalətinin 4 bölgəsində atəşkəsə nəzarət edilməsi üçün xüsusi komissiyalar təşkil edildi. Lakin qısa müddətdən sonra tərəflər bir-birinə qarşı müxtəlif ittihamlar irəli sürməyə başladılar və durum yenidən kəskinləşməyə doğru getdi.

"Ərəb baharı" Yəməndə cərəyan edən proseslərdə bir növ katalizator rolunu oynadı. 2011-ci ilin əvvəllərindən ölkənin iri şəhərlərində prezident Ə.A.Salehin istefası, siyasi və iqtisadi islahatlar tələbi ilə etiraz aksiyaları başlandı. 17 fevral 2011-ci ildə bir qrup tanınmış din xadimi ölkədə milli birlik hökumətinin yaradılması və 6 ay müddətində hakimiyyətin dinc yolla təhvil verilməsi təşəbbüsü ilə çıxış etdi. 20 fevralda "Birgə görüş" müxalifət bloku bütün siyasi qüvvələrin, o cümlədən şiə üsyançılarının başçıları və Güney separatçılarının iştirakı ilə ümummilli konfransın keçirilməsini təklif etdi. Hakimiyyət böhranı nəticəsində Ə.A.Salehin bir neçə tərəfdarı hökumətin dinc əhaliyə qarşı qəddarlığı və zorakılığına etiraz əlaməti olaraq parlamentdəki koalisiyadan çıxdı.

Ölkədə narazılığın güclənəsi ona gətirib çıxardı ki, fevralın 26-da iki nüfuzlu tayfa birliyi – Haşid və Bəkil prezidenti dəstəkləməkdən imtina edərək müxalifətə keçdiklərini bəyan etdilər. Həmin gün Ə.A.Saleh ordu rəhbərliyi ilə fövqəladə iclas keçirdi və "son damla qanınadək" mübarizə aparacağını bəyan edərək bütün tələblərin parlamentdə müzakirə olunmasını təklif etdi. Vəziyyətin getdikcə gərginləşməsi davam edir, prezidentin ətrafında olan bir çox nüfuzlu şəxslər istefa verərək müxalifət düşərgəsinə keçdiklərini bildirdi. 2011-ci il martın 1-də bir neçə qəbilə şeyxi, dini lider və əsas siyasi partiyaların rəhbərləri hakimiyyətin dinc yolla təhvil verilməsini təklif etdilər. Plana görə 2011-ci ilin sonuna qədər Ə.A.Saleh öz istəyi əsasında istefaya getməli idi. Lakin sənədi rədd edən Ə.A.Saleh öz səlahiyyətlərini 2013-ci ilə qədər icra edəcəyini bildirməklə yanaşı, martın 18-də ölkədə fövqəladə vəziyyət elan etdi, martın 20-də isə hökuməti istefaya göndərdi.

Yəməndə A.S.Salehin istefası tələbi ilə kütləvi nümayişlərin artan xətlə davam etməsi, qarşıdurmada yüzlərlə ölən və yaralananların olması, hadisələrin nəzarətdən çıxması ehtimalını nəzərə alan Körfəz ölkələri Ə.A.Salehin istefası və hakimiyyətin vitse-prezident Ə.M.Hadiyə verilməsi təşəbbüsü ilə çıxış etdi. 2011-ci il aprelin 17-də Yəmən müxalifətinin nümayəndələri Səudi Ərəbistanın vasitəçiliyi ilə ölkədə hakimiyyətin dinc yolla ötürülməsi planını müzakirə etdilər. Aparılan müzakirələr nəticəsində aprelin 23-də Ə.A.Saleh və iqtidarda olan Xalq Konqresi nümayəndələri ilə müxalifətin başçıları arasında bu məsələ ilə bağlı ilkin razılıq əldə olundu. Buna baxmayaraq A.Ə.Saleh manevrlər etməkdən əl çəkmədi. Bu da öz növbəsində etirazların daha da radikallaşmasına rəvac verirdi.

Apreldə KƏDƏŞ-in hazırladığı plan əsasında Ə.A.Saleh onun və ailə üzvlərinin toxunulmazlığına təminat verilməklə istefaya getməli, hakimiyyəti vitse-prezident Ə.R.əl-Hadiyə təhvil verməli idi. Ə.A.Saleh 11 mayda planı qəbul edəcəyini bildirsə də, 22 mayda qərarından imtina etdi. Nəticədə silahlı toqquşmalar mütəmadi xarakter aldı. 3 iyunda prezident sarayının atəşə tutulması zamanı Ə.A.Saleh, Baş Nazir və parlamentin spikeri yaralandılar. Müalicə məqsədilə Səudi Ərəbistana gedən Ə.A.Saleh yalnız 3 aydan sonra - 23 sentyabrda Sənaya döndü. Bununla da kütləvi iğtişaşlar, nümayiş və mitinqlərin yeni daha izdihamlı dalğası başladı.

Vəziyyətin gərginləşdiyi bir vaxtda 2011-ci il 21 oktyabrda BMT TŞ Yəməndəki vəziyyətlə bağlı qətnamə qəbul etdi. Sənəddə KƏDƏŞ-in irəli sürdüyü prinsiplər əsasında hakimiyyətin dinc şəkildə təhvil verilməsi tələbi öz əksini tapmışdı. Ə.A.Saleh 23 noyabrda ər-Riyadda kral Abdullahın sarayında KƏDƏŞ-in hazırladığı sənədə imza atdı və beləliklə hakimiyyəti 3 ay müddətində ölkənin "fəxri" prezidenti qalmaqla təhvil etdi. 21 yanvar 2012-ci ildə Yəmən parlamenti Ə.A.Saleh barəsində məhkəmə təqibi olmadan siyasi və hüquqi toxunulmazlıq haqqında qanun qəbul etdi.

Beləliklə, beynəlxalq birliyin hadisələrə müdaxiləsi nəticəsində 2012-ci ilin fevralında KƏDƏŞ-in planına əsasən ölkədə iki il üçün yeni prezident seçkiləri keçirildi. Seçicilərin 65%-nin səsini toplayan vitse-prezident Ə.M.əl-Hadi prezident postunu tutdu. Bununla da Yəmənin tarixində yeni inkişaf dönəmi başladı.

# KÖRFƏZİN ƏRƏB ƏMİRLİKLƏRİ

Yaxın vaxtlara kimi ərəb dünyasının ən geri qalmış məkanı sayılan Ərəb körfəzi[1] ölkələri çağımızda dünyanın siyasi və iqtisadi həyatında önəmli rola malikdir. Bunun da təməlində həmin ölkələrdə zəngin neft yataqlarının kəşf edilməsi və istismara verilməsi dayanır. Əmirliklər baxımsızlığa qovuşduqdan sonra isə milli iqtisadiyyatın inkişafı üçün neft ehtiyatlarından daha səmərəli istifadə olunması və bu sahədə müasir istehsal sisteminin qurulması davamlı prosesə çevrilmişdir. Hazırda bu region dünyanın ən böyük neft ixracatçılarından sayılır və iqtisadi baxımdan yüksəlişdədir. Bu zəmində mövcud ənənəvi yaşam şərtləri dəyişilir və rejimlərin modern prinsiplərə uyğunlaşdırılması istiqamətində cəhdlər göstərilir.

### *Küveyt*

XX yüzilliyin əvvəllərində Osmanlı dövlətinin tərkibində olan Küveyt sosial-iqtisadi cəhətdən geridə qalmış bir əmirlik idi və burada tayfa-qəbilə münasibətləri hökm sürürdü. Əhalisinin sayı 35 minə çatırdı ki, onun da yarısını bədəvilər təşkil edirdi. Bədəvilər əsasən, ölkənin daxili rayonlarında yaşayırdı və köçəri maldarlıqla məşğul olurdular. Bu qəbilələrin özləri də sosial durum baxımından eyni vəziyyətdə deyildilər. Onların daxilində sosial təbəqələşmə güclənir, otlaqların və mal-qaranın əksər hissəsi getdikcə şeyxlərin və tayfa-qəbilə əyanlarının əlində cəmləşirdi.

Bu dövrdə Küveytin əsas gəliri dünya bazarlarına mirvari çıxarılmasından və tranzit ticarətdən əldə olunurdu. Ölkənin coğrafi mövqeyi tranzit ticarətin inkişafına əlverişli imkan yaradırdı. Ümumiyyətlə isə Küveytin dəniz və quru yollarının kəsişdiyi bir məntəqədə yerləşməsi, onun ərazisinin həm də həcc ziyarəti üçün əhəmiyyətli olması bu məsələdə az rol oynamırdı. Geniş ticarət əlaqələri əhalinin həyat tərzinə də güclü təsir edirdi. Bunun sayəsində küveytlilər bir sıra xalqların mədəniyyəti ilə tanış olur və onu mənimsəyirdi. Dəniz nəqliyyatı və tranzit ticarət eyni zamanda gəmiçiliyin inkişafına da təkan vermişdi.

Ölkə əhalisinin əksər hissəsinin məşğuliyyət sahəsi balıqçılıq və onun satışı idi. Sənətkarlıq zəif inkişaf etmişdi və ölkədə yalnız bir neçə sənətkar-

---

[1] Ərəb körfəzi coğrafi və siyasi ədəbiyyatda Bəsrə və daha çox Fars körfəzi, bəzən isə sadəcə Körfəz adlandırılır.

lıq sahəsi, o cümlədən misgərlik, dəmirçilik və s. mövcud idi. Onların məhsulları əsasən daxili tələbatın ödənilməsinə xidmət edirdi.

Aqrar təsərrüfatla əsasən sahilyanı qəsəbələrdə və vadilərdə məşğul olurdular. Bu sahədə də məhsuldarlıq çox aşağı səviyyədə idi. Ölkə ərazisinin yalnız 3-4%-i istifadəyə yararlı idi. Su çatışmazlığı, iqlim şəraiti və s. üzündən əhalinin kənd təsərrüfatı mallarına olan tələbatı daha çox qonşu ölkələrdən gətirilən ərzağın hesabına ödənilirdi.

Maraqlıdır ki, ümumi durumu heç də ürək açan səviyyədə olmayan Küveyt XIX əsrin sonlarından bölgədə möhkəmlənmək istəyən Avropa dövlətləri arasında münaqişələr obyektinə çevrlmişdi. Belə ki, həmin ərəfədə Körfəzə çıxmağa can atan Rusiya və Almaniyanın planlarını önləmək üçün Böyük Britaniya Küveytə olan diqqətini daha da artırdı. 1895-ci ildə o, həmin vaxta kimi öz nəzarəti altına saldığı qonşu əmirliklərlə olduğu kimi, Küveyt şeyxi Məhəmməd ibn əs-Sabaha da "müttəfiqlik münasibətləri" qurmağı təklif etdi. Şeyxdən rədd cavabı alan Böyük Britaniya 1896-cı ilin mayında təşkil etdiyi sui-qəsdlə onu və yaxın adamlarını qətlə yetirdi. Hakimiyyət Məhəmmədin qardaşı Mübarək ibn əs-Sabaha keçdi. Qonşu İraqda separatçı qüvvələrlə əlaqələrə girən Mübarək ibn əs-Sabah faktik olaraq Osmanlı valisinin tabeçiliyindən çıxdı və 1899-cu il yanvarın 23-də Böyük Britaniya ilə arzu olunan sazişi gizlincə imzaladı. Bu zəmində Böyük Britaniya və Almaniya arasında güclü narazılıqlar və münaqişələr başladı. Osmanlı dövləti də həmin münaqişələrin həllinə cəlb edilirdi. Müxtəlif diplomatik təzyiq və manevrlərdən sonra, nəhayət, 1901-ci il sentyabrın 6-da Osmanlı dövləti və Böyük Britaniya arasında Küveyt məsələsinə dair saziş imzalandı. Sazişə görə, Böyük Britaniya Osmanlı dövlətinin Küveyt üzərində suverenliyini, Osmanlı dövləti də 1899-cu il Böyük Britaniya-Küveyt sazişini tanıdı. Bundan sonra Almaniya geri çəkilsə də, bir müddət Rusiya fəallaşdı. Lakin 1904-cü ildə Böyük Britaniya-Fransa razılaşmasının imzalanması ilə o da sakitləşdi. 1907-ci ildə Böyük Britaniya Mübarək ibn əs-Sabahı yeni bir saziş imzalamağa məcbur etdi. Onun şərtlərinə görə, Osmanlı dövləti də Küveyt üçün yad ölkələr sırasına keçdi.

Bunun ardınca, 1908-ci ildə indiki İran ərazisində neft aşkarlandıqdan sonra Böyük Britaniya hökuməti Küveyti tamamilə öz nəzarəti altına keçirməyə başladı. 1913-cü il iyulun 29-da Böyük Britaniyanın təzyiqi ilə Osmanlı dövləti Küveyti öz bayrağı olan muxtar ərazi elan edən sazişə imza atdı. Bunun müqabilində 1913-cü il oktyabrın 27-də şeyx Mübarək Böyük

Britaniyaya vəd etdi ki, gələcəkdə Küveyt ərazilərində tapılan neft yataqlarına dair konsessiyalar ancaq onun tövsiyə etdiyi şirkətlərə veriləcəkdir.

Küveyt-Britaniya münasibətlərinin belə isti xarakter alması onunla nəticələndi ki, I Dünya müharibəsinin başlanmasından az sonra 1914-cü il noyabrın 18-də Böyük Britaniya Küveyti ingilis protektoratlığı olan müstəqil əmirlik elan etdi. Beləliklə, hakimiyyət rəsmi olaraq əs-Sabah ailəsindən olan şeyxlərin və qəbilə-tayfa əyanlarının əlində cəmləşdi. Faktiki olaraq isə, ölkənin daxili və xarici siyasəti Böyük Britaniya protektoratlıq idarəsi tərəfindən müəyyənləşdirilirdi.

1915-ci ildə Mübarək əs-Sabahın ölümündən sonra hakimiyyətə oğlu Cabir ibn Mübarək əs-Sabah gəldi. 1917-ci ildə isə hakimiyyət Səlim ibn Mübarək əs-Sabaha keçdi. O, Osmanlı imperiyasının tərəfdarı idi. Bu səbəbdən də Böyük Britaniya 1918-ci ildən Küveytin dəniz sərhədlərini I Dünya müharibəsinin sonunadək mühasirədə saxladı.

Bununla yanaşı, həmin dövrdə Küveytlə qonşu Necd əmirliyi arasında müəyyən ərazilər ətrafında mübahisələr gücləndi. Küveyt – Nəcd sərhədlərinin dəqiq müəyyənləşməməsi səbəbindən 1920-ci ildən başlayaraq bir sıra silahlı toqquşmalar baş verdi. 1920-ci ilin aprelində Nəcd silahlı dəstələri Küveyt ordusunu məğlubiyyətə uğratdı və onu geri çəkilməyə məcbur etdi. Əmir Səlimin münaqişəni sülh yolu ilə həll etmək cəhdi uğursuz oldu. İbn Səud Səlimin iddia etdiyi və 1913-cü ildə ingilis-türk sazişinə əsasən Küveytə qatılan torpaqların özünə məxsus olduğunu bəyan etdi. İbn Səudun mövqe sərtliyi göstərməsi Küveyt əmirinin kömək üçün ingilislərə müraciətinə səbəb oldu. Lakin ingilislər yardım etməyə tələsmədilər. Onlar hesab edirdilər ki, məsələnin uzanması onsuz da ağır vəziyyətdə olan Küveyti böyük güzəştlərə getməyə vadar edəcək. Bir neçə aydan sonra Küveytə ingilis zabitləri və silah-sursatı göndərildi. İngilis hərb gəmiləri və təyyarələri Küveyt sahillərinə yan aldı. Əmirliyin əhalisi tam səfərbər edildi və bunun nəticəsində 1920-ci il oktyabrın 10-da Nəcdin silahlı dəstələri Küveytin əl-Cəhr qalası ətrafında darmadağın edildi. İbn Səud qoşunların Küveyt ərazisindən çıxarılmasına qərar verdi və 1921-ci ilin martında Küveyt-Nəcd danışıqları zamanı mübahisəli ərazilərə olan iddialarından əl çəkdi. İbn Səudun güzəştə getməsində danışıqlar zamanı vəfat etmiş Səlimin yerinə əmir Əhməd əl-Cabir əs-Sabahın gəlməsi vacib rol oynamışdır. İbn Səudun ona münasibəti daha mülayim idi. Özəlliklə də əmir Əhmədin Böyük Britaniya meylli olması bu iki dövlət arasında münasibətlərin yaxşılaşmasına gətirib çıxardı.

Böyük Britaniyanın Küveyt – Nəcd ərazi münaqişəsinə münasibəti heç də onun Küveyti tam dəstəkləmək istəyindən irəli qəlmirdi. Əsas məqsəd Körfəz əmirlikləri arasında sərhəd mübahisələrini saxlamaqla, bu amildən lazım gələndə onlara təsir vasitəsi kimi istifadə etmək idi. Bu özünü 1922-ci ilin noyabr-dekabr aylarında keçirilən Ukayr konfransı zamanı göstərdi. Konfransda İbn Səudun iddia etdiyi bəzi ərazilərin İraqa, Küveytə məxsus bir sıra torpaqların isə Nəcdə verilməsi, eyni zamanda Nəcd və İraq, Nəcd və Küveyt arasında sərhəd zonaları (1942-ci ildən bitərəf zonalar- müəl.) yaradılması haqqında qərarlar qəbul olundu. Ukayr konfransının nəticələrindən əhali çox narazı qaldı. Küveytin ərazi itkilərinin qarşılığında İraq-Küveyt sərhədinin müəyyənləşdirilməsi zamanı Şətt əl-Ərəb çayının mənsəbindəki adalar ona verildi. Bütün bunlara baxmayaraq, əmirliklər arasında mübahisə və münaqişələr qalmaqda davam edirdi. Təkcə bu faktı göstərmək kifayətdir ki, əsası hələ 1921-ci ilin sonunda Küveyt və Nəcd arasında münasibətlərin kəskinləşməsi zamanı Küveyt mallarının Nəcd ərazisindən keçməsinə qoyulmuş qadağa uzun müddət - 1940-cı ilə qədər - ləğv olunmamış qalırdı. Nəcd silahlı dəstələrinin Küveyt ərazilərinə hücumları da davam etməkdə idi. Küveyt əmiri də öz növbəsində Nəcdin mərkəzi hakimiyyətinə qarşı çıxan bəzi üsyançı tayfalara kömək göstərirdi. Nəcdlə davam edən hərbi toqquşmalar əmirliyin iqtisadi və siyasi vəziyyətini daha da ağırlaşdırırdı.

Paradoksaldır ki, bu qeyri-müəyyənliklər zəminində Küveytin Böyük Britaniya ilə münasibətləri daha da möhkəmlənirdi. Əvəzində isə onun Böyük Britaniyadan asılılığı artırdı. Bu məsələdə həmin illərdə gündəmə gəlmiş neft amilinin mühüm rol oynaması xüsusi qeyd edilməlidir. Belə ki, hələ 1911-ci ildə "Anqlo-Perşin Oyl Kompani"nin (APOK – bu şirkət 1935-ci ildə "Anqlo-İranien Oyl Kompani - AİOK" adlandırıldı) rəhbərliyi Küveytdə neft konsessiyası almaq imkanlarını öyrənmək üçün Körfəz bölgəsindəki Böyük Britaniya siyasi rezidentinə müraciət etmiş, 1914-cü ildən isə bu ölkədə konsessiya almaq cəhdlərinə başlamışdı. Yalnız 1923-cü ildə Böyük Britaniya razılıq vermişdi ki, şirkət öz istəkləri ətrafında əmir Əhmədlə danışıqlara başlasın. Həmin dövrdə amerikan şirkəti "İstern Qalf Oyl Kompani" də əmirlə danışıqlar aparırdı. Konsessiyanı elə bu şirkət də ala bildi. Lakin Böyük Britaniya buna etiraz etdi. Çünki, 1899-cu il sazişinə görə, buna yalnız ingilis şirkətlərinin iddia etməyə hüququ çatırdı.

1931-ci ildə "İstern Qalf Oyl Kompani" ABŞ hökumətindən kömək is-

tədi. Münaqişə ABŞ-ın təzyiqi ilə "İstern Qalf Oyl"-un 1933-cü il dekabrın 14-də paritet əsaslarla APOK-la birləşməsi və "Küveyt Oyl Kompani"nin (KOK) qurulması ilə başa çatdı. 1934-cü il dekabrın 24-də KOK Küveytdə 75 il müddətində neft axtarışı və hasilatına dair inhisarçı hüquq əldə etdi. 1938-ci ildə Burqanda zəngin neft yataqları aşkarlandı. Lakin neftin sənaye üsulu ilə çıxarılması və emalına yalnız II Dünya müharibəsindən sonra başlanıldı.

Neft uğrunda mübarizənin getdiyi ərəfə və dövrdə Küveytin iqtisadi-siyasi durumuna gəlincə, qeyd edək ki, 1929-1933-cü illər dünya iqtisadi böhranı ölkənin xarici bazardan tam asılı olan iqtisadiyyatına ciddi təsir etdi. Əhalinin maddi-rifah səviyyəsi aşağı düşdü. Xəstəliklər, su qıtlığı və s. problemlər onun tədricən müxtəlif mübarizə formalarına əl atmasına gətirib çıxardı. 1930-cu illərin sonlarında bir neçə nümayiş baş verdi. Hətta imkanlı təbəqələr də ölkədəki mövcud durumdan narazı idilər. Bu zəmində də 1930-cu illərin ortalarında milli ruhlu "Gənc küveytlilər hərəkatı" meydana gəldi. Hərakat üzvlərinin əksəriyyəti ərəb ölkələrində və Avropada təhsil almış ziyalılardan ibarət idi. Onların əsas tələbi sosial-siyasi həyatın demokratikləşməsi, bir sıra sosial islahatlar aparılması, xaricə asılılıqdan qurtarılması idi. "Gənc küveytlilər"in bir hissəsi bu məqsədlərə nail olmağın əsas yolunu ölkənin İraqla birləşməsində görürdü. Digərləri isə ölkədə demokratik hakimiyyətin bərqərar edilməsi və milli müstəqilliyin əldə olunması uğrunda əhalini açıq mübarizəyə çağırırdı. Yaranmış şəraitdə Küveyt əmiri bu qüvvələrin bəzi tələblərini yerinə yetirməyə razılıq verdi. 14 nəfərdən ibarət Qanunverici Şura yaradıldı. Şura əmirin mütləq hakimiyyətinə son qoyan konstitusiya və islahatlar layihəsi hazırladı. Konstitusiyanın 3-cü maddəsinə əsasən, Şura ölkənin yeganə qanunverici orqanı olmalı, ona müqavilə və sazişlərin imzalanması, konsesessiyaların verilməsi, qanunların təsdiqi hüququ verilirdi. Təbiidir ki, Böyük Britaniya onun mövqelərini məhdudlaşdıran islahatların həyata keçirilməsinə imkan vermək fikrində deyildi. Digər tərəfdən, ölkə daxilində və bəzi qonşu ərəb ölkələrində mühafizəkar qüvvələr də islahatlara qarşı çıxırdı. 1938-ci il dekabrın 21-də həmin qüvvələrin birgə səyləri nəticəsində Qanunverici Şura buraxıldı və konstitusiya ləğv olundu. Şura üzvlərinin bir hissəsi, habelə çox sayda "gənc küveytlilər" həbs olundular. Onların bir qismi edam edildi, bəziləri isə mühacirətə göndərildi. Repressiyalar ictimayyətin güclü etirazına səbəb oldu. Ölkənin paytaxtı əl-Küveytdə aramsız kütləvi nümayəşlər baş verdi. Yaranmış gərg-

in vəziyyətdən çıxmaq üçün 1939-cu ilin sonunda əmir ölkənin yeni konstitusiyasını elan etdi. Bu Konstitusiyaya əsasən, məhdud səlahiyyətləri olan və 20 üzvdən ibarət Qanunverici Şura yaradıldı. Əmir onu buraxmaq hüququna malik idi. Konstitusiya Küveyti "Böyük Britaniya protektoratlığı olan" ərəb dövləti elan etdi.

II Dünya müharibəsi illərində Küveytin iqtisadi vəziyyəti bir qədər də kəskinləşdi. Bu, ilk növbədə tranzit ticarətindən əldə olunan gəlirlərin azalması ilə bağlı idi. Ölkədə ərzaq məhsullarının, dərmanların, ilkin tələbat mallarının çatışmazlığı hiss olunurdu. Əhalinin böyük hissəsi hətta aclıq səviyyəsində idi. Buna görə də, vaxtaşırı xalq narazılıqları baş qaldırırdı. "Gənc küveytlilər"in ingilis ağalığına son qoyulmasına dair fikirləri, hətta onlardan bəzilərinin Almaniya ilə münasibətlər qurmağa çağırışı Küveyt cəmiyyətində ciddi əks-səda doğurdu. Bu növ şuarlarla nümayişlər, mitinqlər və vətəndaş itaətsizliyi kampaniyaları təşkil olunurdu. Bütün bunlara baxmayaraq, müharibə dövründə Böyük Britaniya siyasi idarəçiliyi ölkədəki vəziyyəti tam nəzarət altında saxlaya bildi.

Lakin ikinci dünya savaşının bitməsi ilə Küveytdə neft çıxarılmasına başlanılması ölkədə mövcud olan arxaik həyat tərzini və münasibətləri başdan-başa dəyişdirdi. Belə ki, 1946-cı ilin avqustunda dünyada ən iri Burqan neft yataqlarının istismara verilməsi[1] və çıxarılan xam neftin dünya bazarlarına daşınması üçün bütün infrastrukturların qurulmasının başa çatması və neft ixracına başlanılması ilə Küveyt yeni bir tarixi dönəmə qədəm qoydu. Ən başlıcası isə Küveytə xarici dövlətlərin maraqları artdı. Ölkə iqtisadiyyatında möhkəmlənmək uğrunda ABŞ-Böyük Britaniya rəqabəti bu dönəmin əsas səciyyəsi idi və sonuc ABŞ-ın nəinki Küveytdə, ümumiyyətlə Körfəzdə söz və nüfuz sahibinə çevrilməsi oldu. 1948-ci ildə ABŞ-ın “American İndependent Oil Company“ (AMİNOYL) Küveyt və Səudi Ərəbistan arasında yerləşən bitərəf zonada neft axtarış-kəşfiyyat işləri üçün konsessiya alması ilə digər dövlətlərin də ölkəyə gəlməsinə qapı açıldı. Almaniya Federativ Respublikası və Yaponiya ilə ticarət-iqtisadi əlaqələr yarandı. “Japan Petroleum Tradeing Company“nin bitərəf zona kontinental şelfinin Küveyt hissəsində neft axtarışı üçün konsessiya alması isə önəm daşıyan hadisə oldu. Bu dövlətlər Küveyt iqtisadiyyatına külli miqdarda investisiya qoymağa başladılar. Neft hasilatı misilsiz templərlə artdı. Əgər 1946-cı ildə cəmisi 0,8 mln t neft hasil edilirdisə, bu rəqəm 1950-

[1] Qeyd: Bu işi “Küveyt Oyl Kompani” (KOK) yerinə yetirirdi.

ci ildə 17,3 mln t, 1960-cı ildə isə 85,6 mln t oldu.

1951-ci ilin sonlarında neft çıxaran ölkələrin neft gəlirlərinin daha ədalətli bölüşdürülməsi uğrunda mübarizəsi imkan verdi ki, Küveyt də bağladığı müqavilələrin şərtlərinə yenidən baxsın, xalis gəlirdən payını 50%-ə çatdırsın.

Bütün bunların nəticəsində ölkənin gəlirləri sürətlə artdı, sosial-iqtisadi inkişafa daha çox vəsait ayrılmasına şərait yarandı. Ölkədə yeni istehsal sahələrinin və infrastrukturların yaradılmasına diqqət artırıldı.

Həmin illərdə işçi qüvvəsinə böyük ehtiyac yaranmışdı və bu zəmində ölkəyə istər ərəb, istərsə də digər müsəlman ölkələrindən güclü işçi axını vardı. 1948-ci il Ərəb-İsrail savaşından sonra çox sayda fələstinli ərəb Küveytə qaçmışdı. Çox keçmədi ki, ölkə əhalisinin yarıya qədərini xaricilər təşkil etdi. Təbiidir ki, bu proses ölkədə sosial çətinliklər yaratmaya bilməzdi. Bu və ya digər istehsal və qeyri-istehsal müəssisələrində sosial tələblərlə çıxışlar özünü göstərməyə başlamışdı.

O biri yandan Küveytin iqtisadi inkişafı ölkə əhalisinin sosial tərkibində ciddi dəyişikliklər yaratdı. Yeni iş adamlarının timsalında orta təbəqə yaranır, şəhər əhalisinin sayı artırdı. Ənənəvi qəbilə-tayfa başçılarının neft gəlirlərindən daha çox yararlanmaq istəyi güclənirdi.

Həmin səbəblərdən idi ki, əmir Abdullah əs-Sabah (o, 1950-ci ildə Əhməd əs-Sabahın ölümündən sonra hakimiyyətə gəlmişdi – müəl.) islahatlar proqramını həyata keçirmək vədi vermişdi və bu yöndə bəzi işlər də görüldü. 1952-ci ildə ölkənin ilk perspektiv iqtisadi inkişaf planı hazırlandı. Planda əsas önəm verilən sahə neft sənayesinin səmərəli fəaliyyəti üçün lazım olan obyektlərin qurulması idi. Bununla yanaşı şosse yollarının, aerodromların, limanların və s. infrastrukturların yeniləşdirilməsi və inşası, ümumiyyətlə isə, inşaat işlərinin genişləndirilməsi nəzərdə tutulurdu və bu məqsədlər üçün Böyük məbləğdə vəsaitlər ayrılırdı. Cəmiyyətin yuxarıdan demokratikləşdirilməsi daxili siyasi kursun başlıca istiqaməti elan olundu.

Planın gerçəkləşdirilməsi işində bir sıra uğurlar oldusa da, lakin həmin arada ərəb ölkələrində və regionda cərəyan edən bir sıra proseslər, - 1952-ci ildə Misirdəki çevriliş, 1953-cü ildə İranda neftin milliləşdirilməsi uğrunda kampaniya və s. nəticəsində Küveytdə də müxalifətçi bir ovqatın canlanması onu tam başa çatdırmağa imkan vermədi. Bir tərəfdən ənənəvi qəbilə-tayfa başçıları patriarxal qayda-qanunlara sadəcə toxunulmasına belə etiraz edir, o biri tərəfdən yeni yaranmış sosial təbəqə əmirliyin "silki-

demokratik dövlət"ə çevrilməsini istəyirdilər. Onların arasında mübarizə o qədər kəskinləşdi ki, 1953-cü ilin ortalarında Abdullah əs-Sabah hakimiyyətdən əl çəkdiyini bildirdi. Böyük Britaniya bu işə yol vermədi (baxmayaraq ki, Abdullah əs-Sabah antiingilis ovqatlı bir şəxs sayılırdı – müəl.). Sonucda mübarizə Böyük Britaniyanın özünə qarşı çevrildi. Protektoratlığın ləğvi, xarici neft şirkətlərinin fəaliyyətinə son qoyulması və s. kimi tələblər gündəmə gəldi. Milliyyətçi qüvvələr 1954-cü ildə Küveyt Demokratik Liqasını yaratdılar (sonralar Liqanın üzvləri Ümumərəb Milliyyətçilər Hərəkatına qoşuldular - müəl.). Liqa yeni konstitusiya layihəsi hazırlamaq üçün Müəssislər Məclisinin çağırılmasını tələb edirdi.

1956-cı il Süveyş böhranı və İraqda 1958-ci il iyul çevrilişi Küveytdə gedən proseslərə güclü impuls verdi. Narazılığın güclənməsi səbəbindən Böyük Britaniya bir qədər geri çəkildi. Daxili məsələlərdə Küveyt hakimiyyət strukturlarının iştirakını bir qədər artırdı. Milliyyətçi qüvvələrin Küveytə siyasi istiqlaliyyət verilməsi tələbi sosial zəmində çıxış edən işçilər tərəfindən də dəstəkləndikdə isə 1959-cu ildə ölkədə fövqəladə vəziyyət elan olundu.

İstər regionda, istərsə də bütün dünyada gedən proseslərin təsiri altında Küveytdə antiingilis ovqatının getdikcə güclənməsi Böyük Britaniya hökumətini qəti qərara gətirdi. Uzun danışıqlardan sonra 1961-ci il aprelin 19-da 1889-cu il müqaviləsinin ləğvi haqqında bəyanat imzalandı və Küveyt siyasi istiqlaliyyət qazandı.

Müstəqilliyin ilk illəri Küveytin bir dövlət olaraq var olması uğrunda mübarizə ilə səciyyələnir. Bunun da başlıca səbəbi İraqın Küveyti özünün tərkib hissəsi elan etməsi idi. Əlacsız qalan Küveyt hökuməti Böyük Britaniyadan kömək istədi. Yenidən Böyük Britaniya qoşunları ölkəyə yeridildi. Həmin dövrdə ərəb dövlətlərində güclü antiingilis ovqatının olması səbəbindən Küveyt onun milli suverenliyinin təminatı olacaq müttəfiq seçmək dilemması qarşısında qalmışdı. Sonda o, ərəb dövlətləri ilə əmkdaşlığa üstünlük verdi. 1961-ci il iyulun 20-də Küveyt Ərəb Dövlətləri Liqasının üzvü oldu. Liqa Küveyti müdafiə etmək üçün oraya birləşmiş ərəb qüvvələrinin yerləşməsinə qərar verdi. Həmin qüvvələr sentyabrda Küveytə gəldi, oktyabrda isə əmirin xahişilə Böyük Britaniya qüvvələri ölkədən çıxarıldı.

Küveytdə dövlət strukturlarının qurulması prosesi başladı. Qanunverici orqan kimi 1961-ci ilin sonunda 9 nəfərdən ibarət (onların hamısı əs-Sabah

nəslinə mənsub idi – müəl.) Ali Şura yaradıldı və Müəssislər Məclisinə seçkilər keçirildi. 1962-ci ilin sonunda isə konstitusiya qəbul olundu. Konstitusiyaya görə, qanunverici hakimiyyət əmirə və Milli Məclisə məxsus idi. İcra hakimiyyətini əmir və onun tərəfindən təyin edilən Nazirlər Kabineti həyata keçirirdi.

1963-ci il yanvarın 23-də ilk parlament seçkiləri keçirildi və hökumət formalaşdırıldı. Siyasi partiyalar yasaqlansa da, ictimai-siyasi təşkilatların fəaliyyətinə icazə verildi. Ərəb Millətçiləri Hərəkatı çərçivəsində fəaliyyət göstərən "ət-Taliə" qrupu ölkənin ən ciddi ictimai-siyasi təşkilatı idi. Müxtəlif sosial təbəqələri təmsil edən qüvvələr "ət-Taliə"də birləşmişdirlər və bu təşkilat ölkədə demokratik dəyişikliklər aparılması yolunda ciddi təşəbbüslərlə çıxış edirdi. Ərəb Qadınlarının Dirçəliş Cəmiyyəti, Küveyt tələbələrinin Milli İttifaqı, müxtəlif sahə həmkarlar birlikləri və s. təşəkkül tapması ölkə həyatında yeni təzahürlər idi, liberallaşma istiqamətində atılan mühüm addımlar kimi dəyərləndirilməlidir. Küveyt 1963-cü ildən BMT-nin üzvü oldu.

Qeyd etmək istərdik ki, Küveytin dövlət quruculuğu sahəsindəki təcrübəsi sonralar digər əmirliklər üçün bir örnək oldu. Bunun da səbəbi o idi ki, həmin ölkələrdə ənənəvi qəbilə-tayfa aristokratiyasının təmsilçisi olan hakim sülalə nümayəndələri bütün dövrlərdə əsas hakimiyyət strukturlarını öz aralarında bölüşdürürdülərsə, neft çıxarılmasından sonrakı dövrdə onlar həm də iri iş adamları, dövlət aparatında və iqtisadiyyatın dövlət bölməsində çalışan yüksək rütbəli məmurlara çevrildilər. Neft sənayesinin inkişafı zəminində "yeni orta təbəqə" yaranmışdı və o, bütün cəhdlərinə baxmayaraq qəbilə-tayfa aristokratiyasından yüksəyə qalxa bilməsə də, idarəetmənin aşağı strukturlarında möhkəmlənirdi. Bununla yanaşı "yeni orta təbəqə"nin kəmiyyət və keyfiyyətcə yüksəlməsi ənənəyə çevrildi. Başqa sözlə, həmin təbəqə getdikcə həyatın bütün sahələrində daha artıq təmsil olunmağa çalışır və hakim sülalənin də onlara bəzi güzəştləri müşahidə olunurdu.

1964-cü ildə əmək haqqında qanunun qəbul olunması, sahə həmkarlar birliklərinin yaradılmasına icazə verilməsi, xarici neft şirkətləri ilə münasibətlərin şərtlərində bəzi dəyişikliklər aparılmasına cəhdlər göstərilməsi həmin ovqatın ilk təzahürləri sayıla bilər. Ümumiyyətlə isə bəzi siyasi qüvvələrin, o cümlədən, bir sıra deputatın 1961-ci il tarixli Küveyt-Böyük Britaniya müqaviləsinin ləğvini irəli sürməsi, ərəb dövlətləri ilə iqtisadi

işbirliyinə daha çox önəm verilməsi, xarici şirkətlərdən yeni-yeni güzəştlər tələb edilməsi və s. daxili həyata bir dinamika gətirdi. Hakim sülalənin nümayəndələri güclənməkdə olan bu prosesi nəzarətdə saxlamaq və tənzim etməkdən daha çox hakimiyyət ierarxiyasında yüksəlmək üçün yaranmış şəraitdən istifadə etməyə çalışırdılar. Bu zəmində hakimiyyətdaxili ziddiyyətlər də artdı və ölkədə böhranlı vəziyyət yarandı. Vəliəhd şeyx Sabah əs-Səlim əs-Sabahın 1965-ci ilin əvvəlində koalisyon hökumət təşkil etməsi də vəziyyəti dəyişdirmədi. Həmin ildə əmir Abdullahın ölümü ilə qarşıdurmalar daha da artdı. Yeni əmir Sabah problemi həll etmək üçün əsas dövlət postlarını narazı şahzadələrə güzəştə getdi. Bununla yanaşı, digər narazı qüvvələrə, o cümlədən, parlamentdə ölkədə ciddi demokratik dəyişikliklər aparılmasını tələb edən millətçi "ət-Taliə" qrupundan olan deputatlara qarşı təzyiq və təqiblər artırıldı. 7 dekabr 1966-cı ildə 8 deputat etiraz əlaməti olaraq Milli Məclisdən çıxdı. Bunun ardınca millətçilər 1967-ci ilin yanvarında keçirilən parlament seçkilərində də öz namizədliklərini geri götürdülər.

Bunlarla yanaşı əmir ölkənin güclənməsi, inkişafı istiqamətində ciddi qərarlar qəbul etdi. Bir sıra əlverişli neft kontraktları bağlandı. Səudi Ərəbistan ilə yaxınlaşmaya önəm verildi. Ərəb dövlətlərinə və məsələlərinə münasibətdə hər iki dövlət eyni mövqe nümayiş etdirdi. Ölkənin hərbi cəhətdən gücləndirilməsinə başlanıldı, ordu Böyük Britaniyadan alınan ən modern texnika və silahla təchiz edildi.

1967-ci il Ərəb-İsrail müharibəsi ölkədə böyük əks-səda yaratdı. Küveytdə çoxlu sayda fələstinli qaçqınların yaşaması təmin edildi. Eyni zamanda ərəb dünyasında öz mövqelərini möhkəmləndirmək naminə hökumət ərəb həmrəyliyinə sadiq qaldı. İsrailə dəstək verən ABŞ və Böyük Britaniyaya neft ixracını dayandırdı. Təcavüzə məruz qalan ərəb ölkələrinə yardım etmək haqqında qərar vermiş Xartum konfransının təşəbbüskarlarından biri oldu. Digər tərəfdən, Küveyt əksər ərəb dövlətlərindən fərqli olaraq, ABŞ və Böyük Britaniya ilə diplomatik əlaqələrini kəsmədi. Əksinə, 1968-ci ildə əmir ABŞ-a getdi və ikitərəfli əlaqələr daha da yaxşılaşdı.

1970-ci ilin sonlarında Milli Məclisə seçkilər ərəfəsində müxalif ovqatlı siyasi qüvvələrin fəallaşması səbəbindən daxili vəziyyət yenidən gərginləşdi. Hakimiyyət onlara qarşı münasibətdə bir qədər mötədil mövqe tutdu. Həmin qüvvələr parlamentdə 16 yer qazandılar və "vətənpərvər parlament

qrupu“ yaratdılar. Bu qrupun, eləcə də onların təmsil etdiyi ictimai-siyasi təşkilatların fəaliyyətində neft məsələsi mühüm yer tuturdu. Neftin milliləşdirilməsi məsələsi yenidən gündəmə gəldi. Parlamentdə neftlə bağlı məsələlərin müzakirəsində ciddi mübahisələr baş verdi. Həmin səbəbdən idi ki, 1973-cü ildə Milli Məclis KOK şirkətinin fəaliyyətində dövlətin iştirakını 25% -lə məhdudlaşdıran sazişi rədd etdi. 1974-cü ildə KOK-la pay bölgüsündə Küveyt dövləti 60%-ə sahib oldu. ABŞ-ın “Aminoyl“ şirkətinin isə səhmlərinin 85%-i Küveyt dövlətinə çatdı.

Bu qərarların əldə edilməsi, eləcə də 1975-ci il parlament seçkiləri zamanı müxalif ovqatlı qüvvələr tərəfindən Küveyt neftinin bütünlüklə milliləşdirilməsi ideyasının qızğın müdafiə edilməsi həmin dövrdə İraq, Libiya və Əlcəzairdə neft sənayesinin milliləşdirilməsindən qaynaqlanırdı. Bu kampaniya nəticəsiz qalmadı. Parlamentə yeni qüvvələr gəldi. Onlar daha gənc və daha az mühafizəkar idilər və parlamentdə hakim qüvvələrin təqdim etdiyi bir sıra qanunların qəbuluna imkan vermirdilər, eyni zamanda dövlət hakimiyyətinin modernləşdirilməsini tələb edirdilər. Hakimiyyətin təqib və təzyiqləri onları qorxutmadıqda əmir 1976-cı ilin avqustunda parlamenti buraxdı, konstitusiyanın bəzi maddələrinə xitam verdi.

1977-ci ilin sonunda əmir vəfat etdi və onun yerini Cabir əl-Əhməd əs-Sabah tutdu. Həmin arada İranda islam inqilabının qələbəsi yeni əmirin daxili siyasi narazılıqları aradan qaldırmaq cəhdlərini nəinki heçə endirdi, həm də təkcə Küveyt üçün yox, Körfəzdə yerləşən digər monarxiyalar üçün də Böyük təhlükə mənbəyi oldu. Küveytdə müxalif ovqatlı qüvvələr, xüsusi ilə şiələr xeyli fəallaşdılar. Nümayiş, mitinq və digər aksiyaların iştirakçıları bir sıra tələblər irəli sürdülər. Vəziyyət kifayət qədər təhlükəli məcraya düşə bilərdi. Odur ki, əmir geri çəkildi. Parlamentin fəaliyyəti bərpa olundu. 1981-ci ilin martında parlamentə yeni seçkilər keçirildi və bu dəfə yerlərin böyük çoxluğunu mühafizəkar qüvvələr qazandılar.

Həmin dövrdə region ölkələri üçün xarakterik olan dini-siyasi təşkilatların fəallaşması Küveytdən də yan keçmədi. Qonşu İranda baş verən hadisələr isə Küveytdə bu prosesi daha da qızışdırdı. Belə ki, “Müsəlman Qardaşlar“ ideologiyası altında fəaliyyət göstərən klerikal qruplaşmalar həyatın bütün sahələrində, hətta beynəlxalq münasibətlərdə belə islami dəyərlərdən az da olsa kənara çıxmağa qarşı idilər və bu yöndə fəallığı artırmışdılar. İranda hakimiyyətin şiə din xadimlərinin əlinə keçməsi

ilə və bunun ardınca baş verən İran-İraq savaşında Küveytin İraqı dəstəkləməsi şiələri daha da fəallaşdırdı. Onlar 1983-cü və sonrakı illərdə ölkədə bir sıra terror aktları törətdilər. Bu hadisələrin qarşısını almaq üçün 20 minə yaxın İran əsilli vətəndaş ölkədən sürgün edildi. Müxtəlif klerikal qruplaşmalar üzərində nəzarət gücləndirildi.

Ölkədə mövcud olan durum və əhalinin ovqatı 1985-ci ilin mayında keçirilən parlament seçkilərinin nəticələrinə çox güclü təsir göstərdi. "Ət-Taliə" qrupu xeyli yer götürdü. Şiə klerikallar cəmisi 3 yer ala bildilər. Bu səbəbdən də törədilən terror aktlarının sayı artdı. Əmirə qarşı sui-qəsd törədildi, paytaxtda çoxlu qurbanlarla müşaiyət olunan partlayışlar edildi. Gərginlik son həddə çatdı. Əmir bütün proseslərə şəxsən nəzarət etmək yolunu seçdi və 1986-cı ildə parlamenti buraxdı. Daxili sabitliyi saxlamaq üçün mətbuat üzərində senzuranı artırdı, ictimai-siyasi fəaliyyətə məhdudlaşdırıcı qadağalar qoydu. İran-İraq savaşının gedişində ölkənin məruz qaldığı çətinliklər də daxili narazılıqlara qarşı sərt münasibət göstərilməsi üçün əmirə əsas verirdi. Təsadüfi deyildir ki, elə savaşın bitməsindən az sonra 1989-cu ildə Milli Məclisin bərpası tələbi səsləndi. Lakin 20 min nəfərin imzaladığı petisiya əmir tərəfindən rədd edildi. Bu zəmində narazılıqlar üzə çıxdı, ölkəni nümayiş və mitinqlər bürüdü. Hakimiyyət geri çəkildi və bir sıra güzəştlərə getdi, mətbuat üzərində senzuranı zəiflətdi. Milli Məclisin bərpa olunması və seçkilər keçirilməsinə razılıq verildi. Milli Məclisin üzvü olacaq 50 nəfərdən 25-nin ümumi seçki yolu ilə, 25-nin isə əmir tərəfindən seçilməsi planı müxalif qüvvələri razı salmadı və onlar seçkiləri boykot edəcəklərini bildirdilər. Lakin həmin arada baş verən hadisələr elə sürətlə inkişaf etdi ki, artıq Küveytin bir dövlət olaraq siyasi varlığı təhlükə qarşısında qaldı. Küveyt-İraq münasibətlərindəki gərginlik elə bir hala çatdı ki, dövlət bütün potensialını gözlənilən bəladan xilas olmağa yönəltdi.

Belə ki, iki ölkə arasında tarixən bir sıra problemlər mövcud idi və onların da başında İraqın ərazi iddiası dayanırdı. İkitərəfli münasibətlərdə ciddi əngəllər yaradan bu problemlər vaxtaşırı üzə çıxırdısa, danışıqlar yolu ilə qaydaya salınırdı. İrəlidə dediyimiz kimi, 1980-1988-ci illər İran-İraq savaşı dövründə Küveyt İraqın tərəfində durdu. Küveytin bu mövqeyi onun Körfəzdəki neft qurğularının və neft daşıyan tankerlərinin İran silahlı qüvvələrinin hədəfinə çevrilməsinə və hətta ölkə daxilində İranmeylli qüvvələrin kütləvi iğtişaşlarına səbəb olmuşdu. 1990-cı ilin iyulundan

başlayaraq İraq Küveyti OPEK-in müəyyən edilmiş ixrac kvotasını aşmaqda ittiham etdi və İranla müharibə zamanı Küveytdən alınan borcların ləğv olunmasını tələb etdi. İraq eyni zamanda bildirdi ki, Küveyt sərhəd zolağında hərbi postlar qurmuş və bu ərazidə neft quyularını işə salmış, bununla da İraqın ərazi bütövlüyünü pozmuş, ona külli miqdarda maddi ziyan vurmuşdur. Ümumiyyətlə isə Küveyt ərazisinin tarixən İraqa məxsusluğu iddiası irəli sürüldü.[1]

Böhranlı vəziyyət son həddə çatdıqda ərəb dövlətləri də işə qarışmalı oldular. Misir və Səudi Ərəbistanın vasitəçiliyi ilə iki ölkə arasında danışıqlar başladı. Lakin tərəflərdən heç biri güzəştə getmədi və danışıqlar nəticəsiz qaldı. 2 avqust 1990-cı ildə isə 100 minlik İraq ordusu Küveytə girdi, əmir və hökumət Səudi Ərəbistana sığındı. Hadisədən dərhal sonra BMT Təhlükəsizlik Şurası bir neçə qətnamə qəbul etdi və İraqdan tələb olundu ki, qeydsiz-şərtsiz Küveytdən çıxsın və məsələ danışıqlar yolu ilə çözülsün. İraq bunlara məhəl qoymadı və 28 avqustda Küveytin rəsmən ilhaq olunduğunu bildirdi. Küveyt İraqın 19-cu əyaləti elan olundu. Beynəlxalq ictimaiyyət və dövlətlər buna kəskin reaksiya verdi. 1990-cı ilin noyabrında BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 678 saylı qətnamə ilə regiona çoxmillətli silahlı qüvvələr göndərilməsi, Küveytin bütün vasitə və yollarla azad edilməsi qərara alındı. BMT TŞ qətnaməsinin tələblərini yerinə yetirmək üçün İraqa 1991-ci il yanvarın 15-ə kimi möhlət verildi. İraq verilən qərar və təklifləri rədd etdikdə ABŞ-ın rəhbərlik etdiyi çoxmillətli qüvvələr yanvarın 15-dən 16-na keçən gecə hərbi əməliyyatlara başladılar və İraq ağır məğlubiyyətə uğradı. Fevralın 27-də İraq Küveytdən çıxdığını və BMT TŞ-nın bütün qətnamələrini yerinə yetirməyə hazır olduğunu bildirdi.

Hərbi əməliyyatlar dayandırıldıqdan sonra Kuveytin mühaciətdə olan iqtidar və müxalifət liderlərinin Ciddədə görüşü oldu. Görüşdə mötədil müxalifət parlamentin bərpasını və mətbuat azadlığını istədiyi halda, radikallar Küveytin konstitusiyalı monarxiya olması tələbi ilə çıxış etdilər. İqtidar isə bildirdi ki, bütün siyasi islahatlar dağıdılmış strukturların bərpası, köçürülmüş əhalinin ölkəyə qaytarılması və həyatın normal məcraya düşməsindən sonra keçiriləcəkdir.

Küveyt azad olunduqdan sonra əmir ölkədə hərbi vəziyyət elan etdi və ölkənin təhlükəsizliyi üzrə Xüsusi Komissiya yaradıldı. 1991-ci ilin

[1] Qeyd: Bu barədə «İraq» bölməsində ətraflı danışılmışdır.

martında əmir və hökumət üzvləri ölkəyə qayıtdı və 1992-ci ildə Milli Məclisə seçkilər keçiriləcəyi elan olundu. Küveytin təhlükəsizliyi və dövlət suverenliyini möhkəmləndirmək məqsədi ilə ABŞ, Böyük Britaniya və Fransa ilə hərbi əməkdaşlıq müqavilələri imzalandı.

1992-ci il oktyabrın 5-də parlament seçkilərində müxalifətçi namizədlər 50 yerdən 31-ni tuta bildilər və parlament ölkənin həyatında ciddi bir hakimiyyət strukturuna çevrildi. Bir sıra qanunlar qəbul edildi. Vətəndaşların seçmə hüququ 30 yaş həddindən 20-yə endirildi, Küveyt vətəndaşlığını sonradan qəbul etmiş şəxslərin övladları səsvermə hüququna malik oldular və s.

Milli Məclisin yaratmış olduğu Xüsusi Komissiyalar ölkədə mövcud neqativ halların və qanunsuzluqların üzə çıxarılmasında, korrupsiyaya qoşulmuş məmurların cəzalandırılması sahəsində cəsarətli fəaliyyəti diqqətdən yayınmadı. Həmin səbəbdən idi ki, 1996-cı və 2000-ci illər seçkilərində də Milli Məclisdə yerlərin çoxunu yenə də müxalifətçilər tutdular.

Sonrakı dövrdə müxalifətçi siyasi qüvvələrin (onların böyük əksəriyyəti orta təbəqəni təmsil edirdi – müəl.) təşkilatlanması sahəsində ən mühüm hadisə 1997-ci ilin mayında dünyəvi və liberal dəyərələrə üstünlük verən Milli Demokratik Məclis (MDM) adlı təşkilatın yaradılması oldu. MDM sıralarında qadınların təmsil olunduğu ilk siyasi təşkilat idi.

Ümumiyyətlə isə, Küveyt-İraq savaşından sonrakı illərdə Küveyt savaş dövründə məruz qaldığı bütün dağıntıları və məhrumiyyətləri aradan qaldıra bildi və ölkədaxili istiqrar bərpa edildi. Həyatın müxtəlif sahələrində, özəlliklə də sosial-iqtisadi və xarici siyasətdə pozitiv dəyişikliklər kursu götürüldü. İqtisadiyyatın başlıca sahəsi olan neft sənayesi bərpa olundu. Artıq XX əsrin 90-cı illərin sonunda gündəlik neft hasilatı 240 min barrelə çatdı. Neft hasilatı və ixracının (bu, ölkə ixracatının 95%-ə qədərini təşkil edir – müəl.) qaydaya salınması ölkə gəlirlərinin əvvəlki həddə gəlməsi və artmasına imkan verdi. 2001-ci ildə neft satışından gəlir 20 milyard dollara qalxdı. Ümumi milli gəlir 30 milyard ABŞ dollarını ötdü, adambaşına düşən gəlir 18 min dollar civarında, Ümumi Daxili məhsulun (ÜDM) artımı isə 12-13% oldu. Küveyt ABŞ, Böyük Britaniya, Almaniya, ərəb ölkələri və bir sıra Avropa və Asiya dövləti ilə ticarət əlaqələrini genişləndirdi. Qəbul olunan iqtisadi planlarda bir qayda olaraq sənayenin inkişafına xüsusi yer ayrıldı. Kənd təsərrüfatına və infrastrukturların

inkişafına əlavə kapital qoyuluşu həmin sahələrin inkişafına gətirdi, ixrac və idxal məhsullarının çeşidləri çoxaldı.

Həmin illərdə Küveytin iqtisadi həyatında üç mühüm məsələyə xüsusi önəm verildi. Bunlardan birincisi, - əgər belə demək olarsa, - iqtisadiyyatın "küveytləşdirilməsi"idi. Belə ki, Küveyt iqtisadiyyatında çalışanların böyük əksəriyyəti əcnəbilər idi. 2000-ci illərin sonunda onların sayı 1 milyondan çox olmuşdur (küveytlilərin ömumi sayı isə 772 min nəfər idi – müəl.). Ancaq, əcnəbilərin əməyindən ucuz şərtlərlə istifadə Küveyt üçün nə qədər əlverişli olsa da, onların ümumi sayının küveytlilərdən bir neçə dəfə artıq olması çoxlu problemlər doğururdu. Bu səbəbdən də 1997-ci ildən başlayaraq əcnəbilərin əməyindən istifadə üzrə xüsusi dövlət komissiyası yaradıldı. Komissiya əcnəbi işçilərin əməyindən istifadəni tənzimləməklə yanaşı, onların ölkəyə gəlməsini də məhdudlaşdırmaq üzrə müxtəlif proqramlar hazırladı. Asiya ölkələrindən gələn işçi qüvvəsinin say artımına imkan verilmədi və onların ölkədən getməsinə çalışıldı. Avropa ölkələrindən isə yalnız xüsusi müqavilələr əsasında yüksək ixtisaslı kadrların ölkəyə gəlməsinə icazə verilirdi. 2000-ci illərin sonlarından dövlət və digər idarə strukturlarında çalışan əcnəbilərin küveytlilərlə əvəzlənməsi prosesi başlandı.

Xüsusi önəm verilən ikinci məsələ iri dövlət müəssisələrinin özəlləşdirilməsi idi. Bu işə hələ XX əsrin 90-cı illərinin ortalarından başlanıldı.

Üçüncü önəmli məsələ azad iqtisadi zonaların yaradılması idi. Bu işə İraq təcavüzündən öncə başlanılması nəzərdə tutulurdu. Lakin savaş onların gerçəkləşdirilməsini ləngitdi. Savaşın bitməsindən sonra isə məsələ yenidən aktuallaşdı. 2000-ci illərin sonlarında Şüveyş limanı hövzəsində iri miqyaslı bir layihənin inşasına başlanıldı və bu azad iqtisadi zona regionda ən iri mərkəzlərdən biri oldu. Onun fəaliyyətinin çevik və fasiləsiz təşkili üçün gərək olan bütün strukturların quruldu və fəaliyyətə başladı.

Küveytin xarici iqtisadi əlaqələrində ən ciddi sahə inkişaf etmiş ölkələrdə böyük məbləğlərdə kapital yatırımı oldu. Küveyt əvvəllər neft gəlirlərinin bir hissəsini müəyyən faizlərlə həmin ölkələrin banklarında saxlayırdısa, sonralar qiymətli kağızlar almaq və ayrı-ayrı şirkətlərin maliyyələşdirilməsində iştirak etməklə inkişaf etmiş dövlətlərin iqtisadiyyatına qoşulması oldu. İldən-ilə investisiya şirkətlərinin sayı artdı. Küveyt bir sıra beynəlxalq maliyyə mərkəzlərinin fəal üzvü oldu. 1981-ci ildə yaradılmış Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası (KƏDƏS) təsisçi-

lərindən biri kimi həmin qurumun işinin canlandırılmasında xüsusi səylər göstərdi.

Küveyt sosial təminatın yüksək səviyyədə təşkil olunduğu ölkələr sırasına qoşuldu. Tibbi xidmət və təhsil pulsuz oldu. İşçilər ödənişli məzuniyyət hüququna malik idilər və əmək qabiliyyətini müvəqqəti itirdikdə lazımi məbləğdə pul vəsaiti ilə təmin olunurdular və s.

Küveytin xarici siyasətinə gəlincə, deməliyik ki, bu məsələdə iki amil başlıca rol oynayırdı. Bunlardan birisi ölkənin geostrateji mövqeyidirsə, ikincisi zəngin neft və qaz ehtiyatlarına malik olması idi. Yaxın və uzaq dövlətlər Küveytə xüsusi maraq göstərirdi. Küveytə ərazi iddiaları irəli sürən və suverenliyinə qorxu yaradanlarla müqayisədə onun tərəfində olanların sayı və gücü dəfələrlə çox idi.

Küveyt bağımsız dövlət olduğu ilk illərdən başlayaraq ərəb dövlətləri ilə sıx əməkdaşlığa üstünlük vermiş, ümumi ərəb problemlərinin çözülməsində pozitiv mövqe tutmuş, Ərəb-İsrail probleminə ümumərəb həmrəyliyi baxımından yanaşmışdır. Savaşdan sonrakı dövrdə də Küveyt öz əvvəlki xarici kursuna sadiq qalmışdır. Lakin həmin vaxta kimi hərbi ittifaqları və sazişləri rədd edən Küveyt artıq ABŞ, Böyük Britaniya və Fransa ilə hərbi əməkdaşlıq müqavilələrinə malik idi. Əmir xarici siyasət sahəsində ciddi fəallıq göstərirdi. XX əsrin 90-cı illərində onun bir çox ölkəyə səfərləri, bir sıra beynəlxalq və regional təşkilatların zirvə toplantılarına qatılması, ümumi ərəb həmrəyliyinə sədaqət göstərməsi Küveytin beynəlxalq mövqeyinin möhkəmlənməsinə yardım etdi. Təsadüfi deyildir ki, 2002-ci ilin martında ərəb dövlətləri başçılarının Beyrut sammitində İraq Küveyti bir dövlət olaraq rəsmən tanıdığını bildirdi.

XXI yüzillikdə də Körfəzdə mürəkkəb və qeyri-sabit şəraitin hökm sürdüyü, müxalifətdə olan siyasi qüvvələrin fəallaşdığı bir vaxtda Küveyt rəhbərləri dövlətin daxili və xarici təhlükəsizliyinin təmin etməsi məsələsinə ciddi diqqət verdilər. Qarşıda duran başlıca vəzifələr ilk növbədə Körfəzdə etibarlı təhlükəsizlik sisteminin yaradılması, uzunmüddətli sabitliyin qorunub saxlanılması, regionu təhdid edən münaqişə və qarşıdurma ocaqlarının söndürülməsi idi. Lakin, əmirlik öz daxili qüvvələri hesabına bu problemləri həll etmək iqtidarında deyildi. 1990-ci il Körfəz böhranının təcrübəsi göstərmişdi ki, əmirlik xarici təcavüzün qarşısının alınmasına yalnız ABŞ və NATO-ya daxil olan digər aparıcı dövlətlərlə hərbi-siyasi ittifaqda, habelə digər sahələrdə müttəfiqlik münasibətlərinin qurulması və inkişafı yolu ilə

nail ola bilər. 1991-1992-ci illərdə ABŞ, Böyük Britaniya, Fransa, İtaliya ilə müdafiə və təhlükəsizlik sahəsində imzalanmış sazişlər əmirliyin xarici təcavüzdən qorunması və hərbi yardımlar göstərilməsini nəzərdə tuturdu. Məhz bunun nəticəsində dövlətin xarici təhlükəsizliyini təmin edən və bu günə qədər də qüvvədə olan hərbi-siyasi sistem formalaşdı.

Küveyt NATO strukturlarından kənarda ABŞ-ın əsas müttəfiqi statusunu 2004-cü ildə almağa nail oldu. Əmirliyin ərazisində amerikan hərbi bazaları yaradıldı və Küveyt ordusu əsasən amerikan silahı və hərbi texnikası ilə təchiz olundu, iki ölkənin silahlı qüvvələrinin birgə hərbi təlimlərinin keçirilməsi mütəmadi xarakter aldı. 2011-ci ildə isə ABŞ qoşunlarının İraqdan çıxarılmasından sonra 23 minə yaxın amerikan hərbi kontingentinin Küveyt ərazisində yerləşdirilməsi məsələsi gündəmə gəldi.

Küveyt eyni zamanda KƏDƏŞ çərçivəsində təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığa, onun hərbi qüdrətinin artırılmasına, vahid hərbi doktrinanın qəbul edilməsi və hava hücumuna qarşı müdafiə sisteminin yaradılmasına xüsusi önəm verməyə başladı. Göstərilən hər iki istiqamət üzrə Küveytin atdığı addımlar nəticəsində ölkənin təhlükəsizliyini və ərazi bütövlüyünü təmin edə biləcək çoxşaxəli hərbi-siyasi strukturun yaradılmasına nail olundu.

Küveyt üçün Körfəz bölgəsində ən ciddi təhlükə mənbəyində biri də İran olmuşdur. İki dövlət arasındakı mövcud durum öz qeyri-sabitliyi ilə səciyyəvi idi. İranın hərbi qüdrətinin artması, nüvə proqramının genişləndirməsi və ondan sülh yox, hərbi məqsədlərlə istifadəsi Küveyti son dərəcə narahat etsə də, əmirlik İranın nüvə proqramının güc müstəvisində həllinin tərəfdarı olmadı və dəfələrlə öz ərazisindən İrana qarşı istifadə edilməyəcəyi haqqında bəyanatlarla çıxış etmişdi. Lakin ABŞ-İran qarşıdurmasının kəskinləşdiyi dönəmlərdə Küveyt ərazisində amerikan bazalarının olmasına İran özünə qarşı yönələn təhlükə kimi baxmışdır. Onu da vurğulamaq lazımdır ki, Küveyt BMT TŞ-nın İranın nüvə proqramı ilə bağlı qəbul etdiyi qətnamələri və tətbiq etdiyi sanksiyaları dəstəkləsə də, reallıqda onların həyata keçirilməsinə tələsmirdi, çünki qonşu dövlətin əmirlik ərazisindəki çoxsaylı şiə radikal qruplaşmalarının fəallaşmasından çəkinirdi. Beynəlxalq birliyin İrana qarşı sanksiyaları kəskinləşdirməsi və Küveyt rəhbərliyinin BMT tədbirlərini dəstəkləməsi nəticəsində 2010-cu ilin sonu - 2011-ci ilin əvvəllərində iki ölkə arasında münasibətlər kəskin şəkildə pisləşdi. Küveyt öz sərhədləri yaxınlığında İranı kəşfiyyat şəbəkələri qurmaqda ittiham etdi

və səfirini geri çağırdı, iki dövlət arasında diplomatik əlaqələr kəsildi. Doğrudur, bir müddətdən sonra əlaqələrin bərpası istiqamətində danışıqlar aparıldı və yaranmış gərginliyi aradan qaldırılması yolunda əməli addımlar atıldı. Bununla yanaşı qeyd etmək istərdik ki, İranın qonşu İraqda mövqelərinin güclənməsi də Küveyti ciddi narahat edirdi. O, İraqda vəziyyətin sabitləşməsi üçün qlobal və regional "güc mərkəzlər"ini səylərini gücləndirməyə çağırırdı və hesab edirdi ki, qonşu dövlətdəki qeyri-sabit durum onun təhlükəsizliyini təhdid edir. Çünki, S.Hüseyn rejiminin devrilməsi və İraqda yeni hakimiyyətin formalaşması iki ölkə arasındakı problemləri tam olaraq həll etməmişdi. Sərhədlərin demarkasiyası haqqında sazişin imzalanmaması, 1990-1991-ci illərdə itkin düşmüş Küveyt hərbiçilərinin və mülki şəxslərin taleyi, vurulmuş ziyanın qarşılanması üçün təzminatın (20 mlrd.dollar civarında) ödənilməməsi, ölkənin qarət edilmiş mülkiyyətinin və Milli Arxivinin qaytarılmaması və s. ikitərəfli münasibətlərin inkişafına neqativ təsir göstərirdi. Buna baxmayaraq, son dövrlərdə tərəflər arasında siyasi və iqtisadi sahələrdə bir sıra pozitiv addımlar atıldı. XXI əsrin əvvəllərində, ümumiyyətlə, Küveyt bütün ərəb dünyasında fəal siyasət yürüdürdü. Bu baxımdan o, Ərəbistan yarımadasında yerləşən dövlətlər arasında inteqrasiya prosesinin inkişafına xüsusi önəm verir, KƏDƏŞ çərçivəsində bütün sahələrdə sıx əməkdaşlığın tərəfdarı kimi çıxış edirdi.

Belə bir məqamı da vurğulamaq istərdik ki, Küveyt-Səudi ikitərəfli və KƏDƏŞ çərçivəsində çoxtərəfli münasibətlərin inkişafına baxmayaraq, Səudi Ərəbistanın bu qurumda hegemon statusu Küveyt rəhbərlərini qane etmirdi. İki dövlət arasında bir sıra mübahisəli sərhəd problemləri də mövcud idi. İki sahilyanı adanın kimə mənsub olmasının qeyri-müəyyənliyi səbəbindən onların dəniz sərhədləri və Körfəzdə kontinental şelfin sərhədlərini müəyyənləşdimək mümkün olmamışdı. Küveyt KƏDƏŞ-in hərbi tədbirlərində də yaxından iştirak edirdi və bunun bariz nümunəsi kimi Səudi Ərəbistanı və BƏƏ ilə yanaşı 2011-ci ildə Bəhreyndə baş vermiş iğtişaşların yatırılmasında Küveyt ordu hissələrinin iştirakını göstərmək olar.

Əvvəlki illərdə olduğu kimi, sonralar da Küveytin xarici siyasət kursunda islam həmrəyliyi prinsipi xüsusi önəm daşıyırdı və o, İƏT və onun bir çox ixtisaslaşmış qurumlarının fəaliyyətində yaxından iştirak edirdi. Bu siyasət çərçivəsində əmirliyin müsəlman dövlətlərinə maliyyə yardımı davam etdirilirdi.

Daxili siyasi əziyyətə gəlincə, qeyd edək ki, 2006-cı ilin 15 yanvarında

uzun sürən xəstəlikdən sonra Küveyt əmiri Cabir Əhməd əs-Sabahın vəfatından sonra taxt-tacın rəsmi vəliəhd şeyx Saada ötürülməsi cəhdi ölkədə dərin siyasi böhrana səbəb oldu. Narazılığın əsas səbəbi kimi onun xəstəliyi və dövlətə rəhbərlik etmək imkanının olmaması göstərilirdi. Qızğın müzakirələr və qarşılıqlı güzəştlər nəticəsində hakim sülalə baş nazir olmuş Sabah Əhməd əs-Sabahın əmir olmasına razılıq verdi. Əmir seçiləndən sonra şeyx Sabahın bir sıra güzəştlərə getməsinə baxmayaraq, ölkədaxili durumu sonadək tənzimləmək mümkün olmadı. 2008-ci ilin martında parlament-hökumət qarşıdurması siyasi böhran və hökumətin istefası ilə nəticələndi. Yaranmış vəziyyətdə əmir 29 iyun 2006-cı ildə seçilmiş parlamenti buraxdı və 2008-ci ilin mayın 17-də növbədənkənar parlament seçkiləri təyin etdi. Seçkilərdən sonra da parlamentdə hökumətin fəaliyyəti vaxtaşırı tənqid olunurdu, parlamentdən kənar müxalif qruplar isə ona qarşı çıxışlar edirdilər və bu narazılıq əmirliyin daxili siyasi vəziyyətinə qeyri-sabitlik elementləri gətirirdi.

Sonrakı illərdə gənclər arasında işsizliyin səviyyəsinin artması, gender münasibətlərində yaranmış gərginlik hökumətə yönəlik narazılıqları daha da gücləndirdi. Küveyt qadınları hələ 2005-ci ildə seçki və seçilmək hüququ əldə etsələr də, islamçı qüvvələrin müqaviməti nəticəsində onlar yalnız 2009-cu il parlament seçkiləri zamanı bu hüququ realizə edə bildilər. Nəticədə Küveyt tarixində ilk dəfə 4 qadın parlamentdə təmsil olundu ki, onların dördü də ABŞ universitetlərində təhsil almış və fəlsəfə doktoru adına yiyələnmişdilər. 2009-cu il parlamentinin tərkibində bir sıra ciddi dəyişikliklər də oldu – onun təqribən 40% yeni üzvlərdən ibarət idi, islamçıların sayı 21-dən 11-ə enmişdi, şiə və liberal meylli deputatların sayı isə əksinə artmışdı. Buna baxmayaraq, ölkədə müxalif qüvvələrin narazılığı səngimək bilmirdi. Onların sırasında ilk növbədə iki qüvvə - radikal islamçılar və liberal meylli qüvvələr daha çox fəallıq edirdilər. Məhz elə onların təzyiqi altında ölkədə siyasi dairələrə öz fikirlərini parlamentdə və KİV-də ifadə etmək üçün imkan yaradıldı. Əmir hesab edirdi ki, bütün narazılıqların azad formada deyilməsi təmin olunmasa, narazı insanların sayı durmadan arta bilər, onların səslərinin eşidilməməsi qəzəb yaradar və bu da öz növbəsində kütləvi iğtişaşlara və itaətsizliyə yol aça bilərdi. Siyasi partiyaların fəaliyyətinə qadağa qoyulmasına baxmayaraq, ictimai-siyasi həyatda bir sıra təşkilatlar fəaliyyət göstərirdi və faktiki olaraq partiyaların funksiyalarını yerinə yetirirdi. Əhalinin 30%-ə yaxınının şiələrdən ibarət olduğu Küveytdə son dövrlərdə

onların cəmiyyətə daha çox inteqrasiyası prosesi müsbət nəticələr vermişdir. Şiələr parlamentdə təmsil olunur və ölkə iqtisadiyyatında kifayət qədər ciddi mövqelərə malik idilər. Lakin sünni və şiə icmaları arasında qeyri-bərabərlik tam aradan qalxmamışdı.

Daxili siyasi vəziyyətə təsir edən problemlərdən biri də vətəndaşlığı olmayan 200 minə yaxın "bidunə"[1] adlandırılan şəxs var idi və onlar vaxtaşırı vətəndaşlıq hüquqlarının verilməsi tələbi ilə etiraz aksiyaları keçirirdilər.

Körfəz savaşından sonrakı ilk illərdə ölkənin iqtisadi həyatındakı çətinliklərə baxmayaraq o, tezliklə əvvəlki göstəricilərə yaxınlaşdı. Belə ki, Küveytin xarici ticarəti 38-40 mlrd dollar civarında dəyərləndirilirdi – bunun 13 mlrd dollarını idxal, 25 mlrd dollarını isə ixrac təşkil edirdi və ümumi məbləğin 90%-i neftin payına düşürdü. 2008-ci il göstəricilərinə görə, ÜDM təxminən 8% artmışdı. Küveyt dünyanın neft və neft məhsulları ixrac edən ölkələri sırasında mühüm yer tuturdu. Onun əsas ixrac tərəfdaşları Yaponiya (20,5%), Güney Koreya (13,7%), ABŞ (12,4%), Sinqapur (11,3%), Tayvan (9,9%), habelə Hindistan, Pakistan, Böyük Britaniya və Hollandiya idi. Küveyt əsasən ərzaq, tikinti materialları, avtomobil və onun ehtiyat hissələrini, hazır toxuculuq məhsulları və s. idxal edirdi. İdxal üzrə onun əsas tərəfdaşları sırasında ABŞ, Almaniya, Yaponiya, Səudi Ərəbistan, Böyük Britaniya, Fransa, İtaliya və Hindistan vardı.

Yaxşı inkişaf etmiş neft emalı və neft-kimya sənayesinə malik Küveyt öz məhsullarının əsas hissəsini qonşu ərəb ölkələrinə, həmçinin Çin, Hindistan, Pakistan və Doğu Afrika dövlətlərinə ixrac edirdi. Lakin sonralar neftin qiymətinin sabit qalmaması və dünya maliyyə-iqtisadi böhranı ölkəni yeni, daha mütərəqqi istehsal sahələrinə investisiya axınını gücləndirməyə sövq etmişdir. Ölkədə həmçinin dövlət mülkiyyətinin bəzi sahələri, o cümlədən kommunal təsərrüfatı, radio-televiziya şirkətləri, limanlar, yanacaqdoldurma stansiyaları və s. özəlləşdirilməsi prosesi başlanmışdı.

Küveyt hökuməti dünyanın tanınmış iqtisadi nəhənglərinin bir sıra müəssisələrinin (BP, Metallgesellschaft AG və Daimler Benz AG) xeyli pay paketini əldə edə bilmiş, Ərəb İqtisadi İnkişaf Fondu vasitəsilə ərəb ölkələrinin iqtisadiyyatına vəsait yatırmışdır. Küveyt habelə iri kapital ixrac edən ölkələr sırasındadır. Müxtəlif qiymətləndirmələrə görə, sözügedən dönəmdə xaricdə dövlət yatırımları 60-70 mlrd dollar, şəxsi vəsaitlərin həcmi isə 40 mlrd dollar olmuşdur.

---

[1] Bidunə - ərəbcədən tərcüməsi "kənarda qalan" deməkdir

Dünya iqtisadi böhranının ardınca başlamış "Ərəb baharı" Küveytdən də yan ötüşmədi. 2011-ci ilin yazından başlayaraq paytaxt əl-Küveyt və digər şəhərlərdə hökumətin istefası və Konstitusiyaya dəyişikliklər edilməsi ilə bağlı etiraz nümayişləri başladı. Nümayişçilərin tələblərindən biri də ölkədə konstitusiyalı monarxiya rejiminə keçilməsi idi. Eyni zamanda "bidunə"lər də vətəndaş hüquqlarının verilməsi tələbi ilə çıxışları genişləndirdilər. 2011-ci il martın 31-də şeyx Məhəmməd əs-Sabah başda olmaqla hökumət istefa verdi və bununla da iqtisadiyyat, xarici işlər və neft nazirlərinin korrupsiya ittihamı ilə parlament dinləmələrinin keçirilməsi haqqında müxalifətin tələbi əngəlləndi. Müəyyən fasilədən sonra, 2011-ci ilin noyabrında parlament-hökumət qarşıdurması yenidən qızışdı. Müxalifətin tərəfdarları parlament binasına soxuldular və hökuməti korrupsiya qalmaqalında ittiham edərək baş nazir şeyx N.əs-Sabahın istefasını tələb etdilər. Əmir məsələnin araşdırılması və bütün günahkarları, o cümlədən parlamentə hücum edən şəxslərin məsuliyyətə cəlb olunmasına dair fərman imzaladı. "Bidunı"ların bir hissəsinə vətəndaşlıq hüququ verildi və onların narazılığının qismən də olsa səngiməsinə nail olundu.

Dünyada və regionda cərəyan edən mürəkkəb və ziddiyyətli proseslərə baxmayaraq, Küveytin daxili siyasi vəziyyəti əsasən sabit olaraq qaldı və hakimiyyət ölkədəki durumu nəzarətdə saxlaya bildi.

Deyilənləri belə yekunlaşdırmaq istərdik ki, Küveytin dünya dövlətləri sırasında öz yeri və rolu vardır, dünya iqtisadiyyatına inteqrasiyası güclənməkdədir, malik olduğu neft-qaz ehtiyatları tükənənədək vəziyyətin belə də qalacağı ehtimalı böyükdür.

### *Bəhreyn*

Ada ərazisi olan Bəhreyn XX əsrə Körfəzin digər ölkələrindən sosial-iqtisadi və siyasi baxımdan heç nə ilə fərqlənməyən bir durumla daxil olmuşdu. Burada da yarımfeodal və tayfa-qəbilə münasibətləri hakim idi. Ölkə əhalisinin ənənəvi məşğuliyyəti olduqca primitiv əkinçilik, məhdud heyvandarlıq, daha çox isə balıq, mirvari və s. kimi dəniz nemətlərinin əldə edilməsi idi. Ölkənin gəliri əsasən dəniz nemətlərinin, başlıca olaraq mirvari satışından və gömrük rüsumlarından asılı olurdu. Mirvari ovuna 20 min adam tutan 500 gəmi çıxırdı. Gəmi sahibləri və mirvari ilə hər növ ticarət əməliyyatları aparan şəxslər illik vergi ödəyirdilər. Tacirlər mirvarini əhali-

dən alır, sonra isə onu xaricə satırdılar.

Əkinçilik sahəsinə gəlincə, qeyd edək ki, Ərəbistanın digər ölkələri ilə müqayisədə Bəhreyndə becərilən torpaqların sahəsi nisbətən böyük idi və ölkə ərazisinin 1/10 hissəsini təşkil edirdi. Əsas kənd təsərrüfatı məhsulu xurma idi. Bununla yanaşı tərəvəz və bostan bitkiləri də becərilirdi. Otlaqların azlığı maldarlığın inkişaf miqyasını məhdudlaşdırırdı. Torpaq mülkiyyəti və istifadəsi sistemi arxaik xarakter daşıyırdı. Hakim əl-Xəlifə sülaləsi get-gedə daha çox torpağı ələ keçirirdi. Kəndlilərin əksəriyyəti torpaqsız idi və onu icarəyə götürürdü. İcarə haqqı daim artır, borcları olan kəndlilərin çoxu torpaqdan məhrum edilirdi. Müflisləşmiş kəndlilər şəhərlərə üz tuturdu.

Bəhreyndə bir sıra sənətkarlıq növləri mövcud idi: dulusçuluq, toxuculuq, boyaqçılıq və s. Bəhreynin xarici dünya ilə əlaqəsi dəniz yolu vasitəsi ilə həyata keçirilirdi. Ona görə də ölkədə dənizçi, balıqçı, gəmiçi kimi peşələr geniş yayılmışdı.

Uzun illər boyunca mövcud olan bu sakit və yeknəsəq həyat məhz elə sözügedən zaman ərəfəsində pozulmağa başladı. Onun da əsasında hər şeydən öncə xarici amil dayanırdı. Belə ki, XIX əsrin son illərində Böyük Britaniyanın bütün siyasi rəqiblərinin iradəsini qıraraq bölgədə təkbaşına söz sahibi olmaq siyasətinin gerçəkləşməsində ən böyük uğur 1880-ci ilin sonunda Bəhreynlə bağlanan saziş oldu. Tarixdə "Birinci müstəsna saziş" ("First exclusive agreement") adı ilə tanınan bu sənədə görə Bəhreyn şeyxi İsa ibn Əli əl-Xəlifə "özünün və həmçinin varislərinin adından" öhdəlik götürmüşdü ki, Böyük Britaniyadan başqa heç kimə konsessiya və kömür stansiyaları qurmağa icazə verilməyəcək, digər dövlətlərlə diplomatik danışıqlar aparılmayacaq və müqavilələr bağlanmayacaqdır. 1892-ci ildə tərəflər arasında "Sonuncu müstəsna saziş"ə ("Final exclusive agreement") görə isə şeyx öhdəsinə götürdü ki, bir qarış Bəhreyn torpağı Böyük Britaniyadan başqa heç kimə icarəyə verilməyəcək və onun hər hansı bir formada kiminsə tərəfindən alınması olmayacaqdır.

Beləliklə də, Bəhreyn bütünlüklə Böyük Britaniyadan asılı duruma düşdü. Doğrudur, sazişlər ölkənin təhlükəsizliyi baxımından, nisbi də olsa, müsbət əhəmiyyət kəsb edirdi. Lakin Böyük Britaniyanın burada güclənməsi və yürütdüyü siyasət ölkədə kifayət qədər çətinliklər yaratdı.

Ölkə əhalisinin ənənəvi məşğuliyyət sahəsi dəyişikliklərə uğradı, ona böyük ziyan dəydi. Gəmiçilik və ticarət zəiflədi, yelkənli qayıqların əvəzinə

müasir buxar gəmiləri gəldi. Bütün bunlar yerli əhalinin yaşayış səviyyəsinin daha da aşağı düşməsinə səbəb olurdu.

Bu durum XX əsrin 20-ci illərinə qədər, demək olar ki, dəyişməz qaldı. Lakin həmin vaxtdan etibarən bütün Körfəz ölkələrində olduğu kimi, Bəhreyndə də neft yataqları üzərində nəzarəti ələ keçirmək uğrunda ingilis və amerikan şirkətləri arasında mübarizə başladı. 1923-1925-ci illərdə əsası qoyulan bu mübarizə çox kəskin və uzun müddətli oldu və nəticədə amerikanların qələbəsi ilə başa çatdı. 1930-cu il iyunun 12-də "Standart Oyl Kompani of Kaliforniya"nın törəməsi olan "Bəhreyn Petroleum Komapani" (BAPKO)[1] 69 il müddətinə neftin kəşfi və istismarı haqqında şeyx Həmadla saziş imzaladı. 1932-ci ildə Bəhreyn adasının mərkəzində qazılan ilk neft quyusu fontan vurdu. 1934-cü ildə isə Bəhreyn nefti ilə dolu ilk tanker Körfəzdən yola çıxdı. Beləliklə, neft hasilatının inkişafı ölkənin həm iqtisadi, həm də siyasi həyatına ciddi təsir etdi.

XX əsrin 20-30-cu illərin əvvəlləri Bəhreyn tarixi həm də azadlıq meylləri və xalq hərəkatının yüksəlişi ilə də əlamətdardır. Belə ki, həmin dövrdə Misir, Suriya və İraq kimi ölkələrdə güclənməkdə olan millətçilik ideyaları Bəhreynə də sirayət etmiş, burada mövcud inzibati sistemin yeniləşməsi, sosial-iqtisadi islahatlar keçirilməsi ideyalarını təbliğ edən ilk dərnəklər qurulmuş, dövri mətbuat yaranmışdı. Hakimiyyətə qarşı çıxışlar olur, sünnü-şiə, ərəb-qeyri ərəb ziddiyyətləri zəminində iğtişaşlar baş verirdi.

Hakimiyyət əleyhinə ovqatın daha da yüksəlməsindən həm şeyx, həm də Bəhreyndəki Böyük Britaniya siyasi təmsilçisi Ç.D.Belqrayv çox narahat oldu. O biri tərəfdən, İran da Bəhreynə olan iddiasını (ada 1622-ci ildə Səfəvilər dövləti tərəfindən tutulmuş və 1780-ci ilə qədər onun tərkibində qalmışdı – müəl.) gündəmə gətirmişdi və məsələ Millətlər Cəmiyyətinin müzakirəsinə verilmişdi.

Həmin illərdə həyata keçirilən istər repressiv tədbirlər, istərsə edilən güzəştlər nəticəsiz qaldı. Odur ki, Böyük Britaniyanın siyasi təmsilçisi şeyx İsa ibn Əli əl-Xəlifəni inandırdı ki, yeganə çıxış yolu onun hakimiyyətdən getməsi və yerinə oğlu Həmadı gətirməsidir. 1925-ci ildə şeyx belə də etdi. Həmad atasının "vəkili" olaraq ölkəni idarə etməyə başladı. Bununla yanaşı, bir sıra islahatlar da həyata keçirildi: idarəçilik və məhkəmə sistemi tənzim-

---

[1] «Bəhreyn Petroleum Kompani» (BARKO) «Stanndart Oyl Kompani of California»nın bir qolu kimi təsis edilmiş və 1929-cu ildə Kanadada «İngilis milli korporasiyası» kimi qeydə alınmışdı

ləndi, torpaq mülkiyyətinin qeydə alınması başladı. 1927-ci ildə ilk dəfə bələdiyyə şuraları yarandı. Yerli gömrük və maarif idarələri təşkil olundu. 1934-cü ildə Böyük Britaniya parlamenti Bəhreynin "müstəqil dövlət" statusunu rəsmən təsdiq etdi. Lakin Böyük Britaniyanın bu addımı və şeyx Həmadın həyata keçirdiyi islahatlar ölkədə baş verən narazılıqların qarşısını almadı və 30-cu illərin sonlarınadək etirazlar səngimədi.

Həmin dövrdən liberal yönümlü qüvvələr ölkənin tamamilə Böyük Britaniya hakimiyyəti altında qalmasına və yerli hakimiyyətin özbaşınalığına qarşı etirazını bildirir, idarəçilik aparatında xalqın da nümayəndələrinin iştirakının təmin edilməsini, səhiyyə, maarif və məhkəmə sisteminin demokratikləşməsini tələb edirdi. Yaranmış mürəkkəb vəziyyəti nəzərə alan Böyük Britaniyanın müstəmləkələr nazirliyinin nümayəndəsi Ç.Belqrayv (o, 1926-ci ildən Bəhreyn əmirinin müşaviri vəzifəsini tuturdu) yeni islahatların təşəbbüskarı kimi çıxış etdi. O, fəaliyyətinə əmirliyin bütün gəlirləri üzərində nəzarətin qoyulması ilə başladı və bununla islahatları həyata keçirmək üçün lazımi vəsait əldə etdi. İdarəçilik sisteminin təkmilləşməsi, əmirliyin yeni hərbi qüvvələrinin yaradılması islahatların əsas istiqaməti kimi nəzərdə tutulurdu. Ç.Belqrayvın addımları Londonun dəstəyini qazandı və islahatlar fonduna əlavə vəsait keçirildi. Lakin ölkə daxilində Böyük Britaniya müşavirinin təşəbbüsləri dəstək qazanmadı. Həmin dövr üçün xarakterik olan bahalıq və əhalinin həyat səviyyəsinin aşağı düşməsi daxili siyasi vəziyyətin daha da ağırlaşmasına səbəb oldu. 1936-1938-ci illərdə mirvari istehsalçılarının və BAPKO işçilərinin tətilləri baş verdi və II Dünya müharibəsinin əvvəllərinədək davam etdi. 1939-cu ilin noyabrında paytaxt Manamada baş verən nümayiş zamanı rejimin liberallaşması və konstitusiya qəbulu tələbləri səsləndi. Şeyx Həmad (1932-1942) xalqın nümayəndələrini qəbul etməkdən imtina etdi və əvəzində ordu hissələrini tam hazırlıq vəziyyətinə gətirdi. 1940-cı ilin oktyabrında Bəhreynə İtaliya-Almaniya aviasiyasının hücumu ölkədə Böyük Britaniya ağalığının toxunulmazlığına ağır zərbə vurdu və əhalinin növbəti çıxışlarına təkan verdi. Ç.Belqrayvın ölkədən çıxarılması və Böyük Britaniya hərbi bazalarının ləğvi tələbi gündəmə gəldi. Yaranmış gərginliklər 1941-ci ilin sonunda "Körfəz komandanlığı"nın tərkibində amerikan ordu hissələrinin Bəhreyndə yerləşməsinədək davam etdi.

Yalnız bundan sonra Bəhreynin yeni şeyxi Salman ibn Həmad əl-Xəlifə (1942-1961) müəyyən kiçik vədlər və güzəştlər verməklə daxili siyasi gərginliyi azalda bildi və narazı qüvvələri bir qədər sakitləşdirdi. Eyni zamanda o,

Böyük Britaniya və ABŞ arasındakı ziddiyyətlərdən istifadə edərək, əmirliyin xarici təsirlərdən azad edilməsinə çalışırdı. Lakin əmirin bu cəhdlərinin müsbət nəticələri uzun sürmədi. 1943-cü ilin dekabrında BAPKO-nun müəssisələrində yenidən tətillər başladı. Tətillər artıq nəinki iqtisadi, həm də siyasi xarakter daşıyırdı. Onları dayandırmaq mümkün olmadı. Odur ki, şirkət rəhbərləri tətilçilərlə danışıqlara getdi. Böyük Britaniya və ABŞ hərbi hissələrinin yanacaqla təchiz olunmasında yarana biləcək əngəllərin aradan qaldırılması üçün hakimiyyətdə BAPKO-nu güzəştlərə getməyə və tətil komitəsinin nümayəndələri ilə saziş imzalamağa məcbur etdi.

II Dünya müharibəsindən sonrakı ilk illərdə Bəhreyn əmirliyində mühüm hadisələr baş verdi. Bunun da əsasında ölkəni "nümunəvi bir ərəb dövləti"nə çevirmək üçün Böyük Britaniya planının həyata keçirilməsi dururdu. Əslində Bəhreyndə daha da möhkəmlənmək və Körfəzə nəzarət etmək üçün buranı güclü bir məntəqəyə çevirmək işinə hələ müharibənin gedişində başlanılmışdı. Belə ki, 1941-ci ilin sonlarında ABŞ hərbi birləşmələrinin də adaya gəlməsindən sonra Böyük Britaniya yerli əhaliyə bəzi kiçik güzəştlər vermək yolu ilə özünün etibarlı hami obrazını yaratmağa çalışırdı. Bu işdə Bəhreyn şeyxi Salman əl-Xəlifə və Körfəzdə Böyük Britaniya müstəmləkə rejiminin başçısı Ç. Belqrayv arasında yaranmış əməkdaşlıq mühüm rol oynadı. Onların birgə səyi nəticəsində adadakı bütün əndişələrə və narazılıqlara son qoyuldu. Artıq 1944-1945-ci illərdə şeyx və rezident sözün həqiqi mənasında tam ixtiyar sahibinə çevrildilər. Məhz bu da imkan verdi ki, Böyük Britaniya adanı Körfəzdə müstəmləkə rejiminin mərkəzinə çevirmək niyyətini gerçəkləşdirsin. 1946-cı ildə Ç.Belqrayvın mənzil-qərargahı Bəndər Buşirdən Bəhreynin paytaxtı Manamaya köçürüldü. Ç.Belqrayv Bəhreyni "nümunəvi ərəb dövləti"nə çevirmək fəaliyyətini daha da genişləndirdi. Bəhreyn böyük bir tikinti meydanı oldu. Manama Avropa qaydasında yenidən quruldu, dəniz və hava limanları modernləşdirildi. Bəhreyn adası Mühərrək və Sitri adaları ilə damba vasitəsi ilə birləşdirildi. Poçt, teleqraf, telefon rabitəsi yaradıldı, qəzet və jurnalların nəşri artırıldı, yüksək səviyyəli infrastrukturlar quruldu. Məktəblər və xəstəxanalar açıldı. Təhsil alanların sayı 1945-ci ildə ən yaxşı halda bir neçə yüz idisə, 1950-ci ildə 5 min nəfərə çatdı. Ancaq yaranmış bu imkanlardan əsasən şəhər əhalisi istifadə edirdi. Kənd əhalisi, daha doğrusu, köçəri qəbilə və tayfalar nəinki yeni həyat şəraitindən faydalanmağa cəhd etmirdi, əksinə, ənənəvi həyat tərzinin toxunulmaz olaraq saxlanılmasına çalışırdılar.

Bəhreyndə gedən quruculuq işlərinə BAPKO böyük iqtisadi dəstək vermişdir. Şirkət bu məqsədlə konsessiya üçün nəzərdə tutulan məbləği iki dəfə artırmışdı. ABŞ-ın işgüzar dairələri də Bəhreyndə gedən proseslərə ilk gündən xüsusi maraq göstərirdi və "nümunəvi ərəb dövləti"nin qurulmasında dolayısı yolla öz maliyyə dəstəyini də göstərirdi. Həmin dövrdə onlar da Bəhreyn nefti ilə maraqlanırdılar və ölkəyə girmək üçün yaranmış vəziyyətdən yaralanmaq istəyirdilər. İlk gündən ingilis-amerikan işbirliyi baş tutdu və onların birgə səyi nəticəsində istər neft çıxarılması, istərsə də neft sənayesi sahəsində ciddi irəliləyiş oldu. Bəhreynin neft ixracı və emalı imkanları artdı. Ölkə sürətli inkişafa qovuşdu.

İqtisadi həyatda baş verən bu dəyişikliklər sosial və siyasi həyata təsirsiz ötüşmədi. Bəhreyn xalqının sosial və siyasi fəallığı da yüksəldi. Bu məsələdə həmin dövrdə bütün müstəmləkə ölkələrində, xüsusilə də regionda gedən antimüstəmləkə proseslərinin rolu da çox böyük olmuşdur. Bəhreynin sürətlə "batılaşma"si ölkənin müxtəlif sosial və siyasi dairələrində ciddi əksreaksiya doğururdu. Həmin dövrdə İranda ingilis-İran neft şirkətinin milliləşdirilməsinə edilən cəhdlər isə bəhreynlilər üçün bir örnəyə çevrildi. 1951-ci ilin martında BAPKO-nun işçiləri tətil etdilər. Onlar əmək haqqının artırılması, məişət şəraitinin yaxşılaşdırılması və s. sosial xarakterli tələblərlə yanaşı 1940-cı ildə bu şirkətlə bağlanan müqavilənin şərtlərinə yenidən baxılması tələbi ilə də çıxış edirdilər. Az keçmədi ki, Bəhreyn başdan-başa etiraz dalğasına büründü. Manama və Mühərrəkdə Böyük Britaniya hərbi bazalarının ləğvi, BAPKO-nun milliləşdirilməsi, ölkəyə istiqlaliyyət verilməsi və keçirilən mitinq və nümayişlərin əsas şüarları idi. Şeyx Salman əl-Xəlifənin və rezident Belqrayvın bu tələblərə etinasız münasibətinə cavab olaraq nümayişçilər şeyxin hakimiyyətdən əl çəkməsi və rezidentin isə ölkədən çıxıb getməsi tələbi ilə küçələrə çıxanda onlar yerli hərbi-polis birləşmələrinin və ingilis qoşunlarının atəşləri ilə qarşılandılar. Hakimiyyət əkshücuma keçdi: həbslər aparıldı, təqib və cəzalar artırıldı. Lakin etirazları səngitmək heç cür mümkün olmurdu. Ölkə iflic vəziyyətinə düşdü. Böyük Britaniya və ABŞ ciddi narahatlıq keçirirdi və onlar gedən proseslərin qarşısını almaq üçün Bəhreynə əlavə qoşun hissələri göndərdilər. Böyük səylər nəticəsində ölkədə istiqrarı bərpa etmək mümkün oldusa da, etirazları doğuran səbəblər həll edilmədi. Bu səbəbdən idi ki, 1954-cü ilin əvvəllərində istiqrar yenidən pozuldu. Müxtəlif peşə sahiblərinin tətilləri vüsət aldı. Vətəndaş itaətsizliyi kampaniyası genişləndi. Narazı qüvvələrin təmsilçiləri hə-

rəkatı idarə etmək üçün səkkiz nəfərdən ibarət Ali İcra Komitəsi yaratdılar. Ona demokratik ovqatlı jurnalist əl-Bəkir rəhbərlik edirdi. Komitə Qanunverici Şuraya seçkilər keçirilməsi, mülki və cinayət məcəllələrinin, əmək qanunvericiliyinin hazırlanması, kassasiya məhkəmələrinin yaradılması, işçilərə həmkarlar təşkilatı təsis etmək hüququnun verilməsi, ən başlıcası isə əcnəbilərin ölkənin daxili işlərinə qarışmaması tələblərini irəli sürdü. Şeyx və əmir Salman əl-Xəlifə və Belqrayv bəzi tələblərin yerinə yetiriləcəyinə söz verdilər. Lakin onlar vədlərinə əməl etmədilər. Bu səbəbdən də 1954-cü ilin ikinci yarısında narazılıq dalğası bütün ölkəni bürüdü. Narazı qüvvələr yeni-yeni tələblərlə mitinq və nümayişlər təşkil edirdilər. Bu tələblərə münasibət zəminində Ali İcra Komitəsində parçalanma baş verdi. 1955-ci ilin əvvəlində əl-Bəkirin tərəfdarları yarımleqal Mülki Birlik Komitəsi (MBK) təsis etdilər. Daha radikal qüvvələr isə Bəhreyn Milli Azadlıq Cəbhəsində (BMAC) birləşdilər. Onlar vətəndaş itaətsizliyi kampaniyasını davam etdirməkdə israrlı idilər.

Vəziyyətin getdikcə gərginləşməsi əmiri məcbur etdi ki, narazı qüvvələrlə danışıqlara getsin. O, əl-Bəkirin başçılıq etdiyi Milli Birlik Komitəsi ilə danışıqlara üstünlük verdi. 1955-ci ilin ortalarına qədər davam edən danışıqlar əmirin Qanunverici Şura yaradılması tələbi ilə razılaşmaması səbəbindən nəticəsiz qaldı.

Vəziyyəti yerində öyrənmək məqsədi ilə Böyük Britaniya xarici işlər nazirinin ölkəyə gəlməsi ciddi etiraz doğurdu. 1956-cı il martın 12-də ümumi tətil elan olundu və o, tezliklə üsyana çevrildi. Böyük Britaniya və yerli hakimiyyət orqanları yenə də silaha əl atdılar. Üsyançılara qarşı ordu yeridildi. Bəhreynə əlavə ingilis qoşunları gətirildi və fövqəladə vəziyyət elan edildi. Lakin 1956-cı ilin oktyabrında ingilis-fransız-İsrail hərbi birləşmələrinin Misirə girməsi xəbəri ehtirasları yenidən alovlandırdı. Ümumi tətil yenidən başladı və öz gücünə görə budəfəki narazılıq əvvəlkilərlə müqayisədə çox yüksəkdə idi. Ölkə iflic vəziyyətinə düşdü. Müəssisələr işləmir, xarici şirkətlərin binaları dağıdılır, hətta ingilis və fransız təyyarələrinə yanacaq doldurulmasından imtina edilirdi.

Bütün bunlar hakimiyyət dairələrində böyük təlaş yaratdı. Ölkəyə əlavə qoşun dəstələri yeridildi. MBK-nın fəaliyyəti qadağan edildi, onun rəhbərləri və fəalları həbsə atıldı. Eyni zamanda bir sıra tələblər də yerinə yetirildi. Ali İnzibati Şuranın və yerli idarə strukturlarının yaradılması, əmək məcəlləsinin qəbul edilməsi və s. bu qəbildən idi. Ən başlıcası isə

Belqrayv "könüllü" istefaya göndərildi.

Görülən tədbirlər etirazları bir qədər səngitsə də, tamam aradan qaldıra bilmədi. Narazı qüvvələr ölkə daxilində və xaricində öz fəaliyyətlərini müxtəlif formalarda davam etdirməkdə idilər. XX əsrin 60-cı illərinin əvvəllərində Böyük Britaniyanın Ərəb Əmirlikləri Federasiyası planına qarşı açıq çıxışların baş verməsi məhz həmin fəaliyyətin nəticəsi idi. 1961-ci ildə İsa bin Salman əl-Xəlifənin hakimiyyətə gəlməsindən sonra isə açıq çıxışlar daha da artdı. Doğrudur, ingilis qoşunlarının köməyi ilə yeni əmir bu çıxışların qarşısını qısa zaman üçün ala bildi. Hətta 1962-1963-cü illərdə narazı siyasi qüvvələrə qarşı terror və təzyiqlər son dərəcə artırıldı. Ancaq ölkədə antiingilis kampaniyası daha da genişləndi. Millətçilik ovqatı yüksəldi. Bu yönümdə siyasi təşkilatlanma cəhdləri özünü göstərdi. Ərəb millətçiliyi ideyası zəminində Xalq İnqilabi Hərəkat Təşkilatı və bir sıra bəəsçi qruplaşmaları yarandı. Ölkənin azadlığı, demokratik islahatların aparılması və istiqlaliyyətə nail olunması uğrunda mübarizə daha kəskin xarakter aldı. Bu baxımdan 1965-ci ilin martında əmirin siyasətinə qarşı başlayan mitinq və nümayişlərin hərbi güc tətbiqinə, terror və həbslərə baxmayaraq iyuna qədər davam etməsi maraq doğurur. Həmin arada əmirin ölkə ərazisində Böyük Britaniya hərbi bazasının yaradılmasına razılıq verməsi xəbəri kütləvi antiingilis çıxışların artmasına gətirdi.

Qeyd etməliyik ki, həmin illərin ortalarında Böyük Britaniya təkcə Bəhreyndə deyil, eləcə də Körfəzin digər ölkələrində yaranmış vəziyyətdən çıxmaq yolları haqqında düşünmək zorunda qaldı. Bu zaman ona da çalışılırdı ki, hansı formada olursa-olsun, regionda Böyük Britaniyanın mövqeləri qorunub saxlanılsın. Bununla yanaşı, İran da xeyli müddət idi ki, Körfəzdəki bəzi ərazilərə, o cümlədən, Bəhreyn ərazisinə iddialar irəli sürürdü. Elə Bəhreynin özündə də İranla birləşmək tərəfdarları da vardı. Bu səbəbdən də İran hələ 1957-ci ildə Bəhreyni özünün 14-cü vilayəti elan etmişdi. Odur ki, Böyük Britaniya Körfəz ölkələri Federasiyası yaradılması planını irəli sürdü ki, İran tərəfini zərərsizləşdirsin. Planın Körfəz xalqları, o cümlədən, bəhreynlilər tərəfindən rədd edilməsindən sonra 1968-ci ildə Böyük Britaniya öz qoşunlarının 1971-ci ilin sonunadək Körfəz ölkələrindən çıxaracağını elan etdi. Bu, əslində həmin ölkələrə istiqlaliyyət verilməsinin dolayı yolla elan olunması demək idi. Körfəz xalqlarının istəyi ilə Böyük Britaniyanın istəyinin üst-üstə düşməsi həmin ölkələri İrana olan meyldən uzaqlaşdırmalı idi və nəticədə belə də oldu. Böyük Britaniya bu mübahisəli məsələni 1970-ci

ilin martında BMT-nin müzakirəsinə çıxardı. Bəhreyn xalqı bu təşəbbüsə böyük dəstək verdi. BMT də öz növbəsində Bəhreyn xalqının istiqlaliyyət hüququnu tanıdı.

Uzun sürən danışıqlardan sonra Böyük Britaniya 1971-ci il avqustun 14-də Bəhreynin istiqlaliyyətini rəsmən tanıdı. İki dövlət arasında imzalanan "Dostluq haqqında" müqaviləyə görə əvvəlki bütün müqavilələr qüvvədən düşdü. Bəhreynin istiqlaliyyəti digər dövlətlər tərəfindən də tanındı. O, Ərəb Dövlətləri Liqasına və BMT-yə üzv oldu.

Bəhreyndə müstəqil dövlət quruculuğu dövrü başlandı. Nazirlər kabineti təşkil edildi. 1972-ci ilin yayında Konstitusiya layihəsi hazırlanması işi başa çatdı. Müəssislər Məclisinə seçkilər keçirildi və onun 22 üzvü seçki ilə, 22 üzvü isə təyinat yolu ilə müəyyənləşdirildi. 1973-cü ilin dekabrında həm Konstitusiya qəbul olundu, həm də Milli Məclisə seçkilər keçirildi.

Qeyd edək ki, Milli Məclisin fəaliyyətə başlaması çox mürəkkəb dövrə təsadüf etdi. Belə ki, həmin ilin oktyabrında baş vermiş Ərəb-İsrail savaşı bütün ərəb dünyasında təlatüm yaratmışdı. Ölkədə Batı əleyhinə ovqat hakim idi. Hətta hökumət ABŞ hərbi bazasının ləğv edilməsi haqqında qərar qəbul etməli olmuşdu. Güclü etiraz çıxışları baş verirdi və həmin çıxışlar 1956-cı və 1965-ci illər hərəkatlarından da böyük üçüncü hadisə kimi qiymətləndirildi.

Həmin dövrdə Bəhreyndə az-çox gücü olan iki təşkilat yaranmış vəziyyətdən yararlanmağa çalışır və əmir hakimiyyətinə qarşı bir müxalifətçi qüvvə kimi çıxış edirdi. Onlardan birisi marksist ovqatlı Bəhreyn Milli Azadlıq Cəbhəsi (BMAC), digəri isə ərəb millətçiliyi ideyasına bağlı Bəhreyn Xalq Cəbhəsi (BXC) idi. Hər iki təşkilat həqiqi istiqlaliyyətə qovuşmaq şüarı altında ölkənin Avropa ilə yaxınlaşmasına qarşı idi və ictimai-siyasi sistemin demokratikləşməsi uğrunda mübarizə aparmağa cəhdlər göstərirdilər. Milli Məclisə seçkilər zamanı BMAC və BXC Xalq Bloku yaratdılar və parlamentdə 8 deputat yeri qazandılar. Parlamentdə onların hakimiyyətə qarşı kəskin çıxışları tərəflər arasında qarşıdurmanı gücləndirdi. Faktik olaraq parlamentin fəaliyyəti iflic vəziyyətə düşdü və 1975-ci ilin avqustunda əmir parlamenti buraxmaq haqqında dekret verdi.

Parlamentin buraxılmasına qarşı etirazlar dalğası asanlıqla yatırılsa da, daxili siyasi həyatda sərt dönüş yaratmaq mümkün olmadı. Vəziyyət kövrək olaraq qalırdı və onun hər an dəyişiləcəyi imkanı saxlanılırdı. Təsadüfi deyildi ki, 1977-ci ildə ABŞ-la olan 1971-ci il müqaviləsinin uzadılmasına ha-

kimiyyət cəsarət etmədi.

XX əsrin 70-ci illərinin sonlarında digər Körfəz ölkələrində olduğu kimi Bəhreyndə də islamçı qüvvələr arasında müxalifət ovqatı yüksəlməyə başlamışdı. Sünnü müsəlmanlar arasında "Müsəlman qardaşlar"nın ideyaları geniş təbliğ olunur, ölkə həyatının bütün sahələrində, fərd, dövlət və beynəlxalq münasibətlərlə bağlı hər bir məsələdə yalnız islam qayda-qanunlarına əsaslanmaq tələbi irəli sürülürdü. Şiə müsəlmanların bir hissəsi İslam Azadlıq Cəbhəsində (İAC) birləşmişdi və Bəhreyndə "islam respublikası" yaradılmasını istəyirdilər. Digər bir şiə qrupu isə ölkənin İrana birləşdirilməsi ideyasını yenidən gündəmə gətirdi. 1978-1979-cu illər İran islam inqilabı bu ideyaların reallaşmasına ümidlər yaratdı və ondan ruhlanan şiə ruhaniləri açıq mübarizəyə başladılar. Ayətullah Xumeyni tərəfdarlarının sayı gündən-günə artırdı. Əmir İsa bin Salmanın hakimiyyəti böyük təhlükə ilə üzüzə qalmışdı. Bu səbəbdən hakimiyyətin güc strukturları islamçılara, xüsusilə isə İAC üzvlərinə və İranla birləşmək tərəfdarlarına qarşı əks-hücuma başladılar. Bir çox fəallar həbs olundular.

1981-ci il dekabrın 14-də dövlət çevrilişi cəhdinin üstünün açıldığı və onun təşkilatçılarının İAC üzvləri və qonşu ölkələrdən gələn xumeyniçilər olduğu bildirildi. Hökumət güclü cəza və təqibləri artırmaqla yanaşı yaranmış təhlükənin qarşısını almaq məqsədi ilə Səudi Ərəbistan ilə təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında müqavilə bağladı.

1983-cü ilin mart-may aylarında dövlət çevrilişində ittiham olunan 73 nəfərin məhkəməsi oldu. Onlardan 42 nəfərinə ömürlük, digərlərinə isə müxtəlif müddətlərə həbs cəzası verildi. Sonrakı illərdə də hökumət radikal şiə qruplaşmalarına qarşı mübarizəni gücləndirdi və şiə təşkilatlarının fəaliyyətini yasaqladı.

Ümumiyyətlə, XX əsrin 80-ci illərinin əvvəllərindən Bəhreyn regionda baş verən hadisələrin axarında öz yerini tutmaq yolunda ciddi addımlar atırdı. Hələ 1981-ci ilin martında Körfəz Ərəb Dövlətləri Əməkdaşlığı Şurasının (KƏDƏŞ) altı qurucusundan biri oldu.

İran-İraq savaşı (1980-1988-ci illər) zamanı Bəhreyn digər Körfəz ölkələri ilə birlikdə İraqı dəstəklədi. Lakin İraqın 1990-cı ildə Küveytə müdaxiləsi Bəhreyn tərəfindən kəskin etirazla qarşılandı və o, çoxmillətli koalisiya qüvvələrinin İraqa qarşı hərbi əməliyyatlarını nəinki dəstəklədi, həm də öz ərazisindəki hərbi bazaları onların istifadəsinə verdi. 1992-ci və 1994-cü illərdə isə Bəhreyn hökuməti ABŞ və Böyük Britaniya ilə hərbi əməkdaşlıq

haqqında müqavilələr bağladı. Həmin əməkdaşlıq Bəhreynin dövlət təhlükəsizliyini təmin etmək və qorumaq məqsədindən qaynaqlanırdı. Sonrakı illərdə baş verən hadisələr bunu bir daha təsdiqlədi. Belə ki, ölkədə yaranmış kövrək daxili-siyasi istiqrar zəminində və həm də beynəlxalq hüquq müdafiəsi təşkilatlarının tənqidinə cavab olaraq əmir İsa 1994-cü ilin martında əfv elan etdi və xaricə qaçmış xeyli bəhreynlinin ölkəyə qayıtmasına icazə verdi.

Bundan çox keçmədi ki, şiə müxalifəti baş qaldırdı və onların liderlərindən Əli Salman Əhməd hökumətin siyasi kursuna qarşı çıxdı. O, həbs edildi və bununla da ölkə başdan-başa iğtişaşlara büründü. 1994-cü ilin sonu və 1995-ci ilin yaz aylarında paytaxt Manamada və şiələrin yaşadığı bütün bölgələrdə güclü çıxışlar baş verdi, qanlı toqquşmalar nəticəsində hər iki tərəfdən ölən və yaralananlar oldu. Vəziyyət o həddə çatdı ki, KƏDƏŞ üzvləri olan dövlətlərin xarici işlər nazirlərinin görüşü keçirildi. Görüş iştirakçıları Bəhreynin ölkədə sabitlik yaratmaq cəhdlərini dəstəklədilər. Bundan sonra hökumət qəti tədbirlərə əl atdı. İğtişaş törədənlərin bir hissəsi həbs edildi, liderlərdən bəziləri ölkədən çıxarıldı. Hakimiyyət həm də ölkədə köklü dəyişikliklər ediləcəyini bildirdi. Hökumətin tərkibinə hakim sülalədən olmayan nüfuzlu şəxslər gətirildi. Müxalifətlə danışıqlara gedildi. Bir sıra məhbuslar əfv edildi. Hakimiyyət-müxalifət danışıqları siyasi gərginliyi bir qədər səngitsə də, tam barışıq yaranmadı. Ayrı-ayrı yerlərdə müxtəlif formalı etiraz aksiyaları davam etməkdə idi. Nümayişlərin, terror aktlarının, hətta silahlı çıxışların, demək olar ki, arası kəsilmirdi. Bu səbəbdən hakimiyyət orqanları da sərt tədbirlərə əl atırdı. İstiqrarı pozanlara qarşı edamdan tutmuş müxtəlif müddətli həbs cəzaları tətbiq olunur, vəziyyəti nəzarətdə saxlamaq üçün əlavə səylər göstərilirdi. Bu baxımdan 1996-cı ilin ortalarında ədliyyə nazirliyinin nəzdində Ali İslam Şurasının yaradılması, bir sıra şiə məscidlərinin bağlanması, Məsləhət Şurası üzvlərinin sayının 40 nəfərə çatdırılması və onun rolunun artırılması (Məsləhət Şurası 1992-ci ildə təsis olunmuşdu və 30 nəfər üzvü birləşdirirdi – müəl.) və xüsusilə isə 1997-ci ilin yanvarında ölkədə siyasi istiqrarın qorunmasına məsul qüvvə kimi şahzadə Həmidin başçılığı altında Milli Qvardiyanın təşkili qeyd edilməlidir. Göstərilən bütün cəhdlərə baxmayaraq, vəziyyət 1997-1998-ci illərdə dəyişməz olaraq qaldı. Lakin 1999-cu il martın 6-da əmir İsa ibn Salmanın qəflətən ölümü və dövlət başçılığına Həmid ibn İsa əl-Xəlifənin gəlməsindən sonra Bəhreynin tarixində yeni mərhələ başladı. Atasının daxili və

xarici siyasət kursuna sadiq qalacağına and içən yeni dövlət başçısı 2002-ci il fevralın 14-də paytaxt Manamada bəyan etdi ki, Bəhreyn demokratik konstitusiyalı monarxiyadır, dövlətin rəsmi adı Bəhreyn Krallığıdır və dövlət başçısı kral titulunu daşıyır. Bunun ardınca kral Həmid ibn İsa sosial-siyasi həyatın demokratikləşdirilməsi yolunda bir sıra addımlar atdı. Ölkədə qanunvericilik təşəbbüsünün iki palatalı parlamentə – Milli Məclisə verilməsi haqqında Konstitusiyaya əlavələr edildi. Parlamentin yuxarı palatası Məsləhət Şurası kral tərəfindən, aşağı deputatlar palatası isə birbaşa seçkilər yolu ilə formalaşdırıldı. Müstəqil Konstitusiya Məhkəməsi və Hesablama Palatası təsis olundu. Qadınlara kişilərlə bərabər siyasi hüquqlar verildi, onlar seçmək və seçilmək hüququna malik oldular. Ölkənin sosial-siyasi həyatının liberallaşdırılması yolunda ən mühüm hadisə kimi 2002-ci ilin mayında bələdiyyə şuralarına və parlamentə seçkilərin keçirilməsinə və seçkili dövlət orqanlarının formalaşdırılmasına qərar verilməsi oldu.

Kralın bu tədbirləri müxalifətin böyük çoxluğu tərəfindən rəğbətlə qarşılansa da, bir sıra şiə qruplaşmaları yenə də barışmaz mövqedə dururlar. Müxalifətin mötədil qanadı Milli Dialoq üzrə İslam Cəmiyyətində birləşdi və seçkilərə qatıldı. Bütün bunlar Bəhreyn dövləti və xalqı qarşısında duran bir sıra problemlərin və onların həlli yolunda fikir ayrılıqlarının dinc vasitələrlə aradan qaldırılması prosesinin başlanğıcı oldu.

Bəhreynin iqtisadi inkişaf kursuna gəlincə demək lazımdır ki, o, istər istiqlaliyyətdən öncə, istərsə də istiqlaliyyətdən sonra liberal dəyərlərə söykənmişdir və belə davam etmişdir. XX əsrin 50-60-cı illərində xaricilərin köməyi ilə iqtisadiyyatın energetika, liman və yol inşaatı, emal sənayesi, kənd təsərrüfatı kimi sahələrində bir sıra layihələr işlənib hazırlandı və icra olundu. Bu yöndə işlərin həcmi artdığından 1967-ci ildə Plan Komitəsi təsis edilmiş ayrı-ayrı layihələrin hazırlanması və gerçəkləşdirilməsinin tənzim edilməsi həmin komitəyə həvalə edildi. Ölkə 1971-ci ildə istiqlaliyyətinə qovuşduqdan sonra bir sıra dövlət strukturları yaradılmış və onların sırasında maliyyə və iqtisadiyyat nazirliyi, inkişaf və texniki xidmət nazirliyi və s. olmuşdur. Həmin vaxtdan Bəhreyn hökuməti sosial-iqtisadi inkişaf proqramları tərtib etməyə və onları həyata keçirməyə başlamış, iqtisadi inkişafa yön vermək dövlət siyasətinin əsas vəzifələrindən olmuşdur. İqtisadiyyatın dövlət bölməsi ilə yanaşı qarışıq və özəl bölmələrin də genişlənməsinə bərabər imkanlar və şərait yaradılmışdır. İqtisadiyyatda xarici kapitalın fəaliyyəti üçün lazımi və əlverişli hüquqi-normativ baza yaradıldı. Ölkədə ABŞ,

Böyük Britaniya, Fransa, AFR, Yaponiya və s. ölkələrin banklarının filialları və müxtəlif sığorta şirkətləri fəaliyyət göstərirdi.

İqtisadiyyatın əsasını neft və qaz hasilatı və emalı təşkil etdiyindən büdcə gəlirinin 70%-i neft gəlirləri hesabına idi. İstiqlaliyyət qazandıqdan sonra Bəhreyn neft və qaz hasilatında öz payını xeyli artıra bildi. Əgər 1970-ci ildə bu sahədə ölkənin payı 25%-ə bərabər idisə, 1974-cü ildə o, artıq 60% oldu. Neft və qaz hasilatında başlıca rol oynayan BAPKO-ya alternativ olaraq 1976-cı ildə Bəhreyn Milli Neft Şirkəti yaradıldı. Həmin vaxtdan daxili bazarda neftin və qazın satışı, 1980-ci ildən isə ölkədəki neft mədənlərinin istismarı üzərində nəzarət Milli Neft Şirkətinə məxsus oldu. 1981-ci ildə Bəhreyn dövləti BAPKO səhmlərinin bir hissəsini satın aldı və bununla da ölkənin neft ehtiyatlarına tam nəzarət imkanı qazandı.

Qeyd edək ki, Bəhreynin neft hasilatı sahəsində imkanları Körfəzin digər ərəb ölkələri ilə müqayisədə xeyli məhduddur. İllik hasilat XX əsrin 90-cı illərində 2 mln t civarında olmuşdu. Bu səbəbdən də ölkənin, xüsusilə də BAPKO-nun neft təmizləmə və neft emalı zavodları əsasən Səudi Ərəbistandan daxil olan neftin hesabına işləyirdi. Onların illik gücü 14 mln ton idi. Ölkənin qaz hasilatı imkanları isə xeyli geniş idi və onun istismarı ilə 1979-cu ildə qurulmuş Bəhreyn Milli Qaz Şirkəti məşğul olurdu. Digər sənaye sahələrindən "Alüminium Bəhreyn" – (ALBA) dövlət şirkətinə məxsus olan alüminium kompleksi ölkə iqtisadiyyatında mühüm yer tutdu. Belə ki, Avstraliyadan alınan xammal hesabına işləyən zavod ildə 170 min ton civarında alüminium emal edir və ondan yeni məhsullar istehsal etmək üçün 20 şirkət yaradıldı. Dövlət alüminium kompleksində çalışanların sayı üç minə yaxın idi. Çuqun, polad və digər metal emalı, gəmi təmiri, inşaat, xidmət və turizm, ərzaq məhsulları müəssisələri vardı və bu şəbəkənin genişləndirilməsinə xüsusi diqqət verilirdi. Qeyd edək ki, yeni infrastrukturların yaradılmasında Səudi Ərəbistan və Küveytin maliyyə yardımları başlıca rol oynayırdı.

İqtisadiyyatın ikinci mühüm sahəsi bank sektoru da inkişaf edirdi. 1998-ci ildə Bəhreyndə 80 xarici bankın filialı vardı və onların aktiv vəsaitinin məbləği 60 mld dolları keçmişdi. Ölkənin ümumi milli gəlirində bank sektorunun payı 20% olmuşdu.

Kənd təsərrüfatı və aqrar sənaye müəssisələrinin iqtisadiyyatda yeri çox zəif idi. Səbəbinə gəlincə o, ölkə ərazisinin yalnız 6%-ə yaxınının kənd təsərrüfatı üçün yararlı olması idi. Ümumi milli məhsulun cəmisi 15%-i kənd tə-

sərrüfatının payına düşürdü.

Bəhreyn dövlətinin önəm verdiyi sahələrdən birisi də kommunikasiya sektoru olmuşdur. XX əsrin 90-cı illərində Bəhreyn artıq iri tranzit mərkəzinə çevrildi.

Ölkə iqtisadiyyatında sabit bir inkişaf müşahidə edilirdi və bu, hər şeydən əvvəl, sənaye sektoru ilə bağlı idi. Məsələn, həmin illərin ortalarında ölkənin ümumi məhsul istehsalında aqrar bölmə 1%, sənaye 38% və xidmət sahəsi 61% tuturdusa, bu rəqəmlər 2000-ci illərdə 1%, 46% və 53%-ə qalxdı, adambaşına düşən Ümumi daxili məhsul (ÜDM) istehsalı 8 min dollar civarında oldu.

Bəhreynin xarici əlaqələrinə gəlincə, o, ABŞ, Böyük Britaniya, Fransa, AFR, İsveçrə, Səudi Ərəbistan, Körfəz ölkələri, Hindistan, Yaponiya, Koreya Respublikası və s. kimi ölkələrlə sıx ticarət münasibətləri qurmuşdu. Bu münasibətlər ildən-ilə genişlənir və inkişaf edirdi.

Daxili siyasi istiqrarı möhkəmlətmək, iqtisadi və sosial inkişafa nail olmaq sahəsində Bəhreyn dövlətinin göstərdiyi fəaliyyət onun xarici siyasət kursunun da formalaşmasında əsaslı amil olmuşdu. Müstəqilliyin ilk illərindən Bəhreyn BMT, Ərəb Dövlətləri Liqası, İslam Konfransı Təşkilatı və s. beynəlxalq və regional qurumların üzvü olmuş, onların fəaliyyətində yaxından iştirak edirdi. Daha çox region ölkələri ilə münasibətlərə önəm verirdi və bunların da başında Səudi Ərəbistan gəlirdi. Xüsusilə də 1981-ci il hadisələrindən sonra iki dövlət arasında münasibətlər daha çoxşaxəli olmuş və təhlükəsizliyin qorunması yönümündə ikitərəfli sazişlər imzalandı.

Batı dövlətlərindən ABŞ-la münasibətlərə xüsusi önəm verilirdi. Hərbi sahədə əməkdaşlığın müxtəlif formalarda və yüksək səviyyədə saxlanılmasında hər iki dövlət maraqlı idi.

Digər dünya ölkələri ilə isə münasibətlər qarşılıqlı maraqlara əsaslanır, daha çox rəsmi diplomatik əlaqələr səviyyəsində idi və dostluq xarakteri daşıyırdı. Bununla yanaşı regionun bəzi ölkələri ilə münasibətlərdə mübahisəli və ziddiyyətli cəhətlər vardı. Qonşu Qatar ilə müəyyən ərazi mübahisələri uzun müddət həll olunmaz olaraq qalırdı və yalnız 2000-ci ildə tərəflər arasında qismən razılaşmalar əldə edildi, diplomatik əlaqələr bərpa olundu.

Münasibətlərin nisbətən gərgin olduğu ölkələrdən biri, bəlkə də birincisi İran idi. 1981-ci il hadisələrindən sonra iki ölkə arasında münasibətlər xeyli korlandı. Doğrudur, 1990-cı ilin əvvəlində Bəhreyn-İran münasibətlərində yumşalma baş verdi, hətta 1992-ci ildə tərəflər iqtisadi əməkdaşlıq

haqqında müqavilə də imzaladılar. Lakin 1994-cü ildən sonra münasibətlər yenidən gərginləşdi, yalnız 1997-ci ildə keçirilən danışıqlar nəticəsində nisbətən normallaşdı.

Bütün bunlara baxmayaraq, Bəhreyn öz xarici siyasət kursunu çağdaş dünya düzəni şərtlərinə uyğun şəkildə qurmağa çalışır və bu şərtlərin siyasi, iqtisadi və sosial həyata da təsirsiz qalmayacağı inamını təcrübədə göstərməyə cəhdlər edirdi.

Bəhreyn XXI yüzilliyə daxili siyasi həyatın sabitliyi və yeni inkişaf meyllərinin özünü göstərdiyi şəkildə qədəm qoydu. 1999-cü ildə əmir İsa ibn Salman əl-Xəlifənin vəfatından sonra vəliəhd Həmad ibn İsa əvvəlcə əmir, 2002-ci ildən isə kral elan olundu. Hakimiyyət dəyişikliyindən az sonra ölkənin siyasi həyatında bir sıra dəyişikliklər baş verdi. Bu ilk növbədə bəzi siyasi-hüquqi sənədlərin qəbulu ilə bağlı idi.

2000-ci ildə Bəhreyn Xartiyası və ya Milli Hərəkat Xartiyası adlı sənəd bəyan edildi. Sənəddə ölkədə bir sıra siyasi islahatların həyata keçirilməsi, ali qanunverici orqanın – ikipalatalı parlamentin yaranması, ictimai və dini mənsubiyyətindən asılı olmayaraq bütün əhalinin qanun qarşısında bərabərliyi, müstəqil məhkəmə sistemi və maliyyə nəzarəti qurumlarının yaradılması nəzərdə tutulur, siyasi amnistiya elan olunur, qadınlara siyasi azadlıqlar və seçki hüququ verilirdi.

Batı demokratiyası üslubunda qurulan ikipalatalı parlamentin aşağı palatası – Milli Məclis ümumxalq səsverməsi nəticəsində formalaşır, yuxarı palata– Məşvərət Məclisi kral tərəfindən təyin olunurdu. Hər iki palata 40 nəfərdən ibarət olmalı idi. Yuxarı palataya hətta qadınların və azsaylı xristian əhalisinin nümayəndələrinin daxil edilməsi nəzərdə tutulurdu. Bələdiyyə seçkilərində yerli əhali ilə yanaşı Bəhreyndə daimi yaşayan KƏDƏŞ üzvü-dövlətlərin vətəndaşları, əmirlikdə daşınmaz əmlak və torpaq mülklərinin sahibləri də iştirak etmək hüququ əldə etdilər.

Ölkənin mühafizəkar qüvvələri Xartiyanın elan olunması və nəzərdə tutulan islahatların həyata keçirilməsinə qarşı çıxsalar da, şiə müxalif qrupları bəzi düzəlişlərlə onu müsbət qarşıladılar. Nəticədə 2001-ci ilin fevralında keçirilən ümumxalq referendumunda əhalinin 98,41%-i Xartiyaya səs verdi.

2002-ci ilin fevralında ümumxalq referendumu nəticəsində ölkənin yeni konstitusiyası qəbul olundu. Konstitusiyaya əsasən Bəhreyn konstitusiyalı monarxiya sisteminin keçid mərhələsinə daxil olur, geniş səlahiyyətlərə malik kral hakimiyyəti ilə yanaşı, ikipalatalı parlamentin (həm qanunverici,

həm də məşvərətçi funksiyaları özündə birləşdirməklə) yaradılması da nəzərdə tutulur və parlamentin səlahiyyətləri xeyli dərəcədə genişləndirildi. O, hökumətin Milli Məclisə təqdim etdiyi layihələrə rəy verir və istənilən fikri ifadə edə bilir, aşağı palatanın ən azı 5 deputatının imzaladığı məktub əsasında istənilən nazirə onun fəaliyyət sahəsinə aid müxtəlif səpkili problemlər haqqında sorğu ünvanlaya bilərdi. Nazirlər aşağı palata qarşısında rəhbərlik etdikləri nazirliyin fəaliyyəti ilə bağlı məsuliyyət daşıyırdış Əgər parlament üzvlərinin 2/3 hissəsi hər hansı nazirə etimadsızlıq göstərirdisə, o vəzifəsini tərk etməli idi. Aşağı və yuxarı palataların razılığı olmadan heç bir qanun elan oluna bilməzdi.

Konstitusiya krala olduqca geniş səlahiyyətlər verirdi. O, "dövlət başçısı, dinin və dövlətin qoruyucusu, milli birliyin rəmzi" elan edilirdi. Konstitusiyaya əsasən kral aşağıdakı səlahiyyət və hüquqlara malik idi: yuxarı palatanın təyin edilməsi; baş nazirin təyin və vəzifədən azad edilməsi; nazirlərin vahid hökumət siyasətinin həyata keçirilməsində kral qarşısında kollektiv və fərdi məsuliyyət daşıması; Konstitusiyaya dəyişikliklər edilməsi; qanunvericilik təşəbbüsü ilə çıxış etməsi; referendumların təyin edilməsi və keçirilməsi; aşağı palatanın səlahiyyətlərinə vaxtından qabaq xitam verilməsi və s. Ordu silahlı qüvvələrin Ali Baş komandanı kimi kralın birbaşa tabeçiliyində idi və zərurət yaranardısa onun xüsusi icazəsi əsasında daxildə və xaricdə istifadə oluna bilərdi. Kral həmçinin 3 ay müddətindən artıq olmayaraq ölkədə fövqəladə vəziyyət elan edə bilərdi. Amma onun müddətinin uzadılması yalnız parlamentin müvafiq qərarından sonra baş verə bilərdi. Xarici siyasət sahəsində də kralın səlahiyyətləri kifayət qədər genişləndi: o, imzalanmış müqavilə və sazişləri xüsusi dekret vasitəsilə aşağı və yuxarı palataların təsdiqinə göndərirdi. Qeyd edək ki, ölkənin Əsas Qanununda "irsi monarxiya" prinsipinə dəyişikliklərin edilməsi nəzərdə tutulmurdu.

2002-ci ilin mayında bələdiyyə şuralarına, oktyabrda isə Milli Məclisə seçkilər keçirildi. Ölkənin əsas müxalifət qruplarından şiə "əl-Vifaq" və Milli İslam Cəmiyyəti seçkiləri boykot etdilər. Onlar hesab edirdilər ki, mövcud qanunlar əsasında keçirilən seçkilərdə müxalifətin müsbət nəticə əldə etmək şansı yoxdur. Müxalifətçi qüvvələr yaranmış şəraitdə Konstitusiya islahatlarının başlamasının vacibliyini önə çəkirdilər. 2006-cı ilin dekabrında keçirilən parlament seçkilərində adıçəkilən qüvvələrin iştirakı mümkün oldusa da, onlar üçün problemsiz ötüşmədi. Belə ki, müxalifət yenidən parçalandı, azlıqda qalan boykot tərəfdarları aralandılar və "əl-Haqq" hərəkatını təsis

etdilər. Elan olunmuş rəsmi nəticələrə görə, 40 nəfərlik Milli Məclisə 22 hökumət meylli deputatla yanaşı, 17- "əl-Vifaq"ı, 8 - sələfi "əl-Əsala" qrupunu, 7 – "Müsəlman qardaşları"-ni, 4 deputat isə sünnü "əl-Müstəqbəl" blokunu təmsil edirdi. Bunların arasında yalnız bir qadın var idi. "Əl-Vifaqın" əsas məqsədi 2002-ci il Konstitusiyasının dəyişdirilməsindən ibarət idi.

Qeyd edək ki, Bəhreynin milli təhlükəsizliyi və xarici siyasəti onun coğrafi və hərbi-strateji mövqeyi ilə sıx bağlı idi. Yeni yüzillikdə milli təhlükəsizliyin daxili aspekti siyasi və sosial islahatların davamı, ölkədaxili ziddiyyətlərin səngiməsi, hakimiyyət və müxalif qruplar arasında qarşıdurmanın aradan qaldırılmasından asılı idi. Milli təhlükəsizliyin daxili aspektləri həm də Bəhreyndə xarici işçi qüvvələrin qalması ilə bağlı idi. Yerli əhalinin təbii artımı şəraitində əlavə xarici qüvvənin qalması işsizliyin, ilk növbədə gənclər arasında (onlar əhalinin təxminən 44% təşkil edirdi) artmasına səbəb olurdu. Bu isə sosial gərginliyin dərinləşməsinə meydan açır, ciddi daxili problemə çevrilirdi.

Bəhreynin xarici siyasət sahəsindəki problemlər ilk növbədə Körfəzdəki mürəkkəb hərbi-siyasi durumundan qayaqlanırdı. Əvvəlki dövrlərdə olduğu kimi Bəhreynin xarici siyasətinin prioritet istiqamətini KƏDƏŞ üzvü dövlətlərlə əlaqələrin inkişafı təşkil edirdi. Bunun arxasında həm siyasi, həm də iqtisadi maraqlar dayanırdı. Belə ki, ölkədəki neft emalı zavodunun fəaliyyəti ilk növbədə Səudi Ərəbistan və Küveytdən idxal olunan neftdən asılı idi. Bölgənin maliyyə mərkəzlərindən biri olmasına baxmayaraq Bəhreynin sənaye, ticarət və maliyyə nailiyyətləri əsasən KƏDƏŞ-ə daxil olan daha iri dövlətlərlə sıx əməkdaşlıq nəticəsində təmin olunurdu. Eyni zamanda demək olar ki, onun qonşu dövlətlərlə ərazi mübahisələrinin əksəriyyəti həll olunmuşdu.

Qonşu dövlətlər içərisində İranla normal münasibətlərin saxlanılması Bəhreyn üçün xüsusi əhəmiyyət kəsb edirdi. Çünki yerli şiə icması vasitəsilə İran ölkədəki vəziyyətə təsir etmək imkanına malik idi. Buna görə də Bəhreyn hökuməti daxili və xarici siyasətində İran amilinin təsirini azaltmağa çalışsa da, bu təhlükə mövcudluğunu qoruyub saxlayırdı.

Yeni yüzillikdə də Bəhreynin xarici təhlükəsizliyinin təmin olunmasının qarantı rolunu ABŞ yerinə yetirirdi. Əmirlik hər hansı təhlükə ilə üzləşərdisə, ABŞ-ın irimiqyaslı hərbi köməyinə arxalana bilərdi. 1992-ci ildə imzalanan müdafiə və təhlükəsizlik sazişinə görə, əmirlik ərazisində 5 minə yaxın amerikan hərbçisi, habelə ABŞ-ın 5-ci donanmasının qərargahı və onun

təminatı ilə bağlı digər qurumları yerləşdirilmişdi. Manama hərbi-dəniz bazasında donanmanın 5 əməliyyat qrupu fəaliyyət göstərir, ABŞ ordusunun Xüsusi əməliyyatlar qüvvələrinin ön regional mərkəzi yerləşirdi. "Şeyx İsa" hərbi-hava bazasından isə amerikan aviasiyası Körfəz bölgəsinə nəzarəti həyata keçirirdi. Bu baza nəqliyyat məqsədləri üçün istifadə olunurdu. Eyni zamanda Bəhreynin NATO ilə əlaqələri də genişlənirdi. 2004-cu ildə o, Ərəbistan əmirliklərinin alyansla hərbi əməkdaşlığını ehtiva edən İstanbul təşəbbüsünə qoşuldu.

XXI əsrin əvvəllərində Bəhreyn hökuməti iqtisadiyyatın liberallaşması istiqamətində bir sıra addımlar atdı. O, DTT-ün üzv olaraq 2005-ci ildə ABŞ-la azad ticarət haqda saziş imzaladı. Həmin sazişin yerinə yetirilməsinə nəzarəti yerli Ticarət-Sənaye palatası həyata keçirirdi. Bundan əlavə hökumət ölkənin maliyyə bölməsini 100-ə yaxın offşor və 28 islam bankları hesabına genişləndirməyə nail oldu. Beləliklə də, ölkədə ÜDM-ün 1/4-i maliyyə bölməsinin payına düşdü ki, bu da ona həmin sahədə güclü mövqelərə malik olan Dubayla rəqabətə girmək imkanı verirdi. Lakin körfəzin digər əmirliklərindən fərqli olaraq neft ehtiyatlarının kasadlığı nəticəsində qlobal maliyyə böhranı Bəhreyn iqtisadiyyatına hiss ediləcək dərəcədə təsir etdi və bu sahədə ciddi geriləmə müşahidə olundu.

Bəhreyn təhsil sahəsinin təkmilləşməsinə də ciddi diqqət verməyə başladı. Məktəb təhsilini dövlət maliyyələşdirirdi. Orta təhsilin məcburi olmamasına baxmayaraq ibtidai və orta məktəblərdə davamiyyət səviyyəsi kifayət qədər yüksəldi. 2004-cü ildə kral Həmadın təşəbbüsü ilə ölkədə 12 illik təhsil sisteminə keçilməsi və informasiya texnologiyalarının təhsildə geniş istifadə olunması layihəsinin ("Gələcəyin məktəbləri" layihəsi) həyata keçirilməsinə başlandı. Eyni zamanda Bəhreyndə ali təhsil sisteminin inkişafı və genişlənməsinə xüsusi önəm verildi. Bu məqsədlə nəinki xaricdə təhsil almış yerli müəllimlərdən, habelə dəvət edilmiş əcnəbi müəllimlərdən geniş istifadə olunurdu. Ali təhsil ocaqları arasında Bəhreyn universiteti, tibb elmləri üzrə kral Əbdül-Əziz kolleci öncül sıralarda yer tuturdu. 2001-ci ildə müvafiq qanunun qəbulundan sonra özəl universitetlər də fəaliyyət göstərməyə başladı. 2005-ci ildə yalnız qadınlara ali təhsil verən Kral Qadın Universiteti təsis edildi.

2010-2011-ci illərdə ərəb dünyasında baş verən və "Ərəb baharı" adlanan hadisələr Bəhreyndən də yan keçmədi. Belə ki, 2011-ci ilin fevralından etibarən əmirliyin müxtəlif şəhər və bölgələrində əsasən şiə əhalinin kütləvi

çıxışları başladı. Etirazçılar paytaxt Manamanın əsas meydanı olan - Mirvari meydanını ələ keçirərək burada çadır şəhərciyi qurdular. Onların əsas tələbi ölkədə siyasi islahatların həyata keçirilməsi, yeni Konstitusiyanın qəbulu, hökumətin istefası, sosial bərabərliyin təmin edilməsi, siyasi məhbusların azad edilməsi, korrupsiyaya qarşı mübarizə və s. idi. 2010-cü ildə formalaşan parlamentin müxalifət fraksiyasının 18 üzvündən 11-i kütləvi aksiyaları dəstəklədiklərini bəyan edərək istefa verdilər.

Yaranmış şəraitdə fevralın 19-da kral istisnasız olaraq bütün siyasi qüvvələrlə danışıqların aparılmasını vəliəhd Salmana tapşırdı, iki gündən sonra isə xeyli sayda şiə məhbusu əfv etdi. Öz gücü hesabına asayişi qorumaq imkanı olmayan Bəhreyn hökuməti yardım üçün qonşu dövlətlərə müraciət etdi. İlk olaraq Səudi Ərəbistan, sonra digər KƏDƏŞ üzvləri Bəhreynə hərbi qüvvələr göndərdi. Kral Həmad ölkədə 3 aylıq fövqəladə rejimin tətbiq edilməsi ilə bağlı fərman verdi, bir neçə müxalifət lideri və fəal həbs edildi. Birgə səylər nəticəsində meydan təmizləndi və asayiş bərpa olundu.

Müxalifətin tələblərini nəzərə alan kral Həmad 4 may 2011-ci ildə xalqa müraciətində Konstitusiyaya dəyişikliklər edilməsi haqqında qanun imzaladığını bəyan etdi. Lakin şiə müxalifəti onların formal xarakter daşıdığını və böhranın qarşısını ala bilməyəcəyi qənaətində idi. "Əl-Vifaq" deputat qrupunun başçısı Əbdül Cəlil Xəlilin sözlərinə görə, hökumət parlament seçkiləri nəticəsində formalaşmalı, parlament bütün qanunverici səlahiyyətləri özündə toplamalı, məhkəmə hakimyyəti isə tam müstəqil olmalı idi.

Bəhreyndə fövqəladə vəziyyət 1 iyun 2011-ci ildə ləğv olundu və ordu paytaxtın mərkəzini tərk etdi. Lakin etiraz aksiyaları davam etdiyinə görə hökumət ümummilli dialoqun keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Ən böyük şiə partiyası olan "əl-Vifaqın" lideri şeyx A.Salman müxalifətin öz tələblərində, ilk növbədə yeni hökumətin formalaşmasında, parlamentin səlahiyyətlərinin artırılmasında və bütün təbəələrin hüquqlarının bərabər olmasında israr etdiyini bildirməklə yanaşı, dialoqun da zəruri olduğunu bəyan etdi. 2 iyunda danışıqlar başlandı. Lakin tezliklə məlum oldu ki, hökumətin məqsədi mövcud sistemdə cüzi dəyişikliklərlə kifayətlənmək və bununla da etiraz dalğasının qarşısının alınmasını təmin etməkdir. Buna görə də "əl-Vifaq" danışıqları dayandırmasını bəyan etdi. Beləliklə də, mövcud problemlərin həlli prosesi tam başa çatdırılmamış qaldı.

Ümumiyyətlə, regionda və Bəhreyndə cərəyan edən hadisə və proseslə-

rin təhlili göstərir ki, bu mərhələdə hakim sülalə öz hakimiyyətini qoruyub saxlaya bildi. Lakin müxalifətin və xalqın bir hissəsinin tələb etdiyi dəyişikliklərin gündəmə gətirilməsi və onların həlli yollarında zəruri addımların atılmasını qaçılmaz etdi.

## *Qatar*

XX əsrin əvvəllərində Qatar Ərəb dünyasının ən geridə qalmış ölkələrindən biri idi. Sayı 20 min nəfərdən bir az artıq olan əhalisinin oturaq hissəsi, əsasən vahə əkinçiliyi, maldarlıq, dənizçilik, sənətkarlıq və ticarət, bədəvilər isə dəvəçilik və maldarlıqla məşğul idi. Oturaq və bədəvi tayfalar arasında mürəkkəb münasibətlər vardı. Bədəvilər vaxtaşırı yaşayış məntəqələrinə gəlir və oranın sakinləri ilə ticarət mübadiləsinə girir, onlara kənardan ola biləcək hücumların və soyğunçu basqınların qarşısını almaq muqabilində illik bac-xərac alırdılar. Əhalinin sosial strukturuna gəlincə, o, dörd ənənəvi qrupdan ibarət idi: seyyidlər və qəbilə başçıları, şəhər əhalisi, sıravi bədəvilər və nəhayət, Afrikadan gətirilmiş qara dərili qullar. Əhalinin əksər hissəsi sünnü məsləkli idi. Oturaq əhali arasında müəyyən sayda şiə-imamilər vardı.

Belə bir həyat tərzi bəzi qəbilələrarası və dini zəmində münaqişələr, - şiə azlığın narazılıqları və etirazları istisna olunarsa, - uzun müddət, demək olar ki, dəyişmədən davam edirdi. Lakin XIX yüzilliyin ikinci yarısında, özəlliklə də əsrin 80-ci illərində Körfəzin digər ölkələri kimi Qatarın da bölgədə güclənməkdə olan Böyük Britaniyanın geostrateji maraq dairəsinə düşməsi ilə ətalətli durum pozuldu. Qatar öncə bölgəsəl, ardınca isə qlobal münaqişələrə cəlb edilmiş oldu. Onunla qonşu Bəhreyn və Əbu Dabi şeyxləri arasında gərginliklər yarandı, silahlı toqquşmalar baş verdi.

Yaranmış durumu tənzimləmək üçün Böyük Britaniya işə qarışdı. 1868-ci il sentyabrın 12-də Qatar və Böyük Britaniya arasında ilk saziş imzalandı. Onun şərtlərinə görə, şeyx Məhəmməd ibn Tani ibn Məhəmməd ət-Tani qonşu şeyxliklərlə, o cümlədən Bəhreynlə dinc münasibətlər saxlayacaq, quruda və dənizdə heç bir hərbi əməliyyata yol verməyəcək, bütün mübahisəli məsələləri Böyük Britaniya siyasi rezidentinə təqdim edəcək, xaricdən, xüsusilə də vəhhabilər tərəfindən təcavüzə qarşı mübarizədə Böyük Britaniyanın köməyindən yararlanacaqdı. Bunların müqabilində Böyük Britaniya şeyx Məhəmməd ibn Tani ibn Məhəmməd ət-Tanini bütün Qatarın hakimi olaraq tanıyır, keçmişdən bir sıra Qatar qəbilələrinin Bəhreynə ödədiyi vergilərin

onun öz xəzinəsinə toplamasına razılıq verirdi. Lakin bu saziş ölkəyə uzun müddətli sülh gətirmədi. Çox keçmədi ki, Körfəz ərazilərini ələ keçirmək uğrunda Böyük Britaniyanın apardığı hərbi əməliyyatlar Qatardan da yan keçmədi. Hətta 1882-ci ilin sonunlarında Doha şəhəri top atəşinə tutuldu.

Həmin tarixdən başlayaraq Böyük Britaniya Qatarla yeni bir sazişin imzalanması üçün bir sıra cəhdlər göstərdi. Qatar şeyxinin özü də buna meylli idi. Bu proses 1897-1898-ci illərdə daha da gücləndi. Lakin hər cəhd Osmanlı dövlətinin kəskin təpkisi ilə qarşılandığından Böyük Britaniya hər dəfə geri çəkilməyə məcbur olurdu. XX əsrin əvvəllərində istər beynəlxalq miqyasda, istərsə də bölgədə vəziyyətin mürəkkəbləşməsi səbəbindən Böyük Britaniya yeni cəhdlər göstərmədi. Lakin I Dünya müharibəsi illərində yaranmış əlverişli şəraitdən istifadə edən Böyük Britaniya fəallaşmağa başladı. Elə Qatardakı mövcud qeyri-sabit durum da Böyük Britaniyanın xeyrinə idi. Belə ki, burada bir sıra qəbilə şeyxləri hakim ət-Tani sülaləsinə mənfi münasibət bəsləyirdi və ondan narazı idilər. Bədəvi tayfalar yerli hakimiyyətdən daha çox Səudilərə meylli idilər. Məhz bu durum ölkənin yeni şeyxi Abdullah ibn Casim ət-Tanini (1913-1948) 1916-ci il noyabrın 3-də Qatarı Böyük Britaniya protektoratlığına çevirən sazişə imza atmağa sövq etdi. Sazişin imzalanması sünnülər və şiələr arasında iğtişaşların yaranmasına səbəb oldu və xarici amilləri kəskinləşdirdi. Bəhreyn, Nəcd və Əbu Dabi tərəfindən Qatarın sərhəd ərazilərinə iddialar irəli sürüldü. Şeyx Abdullah kömək üçün Körfəz üzrə Böyük Britaniya siyasi təmsilçisinə müraciət etməyə məcbur oldu. İngilislər paytaxt Dohaya kiçik həcmdə silah göndərsələr də, Qatarın daxili işlərinə açıq müdaxilədən çəkindilər. Vəziyyət get-gedə ciddiləşirdi. Nəcd hakimi İbn Səud isə şeyx Abdullahdan bir sıra əraziləri, o cümlədən Cəbəl Nəxşi və əl-Udeydə körfəzini tələb etdi. Həm də bu məsələdə o, vəhhabiliyi qəbul etmiş yerli qəbilələrin köməyinə arxalanırdı. 1921-ci ildə Abdullah yenidən ingilislərdən kömək istədi. Onlar isə İbn Səudu danışıqlara başlamağa razı salacaqlarına söz verdilər.

Həmin arada bütün Körfəz bölgəsində Böyük Britaniya əleyhinə narazılıqların güclənməsi müşahidə olunurdu. Belə meylər 20-ci illərin I yarısında Qatarda daha da bariz göründü. Qəbilələrin bir çoxu "kafirlərin" hakimiyyətinə qarşı çıxır, əmirin müstəqil olmasını tələb edirdilər. Hətta bəzi daxili bölgələrdə İbn Səudun ali hakimiyyətini qəbul edərək Böyük Britaniyadan qurtulmaq çağırışları da səslənirdi. Aşağıların təzyiqi nəticəsində yerli əyanlar da Böyük Britaniyaya qarşı münasibətlərini dəyişirdilər. Hətta 1916-ci ildə imza-

lanmış müqavilənin təşəbbüskarı şeyx Abdullahın özü də Böyük Britaniya ilə ittifaqdan yayınmağa çalışırdı və İbn Səudla gizli əlaqələr qurmuşdu. Bütün bunlara rəğmən Böyük Britaniya ona qarşı hər hansı bir sanksiya tətbiq olunmasından yan keçdi. Çünki, həmin dövrdə İbn Səudun hərəkətləri daha çox narahatlıq doğururdu. Nəhayət, 1927-ci il mayın 20-də Ciddədə tərəflər arasında müqavilə imzalandı. Müqavilənin şərtlərinə görə Böyük Britaniya Nəcd və Hicazın "tam və mütləq müstəqilliyini" tanıdı, İbn Səud isə Böyük Britaniyanın Doğu Ərəbistan əmirlikləri ilə xüsusi münasibətlərinə razı oldu. Yəni, faktiki olaraq əmirliklər üzərində Böyük Britaniya protektoratlığını tanıdı. Yalnız bundan sonra Böyük Britaniya Doğu Ərəbistan ərazilərinə olan diqqətini artıra bildi. Qatarla münasibətlərə gəlincə, şeyx Abdullahı ələ almaq üçün onun böyük oğlu vəliəhd kimi tanındı və ölkəyə müəyyən hərbi yardım göstərilməsi qərara alındı. Bunun müqabilində isə Dohada Böyük Britaniya hərbi hava qüvvələri üçün uçuş zolağının inşasına razılıq istənildi. Ölkədəki antiingilis ovqatdan çəkinən hakim sülalə Böyük Britaniyanın bu təşəbbüsünə soyuq yanaşdı. Məsələ ətrafında danışıqlar uzun sürdü. Yalnız 1932-ci ilin oktyabrında Abdullah Böyük Britaniyaya Dohanın yaxınlığında uçuş zolağının inşasına razılıq verdi.

Böyük Britaniya ilə münasibətlərdə yaranmış soyuqluğun başqa bir səbəbi də var idi. Bu məsələdə həm 1929-1933-cü il dünya iqtisadi böhranı nəticəsində yerli ticarətin və mirvari ovunun zəifləməsi, ölkədə antiingilis ovqatının yenidən güclənməsi və, nəhayət, neft uğrunda Böyük Britaniya və ABŞ şirkətlərinin mübarizəsi az rol oynamırdı. Belə ki, həmin illərdə Qatarda ABŞ və onun böyük neft şirkəti "Standart Oyl of Kaliforniya"nın mövqeyi getgedə artmağa başlamışdı. Bundan nüfuzuna dəyə biləcək xətəri önləmək üçün Böyük Britaniya hökuməti şeyxə təzyiqləri artırdı və ondan aşağıdakı şərtləri qəbul etməsini istədi: 1916-ci il müqaviləsinin qeyd-şərtsiz yerinə yetirilməsi müqabilində ona hərtərəfli yardım göstəriləcək, ölkədə əmin-amanlığın və onun xarici sərhədələrinin qorunmasına təminat veriləcəkdir.

1935-ci il mayın 17-də şeyx Abdullah "Petroleum Development of Qatar" adlanan ingilis şirkətilə 75 il müddətinə ölkənin bütün ərazisində neftin kəşfi, çıxarılması və satışını nəzərdə tutan konsessiyaya dair saziş imzaladı. Bu, faktik olaraq, indiyə qədər Böyük Britaniyaya verilmiş ən böyük imtiyaz idi. Doğrudur, sazişin şərtlərindən narazı qalanlar, hətta ona qarşı çıxanlar da oldu. Lakin bütün etirazlara Böyük Britaniyanın köməyi ilə son qoyuldu. Bu şəraitdən Böyük Britaniya məharətlə istifadə etməyi bacardı. O, bir tərəf-

dən at-Tani sülaləsinin ölkədəki nüfuzunu möhkəmləndirmək, digər tərəfdən isə Qatar və Səudi Ərəbistan arasında olan gərgin münasibətləri yumşaltmaq xətti tutdu. 1938-ci ildən neft axtarışı və kəşfiyyatı işlərinə başlanıldı. Lakin II Dünya müharibəsinin başlanması səbəbindən şirkət bu sahədəki fəaliyyətini dayandırdı.

II Dünya müharibəsi illərində Qatar hərbi əməliyyatlardan kənarda qalsa da, onun təsirindən xilas ola bilmədi. Çünki Yaxın Doğuda Böyük Britaniyanın "müdafiə zolağı" məhz bu ölkədən keçirdi. Həmin səbəbdən də Böyük Britaniya ordu hissələri onun ərazisində yerləşdirilir, hərbi obyektlər, o cümlədən aerodrom və limanlar yenidən qurulur, kommunikasiya və rabitə xətləri çəkilirdi. Həmin dövrdə hakim ət-Tani sülaləsinin ölkədəki nüfuzu aşağı düşmüş, qoca şeyx Abdullah hakimiyyəti əldən vermişdi və oğlu Həmad isə xəstə olduğundan onun səlahiyyətlərini Nəcd əsilli katibi Səlim ibn Mani icra edirdi. Vəhhabi təriqətli və İbn Səud tərəfdarı olan bu şəxsin Qatarda mövcud ənənəvi həyat tərzini dövrün şərtlərilə uyğunlaşdırmaq cəhdləri istər hakim sülalənin, istərsə də nüfuzlu qəbilə-tayfa başçılarının kəskin etirazı ilə qarşılanırdı.

II Dünya müharibəsinin başa çatmasından sonrakı ilk illərdə isə yuxarıda söylənənlər zəminində Qatarda daxili siyasi vəziyyət xeyli kəskinləşdi. Şeyx Həmadın 1948-ci ildə ölümü səbəbindən vəliəhdlik uğrunda onun oğlu şeyx Xəlifə və qardaşı şeyx Əli arasında ciddi münaqişə yarandı. Uzun çəkişmələrdən sonra qərara alındı ki, şeyx Xəlifə həddi-buluğa çatana və vəliəhd elan olunanadək şeyx Əli ona qəyyumluq etsin. Bu qərar Böyük Britaniya hakimiyyətini də razı saldı və onun tərəfindən də dəstəkləndi. Çünki həmin dövrdə Qatarda neft yataqları aşkar edilmişdi və 1947-ci ildə Cəbəl Duhan rayonunda 6 quyunun qazılmasına başlanmışdı. Ümm Səid limanına 110 km uzunluğunda neft kəməri çəkilirdi. Bu işləri Böyük Britaniyaya məxsus "Petroleum Development of Qatar" şirkəti aparırdı. Münaqişənin həlli şirkətin öz fəaliyyətini genişləndirmək yolundakı maneələri aradan qaldırmış olurdu.

Qatarda neft çıxarılmasına başlanması ölkə həyatının bütün sahələrinə bir dinamika gətirdi. Patriarxal və orta əsrlərə məxsus həyat tərzi sürətlə dəyişdi, ölkəyə olan xarici maraqlar artdı, Qatar bölgənin sözü və mövqeyi olan dövlətlərindən oldu. Şəxsi hakimiyyət uğrunda mübarizə öz yerini siyasi hakimiyyəti daha da qüvvətləndirməyə verdi. Hakimiyyətin siyasi həyatla yanaşı iqtisadi həyatda mövqeyi yüksəldi. Ölkədə yeni iqtisadi strukturlar yarandı.

Sosial problemlərin həllində siyasi hakimiyyətin rolu və iştirakı artdı. Bütün bunların başlanğıcı isə 1948-ci ildə ilk neft quyusunun fontan vurması ilə qoyuldu.

Belə ki, qısa zaman kəsiyində Qatarda neft hasilatı sürətlə artdı. 1949-cu ildə cəmisi 96 min t neft çıxarılmışdısa, bu rəqəm 1952-ci ildə 3,3 mln t oldu. Tez bir zamanda Ümm Səid limanında illik gücü 30 min t olan neft emalı zavodu işə düşdü. Digər tərəfdən həmin dövrdə qonşu Küveytdən başlayaraq bir ucu da Qatara gəlib çatan və dünyada ən böyük neft yatağının yerləşdiyi bölgədə konsessiyaya verilməmiş ərazilərə yiyələnmək uğrunda xarici şirkətlər arasında mübarizə kəskin xarakter aldı. ABŞ şirkətləri Qatarda neft hasilatının yalnız Böyük Britaniyaya məxsus olması faktı ilə heç cür razılaşmırdılar və mümkün olan bütün vasitələrlə buraya girməyə can atırdılar. İlk olaraq ARAMKO şirkəti tərəfindən Səudi Ərəbistanın Qatara ərazi iddiaları irəli sürməsi təşkil edildi. Kral İbn Səudun Qatar ərazisinin altıda bir hissəsinə iddiası Böyük Britaniya tərəfindən əsassız olaraq dəyərləndirildi və rədd edildi. Qatar-Səudi ərazi mübahisəsi nəticəsiz qaldı və 28 km uzunluğunda ərazi sularında neft axtarışı və hasilatı üzrə konsessiya hüququ 1952-ci ildə 75 il müddətinə "Royal Dutch Shell" ingilis-holland şirkətinə verildi.

Həmin illərdə Küveyt də Qatarın bir sıra ərazi sularına iddia edirdi. Bu cəhd də Böyük Britaniyanın güclü müqaviməti ilə qarşılandı və nəticəsiz qaldı. Belə bir cəhətə də diqqəti cəlb etmək istərdik ki, qonşu dövlətlərin Qatara qarşı ərazi iddiaları irəli sürməsi əmir Abdullahın ölümündən sonra Əli ibn Abdullahın (1949-1960) hakimiyyəti öz əlinə keçirməsi dövrünə təsadüf edirdi. Şeyx Əlinin bu hərəkəti ət-Tani sülaləsi üzvləri arasında ciddi narazılıq yaratdı və onlardan bəziləri Səudi Ərəbistan və Bəhreynə mühacirət etdilər. Həm də baş verən ərazi münaqişələrinin arxasında ABŞ neft şirkətlərinin dayanması da sirr deyildi.

Bütün bunlar Qatar xalqının diqqətindən kənarda qala bilməzdi və belə də oldu. Həmin arada İranda ingilis neft şirkətinin milliləşdirilməsi də xalqın açıq etiraz göstərməsinə təkan verdi. Doha, Vakra, Ümm Səid və s. şəhər və kəndlərdə neftin milliləşdirilməsi tələbləri ilə çıxışlar baş verdi. Xüsusilə də şiə əhali bu işdə daha fəal idi. Onlar açıq şəkildə İranı dəstəkləyir və Böyük Britaniyaya qarşı çıxırdılar. Baş verən hadisələr həm yerli, həm də Böyük Britaniya hakimiyyətini rahatsız etdi və hər iki tərəf ölkədə siyasi iqtidarı möhkəmlətmək yolunda iş birliyinə başladılar. İndiyə kimi isə onlar bir-birindən təcrid olunmuş şəkildə fəaliyyət göstərirdi. XX əsrin 50-ci illərinin əvvəllərin-

dən başlayaraq Qatar və Böyük Britaniya hakimiyyəti ölkədə bir sıra tədbirlər gördülər. Ölkənin sosial-iqtisadi inkişaf proqramları hazırlandı və həyata keçirilməyə başlandı. 1950-1953-cü illərdə əmirliyin tarixində ilk dəfə iki ibtidai məktəb açıldı, ilk müalicə müəssisələri yaradıldı. Quldarlıq və qul ticarətinin ləğvi haqqında fərman verildi. Yeni istehsalat strukturları meydana gəldi. Təbiidir ki, bütün bunlar ölkədə neft sənayesinin həm inkişafı sayəsində, həm də inkişafı naminə edilirdi.

Doğrudan da həmin illərdə Qatar neft sənayesi çox sürətlə inkişaf edir, neft hasilatı və satışı ildən-ilə artırdı. 1950-ci ildə 1,6 mln, 1955-ci ildə 5,5 mln, 1960-cı ildə isə 8,4 mln t neft hasil edildi. Ümm Səidə gələn neft tankerlərinin sayı da çoxalmış, sadalanan illərdə 106, 278 və 402 olmuşdur. "Petroleum Development of Qatar" ingilis neft şirkəti 1953-cü ildən "Qatar Petroleum Kompani LTD" (QPK) adlandı və ölkədə neft sənayesinin inkişafı sahəsində böyük proqramlar tətbiq etdi. Artıq 50-ci illərin ikinci yarısında ölkədə milli gəlirin 95%-i neft sənayesinin payına düşürdü.

Müasir neft sənayesinin yaranması və inkişafı ölkənin ənənəvi həyat tərzinin dəyişməsini və cəmiyyətin qütbləşməsini gücləndirdi. Bir tərəfdən hakim ət-Tani nəslinin, qəbilə-tayfa başçıları və əyanlarının, məmurların və ticarət-maliyyə təbəqəsinin zənginləşməsi prosesi sürətlə davam edir, o biri tərəfdən isə yaşam şərtləri ənənəvi təsərrüfatla bağlı olan əhali daha da kasıblaşırdı. Əhalinin çox böyük hissəsini məhz bu kasıblaşanlar təşkil edirdi. Onların maddi vəziyyətinin pisləşməsi artdıqca, kütləvi narazılıqlar da yüksəlir, bu zəmində kortəbii çıxışlar baş verirdi. Xüsusilə də Körfəz ərəb əmirliklərinin gələcəyi haqqında Böyük Britaniyanın layihə və təklifləri daha geniş təbəqələr arasında narazılıqların sayını artırırdı. İlk dövrlərdə baş verən narazılıqları və etiraz aksiyalarını yatırmaq o qədər çətin olmasa da, sonralar hakimiyyətin buna gücü çatmırdı. Hakimiyyət Körfəzdəki Böyük Britaniya hərbi qüvvələrindən əlavə yardım almaq zorunda qalırdı.

Daxili siyasi vəziyyətin gərginləşməsi hakim sülalənin də daxilində ziddiyyətləri üzə çıxardı. Çıxılmaz durum qarşısında şeyx Əli 1960-cı il oktyabrın 24-də hakimiyyətdən könüllü əl çəkdi və onu oğlu Əhmədə verdi. Lakin həmin vaxt bir sıra səbəblər üzündən və həm də bir şəxsiyyət kimi şeyx Xəlifə taxt-taca daha real namizəd sayılırdı. Vəziyyəti gərginləşdirməmək üçün şeyx Əhməd əmisi oğlu Xəlifəni özünə müavin təyin etdi, az sonra isə ümumiyyətlə ölkənin idarə edilməsini ona tapşırdı. Bununla da ölkənin tarixində ikihakimiyyətlilik dövrü başladı. 12 il davam edən bu müddətdə yeni idarəçilik sis-

temi formalaşdırıldı.

Belə ki, Qatar tarixində ilk dəfə təşkil olunmuş hökumətdə baş nazir vəzifəsini tutan şeyx Xəlifə ölkənin maliyyə, hüquq, inzibati idarəçilik və neft sahələrinə rəhbərliyi də öz əlində cəmləşdirdi. Əmir Əhmədin və ingilislərin bütün cəhdlərinə baxmayaraq şeyx Xəlifə öz fəaliyyətində tamamilə müstəqil idi və ölkə problemlərinin həllində fərqli kurs götürmüşdü. O, XX əsrin 60-cı illərinin əvvəllərində ölkədə kütləvi narazılıq dalğası başladıqda repressiya və təqiblərə əl atmadı. Əksinə, narazılığı doğuran səbəbləri aradan qaldırmağa üstünlük verdi. Antiingilis ovqatı sakitləşdirmək məqsədi ilə ingilis məmurlarının çoxunu dövlət işindən kənarlaşdırdı. Ölkədə aparılan dəyişiklikləri qəbul etmək istəməyən qüvvələrin təmsilçilərini müxtəlif sahələrin yenidən qurulması üçün yaradılmış komissiyaların işinə cəlb etdi. Bu komissiyalarda yerlilərlə yanaşı, ərəb ölkələrindən və Böyük Britaniyanın Körfəz rezidenturasından mütəxəssislər də çalışırdı. Onlar idarəçilik, daxili siyasi və sosial-iqtisadi sahələrə dair qanunlar hazırlayır və qanunvericilik məsələləri üzrə idarənin müzakirəsinə verirdilər. Qısa zaman kəsiyində bu sahədə böyük işlər görüldü. 1961-1968-ci illərdə yüzə qədər qanun qəbul olundu. Ölkənin ali qanunverici hakimiyyətinə malik olan əmirin yanında ət-Tani nəslinin 16 üzvündən ibarət Məşvərət Şurası yaradıldı. Özündə 2 nazirlik, 16 departament və 2 idarəni birləşdirən Nazirlər Kabineti formalaşdırıldı. Şəriət və mülki məhkəmələr fəaliyyətə başladılar. Paytaxtda bələdiyyə idarəçiliyinə keçildi. İlk dəfə olaraq yerli əhaliyə vətəndaşlıq hüquq verildi, xaricilər üçün yaşayış qaydaları müəyyənləşdirildi.

Ölkənin iqtisadi problemlərinin də həllinə ciddi fikir verilirdi. İlk növbədə maliyyə siyasəti nəzərdən keçirildi və zamanın şərtləri zəminində yenidən quruldu. Sahibkarlığın inkişafı üçün kommersiya fəaliyyətinin normaları, müştərək şirkətlərin yaradılması qaydaları və işverən – işçi ilişgilərini tənzimləyən normalar təsdiq olundu. Ticarət Palatası və səhminin 50%-i hökumətə məxsus olmaqla "Qatar Milli Bankı" yaradıldı. Ölkədə bütün bank fəaliyyətinin məsuliyyəti bu bankın üzərinə qoyuldu. Xarici bankların da fəaliyyətinə normal şərait yaradıldı.

Ümumiyyətlə, XX əsrin 60-cı illəri Qatarda daxili siyasi və sosial-iqtisadi həyatın güclü canlanması ilə xarakterik oldu. Daxili siyasi həyatda baş verən dəyişikliklər ölkənin müasir dünya şərtlərinə uyğunlaşması məzmunu daşıdığı kimi, iqtisadi sahədə baş verən dəyişikliklər onun dünya iqtisadiyyatında müəyyən yeri və rolu olmasına gətirirdi. Bu, xüsusilə neft sənayesinin daha

da modernləşdirilməsi və yeni neft yataqlarından istifadəni sürətləndirmək zəminində baş verirdi. 1960-cı ildə 8,4 mln t neft hasil edən Qatar bu göstəricini 1965-ci ildə 11,3 mln t, 1970-ci ildə isə 17,4 mln t çatdırdı. Neftdən gəlir də xeyli çoxaldı. Əgər 1950-1959-cu illərdə neft gəliri 292 mln dollar məbləğində olmuşdusa, bu rəqəm 1960-1969-cu illərdə 770 mln dollara yüksəlmişdi. Əhalinin sayı həmin illərdə 10 min nəfərdən çox artmış, rifah tərzi xeyli yaxşılaşmışdı.

Təbiidir ki, belə bir inkişaf ölkədə həm də sosial qütbləşməni labüd edirdi, sosial və siyasi şüurun daha çox oyanmasına təkan verirdi. Doğrudan da, həmin dövrdə daxili siyasi həyatda bir fəallaşma müşahidə olunurdu. Qatar tarixində ilk dəfə olaraq müxalifətçi qruplaşmalar meydana gəldi. Onlar yarımleqal Birləşmiş Milli Cəbhədə cəmləşmişdilər və Milli Şurada əmirin hüquqlarının məhdudlaşdırılması, ən başlıcası isə ölkənin Böyük Britaniya ağalığından azad edilməsi şüarlarını irəli sürürdülər. Ərəb birliyi uğrunda mübarizə aktuallaşmışdı. 1962-1963-cü illərdə bu yolda bir sıra nümayişlər və tətillər keçirildi. Qatarın Ərəb Dövlətləri Liqası (ƏDL) ilə münasibətlər qurmaq istəyinə Böyük Britaniyanın etiraz etməsi ölkədə böyük etirazlar doğurdu. Hökumət onların qarşısını çox çətinliklə ala bildi. Böyük Britaniya geri çəkilməli oldu. 1964-cü ildə Əmir Əhməd və ƏDL-nın baş katibi Əbdül Həsunə arasında əməkdaşlıq haqqında saziş imzalandı. ƏDL Qatarın qarşısında duran siyasi və iqtisadi problemlərin həllində yaxından iştirak haqqı qazandı. Bu hadisə 1961-ci ildə Qatarın OPEK-ə üzv olmasından sonra ölkədə Böyük Britaniyanın nüfuzuna vurulan ikinci böyük zərbə idi. Ümumiyyətlə isə həmin dövrdə antiingilis ovqat gündən-günə genişlənməkdə idi. Görülən cəza tədbirləri və təqiblər narazı qüvvələri qorxutmurdu. Vəziyyət o qədər gərginləşdi ki, 1966-cı ilin sonlarında Böyük Britaniya nümayəndəsi Qatar rəhbərliyi ilə bu qüvvələrə qarşı yeni mübarizə metodlarını müzakirə etməli oldu. Lakin 1967-ci ilin iyununda baş verən Ərəb-İsrail savaşından sonra Körfəzin digər ərəb ölkələri kimi Qatar da başdan-başa etiraz dalğasına büründü.

Artıq XX əsrin 60-cı illərinin sonlarında Körfəzdə, o cümlədən, Qatarda Böyük Britaniyanın müstəmləkə sisteminin iflası daha artıq dərk edilirdi. Böyük Britaniya hökumətinin özü də bunu etiraf etmək zorunda qaldı və 1971-ci ilin sonlarınadək qoşunlarını regiondan çıxaracağını bəyan etdi.

Böyük Britaniya qoşunlarının ölkədən çıxacağı təqdirdə vəziyyətin necə olacağı qorxusu səbəbindən əmir və tərəfdarları irəli sürülən Körfəz Ərəb

Əmirlikləri Federasiyası ideyasını dəstəkləsələr də, regionun digər əmirlikləri həmin məsələdə bir araya gələ bilmədilər. Onların arasında ciddi fikir ayrılıqları meydana çıxdı və bu ideya baş tutmadı. Həm bu səbəbdən, həm də ölkədəki digər qüvvələrin təzyiqi nəticəsində əmir Əhməd də öz fikrindən döndü. 1970-ci il aprelin 2-də Qatarın müvəqqəti Konstitusiyası qəbul edildi və bu sənədə görə ölkənin dövlət hakimiyyətinin strukturu müəyyənləşdirildi. Hakimiyyət bütünlüklə ət-Tani nəslinin əlində cəmləşdi. Qanunverici və icra hakimiyyəti əmirə və onun təyin etdiyi nazirlər kabinetinə məxsus oldu. Dövlət başçısı həm də Məşvərət Şurasını formalaşdırdı.

Konstitusiya həmçinin dövlətin sosial-iqtisadi strukturunu müəyyənləşdirdi, şəxsiyyət və mülkiyyət toxunulmazlığı, qanun qarşısında hamının bərabərliyi, söz, mətbuat, toplantı və vicdan azadlığı, əmək, sosial təminat, təhsil, tibbi xidmət haqları və s. mülki və sosial hüquqlar və azadlıqları bəyan etdi.

1970-ci il mayın 29-da şeyx Xəlifənin başçılığı altında təşkil olunan hökumət yuxarıda sadalanan hüquq və azadlıqların qanuni zəmində gerçəkləşməsi istiqamətində böyük çabalar göstərdi. Doğrudur, əmir Əhməd və ətrafı hökumətin işinə mane olurdu, lakin şeyx Xəlifəni yolundan döndərməkdə gücsüz idi. Şeyx Xəlifənin Böyük Britaniya ilə Qatarın istiqlaliyyəti haqqında apardığı danışıqlar uğurla nəticələndi və 1971-ci il iyunun 28-də tərəflər 1916-cı il müqaviləsini əvəzləyən yeni Qatar-Böyük Britaniya dostluq sazişini imzaladılar.

1971-ci il sentyabrın 1-də Qatar əmirliyi rəsmi olaraq istiqlalına qovuşdu. O, BMT-nin və Ərəb Dövlətləri Liqasının tam hüquqlu üzvü oldu.

22 fevral 1972-ci ildə şeyx Xəlifə Ağsaqqallar Şurasının əksər üzvlərinin dəstəyi və razılığı ilə ölkə xaricində olan əmir Əhmədin taxtdan salındığını və özünün əmir elan olunduğunu bildirdi. Onun hakimiyyətə gəlişi ilə Qatarın tarixində keyfiyyətcə yeni bir dövr başladı. Ölkənin modernləşdirilməsi üçün əsaslı islahatların aparılması həmin dövrün məzmunu oldu. İqtisadi sahədə maliyyə fəaliyyəti üzərində ciddi nəzarət qoyulması, illik dövlət büdcəsinin tənzimlənməsi, pul tədavülü üzrə idarənin və investisiyalar üzrə şuranın yaradılması kimi tədbirlər görüldü. Əmirin ölkə gəlirinin 25%-ni mənimsəmək hüququ ləğv edildi. Amma islahatlar heç də hamı tərəfindən müsbət qarşılanmırdı. Bəziləri onu doğru yoldan çıxmaq və mövcud şərtlərə cavab verməyən proqram kimi tənqid edir və ənənəvi təsisatların bərpası ideyasını irəli sürürdülərsə, digərləri isə, əksinə, onun daha da genişləndirilməsini istəyirdi-

lər. İmtiyazlarının itməsi təhlükəsindən rahatsız olan qüvvələr bu şəraitdən yararlanmağa çalışır və yaranmış narazılığı əmirə qarşı yönəldirdilər. Hətta əmir Xəlifənin hakimiyyətdən salınması üçün müəyyən cəhdlər də edildi. Lakin əmir rastlaşdığı çətinlikləri və maneələri aradan qaldıra bildi. O, 1975-ci ilin dekabrında Məşvərət Şurasının fəaliyyət müddətinin uzadılması, səlahiyyətlərinin genişləndirilməsi və üzvlərin 20 nəfərdən 30 nəfərədək artırılması haqqında fərman verdi. Eyni zamanda ölkədə istiqrarın möhkəmlənməsi yolunda digər tədbirlərə də əl atdı. Xüsusilə də həmin arada İranda islam inqilabının qələbəsindən ruhlanan qüvvələrin hərəkətə gəlməsi və İran-İraq müharibəsinin nəticələrinin ölkədə yaratmış olduğu çətinliklər hakimiyyətin daha çox diqqət yetirdiyi məsələlər idi. Məhz bu amillərin təsiri altında 1981-ci ildə Qatarın da üzv olduğu Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının (KƏDƏŞ) yaradılması baş verdi. Bundan sonra da bəzi daxili və xarici qüvvələr Qatar hakimiyyətinə qarşı təxribatlar törətməyə cəhdlər göstərmişlər. Hətta 1983-cü ilin sentyabrında KƏDƏŞ-in zirvə toplantısında iştirak edən dövlət rəhbərlərinə qarşı xaricdən dəstəklənən ekstremist dini təşkilat tərəfindən terror aktı hazırlanmışdı və təhlükəsizlik orqanlarının sayıqlığı nəticəsində bu sui-qəsd baş tutmadı. Ümumiyyətlə isə müxtəlif sahələrdə həyata keçirilən uğurlu tədbirlər daxili siyasi narazılıqları səngitdi.

Belə ki, əmir Xəlifənin iqtisadi həyatda, başlıca olaraq isə neft sənayesi sahəsində yürütdüyü siyasət ölkənin maraqları baxımından xeyli sərfəli idi və neft gəlirlərin çox sürətlə artmasına gətirdi. Təkcə bu faktı göstərmək istərdik ki, 1973-cü ildə ölkə neftdən 0,5 mld dollara yaxın gəlir əldə etmişdisə, bu rəqəm 1974-cü ildə 1,6 mld dollara qalxmışdı. 1973-cü ildə dövlət xarici neft şirkətlərinin səhmində öz payını 25%-ə, 1974-cü ildə isə 60%-ə çatdırdı və neft üzərində nəzarəti öz əlinə keçirməyə müvəffəq oldu.

1974-cü ildə ölkənin onillik iqtisadi inkişaf planı qəbul edildi. Plana görə yeni istehsal sahələrinin yaranması, fabrik və zavodların qurulması, paytaxtın genişləndirilməsi və mövcud infrastrukturların yeniləşdirilməsi nəzərdə tutulurdu. Bu planın gerçəkləşdirilməsi üçün yerli özəl və xarici kapitalın iştirakı üçün lazım olan bütün imkanlar yaradıldı. ABŞ, Böyük Britaniya, AFR, Yaponiya və digər ölkələrin iri şirkətləri ölkənin iqtisadi inkişafında fəal iştirak edirdilər. Sənaye və tikinti ilə yanaşı aqrar bölməyə də xüsusi diqqət verilirdi. Torpaqların yararlı hala salınması, ixtisaslaşmış fermaların və dövlət təsərrüfatlarının yaranması ümumi məhsul istehsalını artırmaqla yanaşı, yerli əhalinin işlə təmin olunmasında da mühüm rol oynayırdı.

Sonrakı illərdə daha çox qaz sənayesinin inkişafına önəm verildi. 1980-ci ildə kəşf edilən qaz yataqları ölkənin bir neçə onilliklər üçün iqtisadi inkişafının qaynağına çevrildi.

Bank fəaliyyətinin və xarici investisiyaların genişləndirilməsi dövlətin diqqətində oldu. Qatar Avropa dövlətlərinin neft-qaz və neft-kimya şirkətlərinin fəaliyyətində böyük səhm payları ilə iştirak etmək kursu götürdü.

Xarici siyasətdə də əmir Xəlifənin başçılıq etdiyi hakimiyyət istiqlaliyyətin ilk illərindən dünya dövlətləri, bir qayda olaraq isə ərəb və müsəlman dövlətləri ilə dostluq və qarşılıqlı hörmət əsasında münasibətlər qurdu və həmin prinsipləri qorumaqda qərarlı oldu. Xarici siyasət daha çox iqtisadi münasibətləri və əməkdaşlığı əhatə edirdi. Qatar Ərəb birliyi və həmrəyliyinə sadiq idi. Fələstin xalqının istiqlaliyyət savaşını mənəvi və maddi baxımdan açıq və birmənalı şəkildə dəstəkləyirdi. Hərbi əməkdaşlığa çalışılmasa da, daxili təhlükəsizliyin təmini məqsədi ilə bəzi addımlar atıldı. Məsələn, bu məqsədlə 1982-ci fevralın 21-də Səudi Ərəbistan ilə ikitərəfli saziş imzalanmışdır.

Qatar dövlətinin siyasi, sosial-iqtisadi və xarici münasibətlər kursu XX əsrin 80-ci illərinin sonlarınadək əsasən dəyişilməz olaraq qaldı. Lakin 1990-cı ildə baş verən İraq-Küveyt savaşı Körfəzin digər ərəb ölkələrində olduğu kimi Qatar dövlətinin fəaliyyət kursunda müəyyən dəyişikliklərə gətirdi. İran-İraq savaşında İraqı müdafiə edən Qatar bu dəfə açıq-aşkar şəkildə onun hərəkətlərini pislədi, Küveytin tərəfində oldu və bu savaşın nəticələrini aradan qaldırmaq üçün mübarizə aparan dövlətlərlə bir sırada durdu. Qatar öz ərazisində çoxmillətli silahlı qüvvələrin yerləşdirilməsinə icazə verdi. Onun ordusu da həmin qüvvələrin tərkibində İraqa qarşı hərbi əməliyyatlarda iştirak etdi. İraqla diplomatik əlaqələr kəsildi və onlar bir də 1993-cü ildə bərpa edildi.

Məhz İraq-Küveyt savaşından sonra Qatar öz müdafiə qabiliyyətinin səviyyəsini qaldırmaq və möhkəmlətmək məqsədi ilə böyük dövlətlərlə hərbi əməkdaşlığa başladı. Bu baxımdan 1992-ci ilin iyununda ABŞ ilə bağlanan sazişi qeyd etmək istərdik. 1993-cü ildə Böyük Britaniya və Fransa ilə də eyni məzmunlu sazişlər imzalandı. Həmin sazişlərə görə Qatar milyonlarla dollar dəyərində hərbi texnika və avadanlıq aldı. 1995-ci ilin martında Qatar və ABŞ arasında bağlanan müqaviləyə görə isə ABŞ əmirliyin ərazisində öz hərbi bazalarını yaratmaq hüququ aldı.

Hərbi-polis qüvvələri tamamilə yenidən quruldu və ən modern silahlarla təchiz olundu. Dövlət başçısının xüsusi dekretləri ilə ölkədə daxili istiqrarın

qorunması və saxlanmasının məsuliyyəti həmin qüvvələrin başlıca vəzifəsi elan edildi. Bununla yanaşı digər tədbirlər də görüldü. İstiqrarı pozmaqda təqsirli bilinən şəxslərin təqib və həbslərə məruz qalması, ekstremist dini təşkilatların liderlərinin ölkədən çıxarılması, radio və televiziya üzərində senzuranın gücləndirilməsi, xarici ölkələrdən zərərli hesab olunan kitabların gəlməsinə qadağa qoyulması və s. bu qəbildən idi.

Lakin nə bütün bunlar, nə də iqtisadi inkişafın davamlı olaraq qalması ölkədaxili narazılıqların qarşısını ala bilmədi. Birincisi, islahatlar nəticəsində yeni yaranmış orta təbəqənin, - bu təbəqə xeyli savadlı idi və həyatın bütün sahələrində sayca gündən-günə artırdı, - cəmiyyətdə öz mövqeyini artırmaq uğrunda mübarizəsi və siyasi idarəçilik sisteminin demokratikləşməsinə etdiyi cəhdlər, ikincisi, xaricdən gələn işçilərin öz statuslarını möhkəmləndirmək istəyi və nəhayət, üçüncüsü, həmin dövrdə qonşu dövlətlərlə, xüsusilə Bəhreynlə münasibətlərdə müəyyən gərginliklərin üzə çıxması səbəbindən əmir Xəlifəyə qarşı etirazlar artdı. Hakim sülalənin öz daxilində olan narazılar yaranmış durumdan yararlandılar. Əmirin oğlu və varisi şeyx Həmid 1995-ci il iyunun 27-də dövlət çevrilişi etdi və hakimiyyəti öz üzərinə götürdü. Bu zaman İsveçrədə rəsmi səfərdə olan Xəlifə oğlunun hərəkətini pislədi və ölkəyə qayıdıb hakimiyyətini ələ alacağını bildirdi. Qeyd edək ki, şeyx Həmid çevrilişə qədər atasının müavini kimi bir sıra mühüm vəzifələri əlinə almışdı, ölkənin idarə edilməsində xüsusi fəallıq göstərirdi və bu illər ərzində təkcə ölkə daxilində yox, həm də xaricdə də nüfuz sahibi kimi tanınırdı. Xüsusilə də onun xarici siyasət məsələlərində atasından fərqli mövqe tutması maraqlı qüvvələr və dövlətlər tərəfindən dəstəklənirdi. Təsadüfi deyildi ki, ABŞ, Böyük Britaniya və Səudi Ərəbistan kimi ölkələr onun hakimiyyətini dərhal tanıdılar. Əmir Həmid təşkil etdiyi hökumətdə baş nazir, müdafiə naziri və Ali Baş Komandan vəzifələrini öz əlində saxladı və qalan nazir postlarını isə sülaləsinin digər nümayəndələri arasında bölüşdürdü. Cəmiyyətdə mövcud gərginliyin aradan qaldırılması yolunda bir sıra tədbirlər gördü. Kütləvi informasiya vasitələri üzərində senzuranı ləğv etdi. Atasının hakimiyyətə gəlmək cəhdlərinin, o cümlədən, 1996-cı ilin fevralında dövlət çevrilişinin qarşısını uğurla aldı. Şeyx Xəlifənin və onun yaxın adamlarının bir sıra neqativ hərəkətlərinin üstü açıldıqdan sonra ata-oğul münasibətləri müsbət məcraya yönəldi. Onlar əvvəlcə Romada, sonra isə Londonda görüşdülər və barışdılar.

Bununla bərabər əmir Həmid ölkə daxilində də öz hakimiyyətinin dayaqlarını da möhkəmlətdi. 1996-cı ilin oktyabrında oğlu şeyx Yasini vəliəhd təy-

in etdi. Baş nazir vəzifəsini qardaşı Abdullaha verdi. Qatar tarixində ilk dəfə olaraq hökumətin tərkibinə qadın nazir gətirildi. Əvvəllər əsasən ət-Tani sülaləsinin nümayəndələrindən ibarət olan nazirlər kabinetindəki yerlərin üçdə biri digər qəbilə və tayfaların təmsilçilərinə ayrıldı.

Dövlət idarəçiliyi sahəsində ən böyük hadisə isə 1999-cu ildə Mərkəzi Bələdiyyə Şurasına seçkilərin keçirilməsi oldu. Seçkilərdə 18 yaşına çatmış bütün vətəndaşlar iştirak etdilər. Şura 29 deputatdan ibarət idi və əsas vəzifəsi ölkədə bələdiyyə idarəçiliyi sistemini hazırlamaq olmuşdu.

Əmir Həmid hakimiyyətə gəldiyi ilk günlərdən ölkənin iqtisadi inkişaf perspektivləri baxımından da bir sıra tədbirlər gördü. O, hakim sülalənin ölkə gəlirlərindən aldığı payı xeyli azaltdı və əldə olunan vəsaiti müxtəlif iqtisadi sahələrin inkişafına və yaranmasına yönəltdi. Bu zaman həm də ölkənin iqtisadi-coğrafi maraqlarına cavab verən infrastrukturların yaradılmasına önəm verildi.

Yeni neft yataqlarının kəşf edilməsi və istifadəyə verilməsi işi uğurlu nəticələr verdi. 1996-cı ildə gündəlik 350 min barrel neft hasilatı 2000-ci ilədək olan müddətdə 2 dəfəyədək artırıldı.

1997-ci ildə dənizdə kəşf edilən qaz yataqlarının istismara verilməsi işinə başlanılması ilə ölkə iqtisadiyyatının inkişafında yeni bir mərhələ başlamışdır. Dünya qaz ehtiyatının 15%-i bu yataqlarda yerləşmişdir.

Mövcud neftayırma və neft-kimya, metallurgiya, sement və s. zavod və fabriklərin genişləndirilməsi və texniki cəhətdən yeniləşdirilməsi ilə yanaşı yeni sənaye qurğuları da inşa edildi. Bu baxımdan 1997-ci ildə işə salınmış ikinci neft-kimya kompleksini xüsusi qeyd etmək lazımdır.

XX əsrin 90-cı illərinin ikinci yarısında və 2000-ci illərdə iqtisadiyyatın bütün sahələrində inkişaf olmuşdur. Çox kiçik ölkələrdən biri olan Qatarın dünya iqtisadiyyatında payı 1%-ə bərabər idi. İlk baxışdan cüzi görünən bu rəqəm super dövlətlərin ümumi göstəriciləri ilə müqayisədə olduqca böyük idi. Ölkə iqtisadi inkişaf səviyyəsinə, əhalinin rifah halına, Ümumi Milli Məhsul istehsalı və adambaşına düşən gəlirə görə bir çox inkişaf etmiş ölkələri geri qoydu.

ABŞ və Böyük Britaniya, region ölkələrindən Səudi Ərəbistan ilə münasibətləri daha da yaxşılaşdı və əmir Həmidin xarici siyasət kursu həmin dövlətlərin dəstəyini qazandı. Qatar ərəb dövlətləri ilə münasibətlərə xüsusi diqqət yetirir, ərəb dünyasında baş verən hadisələrə tərəfsiz qalmır, öz mövqeyini bildirir və hətta onların çözülməsində iştiraka can atırdı. Qonşu dövlətlərlə

münasibətlərdə olan mübahisə-lərin həllinə çalışırdı.

Qatar-Bəhreyn ziddiyyətləri əsasında mübahisəli ərazilər məsələsi dayanırdı. Hələ Böyük Britaniya idarəçiliyi dövründə bir sıra adaların Qatara əsassız verildiyini iddia edən Bəhreyn onların qaytarılması haqqında dəfələrlə iddia qaldırmışdı və bu zəmində 1982-ci ildən başlayaraq tərəflər arasında zaman-zaman ciddi ixtilaflar özünü göstərirdi. KƏDƏŞ-in vasitəçiliyi ilə hər iki ölkənin yüksək səviyyəli nümayəndə heyətləri 1997-ci ilin fevralında Londonda, martda isə Bəhreynin paytaxtı Manamada görüşdülər. Pozulmuş diplomatik münasibətlər bərpa olundusa da, məsələ Beynəlxalq Haaqa Məhkəməsinin müzakirəsinə çıxarıldı. 2001-ci ilin martında məhkəmə mübahisəli adaların Bəhreynə məxsus olması haqqında qərar verdi və bununla da uzun illər davam edən mübahisəyə son qoyuldu. Bu qərar Qatar və Bəhreyn, həmçinin Qatar və Səudi Ərəbistan arasında dəniz sərhədlərini müəyyənləşdirib başa çatdırmağa da imkan yaratdı.

Qatar müxtəlif səbəblərdən münasibətlərin heç də normal olmadığı İraq və İrana qarşı mötədil kursunu davam etdirirdi. Fələstini birmənalı şəkildə dəstəkləyirdi. Ümumiyyətlə isə bütün münaqişələrin və ixtilafların hərbi yolla yox, diplomatik və siyasi vasitələrlə çözülməsi tərəfdarı kimi çıxış edirdi.

XXI yüzilliyin əvvəllərində də Qatarda daxili siyasi durum sabit olaraq qalırdı. Ət-Tani sülaləsi ölkədə baş verən proseslərə tam nəzarət edirdi. Hakim sülalənin nümayəndələri hökumətdə 15 nazir postundan 10-na, o cümlədən müdafiə, daxili və xarici işlər, maliyyə nazirləri postuna sahib idilər. Əmirin yaxın qohumları ordu və digər güc strukturlarında rəhbər vəzifələr tuturdular. 2000-ci ildən etibarən dövlət siyasətinin mühüm məsələlərinin müzakirəsi və sülalədaxili problemlərin cözülməsi məqsədilə Hakim Ailə Şurası adlı qurum yaradıldı.

Bununla belə, həmin dövrdə dünyada baş verən ciddi və köklü dəyişikliklər Qatardan də yan keçmədi. Hakim ət-Tani ailəsi siyasi və iqtisadi islahatların həyata keçirilməsi sahəsində əvvəlki illərdə başlanan siyasi liberallaşma kursunu davam etdirirdi.

Həyata keçirilməkdə olan islahatların davamı 2003-cü ilin aprelində ümumxalq səsverməsi yolu ilə əmirliyin yeni Konstitusiyasının[1] qəbulu oldu. Konstitusiyaya görə, Nazirlər kabineti və Məşvərət Şurası yaradıldı. Nazirlər kabineti şeyx ət-Tani tərəfindən təyin olunur, Məşvərət Şurasının isə 1/3-i xalq tərəfindən seçilirdi. Qanunvericilik, büdcəyə nəzarət, nazirlərə sorğu

[1] O, 1970-ci ildə qəbul olunmuş müvəqqəti Konstitusiyanı əvəz etmişdi.

ünvanlanması və s. kimi məsələlər Şuranın funksiyalarına aid idi. Bununla yanaşı, 29 üzvdən ibarət məşvərətçi Mərkəzi bələdiyyə Şurası da seçkilər yolu ilə formalaşdırılmalı idi. Lakin bu qurumun səlahiyyətləri xeyli məhdud idi. Qadınların seçki hüququ genişlənmiş, hətta 2003-cü və 2007-ci ildə keçirilən seçkilərdə Məşvərət Şurasına bir qadın deputat seçilmişdi. Yeni Konstitusiya 2005-ci ilin iyununda qüvvəyə mindikdən sonra əhali bir sıra mülkü, siyasi və sosial hüquqlar əldə etdi.

2002-ci ildə KİV haqqında qanun qəbul olundu. Onun əsasında mətbuata bəzi azadlıqlar verildi, senzura ləğv olundu, jurnalistlər öz yazılarına görə daha həbs olunmurdular. 1995-ci ildə dövlətin birbaşa maliyyə yardımı ilə yaradılan "əl-Cəzirə" peyk telekanalı fəaliyyətini daha da genişləndirdi və Qatarı regional informasiya məkanının liderinə çevirdi. Lakin o, senzuranın olmamasına baxmayaraq hakim ət-Tani ailəsini və hökuməti tənqid etməkdən çəkinirdi. Qeyd edək ki, bu telekanalın populyarlığı ərəb dünyasında baş verən və "Ərəb baharı" adı ilə siyasi leksikona daxil olan hadisələr zamanı xeyli artdı.

2004-cü ildə yeni əmək qanunu qəbul olunduqdan sonra işçilər həmkarlar ittifaqları yaratmaq və kollektiv müqavilələr imzalamaq hüququ əldə etdilər. Bu qanun yalnız yerli fəhlələrə şamil olunurdu və əcnəbilərə aid deyildi. Buna baxmayaraq əhalinin sosial çıxışları, siyasi partiya və qeyri-hökumət təşkilatlarının fəaliyyəti qadağan olunmuşdu.

Hakimiyyət ölkədə iqtisadi liberallaşmanın davamlı olması istiqamətində bir sıra tədbirlər həyata keçirdi. Bu baxımdan işgüzar münasibətlərdə korrupsiyadan imtina olunması, ictimai və özəl bölmələrdə şəffaflığın daha da gücləndirilməsi və məsuliyyətli yanaşma standartlarının tətbiq olunması mühüm əhəmiyyətə malik idi. Eyni zamanda, iqtisadiyyatın inkişafı və modernləşməsi üçün layihələr həyata keçirildi ki, bu ilk növbədə neft sektoruna aid idi. Neft hasilatının artırılması və yeni yataqların kəşfi məqsədilə dünyanın aparıcı neft şirkətləri ölkəyə dəvət edildi, müasir qeyri-neft texnologiyalarının tətbiqi və təbii qazın hasilatının genişlənməsi üçün bir sıra addımlar atıldı. Nəticədə neft ixracı təxminən iki dəfə artdı, əldə olunan əlavə gəlirlər isə təbii qazla bağlı biznes-layihələrə yönəldildi. Bu da, öz növbəsində XX əsrin 90-cı illərində büdcə kəsiri ilə idarə olunan Qatarda yeni iqtisadi sıçrayışı şərtləndirdi.

Qatar hökuməti xarici iqtisadi əlaqələrə prioritet kimi baxır, xarici ölkələrdə enerji layihələrinə iri həcmdə sərmayə qoyurdu. Belə layihələrdən olan

Zimbabve neftayırma zavodunun inşasına 1,5 mlrd dollar civarında xərc çəkildi. 2008-ci ildə dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinin digər ölkələrlə müqayisədə Qatara təsiri zəif oldu və onun maliyyə vəziyyəti böhranla üzləşmədi.

Qatarda turizm infrastrukturunun inkişafına da böyük sərmayə qoyulurdu. 2004-cü ildə təhsil sahəsində bəzi yeniliklər edildi, yeni Təhsil Şəhəri adlanan layihəyə start verildi. Bu Şəhərdə bir sıra məşhur ABŞ universitetlərindən – Kornell Tibb məktəbinin, Karneqi-Mellon və Texas universitetlərinin filialları fəaliyyət göstərməyə başladı.

2003-cü ildə əmirin xüsusi fərmanı ilə İnsan haqları Komitəsinin təsis edilməsi demokratiyanın inkişafı yönündə mühüm addım idi. Məhkəmə sistemində 2004-cü ilin oktyabrında isə başlanan islahatlara əsasən şəriət və mülkü məhkəmə sistemləri birləşdirilmiş, 2007-ci ildə isə İnzibati və Konstitusiya məhkəmələri yaradılmışdı.

Xarici siyasət sahəsində Qatar hökumətinin başlıca məqsədi Körfəz və Batının aparıcı dövlətləri ilə əlaqələrin genişlənməsinə nail olmaq idi. Küveyt böhranından sonra (1990-1991) ölkənin milli təhlükəsizliyi və müdafiəsi üçün son dərəcə önəmli olan Batı amilinin rolu daha da artmış, Batının aparıcı dövlətləri ilə sıx hərbi-siyasi əməkdaşlığa yönəlmiş bir sıra əməli addımlar atılmışdı. 2002-ci ildə Qatarın əs-Saliyə hərbi bazasında ABŞ-ın Baş Əməliyyat Komandanlığının mərkəzi yerləşdirildi, 2003-cü ilin yayında isə ABŞ-ın bəzi mühüm hərbi obyektləri Səudi Ərəbistandan Qatara köçürüldü. Ölkə ərazisində ABŞ-a məxsus əl-Udeyd hərbi-hava bazası da fəaliyyət göstərirdi.

Qatar KƏDƏŞ çərçivəsində hərbi-siyasi əməkdaşlığın genişlənməsi və kollektiv təhlükəsizlik sisteminin yaradılmasının tərəfdarı kimi çıxış edirdi. 2007-ci ildə Əmirlikdə terrorla mübarizə üzrə Milli Komitə yaradıldı. Bu qurumun əsas məqsədi terrorizmə qarşı milli strategiyanın müəyyənləşdirilməsindən və müxtəlif beynəlxalq təşkilatlarla birgə fəaliyyətin əlaqələndirilməsindən ibarət idi. Ölkə rəhbərliyi anlayırdı ki, əmirliyin suverenliyi və ərazi bütövlüyünün daxili qüvvələr hesabına təmin edilməsi mümkün deyildir. Bu səbəbdən də təhlükəsizlik və müdafiə məsələlərində daha çox Batı müttəfiqlərin və KƏDƏŞ-in hərbi yardımına ümid edilirdi.

Eyni zamanda, Körfəz bölgəsində gərgin hərbi-siyasi durumun davam etməsi əmirliyi öz silahlı qüvvələrin möhkəmlənməsində xüsusi diqqət verməyə vadar edirdi. Hərbi qulluqçular hazırlayan kollecin olmasına baxmayaraq zabit kadrlarının əksəriyyəti ABŞ, Böyük Britaniya, Urdun, Səudi Ərəbi-

stan və Küveyt hərbi məktəblərində təhsil alırdı. 2007-ci ildən isə qatarlı zabitlər NATO-nun Romada yerləşən xüsusi hərbi kollecində təhsil almağa başladılar. 2011-ci ildə Dohada Fransanın məşhur Sen-Sir hərbi kollecinin filialı açıldı. Böhranlı vəziyyətlərdə təcili tədbirlərin həyata keçirilməsi və adekvat cavab verilməsi məqsədilə Qatarda Milli Mərkəz yaradıldı. Əmirliyin təhlükəsizliyinin təmin olunmasında, milli müdafiə və dövlət sərhədlərinin qorunmasında müasir silah, texnika və texnologiyaların geniş istifadəsi aparıcı rol oynayırdı. 2010-cu ildə Dohada beynəlxalq miqyaslı "DİMEX" hərbidəniz nailiyyətləri sərgisi keçirildi ki, onun iştirakçıları arasında ABŞ, Almaniya, İtaliya, Fransa kimi dünyanın hərb sahəsində aparıcı dövlətləri təmsil olunurdu.

Qatar ərəb dünyasında həmrəyliyin tərəfdarı kimi fəaliyyət göstərirdi. Fələstin probleminin tənzimlənməsində ümumərəb mövqeyindən çıxış edən Qatar fələstinlilərin müstəqil dövlət yaratmaq hüququnu dəstəkləyir, HAMAS təşkilatına maddi və digər yardımlar edirdi. Bununla belə, Qatar KƏDƏŞ dövlətləri arasında İsraillə diplomatik əlaqələri quran ilk dövlət idi. XX əsrin 90-cı illəri boyu Qatar İsrail və Fələstin təmsilçilərinin görüş yerlərindən biri olsa da, 2000-ci ildə Qatar hökuməti ölkədə İsrailin ticarət nümayəndəliyini bağladı, 2009-cu ildə isə İsrail ordusunun Qəzza bölgəsində hərbi əməliyyatlara etiraz əlaməti olaraq bütün ticarət-iqtisadi əlaqələrinə fasilə verdi.

Qatar regional müstəvidə mürəkkəb problemlərin, o cümlədən daxili münaqişələrin çözülməsində ciddi vasitəçi rolunu oynayırdı. Buna misal olaraq, 2008-ci ildə Lübnanda siyasi qüvvələr arasındakı böhranın aradan qaldırılmasında, Sudanın Darfur əyalətindəki münaqişənin çözülməsindəki vasitəçilik missiyasını, 2011-ci ildə Yəməndə siyasi böhranın nizamlanmasında yaxından iştirakını göstərmək olar. "Ərəb baharı" hadisələri kontekstində Qatar Libiyada M.Qəzzafi rejimi ilə əlaqələri kəsən, müxalif Milli Keçid Şurasını tanıyan və ona yardım edən ilk ərəb dövləti olmaqla yanaşı, Libiyada keçirilən NATO əməliyyatlarında da iştirak etdi.

Milli təhlükəsizlik və müdafiə sahəsində Qatar rəhbərliyinin siyasətini müəyyənləşdirən mühüm amillər arasında Körfəz bölgəsində mürəkkəb və qeyri-sabit durumun mövcudluğunu, eləcə də, bölgənin aparıcı dövlətlərindən olan İran, Səudi Ərəbistan və Bəhreynlə ərazi problemlərinin həllində bəzi mübahisəli məqamların qaldığını göstərmək olar.

Baxmayaraq ki, hələ 2001-ci ildə Qatar və Səudi Ərəbistan arasında sərhəd problemlərini tənzimləyən saziş imzalanmışdır, lakin sərhədlərin tam

demarkasiyası 2008-ci ildə başa çatmışdır. İrəlidə deyildiyi kimi, Qatar-Bəhreyn ərazi mübahisəsi isə 2001-ci ildə Haaqa Beynəlxalq məhkəməsinin qərarı ilə tənzimlənmiş, Havar adalar silsiləsi Bəhreynə, Zubar bölgəsi və Fəşd əz-Zibal rifi Qatara aid edilmiş və tərəflər bu qərarla razılaşmışlar.

Qatarın xarici siyasətində İranla münasibətlər də mühüm yer tuturdu. Əmirlik qonşu dövlətlə hərtərəfli siyasi və iqtisadi əlaqələrin inkişafına maraq göstərirdi. İranın nüvə probleminə dair Qatarın mövqeyi ehtiyatlı və düşünülmüş idi. Belə ki, o, bir tərəfdən bunu region üçün ciddi təhlükə hesab etmişdir, digər tərəfdən isə problemin hərbi yolla həllinin səmərəsizliyini, bölgənin durumuna mənfi təsir edəcəyini və sabitliyin pozulacağını bildirmişdir. Məhz buna görə də Qatar İrana qarşı olacaq hər hansı hərbi əməliyyatda nə birbaşa, nə də dolayısıyla iştirakını tamamilə istisna edir və öz ərazisindən bu məqsədlərlə istifadəyə imkan verməyəcəyini dəfələrlə bəyan etmişdir. Eyni zamanda ölkənin ABŞ və Batı dövlətlərilə hərbi-siyasi öhdəliklərinin olması Qatar-İran münasibətlərinə müəyyən məhdudiyyətlər də qoyurdu. Bu sahədə mənfi təsir göstərən başlıca amillərdən biri də Nort Fild qaz yatağı bölgəsində kontinental şelfin kimə məxsus olması ilə bağlı idi.

Beləliklə, Qatar əmirliyinin Körfəz bölgəsində, Ərəb dünyasında və beynəlxalq aləmdə mövqeləri kifayət qədər sabit idi. Sözügedən mərhələdə hakim ət-Tani sülaləsinin əsas məqsədi ailədaxili balansı və ölkədaxili sabit ictimai-siyasi vəziyyəti saxlamaqla yanaşı, bir sıra demokratik yönümlü islahatların münaqişəsiz həyata keçirilməsi olmuşdur. Onu da unutmaq olmaz ki, regionda cərəyan edən ciddi proseslərin hələ uzun müddət bölgə dövlətlərinə öz təsirini bu və digər formada göstərəcəyi ehtimalı aradan qalxmamışdır.

### *Birləşmiş Ərəb Əmirlikləri*

Çağımızın siyasi xəritəsində Birləşmiş Ərəb Əmirlikləri adı ilə yer alan dövlət 1971-ci ildə istiqlaliyyət qazananadək Müqaviləli Oman kimi tanınırdı. Bu adla o, 1820-ci ildə Böyük Britaniya (formal olaraq Ost-Hind ingilis şirkəti) ilə müqavilə bağlanmasından sonra tanınmağa başlamışdır. Ölkə eyni zamanda, "Pirat sahil" adı ilə də məşhur idi. Onu da qeyd edək ki, yerli xalq bu ölkəni qədim dövrlərdən əs-Sir adlandırırdı.1853-cü ildən isə Böyük Britaniya və "Pirat sahil"in yeddi əmirliyi tərəfindən imzalanan müqavilədə əmirliklərin ərazisi Müqaviləli Oman adlandırıldı. Əbu Dabi, Dubay, Şarca, Fuceyra, Rəs əl-Xeymə, Umm əl-Kayvayn və Əcmən əmirliklərini

ehtiva edən vahid siyasi-inzibati qurum kimi Müqaviləli Oman rəsmi status qazandı.

Sonrakı illərdə də Müqaviləli Oman və Böyük Britaniya arasında bir sıra müqavilə və sazişlər imzalandı. Onların da başlıca məzmunu müəyyən yardımlar müqabilində Böyük Britaniyanın Müqaviləli Omanda digər Avropa dövlətləri ilə müqayisədə daha üstün mövqe və rola malik olmasından, ən başlıcası isə müxtəlif sahələr üzrə konsessiyalar almaqda inhisarçı hüquq qazanmasından ibarət idi.

Bütün bunların nəticəsində Böyük Britaniya Müqaviləli Omanı tamamilə öz təsiri altına saldı. Müqaviləli Omanın isə yeganə qazancı onun tərkibinə daxil olan əmirliklərin vahid siyasi-inzibati qurum çərçivəsində birgəyaşayış tərzinin ilkin şərtlərinə alışması oldu. Onu da qeyd edək ki, siyasi sahədə baş verən hadisələr Müqaviləli Omanın sosial-iqtisadi və mədəni həyatına, demək olar ki, heç bir dəyişiklik gətirmədi.

Ölkə XX əsrə keçmişdən miras qalmış adət-ənənələr və qayda-qanunlarla daxil oldu. Mövcud qəbilə-tayfa münasibətləri, arxaik təsərrüfat tərzi və fəaliyyət sahələri, sosial durum öz xarakteri və səviyyəsi baxımından Körfəzin digər əmirliklərindən heç nə ilə fərqlənmirdi.

Həmin dövrdə Müqaviləli Omanın idarəçiliyi bütövlüklə Böyük Britaniyanın təsiri və nəzarəti altında olsa da, bu sahədə ölkənin ehtiva etdiyi əmirliklərdəki başçıların – şeyxlərin rolu da yetərincə idi. Onlardan hər biri başçılıq etdiyi əmirliyin bütün daxili məsələlərinin həllində tam ixtiyar sahibi idi. Şeyxlərin hakimiyyəti irsi idi və onlar bir qayda olaraq bölgənin ən məşhur və nüfuzlu ailəsini təmsil edirdilər. Bu sırada Əbu Dabidə ən-Nahəyyən, Dubayda əl-Maktum, Şarca və Rəs əl-Xeymədə əl-Qasimi, Əcməndə ən-Nuyami, Fucayrada əş-Şərqi və Umm əl-Kayvaynda əl-Muali ailələri qeyd edilməlidir.

XX əsrin 20-ci illərində bölgədə baş verən hadisələr Muqaviləli Omandan da yan keçmədi. Sahilyanı bölgə əhalisinin şeyxlərindən narazılığı üzə çıxdı, müxtəlif formalı etirazlar baş verdi. Daxili ucqarlarda isə elə şeyxlərin öz arasında separatçı meyllər yarandı. Onlardan bəziləri vəhhabilərin lideri İbn Səudla birləşmək haqqında düşünməyə başlamışdı. Hətta, əl-Bureymi vahəsinin şeyxi İbn Səuda onun vassalı kimi müntəzim şəkildə vergi də ödəyirdi. Bunlarla yanaşı, Müqaviləli Omanın məruz qaldığı başqa bir problem həm ehtiva etdiyi əmirliklər arasında, həm də onun Səudi Ərəbistan, Qatar və Masqatla sərhədləri ilə bağlı ziddiyətlər idi. Problemin tənzimlən-

məsində həmin vaxt Böyük Britaniyanın bölgədə yürütdüyü siyasət mühüm rol oynadı. Bunun müqabilində Müqaviləli Oman şeyxləri 1922-ci ildə Böyük Britaniya ilə müqavilə imzaladılar və bütün ölkənin ərazisində onun razı olmadığı heç bir şirkətə neft axtarışı və çıxarılmasına dair konsessiya verilməyəcəyinə boyun oldular. Elə bunun nəticəsi idi ki, sonrakı illərdə Körfəzin ərəb əmirliklərinin, o cümlədən Müqaviləli Omanın neft yataqları uğrunda böyük dövlətlər arasında mübarizə kəskinləşəndə Böyük Britaniya bu ölkədə öz hegemonluğunu qoruyub saxlaya bildi. O, Müqaviləli Omanın neft yataqlarına yiyələnməyi rəsmiləşdirmək məqsədilə "Petroleum Development of Trushill Koust - Pirat Sahil Neft İnkişafı" adlı bir şirkət qurdu. Bu şirkət 1939-cu ildə Müqaviləli Omanın bütün ərazisində 75 il müddətində neft axtarışı və çıxarılmasına dair konsessiya aldı.

Ümumiyyətlə, XX əsrin 30-cu illərində Müqaviləli Oman müəyyən cəhətlərdən Böyük Britaniyanın xüsusi maraq obyektinə çevrildi. Bunlardan birincisi Avropa ilə Uzaq Doğu ölkələri arasında hava yolu sisteminin qurulmasında Müqaviləli Omanın əlverişli hava məkanından istifadə ilə bağlı idi. Həmin məqsədlə 1932-ci ilin əvvəlindən tərəflər arasında danışıqlar başladı, iyulda Şarca ərazisində, bir qədər sonra isə Əbu Dabi və Dubayda mülki və hərbi hava limanlırının inşası haqqında müqavilələr imzalandı. Onların inşasının tez bir zamanda başa çatması imkan verdi ki, artıq II Dünya müharibəsi başlayanda nəinki Böyük Britaniya, eləcə də ABŞ öz hərbi qüvvələrini həmin obyektlərdə yerləşdirsin və buradan italyan-alman mövqelərini bombardman etsin. Həmin kommunikasiya sistemlərinin qurulması və onlardan hərbi məqsədlər üçün istifadə edilməsi müharibə illərində ölkədə müəyyən narazılıqlar doğursa da, müharibədən sonrakı dövrdə nəinki beynəlxalq kommunikasiya sistemində, eləcə də beynəlxalq iqtisadi əlaqələrin qurulmasında Müqaviləli Oman şəhərlərinin mühüm rol oynamasının təməli oldu.

Bir qədər sonra Birləşmiş Ərəb Əmirliklərində birləşəcək Əbu Dabi, Dubay, Şaraca, Fuceyra, Rəs əl-Xeymə, Ümm əl-Kayvayn və Acman əraziləri II Dünya müharibəsi dövründə və sonrakı illərdə istər bölgə, istərsə də böyük dövlətlərin maraqları ilə bağlı baş verən bir sıra proseslərin obyektinə çevrildi. Birincisi, savaşın ilk illərindən Böyük Britaniya ordu hissələrinin əmirliklərdə yerləşdirilməsinə başlanıldı. Böyük Britaniya ölkəni təkcə siyasi baxımdan deyil, həm də hərbi baxımdan tam nəzarət altına aldı. Bu hal yerli qüvvələr tərəfindən birmənalı qarşılanmadı. Hətta

hakim sülalələrin bəzi nümayəndələri belə öz etirazlarını açıq şəkildə bildirdilər. Beləliklə də, burada antiingilis ovqatının artması reallıq oldu. İkincisi, həm savaş illərində, həm də ondan sonra ölkəyə Böyük Britaniyadan ərzaq və digər ilkin tələbat mallarının axını, eləcə də bir sıra infrastrukturların yaradılması protektaratlığın ənənəvi yaşam tərzinə xeyli dəyişikliklər gətirdi. Natural təsərrüfatın əmtəə istehsalına çevrilməsi prosesi artdı, ölkənin dünya iqtisadiyyatına inteqrasiyası genişləndi, istehsal münasibətləri keyfiyyətcə yeniləşdi. Bu zəmində şeyxlərin və qəbilə-tayfa əyanlarının nüfuzu xeyli sarsıldı, daxili-siyasi vəziyyətdə gərginliklər üzə çıxdı. Və nəhayət, üçüncüsü, ABŞ və Böyük Britaniyanın qüdrətli neft şirkətlərinin ölkədə neft yataqlarını ələ keçirmək uğrunda rəqabəti hər iki dövlətin bu ölkədə öz mövqelərini daha da möhkəmlətməyə çalışması ilə məhdudlaşmadı, həm də region ölkələri və ayrı-ayrı əmirliklər arasında ərazi mübahisələrini qızışdırdı.

Bəlli olduğu kimi, 1939-cu ildə "Petroleum Development of Trushill Koust" Böyük Britaniya şirkəti ölkənin bütün ərazisində 75 il müddətində neft-kəşfiyyat işləri aparmaq üçün konsessiya hüququ almışdı. Həmin dövrdə Səudi Ərəbistanda möhkəmlənmiş ABŞ-ın ARAMKO neft şirkəti bu faktla razılaşmır və protektoratlıqda müəyyən konsessiyalar əldə etməyə çalışırdı. II Dünya müharibəsindən sonrakı ilk illərdə məhz ARAMKO-nun təzyiqi ilə Səudi Ərəbistan qonşu Körfəz ölkələrinə ərazi iddiaları irəli sürməyə başladı. Region ölkələrinin hamısı ərazi mübahisələrinə cəlb olundu. Bunlardan ən kəskini Səudi Ərəbistan, Əbu Dabi və Oman arasında yerləşən əl-Bureymi bölgəsi ətrafında baş verdi. 1949-cu ildə Səudi kralı İbn Səud həmin əraziyə iddia etdi. Böyük Britaniya iddianın əsassız olduğunu bildirdi. Tərəflər arasında həmin məsələ ətrafında aparılan danışıqların 1952-ci ildə nəticəsiz başa çatmasından sonra Səudi Ərəbistan həmin ərazini zorla ələ keçirmək istədi və əl-Bureymiyə qoşun hissələri göndərildi. Böyük Britaniya həmin qüvvələrin geri çəkilməsini tələb etdi və eyni zamanda Əbu Dabi və Omanda yerli hərbi qüvvələrin yaradılmasına başladı. Nəhayət, 1955-ci ildə Əbu Dabi və Oman qoşunları hücuma keçdilər və əl-Bureymini geri qaytardılar. Doğrudur, bu mübahisə Böyük Britaniyanın istədiyi kimi həll edildi. Lakin o, regionda Böyük Britaniyanın nüfuzunun sarsıldığını da göstərdi. Bir tərəfdən ABŞ neft şirkətlərinin təzyiqlərinin gündən-günə güclənməsi, o biri tərəfdən ölkədə antiingilis ovqatın daha da genişlənməsi dövrün reallıqlarına çevrildi. Böyük Britaniya

artıq çıxış yolları axtarmaq zorunda qalmışdı. Həmin səbəbdən də Güney Ərəbistan əmirlikləri və Müqaviləli Omanın birləşməsi zəminində bir federasiyanın yaradılması ideyası irəli sürüldü. Lakin bir sıra səbəblər üzündən, - ayrı-ayrı şeyxlər arasında olan ziddiyyətlər və Səudi Ərəbistan və ABŞ-ın bu ideyanı dəstəkləməməsi həmin səbəblərin başında gəlirdi, - Böyük Britaniyanın planı gerçəkləşmədi.

Ümumiyyətlə isə həmin dövrdə region xalqlarının istiqlaliyyət istəklərinin yüksəlişi, ərəb dünyasında baş verən bir sıra hadisələr, xüsusilə də Ərəb-İsrail ziddiyyətlərinin kəskinləşməsi zəminində baş verən silahlı münaqişələr protektoratlıqda böyük canlanma yaratdı. Bu proseslərə Böyük Britaniyanın hərbi və siyasi müdaxiləsi artıq istənilən nəticəni vermirdi. 1967-ci ildə Ədəndən ingilis qoşunlarının çıxarılması və Güney Yəmən Xalq Respublikasının yaradılmasından sonra Böyük Britaniya regiondan çəkilmək haqqında qəti şəkildə düşünməli və qərar verməli oldu. 1968-ci il yanvarın 16-da baş nazir H. Vilson bildirdi ki, onun ölkəsi hərbi xərcləri ixtisar etmək məqsədi ilə öz qoşunlarını Süveyşdən doğuya doğru olan ərazilərdən, o cümlədən, Körfəz ölkələrindən çıxaracaqdır.

Bunun ardınca haqqında danışılan federasiya planının gerçəkləşdirilməsi istiqamətində fəaliyyətə başlanıldı. Həmin məqsədlə 1968-ci il fevralın 18-də Əbu Dabi şeyxi Zaid bin Sultan ən-Nəhəyyan və Dubay şeyxi Rəşid bin Səid əl-Məktum arasında ilk görüş keçirildi. Tərəflər iki əmirliyin federasiya şəklində birləşməsi və Müqaviləli Omanın qalan əmirliklərinin, eləcə də Bəhreyn və Qatarın bu birliyə dəvət edilməsi haqqında razılığa gəldilər. 1968-ci il fevralın 25-də Bəhreyn və Qatar da daxil olmaqla Müqaviləli Omanın yeddi əmirliyinin başçıları görüşdülər və Ərəb Əmirlikləri Federasiyasının yaradıldığını bildirdilər. 1971-ci ilə qədər tərəflər müxtəlif səviyyəli görüşlərdə yeni dövlətin fəaliyyət prinsiplərini müzakirə etdilər və müvafiq qərarlar qəbul edilərsə də, ən sonda onların niyyəti baş tutmadı. Yeni dövlətdə nüfuz uğrunda mübarizədə iki qruplaşma meydana çıxdı. Bunlardan birisinə Əbu Dabi əmirliyi başçılıq edirdi və onun ətrafında Füceyra, Şaraca, Ümm əl-Kayveyn və Acman cəmləşmişdi. Bəhreyn hakimi də onların tərəfində durur, federasiyada özünün əsas nüfuz sahibi olmasına çalışırdı. Həmin qrupu Böyük Britaniya birbaşa dəstəkləyirdi. İkinci qrup Qatar, Dubay və Rəs əl-Xeymə əmirliklərindən ibarət idi və onu İran vasitəsilə ABŞ dəstəkləyirdi. Təbiidir ki, istər qrupların hər birisinin, eləcə də onların arxasında duran böyük dövlətlərin hər birisinin öz

marağı vardı və bu maraqlar da bir-birindən fərqli idi. O biri tərəfdən Bəhreyn və Qatarın daxilində də kifayət qədər nüfuzlu qüvvələr var idi ki, onlar ayrılıqda müstəqil dövlət olmaq tərəfdarı idilər. Elə onlar da 1971-ci ildə Bəhreyn və Qatarın bağımsız dövlət statusu qazanmasına nail oldular. Vəziyyət belə dəyişdikdə 1971-ci il dekabrın 2-də Müqaviləli Omanın bütün yeddi əmirliyinin rəhbərləri toplaşdılar və Birləşmiş Ərəb Əmirliklərini (BƏƏ) yaratdılar. Rəs əl-Xeymə istisna olunmaqla qalan altı əmirlik yeni federativ dövlətdə birləşdi. Yaradılmış Ali Şurada Zaid ibn Sultan ən-Nəhəyyan BƏƏ-nin prezidenti, Rəşid əl-Məktum vitse-prezident seçildilər. Məktum ibn Rəşid isə baş nazir təyin edildi.

Elə həmin gün prezident ən-Nəhəyyan Böyük Britaniya ilə dostluq müqaviləsi bağladı. Müqaviləyə görə tərəflər arasında əvvəllər bağlanmış bütün saziş və müqavilələr qüvvədən düşür, ölkədəki Böyük Britaniya idarəçilik mərkəzləri ləğv olunur və onların əvəzində paytaxt Əbu Dabidə səfirlik fəaliyyətə başlayırdı.

1972-ci il fevralın 10-da Rəs əl-Xeymə də BƏƏ-yə girdi. Yeni müqaviləyə görə Böyük Britaniya ölkədə bir sıra imtiyazlarını saxlayırdı. İnzibati-idarə, hüquq və digər hakimiyyət strukturlarında Böyük Britaniyalı müşavirlər və mütəxəssislər fəaliyyətlərini davam etdirirdilər. Böyük Britaniya ölkədəki bazalardan istifadə etmək hüququna malik idi. O, BƏƏ-nin ordu və polis qüvvələrinin formalaşdırılmasında yaxından iştirak edir, ölkəyə hərbi texnika və silah ixrac edən ölkə olaraq qalırdı. İqtisadi sahədə də Böyük Britaniyanın maraqları qorunurdu.

BƏƏ yarandığı zamandan dünya dövlətləri tərəfindən tanındı, BMT və Ərəb Dövlətləri Liqasının üzvü oldu. Müvəqqəti Konstitusiya qəbul edildi. Konstitusiyaya görə Ali Şura, Prezident Şurası, Nazirlər Kabineti və Federal Milli Məşvərət Şurası (FMMŞ) ali hakimiyyət orqanları idi. Qanunverici hakimiyyət isə Ali Şura və Prezident Şurasına məxsus oldu. Hakimiyyət strukturlarında başlıca vəzifələr əmirliklərin şeyxləri arasında bölüşdürüldü. Qeyd edək ki, əvvəlki dövrlərdə dövlətin formalaşması prosesini tez başa çatdırmaq naminə vəzifələrin bölüşdürülməsi güzəştli şərtlər əsasında aparılırdı. Sonralar bu təcrübəyə son qoyuldu. Əbu Dabi və Dubay şeyxləri daha üstün oldular. BƏƏ-nin parlamenti sayılan Federal Milli Məşvərət Şurasındakı 40 deputat yeri isə bu qaydada bölüşdürüldü: Əbu Dabi və Dubayın hər birinə 8, Şaraca və Rəs əl-Xeyməyə 6, Acman, Ümm əl-Kayveyn və Fucayraya 12 yer düşdü. Deputatların seçilməsinin

vahid qaydası yox idi və hər əmirlik seçki məsələsini özü həll etdi.

Birləşmənin ilk illərində ayrı-ayrı əmirliklərin müəyyən sahələrdə muxtariyyət statusunu saxlaması səbəbindən dövlət neft hasilatı, immiqrasiya, xarici siyasət və s. kimi ümumi məsələlərin həllində çətinliklərlə qarşılaşırdı. Buna son qoymaq məqsədilə 1975-ci il mayın 12-də Ali Şuranın iclası çağırıldı və orada 1) əmirliklərin bütün hərbi qüvvələrinin federal orduda birləşməsi; 2) neft siyasətinin koordinasiyası məqsədilə bu işlə məşğul olan bütün yerli orqanların və federal nazirliyin əlaqələrinin gücləndirilməsi, ayrı-ayrı əmirliklərin bağladığı müqavilələr haqqında Federal Nazirliyi əvvəlcədən xəbərdar etməli olması; 3) xaricilərin immiqrasiyası və yaşayışı ilə məşğul olan yerli orqanların birləşdirilməsi və onlara nəzarətin Federal Daxili İşlər Nazirliyinə tapşırılması; 4) Konstitusiya və federal qanunların yerli orqanlara verdiyi hüquqların qorunması və eyni zamanda onların xarici dövlətlərlə əlaqəni yalnız Federal Xarici İşlər Nazirliyi vasitəsilə qurması; 5) informasiya, nəqliyyat, səhiyyə, təhsil, energetika, su ehtiyatları və islamla bağlı məsələlərdə yerli orqanların fəaliyyətinin Konstitusiyaya uyğun şəkildə məhdudlaşdırılması məqsədilə xüsusi komitə yaradılması; 6) qanunvericilik sahəsində vahid sistem yaradılması məqsədilə prezidentə yeni konstitusiya layihəsini hazırlayacaq xüsusi komitə yaratmaq səlahiyyətinin verilməsi haqqında mühüm qərarlar qəbul edildi. Təbiidir ki, sadalanan qərarların həyata keçirilməsi əmirliklərdə illərlə mövcud olmuş və möhkəmlənmiş idarəçilik sisteminə nə qədər böyük zərbə idisə, o qədər də federal hakimiyyət strukturlarının güclənməsinə xidmət edirdi. Odur ki, məhz bu iki sistemin tərəfdarları həmin qərarların gerçəkləşməsində fərqli mövqe tutdular və onlar şərti olaraq "ənənəviçilər" və "federalistlər" adlanırdılar. "Ənənəviçilər"in başında Dubay şeyxlərinin lideri Rəşid əl-Məktum, "federalistlər"in başında isə Əbu Dabi şeyxlərinin lideri Zaid ən-Nəhəyyan dururdu. Onların arasında gedən mübarizə əslində yaranmış vəziyyətdən şəxsi nüfuzu daha da artırmaq istəyindən qaynaqlanırdı. Bu məsələdə "ənənəviçilər" xüsusi fəallıq göstərirdilər. 1976-cı ildə onların təzyiqi ilə ölkənin daimi konstitusiyası qəbul olunmadı. Vəziyyət böhranlı hal aldı və hətta federasiyanın mövcudluğu təhlükə qarşısında qaldı. Federalizmin əsas müəllifi və onun xərclərini öz üzərinə götürən Zaid ən-Nəhəyyan bu dövlət formasını saxlamaq naminə növbəti prezident seçkilərində öz namizədliyini verməyəcəyini bildirməklə güzəştə getdiyini bildirdi. Prezidentin bəyanatı ölkədə böyük əks-səda

doğurdu. Ölkənin müxtəlif yerlərində onu müdafiə edən mitinq və nümayişlər baş verdi. Yaranmış mürəkkəb vəziyyətdən çıxış yolu kimi tərəflər güzəştlərə getməyə məcbur oldular. "Federalistlər" daimi konstitusiya fikrindən çəkindilər. Lakin müvəqqəti konstitusiyaya federal hakimiyyət strukturlarının möhkəmləndirilməsini nəzərdə tutan maddələr əlavə olundu. Polis, təhlükəsizlik, immiqrasiya və informasiya orqanları federal hökumətin sərəncamına keçdi. Ən mühüm hadisə isə 1978-ci ildə əmirliklərin bütün hərbi qüvvələrinin federal baş komandanlığının tabeliyinə verilməsi oldu.

Beləliklə də, tərəflər arasında bir sıra mübahisələrə son qoyuldu. Lakin bu, heç də ziddiyyətlərin başa çatması demək deyildi. Elə bu səbəbdən idi ki, İranda islam inqilabının qələbəsindən ruhlanan müəyyən qüvvələr hərəkətə gəldi. Milli və dini problemlər üzə çıxdı. İmmiqrantalara qarşı etiraz aksiyaları ilə (əhalinin 75%-i immiqrant idi-müəl.) yanaşı, onların öz haqlarını tələb etdiyi mitinq və nümayişlər baş verdi. Vəziyyət gərginləşdi və hökumət 1979-cu ilin aprelində istefaya getdi. Zaid ən-Nəhəyyan-Rəşid əl-Məktum münasibətlərindəki mübahisələr üzə çıxdı. Yaranmış böhranın həllinə qonşu dövlətlər qoşuldular. Səudi Ərəbistan, Küveyt və Bəhreyn nümayəndələri ər-Riyadda BƏƏ təmsilçiləri ilə görüşdülər. Əldə olunmuş razılaşmalar BƏƏ-nin hakim dairələrində rəğbətlə qarşılandı. İyulda Dubay və Əbu Dabi liderlərinin dəstəklədiyi hökumət yaradıldı.

1987-ci ildə Şaraca əmiri şeyx Sultan və qardaşı arasında taxt-tac uğrunda mübahisəli vəziyyət yaranması, məsələyə münasibətdə Əbu Dabi və Dubay əmirlərinin fərqli mövqe tutması, Səudi Ərəbistan və Küveyt dövlət başçılarının işə qarışması ilə mübahisənin yoluna qoyulması istisna olunmaqla, bütün sonrakı illərdə BƏƏ-nin siyasi həyatı normal məcrada davam etmişdir.

Atasının ölümündən sonra Dubay əmiri olmuş Məhəmməd ibn Rəşid əl-Məktumun 1990-cı ilin oktyabrında BƏƏ-nin vitse-prezidenti və müdafiə naziri vəzifələrinə təyin olunması və dövlətin idarə edilməsində, əmirliklərarası münasibətlərin daha da möhkəmləndirilməsində onun fəallığı siyasi qüvvələrin konsolidasiyasına yeni güc verdi. Həmin illərdə ən mühüm hadisələrdən birisi də 1996-cı ildə müvəqqəti konstitusiyanın daimi elan edilməsi sayılmalıdır.

İlk vaxtlardan siyasi istiqrarın normal məcraya düşməsi BƏƏ-nin bir dövlət olaraq inkişafına güclü təsir göstərdi, bu dövlətin daxili və xarici

siyasət kursundakı uğurların təminatı oldu, sosial-iqtisadi yüksəlişə gətirdi.

Belə bir cəhətə də toxunmaq istərdik ki, haqqında danışılan hadisələr və hallar həmin dövrdə Körfəz əmirliklərinin, demək olar ki, hamısı üçün xarkterik idi və onlar faktik olaraq eyni taleyi yaşayırdılar. Bütün bunlar bir yandan, o biri yandan isə başlanan və bütün ağırlıqları Körfəz ərəb əmirliklərinin heç birindən yan ötməyən İraq-İran müharibəsi (1980-1988) həmin ölkələrin öz qüvvələrini bir məcrada birləşdirmək yolu ilə qarşıya çıxan çətinlikləri aradan qaldırmaq istəyini gücləndirdi. 1981-ci ilin mayında Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının (KƏDƏŞ) yaradılması bu *istəkdən qaynaqlandı. Məqsədi üzv dövlətlərin siyasi və iqtisadi* inteqrasiyasını təmin etmək olan bu təşkilatın qurucularından biri də BƏƏ oldu. Deməliyik ki, İraq-İran müharibəsi dövründə BƏƏ İraqı dəstəklədi və ona yardım etdi. Bununla yanaşı o, İranla da diplomatik münasibətləri kəsmədi və iki ölkə arasında vasitəçilik rolunu öz üzərinə götürdü.

Ümumiyyətlə, həmin dövrdə BƏƏ-nin dünya siyasi və iqtisadi sistemində öz yerini möhkəmlətməsi və bu sistemin tərkib hissəsinə çevrilməsi prosesi çox genişləndi. XX əsrin 80-ci illərinə qədər daha çox regionun güclü dövləti sayılan Səudi Ərəbistan ilə inteqrasiyaya üstünlük verilir və böyük dövlətlərlə münasibətlər daha çox müxtəlif sənaye və istehlak mallarının ixrac-idxalı zəminində inkişaf edirdisə, sonrakı illərdə həmin dövlətlərə böyük məbləğlərdə kapital ixracı başladı. Həmin *illərin* sonunda BƏƏ-nin ixrac etdiyi kapital 74 milyard dollar civarında idi. Bu göstərici keçən əsrin sonunda 95 mld dollar oldu və BƏƏ-yə böyük gəlir gətirdi. Ümumiyyıtlə həmin illərdə digər qonşu ölkələrdə olduğu kimi, BƏƏ torpaqlarında zəngin neft yataqlarının aşkarlanması, istismar və hasilatın ildən-ilə böyük ölçüdə artması ənənə forması almışdı.

İqtisadiyyatın digər sahələrinə gəlincə, o, orta əsrlərdən miras və toxunulmaz qalmış təsərrüfat tərzindən ibarət idi. Köçəri maldarlıq, primitiv əkinçilik və sənətkarlıq, balıqçılıq və mirvari ovu əsas yaşam qaynaqları idi. Keçən əsrin 30-cu illərindən mirvari ticarəti canlandı və ölkəyə xeyli gəlir gətirməyə başladı. Mirvari ovu ilə 22 min adam məşğul olurdu. İşsizlərin sayı isə çalışanlardan qat-qat artıq olaraq qalırdı və onlar çox sayda qonşu Səudi Ərəbistan, Küveyt, Bəhreyn və Qatara miqrasiya edir, neft sənayesində ən ağır işlərdə çalışırdılar.

Lakin II Dünya savaşından sonrakı ilk illərdə BƏƏ torpaqlarında ehtimal olunan neft yataqları uğrunda ABŞ-ın göstərdiyi cəhdlər Böyük

Britaniyanı hərəkətə gətirdi. Böyük Britaniya protektoratlığı olan bu ölkədə bütün istiqamətlərdə, o cümlədən, iqtisadi sahədə öz mövqelərini möhkəmləndirməyə girişdi. Ölkəyə ilk investisiyalar gəlməyə başladı. Təkcə 1955-1965-ci illərdə Böyük Britaniyanın bu ölkənin iqtisadiyyatına qoyduğu vəsaitin məbləği 1 milyard funt-sterlinq olmuşdur. Bu da imkan verdi ki, iqtisadi həyatda müəyyən bir canlanma baş versin, nəsli aristokratiyanın təmsilçiləri yaranmış imkanlardan faydalansınlar və zənginləşsinlər, Böyük Britaniya ilə iş birliyində daha maraqlı olsunlar. Dövrün ortalarında ərazi mübahisələri meydana çıxdıqda bu iş birliyi tərəflərin hər ikisinin mənafeyinə yaradı.

XX əsrin 60-80-ci illərində neft yataqlarının kəşf edilməsi və istismara verilməsi, neft sənayesinin yaranması, müvafiq infrastrukturların qurulması da ilk növbədə məhz Böyük Britaniya və sonradan digər böyük dövlətlərlə iş birliyi zəminində mümkün oldu. Həmin əsrin 90-cı illərində əmirliklərin təsərrüfat həyatı tamamilə yeni forma aldı, ölkə iqtisadiyyatı qısa zaman kəsiyində misilsiz səviyyədə inkişaf etdi. Körfəzin digər ərəb dövlətləri ilə bir sırada BƏƏ də tarixin maraqlı paradoksu oldu. Ölkədə çağdaş dünyanın ən son texnologiyasına əsaslanan iqtisadiyyat yaradıldı, sosial problemlər ən yüksək səviyyədə həll olundu. Burada modern memarlıq üslubunda iri şəhərlər salındı, ən yüksək səviyyədə kommunikasiya sistemi yaradıldı. Bu baxımdan BƏƏ, mübaliğəsiz demək olar ki, "problemsiz dövlət"ə çevrildi. Lakin bütün bunlar təsərrüfat həyatında baş vermişdir. Mənəvi həyat isə dəyişilməz olaraq qalmaqda idi. Elə bu da ölkədə yaranan hər hansı problemin mənbəyi oldu.

BƏƏ zəngin neft və qaz yataqlarına malik oldu. Dünya neft ehtiyatlarının 10%-ə qədəri onun payına düşdü və dördüncü yeri tutdur Qaz ehtiyatlarında payı isə 5%-çatdı. Neft ixracından gələn gəlirlər XX əsrin 80-ci illərində 30 mld dollara bərabər idi, - dövlət bödcəsinin 89%-ni təşkil edirdi.

Göründüyü kimi, BƏƏ-nin iqtisadiyyatı neft hasilatı və satışından tam asılı vəziyyətə düşdü. Bu səbəbdən həmin sahə dövlətin siyasətində başlıca yer tutdu və onun inkişafına xüsusi qayğı göstərildi. Təkcə 1986-cı ildə ABŞ, Fransa, Danimarka, Yaponiya, AFR və digər dövlətlərin şirkətləri neft axtarışı və hasilatına 7 mld dollar kapital qoydular. Bu rəqəm 1987-ci ildə 5,2 mld dollar, 1990-1995-ci illərdə 21,7 mld dollar, 1996-2002-ci illərdə 19,5 mld dollar məbləğində olmuşdur. Qaz hasilatı da ildən-ilə artırdı. XX əsrin sonlarında mayeləşdirilmiş təbii qaz hasilatının həcmi 5 mln ton oldu.

Eyni zamanda hökumət təbii ehtiyatlardan qənaətlə istifadə etmək kursuna keçdi. Bu məqsədlə ölkədə bir sıra emal sənayesi sahələri yaradıldı. Neft-kimya sənayesi başlıca istehsal sahəsinə çevrildi. İri neftayırma zavodları və qazın mayeləşdirilməsi müəssisələri işə salındı, mineral gübrələr, sement və tikinti materialları, polad borular, kabellər, kondensionerlər və s. istehsalı üzrə iri zavod və fabriklərlə yanaşı yüzlərlə müxtəlif məhsullar istehsal edən orta və xırda müəssisələr şəbəkəsi, demək olar ki, bütün ölkə miqyasında fəaliyyət göstərirdi. Yaradılmış alüminum sənayesi məhsulları dünyanın 25 ölkəsinə, o cümlədən, ABŞ, Yaponiya, ÇXR və Hindistana ixrac edildi. Ruvays və Cəbəl Alidə işə salınmış Yaxın Doğunun iki ən böyük ticarət mərkəzi ölkənin mühüm valyuta mənbəyi oldu. Bu cür ticarət zonaları Şaraca və Fucayra əmirliklərində də yaradıldı.

Dünyanın onlarla ən iri bankları BƏƏ-də öz filiallarını qurdu və XX əsrin son illərində aparılan bütün bank əməliyyatlarının 70%-i həmin filialların payına düşdü.

Aqrar sahəyə kapital qoyuluşu ildən-ilə artırıldı, onun istehsal gücü və imkanları xeyli genişləndi. XX əsrin 90-cı illərinin əvvəlində ümummilli məhsul istehsalında 3% çəkisi olan aqrar bölmənin payı 2001-ci ildə 5%-ə qalxdı.

İqtisadi siyasətdə nəzərə çarpan mühüm cəhətlərdən biri də dövlət bölməsi ilə yanaşı özəl bölmənin də fəaliyyət imkanlarının genişləndirilməsinə təminatın yaradılması idi. Bunun nəticəsində XX əsrin sonlarında iri özəl və qarışıq şirkətlər nəinki BƏƏ daxilində, eləcə də dünyanın onlarla ölkəsində bir sıra transkontinental layihələrin həyata keçirilməsində iştirak etdilər. 1990-cı ildə ümummilli məhsul istehsalında 45%-ə yaxın yer tutan neftin çəkisi 2000-ci illərin sonunda 30%-ə endi. Ölkə XXI əsrə dünyanın ən inkişaf etmiş ölkələrindən biri kimi daxil oldu. 1990-cı ildə 31,6 mld dollar məbləğində olan ümummilli gəlir 2001-ci ildə 54 mld dollara, adambaşına gəlir isə 18,5 min dollardan 29,5 min dollara qalxdı.

Sosial problemlərinin həlli baxımından BƏƏ dünyada ən önəmli yerdə durdu. Pulsuz təhsil və tibbi xidmət istər yerli, istərsə də vətəndaşlıq hüququ olan gəlmə əhaliyə eyni dərəcədə şamil olundu. Həmin sahələrdə ehtiyaclarını ödəmək üçün dövlət hər vətəndaşa ildə 5 min dollar əlavə vəsait verməyə başladı.

Təhsilin və səhiyyənin yüksəldilməsinə dövlətin iqtisadi və sosial inkişaf planlarında xüsusi diqqət verilirdi. Yerli əhalinin dövlət idarəçiliyində, iqti-

sadi və sosial bölmələrdə yüksək vəzifələrdə təmsil olunması üçün xüsusi planlar həyata keçirildi, gənclərin istər ölkə daxilində, istərsə xaricdə nüfuzlu ali məktəblərdə təhsil alması üçün lazım olan hər cür şərait yaradıldı.

Qadınların cəmiyyətdə layiqli yer tutmasına xüsusi qayğı göstərilmiş, onların ali təhsil alması, müxtəlif peşələrə yiyələnməsi və ixtisasları üzrə işlə təmin olunması dövlətin başlıca vəzifələrindən olmuşdu. Ailə-məişət məsələlərində də qadına olan münasibət xeyli dəyişdi. Yaxın keçmişə kimi geniş yayılmış çoxarvadlılıq təsadüfi hala çevrildi.

Sosial sahədə dövlətin daim nəzarət altında saxlamağa çalışdığı bir məsələ də ölkəyə xaricdən gələn işçi axınının davamlı olaraq artması idi. Ölkə əhalisinin azsaylı olması, onların da demək olar ki, hamısının savadsız və ixtisassız olması səbəbindən neft yataqlarının kəşf edilməsi və istismara verilməsi dövründən başlayaraq xarici mütəxəssis və işçilərə böyük ehtiyac yarandı. Qısa zaman kəsimində xeyli işçi qüvvəsi gəldi və artıq 1968-ci ildə ölkə əhalisinin ümumi sayında yerli əhali 63,5% təşkil etdi. XX əsrin 80-ci illərinin ortalarında bu göstərici 25%-ə, 90-cı illərin əvvəlində 20%-ə endi. Təbiidir ki, yerli və gəlmə əhali nisbətinin belə sürətlə və kəskin dəyişməsi diqqətdən kənarda qala bilməzdi. Lap əvvəldən BƏƏ hakimiyyəti işçi axınını tənzimləmək məqsədilə ciddi qayda-qanunlar tətbiq etsə də, xaricilərə vətəndaşlıq haqlarının verilməsi sahəsində çətinliklər olsa da, ildən-ilə çoxalan nəhəng proqramların və layihələrin yerinə yetirilməsi üçün xaricdən işçi qüvvəsi gətirilməsi zərurət olaraq qalırdı. Yuxarıda söylənilən rəqəmlər bu prosesin tempini lazımınca əks etdirirdi. Qeyd edək ki, XX əsrin sonlarında immiqrasiya məsələsilə məşğul olmağa daha çox enerji sərf olunmuşdur. Xüsusilə də 90-cı illərində qeyri-qanuni və gizli yollarla ölkəyə gələnlərin sayının artması ciddi narahatlıq doğururdu. Həmin illərin ortalarından başlayaraq 2001-ci il də daxil olmaqla ölkəyə gizli yolla gələnlərin sayı ildə 30-60 min nəfər arasında idisə, bu rəqəm 2002-ci ildə xeyli artdı və gəlmələr əhalinin 85%-ni təşkil etdi.

BƏƏ-nin xarici siyasətinə gəlincə, bu məsələdə iki amilin ciddi rol oynadığını söyləmək lazımdır: birincisi, BƏƏ elə bir coğrafi məkanda yerləşmişdir ki, tarix boyunca burada istər Körfəz ölkələrinin, istərsə regionda möhkəmlənməyə can atan Böyük Britaniya, ABŞ və s. kimi böyük dövlətlərin maraqları toqquşur; ikincisi, Körfəz ölkələri milli, dini və mədəni baxımdan bir-birilə üzvi şəkildə bağlıdırlar, bir bütövün ayrı-ayrı parçalarıdırlar. Həmin səbəbdən idi ki, istiqlaliyyətin ilk illərində BƏƏ

tərəfsiz ölkələr sırasnda durur, həm Batı, həm də Doğu ilə normal münasibətlər saxlayır və onların hər ikisindən "bərabər uzaqlıq"da dayanırdı. Elə ki, regionda İran-İraq savaşı, İraqın Küveytə təcavüzü, Fələstin məsələsinin kəskinləşməsi, Lübnan böhranı və s. kimi hadisələr baş verdi, BƏƏ onlara münasibətdə tərəfsiz qala bilmədi. 1981-ci ildə Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının (KƏDƏŞ) yaradıcılarından oldu. İranda baş verən islam inqilabına neqativ münasibət bəslədi, İran-İraq savaşında İraqa maddi və mənəvi dəstək verdi. Eyni zamanda savaşın dayandırılması yolunda vasitəçilik etməyə hazır olduğunu da bildirdi. Savaşın uzanması, 1986-cı ildə BƏƏ-nin bir sıra neft təsisatlarının bombardmana məruz qalması və ümumiyyətlə savaş zəminində ölkə iqtisadiyyatının bir sıra məhdudiyyətlərə məruz qalması Onun mövqeyində dəyişiklik yaratdı. İranla münasibətlərdə mötədil kurs götürüldü və BƏƏ münaqişənin dinc yolla həllini təkid edən dövlətlərin sırasında durdu.

BƏƏ istər bu dövrdə, istərsə də sonrakı illərdə Ərəb Dövlətləri Liqasının fəal üzvü kimi ümumərəb həmrəyliyi və birliyi tərəfdarı olmuşdur, ərəb dövlətləri maraqlarının müdafiəçisi kimi çıxış etmişdir. 1990-91-ci illərin Küveyt böhranından sonra BƏƏ hakimiyyəti "öz gücünə arxalanmaq" kursundan üz döndərdi və bölgədə istiqrarı və təhlükəsizliyi qorumağın yolunu iki amildə gördü. Bunlardan birisi Batı dövlətləri, xüsusilə də ABŞ ilə hərbi əməkdaşlığa qoşulmaq, ikincisi isə ərəb dövlətlərarası birliyi qoruyub saxlamaqdır. BƏƏ "Səhrada Tufan" əməliyyatında iştirak etdi. Küveyt savaşı başa çatdıqdan sonra BƏƏ limanları ABŞ hərbi gəmilərinin ixtiyarına verildi. 1994-cü il iyunun 23-də ABŞ və BƏƏ arasında hərbi əməkdaşlığa dair saziş imzalandı. Bu cür müqavilələr 1995-ci ilin yanvarında Fransa, 1996-cı ilin noyabrında Böyük Britaniya və 1997-ci ilin martında Almaniya ilə də bağladı.

XX əsrin 90-cı illəri boyu BƏƏ-nin Batı dövlətləri ilə iqtisadi və hərbi əməkdaşlığı yüksələn xətlə inkişaf etmişdi. Bununla yanaşı BƏƏ öz qonşuları ilə, ilk növbədə ərəb dövlətləri ilə münasibətləri normal məcrada saxlamağa çalışmışdır. O, Fələstin məsələsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamə və qərarlarına uyğun həll edilməsi tərəfdarı idi. Ehtiyacı olan ərəb dövlətlərinə ən çox maliyyə yardımı göstərən neft ölkələrindən biri olmuşdur. Həmin illərdə dünyanın 50-yə yaxın ölkəsi BƏƏ-dən müxtəlif təyinatlı yardımlar almışdır. Təkcə 2000-ci ildə Lübnana güney məntəqələrinin hərbi əməliyyatlar zamanı dağılmış infrastrukturunun

bərpası üçün 100 mln dollar məbləğində vəsait ayrıldı.

Ölkənin xarici siyasətində Rusiya Federasiyası, Azərbaycan və Mərkəzi Asiya dövlətləri ilə çoxşaxəli münasibətlərə önəm verilmiş və onların da başında iqtisadi əməkdaşlıq dayanmışdı. BƏƏ həmin ölkələrdə bir sıra iri iqtisadi layihələrin maliyyələşdirilməsində iştirak etmişdi.

Ümumiyyətlə, BƏƏ öz xarici siyasətində BMT və digər beynəlxalq təşkilatlarla əməkdaşlığa və onların işində fəal iştirak kursuna daim sədaqət göstərmişdir. Qonşu İranla Əbu Musa, Böyük və Kiçik Tomb adaları üstündə yaranmış münaqişəni beynəlxalq hüquq normaları əsasında həll etməyə çalışması buna misaldır. 1992-ci ildə həmin əraziləri İranın zorla özünə birləşdirmək cəhdləri istər tərəflər arasında, istərsə də beynəlxalq qurumlarda dəfələrlə müzakirə edilsə də münaqişə, həll olunmamış qalmışdır.

11 sentyabr 2001-ci il hadisələrindən sonra BƏƏ-nin antiterror koalisiyası sıralarına qoşulması onun dünyada baş verən dəyişikliklərə pozitiv yanaşmasından qaynaqlanırdı. Sentyabrın 22-də BƏƏ Əfqanıstanın talibançılar hökuməti ilə diplomatik münasibətləri kəsdi. Terrorçu təşkilatların maliyyə qaynaqları üzərində ciddi nəzarət qoyulması ilə yanaşı BƏƏ Əfqanıstan probleminin həllində öz köməyini də təklif etdi. Noyabrın 15-də prezident Zaid ən-Nəhəyyan tərəflərin BMT-nin himayəsi altında Əbu Dabidə görüşməsi üçün hazır olduğunu bildirdi və BMT təmsilçisi ilə danışıqlar apardı. 2002-ci ilin yanvarında BƏƏ Əfqanıstanın yeni hakimiyyəti ilə diplomatik münasibətləri bərpa etdi və ona böyük məbləğdə yardım ayırdı.

XXI yüzilliyin əvvəllərindən etibarən yaranmış yeni beynəlxalq şəraitdə BƏƏ dinamik inkişaf və modernləşmə proseslərini davam etdirməklə yanaşı, federasiya subyektləriarası inteqrasiyanı gücləndirir, ölçülüb-biçilmiş və eyni zamanda çevik xarici siyasət xətti yeridirdi. Bu da öz növbəsində ölkənin beynəlxalq mövqelərinin güclənməsinə və bölgədə nüfuzunun artmasına şərait yaradırdı.

Daxili siyasət sahəsində BƏƏ rəhbərliyinin səyləri monarxiya rejiminin qorunmasına, siyasi və ictimai fəaliyyətin məhdudlaşdırılmasına, yerli və xarici vətəndaşlar üzərində nəzarətin gücləndirilməsinə yönəlmişdi. Hökumət yerli polis və xüsusi xidmət orqanlarının möhkəmləndirilməsinə, həmçinin KƏDƏŞ çərçivəsində təhlükəsizlik sahəsində əməkdaşlığa xeyli vəsait xərcləyirdi. 2010-cü ildə isə önləyici addım kimi 800 əcnəbi muzdludan ibarət xüsusi taqımın yaradılması haqqında qərar qəbul edildi. Onun əsas vəzi-

fəsi ölkədə daxili sabitliyi və təhlükəsizliyi təmin etmək, baş verə biləcək iğtişaşların və terror təhlükəsinin qarşısını almaq idi.

Köhnə qaydalarla idarəçiliyin çətinliyi dövlətin ictimai-siyasi həyatında bəzi dəyişikliklərin edilməsini şərtləndirmiş oldu. Belə ki, 2003-cü ildə Dubayda bələdiyyə şuralarının yaradılması, 2005-ci ildə şeyx Xəlifənin xüsusi qərarı ilə Federasiya Milli Şurasının yarısının seçki yolu ilə formalaşdırılması BƏƏ-də müəyyən demokratik dəyişikliklərin göstəricisi oldu.

Əvvəllər ölkədə siyasi partiyalar və həmkarlar ittifaqlarının fəaliyyəti qanunla qadağan edilmişdi. Ancaq XXI əsrin ilk illərində hökumət bir neçə həmkarlar və tələbə birliklərinin yaradılmasına icazə verdi. 2005-ci ildə Əbu Dabi Ticarət-Sənaye Palatasının tərkibinə daxil olan 21 nəfərdən 15-nin seçki yolu ilə seçilməsi ölkənin siyasi həyatında baş verən yeniliklərdən idi. KİV-lərin formal olaraq senzuradan azad edilməsinə baxmayaraq, özünüsenzura geniş yayılan hal olaraq qalırdı. Terrorla mübarizə qanununa görə (2004-cü il) isə bir sıra KİV nümayəndələrinin lisenziyası ləğv edilmiş və ifadə azadlığı kəskin şəkildə məhdudlaşdırılmışdı.

BƏƏ-nin milli təhlükəsizliyi üçün əsas təhdidlər xarici amillərlə və Körfəz bölgəsində mövcud mürəkkəb və qeyri-sabit durumla bağlı idi. Ölkədaxili təhdidlər arasında ilk növbədə Federasiyaya daxil olan əmirliklərin daha çox iqtisadi, bəzi hallarda isə siyasi müstəqilliyə can atmasını göstərmək olardı ki, bunların aradan qaldırılması üçün hakimiyyət daxili birliyinin qorunması yolunda əməli addımlar atırdı.

BƏƏ rəhbərliyi bölgəsəl müstəvidə əsas təhlükə kimi İranı və onun yürütdüyü siyasəti görürdü. Körfəzdə yerləşən və 1971-ci ildə İran tərəfindən zəbt olunmuş üç ada – Əbu Musa, Böyük və Kiçik Tomb adaları ərazi münaqişəsi olmaqla yanaşı, həmin adalarda İran hərbi bazalarının yerləşdirilməsi bölgədə dənizçilik və dəniz daşımaları üçün real təhlükə mənbəyinə çevrilmişdi. Ölkə İranın nüvə proqramı ilə bağlı BMT TŞ-nin qətnamələrinin yerinə yetirilməsi və MAQATE ilə tam əməkdaşlığın tərəfdarı kimi çıxış edirdi. ABŞ-İran qarşıdurmasının dərinləşməsi digər Körfəz əmirlikləri kimi BƏƏ-ni də ciddi narahat edirdi. Hesab olunurdu ki, onlar arasında silahlı münaqişənin olması ehtimalı bölgəyə böyük iqtisadi ziyan vurmaqla yanaşı sabitliyi poza bilər. Bununla belə, BƏƏ və İran arasında ticari-iqtisadi əlaqələr inkişaf edirdi. Lakin 2010-cu ilin iyununda BMT TŞ-nın qərarına əsasən İrana qarşı əlavə sanksiyalar tətbiq edilməsindən sonra BƏƏ də iki ölkə arasında maliyyə və ticarət əlaqələrini məhdudlaşdırdı.

İranın hərbi qüdrətinin artması BƏƏ-də ciddi narahatçılıq yaratmaqla yanaşı bölgənin mövcud təhlükəsizlik sistemi və mexanizmlərinin yeniləşdirilməsini tələb edirdi. Ona görə də ölkə rəhbərləri KƏDƏŞ çərçivəsində hərbi-siyasi və iqtisadi əməkdaşlığın dərinləşməsinə xüsusi diqqət yetirirdilər. Bununla yanaşı, onlar Körfəz bölgəsinin təhlükəsizliyinin əsas təminatını Batının aparıcı dövlətləri ABŞ, Fransa, Böyük Britaniya və s. ilə hərbi-siyasi əlaqələrin daha da inkişaf etdirilməsində görürdülər. Təsadüfi deyildi ki, XX əsrin 90-cı illərinin ortalarından başlayaraq həmin dövlətlərlə BƏƏ arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığa dair bir sıra müqavilə və sazişlər imzalandı. Əmirlik həmçinin terrorizmlə mübarizə, hərbi kadrların hazırlığı, sülhməramlı əməliyyatlarda iştirak, sərhədlərin təhlükəsizliyi, kütləvi qırğın silahlarının qarşısının alınması və s. ehtiva edən İstanbul təşəbbüsü (2004-cü il) çərçivəsində NATO ilə əməkdaşlıq edirdi. 2009-cu ildən etibarən BƏƏ ərazisində Fransanın hərbi bazası daimi fəaliyyət göstərməyə başladı. Eyni zamanda ölkə öz silahlı qüvvələrinin (51 min civarında) möhkəmləndirilməsinə də xüsusi diqqət yetirirdi. Sayının azlığına baxmayaraq ordu müasir tipli silah və hərbi texnika ilə təchiz edilirdi. BƏƏ hərbi sahəyə çəkilən xərclərə görə dünyanın ən iri ixracatçıları sırasında idi (3,2 mld dollar). 2011-2015-ci illərdə hərbi sahəyə 35 mld dollar vəsait ayırması da ilk növbədə ölkənin müdafiə ehtiyaclarından irəli gəlirdi.

Əmirliyin Batı ilə əlaqələrinin inkişaf etməsi həm də onun aparıcı neft ixracatçısı və mühüm maliyyə-iqtisadi mərkəz kimi qlobal dünya iqtisadiyyatına inteqrasiyası ilə bağlı idi. Batı BƏƏ-nin əsas neft idxalçısı olmaqla yanaşı, həm də onun müasir texnologiya və hərbi texnika ilə təchiz edilməsində aparıcı rol oynayırdı. BƏƏ hesab edirdi ki, Körfəz bölgəsinin Batının uzunmüddətli siyasi, iqtisadi və hərbi maraqlarının obyekti kimi qalması onun təhlükəsizliyinin təmin edilməsində də böyük əhəmiyyətə malikdir və Batı ilə hərtərəfli əməkdaşlıq xətti heç də müstəqil xarici siyasətdən imtina edilməsi demək deyildir.

BƏƏ-nin xarici siyasət xəttinin səciyyəvi xüsusiyyətlərindən biri də dünyada və bölgədə vəziyyətin dəyişməsinə verilən çevik reaksiya idi. Belə ki, ölkənin xarici siyasətinin əsas vektoru KƏDƏŞ daxilində cəmləşmişdir. O, alyans çərçivəsində iqtisadi, siyasi və hərbi sahələri əhatə edən inteqrasiya layihələrini dəstəkləməklə yanaşı, Səudi Ərəbistanın ifrat hegemonluğuna qarşı çıxırdı. Məhz bu səbəbdən BƏƏ KƏDƏŞ-in 2010-cu ildə ya-

radılan Valyuta İttifaqına daxil olmadı və vahid ərəb valyutasının tətbiq edilməsinə qarşı çıxdı.

Göstərilən dövrdə BƏƏ-Rusiya münasibətlərində də irəliləyişlər müşahidə olunurdu. Belə ki, 2007-ci ilin sentyabrında Rusiya prezidenti V.Putinin BƏƏ-yə rəsmi səfərinin gedişi zamanı tərəflər çoxşaxəli əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirmiş; V.Putin xüsusilə investisiya sahəsində əməkdaşlığın vacibliyini önə çəkərək ticari-iqtisadi və elmi-texniki sahələrdə hökumətlərarası komissiyaların yaradılmasını yüksək qiymətləndirmişdi. 2006-cı ilin mayında Ticarət-Sənaye Palatasının nəzdində Rusiya-BƏƏ İşgüzar Şurasının yaradılması bu istiqamətdə xüsusi rol oynayırdı.

"Ərəb baharı" və onun sərhədlərinin genişlənməsi təhlükəsi ölkə rəhbərlərini təxirəsalınmaz tədbirlər görməyə vadar etdi. 2011-ci ilin martında BƏƏ Bəhreyndə müxalifətin çıxışlarının yatırılması üçün 500 polis göndərdi. Libiya hadisələri zamanı NATO-nun hərbi əməliyyatlarını dəstəklədi, hətta münaqişə bölgəsinə bir neçə hərbi təyyarə göndərdi. BƏƏ habelə, Yəməndə baş verən böhranın tənzimlənməsində KƏDƏŞ-in vasitəçi missiyasında yaxından iştirak etdi. Yeni Misir hökumətinə maliyyə yardımı göstərdi.

Sözügedən dövrdə BƏƏ-nin daxili siyasi vəziyyəti stabil qalsa da, "Ərəb baharı" ilə bağlı hadisələr ölkədən yan keçsə də və hətta hakimiyyət dairələrinin cəmiyyətdəki mövcud duruma nəzarət etməsinə baxmayaraq bir sıra amillərin daxili siyasi vəziyyətə mənfi təsir göstərmək ehtimalı qalırdı. Əvvəla, ölkədə radikal islamçı ovqatın artması müşahidə olunurdu. İkincisi, Federasiya subyektlərinin arasında müxtəlif iqtisadi və siyasi məsələlərlə bağlı ziddiyyətlər mövcud idi. Üçüncüsü, yerli əhali və əcnəbilər arasında gərginlik artmaqda idi. Xarici işçi qüvvəsi (əsasən Hindistan, Pakistan və Güney-Doğu Asiya ölkələrindən) axınının artması hökuməti ciddi narahat edirdi. Çünki ölkə əhalisinin 85%, işçi qüvvəsinin isə 90% -ni gəlmələr təşkil edirdi. Miqrasiya proseslərinin tənzimlənməsi, o cümlədən BƏƏ vətəndaşlığının alınması üçün hökumətin bir sıra sərt qanunlar qəbul etməsinə, vaxtaşırı qeyri-leqal mühacirlərin ölkədən çıxarılmasına baxmayaraq, problem həll olunmamış qalırdı.

Ümumiyyətlə isə, BƏƏ-də sabit daxili siyasi vəziyyətin mövcudluğu, çevik və balanslaşdırılmış xarici siyasət kursunun yürüdülməsi, ziddiyyət və qarşıdurmalardan kənar durması ölkənin daxili və xarici təhlükəsizliyinin

təmin edilməsində, bölgəsəl və beynəlxalq münasibətlər sistemində möhkəm mövqe tutmasında əhəmiyyətli rol oynayırdı.

Bütün deyilənlər bu qənaətə gətirir ki, istər ölkə daxilində, istərsə də xaricdə baş verən proseslər BƏƏ-nin hakim dairələrinin maraqlarından kənarda deyildir və XXI əsrdə BƏƏ-nin perspektivi dəyişən dünya şərtlərinin dərkindən və ona uyğunlaşmaqdan asılı olaraq qaldı.

### *Oman*

Oman tarixinin hər hansı dövründən danışarkən, fikrimizcə, onun təbii-coğrafi və etnokonfesional şərtlərinin ön planda durduğu qeyd olunmalıdır. Belə ki, ölkənin şimalında Oman dağları (Cəbəl Axdar-Yaşıl Dağ) yerləşir və yaz-yay aylarında bu dağlarda güclü leysan yağışlarının yağması sayəsində həmin ərazi yaşayış üçün ən əlverişli sahədir. Omanın ərazisi 212 min kv km-dir. Cəbəl-Əxdər – Yaşıl Dağ ərazisi isə 3 min kv km olub ümumi ərazinin 1,5%-nə yaxındır. Ancaq burada ölkə əhalisinin 75%-i yaşayır. Onlar əsasən yarımköçəri həyat tərzi keçirir və xəvariclər təriqətinin ibadilər qoluna məxsusdurlar. Həmin bölgənin dəniz sahili ərazisi Batina ovalığı adlanır və burada çoxu sünni olan qarışıq əhali yaşayır. Güneyə doğru uzanan ərazi əsasən Rub əl-Xali səhrasının davamıdır, sahil bölgəsi istisna olunarsa, orada yaşayış yoxdur. Bölgənin qurtaracağında isə təpəliklərdən ibarət Zufar əyaləti yerləşir. Həmin ərazidə ərəb olmayan samilər yaşayırlar və onlar qaralar kimi tanınırlar. Məhz bu təbii-coğrafi, dini və etnik fərqliliklər ölkənin tarix boyunca üç yerə bölünməsinə gətirib çıxarmışdır və onların vahid bir dövlət halında birləşməsi üçün müəyyən zaman lazım olmuşdur.

XX əsrin əvvəllərində müasir Oman ərazisində iki dövlət qurumu – Böyük Britaniya ilə "dostluq münasibətləri"ndə olan Masqat sultanlığı və müstəqil Oman imamlığı mövcud idi. Onları ortaq tarix və mədəni irs, etnik və dini birlik, ənənəvi iqtisadi əlaqələr birləşdirirdi. Belə ki, hər iki qurum XVIII əsrin sonlarına qədər bölgənin güclü dövləti olan vahid Oman dövlətinin tərkibində idi.

Lakin həmin arada ölkə daxilində və xaricində cərəyan edən proseslər səbəbindən dövlət bir sıra çətinliklərlə üzləşdi. Bu da onunla nəticələndi ki, 1789-cu ildə dövlət başçısı imam Səid ibn Əhməd ibadilər təriqətinin dini ehkamlarının ziddinə olaraq, siyasi hakimiyyəti oğlu Həmidə verdi, imam mənsəbini isə özündə saxladı. Bu, güclü qarşıdurma doğurdu. Onu yatıra

bilməyən Həmid ibn Səid Masqata qaçdı. 1792-ci ildə onun ölümündən sonra imamın qardaşı Sultan ibn Əhməd özünü və varislərini Masqatın sultanı elan etdi. O, hakimiyyətini qorumaq üçün 1798-ci və 1800-cü illərdə Böyük Britaniya ilə sazişlər imzaladı və öz üzərinə birtərəfli öhdəliklər götürdü. Beləliklə də, ölkənin Oman adlanan hissəsi ibadilərin seçdiyi imam tərəfindən, Masqat adlanan hissəsi isə Əbu Səid ailəsindən olan sultan tərəfindən idarə olunmağa başladı. Oman iki yerə parçalanmış oldu.

Elə həmin dövrdən də bu iki ölkədə nüfuz, mövqe və ən başlıcası imtiyaz sahibi olmaq uğrunda Böyük Britaniya daha da fəallaşdı. Böyük Britaniyanın dəstəyi ilə Omanda hakimiyyətə gətirilmiş Turki ibn Sultan (1871-1888) dövründə əlaqələr o qədər genişləndi ki, onun oğlu Feysəllə (1888-1913) 1891-ci il martın 20-də dostluq, ticarət və dənizçilik haqqında saziş imzalandı.

Fransa da bu bölgədə müəyyən imtiyazlar əldə etməyə çalışırdı. Hətta o, hərbi güc təhdidi ilə müəyyən güzəştlərə yiyələndi, 1894-cü ildə Masqatda konsulluq açdı. Fransanın hərəkətləri Böyük Britaniya tərəfindən ciddi narazılıqla qarşılandı. Onların arasında münasibətlər kəskin xarakter aldı. İş o yerə çatdı ki, Rusiya da cərəyan edən prosesə qoşuldu və 1900-cu ildə bölgəyə hərbi-dəniz qüvvələri yeritdi. Oman və Masqatın de-yure bağlı olduqları Osmanlı və Qacarlar dövlətləri baş verənlərə qəti etirazlarını bildirməyə başladılar. Lakin onların fəaliyyəti bundan oyana getmədi.

1904-cü ildə Böyük Britaniya və Fransa arasında razılaşma imzalanması ilə Böyük Britaniya və Fransa-Rusiya arasındakı gərginliklər də səngidi. Böyük Britaniya Oman və Masqatda hegemon rolunu qoruyub saxlaya bildi.

Yeri gəlmişkən, bütövlükdə Oman üçün səciyyəvi olan belə bir məqamı da vurğulamaq istərdik ki, bu ölkənin siyasi və sosial-iqtisadi həyatında iki qəbilə-tayfa konfederasiyasının rolu həmişə böyük olmuşdur. Onlardan biri geneoloji baxımdan Nuh peyğəmbərin nəvəsi Qahtanın nəslindən olan hinavilər, digəri isə yenə də Nuh peyğəmbərin nəslindən olan ğafirilər idi. Konfederasiyanın hər birində müəyyən sayda qəbilələr birləşmişdi. Amma konfederasiyaya daxil olmayan qəbilələr də az deyildi. Onlar əsasən Zufar bölgəsində məskunlaşmışdılar. Qəbilələrdaxili və arası münasibətlər Körfəzin digər şeyxlik və əmirliklərindən heç nə ilə fərqlənmirdi.

Ölkənin idarə edilməsinə gəlincə, qeyd etmək lazımdır ki, onun Oman adlanan hissəsində imamət rejimi hakim idi. Başqa sözlə desək, dini və dünyəvi hakimiyyət siyasi-inzibati sistemin başında duran imama məxsus

idi. Yəni o, eyni zamanda ibadilər təriqətinin başçısı və ölkənin əmiri idi. Masqatda isə sultanlıq rejimi mövcud idi. Hakimiyyətin başında sultan dururdu və o, yalnız dünyəvi hökmdar sayılırdı.

Təbiidir ki, ölkənin bu şəkildə iki yerə bölünməsi Oman cəmiyyətinin ümumilikdə maraqlarına cavab vermirdi və ciddi narahatlıq yaradırdı. Xüsusilə də, sultan Feysəl ibn Turkinin Böyük Britaniya ilə tam bağlılığı, qəbilələrin təsərrüfat fəaliyyətini öz nəzarəti altına salmaq cəhdləri, omanlıların başlıca gəlir qaynaqlarından birisi olan silah ticarətinə qadağa qoyması, ibadilər təriqətinə xas olan ənənə və adətlərə etinasızlıq göstərməsi istər feodal-qəbilə əyanları, istərsə də din xadimlərinin güclü etirazları ilə qarşılanırdı. Məhz həmin qüvvələr də 1913-cü ilin mayında Tanuf şəhərində bir araya gəldilər və Omanın bütün ərazisində imamətin bərpa olunması və sultan Feysəl ibn Turkinin ibadilərin işlərinə qarışmasına son qoyulması haqqında qərar qəbul etdilər. Bu qərar faktik olaraq sultanın hakimiyyətdən uzaqlaşdırılması, başqa sözlə, ölkə əhalisinin bütünlüklə onun hakimiyyətindən çıxması demək idi. Narazı qüvvələr bir qədər də irəli gedərək ğafiri konfederasiyasının təmsilçisi Səlim ibn Rəşid əl-Harusi adlı şəxsi ölkənin imamı seçdilər. Sultandan narazı olan qəbilə-tayfa birlikləri və şəhərlilər imamın ətrafında birləşdilər və sultana qarşı silahlı mübarizəyə başladılar.

Sultan Feysəl və tərəfdarları bu yeni qruplaşma ilə bir müddət mübarizə apara bildilər. Lakin, sultan Feysəlin 1919-cu ilin sonlarında ölümündən sonra sultan olmuş oğlu Teymurun qüvvələri darmadağın edildi. 1920-ci ilin ortalarında Masqatdakı Böyük Britaniya konsulu Uinqeytin təzyiqi ilə sultan barışığa getməyə məcbur oldu. Həmin ilin 25 sentyabrında əs-Sib kəndində Oman və Masqat arasında sülh müqaviləsi imzalandı. Əs-Sib müqaviləsi imam tərəfdarlarının müəyyən mənada qələbəsi sayılsa da, hüquqi və siyasi cəhətdən ziddiyyətli bir sənəd idi. Burada imam və sultanın qarşılıqlı olaraq bir-birinin hakimiyyətini tanınması haqqında heç bir maddə yox idi. Onların ərazilərinin sərhədləri, eləcə də əhalinin miqrasiyası və ticarət mübadiləsi qaydaları müəyyənləşdirilmirdi. Dolayısı ilə tərəflər siyasi manevr üçün lazımi imkanlara malik olurdular. Ən başlıcası isə əs-Sib müqaviləsinin şərtlərinə görə, iki Oman dövlət qurumu siyasi cəhətdən bir-birindən ayrılmış olurdu. Bununla yanaşı, Masqatdan kənarda qalan bir sıra Oman qəbilələri, formal da olsa, sultanın hakimiyyətini qəbul edirdilər. Ümumiyyətlə isə, əs-Sib müqaviləsinin şərtləri əsasında ölkədə təşəkkül tapmış status-kvo 1932-ci ildə sultan Teymurun ölümündən sonra oğlu Səi-

din onu əvəzləməsinə qədər dəyişməz olaraq qalmaqda idi.

Yeni sultan hakimiyyətinin ilk günlərindən Böyük Britaniya ilə münasibətləri hərtərəfli inkişaf etdirmək kursu götürdü. 1932-ci ilin fevralın 10-da o, Körfəz zonası üzrə Böyük Britaniya siyasi nümayəndəsinə ünvanladığı məktubda özünün onun dövlətinə olan sədaqətini bir daha təsdiqlədi. Sultan eyni zamanda, hakimiyyətə gəlməsi haqqında məlumatı Böyük Britaniya hökuməti vasitəsilə XIX əsrdən Omanla müəyyən müqavilələr bağlamış ABŞ, Fransa və Hollandiyaya çatdırdı.

XX əsrin 30-cu illərinin ortalarında Omanda neft yataqları aşkarlandıqdan az sonra 1937-ci ilin iyununda sultan Səid burada neft axtarışı və çıxarılmasına dair konsessiyanı 75 il müddətində Böyük Britaniya şirkəti "İraq Petroleum Kompani"yə verdi. Həm də bu konsessiya hüququ yalnız sultanın hakimiyyəti altında olan ərazilərə deyil, eyni zamanda Oman, o cümlədən Zufara da şamil edilirdi. Əslində sultanın bu addımı imamlığa qarşı birinci açıq çıxış idi və onun nəticəsini çox gözləmək lazım gəlmədi. Artıq 1937-ci ilin oktyabrında Omanda olan narazı qüvvələrin başçılarından şeyx İsa ibn Saleh və onun oğulları Məhəmməd və Salehin sultana qarşı münastbətlərində səngimə yarandı. Bunun ardınca sultan Səid daha bir güclü əleyhdarı olan Əli ibn Abdullah əl-Hamudanı tərəfsizləşdirə bildi.

II Dünya savaşı illərində Masqat ərazisində Böyük Britaniya hərbi bazalarının qurulması sultanın nüfuzunu və maddi-texniki imkanlarını xeyli artırdı. Sultan ordusu atıcı silahlar və hərbi ləvazimatla təchiz olundu və xeyli qüvvətləndi.

Doğrudur, bütün bu illərdə imamlıqda daxili bir istiqrar saxlanılsa da və imam Səlim ibn Rəşid və onun xələfi imam Məhəmməd ibn Xəlili qəbilə-tayfa başçılarının hörmətini qazansa da, artıq II Dünya savaşının sonlarına yaxın vəziyyət dəyişməyə başladı. Sultanlığın getdikcə inkişaf etdiyini və gücləndiyini görən qəbilə-tayfa başçılarının bəziləri, xüsusilə də üləmalar imamlığı fəal müdafiə etmədilər. 1945-ci ilin martında həmin qüvvələr bir araya gəldilər və ibadilik ideologiyasına vahid Oman dövlətinin yaradılmasının fəlsəfi-siyasi əsası kimi sədaqətli olacaqlarını bildirdilər. Onlar Masqat sultanının təbəələri olmaq arzularını bəyan etməkdən də çəkinmədilər.

Bütün bu səbəblər üzündən Oman imamlığı və Masqat sultanlığı arasında münasibətlər gərginləşdi, əs-Sib müqaviləsinin şərtləri əhəmiyyətsiz səviyyəyə düşdü. II Dünya müharibəsindən sonrakı ilk illərdə onlardan biri digərinə düşmən kəsildi. Əlavə edək ki, həmin dövrdə regionda möhkəm-

lənmək uğrunda Böyük Britaniya – ABŞ rəqabəti də ölkədə daxili ziddiyyətləri daha da kəskinləşdirdi və bu rəqabət Omanın gələcək taleyinin müəyyənləşməsində başlıca amilə çevrildi.

Böyük Britaniya – ABŞ rəqabətinin əsasında zəngin neft yataqlarına yiyələnmək planları dayanırdı. Belə ki, II Dünya savaşı ərəfəsi və dövründə Böyük Britaniya Omanın neft yataqları üzərində öz inhisarını yaratmaq məqsədilə mümkün olan hər şeyi etmişdi və savaşdan sonrakı ilk illərdə də bu işi davam etdirirdi. "İraq Petroleum Kompani"nin yerli təmsilçisi "Petroleum Development of Oman" şirkəti ölkədə tam söz sahibi idi.

ABŞ neft şirkətləri isə çalışırdılar ki, nəyin bahasına olursa-olsun bu hala son qoysunlar və Omanın neft yataqlarının bir hissəsinə yiyələnə bilsinlər. Həmin məqsədlə onlar ölkənin daxili rayonlarında və Zufarda bəzi nüfuzlu qüvvələrlə əlaqə yarada bilmiş və onların köməyi ilə öz planlarını həyata keçirməyə çalışırdılar. Omanın heç bir hakimiyyətinə tabe olmayan Zufar əyalətinin ABŞ üçün xüsusi önəm daşıdığını da qeyd etmək istərdik.

O biri tərəfdən ABŞ neft şirkətlərinin dəstəyi ilə Səudi Ərəbistan mübahisəli əl-Bureymi vahəsinə iddialarını irəli sürdü. Bu məsələ haqqında irəlidə danışıldığından təkcə bunu əlavə etmək laxımdır ki, həm əl-Bureymiyə, həm də Zufara Səudi Ərəbistan ilə yanaşı Oman imamlığı və Masqat sultanlığı da iddialı idilər. Tərəflər arasında, - əl-Bureymi ilə əlaqədar Əbu Dabi də bura daxil olunmalıdır,- münaqişənin böyüməsi Böyük Britaniyanı çıxış yolları axtarmağa vadar etdi. O, 1950-ci ildə əl-Bureymi ilə əlaqədar Səudi Ərəbistanın əməlləri və iddialarına qəti etirazını bildirdi və məsələnin həlli üçün Səudi Ərəbistan ilə danışıqlar aparılmasını Əbu Dabi və Masqat rəhbərliyinin Böyük Britaniya hökumətinə həvalə etdiyini söylədi.

Vəziyyətin gərginləşməsindən yararlanmaq istəyən Oman imamlığında bəzi qüvvələrin törətdiyi çıxış və üsyanlara qarşı 1951-ci ilin sonlarında qəti hücuma keçildi və Masqat sultanının köməyi ilə onlar susduruldu.

Bu hadisə əslində Masqat sultanlığı və Oman imamlığı arasında silahlı toqquşmaların başlanğıcı oldu. Masqat-Böyük Britaniya münasibətləri daha da möhkəmləndi. Bu baxımdan 1951-ci il dekabrın 20-də tərəflərin "Dostluq, dənizçilik və ticarət haqqında" müqavilə imzalaması xüsusi əhəmiyyət kəsb etdi.

Böyük Britaniya ABŞ-a da müəyyən güzəştlərə getdi. Zufar əyalətində geoloji-kəşfiyyat işləri aparmaq üçün ABŞ şirkətlərinə konsessiya verildi. Onlar 1952-1953-cü illərdə həmin ərazidə zəngin neft yataqlarını aşkar etdi-

lər.

Bütün bunlara baxmayaraq mövcud mübahisələri həll etmək mümkün olmadı. Bir tərəfdən Səudi Ərəbistan nəinki iddialarından əl çəkdi, hətta 1952-ci il sentyabrın 1-də əl-Bureymini işğal etdi. Bu hadisə həm imamlıq, həm də sultanlıq tərəfindən kəskin etirazla qarşılandı. O biri tərəfdən imamlıq ərazisində ingilis şirkətlərinin neft axtarışı işləri aparması ehtirasları daha da alovlandırdı. 1954-cü ildə imam seçilmiş şeyx Qalib ibn Əli ingilis şirkətlərini həmin ərazidən çıxarmaq üçün ora silahlı dəstələr göndərdi. Səudi Ərəbistanın onu dəstəkləməsi isə imamı daha böyük planların gerçəkləşdirilməsinə həvəsləndirdi. O, beynəlxalq aləmdə imamlığın müstəqil dövlət kimi tanınmasına çalışdı. Həmin məqsədlə 1954-cü il noyabrın 25-də Ərəb Dövlətləri Liqası baş katibinə müraciət edildi. Artıq bu o zaman idi ki, Səudi Ərəbistanın əl-Bureymidən çıxmaq istəməməsi səbəbindən məsələ Beynəlxalq Arbitraj Məhkəməsinə verilmişdi və burada Omanı Böyük Britaniya təmsil edirdi. Tərəflərin güzəştsiz mövqeyi bəlli olduqda Böyük Britaniya məsələnin güc yolu ilə həllinə üstünlük verdi. 1955-ci il aprelin 25-də Müqaviləli Omanın hərbi dəstələri əl-Bureymiyə girdilər. Bunun ardınca isə 1955-ci il dekabrın 15-də imamın nəzarəti altında olan əraziyə qoşun yeridildi. Böyük Britaniyanın sultana hərbi yardımları və ingilis aviasiyasının döyüşlərdə birbaşa iştirakı imam Qalib ibn Əlinin məğlubiyyətini qaçılmaz etdi və onun planları arzu olaraq qaldı. Doğrudur, imama, eləcə də ayrı-ayrı qəbilə başçılarına məxsus qüvvələr xeyli müqavimət göstərə bildilər, bəzi qələbələr də qazandılar. Lakin ingilislərin artan siyasi və hərbi təzyiqlərinə sona qədər dözə bilmədilər. İmam Qalib ibn Əli və yaxın ətrafı Səudi Ərəbistana getməli oldular. Sonrakı illərdə sultan Səid ibn Teymurun qüvvələri, Zufar istisna olmaqla, ölkənin bütün ərazisini nəzarət altına ala bildi və orada sultanın hakimiyyətini bərqərar etdi. Beləliklə, Səid ibn Teymur Masqat hakimindən bütöv Oman sultanına çevrildi.

Bəllidir ki, bu məsələdə Böyük Britaniyanın rolu böyük idi. Həmin səbəbdən də sultan Böyük Britaniya ilə daha yaxın işbirliyinə başladı. Ölkənin iqtisadi və hərbi-siyasi həyatında ingilislərin iştirakı üçün hər cür şərait yaradıldı. Dövlət aparatında və orduda önəmli vəzifələr onlara verilirdi. Hətta hərbi nazir və Baş Qərargah rəisi vəzifələrini bir qayda olaraq ingilislər tuturdular. Ən başlıcası isə Böyük Britaniya Omanda hərbi bazalar qurmaq imkanı qazandı. Masira adasında və Səlalə şəhəri yaxınlığında inşa edilən hərbi-dəniz və hava bazalarının ərazisi 1958-ci ildə bağlanan müqaviləyə

görə 99 il müddətinə Böyük Britaniyanın icarəsinə verildi. Bunun əvəzində Oman hərbi yardım və silah almaq imkanı qazandı.

Bu da faktdır ki, baş verən proseslər ölkədə birmənalı qarşılanmırdı. Sultanı və onun Böyük Britaniya ilə işbirliyini dəstəkləyənlərlə yanaşı, mövcud duruma qarşı çıxanlar da var idi. Sonuncular istər siyasi, istərsə də sosial mənsubiyyət və düşüncə baxımından kifayət qədər fərqli qüvvələrdən ibarət idi, əsasən dini və dünyəvi qruplaşmalara bölünürdülər. Onlar təkcə hakimiyyətə qarşı yox, həm də bir-birinə qarşı mübarizə aparırdılar. Bu səbəbdən də ilk vaxtlar müxalifət qüvvələri cəmiyyətə güclü təsir etmək imkanında deyildilər. Bununla yanaşı onların təşkilatlanmaq, ölkədə yeni ideyalar yaymaq və tərəfdarlar toplamaq cəhdlərini qeyd etmək istərdik. Dini və dünyəvi təmayüllü müxalifət təşkilatlarının meydana gəlməsində qonşu ərəb ölkələrinin təcrübəsi böyük rol oynamışdır. Bu məsələdə xaricdə təhsil almış və ya işləmiş omanlıların xüsusi yeri vardı. Dini müxalifət daha çox "əl-İxvan əl-Müslimin" təşkilatının təsiri altında idi, dünyəvi təşkilatlar isə ərəb millətçiliyi və marksist ideyalarına söykənirdi.

Ərəb millətçiliyi ideologiyası siyasi şüurun oyanmasında getdikcə başlıca amilə çevrilirdi və o, 1951-ci ildə yaranmış Ərəb Millətçiləri Hərəkatı[1] təşkilatının vahid ərəb dövləti qurmaq, iqtisadi müstəqillik, sosial bərabərlik və azadlıqlar uğrunda mübarizə, "ərəb sosializmi" və s. ideyalarını ehtiva edirdi.

Marksist təşkilatlar arasında Oman və Körfəz Milli Azadlıq Cəbhəsinin mövqeləri və nüfuzu daha güclü idi. Bu təşkilat ölkənin bir sıra yerlərində fəaliyyət göstərirdi. Ancaq Zufarda olan durum həmin təşkilatın burada xüsusi əl-qol açmasına geniş imkanlar yaratmışdı. İmamlıq ərazisində sultana qarşı silahlı müqavimətin dayandırılmasından sonra mübarizə mərkəzi olaraq Zufarın seçilməsi bu məsələdə xüsusi önəm daşıyırdı. 1965-ci il iyunun 5-də buradakı qruplaşmalar Zufar Azadlıq Təşkilatını (ZAT) yaratdılar. ZAT silahlı mübarizəni "ən səmərəli vasitə" elan etdi və "sultana və ingilis müstəmləkəçilərinə" qarşı mübarizə üçün dəstələr hazır vəziyyətə gətirildi. İyunun 9-da onlar hökumət qüvvələrinə hücum etdilər və beləliklə də xeyli davam edən silahlı qarşıdurma başlanmış oldu. 1966-cı aprelin 22-də sultana sui-qəsd cəhdi edildi. Üsyançılar Zufara nəzarəti öz əllərinə keçirdilər və qonşu Yəmən Xalq Demokratik Respublikasının yaxından köməyi ilə yalnız Omanda deyil, bütün Körfəzdə mövcud rejimləri devirməyi başlıca

1.Qeyd: Bu təşkilat 1969-cu ildən sonra dağıldı.

vəzifə elan etdilər. 1968-ci ildə ZAT-ın təşəbbüsü ilə Körfəz ölkələrindəki eyni qayəli qüvvələrin birləşməsi baş tutdu. Yeni təşkilat Oman və Körfəzin Milli Azadlıq Cəbhəsi adlandı. Az sonra bu təşkilatın mübarizə taktikası dəyişdi. Partizan dəstələrindən Milli Azadlıq Ordusu yaradıldı, partizan əməliyyatlarından mütəşəkkil və aramsız mübarizəyə keçildi. Ələ keçirilən ərazilərdə təşkilatın hakimiyyət strukturları yaradıldı. Qeyd edək ki, təşkilat qonşu marksist YXDR-dan aldığı yardımlar hesabına getdikcə qüvvətlənirdi və region ölkələri üçün təhlükə mənbəyinə çevrilirdi. Bu vəziyyət 1974-cü ildə İranın bölgəyə bir neçə minlik hərbi korpus çıxarmasına və təşkilatın silahlı qüvvələrini darmadağın etməsinə qədər davam etdi.

Həmin vaxt kəsiyində Oman və Böyük Britaniya hakimiyyətləri də məsələni çözmək haqqında düşünürdülər. Sonucda Böyük Britaniya artan narazılığı səngitmək və siyasi-iqtisadi maraqlarını qorumaq naminə regiondan öz hərbi qüvvələrini çəkməyə qərar verdi. Bu haqda baş nazir H.Vilsonun 1968-ci il tarixli bəyanatı haqqında irəlidə bəhs olunmuşdur. Əlavə etmək istərdik ki, qoşunları çıxarmaq və Körfəzdəki hərbi bazaları ləğv etmək planı Omana da şamil edilirdi.

O biri tərəfdən Oman hakimiyyətində müəyyən qüvvələr də sultanın mövcud problemlərin həllində ciddi addımlar ata bilməməsindən narazı idilər. Bu səbəbdən də onlar Böyük Britaniyanın dəstəyi ilə 1970-ci il iyulun 23-də dövlət çevrilişi etdilər və qocalmış sultan Səid ibn Teymurun yerinə oğlu Qabus ibn Səidi gətirdilər. Avqustun 9-da ölkənin rəsmi adının Oman sultanlığı olduğu bildirildi.

Sultan Qabus ilk vaxtdan özünü güclü bir dövlət başçısı kimi göstərdi. Ölkədə siyasi və sosial istiqrarın davamlı olması üçün möhkəm hakimiyyət yaratdı. İdarə orqanlarını rüşvətxor və korrupsiyaya qoşulmuş məmurlardan təmizlədi, bir sıra sosial-iqtisadi xarakterli tədbirlər gördü. Əmisi Tariq ibn Teymurun başçılığı ilə nazirlər kabinetini və yaxın adamlarından ibarət Müvəqqəti Şuranı formalaşdırdı. Sultanın ölkədə olmadığı dövrdə onun səlahiyyətlərini icra edən Müvəqqəti Şuranın tərkibində ingilislər də vardı və hətta onun sədri Omanın hərbi naziri olan ingilis zabiti Hyu Oldmen idi. Xarici siyasi əlaqələrdə Böyük Britaniya ilə yanaşı ABŞ, Səudi Ərəbistan və İrana da önəm verildi.

1971-ci ildə Qabus bir sıra ərəb dövlətinə səfər etdi və Ərəb Dövlətləri Liqasına girmək üçün onların dəstəyini aldı. Omanın oktyabrda BMT-yə, həmin ilin sentyabrında ƏDL-ə üzv olması, dekabrda sultan Qabusun ər-

Riyadda kral Feysəl ilə görüşməsi və Körfəzdəki müxtəlif qayəli separatçı qüvvələrlə mübarizədə əməkdaşlıq haqqında razılığın əldə edilməsi, Səudi Ərəbistanın imam Qalib və tərəfdarlarını dəstəkləməkdən əl çəkməsi sultanın böyük uğurları idi. Ərəb ölkələrinə səfərində sultan panərəbizm və panislamizm ideallarına sadiq olduğunu, Fələstin xalqını müdafiə etdiyini və onun müdafiəçiləri ilə bir sırada dayandığını bildirdi, YXDR-in tutduğu kursu xəyanət adlandırdı.

1971-ci ilin oktyabrında İrana səfər edən Qabus Körfəzdə istiqrarın birgə qorunması haqqında şahla razılığa gəldi. Körfəzdə Əbu Musa, Böyük və Kiçik Tomb adalarına İranın suverenliyinin şamil edilməsi, ərazi suları sərhədlərinin dəqiqləşdirilməsi, onun hərbi və mülki gəmilərinin Oman limanlarına sərbəst girməsi və s. müqabilində İran Zufardakı separatçılara qarşı hərbi qüvvə göndərdi. 1973-cü il dekabrın 23-də üç min nəfərlik paraşütçü dəstələri piyadaların və ingilis aviasiyasının köməyi ilə hücuma başladı və 1974-cü ilin yanvarında çox mühüm strateji məntəqə – Rahyut limanı tutuldu.

Sultan Qabus eyni zamanda öz hərbi qüvvələrinin yenidən təşkili, ordunun müasir silah və texnika ilə təchizinə də xüsusi önəm verdi. 1975-ci ildə orduda xidmət edənlərin sayı üç dəfə artaraq 12 min nəfərə çatdı.

Oman və Körfəzin Milli Azadlıq Cəbhəsinin, - o, 1974-cü ilin ortalarından Oman Xalq Azadlıq Cəbhəsi adlanırdı, - bütün qüvvələrini toplayaraq müqavimət göstərmək cəhdləri sultan və İran orduları tərəfindən asanlıqla dəf edildi. Əsas qüvvələri darmadağın olduqdan sonra Cəbhə bəzi kiçik dəstələri keçilməz dağ məntəqələrində yerləşdirdi, qalanlar isə YXDR ərazisinə keçdilər.

Sonrakı illərdə də Cəbhə ara-sıra basqınlar təşkil etmək və ya bəyanatlar verməklə var olduğunu bildirməyə çalışırdı. Lakin bütün bunlar əbəs idi. Sultan Qabus, demək olar ki, ölkənin bütün ərazisinə nəzarəti öz əlinə götürmüşdü və onun siyasi kursu ərəb və Batı dövlətləri tərəfindən dəstəklənirdi. Bu işdə YXDR amilinin də az rol oynamadığını söyləmək lazımdır.

1975-ci ilin yanvarında Qabusun ABŞ-a səfəri zamanı siyasi və hərbi əlaqələrin daha da genişləndirilməsi haqqında əldə edilən razılaşmalar iki dövlət arasında sonrakı yaxınlaşmanın təməli oldu. Təsadüfi deyildir ki, 1979-cu il islam inqilabından sonra İran hərbi qüvvələrinin Omandan çıxarılması səbəbindən Körfəzdə təhlükəsizliyi qorumaq üçün sultan Qabus ABŞ-a üz tutdu. 1980-ci ilin ortalarında iki dövlətin müdafiə, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlıq haqqında razılığa gəlməsi ilə ABŞ hərbi

qüvvələri Omanın hərbi baza və limanlarından istifadə hüququ qazandı. ABŞ Omana lazımi miqdarda silah verməyi də öhdəsinə götürdü. Tərəflər arasında 1981-ci ildə bağlanan saziş isə sırf hərbi əməkdaşlığı nəzərdə tuturdu, ölkənin hərbi bazalarında ABŞ hərbi təyyarələrinin və digər hərbi texnikanın yerləşdirilməsinə icazə verirdi. 1985-ci ilə qədər ABŞ Omanın hərbi baza və aerodromlarının yeniləşdirilməsi və əlavə yardımçı strukturların yaradılmasına 300 milyon dollar civarında xərc qoydu.

Oman Böyük Britaniya ilə də hərbi əməkdaşlığı davam etdirir və genişləndirirdi. Orduda ən mühüm vəzifələrdə yenə də ingilislər çalışır, müqavilə ilə xidmət edənlərin sayı isə ildən-ilə artırılırdı. Həmin illərdə bu rəqəm 1000-i keçmişdi. 1980-ci ildə bağlanan sazişə görə Böyük Britaniya Omana ən müasir qırıcı-bombardmançı təyyarələr, zenit-raket kompleksləri və digər texnika verdi.

Sultan Qabus ərəb həmrəyliyinə daxili siyasi istiqrarın saxlanması amillərindən biri kimi baxır və bütün hallarda ona sədaqət göstərirdi. Bu baxımdan Yaxın Doğu probleminin həlli yolunda ümumərəb mövqelərinin birmənalı şəkildə müdafiə edilməsi, İsrailin 1982-ci ildə Lübnana müdaxiləsinin pislənilməsi, Misir ilə qarşılıqlı müdafiə müqaviləsinin imzalanması və s. misal gətirmək olar.

1981-ci ildə Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının (KƏDƏŞ) yaradılmasından sonra Oman təşkilatın üzvü kimi digər üzv dövlətlərlə hər cür münasibətlərin, xüsusilə də hərbi sahədə əməkdaşlığın dərinləşməsində maraqlı oldu.

Ən mühüm hadisələrdən biri 1982-ci ildə YXDR ilə münasibətlərin əsas prinsipləri haqqında sazişin imzalanması idi. Bir il sonra tərəflər diplomatik əlaqələr qurdular. 1986-cı ildə qonşu ölkədə şəraitin gərginləşməsi dövründə Oman Güney Yəmənin daxili məsələlərinə qarışmadı.

Həmin illərdə önəm verilən məsələlərdən birisi də dövlət hakimiyyət strukturlarının möhkəmləndirilməsi və inkişaf etdirilməsi idi. 1972-ci ildən sultan Qabus baş nazir vəzifəsini də öz üzərinə götürdü. Neft və mineral ehtiyatlar, rabitə, əmək və sosial məsələlər, energetika və s. sahələr üzrə yeni nazirliklər və təsisatlar yaradıldı. Ali qanunvericilik hakimiyyəti də sultana məxsus idi.

1981-ci ilin oktyabrında yaradılan Məsləhət Şurası ölkənin planlaşdırma, sosial və iqtisadi problemlərini müzakirə edib tövsiyələr vermək funksiyası daşıyırdı. İlk vaxtlar o, 45 nəfərdən ibarət idi. 1983-cü ildə üzvlərin

sayı 55-ə çatdırıldı. Onlardan 36-sı əyalətlərin təmsilçiləri, 19 nəfəri isə sultanın yaxın adamları idi.

XX əsrin 80-ci illərində istər mərkəzdə, istərsə də əyalətlərdə idarə orqanlarının işinə nəsli qəbilə-tayfa elitasının təmsilçiləri ilə yanaşı, neft sənayesinin inkişafı nəticəsində üzə çıxmış yeni sosial təbəqələrin də nümayəndələri cəlb olunurdu. Ümumiyyətlə isə, hakimiyyətin "omanlaşdırılması"na xüsusi diqqət verilirdi. Əyalətlərdə ənənəvi qəbilə-tayfa idarəçiliyi tədricən aradan qaldırılır və mərkəzi hakimiyyətin yerli strukturlarının rolu artırılırdı. Sayı əvvəlcə 10, sonra isə 41-ə çatdırılan əyalətlər sultanın təyin etdiyi valilər tərəfindən idarə olunurdu. Yerli özünüidarə orqanı kimi bələdiyyə komitələri daha demokratik təməllərə söykənirdi və rəsmi dövlət kursunun həyata keçirilməsində daha səmərəli idi.

Ordu quruculuğuna da böyük önəm verilirdi. Hərbçilərin sosial və maddi ehtiyacları ən yüksək səviyyədə ödənildiyindən orduda xidmət edən muzdluların sayı ildən-ilə artırdı. 1985-ci ildə 25 min nəfərlik ordunun və digər təhlükəsizlik qüvvələrinin saxlanılması xərcləri 2 milyard dollar civarında olub büdcənin 35%-ni təşkil edirdi. Ordu ən modern texnika ilə təchiz olundu.

Hərbi sahəyə diqqətin və maliyyə xərclərinin artırılmasına həmin dövrdə Körfəzdə baş verən proseslərin, xüsusilə də İraq-İran savaşının güclü təsiri vardı. Oman bir ərəb dövləti kimi İraqı dəstəkləsə də, İrana qarşı mülayim mövqedə dururdu. Təsadüfi deyildir ki, savaş bitdikdən sonra 1989-cu ilin martında Oman-İran birgə iqtisadi əməkdaşlıq komissiyası yaradıldı.

Omanın iqtisadi siyasətinə gəlincə isə qeyd edilməlidir ki, o, öz təməl prinsipləri baxımından Körfəzin digər ərəb ölkələrindəki kimi olmuşdur. Lakin burada özəl kapitalın fəaliyyətinə daha çox dəstək verilirdi. Xarici kapitalın ölkəyə cəlb edilməsi, iqtisadi planlaşdırma, - ilk beşillik plan 1976-cı ildə qəbul olunmuş və sonralar da davam etdirilmişdir,- neft hasilatına önəm verilməsi və bu zəmində yeni sənaye və xidmət infrastrukturunun qurulması, aqrar sahəyə diqqətin artırılması və s. məsələlər iqtisadi həyatın başlıca cəhətlərinə çevrildi.

Həmin illərdə büdcə gəlirləri əsasən neft və qaz sənayesinin hesabına ödənilirdi, 7 milyard dollar civarında olan ümumi milli gəlirin 65%-i, valyuta gəlirlərinin 80%-i və ixracatın 96%-i məhz həmin sahələrin payına düşürdü. Çox keçmədi ki, illik neft hasilatı 20 mln t çatdı. Neft geoloji-

kəşfiyyat işlərini "ARAMKO", "Britiş Petroleum" və digər xarici şirkətləri aparsa da, hasilat işləri yerli "Petroleum Development of Oman" şirkətinin inhisarında idi. 1974-cü ildən həmin şirkətin səhlərinin 60%-i sultanın timsalında Oman dövlətinə, qalanları isə xarici şirkətlərə məxsus idi. Qaz sənayesi sahəsində isə həm geoloji-kəşfiyyat, həm də hasilat işləri ilə "Petroleum Development of Oman" şirkəti məşğul olurdu. İllik qaz hasilatı 4 mln kub m həcmində idi.

Neft emalı zavodları, mis əritmə kombinatı, sement zavodları və s. sənaye müəssisələri işə salındı və yardımçı infrastrukturlar yaradıldı. İri sənaye komplekslərinin inşasına özəl şirkətləri cəlb etmək üçün dövlət hər cür şərait yaratmışdı. Onlara elektrik enerjisi ən ucuz qiymətlərlə satılır, 20 ildən az olmayan müddətə imtiyazlı şərtlərlə, bəzən hətta faizsiz borclar verilirdi.

Bütün bunların nəticəsində ölkədə ən çağdaş istehsal sahələri, müəssisələri və kommunikasiya sistemi yaradıldı. Şosse yolları çəkildi, limanlar genişləndirildi və inşa edildi, neft terminalları işə salındı. 1971-ci ildə ölkədə cəmisi 10 km asfaltlanmış yol var idisə, bu rəqəm 1986-cı ildə 3,3 min km çatdı.

Aqrar sahənin inkişafına diqqət artırıldı. XX əsrin 70-ci illərdə ümumi milli məhsul istehsalında kənd təsərrüfatının payı 4% idi. Ancaq işləyən əhalinin 70%-i bu sahədə çalışırdı. Əkin sahələri 40 min ha, yəni ölkə ərazisinin cəmi 1%-i təşkil edirdi. Həmin səbəbdən sultan 1972-ci ildə belə bir fərman verdi ki, kəndlilər yararlı hala saldıqları 1 fəddan torpaq sahəsini ucuz qiymətlə öz mülklərinə çevirə bilər və ya 5 fəddana qədər torpağı 49 il müddətinə icarəyə götürə bilərlər. İstehsal fermaları və aqrar inkişaf mərkəzlərinin yaradılması, kəndlinin aqrotexniki xidmət, texnika və mineral gübrələrlə təchizi öz bəhrəsini verdi, aqrar sahədə canlanma başlandı.

Sosial ehtiyacların ödənməsi baxımından Oman qonşu Körfəz dövlətlərinin yolu ilə getdi. Pulsuz təhsil və tibbi xidmət, bu sahədə tələb olunan strukturların yaradılması, xüsusilə də ali təhsil müəssisələrinin inşa edilməsi və işə başlaması təcrübəsi geniş yayılmışdı.

XX əsrin 90-cı - XXI əsrin ilk illərində də Omanın istər daxili siyasi-iqtisadi, istərsə xarici siyasəti dəyişilməz olaraq qaldı. Lakin həmin vaxt kəsiyində dünyada və regionun özündə baş verən hadisələr bəzi korrektələri də zəruri etmişdir. Belə ki, 1990-cı il avqustun 2-də İraqın Küveyti işğal etməsi səbəbindən ABŞ başda olmaqla İraqa qarşı yaranmış koalisiyanın sıraları-

na digər Körfəz ölkələri ilə yanaşı Oman da qoşuldu, çoxmillətli hərbi qüvvələr tərkibində onun hərbi dəstələri də iştirak etdi. Doğrudur, İraq məğlub edildi və geri oturuldu. Lakin o da bəlli oldu ki, Körfəz ölkələrinin kollektiv təhlükəsizlik sistemi yaratmaq sahəsində gördüyü işlər o qədər də səmərəli olmamışdır. Həmin səbəbdən də Körfəzin ərəb ölkələri yeni regional təhlükəsizlik konsepsiyası hazırladılar. Öz qüvvələrinə güvənmək prinsipinə önəm verməklə yanaşı, onlar bu məsələdə beynəlxalq güc mərkəzlərinin təminatının zəruriliyini də birmənalı şəkildə qəbul etdilər. ABŞ başda olmaqla Avropa dövlətləri ilə hərbi sahədə ciddi yaxınlaşma Omanın da başlıca siyasəti oldu. 1991-ci ildən başlayaraq hərbi bazaların ABŞ-ın istifadəsində saxlanılması, onun hərbi hava və dəniz qüvvələrinin burada yerləşməsi və ABŞ-dan ən müasir hərbi texnika və sursatın alınması haqqında bir sıra müqavilələr bağlandı, ABŞ-la strateji müttəfiqliyə nail olundu. Silah alınması haqqında Avropa dövlətləri ilə də sazişlər imzalandı.

Bununla yanaşı, ölkə daxilində siyasi istiqrarın möhkəmləndirilməsinə də önəm verildi. 1991-ci ildə Məsləhət Şurası Məşvərət Şurası ilə əvəz edildi. Məşvərət Şurasının hüquq və səlahiyyəti xeyli genişləndirildi. Omanın sosial-iqtisadi inkişafı ilə bağlı bütün qanunlar mütləq bu Şurada müzakirədən keçməli idi. O, hətta nazirlərin hesabatını tələb edə bilirdi. Şura üzvlərinin sayı 60 nəfər idi. Onlardan 59-u əyalətlərin əyanları, şeyxləri tərəfindən seçilir, 60-cı üzv sultan tərəfindən təyin edilirdi və o, Şuranın sədri olurdu.

Dövlət idarəçiliyi sahəsində ən mühüm hadisə 1996-cı ildə Omanın ilk konstitusiyasının qəbulu sayılmalıdır. Konstitusiyaya görə qanunvericilik səlahiyyəti sultana məxsusdur və o, həm də hökumətə başçılıq edir. Məşvərətçi orqan isə iki palatalı oldu. O, Məşvərət Şurasından (83 üzv) və Dövlət Şurasından (48 üzv) ibarət idi. Məşvərət Şurasının üzvləri əyalətləri təmsil edirdilər və seçilirdilər. Qeyd edək ki, seçki hüququna 2001-ci ildə sayı 2.622.000 nəfər olan Oman əhalisindən (onlardan yarım milyonunun vətəndaşlığı yox idi – müəl.) yalnız 175 min nəfəri malik idi və bu hüquq hökumət tərəfindən müəyyən edilirdi. Dövlət Şurasının üzvlərini sultan təyin edirdi. Hər iki Şura üzvlərinin səlahiyyət müddəti 3 il idi və onlar təkrar seçilə bilərdilər.

XX əsrin 90-cı illərinin əvvəllərindən iqtisadi siyasətdə də yeni mərhələ başlandı və o, davamlı inkişafla səciyyəvi və bu siyasət struktur islahatları ilə müşaiyət olunmuşdur. Əgər, bu beşillik plandan öncə iki - 1970-1986-cı illəri əhatə edən birincisi, ekstensiv inkişaf, 1986-1990-cı illəri əhatə edən

ikincisi isə, modernləşdirmə ilə yadda qalmışdırsa, 1991-ci ildə qəbul edilmiş növbəti beşillik (1991-1996-cı illər) planda başlıca diqqət ölkə iqtisadiyyatının neftdən asılılığına son qoymağa, əyalətlərin inkişafına önəm verməyə və təhsilə sərmayə qoyuluşunun artırılmasına yönəldildi.

1991-ci ildə zəngin qaz, sonrakı illərdə mis, nikel və xrom filizləri, xüsusilə ümumi ehtiyatı 22 mln t olan daş kömür mədənlərinin aşkar edilməsi və istifadəyə verilməsi ölkədə yeni sənaye sahələrinin yaradılmasına təbii bir imkan yaratdı.

Aqrar sahənin inkişafı zəminində ölkənin ərzaq məhsulları idxalına olan ehtiyacları xeyli aşağı düşdü.

Özəl bölmənin dəstəklənməsi və onun fəaliyyətini genişləndirmək üçün lazım olan bütün vasitə və imkanların yaradılması bu bölməni davamlı inkişaf qaynaqlarından birinə çevirdi. Bütün bunların nəticəsində Küveyt savaşının vurduğu zərbələr tez bir zamanda aradan qaldırıldı. Faktlara diqqət yetirək: 1993-cü ildə neft ixracından 10 mld dollar civarında gəlir oldu və bu savaşdan öncəki rəqəmdən artıq idi. Dağıdılmış neft emalı müəssisələri bərpa edildi və 1995-ci ildə onların istehsal gücü savaş öncəki səviyyəyə çatdı. 2000-ci illərin sonlarında gündə 2,2 mln barrel neft hasil edən Omanın neft ixracından illik gəliri 13,5 mld dollar civarında olmuşdur. 1996-2000-ci illərdə iqtisadi inkişaf tempi dəyişməmişdi və ölkənin 2020-ci ilə qədər inkişaf perspektivləri haqqında qəbul olunan planda da mövcud kursun davam etdirilməsi nəzərdə tutulmuşdu.

Xarici siyasətə gəlincə, Oman sözügedən illərdə "siyasi reallıq" amilinə üstünlük verməyə başladı və təbiidir ki, bu da onun müttəfiqlərini razı salırdı. İraqın Küveyt avantürasından sonra Körfəz ərəb ölkələrinin daha çox Səudi Ərəbistan ətrafında cəmləşməsi qaçılmaz oldu. Bu isə İranı rahatsız edirdi və regionda bir sıra mübahisəli məsələlərin yenidən üzə çıxmasına gətirdi.

Siyasi şəraitin hər an təhlükəli forma alacağından ehtiyatlanan Oman öz qonşuları ilə olan problemlərini həll etdi. 1992-ci ildə Yəmənlə, 1995-ci ildə Səudi Ərəbistan ilə sərhədlərin demarkasiyası haqqında sazişləri təsdiq etdi. Ərəb dövlətləri ilə əlaqələrini gücləndirdi. Fələstin probleminin həllində ümumərəb mövqeyində durmaqla yanaşı, İsraillə iqtisadi münasibətlər qurdu. Hətta 1994-cü ildə Masqatda İsrailin ticarət nümayəndəliyi fəaliyyətə başladı.

ABŞ, Böyük Britaniya, Fransa, Rusiya Federasiyası, Yaponiya, Çin və

digər Asiya ölkələri ilə çoxşaxəli münasibətlərin genişləndirilməsi Oman xarici siyasətinin əsas məzmununu təşkil edirdi. ABŞ və Batı dövlətləri ilə hərbi əməkdaşlıq və müttəfiqlik ildən-ilə gücləndi.

11 sentyabr 2001-ci il hadisələri və ondan sonrakı dövrdə də Oman öz strateji kursuna sədaqətli oldu və beynəlxalq terrorizmə qarşı mübarizədə müttəfiqləri ilə bir sırada dayandı. 2001-ci il noyabrın 28-də Masqatda keçirilən toplantıda Taliban rejimindən sonrakı dövrdə Əfqanıstana yardım göstərmək haqqında qərar verən altı ərəb ölkəsindən biri də Oman oldu. 2001-ci ildə ABŞ-ın başladığı antiterror əməliyyatına qoşulan Oman Əfqanıstanda Taliban rejiminə qarşı vuruşan amerikan qoşunlarına sultanlığın ərazisindən istifadə etmək hüququ verdi.

XXI yüzilliyin əvvəllərində baş vermiş məlum hadisələrdən sonra Oman sultanlığının daxili və xarici siyasətində bir sıra dəyişikliklər özünün göstərdi. Oman ABŞ-ın yaratdığı antiterror koalisiyasına rəsmi olaraq qoşulduğunu bildirdi. Bununla belə sultanlıq regional və ərəblərarası ziddiyyətlərdən kənar durmağa çalışır, ölkədaxili sabitliyin və təhlükəsizliyin qorunmasınna, xüsusi ilə də daxili problemlərin çözülməsinə daha çox önəm verirdi.

Omanın xarici siyasətinin əsas istiqamətlərindən biri KƏDƏŞ üzvü dövlətlər ilə əməkdaşlığın dərinləşdirilməsi, qurum çərçivəsində inteqrasiya proseslərinin inkişafı, onların başlıca regional və beynəlxalq problemlərlə bağlı mövqelərinin uzlaşdırılmasından ibarət idi. Omanın Ərəbistan yarımadasında yerləşən dövlətlərlə ərazi mübahisələrini əsasən həll etməsi, 1992-ci ildə Yəmənlə, 2003-cü ildə isə BƏƏ ilə müvafiq sazişlər imzalaması regional sabitliyə xidmət edirdi.

Omanın xarici siyasətində prioritet istiqamət kimi İranla ikitərəfli siyasi və iqtisadi münasibətlərin inkişafı mühüm əhəmiyyət kəsb edirdi. İslam inqilabından sonra 2009-cu ildə sultan Qabus ilk dəfə Tehrana rəsmi səfər etdi. Bu səfər M.Əhmədinejadın ikinci prezidentlik dövrünün başlanması ilə üst-üstə düşmüşdü və davam etdiyi günlərdə sultan İranın nüvə enerjisindən dinc məqsədlərlə istifadə etməsi hüququnun olmasını, eyni zamanda nüvə silahının əldə etməsinə qarşı olduğunu bəyan etmişdi. Buna baxmayaraq o, İranın nüvə potensialının hərbi yolla ləğv edilməsini səhv addım kimi qiymətləndirmiş və bunun regiondakı vəziyyətin daha da gərginləşməsinə yol açacağından ehtiyatlandığını bildirmişdi. 2010-cu ildə Omanla İran arasında hərbi sahədə əməkdaşlığı, o cümlədən iki dövlətin ordularının birgə tə-

limlər keçirməsini nəzərdə tutan yeni saziş imzalandı. Ölkələr arasında ikitərəfli ticari-iqtisadi əlaqələr də uğurla inkişaf edirdi. Bunu İranın Omana ixracının həcminin 40% artması aydın şəkildə göstərirdi.

Oman sultanlığı ənənəvi batıyönlü xarici siyasət kursuna sadiq qalaraq ABŞ və Böyük Britaniya ilə hərbi-siyasi əməkdaşlığı davam etdirilirdi. ABŞ-la strateji tərəfdaşlıq sultanlığın milli təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyətə malik idi. Bununla belə hakimiyyət amerikan hərbi bazalarının ölkədə qalmasında israrlı olsa da, onlardan İrana qarşı istifadə edilməsinə imkan verilməyəcəyini ABŞ-ın nəzərinə çatdırırdı. Öz növbəsində ABŞ da bölgədəki strateji maraqları baxımından Omanın əhəmiyyətini nəzərə alaraq onun İranla əlaqələrinə loyal yanaşır, hətta lazım gələndə bu kanal vasitəsilə İranla təmas da yaradırdı. 2003-cü ildə İraq rejiminə qarşı hərbi əməliyyatların keçirilməsi məqsədilə Omanda ABŞ-ın hərbi-hava qüvvələri yerləşdirildi.

Dünyanın böyük dövlətləri sırasında Omanın Çinlə siyasi və iqtisadi əlaqələri yetərincə yaxşı inkişaf edirdi. Çoxşaxəli Oman-Rusiya əməkdaşlığı da xeyli genişləndi. Oman rəhbərliyi Asiya qitəsinin aparıcı dövlətlərindən olan Hindistan, Türkiyə və Pakistanla da əlaqələrin inkişafına və genişlənməsinə xüsusi önəm verirdi. Balanslaşdırılmış xarici siyasət kursu Omana tərəfdaşlarının sayını artırmağa imkan verirdi.

1996-cı ildə qəbul edilmiş Əsas Statusa (konstitusiya) əsasən Omanda 2003-cü və 2007-ci illərdə Məşvərət Şurasına seçkilər keçirildi. Bununla belə, ölkənin daxili siyasi inkişafı və siyasi sistemin demokratikləşdirilməsi istiqamətində zəruri addımlar atılmırdı. Təsadüfi deyildi ki, "Ərəb baharı"nın təsiri altında 2011-ci ilin fevralında Omanda baş verən hadisələr nəinki sultan hakimiyyətinin, eləcə də Ərəbistanın digər monarxiyalarının təşvişinə səbəb oldu. Etiraz aksiyaları ilk olaraq Masqat, Sohar və Səlala şəhərlərində başladı. İştirakçılar əsasən qiymətlərin aşağı salınması və işsizliyin qarşısının alınması kimi sosial-iqtisadi xarakterli tələblər irəli sürürdü. Siyasi tələblər sırasında ölkədə islahatların keçirilməsi, müstəqil məhkəmə sisteminin yaradılması, parlamentin səlahiyyətlərinin artırılması və s. göstərmək olardı. Sultan Qabus etiraz dalğasının səngiməsi üçün bir sıra addımlar atdı. İlk növbədə zəruri tələbat mallarının və ərzağın qiymətləri aşağı salında, işsizliyə görə müavinətlərin həcmi artırıldı və s. Hökumət həmçinin maaşların artırılmasına və 50 minə yaxın işsizin işlə təmin olunmasına vəd verdi və bu məqsədlər üçün 2,6 mlrd dollar vəsait ayırdı. Etiraz dalğasının yatırılma-

sı, ölkədə zəruri sosial proqramların həyata keçirilməsi və evsizlərin evlə təmin edilməsi üçün KƏDƏŞ xətti ilə Omana 10 mlrd dollar məbləğində yardım edildi.

Hakimiyyət strukturlarında edilmiş dəyişikliklər nəticəsində hökumətin tərkibindəki 6 nazir istefaya göndərildi. Parlamentin yenidən formalaşdırılması üçün xüsusi komissiya yaradıldı. Sultanın fərmanı ilə 13 mart 2011-ci ildə Məşvərət Şurasına qanunvericilik səlahiyyətləri verildi. 15 sentyabr 2011-ci ildə isə 84 nəfərlik Şuraya seçkilər keçirildi. İlk dəfə olaraq Şuraya 1 qadın və etirazçıların üç nümayəndəsi seçildi. Noyabrda isə sultan Qabusun xüsusi fərmanı ilə Şura rəsmi olaraq qanunverici və nizamlayıcı səlahiyyətlər aldı.

2011-ci ilin oktyabrında Sultan Qabusun xüsusi fərmanı ilə Əsas Qanunda vəliəhdin müəyyənləşdirilməsi qaydalarına düzəliş edildi. Düzəlişə görə, hakim ailə taxt-tacın boşalmasından sonra üç gündən gec olmayaraq Sultanın xələfini təsdiqləməli idi. Əgər namizədlə bağlı yekdil qərar qəbul edilməzsə, onda Müdafiə, Dövlət və Məşvərət Şuraları, Ali Məhkəmənin sədri və onun iki müavinindən ibarət heyətə Sultanın özünün tövsiyə etmiş olduğu və adı möhürlənmiş zərfdə saxlanılan namizədi vəliəhd elan etmək hüququ verilirdi.

Beləliklə, görülmüş tədbirlər sultanlıqda vəziyyəti stabilləşdirdi, baş verən hadisə və proseslərin rejim üçün arzuolunmaz istiqamətdə və məcrada inkişafının qarşısını aldı, böhranın nəticələrini aradan qaldırdı.

MÜNDƏRİCAT

GİRİŞ .......... 3
İRAQ .......... 19
SURİYA-LÜBNAN .......... 71
SURİYA .......... 80
LÜBNAN .......... 111
FƏLƏSTİN .......... 139
URDUN .......... 184
SƏUDİ ƏRƏBİSTAN .......... 220
YƏMƏN .......... 264
KÖRFƏZİN ƏRƏB ƏMİRLİKLƏRİ .......... 309
Küveyt .......... 309
Bəhreyn .......... 329
Qatar .......... 348
Birləşmiş Ərəb Əmirlikləri .......... 365
Oman .......... 382

**Mətbəənin direktoru:**
Fuad HÜSEYNOV

**Texniki redaktor:** Azər RƏSULOV

**Korrektor:** Cavid RƏSULZADƏ

**Tərtibatçı:** Əhməd ƏLİYEV

*Kitab* AFPoliqrAF *mətbəəsində çap olunmuşdur*

Yığılmağa verilmişdir: 04.06.2013
Çapa imzalanmışdır: 05.07.2013
Şərti çap vərəqi: 25
Formatı: 70x100 $^{1}/_{16}$
Tiraj: 300